İbrahim Zöhrab oğlu Quliyev

Hədis mənbələrində müqəddəs şəhərlərin tarixi

BAKI -2012

Elmi redaktorlar:
Möhsün Nağısoylu
akademik

Şahin Fərzəliyev
tarix üzrə elmlər doktoru, professor

Rəyçilər:
Kamandar Şərifov
filologiya üzrə elmlər doktoru, professor

Fuad Nurullayev
fəlsəfə üzrə fəlsəfə doktoru

Şahlar Şərifov
ilahiyyat üzrə fəlsəfə doktoru, dosent

Oxuculara təqdim edilən kitabda müəllifin əsasən uzun illərdən bəri tədqiqat apadığı və ziyarətində olduğu müqəddəs şəhərlərin tarixi və onların fəzilətləri haqqında deyilmiş hədislərə üstünlük verilmişdir. Bununla yanaşı, adı çəkilən şəhərlərin İslam tarixində oynadığı rol, onların salındığı dövrdən bu günə kimi olan tərəqqi-tənəzzül dövrləri qədim və müasir hədis və tarixi mənbələr əsasında araşdırılmışdır. Həmçinin kitabda müqəddəs şəhərlər xalqımız tərəfindən həmişə ziyarət olunduğu üçün İslamda ziyarət mədəniyyəti, ziyarətin səbəbləri və qaydaları haqqında da məlumata yer verilmişdir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitab QMİ Bakı İslam Universitetinin Pedaqoji şurasının 05 oktyabr 2012-ci il 06 saylı qərarına əsasən nəşr edilmişdir.

GİRİŞ

Artıq XXI əsrdə yaşayırıq. Bu dövr dünya tarixinin ən müasir və içərisində yaşadığımız dövrüdür. XXI əsrdə insan şüurunun inkişaf etməsi nəticəsində texnologiya sahəsində yeni nailiyyətlər əldə edilmiş, insanlar səma cismlərinin tədqiqinə aid dəyərli məlumat öyrənmiş və öz həyat şəraitlərində yeni elmi təcrübələrdən faydalanmışlar. Elmi texnologiya sahəsinin son dərəcə inkişaf etməsi insanlar arasındakı ən uzaq məsafəni yaxınlaşdırmış, ən uzaq qitələrdə yaşayanları belə bir neçə saat ərzində bir yerə toplamışdır. Elm və texnologiyanın bu dərəcədə inkişaf etməsi insanlararası münasibətlərə də şübhəsiz ki, öz təsirini qoymuşdur. Belə olduğu təqdirdə, insanların birgə qeyd etdikləri dini ayin və kütləvi ibadət formaları öz əhəmiyyətindən nisbətə doğru yeni dəyişikliyə məruz qalmışdır.

Məlumdur ki, İslamda ziyarət, xüsusilə də həcc ziyarəti kütləvi və birgə icra edilən ibadət formasıdır. Bu ibadətə dünyanın hər yerindən gələn müsəlmanlar əməl etməkdədirlər. Əgər orta əsrlər dövründə həcc ayininə yalnız Yaxın Şərq regionunda yaşayan xalqlar əməl edirdilərsə, müasir dövrdə isə bu vacib ayinə dünyanın hər yerindən gələn müsəlmanlar əməl edirlər. Artıq müasir dövrdə texnologiyanın inkişafı ilə əlaqədar olaraq altı qitənin hər bir yerindən dəst-dəstə müsəlmanlar həcc vaxtı müqəddəs Məkkə torpağına toplaşırlar. Bu da təbiidir ki, həccin müasir əhəmiyyətindən xəbər verir. Çünki, əgər orta əsrlər dövründə bu ayin üçün yalnız bir qitədən gələrdilərsə, indi isə bütün dünyanın hər yerindən gəlməklə müsəlmanların arasında münasibətlər sisteminə müəyyən təsirlər edilməkdədir. Deməli, dünyanın hər yerindən insanların bir araya toplanması onların arasında müyyən münasibətlər yaradır ki, bu da təbii ki, müsəlmanların mədəniyyətinin yayılmasına, təbliğ olunmasına və dünyaya inteqrasiya edilməsinə şərait yaradır. Həmçinin dünyanın hər bir bölgəsindən gəlib təxminən bir ay bir yerdə olmaq eyni zamanda müsəlmanların sosial və siyasi həyatlarına da mühüm təsir göstərməkdədir. Müxtəlif təbəqələrdən olan müsəlmanların Məkkəyə cəm olmaları onların bir-birinə də müəyyən təsirlərinin olduğunu aşkar edir. Belə ki, müxtəlif təbəqələrdən olan insanlar bir-birini həm siyasi cəhətdən, həm mədəni cəhətdən, həm iqtisadi cəhətdən, həm də digər cəhətlərdən zənginləşdirir, məlumatlandırır və problemlərini həll edirlər. Eyni zamanda, müsəlmanlar arasında olan məzhəb və əqidə müxtəlifliyi də dünyanın qlobal problemləri müqabilində birləşib, birlikdə fəaliyyət göstərməsinə zəmin yaradır. Təbii ki, bu da müasir dünyada Kəbə evinin ziyarətinin əhəmiyyətini daha da artırır. Sanki beynəlxalq toplantı xarakterini almış həcc ayini, müasir müsəlmanların bütün həyatlarının müxtəlif sahələrinə öz mühüm təsirini göstərməklə əhəmiyyətini artırmaqdadır.

Bütün bu dediklərimizi digər müqəddəs məkanlara da şamil etmək olar. Çünki həmin müqəddəs yerlərdə də insanlar ziyarət ayinini birlikdə icra edir, dünyanın müxtəlif bölgələrindən gəlib bir araya toplaşırlar. Buna görə də müqəddəs şəhərlərin tarixini öyrənmək İslam tarixşünaslığı baxımından da çox ciddi və aktual əhəmiyyətə malikdir. Çünki müqəddəs şəhərlərin tarixini öyrənməklə biz, eyni zamanda, müsəlman dünyasında İslamın yayılmasını, İslam mədəniyyətinin həmin şəhərlərdə və ətraf regionlarda təşəkkül tapmasını, habelə, İslam elmi-fəlsəfi mədəniyyətinin tarixi inkişaf yollarını da öyrənmiş oluruq. Buna görə də bütün dövrlərdə yaşamış alimlər, tədqiqatçılar bu mövzuya toxunmuş, mövzunun aktual əhəmiyyətini ortaya qoymuşlar.

Bizim ölkəmiz üçün də mövzunu son dərəcə əhəmiyyətli və aktual hesab edirik. Çünki Məkkə başda olmaqla digər müqəddəs şəhərlərin, xüsusilə Peyğəmbərimizin və onun Əhli-beytinin qəbirlərinin ziyarət olunması qədimdən indiyənədək xalqımızın diqqət mərkəzində olmuşdur.

İslama görə müqəddəs hesab edilən şəhərlərin hörmətini qorumaq, şəhidlərin dəfn edildikləri yerin hörmətini saxlamaq hər bir müsəlmanın mənəvi borcudur. Məkkə və Mədinə şəhərləri ilə yanaşı, İmam Əlinin, İmam Hüseynin və digər Əhli-beyt şəhidlərinin məqamı Allah yanında uca olduğundan onların dəfn olunduqları yerləri də mübarək saymaq, onlara ehtiram qoymaq lazımdır. Bundan başqa, adı keçən şəhərlərin İslam tarixində oynadığı rolu bilmədən, həmin şəhərlərdə baş verən prosesləri incələmədən İslamın həqiqi tarixinə bələd olmaq çətin olacaqdır. Buna görə də kitabda həmin şəhərlərin tarixinə də diqqət yetirilmişdir.

Kitabda qeyd etdiyimiz rəvayətlər onu göstərir ki, bu mövzu ilə əlaqədar nəql olunan hədislər saysız-hesabsızdır. Həmin hədislər bütün hədis mənbələrində rəvayət edilmişdir. Bu hədislərin haqqında Cənubi Azərbaycan alimi Əllamə Məhəmmədhüseyn Təbatəbai (1902-1983) yazırdı: “Bu

rəvayətlər nə məna, nədə ki, ləfz baxımından təvatür həddinə yetişməyən ahad xəbərlərdir. Ancaq bunlar dini məlumat baxımından faydasız da deyillər. Qısası, bunlar rədd də edilməz."[1]

Buradan belə başa düşmək olur ki, şəhərlərə aid hədislərin bir hissəsi səhih (doğru) deyil. Amma bunu da unutmamaq lazımdır ki, əvvəla, hədisin zəif olması onun tamamilə rədd edilməsinə, kənara atılmasına dəlil deyildir. İkincisi, əgər zəif hədislər əqidəvi məsələlərdə deyil, əxlaqi, tarixi və müqəddəs şəxslərin və ya məkanların fəzilətləri haqqındadırsa, o hədisləri nəql etməyin heç bir qəbahəti yoxdur.[2] Əksinə, burada oxucu mövzu ilə bağlı məlumatı qeyd edilmiş rəvayətlərdən əldə edə bilir. Həmçinin bu hədislərin bir çoxu möcüzəvi mahiyyət daşıyıb, insan idrakı tərəfindən dərk edilməyə də bilər. Bu məsələyə Qurani-Kərimdə də işarələr vardır. Məsələn, **"Sizin üçün heyvanlardan səkkiz cift endirdi"**[3] və ya **"Dəmiri endirdi**"[4] ayələrini göstərmək olar. Bunlardan əlavə, bu növdən olan rəvayətlərin sənədlərinin mükəmməl olmaması da yenə onların silinib atılmasına dəlil ola bilməz. Çünki rəvayətlər özləri bir neçə növdür. Bunlardan bir qrupu Quran və səhih sünnəyə ziddir. Əlbəttə ki, belə rəvayətlər atılmalıdır. Digər qrup rəvayətlər isə nə rədd olunar, nə də qəbul. Çünki bunların rədd və ya qəbul edilməsi haqqında dəlilimiz yoxdur. Üçüncü qrup rəvayətlər isə, tam məqbul rəvayətlərdir.

Buna görə də kitabda rast gəlinən bəzi zəif hədislər oxucuları çaşdırmamalı, əksinə, onlara müqəddəs şəhərlər və oradakı ziyarətgahlar haqqında daha da dolğun məlumat vermək mahiyyətindədir.

Kitabda qeyd edilmiş hədislər bütövlükdə Məkkə şəhərinin fəzilətlərini, Kəbə evinin Allah yanındakı şərəfini, Peyğəmbərin və Əhli-beyt imamlarının yüksək məqamlarını insanların diqqətinə çatdırmaqdadır. Uca Allahın bu məkanları və orada uyuyan şəxsləri tərif etməsi əlbəttə ki, biz müsəlmanlar üçün mənəvi haldır.

Bundan əlavə, kitabda qeyd edilmiş hədislər Qurani-Kərim ilə heç bir ziddiyyət təşkil etmir, əksinə, Məkkəyə və oradakı müqəddəs məkanlara, habelə Peyğəmbər və onun soyundan olan müqəddəs şəxslərə aid ayələri daha da təkidləndirir və izah edir.

Bütün bu deyilənlərin fonunda onu da qeyd etmək istəyirik ki, mövzu ilə bağlı bir çox məqalə və kitabçalar yazılmışdır. Amma mövzu ölkəmizdə indiyədək hədisşünaslıq və mənbəşünaslıq cəhətdən fundamental, elmi sistemli şəkildə, kitab formasında və geniş oxucu kütləsi üçün diqqəti cəlb edəcək səviyyədə araşdırılmamışdır.

Əlinizdəki kitab on fəsildən, hər bir fəsil isə bir neçə yarımfəsildən ibarətdir.

Beləliklə, kitabın I fəsli **"Məkkə şəhəri"** adlanır. Burada **"Məkkə sözünün mənaları", "Məkkənin coğrafi mövqeyi", "Məkkənin qısa tarixi", "Məkkə yer kurəsinin mərkəzidir", "Məkkədə ilk yaşayan şəxs", "Məkkə şəhərinin adları", "Kəbə sözünün mənaları", "Kəbənin tikilmə tarixi", "Kəbəni mələklər tikib", "Kəbəni Adəm tikib", "Şis bin Adəm tikib", "İbrahim peyğəmbər tikib", "Kəbənin sonrakı dövrlərdəki təmiri", "Kəbənin örtüyü", "Kəbənin vəsfi və fəzilətləri", "Məkkə şəhərinin fəzilətləri", "Peyğəmbərin Məkkədəki möcüzələri", "Kəbənin tarixinə aid ən mühüm hadisələr", "Məkkə (Kəbə) Qurani-Kərimdə", "Məkkədə nazil olmuş surələr", "Kəbə evini ziyarət etməyin əhəmiyyəti", "Kəbə ziyarətinin adabı və qaydaları", "Həccin vacib olma şərtləri", "Həccin növləri"** adlı iyirmi dörd yarımfəsil vardır.

Kitabın II fəsli **"Mədinə şəhəri"** adlanır. Burada **"Mədinə sözünün mənaları", "Mədinə şəhərinin adları", "Mədinə şəhərinin coğrafi mövqeyi", "Mədinənin tarixi", "Mədinədə ilk İslam dövlətinin qurulması", "Mədinənin fəzilətləri", "Mədinədə tikilmiş müqəddəs yerlər", "Mədinədə baş vermiş İslam müharibələri", "Mədinənin quyuları"** adlı doqquz yarımfəsil vardır.

[1] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. 20 cilddə. I c. Bakı, Qələm nəşriyyatı, 2011. s. 466.

[2] Zəif hədisin tərifi, meydana gəlməsi səbəbləri və ona əməl edilib-edilməməsi haqqında geniş məlumat əldə etmək üçün bax: İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013. s. 633-669.

[3] Zümər surəsi, ayə 6.

[4] Hədid surəsi, ayə 25.

Kitabın III fəsli **"Qüds şəhəri"** adlanır. **Burada "Qüds sözünün mənaları", "Qüds şəhərinin adları", "Fələstinin tarixi", "Fələstinin sahəsi", "Fələstinin əhalisi", "Qüds şəhərinin tarixi", "Qüds şəhərinin fəziləti"** adlı yeddi yarımfəsil vardır.

Kitabın IV fəsli **"Kufə şəhəri"** adlanır. Burada **"Kufə sözünün mənaları", "Kufə şəhərinin adları", "Kufə şəhərinin tarixi", "Kufədə meydana gəlmiş elmi mərkəzlər", "Kufə şəhərinin fəzilətləri"** adlı beş yarımfəsil vardır.

Kitabın V fəsli **"Nəcəf şəhəri"** adlanır. Burada **"Nəcəf sözünün mənaları", "Nəcəf şəhərinin adları", "Nəcəf şəhərinin tarixi", "Nəcəfdə dəfn edilmiş səhabələr", "Nəcəfül-əşrəfin fəzilətləri və İmam Əlini ziyarət etməyin savabı", "İmam Əlinin qəbrinin Nəcəfdə olmasının sübutu", "İmam Əlinin nəsil şəcərəsi", "İmam Əlinin doğumu", "Əbu Talibin müsəlman olması", "Quran və hədisdə İmam Əlinin şəxsiyyət və fəzilətləri", "Qədirxum hədisi", "Quş hədisi", "İmam Əlinin fəzilətinə dair başqa hədislər", "İmam Əlinin hicrət etməsi", "İmam Əlinin evlənməsi və övladları", "İmam Əlinin cihadı", "İmam Əlinin elmi üstünlükləri", "İmam Əlinin möcüzələri", "İmam Əlinin imamət və xilafəti", "İmam Əli Peyğəmbərin vəfatından sonra", "İmam Əlinin xəlifə seçilməsi", "İmam Əlinin şəhid edilməsi", "İmam Əli özündən əvvəlki xəlifələrin dilində"** adlı iyirmi üç yarımfəsil vardır.

Kitabın VI fəsli **"Kərbəla şəhəri"** adlanır. Burada **"Kərbəla sözünün mənaları", "Kərbəlanın adları", "Kərbəlanın tarixi", "Kərbəla hadisəsi", "Kərbəla hadisəsinin peyğəmbərlərə bildirilməsi", "Mələklərin Kərbəla hadisəsini qabaqcadan bilmələri", "Quran və hədisdə İmam Hüseynin fəzilət və şəxsiyyəti", "Yezidin nəsəbi, şəxsiyyəti və cinayətləri", "Kərbəlanın fəzilətləri və İmam Hüseyni ziyarət etməyin savabı",** "**Hədisi-şəriflərdə İmam Hüseynə ağlamağın savabı", "İmam Hüseynlə birlikdə şəhid olan şəxslər", "Kərbəla hadisəsindən sonra baş vermiş qiyamlar", "İmam Hüseynin düşmənlərinin başına gələnlər"** adlı on üç yarıfəsil vardır.

Kitabın VII fəsli **"Kazimeyn şəhəri"** adlanır. Burada **"Kazimeyn şəhərinin qısa tarixi", "İmam Museyi-Kazim və İmam Məhəmməd Təqinin həyat və fəaliyyətləri", "Kazimeyni ziyarət etməyin savabı"** adlı üç yarımfəsil vardır.

Kitabın VIII fəsli **"Xorasan** (Məşhəd) **şəhəri"** adlanır. Burada **"Xorasan sözünün mənaları", "Xorasan şəhərinin tarixi", "Xorasanın İslam elmlərinin inkişafında rolu", "Xorasanı (İmam Rzanı) ziyarət etməyin savabı", "İmam Rzanın məqbərəsi (Asitane-Qüds)", "İmam Rzanın həyatı", "İmam Rzanın fəzilətləri", "İmam Rzanın kəramətləri", "Abbasilər dövlətinin qurulması", "Xəlifə Məmunun şəxsiyyəti", "Xəlifə Məmunla İmam Rzanın münasibətləri və xilafətin İmam Rzaya verilməsi", "İmam Rza Məmunun məclisində", "İmam Rzanın ideoloji və iqtisadi islahatları", "İmam Rzadan rəvayət edənlər", "İmam Rzanın əsərləri", "İmam Rzanın bəzi hədisləri"** adlı on altı yarımfəsil vardır.

Kitabın IX fəsli **"Qum şəhəri"** adlanır. Burada **"Qum sözünün mənaları", "Qum şəhərinin tarixi", "Qum şəhərinin fəzilətləri", "Fatimə bint Musa əl-Kazimin həyatı", "Fatimə əl-Məsumənin rəvayətləri"** adlı beş yarımfəsil vardır.

Kitabın X fəsli **"Samerra şəhəri"** adlanır. Burada **"Samerra şəhərinin qısa tarixi", "İmam Əli ən-Nəqi və İmam Həsən əl-Əskərinin həyat və fəaliyyətləri", "Samerra şəhərini ziyarət etməyin savabı"** adlı üç yarımfəsil vardır.

Kitabda konkret olaraq hədis və tarixi mənbələr əsasında müqəddəs şəhərlər, onların salınma tarixi, İslam tarixindəki rolu, həmin şəhərlərdə dəfn edilmiş mübarək şəxslər, onların fəzilətləri, islam tarixində oynadığı rollardan bəhs edilmişdir. Bu məqsədə nail olmaq üçün kitabda aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- İslamda ziyarət mədəniyyəti, əhəmiyyəti və ziyarət etməyin qaydaları;
- Məkkə şəhərinin bəşər mədəniyyəti tarixindəki rolu, Quran və hədisdəki fəzilətləri, Məkkədə nazil olmuş Quran surələri, Kəbənin tikilməsi, islam tarixində oynadığı rol, Kəbə ziyarətinin növləri və ziyarətin qaydaları;
- Mədinə şəhəri, Peyğəmbərin hicrəti, Mədinənin fəzilətləri, islam tarixindəki əhəmiyyətli rolu, orada baş vermiş müharibələr və səbəbləri, Mədinədəki müqəddəs məkanlar və s.;

- Qüds şəhərinin İslamdan öncəki tarixi, tikilməsi, İslam tarixindəki rolu, fəziləti, müasir problemlərin meydana gəlməsi səbəbləri, beynəlxalq aləmdəki rolu və s.;

- Nəcəfül-əşrəf şəhəri, onun İslam tarixində oynadığı rol, İmam Əlinin həyatı, fəaliyyəti, fəzilətləri və s.;

- Kufə şəhəri, tarixi rolu, fəzilətləri və s.;

- Kərbəla şəhərinin tarixi dövrü, fəzilətləri, İmam Hüseynin İslam tarixindəki rolu və üstünlükləri, Kərbəla hadisəsinin meydana gəlmə səbəbləri, nəticələri, Kərbəlanı ziyarət etməyin savabı və fəzilətləri;

- Kazimeyn şəhərinin tarixi və orada uyuyuan İmamların fəzilətləri;

- Məşhəd şəhərinin fəzilətləri, İmam Rzanın elmi-dini və ictimai-siyasi fəaliyyəti, İslam düşüncəsindəki yeri və fəzilətləri;

- Qum şəhərinin tarixi rolu və fəzilətləri, orada dəfn edilmiş xanım Məsumənin həyatı və fəzilətləri;

- Samerra şəhərinin tarixi və orada dəfn edilmiş İmamların fəzilətləri;

Kitabın elmi yeniliyi ilk növbədə hədisi-şəriflər vasitəsi ilə müqəddəs şəhərlərin tarixini, onların islam tarixindəki rolunu öyrənmək, həmin şəhərlərdə meydana gəlmiş elmi-fəlsəfi mədəniyyətin inkişaf tarixi ilə tanış olmaq, müqəddəs şəxslərin həyat və fəaliyyətlərini yaxından tanımaq, ziyarətin adab və qayda-qanunlarını bilmək və mövzu ilə bağlı hədis və tarixi mənbələri tanıtmaqdır.

Oxuculardan irad və təkliflərini **quliyev.ibrahim.78@mail.ru** elektron ünvanına göndərməyi xahiş edirik!

I FƏSİL

MƏKKƏ ŞƏHƏRİ

1.1. Məkkə sözünün mənaları

Məkkə ərəb mənşəli sözdür. Onun lüğətdə bir neçə mənası vardır. Məkkənin çoxlu məna bildirməsinin əsas səbəbi isə, hansı kökdən əmələ gəlməsinə görədir. Bunu da nəzərə almaq lazımdır ki, Məkkə sözünün hansı kökdən yaranması dilçi və hədis alimlərinin nəzərində mübahisəlidir.

Məkkə sözü Qurani-Kərimdə Bəkkə kimi də qeyd edilmişdir.[1]

Beləliklə, Məkkə sözünün kökü və mənaları haqqında aşağıdakı fikirlər vardır:

Məkkə "bəkkə" sözündən əmələ gəlmiş və "zalımların boynunu bükmək" mənasındadır. Çünki bu ifadəni ərəblər "təbukku ənaqə əz-zalimə" kimi işlədirlər.[2]

Məkkə sözü "imtəkkə" felindən əmələ gəlmiş və "sorub qurutmaq" mənasında işlədilir. Məkkə sözünün bu mənada olduğunu deyən alimlər orada suyun az olduğunu nəzərə alıb Məkkəyə bu mənanı vermişlər.[3]

Məkkə sözü "təmukku" felindən əmələ gəlmiş və "təmukkül-cəbbarin", yəni "zülm edənlərin alçaldılması" mənasındadır.[4]

Əllamə Məclisiyə (1628-1700) görə, Məkkə sözünün bildirdiyi mənalardan biri də "insanların çox toplaşdığı yer" deməkdir.[5] Bundan başqa, müəllif Məkkə sözünün "məkkə" felindən əmələ gəldiyini və "həlak etmək", "naqisləşdirmək" mənalarını ifadə etdiyini də yazırdı.[6]

Bəzi tədqiqatçılara görə isə, Məkkə sözü "mükuk" kökündən əmələ gəlib və "iki hündür dağın arası" mənalarını bildirir.[7]

Məkkə sözünün bildirdiyi digər mənalardan biri də "günahkar insanın ağlayıb öz günahlarını bağışlatması"dır. Buna görə də "Məkkə günahların bağışlandığı yer" mənasındadır.[8]

1.2. Məkkənin coğrafi mövqeyi

Məkkə sözü hansı mənanı bildirmısindən asılı olmayaraq, hazırda şəhər adını daşıyır və müsəlmanların müqəddəs şəhərlərindən biridir. Məkkə "Bətni-Məkkə" adını daşıyan vadidə salınmış ən qədim şəhərdir.

Müqəddəs Məkkə şəhəri cənub-qərbi Asiyanın ən ucqar nöqtəsində yerləşən indiki Səudiyyə Ərəbistanının qərbində, Qırmızı dənizdən təxminən 70 km. şərqdə yerləşir.

Ərəbistan ərazisi həm təbii, həm də coğrafi baxımdan bir neçə hissəyə bölünür. Coğrafi baxımdan Ərəbistan beş hissədən ibarətdir:

1. Təhamə. Qırmızı dənizin sahilində yerləşən Yənbudan başlayaraq Nəcrana qədər uzanan düzənlik bir ərazini əhatə edir. Bura çox isti olduğuna və külək əsmədiyinə görə belə adlanır.

2. Hicaz. Mənası maniə deməkdir. Hicaz Yəmənin şimalı ilə Təhamənin şərq tərəfində yerləşib onları bir-birindən ayırır. Buna görə də o əraziyə belə bir ad verilib. Bu əyalətdə olan vadilərin arasında dağlar vardır ki, onların bəzilərinin hündürlüyü 2 km.-dən çoxdur.

3. Nəcd. Cənubdan Yəmənə, şimaldan isə Badiyətüs-səmaviyə qədər uzanır. Ərazisi hündür olduğuna görə ona bu ad verilmişdir.

4. Yəmən. Cənubda Nəcddən Hind okeanına qədər, qərbdə isə qırmızı dənizə qədər uzanan bir ərazidir.

---

[1] Ali İmran surəsi, ayə 96.

[2] İbn Kəsir. Təfsiru Quranil-əzim. 4 cilddə. I c. Küveyt, I çap, 1414/1994. s. 391; Yaqut əl-Həməvi. Möcəmül-büldan. V c. Beyrut, 1399/1979. s. 181; Bağır Şərif əl-Qürəşi. Həyatu-Muhəmməd. I c. I çap, 1423/2004. s. 23.

[3] Yaqut əl-Həməvi. Möcəmül-büldan. V c. s. 182; Bağır Şərif əl-Qürəşi. Həyatu-Muhəmməd. I c. s. 23.

[4] Əllamə əl-Hairi. Dairətül-məarif. 18 cilddə. XVII c. Beyrut, 1413/1993. s. 304.

[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. 110 cilddə. VI c. Beyrut, Məktəbətül-Vəfa, 1412/1992. s. 97.

[6] Əllamə əl-Məclisi. Biharül-ənvar. VI c. s. 105; Məhəmməd Bağır əl-Qürəşi. Həyatu-Muhəmməd. I c. s. 23.

[7] Məhəmməd Bağır əl-Qürəşi. Həyatu-Muhəmməd. I c. s. 23.

[8] Yaqut əl-Həməvi. Möcəmül-büldan. V c. s. 182.

5. Əruz. Onun mənası maniə deməkdir. Ərazi Yəmamə, Oman və Bəhreynə şamil olur. Bura Yəmən, Nəcd və İraqın arasında yerləşdiyinə görə belə adlanır.[1]

Ərəbistanın mərkəzi şəhərlərindən olan Məkkə Qırmızı dənizə yaxın olmaqla yanaşı, bir tərəfdən də Şam və Fələstin ticarət yolunun üstündə yerləşmişdir. Bundan əlavə, o Yəmənin ticarət yolunun üstündə olduğundan böyük strateji əhəmiyyət kəsb etmişdir.

Məkkə şəhəri şimaldan Fələstin, Suriya və İraq, cənubdan isə Yəmən və Efiopiya ilə həmsərhəddir.

Kəbənin Məkkədə yerləşməsi isə, oranı daha da mühüm mərkəzə çevirmiş və inkişafına güclü təkan vermişdir. Əslində Məkkə coğrafi ərazisinin görnüşünə görə heç də ürəkaçan deyildi. Şəhərdə heç bir yaşıllıq yoxdur. Bunun da səbəbi orada suyun olmaması və istinin çox olmasına görədir. Belə ki, orada istiliyin dərəcəsi +45° olur.

1.3. Məkkənin qısa tarixi

Məkkə şəhəri Ərəbistan yarımadasında yerləşən müqəddəs bir şəhərdir. Onun salınma tarixi elmə bəlli olmasa da, dini ədəbiyyatda, xüsusilə də hədis mənbələrində ilk insan məskəni olması haqqında məlumat vardır. Ərəbistan yarımadası qərbdən və cənubdan vulkanik dağlarla əhatə olunmuşdur. Bu yarımada Avropanın təxminən dörddə bir hissəsinə bərabərdir.

Dünya tarixçiləri Ərəbistan yarımadasından danışarkən, üstünlüyü daha çox cənub məntəqəsinə verirlər. Çünki bu bölgədə eramızdan 2000 il əvvəldən başlayaraq İslamın meydana gəlməsinə qədər bir çox ictimai-siyasi dəyişikliklər baş vermişdir. Təssüflər olsun ki, burada baş verən siyasi, dini, sosial və digər dəyişikliklər geniş şəkildə araşdırılıb öyrənilməmişdi. Əlbəttə, buna baxmayaraq, bir çox tarixçilər, şərqşünaslar və etnoqraflar az da olsa, bu haqda tədqiqatlar aparıblar. Bunlardan məşhur Danimarka səyyahı və tədqiqatçısı Nibur Kartsen (1733-1815) və fransalı Alevi Jozefi (1827-1917) qeyd etmək olar. N.Kartsen 1763-cü ildə Cənubi Ərəbistana səyahət edərək, ora göndərilən elmi ekspedisiyada iştirak etmişdir. O, "Ərəbistanın təsviri" əsərinin müəllifidir.

Ümumiyyətlə, XIX-XX əsrlərdə aparılan tədqiqatlar orada mövcud olmuş dövlətlər haqqında maraqlı məlumatı üzə çıxarmışdı. Bu məlumata görə, Ərəbistan yarımadasında Məin, Səba , Himyər, Qəssanilər dövlətləri olmuşdur.

Məin dövləti. Paytaxtı Qərnu olan Məin dövləti təqribən m.ö. 1500-cü ildən m.ö. 800-cü ilədək mövcud olmuşdur. Məin dövlətində daha çox ticarət inkişaf etmişdir.

Səba dövləti. Paytaxtı Mərib şəhəri olan Səba dövləti m.ö. 850-ci ildə meydana gəlmiş və m.ö. 115-ci ildə dağılmışdır. Mənbələrə görə, bu dövlətin dağılmasına məşhur Mərib bəndinin uçması təsir etmişdir. Səba dövlətinin nümayəndələri Hind okeanı ilə Qırmızı dəniz arasında mövcud olan ticarət yolunu ələ keçirmişlər. Qurani-Kərimdə iki yerdə bu dövlətin adı çəkilir. Birincisi "Nəml", ikincisi isə "Səba" surəsində. Oranın hakimlərinə mükərrəb deyirlərmiş.

Himyər dövləti. Bu dövlət m.ö. 115-ci ildə meydana gəlmiş, miladın 525-ci ilində süquta uğramışdı. Himyər dövləti qurulandan sonra Rum imperiyasının təcavüzünə məruz qalmışdı.

Qəssanilər dövləti. Bu dövlət Yəməndəki Mərib bəndi dağılandan sonra ərəb qəbilələri tərəfindən yaradılmış dövlət olmuşdur. Onlar Qəssan gölü ətrafında məskən saldıqlarına görə belə adlanır. Bəzi tarixçilər dövlətin 600 il, yəni İslam dininin meydana gəlməsinə kimi mövcud olduğunu qeyd edirlər.[2]

Məkkə şəhərinin çox mühüm tarixi əhəmiyyəti vardır. Bunu nəzərə alan müsəlman alimləri bütün dövrlərdə yazdıqları tarix, təfsir və hədis əsərlərində bu mövzuya xüsusi diqqət yetirmiş və Məkkənin tarixi haqqında bacardıqca dolğun məlumat verməyə çalışmışlar. Lakin təəssüflər olsun ki, Məkkənin tarixi elmi məlumatdan daha çox nəqli məlumat vasitəsilə öyrənilməkdədir.

Məkkənin tarixi inkişafını izləmək üçün əldə ən tutarlı qaynaq Qurani-Kərim və hədisi-şəriflərdir. İslam alimləri və Şərq tarixi ilə məşğul olan tədqiqatçılar Məkkənin tarixi haqqında çox dəyərli əsərlər yazmışlar. Onlardan Əbdülvəlid əl-Əzrəqinin "Əxbaru-Məkkə", İ.Uzunçarşlının

[1] Seyid Cəfər Şəhidi. İslam tarixi və təhlillər. Tərc.: Arif Əliyev. Bakı, Məhdiyyə nəşriyyatı, I çap, 2000. s. 10-11.

[2] Geniş məlumat üçün bax: Rafiq Əliyev. İslam. Bakı, Əbilov, Zeynalov və oğulları nəşriyyatı, II çap, 2004. s. 20-25; Seyid Cəfər Şəhidi. İslam tarixi. s. 12-20; Anri Masse. İslam. Bakı, 1964. s. 20-23.

“Məkkeyi-Mükərrəmə və əmirləri” əsərlərini göstərmək olar. Bundan əlavə, orta əsrlər müəlliflərindən olan Məhəmməd bin Cərir ət-Təbəri (838-923), Əhməd bin Yəhya əl-Bəlazuri (öl. 892), İbn Əsir əl-Cəzəri (1160-1233), İbn Xəldun (1332-1406) və başqaları öz əsərlərində Məkkənin tarixinə aid dəyərli məlumat vermişlər. Yenə də bu məlumatın hamısı rəvayət xarakterli olub tam elmi təsəvvür yaratmır.

Məkkənin tarixi şəhər olduğu və ilk insanın bu bölgədə yaşaması Qurani-Kərimin ayəsində öz əksini tapmışdir. Belə ki, Uca Allah buyurur: **“Həqiqətən insanlar üçün ilk bina olunan ev Bəkkədəki evdir ki, o bütün aləmlərdən ötrü bərəkət və hidayət qaynağıdır.”**[1]

Ayədən belə qənaətə gəlmək mümkün olur ki, bəşəriyyət tarixində insanlar üçün ibadət məqsədilə ilk inşa edilən ev məhz Məkkədəki Kəbə evidir. Bu da onu göstərir ki, Məkkə ilk insanın yaşayış məskəni olmuş və onun tarixi insanların yaranma tarixi ilə üst-üstə düşür. Həmçinin yuxarıdakı ayədən belə məlum olur ki, Məkkə şəhərinin ilkin adı Bəkkə olmuşdur. Bu görüşü XX əsrin iki böyük Quran təfsirçisi Əllamə Təbatəbai Təbrizi (1904-1981) və Məkarim Şirazi (doğ. 1926) də qəbul edirlər. Belə ki, hər iki təfsirçi yazır: “Bəkkə sözü “bək” kökündən olub bir yerə toplaşmaq mənasını daşıyır. Kəbə evinə Bəkkə deyilməsi orada xalqın toplaşması səbəbindəndir.”[2] Qeyd edək ki, bu fikri digər alimlər də qəbul edirlər.[3]

Hədis mənbələrində Məkkənin Bəkkə adlanmasının səbəbinə gəldikdə isə, qeyd edək ki, görkəmli hədisşünas Şeyx Səduq (917-991) belə rəvayət edir: “İnsanlar Məkkənin ətrafında toplaşıb ağladıqları üçün Bəkkə adlanır.” Alim başqa bir rəvayətdə isə belə deyildiyini yazırdı: “İnsanlar Məkkədə bir-birlərini ayaqladıqları üçün Bəkkə adlanır.”[4]

Həmçinin Əllamə Təbatəbainin fikrincə, Bəkkə sözü elə Məkkə sözüdür ki, “bə” hərfi “mim” hərfinə çevrilmişdir. O, yazırdı: “Mənim fikrimcə, Bəkkə izdihamlı halında olub, toplanıb sıxışmaq mənasındadır.”[5]

Hədis mənbələrində qeyd edilir ki, “Bəkkə Kəbənin yerləşdiyi yer, Məkkə isə onun ətrafıdır.”[6]

İmam Baqirdən rəvayət olunur: “Məkkəyə Bəkkə deyilməsinin səbəbi, orada kişilərin və qadınların bir araya toplanmalarına görədir. Orada qadınlar sənin önüdə, sağında, solunda və sənin lə birlikdə namaz qılar və bunun heç bir qəbahəti yoxdur. Amma başqa yerlərdə belə etmək doğru deyildir, məkruhdur.”[7]

Bəzi hədis mənbələrində yer üzündə Kəbədən əvvəl tikili olduğu, lakin Kəbənin ilk bərəkətli və müqəddəs ev kimi qurulduğu haqda hədislər də vardır. Belə ki, İmam Əlidən soruşulur: “Kəbə dünyada qurulan ilk evdir?” Həzrət buyurur: “Xeyr, ondan öncə də evlər vardı. Ancaq Kəbə insanlar üçün qurulan bərəkətli, ilk müqəddəs evdir. Onda hidayət, rəhmət və bərəkət vardır. Onu ilk dəfə İbrahim , sonra isə Cürhüm qəbiləsinə mənsub bir ərəb inşa etmişdi. Kəbə bir müddət sonra dağıldı. Bu dəfə isə onu Əmaliqələr inşa etdilər. Sonra təkrar dağıldı. Bu dəfə də Qüreyş Kəbəni təmir etdi.”[8]

Həmçinin Cəlaləddin Süyuti (1445-1505) rəvayət edir: “İbn Münzir və İbn Əbu Hatəm Şəbi vasitəsi ilə Əli bin Əbu Talibdən belə nəql edirlər: “O, **“İnsanlar üçün ilk qurulan ev”,** ayəsi haqqında buyurdu: “Ondan öncə evlər vardı. Ancaq Allaha ibadət məqsədilə qurulan ilk evdir.”[9]

---

[1] Ali İmran surəsi, ayə 96.

[2] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. 20 cilddə. III c. Tərc.: V.Məmmədəliyev və M.Ağaverdiyev. Bakı, Qələm nəşriyyatı, 2012. s. 509; Məkarim Şirazi. Təfsiri-nümunə. 27 cilddə. V c. Tərc.: Qiraət kitab mağazası. Bakı, I çap, 2000. s. 15.

[3] Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 363.

[4] Şeyx əs-Səduq. Mən la yəhzuruhül-fəqih (əl-Fəqih). 4 cilddə. II c. Beyrut, I çap, 1420/2000. s. 255. Hədis № 2119-2120.

[5] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 555; Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 363.

[6] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 349; VI c. s. 363; Şeyx əs-Səduq. İlələüş-şərai. s. 398. 137-ci fəsil.

[7] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 555.

[8] İbn Şəhraşub. Təfsirül-bürhan. I c. s. 301; Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 555.

[9] Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. 8 cilddə. II c. Beyrut, Darül-fikir, 1432/2001. s. 265; Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 555.

Hədis mənbələrindən də aydın olduğuna görə, Məkkə şəhərini müqəddəs bir məkana çevirən şübhəsiz ki, oradakı Kəbə evidir. Əksər hədis mənbələri Kəbənin həzrət Adəmin əli ilə tikildiyini qeyd edir. XX əsr İslam alimi mərhum Əllamə Hairi bu haqda yazırdı: "Həzrət Adəmə həccin əməlləri tövbəsinin qəbul olunması üçün öyrədilmişdir. Cəbrail Adəmə nazil olub dedi: "Ey Adəm! Allah sənə salam göndərir və deyir: "Ey tövbəkar Adəm! Sənin tövbəni qəbul edəcək və səni paklayacaq mənasiki (həcc əməllərini) öyrən."[1]

Bir hədisdə belə deyilir: "İbn Əbilövca Məkkəyə daxil olub hacılara rixşəndli və inkaredici suallar verirdi. Alimlər isə onun suallarına ikrah edərdilər. Çünki onun dili çox acı, qəlbi isə fitnə-fəsadla dolu idi. O, İmam Cəfər Sadiqin yanına gəlib oturdu. Camaatın nəzəri onda idi. Sonra o, İmama dedi: "Ey Əba Abdullah! Həqiqətən məclislər orada sual verən hər bir şəxs üçün əmanət yeridir. Mənə icazə verirsənmi ki, sual edim?" İmam buyurdu: "Nə istəyirsən soruş." İbn Əbilövca dedi: "Bu insan topluluğu nə vaxtdan başlayıb? Bu daşa nə vaxtdan sığınırlar? Bu palçığa suvanmış və ucaldılmış evə nə vaxtdan ibadət edirlər? Əgər bir nəfər bu işlər barəsində düşünsə, ona bəlli olacaqdır ki, bu işlər hikmətli olmayan və qeyri-nəzər sahibi tərəfindən əsası qoyulmuş işlərdir. Buna cavab ver! Çünki sən bu işin rəhbəri və bu qövmün şərəflisisən. Atan isə onun nizam-intizamını qoyanlardandır."

İmam onun suallarının və rixşəndli sözlərinin cavabında buyurdu: "Həqiqətən Allah kimi yoldan azdırıbsa və kimin qəlbini kor edibsə, o, haqqı görə bilməz, ona sığınacaq verilməz, şeytan onun rəhbəri olar və həlak yoluna qədəm qoyar. Sonra onun qəlbi haqqa dönməz.

Bu evi Allah yaratdıqları üçün ibadətgah etmiş, ora gəlməklə insanların əməllərini seçmiş, onun əzəmətinə və ziyarətinə onları təşviq etmiş, onu peyğəmbərlərin məhəlləsi etmiş və itaətkarların qibləsi qərar vermişdir. O Allahın razılığından bir hissədir. O Allahın bağışlamasına əncam verir, təkamülə səbəb olur, onda əzəmət və cəlal toplanmışdı. Allah onu yer üzünü yaratmamışdan iki min il əvvəl yaratmışdı."[2]

Hədis mənbələrindən əldə etdiyimiz rəvayətlər onu göstərir ki, bəşər mədəniyyətində ilk inşa olunan məbəd Məkkədə yerləşən Kəbə evidir. Müasir Quran təfsirçisi Məkarim Şirazi bunu açıqlayarkən yazır: "Kəbə birinci tovhid evidir və yer üzündə ən qədim məbəddir. Ondan qabaq Allaha ibadət və pərəstiş etmək üçün heç bir mərkəz, heç bir ev olmamışdır. O elə bir evdir ki, bəşəriyyət aləminin faydalanması üçün bərəkətli məkanda, habelə ictimai mərkəz nöqtəsində qərar verilmişdir."[3]

Şübhəsiz ki, Kəbənin ilk bina olması və bəşər mədəniyyətinin məhz oradan başlanması inkarolunmaz tarixi gerçəklikdir. Bununla yanaşı, ilk insan və bəşəriyyətin atası həzrət Adəmin tövbəsinin bu məkanda qəbul edilməsi, həcc ayinlərinin Cəbrail tərəfindən ilk olaraq Adəmə bu məkanda öyrədilməsi, bəzi terminlərin Adəmin dövrünə aid olması Kəbənin ilk bina olmasına çox qüvvətli dəlillərdəndir. Hətta Quranda bəzən ilin qədim peyğəmbərlərin dövründə həcc adı ilə adlanması həccin qədim tarixindən xəbər verməkdədir. Məsələn, **"**[Şüeyb] **dedi: səkkiz il** (həcc) **mənə xidmət etmək** (qoyunlarımı otarmaq) **şərtilə qızlarımın birini sənə verərəm."**[4] Göründüyü kimi, ayənin orijinalında keçən il kəlməsi "həcc" termini ilə ifadə edilmişdir. Bunun səbəbi isə ilin həcc mövsümü ilə birlikdə davam etməsinə görədir.

Əllamə Məclisi (1628-1700) İmam Baqirdən belə rəvayət edir: "Allah Ərşin altına dörd sütun qoymuşdur. Sonra mələklərə yer üzündə onlara oxşayan bir ev tikmələrini əmr etdi. Tufan olan zaman o evi qaldırdı. Peyğəmbərlər onu ziyarət edirdilər. Allah İbrahimə onun yenidən beş dağdan gətirilmiş materialdan tikilməsini əmr etdi. Həmin dağlar Hira, Sübeyr, Livan, Tur və Xəmir dağları idi." [5] Müəllif sonra bu hədisdə keçən Livanın Şamda, Xəmirin isə Qüdsdə dağ olduqlarını açıqlayır.[6]

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 531.
[2] Həmin mənbə. XV c. s. 188.
[3] Məkarim Şirazi. Təfsiri-nümunə. V c. s. 13.
[4] Qəsəs surəsi, ayə 27.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XIV c. s. 341; Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 365.
[6] Həmin mənbələr.

Hədis mənbələrində Yer kürəsinin yaradılmasının Kəbənin altından başlanması haqqında məlumat vardır. Bu haqda İmam Baqir buyurur: "Allah yer üzünü yaratmaq istədikdə küləklərə əmr etdi. Onlar suya toxundular. Sular dalğalanmağa başladı. Beləcə, suyun üzərində bir qaymaq kimi köpük təbəqəsi oldu. Uca Allah bunu Kəbənin yerləşdiyi yerdə topladı. Onu bir köpük dağı halına gətirdi. Yeri onun altına yaydı, **"insanlar üçün ilk qurulan ev Bəkkədəki evdir",** ayəsi də buna işarə edir. Bir sözlə yer üzünün ilk yaradılan parçası Kəbədir. Yer üzünün geri qalan qismi ondan dartılıb yayıldı."[1]

Bu hədisin oxşar mənası Peyğəmbərdən də nəql edilmişdir. Belə ki, o, buyurmuşdur: "Yer üzü Məkkədən genişləndi. Allah yeri onun altından dartıb genişlətdi və beləliklə, Ümmül-qura (şəhərlər anası) adlandı. İlk yaradılan dağ isə Əbu Qübeys dağıdır. Kəbəni ilk təvaf edən mələklərdir. Onlar Adəm yaranmamışdan iki min il əvvəl oranı təvaf etmişlər. Səmada elə bir mələk yoxdur ki, onun hacəti olduqda Allah onu Yer üzünə göndərməsin. O mələk ərşin altında qüsl edir, ehram paltarı geyinir, Allahın evinə yollanır orada yeddi təvaf edir, məqamın arxasında iki rükət namaz qılır, sonra isə öz hacətini istəyir. Elə bir peyğəmbər olmamışdır ki, camaatı onu inkar etdikdə, Məkkəyə pənah gətirməsin. Öz ümmətindən qaçan hər bir peyğəmbər mütləq Məkkəyə qaçar, orada Allaha ibadət edərdi. Kəbənin ətrafında üç yüz peyğəmbər vardır. Rüknu-Yəmani ilə Rüknu-Əsvədin arasında yetmiş Peyğəmbərin qəbri vardır. Onların hamısı ya aclıqdan, yaxud da bit səbəbindən vəfat etmişlər. Məkkəni ziyarət etməyən heç bir peyğəmbər, mələk, göy və yer əhli yoxdur."[2]

Butün bu və ya digər rəvayətlər onu göstərir ki, Məkkənin əhəmiyyəti Kəbə evinin orada yerləşməsinə görədir .

Məkkənin tarixində ən parlaq dövrlərdən biri, bəlkə də ən birincisi onun İslam ordusu tərəfindən fəth edilməsi olmuşdur. Belə ki, 630-cu ilin yanvar ayında (hicrətin 8-ci ilinin ramazan ayı) Məkkə şəhəri Peyğəmbərin rəhbərliyi altında döyüşsüz fəth edildi. Mənbələrin verdikləri məlumata görə, Peyğəmbər on minlik ordu ilə Məkkəyə gəlmiş və bu işdən kimsənin məlumatı olmasın deyə döyüş planını tam məxfi saxlamışdır.[3]Məkkənin böyüklərindən və Peyğəmbərin ən qəddar düşmənlərindən olan Əbu Süfyan İslam ordusunun çoxluğunu və qüdrətini görüb onlarla döyüşməyin mənasız olduğunu bilmiş və Peyğəmbərin əmisi Abbasın vasitəsilə İslamı zahirdə də olsa qəbul etmişdi. Peyğəmbər onun və evinə sığınanların amanda olduqlarını elan etdi. İslamı çarəsiz qəbul etmiş bu şəxslər sonradan Peyğəmbər tərəfindən "tüləqa" (azad edilmişlər) adlandırıldılar. Əbu Süfyan ömrü boyu İslamın əleyhinə olmuş şəxslərdən idi. Onun haqqında qaynaqlar yazırdı: "Əbu Süfyan İslamı ləğv etmək və müsəlmanları yox etmək üçün heç bir xain təşəbbüsdən geri qalmamışdı."[4]

Peyğəmbər Məkkəni fəth etdikdən sonra Məscidülhərama daxil oldu, oradakı bütləri qırdı, sonra Kəbəni təvaf etdi. Sonra o, Məkkənin ətrafında yaşayan qəbilələri İslama dəvət etmək üçün ora bir neçə dəstə göndərdi. Peyğəmbər təxminən Məkkədə iki həftə qaldıqdan və oradakı işləri nizamladıqdan sonra Mədinəyə qayıtdı.

Məkkəkə fəth edildikdən sonra hər il müsəlmanlar tərəfindən ziyarət olundu. Təəssüflər olsun ki, Əməvilərin (661-750) hakimiyyətə gəlməsi nəticəsində bəzi vaxtlar onun hörməti sındırılmış və dağıntılara məruz qalmışdır. Bunu biz Əməvi xəlifəsi Yezid bin Müaviyənin (680-683) xilafəti zamanı görməkdəyik. Belə ki, o, xəlifə olduğu təxminən üç illik müddətdə İslam tarixində bağışlanmaz günahlar etdi. O, hakimiyyətinin birinci ilində Peyğəmbərin nəvəsi Hüseyn bin Əlini şəhadətə yetirdi, ikinci ilində Mədinə şəhərini kütləvi qırğına məruz qoydu, üçüncü ilində isə Məkkəni dağıdıb Kəbə evini viran etdi. Məkkəyə gələn orduya komandan təyin edilmiş Hüseyn bin Nümeyr Əbu Qübeys dağına mancanaqlar qurdurdu və oradan Kəbəni daş və alov atəşinə tutdu. Bunun nəticəsində Kəbə yandı, bir hissəsi isə uçulub dağıldı.

---

[1] Məhəmməd binYaqub əl-Küleyni. Üsulül-kafi. 8 cilddə. IV c. s. 403; Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 556; Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 364.

[2] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. Misir, I çap, 1426/2005. s. 20.

[3] Seyid Cəfər Şəhidi. İslam tarixi və təhlillər. s. 107.

[4] Nuri Ünlü. İslam tarihi. 4 cilddə. I c. İstanbul, İFAV yayınları, II çap, 1997. s. 60.

Məkkənin tarixində ən qaranlıq izlərdən birini də vəhhabilik təriqəti buraxmışdır. Onların Məkkə şəhərində törətdikləri zülm və qətliamlar sayılmayacaq dərəcədə çoxdur. Bundan əlavə, onların Məkkəni ələ keçirmələrindən sonra orada dünyanın müxtəlif yerlərindən gələn zəvvarlara etdikləri zülm, tənə və zorakılıq halları da islam tarixində öz əksini tapmışdır. Məkkə 1802-ci ilin axırlarında Səud bin Əbdüləzizin rəhbərliyi altında hücuma məruz qaldı və 1803-cü ilin aprel ayında işğal olundu.[1] Lakin bəzi qaynaqlara görə, Məkkə vəhhabilər tərəfindən 1796-cı ildə işğal olunmuşdur.[2] Onlar müqəddəs şəhəri işğal etdikdən sonra orada gördükləri ilk işlərdən biri şəhərdə mövcud olan qəbirləri və ziyarət yerlərini dağıtmaq olmuşdur. Belə ki, onlar Peyğəmbərin xanımı Xədicənin , əmisi Əbu Talibin, babası Əbdülmutəllibin qəbirləri üstündəki künbəzləri söküb yerləyeskan etdilər.

Məkkənin işğalından sonra onlar Ciddə şəhərinin işğalına başladılar. Bu məqsədlə vəhhabilər Səudun rəhbərliyi altında ora hücum etdilər. Lakin Ciddənin hakimi Qalib şəhəri yaxşı müdafiə etdiyindən onlar şəhərə girə bilmədilər. Vəhhabilər şəhəri 8 gün mühasirədə saxladıqdan sonra oranı ələ keçirə bilməyib məğlub halda geri döndülər. Lakin Ciddə hakimi Qalib onları təqib etdi və böyük bir ordu ilə Məkkəyə daxil oldu. Qalibin böyük bir ordu ilə gəldiyini görən vəhhabilər şəhəri tərk edib qaçdılar. Beləliklə, Məkkə vəhhabilərin əsarətindən azad olundu.

Məkkə Qalibin köməkliyi ilə vəhhabi əsarətindən azad olsa da, bu uzun çəkmədi. Səud 1804-cü ildə ikinci dəfə Məkkəyə hücum etmiş və məkkəlilərin kütləvi qırğınını təşkil etmişdi. Məkkə əhalisindən az bir hissə qaçıb canını qurtara bildi. Qalanların bir hissəsi qırıldı, bir hissəsi isə vəhhabiliyi qəbul edib azad buraxıldı. Bundan sonra Məkkə və onun ətraf rayonları vəhhabilərin əlinə keçdi. Təəssüflər olsun ki, onların bu əsarəti bugünədək davam etməkdədir.

1.4. Məkkə yer kurəsinin mərkəzidir

Müasir elm inkişaf etdikcə, Qurani-Kərimin və hədisi-şəriflərin mənaları daha da dərin və elmi şəkildə insanlara aydın olur. Məkkənin yer kurəsinin mərkəz olması ayə və hədislərdə öz əksini tapmışdır. Bundan əlavə, müasir elmi kəşflər də bunu təsdiq etməkdədir.[3] Allah Şura surəsində belə buyurur: **"Şəhərlərin anası olan Məkkə əhlini və onun ətrafındakıları qopacağına heç bir şübhə olmayan Qiyamət günü ilə qorxutmağın üçün beləcə sənə ərəb dilində Quran vəhy etdik."**[4] Bu ayəni alimlər Məkkənin yer üzünün mərkəzi olmasına dəlil göstərirlər. Bundan başqa, hədislərdə də Məkkə şəhərinin yer üzünün mərkəzi olması haqqında məlumat vardır. Belə ki, "Bir yəhudi Peyğəmbərin yanına gəlib soruşur: "Nə üçün Kəbə Kəbə adlanır?" Həzrət buyurdu: "Çünki o yer üzünün ortasıdır."[5]

Əllamə Məclisi bu növdən olan hədisləri səhih bildiyindən adı çəkilən əsərində Məkkənin yer üzünün mərkəzi olması fikrini təsdiq etmişdir.[6]

1.5. Məkkədə ilk yaşayan şəxs

Məkkədə ilk yaşayan şəxs və onun ilk sakini İsmail Peyğəmbərin anası Hacər olmuşdur. İbrahim peyğəmbər onların ikisini də gətirib Məkkədə sakin etdi. Bundan sonra Cürhüm qəbiləsi Məkkəyə gəlib orada məskən saldılar. Onlar bu yerin yaxınlığından keçərkən gördülər ki, quşlar bir yerə toplaşıblar. O quşlar toplaşdıqları bu yerdə su içirlər. Cürhümlər tez bu xəbəri qafilə başçısına xəbər verdilər. Qafilə başçısının göstərişi ilə hamı oraya toplaşdılar və orada suyun olduğunu gördülər. Bu su isə Zəmzəm quyusu idi. Onun yanında isə bir qadının oturduğunu gördülər. Qəbilə o qadından burada məskunlaşmaq icazəsini istədi. Qadın icazə verdi. İsmail vəfat etdikdə, onu anasının yanında dəfn etdilər. Bura "Hicri-İsmail" adı ilə məşhur oldu. Beləliklə, Cürhüm qəbiləsi Kəbənin rəhbərliyini öz öhdələrinə götürdülər. Sonra isə Cürhüm qəbiləsinin dövründə Xüzaə qəbiləsi oraya gəldi. Onlarla Cürhüm qəbiləsinin arasında müharibə oldu. Xüzaə qəbiləsi qələbə

[1] Seyid Məhəmməd Həsən Qəzvini. Vəhhabi firqəsi. Bakı, 2004, s. 31.
[2] Cəfər Sübhani. Vəhhabi məzhəbi. Tərc.: Yusif Bağırov. Bakı, Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 1999. s. 11.
[3] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 27-29.
[4] Şura surəsi, ayə 8.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 285. Hədis № 8.
[6] Həmin mənbə. VI c. s. 97.

çaldı və Evin təmir işlərini onların əlindən aldılar. Xüzaə qəbiləsi Məkkədə üç yüz və ya daha artıq il rəhbərlik etdi. Sonra Qüreyş Xüzaə qəbiləsi ilə vuruşdu və oranın rəhbərliyini öz öhdələrinə aldılar. Qüreyş orada çoxlu quyular qazdı. Onlar Məkkədə iqtisadiyyatın dirçəldilməsində mühüm rol oynadılar. Qusey oranın təmiri işlərinə rəhbərlik etməyi öz öhdəsinə aldı. Orada bir ev tikdi ki, ona da "Darun-Nədvə" deyilir.[1]

1.6. Məkkə şəhərinin adları

Hədisi-şəriflərdə Məkkənin beş adı olduğu haqqında məlumat vardır. Bu haqda Peyğəmbər buyurur: "Məkkənin beş adı var: Ümmül-qura, Məkkə, Bəkkə, Bəsasə (çünki orada zülm edənlər oradan çıxarılır) və Ümmür-rəhim (çünki ora gələnə rəhm olunur)."[2] Həmçinin Peyğəmbər buyurur: **"Allah yer üzündə dörd şəhər seçmişdir, "vət-Tin vəz-Zeytun. Və Turi Sinin. Və hazəl-bələdil-Əmin."**[3] Tin Mədinə, Zeytun Beytülmüqəddəs, Turi-Sinin Kufə, Bələdül-əmin isə Məkkədir."[4]

Digər bir hədisində buyurur: "Allah yer üzündə ilk dəfə Məkkəni tikili etdiyində o Ümmül-qura adlanır."[5]

1.7. Kəbə sözünün mənaları

Kəbə sözü "kə'b" sözündən əmələ gəlib, lüğətdə "dördbucaqlı" mənasını bildirir.[6] Onun belə olması həm dördbucaqlı olmasına, həm də hündür ucaldılmasına görədir. Görkəmli lüğət alimi İbn Mənzur (1233-1312) yazırdı: "kəb" sözü insanın müfəssəl skeleti mənasındadır. "Kəbül-insan" dedikdə, onun ayağının topuğu nəzərdə tutulur."[7] Kəbə sözünün bildirdiyi mənalardan biri də "uca" və "qabarıqdır."[8] Kəbənin terminoloji mənasına gəldikdə isə, ora Allahın evidir ki, buna da Beytüllahül-haram deyilir.

Şeyx Səduq (917-991) Peyğəmbərdən rəvayət edir: "Kəbə dünyanın ortası olduğuna görə belə adlanmışdır."[9]

Digər bir hədisində isə Peyğəmbər buyurmuşdur: "Kəbə dördbucaqlı olduğundan Kəbə adlanır. O dördbucaqlı olaraq yaradılıb, çünki, o Beytülməmurun altındadır və o da dördbucaqlıdır. Beytülməmur da dördbucaqlı olaraq yaradılıb, çünki, o Ərşin altındadır. Ərş də dördbucaqlı olaraq yaradılıb, çünki İslam dörd kəlmə üzərində qurulub: Subhanallah, Əlhəmdu lillah, la ilahə illəllah və Allahu Əkbər."[10]

Kəbənin yerləşdiyi yerin "Həram" adlanmasının səbəbi isə, hədis mənbələrdə belə açıqlanır: "Müşriklərin ora girməsi haram olduğu üçün Allahın evi Hərəm adlanmışdır."[11]

Həmçinin Kəbənin "Ətiq" adlanmasının səbəbi hədis mənbələrində belə göstərilir: "Kəbə Nuhun tufanı zamanı batmaqdan qorunduğu üçün Ətiq adlanır."[12] Şeyx Səduq bu haqda başqa bir rəvayəti belə nəql edir: "Kəbə azad bir ev olduğundan və insanlar da ona heç vaxt sahib ola bilməyəcəklər deyə Ətiq adlanıb."[13]

---

[1] Bağır Şərif əl-Qürəşi. Həyatu-Muhəmməd. I c. s. 30-31.
[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 298. Hədis № 5.
[3] ət-Tin surəsi, ayə 1-3.
[4] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 298. Hədis № 2.
[5] Həmin mənbə. Hədis № 1.
[6] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 180.
[7] İbn Mənzur. Lisanül-ərəb. 15 cilddə. I c. Qum, 1405. s. 718.
[8] İbn Xəldun. Müqəddimə. I c. s. 353.
[9] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 254. Hədis № 2110.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 285. Hədis № 9; Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 254. Hədis № 2111.

[11] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 254. Hədis № 2112.
[12] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 285. Hədis № 12; Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 254. Hədis № 2113.
[13] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 254. Hədis № 2114.

1.8. Kəbənin tikilmə tarixi

Şeyx Səduq "əl-İləl" əsərində yazırdı: "Adəm Cənnətdən endirildikdən sonra Əbu Qübeys dağına düşdü. O, qorxudan Rəbbinə şikayət etdi. Adəm Cənnətdə eşitdiklərini burada eşitmirdi. Allah ona qırmızı yaqut göndərdi. O, yaqutu Kəbənin küncünə qoyub ona təvaf etdi."[1]

Digər bir rəvayətdə isə deyilir: "Adəm Kəbəni tikdikdən sonra dedi: "Ey Rəbbim, mənim əməlimin mükafatı və savabı nədir?" Allah buyurdu: "əgər onu təvaf etsən, səni bağışlayaram." Başqa bir hədisdə isə deyilir: "Allah Cəbrailə əmr edərək buyrdu: "Mən rəhman və rəhimli Allaham, həqiqətən də mən Adəmə və Həvvaya rəhm etdim. Onlar mənə şikayət etdilər ki, onlara Cənnətdən xeymə endirim. Mən onlara rəhm etdim. Onların ağlamaqlarına, qorxmaqlarına və tənha olmaqlarına görə sən Məkkə dağı arasında hündür bir yerdə xeymə qur!" Beləliklə, xeymə Kəbənin yerində quruldu. Onun sütunlarını mələklər ucaltdılar."[2]

Kəbənin dini-tarixi təhlili onu göstərir ki, Allah bu yerin imarət olmasını, öz dini üçün ayinlər məkanına çevrilməsini və onun nişanə olmasını əzəldən istəmişdir. Həmçinin Adəmin yer üzünə endirilməsindən etibarən, Kəbə müqəddəs və əzəmətli məkana çevrilmiş, onun aradan getməsinə Allah yol verməmiş, oranı dinlər və millətlər üçün sığınacaq etmişdir. Oranı Adəmdən əvvəl mələklər ziyarət etmiş, İbrahim peyğəmbər onu təmir etmişdir. Bu da onu göstərir ki, həqiqətən Adəmdən əvvəl oranın torpağı bərəkət və paklıq rəmzi olmuşdur. Bu haqda Peyğəmbər buyurur: "Bizim vilayətimiz yer üzünün torpaqlarına göstərildi. Məkkə onu hamısından qabaq qəbul etdiyi üçün Kəbə ilə zinətləndirildi. Sonra Mədinə hamısından önə keçdi və mənimlə zinətləndirildi. Ondan sonra Kufə hamısından əvvələ keçdi və Əli ilə zinətləndirildi."[3]

Adəm tərəfindən ibadətgaha çevrilən Kəbə sonrakı peyğəmbərlərin də dini ayinlərində müqəddəs məkan kimi ziyarət edilirdi. Sonralar Nuhun tufanı zamanı zərərə uğrayan Kəbə İbrahim peyğəmbər tərəfindən təmir olundu. Mənbələrə görə, İbrahim onu dörd daşla təmir etmişdi. O daşlar mələklər vasitəsi ilə Turi-Sina, Cudi, Hira və Səbir dağlarından gətirilmişdi. Onun sütunları yer üzü yaradılmamışdan iki min il əvvəl yaradılmışdi. Sonra yer üzü onun altından dartılıb genişləndirilmişdir. İbrahim onun hündürlüyünü yeddi dirsək, ərazisini isə otuz iki dirsək etmişdi. Ona qapı qoymuş, qapıya ağacdan kilid düzəldərək üstünə də örtük çəkmişdi.

İbrahim bu işləri tamamladıqdan sonra Cəbrail nazil olub demişdi: "Təvaf et!" O, oğlu İsmail ilə birlikdə təvaf etmiş və məqamın arxasında iki rükət namaz qılmışlar. Sonra Cəbrail ona digər əməlləri öyrətmiş, Səfa, Mərvə və Müzdəlifə qanunlarını başa salmışdı. Sonra qurbangaha enmiş və orada onlara şeytan görünmüşdü. Belə olan halda, Cəbrail şeytanı daşlamağı İbrahimə demiş, o da yeddi həsa daşını ona atmışdı. Sonra onlar Ərəfata getmiş, İbrahimə orada Cəbrail demişdi: "Həccin əməllərini bildinmi? (araftə?)" İbrahim də ona "bəli, bildim (araftu)" demişdi.

Sonra Cəbrail ona "Müsəlmanları həccə çağır!" demişdi. İbrahim isə demişdi: "Ey Rəbbim! Səsim kimə yetişəcək?" Allah da ona "Çağır, çatdırmaq mənim öhdəmdədir", - deyə buyurmuşdu. İbrahim dağın başına çıxmış, insanları çağırmış və onun səsini Allah bütün aləmlərə yaymışdı. İbrahimin nidası belə olmuşdur: "Allahın evinə gəlib həcc etməyiniz sizə vacib edildi. Rəbbinizə cavab verin!"

Kəbənin ilk dəfə kimin tərəfindən tikilməsi mübahisəli məsələdir. Hədis, tarix və təfsir mənbələrində bu haqda aşağıdakı fikirlər vardır:

1) Kəbəni mələklər tikib.
2) Kəbəni Adəm tikib.
3) Kəbəni Şis ibn Adəm tikib.
4) Kəbəni İbrahim tikib.

[1] Şeyx əs-Səduq. əl-İləl. II c. s. 145.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XVc. s. 181.
[3] Həmin mənbə. XVII c. s. 305.

1.9. Kəbəni mələklər tikib

Kəbənin mələklər tərəfindən tikildiyini deyən alimlər Quranın bu ayələrinə istinad edirlər: **"Həqiqətən insanlar üçün ilk bina olunan ev Bəkkədəki evdir ki, o şübhəsiz bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır."**[1]

"Orada aydın nişanələr İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır. Onun yoluna gücü çatan hər bir kəsin həccə gedib, o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur."[2]

Alimlərə görə, əgər ev insanlar üçün tikilibsə, onun insanların yaranmasından əvvəl olması lazımdır. Bundan əlavə, əl-Əzrəqi Əli bin Hüseyndən rəvayət edir: "Həqiqətən də mələklər Kəbəni Adəmdən əvvəl inşa ediblər."[3]

Əllamə Məclisi isə digər bir rəvayətdə İmam Cəfər Sadiqdən nəql edir ki, atamdan Kəbənin yaranması haqqında soruşuldu. O, dedi: "Allah mələklərə buyurdu: **"Mən yer üzündə xəlifə yaradacağam. Mələklər ona dedilər: Biz sənə şükr etdiyimiz, şəninə təriflər dediyimiz və səni müqəddəs tutduğumuz halda, sən yer üzündə qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"**[4] Allah onlara qəzəbləndi. Belə olduqda mələklər onun ərşi ətrafında təvaf etməyə başladılar."[5] Digər bir rəvayətdə isə deyilir: "Mələklər Beytülməmurun ətrafında təvaf etdilər, Allahın qəzəbindən ona sığındılar. Allah da onlara əmr etdi ki, yer üzündə Kəbəni tiksinlər ki, onun bəndələri o evi təvaf etsinlər."

Başqa bir rəvayətdə deyilir: "Adəm üçün bir xeymə endirildi. Həmin xeymə Kəbənin yerinə quruldu ki, Adəm orada sakin olsun və onun ətrafına dolansın. Adəm dünyadan gedənədək xeymə zay olmadı. Ondan sonra isə Allah xeyməni ortadan qaldırdı." Bu hədisi Vəhəb bin Münəbbih rəvayət etmişdir.[6]

Yuxarıdakı rəvayətlər Kəbənin ilk dəfə mələklər tərəfindən tikildiyini, bəşəriyyətin yaranışından əvvəl onun bina olduğunu və mələklərin Allahın qəzəbindən ora sığındığını göstərir. Həmçinin bu rəvayətlər Kəbənin ilk dəfə İbrahim tərəfindən tikildiyini də təkzib etməkdədir. Bundan başqa, digər bir hədisdə deyilir: "Mələklər Allahdan Adəm və Həvva üçün Beytülməmurun önündə hündür bir məkanda bir ev tikilməsini istədilər ki, səmada Beytülməmuru təvaf etdikləri kimi oranı da təvaf etsinlər. Allah Cəbrailə vəhy etdi ki, xeymə qur! Adəm dedi: "Biz Allahın təqdirinə razı olduq və onun bizim haqqımızda olan əmrinə boyun əydik."

Beləliklə, Kəbənin sütunu Səfa, Mərvə, Turi-Sina və Salam (Kufənin arxasında dağ) dağlarının hər birindən bir daş götürülməklə quruldu.

Allah Cəbrailə əmr etdi ki, Kəbəni tik və onu tamamla. Cəbrail Allahın əmri ilə daşları dörd yerə böldü və hər bir daşı lazımı yerə yerləşdirdi.

O, Allahın əmri ilə evin sütunlarını qaldırdı. Sonra Allah Cəbrailə əmr etdi ki, Kəbəni Əbu Qübeys dağının daşları ilə tamamla və ona iki qapı qoy. Qapının birini günçıxana, digərini isə günbatana tərəf qoy. Cəbrail Kəbənin tikilməsini başa çatdırdıqdan sonra mələklər oranı təvaf etdilər. Bunu görən Adəm və Həvva onların arasna girib təvafa başladılar. Onların təvafı yeddi (şut) dəfə oldu. Sonra oradan çıxıb yemək yedilər.[7]

1.10. Kəbəni Adəm tikib

Kəbənin kim tərəfindən tikilməsi haqqında nəql olunmuş hədislər işərisində onun Adəm tərəfindən tikilməsi daha məhşurdur və bu hədislər çoxluq təşkil edir. Həmin hədislərdən aşağıdakıları qeyd etmək olar:

---

[1] Ali-İmran surəsi, ayə 96.
[2] Ali-İmran surəsi, ayə 97.
[3] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 33.
[4] Bəqərə surəsi, ayə 30.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. VI c. s. 97.
[6] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 34.
[7] Əllamə əl-Hairi. Dairətül-məarif. XVc. s. 181-182.

Cüreyc Ətadan, o da Müseyyibdən rəvayət edir: “Allah Adəmə vəhy etdi: “Elə ki, yerə endin mənim üçün orada bir ev tik. Mələkləri səmada mənim ərşimi təvaf etdiklərini gördüyün kimi sən də o evi təvaf et!”

Digər bir hədisdə deyilir: “Adəm Kəbəni tikdikdən sonra dedi: “Ey Rəbbim, mənim mükafatım nədir?” Allah buyurdu: “Əgər onu təvaf etsən, səni bağışlayaram.”[1]

Kəbənin Adəm tərəfindən tikildiyini xəbər verən hədislərdən biri də Əta vasitəsilə İbn Abbasdan gələn hədisdir. O, deyir: “Elə ki, Adəm Cənnətdən endirildi, Allah ona dedi: “Ey Adəm, mənim üçün bir ev tik, mələkləri mənim ərşimin ətrafında təvaf etdiyini gördüyün kimi onu təvaf et və orada məni zikr et!” Adəm bunu qəbul etdi.”

Digər bir hədisdə isə deyilir: “Adəm dedi: “Ey Rəbbim, mən mələklərin səsini eşitmirəm.” Allah ona dedi: “Mənim üçün bir ev tik, sonra mələkləri səmada mənim evimi necə təvaf etmələrini gördüyün kimi sən də oranı təvaf et!”

Bir rəvayətdə isə deyilir: “Adəm Sərəndəb vadisinə endirildi. O, orada kimsəsizlikdən qorxu keçirərək dedi: “Ey Rəbbim, sənin yer üzündə tikili bir şeyin yoxdur ki, orada sənə ibadət olunub təsbih deyilsin?” Allah ona belə vəhy etdi: “Mən orada çoxlu evlər yaradacağam ki, məni zikr etsinlər. O evlərdən birini özüm üçün seçəcəyəm, onu öz kəramətimlə əzizləyəcək, öz adımla adlandıracağam və ona öz evim deyəcəyəm. Onu mənə ibadət üçün təmizlə, onu hörmətimə görə qoru. O evi özümə seçdiyim yerdə qur. O sənə və səndən sonrakılara müqəddəs yer və əminlik yeri olsun. Hər kəs onun hörmətini saxlasa, mənim hörmətimi saxlamış olur. Hər kəs onun sakini olsa, mənə sığınıb, hər kəs onu əzəmətli bilsə, mənim gözümdə əzəmətli olacaq. Hər kəs ora gəlsə və məndən başqasını istəməsə, məni ziyarət edib və mənim qonağim olacaqdır və o şəxs mənim nümayəndəmdir. Mənə vacibdir ki, o şəxsə kəramətimlə töhfə verim. Nə qədər ki, sağsan, onu təmir et! Səndən sonrakılar da onu təmir edərlər. Bir peyğəmbərdən sonra gələn digər peyğəmbər, hətta zürrüyyətindən olacaq sonuncu peyğəmbər də ora baş vurar...”[2]

1.11. Şis bin Adəm tikib

Əvvəldə qeyd etdiyimiz kimi, bəzi rəvayətlərdə Kəbənin ilk dəfə Adəm Peyğəmbərin oğlu həzrət Şis tərəfindən tikildiyi göstərilir. Bu rəvayət Vəhəb bin Münəbbih yolu ilə gəlir. O, belə rəvayət edir: “Kəbəni ilk bina edən şəxs Şis peyğəmbərdir. O, bu evi palçıq və daşlardan tikmişdir.”[3]

1.12. İbrahim peyğəmbər tikib

Bəzi rəvayətlərdə Kəbənin həzrət İbrahim tərəfindən tikildiyi qeyd edilmişdir. Bu qrupdan olan rəvayətlər çoxluq təşkil etməsələr də, bəzi alimlər nədənsə buna üstünlük vermiş və Kəbənin İbrahim tərəfindən tikildiyini qəbul etmişlər. Buna misal “Təfsirül-mənar” əsərinin müəllifini göstərmək olar. Müəllif Həcc surəsinin 26-27-ci, Ali-İmran surəsinin 96-97-ci, Bəqərə surəsinin 124-129-cu ayələrini təfsir edərkən, həmin ayələrə əsaslanıb Kəbənin İbrahim tərəfindən tikildiyi qənaətinə gəlmişdir. Allah Bəqərə surəsinin 127-ci ayəsində buyurur: **“Onu da yadına sal ki, İbrahim və İsmail Kəbənin bünövrəsini ucaldıqları zaman: “Ey Rəbbimiz** (bu xeyirli işi) **bizdən qəbul et, Sən doğrudan da** (hər şeyi) **eşidən və bilənsən”, - deyə dua etdilər.”**

Qeyd etdiyimiz ayənin orijinalında keçən **“əl-Qəvaid”** sözünü bəzi təfsirçilər “əsas”, “bünövrə” mənasına yozmuş və bununla da Kəbənin əsasının ilk dəfə olaraq İbrahim tərəfindən tikildiyini demişlər. Bu fikri görkəmli ərəb qrammatiki əl-Fərra da qəbul etməkdədir. Lakin bu görüşləri bir çox alimlər qəbul etməmiş, Kəbənin tikilməsinin ilk dəfə mələklər, yaxud Adəm tərəfindən gerçəkləşdiyini qəbul etmişlər. Bu haqda Cərir ət-Təbəri (838-923) yazırdı: “Kəbənin İbrahim , yoxsa Adəm tərəfindən tikilməsi haqda alimlər ixtilaf ediblər. Lakin səhih sənədlə İbn Abbasdan rəvayət olunur ki, Kəbənin əsası İbrahimdən əvvəl qoyulmuşdur. Həmçinin Əta rəvayət etmişdir: Adəm dedi: “Ey Rəbbim, mələklərin səsini eşitmirəm.” Allah ona buyurdu: “Mənə bir ev tik, sonra onu təvaf et, necə ki, səmada mələkləri evimi təvaf edən görmüşdün!”

---

[1] Həmin mənbə. XV c. s. 181.

[2] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 37.

[3] Həmin mənbə. s. 38.

Görkəmli Quran təfsirçisi Məkarim Şirazi Kəbənin ilk dəfə İbrahim tərəfindən tikildiyi görüşünü tənqid edərək yazır: "Tarix və İslam mənbələrində göstərilir ki, Kəbə həzrət Adəmin əli ilə tikilmiş, sonra isə Nuhun zamanında baş verən tufan nəticəsində aradan getmiş və yenidən İbrahim Xəlil tərəfindən bərpa olunmuşdur" .

Kəbənin ilk məbəd olması haqqında heç bir şəkk-şübhə yoxdur. Qabaqkı peyğəmbərlər, o cümlədən, həzrət Nuh da ondan istifadə etmişlər. Belə olan təqdirdə necə ola bilər ki, onun banisi İbrahim olsun?!"[1] Lakin Əllamə Təbatəbai Kəbənin İbrahim tərəfindən tikildiyini qəbul edərək yazırdı: "Kəbənin ilk dəfə İbrahim tərəfindən tikildiyi təvatür yolu ilə tarixə bəllidir. O dönəmdə bölgədə İbrahimin oğlu İsmail Kəbəni dördbucaq şəklində inşa etmişdir. Onun dörd yana baxan küncləri, şiddətli küləklər zamanı verilə biləcək ziyanın qarşısını alırdı."[2]

1.13. Kəbənin sonrakı dövrlərdəki təmiri

Yuxarıdakı rəvayətlərdən gəldiyimiz qənaət budur ki, Kəbənin əsası Adəm tərəfindən qoyulmuş, sonralar isə İbrahim tərəfindən bərpa və təmir edilmişdir. İbrahim Kəbəni təmir etdiyi ərəfədə orada Cürhüm qəbiləsi də yşayırdı. İbrahimin inşa etdiyi Kəbə Əmaliqə tayfasının yenidən bərpa etdikləri günədək olduğu kimi qalmışdı. İmam Əlidən gələn rəvayətə görə, onlar Kəbəni yenidən bərpa etmişlər.[3] Digər bəzi qaynaqlar da bu rəvayəti olduğu kimi təsdiqləyirlər. Belə ki, İbn Əbi Şeybə, İbn Rahuyə, İbn Cərir, İbn Əbi Hatəm və Beyhəqi İmam Əlidən rəvayət edirlər: "İbrahim Kəbəni qurdu, sonralar o dağıldı, onu Əmaliqə qəbiləsi qurdu, sonralar yenə dağıldı, onu yenidən Əmaliqə qəbiləsi qurdu, sonralar yenə dağıldı, onu Qüsey bin Kilab qurdu."[4]

Göründüyü kimi, bu hədisdə olan ixtilaf Cürhüm qəbiləsinin, yoxsa Əmaliqə qəbiləsinin daha əvvəl Kəbəni təmir etməsi məsələsidir. Əllamə Təbatəbaiyə gərə, Cürhüm qəbiləsi Əmaliqə qəbiləsindən daha əvvəl təmir etmişlər. O, bu qənaətə İmam Əlidən gələn hədisə əsasən gəlmişdir.

Kəbənin sonrakı təmiri hicrətdən (622-ci ildən) təxminən iki yüz il əvvəl olmuşdur. Onu həmin ərəfədə Pəyğəmbərin ulu babası Qüsey bin Kilab dağıdıb təzədən gözəl şəkildə təmir etmişdir. Ona xurma ağaclarından hazırlanmış bir tavan tikmiş və onun yanında Darün-Nədvəni qurmuşdu. Burada qəbilələrin böyükləri ilə lazım olanda müşavirələr aparardı. Sonra Kəbənin divarlarını Qüreyş qəbiləsi arasında bölüşdürdü. Onlar da evlərini Kəbənin ətrafında tikər qapılarını ona tərəf açardılar.

Məhəmməd peyğəmbərə peyğmbərlik verilməmişdən beş il öncə (605-ci ildə) sel Kəbəni dağıtmışdı. Qəbilələr bir araya toplanaraq Kəbəni yenidən qurmağa başladılar. Onun divarlarını tikən usta yunanlı Yərqum olmuşdur. Misirdən gəlmiş bir usta da ona kömək edirdi. Sıra Həcərül-əsvədin yerləşdirilməsinə gəldikdə, qəbilələr arasında ixtilaf yarandı. Sonda Məhəmmədin hökm çıxarmasını istədilər. Həzrət həmin hadisə zamanı otuz beş yaşında idi. Peyğəmbərimiz bir əba gətirdib Həcərül-əsvədi onun üstünə qoydu və hər qəbilənin onu qaldırmasını istədi. Hər kəs bir tərəfdən tutub qaldırdılar və Həzrət daşı götürüb nəzərdə tutulan yerə qoydu.

Kəbə Yezid bin Müaviyə dövründə (680-683) Abdullah bin Zübeyrin vali olduğu dövrə qədər bu şəkildə qaldı. Yezidin Məkkədəki komandanlarından Hüseyn Abdullah bin Zübeyrlə savaşdı. Kəbə mancanaqla dağıdıldı. Onun örtüyü və taxta hissələri yandı. Sonra Yezid ölənədək belə halda qaldı. İbn Zübeyr Kəbəni söküb yenidən inşa etmək istədi. Bu məqsədlə o, Yəməndən lazımı material (keyfiyyətli gəc) gətirtdi. Divarlar həmin materialdan düzəldildi. Hicri-İsmail Kəbəyə daxil edildi. Kəbənin qapısı yerə bitişik halda düzəldildi. Qarşı tərəfdə isə yeni bir qapı açıldı ki, camaat bir divardan girib o biri divardan çıxa bilsinlər. Kəbənin hündürlüyü iyirmi yeddi zira (təxminən 13 metr yarım) oldu. Bina tamamlandıqdan sonra onun içərisinə və üstünə müşk-ənbər sürtüldü, onun üzərinə xalis ipək örtük çəkildi. Kəbənin təmiri 683-cü ilin fevral ayının 27-də (hicri 64-cü ilin rəcəb ayının 17-də) tamama yetdi.

Sonra Əbdülməlik bin Mərvan (685-705) xəlifə oldu. O, sərkərdələrindən Həccac bin Yusifi Abdullah bin Zübeyrlə savaşa göndərdi Həccac Kəbəyə girdi və İbn Zübeyrin etdiyi dəyişiklikləri

[1] Məkarim Şirazi. Təfsiri-nümunə. V c. s. 15.
[2] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 567-573.
[3] Həmin mənbə.
[4] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 42.

Mərvana bildirdi. Mərvan Kəbənin əvvəlki vəziyyətinə qaytarılmasını əmr etdi. Buna görə də Həccac Kəbənin şimal tərəfini altı zira bir qarış (dirsək yarım) dağıtdı. Sonra bu divarı Qüreyşin qoyduğu təməl üzərində inşa etdi. O, Kəbənin İbn Zübeyr tərəfindən aşağı endirilən qapısını isə yerdən bir az hündürə (təxminən 1,5 və ya 2 m.) qaldırdı. İbn Zübeyrin əlavə etdiyi qərb qapısını isə bağladı və yerdə qalan digər daşları da Kəbənin yerinə döşədi.

Bundan sonra 709-cu ildə Vəlid bin Əbdülməlik Kəbənin binasını yenilədi. O, ilk dəfə olaraq Şam və Misirdən gətirilən mərmər dirəkləri Məscidülhərama qoydurdu.

Sonralar isə Abbasi xəlifəsi Əbu Cəfər Mənsur (754-775) 757-ci ildə Məscidülhərama sütunlu dirəklər əlavə etdi. O, ilk dəfə olaraq buranı gözəl naxışlarla bəzətdi.

Mənsurun Məscidülhəramı genişlətməsinin əsas səbəbini görkəmli Quran təfsirçisi Məkarim Şirazi "Təfsiru-əyyaşi" əsərinə istinadən belə nəql edir: "Abbasi xəlifələrindən olan Mənsurun dövrü idi. Mənsur Kəbənin ziyarətçilərinin sayı artdığı üçün istəyirdi ki, onu bir daha böyütsün. Onun ətrafında yaşayan ev sahiblərini çağırıb dedi: "Sizin öz evlərinizdən köçməyiniz üçün evinizin pulunu verirəm." Onlar heç cür razılaşmadılar. Mənsur çətinlikdə qaldı. Bir tərəfdən istəmirdi ki, zor ilə onların evlərini əllərindən alsın, digər tərəfdən də onlar evlərini satmırdılar, O, bu barədə İmam Sadiqdən sual etdi. İmam buyurdu: "Nigaran olma, bu haqda möhkəm bir dəlil vardır, ona istinad edə bilərsən."

Mənsur dedi: "Hansı dəlilə əsasən?"

İmam buyurdu: "Allahın kitabına müraciət et!"

O, soruşdu: "Hansı ayəsinə?"

İmam buyurdu: **"Həqiqətən insanlar üçün ilk bina olunan ev Bəkkədəki evdir»,** ayəsinə. Bu ayəyə əsaslanaraq, əgər onlar Kəbədən qabaq ev tikmişdilərsə, Kəbənin ətrafı onların mülküdür, yox əgər Kəbədən sonra tikiblərsə, deməli, ziyarətçilərin ehtiyac duyduqları qədər yer Kəbəyə aiddir."

Mənsur əmr etdi ki, onları bir yerə toplasınlar. O, sözügedən ayəyə əsaslanaraq onlara cavab verdi. Onlar da "necə istəyirsənsə, elə də et" cavabını verdilər." [1] Beləliklə, Məscidülhəramın ətrafında olan evlər satın alınaraq söküldü və məscidin sahəsi iki qat genişləndirilərək qərb küncündə bir minarə ucaldıldı. Tikinti işləri 758-ci ildə başa çatdırıldı.

Digər Abbasi xəlifəsi Mehdi (775-785) Kəbəni ziyarət etməyə gəldikdə, oranın camaat üçün darısqal olduğunu görüb məscidin genişləndirilməsini əmr etdi. Onun bu həcc səfəri 776-cı ildə olmuşdur. Xəlifə ziyarət edərkən Kəbənin xidmətçiləri onun örtüyünün ağır olduğunu və uçmaq təhlükəsinin yarandığını bildirdilər. Bu dövrə kimi Kəbənin örtükləri onun üstündən götürülmürdü. Hər il yenilənən örtük köhnənin üstünə atılırdı. Bu da sonda Kəbənin uçmaq təhlükəsini yaratmışdı. İlk dəfə olaraq xəlifə Mehdi göstəriş verdi ki, bütün köhnə örtüklər Kəbənın üstündən götürülsün. Həmçinin onun əmrinə əsasən Kəbənin divarlarına zəfəranla qarışdırılmış müşk-ənbər sürtüldü.

Məscidülhəramın sahəsini genişlətmək üçün xəlifə Mehdi də ətrafda olan evləri satın alıb məscidin sahəsinə qatdı. Bunun da səbəbi Məscidülhəramın ziyarətçilərə darısqal olmasına görə idi. Mehdi Abbasi Mənsurun üzləşdiyi problemlə üzləşdi. Belə olan halda, dövrünün bütün fəqihlərini bir araya toplayıb məsələnin həlli yolunu soruşdu. Fəqihlər yekdilliklə: "əgər yer sahibləri icazə verməsələr qəsbi yeri Məscidülhərama daxil etmək olmaz", dedilər. Əli ibn Yəqteyn icazə istədi ki, bu sualı İmam Kazimdən soruşsun. Mehdi Mədinənin valisinə bir məktub yazdı ki, bu sualı İmam Musa əl-Kazimdən soruşsun.

İmam bu sualın cavabında buyurdu: "Əgər Kəbə əvvəldən bina olunubsa və camaat sonradan orada ev tikiblərsə, həmin yerlər Kəbəyə məxsusdur. Yox əgər orada camaatın yaşayışı Kəbənin tikilişindən qabaq olubsa, həmin yer camaata məxsusdur." Bu xəbər Mehdiyə çatdıqdan sonra çox xoşhal oldu, sevindiyindən məktubu öpdü. Sonra əmr etdi ki, onun ətrafında olan evləri uçurtsunlar. Ev sahibləri İmam Kazimin hüzuruna gedib xahiş etdilər ki, evlərinin pulunun verilməsi barəsində Mehdiyə məktub yazsın. İmam da onların evlərinin pulunun verilməsi haqqında Mehdiyə məktub yazdı. Mehdi də onları razı saldı. [2] Xəlifə Mehdinin etdirdiyi təmirdən sonra, bu dəfə Kəbə

[1] Məkarim Şirazi. Təfsiru-nümunə. V c. s. 16-17; Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 565.

[2] Həmin mənbələr.

Məscidülhəramın tən ortasında qaldı. Kəbədən Səfa dağınadək olan məsafə 90 dirsək (bir dirsək 49,8 sm), Bəni-Şeybə qapısınadək olan məsafə isə 60 dirsək oldu. Beləliklə, Məscidülhəramın ümumi sahəsi 120 min kv. dirsək oldu.

Mehdidən sonra Məscidülhəramın genişləndirilməsi onun oğlu xəlifə Hadinin (785-786) adı ilə bağlıdır. Hadi atasının bəzi yarımçıq qalmış işlərini davam etdirdi.

Bundan sonra - 897-ci ildə Abbasi xəlifəsi Mütədid Billah Kəbəni yenilədi və oraya bir qapı əlavə etdi. Onun əlavə etdiyi qapı "Ziyarət" qapısı adlanır.

Abbasi xəlifəsi Müktədir Billah (908-932) Məscidülhəramın eyvanına başqa bir eyvan əlavə etdi. Bu eyvan 918-ci ildə tamamlandı. Bu eyvan "İbrahim qapısı" kimi tanınır.

1207-ci ildə Məscidülhəramın bir hissəsi yandı, bunun ardınca sel suyu gəlib yanğını söndürdü. Hərəmin bir hissəsi dağıldı. Həmin dövrdə Misir hakimi Fərəc bin Bərkuk dağılan yerləri gözəl şəkildə düzəltdi.

1571-ci ildə Osmanlı sultanı Sultan Səlimə Məscidülhəramın bəzi yerlərinin dağıldığı xəbəri verildi. O, Məscidülhəramın əsaslı təmir olunmasını əmr etdi. Bundan sonra Məscidülhəram ən gözəl şəkildə, Osmanlı memarlığı üslubunda təmir edildi. Sultan Səlimin vəfatından sonra oğlu Murad bu işi 1576-cı ildə tamama yetirdi.

Məscidülhəramın təmir edilməsi Səud övladları orada hakimiyyətə gələnədək bu xronoloji ardıcıllıqla davam etmişdir. Səudiyyə Ərəbistanı Krallığının banisi Əbdüləziz bin Əbdürrəhman Ali Səud hakimiyyət başına keçdikdən sonra, Məscidülhəramın müsəlmanlara darısqal olduğunu görüb 1947-ci ildə oranın genişlənməsi haqqında əmr verdi. Onun əmrindən sonra 1955-ci ildə Məscidülhəramın genişləndirilməsi işinə başlandı. Bu dövr artıq Kral Səud bin Əbdüləzizin dövrü idi.

Kəbə evinin illərcə dəyişdirilməmiş və yağış suları nəticəsində çürümüş taxtaları Kral bin Əbdüləziz Ali Səudun əmri ilə yeniləndi. 1957-ci ildə Kəbə evi tamamilə yeniləndi. Beləliklə, Kəbənin ilk dəfədən bəri 13-cü təmiri başa çatdı.

Kəbə evinin hər dəfə yeni üslubda təmir olunması oranın ibadət üçün daha da əlverişli olmasına səbəb oldu. Hazırda bu müqəddəs ocaqda 500 min insan bir dəfəyə namaza dura bilir. Kəbə evinin son təmirindən sonra irili-xırdalı onun 51 qapısı oldu. Bu qapılardan üçü ana qapı adlanır. Həmin üç qapı bunlardır: Kral Əbdüləziz qapısı, Ümrə qapısı və Salam qapısı. Hər üç qapının üzərində 92 metr, təməlinin genişliyi isə 7x7 metrə olan iki minarə mövcuddur. Yerdə qalan yeddi minarə isə Səfa qapısının üzərindədir. Kral 1977-ci ildə Kəbə evinin qapısının yenidən tikilməsini əmr etdi. Köhnə qapı 1943-cü ildə Kral Əbdüləziz dövründə tikilmişdir.

1.14. Kəbənin örtüyü

Kəbə daxili və xarici qapısı olmaqla iki qapıdan ibarətdir. Onun daxili qapısı "Tövbə" qapısı adlanır. Kəbənin örtüyü parçadan ibarətdir. Mənbələrə gərə, Kəbəyə ilk örtüyü hicrətdən 220 il əvvəl (təxminən miladi 400-cü ildə) Əbu Bəkr Əsəd çəkmişdir. O, Himyər (Yəmən) padşahı olmuş və təxminən miladın 400-cü ilində Kəbəyə gümüş iplərlə toxunmuş örtük tikdirmişdir. Ondan sonra bu işi ardıcılları davam etdirmışdir. Onlar örtüyü bəzi vaxtlarda bahalı heyvan dərilərindən tikdirərdilər. Kəbənin örtüyü hər 20 ildən bir yenilənərdi.[1]

Bəzi qaynaqlarda Kəbəyə ilk örtüyün qəbati adlı (Misirdən gətirilmiş) parçadan çəkildiyi qeyd edilir.[2]

Əbu Cəfər nəql edir: "Süleyman bin Davud cinlər, insanlar, quşlar və küləklərlə birlikdə Kəbəni ziyarət etdi və ona örtük sərdi."[3]

İmam Sadiqdən sual olundu: "Bizə Kəbənin örtüyündən bir şey yetişir. Ondan əynimizə paltar tikə bilərikmi?" İmam buyurdu: "Bunula sizə, inşallah ki, bərəkət nazil olar. Amma oranın torpağından bir daş olsa belə götürməyin. Hər kəs ondan bir şey götürübsə, geri qaytarsın. İnsana

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 195; Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 570.
[2] Əhməd Cad. Vəsful-Kəbətil-muşərrəfəti və taruxuha. s. 142.
[3] əl-Küleyni. əl-Kafi. IV c. s. 412. Hədis № 2938.

yaraşmaz ki, Məkkədə bir ildən artıq qalsın. Hər kəs orada bir ildən artıq qalsa, qəlbi sərtləşər. Heç kəsə yaraşmaz ki, Kəbədən hündür bina tiksin."[1]

Əllamə Məclisi isə Şeyx Səduqun "əl-Fəqih" əsərinə istinadən İmam Sadiqin belə buyurduğunu rəvayət edir: "Həqiqətən Kəbəyə ilk örtüyü qəbati parçasından Süleyman bin Davud çəkmişdir."[2]

Əllamə Təbatəbaiyə görə isə, Kəbənin bütünlükdə örtülməsi Əbu Bəkr Əsədiyə aiddir. Əslində onun qapısına ilk pərdəni İsmail Peyğəmbərin anası Hacər çəkmişdir. O, yazırdı: "İsmail gənclik çağına yetişəndə, Uca Allah İbrahimə Kəbəni tikməsini əmr etdi. Allah ona evi qurmasını əmr etdikdə, o, evi harada quracağını bilmədi. Bunun üzərinə Allah Cəbraili göndərib İbrahimə evin qurulacağı yeri göstərdi. Nəhayət, İbrahim evi tikməyə başladı. İsmail də Zu Tuvadan daş daşıyırdı. Beləcə, Kəbənin divarını doqquz zira ucaltdılar. Sonra uca Allah ona Həcərül-əsvədin yerini göstərdi. Həzrət İbrahim daşı tapılan yerdən çıxardı və Kəbənin divarındakı göstərilən yerə qoydu. İbrahim Kəbənin tikintisini tamamlayında, ona iki qapı da qoydu. O qapıların biri günçıxana, digəri isə günbatana baxırdı.

Günbatana doğru baxan qapıya "Müstəcar" deyildi. Sonra Kəbənin tavanını ağac və ona oxşar şeylərlə örtdü. Hacər yanında olan bir örtüyü Kəbənin qapısı üzərinə asdı və bu örtüyün altına sığındılar."[3] Burada "Allah Həcərül-əsvədin yerini göstərdi" ifadəsi oranın əvvəlcədən mövcud olmasından xəbər verir.

Kəbənin örtüyü bu minvalla təzələnərdi. Quranın enişindən sonra Kəbənin üstünə atılan parça "sülüs" xətti ilə yazılmış Quran ayələri vardır. Bu parçalar yundan, ipəkdən və müxtəlif növ parçalardan ibarət olmuşdur. Onun üzərinə örtülən örtük tarixin bəzi dövrlərində ildə bir dəfə dəyişmiş, bəzi dövrlərində isə köhnələnədək onun üstündə qalmışdır.

Peyğəmbər 630-cu ildə (hicri 8-ci ildə) Məkkəni fəth edəndə Kəbəyə girmiş, bu ərəfədə təsadüfən bir qadının əlindəki alovdan Kəbənin örtüyü yanmışdı. Bu hadisədən sonra Peyğəmbər Kəbənin örtüyünü Yəməndən gətirilmiş qumaş parça ilə dəyişmişdi. Bundan sonra Kəbənin örtüyü ardıcıl olaraq xəlifə Əbu Bəkrin (632-634), xəlifə Ömərin (634-644) və xəlifə Osmanın (644-656) dövründə dəyişdirilmişdi. Bundan sonra da Kəbə örtüyünün dəyişdirilməsi müsəlman xəlifələri tərəfindən ənənəyə çevrilmişdi.

Əvvəlki dövrlərdə Kəbənin köhnə örtüyü götürülmədən yenisi onun üzərinə sərilirdi. Lakin əvvəldə də qeyd etdiyimiz kimi, Abbasi xəlifəsi Mehdinin dövründə üst-üstə yığılan bu örtüklər Kəbənin uçulması təhlükəsini yaratdı. Xəlifənin göstərişi ilə bundan sonra yalnız bir örtük qoyuldu. Bu iş günümüzədək belə davam etməkdədir.

Səudiyyə Ərəbistanının Kralı 1938-ci ildə Kəbə örtüyünü tikən yeni bir fabrikin tikilməsini əmr verdi.

Kəbə örtüyünün uzunluğu 14 metrdir. Onun üzərinə qızıla boyanmış gümüş ipliklə Quran ayələri yazılmışdır. Bu örtüyün qiyməti 20.000 000 (20 mln.) riyaldır.

Xüsusi fabrikdə hazırlanan bu örtük 800 kq. ipək və 300 kq. qızıl-gümüşdən ibarətdir. İşlər hər il məhərrəm ayının 1-də başlayır və 11 ay müddətində davam edir. Örtük üçün ipək Almaniyadan alınır. Sap bir neçə dəfə yuyulur, kimyəvi maddələrdən təmizlənir, yüksək keyfiyyətli qara rəngə boyanır. Hər il zilhiccə ayının 3-də, yaxud 4-də örtük Kəbənin qulluqçusuna təqdim edilir və həcc mərasiminin sonunda ziyarətə gələn görkəmli şəxsiyyətlərə tikə-tikə paylanır.[4]

Kəbənin parçasının qara rəngdə olmasının sirri tam olaraq bəlli deyildir. Lakin müasir alimlərdən olan Əllamə Hairi belə nəql edir ki, bunun səbəbi onun dilindən belə deyilmişdir: "Allahın peyğəmbərləri mənim ətrafımda təvaf edirdilər. Onları itirdiyimdən qaraya bürünmüşəm."[5]

Kəbənin örtüyünün fəziləti haqqında Peyğəmbərdən belə bir hədis rəvayət olunur: "Onu heç vaxt söyməyin, çünki, o Allaha təslim olmuşdur." Digər bir rəvayətdə isə Mömər, Həmmam bin

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 195-196; əl-Küleyni. əl-Kafi. IV c. s. 420. Hədis № 2968, 2969, 2973.
[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. XIV c. s. 76.
[3] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. I c. s. 409.
[4] Hacı Abu Talıb Əbdulmuttəlib oğlu. Ziyarət. Bakı, 1990. s. 14.
[5] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 196.

Münəbbih və Əbu Hüreyrə vasitəsi ilə rəvayət olunur ki, Peyğəmbər buyurmuşdur: "Əsəd əl-Hümeyrini söyməyin, çünki o, Kəbəyə ilk örtük çəkən şəxsdir."[1]

Kəbənin Şam istiqamətində Hicri-İsmail deyilən bir məkan vardır. Bu məkan İsmail Peyğəmbərin yaşadığı xeymə olmuşdur. Onun yaşadığı bu otaq təvafa daxildir, amma ona istiqamət alıb namaz qılmaq düzgün deyil.

1.15. Kəbənin vəsfi və fəzilətləri

Kəbə evi dördbucaqlıdır. O sərt mavi daşlardan tikilmişdir. Onun hündürlüyü on altı metrdir. Amma Peyğəmbərin dövründə onun hündürlüyü bu qədər olmamışdı. Çünki Məkkənin fəthi günü İmam Əli Peyğəmbərin kürəyinə çıxıb Kəbənin üstündəki bütləri yerə atmışdi. Onun eni təxminən on metr on santimetr, uzunluğu isə on iki metrdir. Kəbənin qapısı şərq divarında yerdən iki metr hündürdədir. Qapı ilə üzbəüz dayananda sol tərəfdə Rükndə Həcərül-əsvəd yerləşir. Həcərül-əsvəd ağır, yonulmamış yumurta şəklində bir daşdır. Onun rəngi qırmızıya çalan qaradır. Üzərində sarı damarlar (xətlər) var.

Kəbənin küncləri qədimdən bəri "Rükn" adlanır. Onun şimal küncünə "Rükni-İraqi", qərb küncünə "Rükni-Şami", cənub küncünə "Rükni-Yəmani", Həcərül-əsvədin olduğu şərq küncünə isə "Rükni-Əsvəd" deyilir. Qapı ilə Rükni-Əsvədin arasındakı yerə isə "Mültəzəm" deyilir. Onun belə adlanmasının səbəbi isə təvaf edən şəxsin davamlı olaraq burada dayanıb dua eməsinə görədir. Şimal tərəfdən divarın üzərindəki navalça "Muzə'bi-Rəhmət" adlanır. Bu navalçanı Həccac bin Yusif tikdirmişdir. Sonralar bu navalçanı hicri 954-cü ildə sultan Süleyman gümüş, 1021-ci hicri ilində sultan Əhməd çini naxışlı və qızıl ulduzlu navalça ilə dəyişdirmişdi. Sonralar isə osmanlı imperatoru sultan Əbdülməcid 1273-cü hicri ilində bu navalçanı gümüş bir navalça ilə dəyişmişdi. Bu navalça hal-hazırda da Kəbənin damındadır.

Şimal divarının qarşısında yay şəklində "hətim" adı verilən yarımdairəvi bir divar var. Onun iki ucu Kəbənin şimal və qərb künclərinə baxır. Hər iki tərəfdən (yarımdairənin ucları ilə şimal və qərb künclərinin arasında) iki metr üç santimetrlik məsafə var. Bu yarımdairənin hündürlüyü bir metr, eni isə bir metr yarımdır. Yarımdairə ilə şimal divarındakı ərazi bəzəkli daşlarla döşənilmişdir. Yarımdairənin ortasından şimal divarının tən ortasınadək olan məsafə səkkiz metr qırx dörd santimetrdir.

"Hatim" adlı divarla (yarımdairəvi divarla) Kəbənin divarının arasındakı boşluğa "Hicri-İsmail" deyilir. Onun təxminən üç metri İbrahim Kəbəni tikərkən binanın daxilində olubmuş, lakin sonradan binadan kənara düşüb. Buna görə də təvaf edilərkən "Hicri-İsmail" də təvaf dairəsinin içərisinə düşməlidir ki, İbrahim Peyğəmbərin dövründəki Kəbə tam təvaf edilsin. Yarımdairəvi divarla şimal divarı arsındakı məsafənin üç metri Kəbə binasına aid, qalanı isə İsmail ilə anası Hacərin qoyunlarının saxlandığı yer olmuşdur. Bəzilərinin fikrincə isə, Hacərlə İsmail məhz bu yerdə dəfn edilmişdir.[2]

Qeyd etdiyimiz kimi, Kəbənin Şərq hissəsində Həcərül-əsvəd adlanan Qara daş vardır. Bu daş insan boyu qədərində Kəbəyə yapışdırılmışdır. Səhih hədislərə görə, daş Cənnətdən endirilmişdir. Bu haqda Peyğəmbər buyurub: "Həcərül-əsvəd Cənnətdən endirilib. O süddən ağ idi. Lakin Adəm övladının günahları ucbatından qaralmışdır."[3]

Görkəmli hədis alimi Yaqub Küleyni (876-941) rəvayət edir: "Hələbi deyir: "Əbu Abdullah Sadiqdən soruşdum: "Nə üçün Qara daşa əl sürtülür?" İmam dedi: "Həqiqətən Allah Adəm övladından möhkəm əhd alanda Cənnətdən daşı çağırdı və ona əmr etdi ki, əhdə şahid olsun. O da kimin vəfalı olacağına şahidlik edir."[4]

Bükeyr bin Əyən deyir: "Əbu Abdullahdan sual etdim: "Allahın Həcərül-əsvədi Rüknə qoymasının səbəbi nədir? Niyə onu başqa yerə qoymadı? Nə üçün onu öpürlər? Niyə onu Cənnətdən götürdü? Nə üçün bəndələrin əhdini onda qərar verdi? Bunların səbəbləri nədir? Bunları

[1] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 77.
[2] Bax: Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 523
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. Həmşinin, bu hədisi Tirmizi "Sünən", Şeyx əs-Səduq "əl-Fəqih" (II c. s. 255. Hədis № 2115), əl-Küleyni isə "əl-Kafi" (IV c.) əsərində rəvayət ediblər.
[4] əl-Küleyni. Üsulül-kafi. kitabül-həcc fəsli. IV c. s. 397. Hədis № 2893.

mənə xəbər ver, Allah məni sənə fəda etsin. Mən onların haqqında fikirləşərkən təəccüb edirəm." İmam buyrdu: ÜSən müşkülə düşdüyün məsələlər haqqında soruşdun və məsələləri sonunadək incələdin. İndi cavabları dinlə və başa düş, qəlbini boşalt, diqqət et, inşallah ki, səni bunlardan xəbərdar edəcəm. Həqiqətən Allah taala Həcərül-əsvədi qoydu, o Cənnətdən Adəm üçün çıxarılmışdır. Onu Rüknə qoymasının səbəbi əhdə görədir. Allah Adəm övladından zərr aləmində əhdi bu məkanda almışdı...

Daşın öpülməsinin və ona əl sürtülməsinin səbəbi əhdi təzələmək üçündür.

Onun Cənnətdən çıxarılmasının səbəbinə gəldikdə isə, bilirsənmi daş orada nə idi?" Dedim: "Yox." O, dedi: "Daş Allah yanında ən əzəmətli mələklərdən idi. Allah mələklərdən əhd alan zaman o hamıdan əvvəl iman etdi. Allah da onu bütün yaratdıqları üzərinə əmanətdar etdi ki, əhdi qəbul etsin, onu oraya əmanət qoydu ki, insanlar hər il gəlib onunla əhdi təzələsinlər..."[1]

Görkəmli alim Süyuti (1445-1505) yazırdı: "Həcərül-əsvədin qar kimi ağ olmasından sonra qaralmasının hikməti nədir? Bunun səbəbi ümməti xəbərdar etmək üçündür ki, həqiqətən gunah insan qəlbini qaraldır. Kəbənin soldan sağa təvaf edilməsinin hikməti isə insan qəlbinin solda olmasına görədir."[2]

Şeyx Səduq rəvayət edir: "Həcərül-əsvədə ona görə əl sürtülür ki, insanların əhdi oradadır. O süddən də ağ idi. Lakin Adəm övladının günahından qaraldı."[3]

əl-Cundi isə "Fəzailu-Məkkə" əsərində yazırdı: "İbn Abbas rəvayət edir ki, Qara daş yer üzərində Allahın sağ əlidir. İnsanlar ona əl sürtməklə bir-birləri ilə görüşdükləri kimi sanki Allahla görüşürlər." Bu hədisi Əllamə Məclisi "Biharül-ənvar" əsərində də rəvayət etmişdir.[4]

Tirmizi (824-893) Peyğəmbərdən rəvayət edir: "Qiyamət günü Allah Qara daşı iki gözlü şəkildə dirildəcəkdir."[5]

Həmçinin məşhur hədisşünaslar, o cümlədən Buxari (810-870), Müslüm (821-875), Tirmizi və Nəsai (830-915) Ömər bin Xəttabdan rəvayət edirlər: "Sənin ziyan və xeyir verə bilməyəcəyini bilirəm. Əgər Peyğəmbəri səni öpən görməsəydim, səni heç vaxt öpməzdim."

Digər bir rəvayətdə Peyğəmbərin belə buyurduğu nəql edilir: "Həqiqətən Rüknul-əsvəddə (Qara daş qoyulan yerdə) yetmiş mələk vardır ki, orada rüku, səcdə və təvaf edən müsəlmanlara Allahdan məğfirət diləyirlər."[6]

Başqa bir rəvayətdə isə deyilir: "Qara daşa toxunmaq, Rükni-Yəmaniyə toxunmaq gunahları aradan aparar."[7]

Şeyx Səduq rəvayət edir: "İnsanlar digər iki Rüknə deyil, Həcərül-əsvədə və Rükni-Yəmaniyə ona görə əl sürtürlər ki, Həcərül-əsvəd və Rükni-Yəmani Ərşin sağ tərəfindəndir. Allah da Ərşin sağ tərəfinə toxunmağı əmr etmişdir."[8]

Şeyx Tusi (998-1067) rəvayət edir: "İbrahim bin Əbu Məhəmməd deyir: "İmam Rzaya dedim: "Rükni-Yəmaniyə, Rükni-Şamiyə və Rükni-Ğərbiyyə əl sürtümmü?" İmam buyrdu: "Bəli."[9]

Həmçinin o, rəvayət edir: "İmam Baqir buyurub: "Allahın Rəsulu yalnız Rükni-Əsvədlə, Rükni-Yəmaniyə toxunardı, onların ikisini də öpər və üzünü onların üzərinə qoyardı."[10]

Şeyx Səduq rəvayət edir: "İmam Sadiq buyurub: "Rükni-Yəmani bizim qapımızdır. Biz oradan keçərək Cənnətə daxil olarıq."[11] Həmçinin İmam buyurub: "Allahın yer üzündə əli vardır, onun yaratdıqları Allahla onunla görüşərlər."[12]

---

[1] əl-Küleyni. əl-Kafi. IVc. s. 397-398.
[2] əl-Kənz. s. 99.
[3] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 255. Hədis № 2115.
[4] Əllamə əl-Məclisi. Biharül-ənvar. VI c. s. 97.
[5] Tirmizi. Sünən. Kitabül-həcc fəsli. Hədis № 961.
[6] Həmzə bin Yusif Curcani. Tarixi-Curcan. I c. s. 368; əl-Fəqihi. Əxbaru-Məkkə. Beyrut, Darül-Xızır, II çap, 1414/1994. Hədis № 4.
[7] Şeyx Albani. Səhihül-cami. Hədis № 2194.
[8] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 255. Hədis № 2116.
[9] Şeyx ət-Tusi. əl-İstibsar fi ma uxtulifə minəl-əxbar. 10 cilddə. II c. Beyrut, I çap, 1429/2008. s. 370. Hədis № 2632.
[10] Həmin mənbə. Hədis № 2633.
[11] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 260. Hədis № 2161.
[12] Həmin mənbə. Hədis № 2164.

Abdullah bin Ömər belə nəql edir: "Həqiqətən Rükn və Məqam Cənnətdən gətirilən yaqutdur. Allah onların nurunu almasaydı, bütün şərq və qərb işığa qərq olardı."[1] Hədisdə keçən Rükn sözündə məqsəd Həcərül-əsvəddir. Əli əl-Qariyə fikrincə, onun nurunun alınmasının səbəbi isə, müşrüklərin ona toxunmasına görə olmuşdur.

Digər bir hədis isə İmam Baqirdən nəql olunur: "Uca Allah həzrət İbrahimə Kəbəni tikməsini, təməllərini yüksəltməsini və insanlara nə şəkildə ibadət edəcəklərini göstərməsini əmr etdi. İbrahim və İsmail Kəbənin divarını hər gün bir diz boyu yüksəltdilər. Sıra Həcərül-əsvədin qoyulacağı yerə gəldikdə, Əbu Qübeys dağı İbrahimə dedi: "Məndə sənə aid əmanət vardır. Ona Həcərül-əsvədi verdi."[2]

Doğrudan da bu kimi hədislərlə yanaşı, müasir elmi nailiyyətlər də Qara daşın yer üzərindəki daşlardan olmadığını sübut etməkdədir. Belə ki, bir qrup alimlər Qara daşdan bir hissə götürərək onun üzərində təcrübə aparmış və onun adi daş olmadığına yer üzərindəki daşlardan tamam fərqli xususiyyətə malik olduğunu etiraf etmişlər.

Kəbənin digər tərəfində İbrahim Peyğəmbərin məqamı vardır ki, buna da Məqami-İbrahim deyilir. Qurani-Kərim bu yerin müqəddəs olduğunu önə çəkərək deyir: **"İbrahimin məqamını özünüzə namazgah götürün."**[3] "Məqami-İbrahim" Kəbənin sol tərəfində yerləşir. Bunun səbəbini Şeyx Səduq belə rəvayət edir: "İbrahimin məqamı ona görə solda yerləşir ki, Qiyamət günü İbrahim Peyğəmbərin də, Məhəmməd Peyğəmbərin də məqamı olacaq. Məhəmməd Peyğəmbərin məqamı Ərşin sağ, İbrahim Peyğəmbərin məqamı isə Ərşin sol tərəfində olacaqdır."[4]

"Üsulül-kafi" və "Təfsiru-Əyyaşi" əsərlərinin müəllifləri İmam Sadiqdən belə rəvayət edirlər: "İmamdan - **"orada aşkar nişanələr vardır" -** ayəsinin təfsiri haqqında soruşuldu. İmam buyurdu: - "**aşkar nişanələr**" ayəsində məqsəd İbrahimin məqamıdır. O, daşın üzərinə çıxmış və daşda ayaq izi qalmışdır. Digərləri isə Qara daş və İsmailin otağıdır."[5]

Əksər tarixi rəvayətlərə görə, Məqami-İbrahim Peyğəmbər və birinci xəlifə Əbu Bəkrin (632-634) dövründə Kəbəyə bitişik idi. Lakin ikincə xəlifə Ömər bin Xəttab (634-644) hakimiyyətə gələndən sonra onu Kəbədən ayırıb indiki yerinə qoydu. Beyhəqi ummülmöminin Aişədən belə rəvayət edir: "Həqiqətən Məqami-İbrahim Peyğəmbər və Əbu Bəkrin dövründə Kəbəyə bitişik idi. Lakin Ömər onu oradan ayırdı." İbn Əbi Hatəm də səhih sənədlə İbn Üyeynədən rəvayət edir: "Məqami-İbrahim Peyğəmbərin dövründə Kəbəyə bitişik idi, onun yerini Ömər dəyişdirdi."

Əllamə Şərafəddin Amili yazırdı: "Bu daş əvvəldə Kəbə evinə bitişik idi. Lakin ərəblər həzrət İbrahim və həzrət İsmaildən sonra onu hal hazırda olduğu yerə qoymuşdular. Peyğəmbəri-Əkrəm peyğəmbərliyə məbus olub Məkkəni fəth etdikdən sonra onu ata-babası İbrahim və İsmailin dövründə olduğu kimi Kəbə divarına yapışdırdı. Amma xəlifə Ömər xilafətə gəldikdən sonra onu hazırkı yerinə qoydu. Halbuki daş Peyğəmbər və xəlifə Əbu Bəkrin dövründə Kəbənin divarına yapışmış idi."[6] Beləliklə, Məqami-İbrahim deyə bilinən daş xəlifə Ömərdən sonra da günümüzədək hazırkı yerində qalmaqdadır.

Abdullah bin Ömər Peyğəmbərdən rəvayət edir: "Rükn və Məqam Cənnət yaqutlarından iki yaqutdur. Əgər Allah onların nurunu almasaydı, onların nuru bütün Şərq və Qərbi bürüyərdi."[7]

Əbu Səid əl-Xudri rəvayət edir: "Allah taala məqamı öz nişanələrindən biri etmişdir. O, İbrahimə əmr etmişdi ki, insanları həccə çağırsın. O, məqamın üstünə çixdı. Məqam dağ hündürlüyündə yuxarıya qaldırıldı..."[8]

İmam Sadiq buyurur: "Kəbə Allaha şikayət edib dedi: "Nə üçün mən müşrük insanların görüş yerinə çevrilmişəm?" Allah ona belə vəhy etdi: "Sakit ol! Həqiqətən mən onları sənin üçün yeni bir camaatla əvəz edəcəyəm ki, onlar səni təmizləyib paklayarlar."

---

[1] Tirmizi. Sünən. Həcc-49.
[2] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. I c. s. 410; əl-Küleyni. əl-Kafi. IV c.
[3] Bəqərə surəsi, ayə 125.
[4] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 255. Hədis № 2117.
[5] əl-Küleyni. əl-Kafi. IV c. s. 223. Hədis № 1; Əllamə Təbatəbai. III c. s. 557-558.
[6] Əllamə Şərafuddin Amili. ən-Nasu vəl-ictihad. Tərc.: M.Əlizadə. Bakı, I çap, 1420 h/q. s. 317.
[7] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 84.
[8] Həmin mənbə. s. 85.

Allah Məhəmməd peyğəmbəri və Cəbraili ora göndərdi. İmam sonra dedi: Abdullah bin Ömər, Ürvə bin Zübeyr, Müsəb bin Zübeyr və Əbdülməlik bin Mərvan Kəbənin ətrafına toplaşdılar. Müsəb onlara dedi: "Kəbədən dilədiklərinizi istəyin." Onlar dedilər: "Əvvəlcə sən başla." Müsəb dedi: "İraq vilayətini, Səkinə bint Hüseyni və Aişə bint Təlhəni istəyirəm." O, bunların hamısına nail oldu və bunların hər biri üçün 500 min sədəqə verdi.

Ürvə fiqh elmini mükəmməl bilmək istədi və ona nail oldu.

Əbdülməlik isə xəlifə olmaq istədi və ona nail oldu.

Abdullah bin Ömər Cənnəti istədi."[1]

Kəbənin fəzilətləri Quran və hədisdə mütəvatir olaraq rəvayət edilmişdir. Bütün müsəlman alimləri Peyğəmbər , onun Əhli-beyti və səhabəsindən bu haqda hədislər rəvayət etmişlər. İmam Sadiq buyurur: "Çoxlu xeyir və mənfəət Kəbəni ziyarət edən və orada etikaf edənlər üçündür. Kəbə aləmləri hidayət edir, çünki o insanların qibləsi və ibadətgahıdır. Orada qəribə və aşkar möcüzələr vardır. O hər bir zülmkara qarşı mütləq qalibdir. Necə ki, bunu əshabi-filə və başqalarına göstərmişdi."

Hədisdə deyilir: "Hər kəs həcc üçün yol tədarükünü hazırlasa, ata minib Allah yolunda döyüşə çıxan kimidir."

İmam Sadiq buyurur: "Kəbəyə daxil olmaq Allahın rəhmətinə daxil olmaqdır. Oradan çıxmaq isə günahlardan çıxmaq deməkdir. O şəxs ömrünün qalan hissəsini məsum kimi keçirər. Onun bütün keçmiş günahları bağışlanar."

Həzrət buyurur: "Hər kəs Kəbəyə sukunətlə, təkəbbürsüz və zülm etmədən daxil olsa, günahları bağışlanar."

"Hər kəs hacı olarsa, Kəbəni təvaf edərsə və orada iki rükət namaz qılarsa, Allah ona yetmiş min savab yazar, onun yetmiş min günahın bağışlayar, onun dərəcəsini yetmiş min dəfə qaldırar və ona yetmiş min qul azad etməyin əcrini verər ki, bu qulun da hər birinin qiyməti yetmiş min dirhəmdir."[2]

İmam digər bir hədisində buyurur: "Kəbəyə baxmaq ibadətdir. Allah onun ətrafında 120 rəhmət yaratmışdır. Onlardan 60-ı təvaf edənlər və qəlbən ora bağlananlar üçün, 40-ı namaz qılanlar, 20-si isə oraya baxanlar üçündür."[3]

İmam yenə buyurur: "Hər kəs hərəmə daxil olsa, Allahın qəzəbindən amanda olar. Vəhşilərdən və ya quşlardan oraya girsə, oradan çıxanadək əmniyyət içərisindədir. Həmçinin bir cinayətkar oraya sığınsa, heç kəsə icazə verilmir ki, onu oradan çıxarıb cəzalandırsın. Ancaq onun bazara getməsinə, alış-veriş etməsinə, ona yemək-içmək verilməsinə icazə verilməməlidir. Beləliklə, guman edilər ki, o cinayətkar oradan çıxacaq. Əgər cinayətkar cinayəti hərəmdə işlətsə, ona orada şəri cəza tətbiq etmək olar. Çünki o, Hərəmin hörmətini saxlamamışdır."[4]

Peyğəmbər buyurur: "Beş şey ibadətdəndir: Qurana baxmaq, Kəbəyə baxmaq, Zəmzəmə baxmaq, valideynə baxmaq, alimə baxmaq." [5] Bu hədisin oxşarı İmam Sadiqdən də rəvayət olunmuşdur: "Kəbəyə, valideynə, Qurana, alimə və Ali-Məhəmmədə baxmaq ibadətdir."[6]

İmam Sadiq buyurub: "Qüreyş Kəbəni dağıtdı. Onun sütunları altından bir yazılı vərəq tapdılar. O vərəqi oxuya bilmədikləri üçün bir nəfər tapıb vərəqi ona oxutdular. O vərəqdə yazılmışdı: "Mən Məkkənin sahibi, göyləri və yerləri yaratdığım andan bəri oranı həram qərar verdim, onu bu iki dağın arasında yerləşdirdim. Onu doqquz iqlimin əhatəsində etdim."[7]

İmam başqa bir hədisində deyir: "Hər kəs Kəbəyə baxsa, gözünü oradan çəkənədək ona bir savab yazılar və onun bir günahı pozular. Bu iş o gözünü oradan çəkənədək davam edər."[8]

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 306.

[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. c. 96, s. 250; Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 260. Hədis № 2138, 2150, 2151, 2152.

[3] əl-Küleyni. Üsulül-kafi. IV c. s. 426. Hədis № 3019; Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 260. Hədis № 2154.

[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 305-306.

[5] Əhməd Cad. Vasfül- Kəbətil- müşərrəfə və tarixüha. s. 22.

[6] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 259. Hədis № 2145.

[7] əl-Küleyni. əl-Kafi. IV c. s. 418. Hədis № 2956.

[8] əl-Küleyni. əl-Kafi. IV c. s. 426. Hədis № 3021; Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 259. Hədis № 2144.

İmam yenə buyurur: “Hər kəs Kəbəyə bizim və Kəbənin haqqını və hörmətini tanıyaraq baxarsa, Allah onun günahlarını bağışlayar,[1] dünya və axirətin sıxıntısından onu amanda saxlayar.”[2]

Peyğəmbər buyurub: “Vacib həcci yerinə yetirməyib ölən şəxs yəhudi və məsihi kimidir”[3].

Həzrət digər bir hədisində buyurur: “Allah vədə vermişdir ki, bu evi hər il 600 min dəfə ziyarət etsinlər. Əgər bunda naqislik olsa, Allah onu mələklərlə təkmilləşdirər.”[4]

O, buyurur: “Bil ki, sən həcc yoluna yönələn zaman öz miniyin ilə getdikdə, Allah hər addımında bir savab yazır, digər addımında isə Allah bir günahını pozur. Elə ki, sən ehram bağladın və təlbiyə dedin, Allah hər təlbiyən üçün sənə on savab yazar və on günahını bağışlayar. Elə ki, sən Kəbəni yeddi dəfə təvaf etdin, Allahın sənin üçün əhdi vardır ki, sənə əzab verməkdən həya edər. Elə ki, sən Məqami-İbrahimin arxasında namaz qıldın, Allah sənə iki min rükət namaz yazar. Elə ki, Səfa və Mərvə arasında səy etdin, Allah sənə öz ölkəsindən piyada gəlib həcci ziyarət edən şəxsin və yetmiş mömin qulu azad etmiş şəxsin savabını yazar.”[5]

Digər bir hədisi-şərifdə isə buyurur: “Hacılar Məkkəyə qədəm qoyduqda mələklər onlarla görüşər. Allah hər gecə yer əhlinə nəzər salar. Onun ilk nəzər saldığı şəxs Hərəm (Kəbə) əhlidir. Əgər o, görsə ki, o şəxs Məscidülhəramıda təvaf, namaz və ya qiyam halındadır, onu bağışlayar.”[6]

İmam Sadiq buyurur: “Əgər bəndə bu evi yeddi dəfə təvaf edərsə, iki rükət namaz qılarsa, Səfa və Mərvə arasında səy edərsə, Allah ona altı min savab yazar, altı min günahın bağışlayar. Onun dərəcəsini altı min dəfə yüksəldər və onun altı min istəyin ödəyər. Həmçinin onun altı min istəyin axirətə saxlayar.”[7]

Kəbə ziyarətinin savab və əhəmiyyətini önə çəkən İmam Əli buyurur: “Allah öz möhtərəm evinin həccini sizə vacib etdi. Allah aşiqləri qiblə seçilmiş bu evə can atar, göyərçin tək ona sığınarlar. Allah Kəbəni öz əhəmiyyəti qarşısında bəndələrin təvazö məkanı, İlahi qüdrətin etiraf nişanəsi qərar verdi. İnsanlar arasında eşidən bəndələr seçdi ki, onun dəvətini qəbul edib, sözünü təsdiqləsinlər və ilahi peyğəmbərlərin məkanına qədəm qoysunlar. Onlar Allahın Ərşi ətrafında mələklər tək təvaf edərlər. Onlar bu ibadətgahda və ziyarətçilərin ziyarət məhəllində böyük faydalar əldə edər, ilahi bağışlanma yerinə tələsərlər. Allah Kəbəni İslam üçün aydın nişanə, pənah axtaranlar üçün əmin-aman ev qərar verdi. Onun haqqının ədasını vacib etdi, Allah evinin həccini vacib buyurdu və siz insanlar üçün müəyyənləşdirdi ki, onun ziyarətinə gedəsiniz. Allah buyurdu: “Allah evinə getməyə gücü çatan kimsəyə həcc vacibdir. Kim inkar etsə, Allah aləmlərdən ehtiyacsızdır.”[8]

İmam digər bir hədisdə buyurur: “Həcci ziyarət etmək qəlblərə aramlıq və sakitlik gətirər.”[9]

İmam Sadiq buyurur: “Hər kəs hacını üst-başı torpaqlı halda qucaqlasa, sanki Qara daşa əl sürtmüşdür.”[10]

Həmçinin hədisi-şərifdə buyurulur: “Hər kəs həcci haram mal ilə ziyarət etsə, o, təlbiyə deyən zaman ona deyilər: “Bəndəm, sənin lə deyiləm və sənə səadət yoxdur!”[11]

İmam Sadiq buyurur: “Sizlərdən biri din qardaşının həccini təxirə salsa, dünyada görəcəyi fitnədən, axirətdə alacağı cəzadan çox qorxsun.”[12]

Əbu Həmzə əs-Sumali deyir: “Əbu Abdullaha Məscidülhəram haqqında dedim: “Allah oranı nə üçün Ətiq adlandırıb?” İmam buyurdu: “O elə bir ev deyildir ki, Allah onu yer üzündə yarada, sonra da ona sahib və onu sakinlər məskəni edə. Onun Allahdan başqa heç bir yiyəsi və sahibi

[1] əl-Küleyni. əl-Kafi. IV c. s. 426. Hədis № 3023.
[2] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 259. Hədis № 2143.
[3] Feyz əl-Kaşani. əl-Məhəccətül-beyza. II c. s. 145.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 529.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 250; Şeyx əs-Səduq. Amal. s. 328. Məclis-86.
[6] Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 530.
[7] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 250; Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 530.
[8] Seyid Rəzi. Nəhcül-bəlağə, I xütbə.
[9] Əllamə əl-Məclisi. Biharül-ənvar. LXXVc. s. 221.
[10] Şeyx əs-Səduq. əl-Fəqih. I c. s. 196.
[11] Həmin mənbə.
[12] Feyz əl-Kaşani. əl-Məhəccətil-beyza. II c. s. 151.

yoxdur. O azad bir evdir. Allah onu yer üzündən əvvəl yaratmış və yer üzünü onun altından dartıb genişlətmişdir."[1]

İmam Sadiq buyurur: "Əgər insanlar həcci ziyarət etməyi tərk etsələr, onlara mütləq əzab nazil olar."[2]

İmam Kəbənin ziyarət olunmasının çox əhəmiyyətli olduğunu bir daha diqqətə çatdıraraq buyurur: "Əgər insanlar Kəbəni ziyarət etməyi tərk etsələr, rəhbərə vacibdir ki, onları bu işə məcbur etsin. Əgər kasıb olsalar, onlara beytül-maldan versin ki, ziyarətə getsinlər."[3]

1.16. Məkkə şəhərinin fəzilətləri

Görkəmli hədisşünaslar, o cümlədən Məhəmməd bin İsmayıl əl-Buxari (810-870) və Müslüm bin Həccac ən-Nisaburi (821-875) "Səhih", Məhəmməd bin Yaqub əl-Küleyni (876-941) "Üsulül-kafi", Şeyx əs-Səduq (917-991) "əl-Fəqih", Şeyx ət-Tusi (998-1067) "Təhzibül-əhkam", Əllamə əl-Məclisi (1628-1700) "Biharül-ənvar", Hürr əl-Amili (1625-1695) "Vəsailüş-şiə" və digər alimlər də öz əsərlərində Məkkənin fəzilətlərinə aid çoxlu sayda hədis rəvayət etmişlər. Əllamə Məclisi yazırdı: "İmam Sadiq buyurdu: "Hər kəs Məkkəyə təvazökar halda daxil olsa, Allah onun bütün günahlarını bağışlayar."[4]

Peyğəmbər Məkkə şəhərinin fəzilətləri haqqında buyurur: "Hər kəs Məkkənin istisinə dözsə, Allah ondan Cəhənnəmin odunu yüz illik məsafə qədər uzaqlaşdırar və onu yüz illik məsafə qədər Cənnətə yaxınlaşdırar."[5]

Peyğəbər digər bir hədisində buyurur: "Yer üzündə Cənnətin qapılarının hamısının açıldığı Məkkədən başqa bir şəhər yoxdur. Cənnətin qapıları səkkizdir və onların hamısı Qiyamət günü Cənnətə açılacaqdır. O qapılardan biri Kəbə üçündür. O qapılardan biri Rükni-Yəmaninin yanındadır. O qapılardan biri Həcərül-əsvədin yanındadır. O qapılardan biri Məqami-İbrahimin arxasındadır. O qapılardan biri Zəmzəmin yanındadır. O qapılardan biri Səfanın üzərindədir. O qapılardan biri Mərvanın üzərindədir. Heç bir şəxs Allahın rəhmətindən başqa bir şeylə Kəbəyə girməz. Heç bir kimsə Allahın rəhmətindən başqa bir şeylə ordan çıxmaz. Allah belə buyrub: "**kim ora** (Kəbəyə) **girərsə, əmniyyətdə olur."[6]**

Həmçinin buyurur: "Yer üzündə on beş yerdə duanın qəbul olduğu Məkkədən başqa heç bir şəhər yoxdur. Kəbənin içində edilən dua mütləq qəbul olunur. Həcərül-əsvədin yanında edilən dua qəbul olunur. Rükni-Yəmaninin yanında edilən dua qəbul olunur. Hicrin yanında edilən dua qəbul olunur. Məqami-İbrahimin arxasında edilən dua qəbul olunur. Zəmzəm quyusunun yanında edilən dua qəbul olunur. Səfa və Mərvə üzərində edilən dua qəbul olunur. Səfə və Mərvə arasında edilən dua qəbul olunur. Rükn və Məqam arasında edilən dua qəbul olunur. Minada edilən dua qəbul olunur. Ərəfatda edilən dua qəbul olunur. Məşərül-haram da edilən dua qəbul olunur."

Həzrət yenə buyurur: "Ən xeyirli, ən təmiz və Allaha ən yaxın bölgə Rükn və Məqami-İbrahimin arasıdır."

Digər bir hədisdə isə deyir: "Allahın hərəmindəki və əmin bölgəsindəki bir gün bütün zamanın orucundan və bütün şəhərlərdəki gecə namazlarından daha üstündür."

O, yenə buyurur: "Yer üzündə bir yaxşılığa min savab verilən Məkkədən başqa bir bölgə yoxdur. Kim orada bir rəkət namaz qılarsa, o namaz yüz min rəkət hesab olunar. Kim orada bir gün oruc tutarsa, ona yüz min günün orucu yazılar. Kim orada bir dirhəm sədəqə verərsə, yüz min dirhəm sədəqə yazılar. Kim orada Quranı bir dəfə xətm edərsə, Allah ona yüz min Quran xətmi yazar. Bütün yaxşı əməllərin hamısı orada yüz min yazılar. Allahın Qiyamət günü peyğəmbərlərdən, seçilmişlərdən, müttəqilərdən, yaxşılardan, siddiqlərdən, şəhidlərdən, salehlərdən, alimlərdən, fəqihlərdən, yoxsullardan, hukəmadan, zahidlərdən, çox ibadət edənlərdən,

[1] əl-Küleyni. əl-Kafi. IV c. s. 400. Hədis № 2901.
[2] Həmin mənbə. s. 442. Hədis № 3119.
[3] Həmin mənbə. Hədis № 3124.
[4] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 148; VI c. s. 97.
[5] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 305.
[6] Ali-İmran surəsi, ayə 96.

həşr etdiyi Məkkədən başqa heç bir şəhər bilmirəm. Şübhəsiz ki, onlar Allahın əzabından arxayın bir şəkildə orada həşr olunacaqlar."

Yer üzərində ilk yaradılan dağ Əbu Qübeys dağıdır. Beyti ilk təvaf edən mələklərdir. Allah Adəmi yaratmamışdan iki min il öncə Allahın göy üzündən yer üzünə ehtiyac üçün göndərdiyi mələklər Ərşin altında yuyunar, ehrama girər Kəbəni yeddi dəfə təvaf edər, sonra Məqami-İbrahimin arxasında namaz qılar, sonra ehtiyac və Allahın göndərdiyi işin ardınca gedərlər...

Yer üzündə bütün peyğəmbərlərin, mələklərin, bütün Allah rəsullarının, Allahın saleh qullarının, yer və səma əhlinin, cinlərin toplandığı Məkkədən başqa bir şəhər yoxdur."

Allahın Rəsulu Məkkədən çıxan zaman dedi: "And olsun Allaha! Mən bilirəm ki, sən Allahın məntəqələri içərisində mənə ən sevimli olansan. Şübhəsiz ki, sən Allaha da ən sevimli olansan. Sən yer üzünün ən xeyirli yerisən."[1]

Peyğəmbərin xanımı Aişə bint Əbu Bəkr deyir: "Əgər hicrət olmasaydı, Məkkədə məskunlaşardım. Mən göylərə Məkkə qədər yaxın yer tanımıram. Məkkədə olduğum kimi heç bir bölgədə qəlbim bu qədər rahat olmur. Ayı Məkkədə olduğu kimi heç bir yerdə belə aydın görmürəm."[2]

Əbu Hüreyrə belə rəvayət edir: "Peyğəmbər buyurdu: "Namaz və ibadət üçün heç bir məscidə səfər etmək doğru deyildir, yalnız bu üç məscidə səfər edilər: Məscidülhəram, Məscidür-Rəsul və Məscidül-Kufə."[3]

Digər bir hədisdə isə buyurur: "Yalnız bu üç məscidə səfər edilər: Məscidülhəram, Məscidun-Nəbi və Məscidüləqsaya."[4]

Əbuzər rəvayət edir: "Peyğəmbər dedi: "Bu həqiqətdir ki, yer üzündə ilk mübarək qılınan və içində namaz qılınsın deyə Məkkədə inşa edilən Kəbədir." Mən: "Sonra hansı?" - deyə soruşdum. O dedi: "Məscidüləqsa." Mən: "İkisinin arasında nə qədər fərq var?" - deyə soruşdum." Dedi: "Qırx il."[5]

Peyğəmbər buyurub: "And olsun Allaha! Məryəm oğlu İsa həcc və ümrə etmək üçün təlbiyə deyəcəkdir."[6]

Əbu Hüreyrə nəql edir: "Peyğəmbərdən eşitdım ki, dedi: "Bu məscidimdəki bir namaz Məscidülhəramdan başqa digər məscidlərdə qılınan min namazdan üstündür."[7]

Peyğəmbər buyurur: "Məkkəni insanlar deyil, Allah hərəm qılmışdır. Allaha və axirətə inanan heç bir mömünə orada qan tökmək halal olmaz, ağac qopartmaq olmaz. Əgər biri desə ki, Peyğəmbər orada qan töküb ona belə deyin: "Allah peyğmbərə icazə vermişdi, amma sizə icazə vermir." Məkkədə mənə günortanın bir müddətində icazə verildi. Sonra bunu təkrar olaraq haram etdi."[8]

Peyğəmbər digər bir hədisində buyurur: "Allah bu diyarı yeri və göyü yaratdıqdan bəri hərəm etmişdir."[9] Bura Qiyamətə qədər Allahın haramı ilə haramdır. Məndən öncə heç kimsəyə belə orada qan tökmək halal olmamışdır. Mənə də günün bir müddətində halal edildi. Bura Qiyamətə qədər Allahın haramı ilə haramdır"[10] (Allaha və axirətə inananlara orada qan tökmək halal deyil).

Həmçinin buyurub: "Məkkədə silah daşımaq heç kəsə halal deyil."[11]

---

[1] "Səhihi-Buxari" və "Səhihi-Müslim" əsərlərinə istinadən.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 305.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 94.
[4] "Səhihü-Buxari" və "Səhihi-Müslim" əsərlərinə istinadən. Qeyd edək ki, bu hədisi zəif bilən alimlər vardır.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 95; Səhihi-Buxari. Ənbiya-8; Səhihi-Müslim. Məsacid-2; Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 305.
[6] Səhihi-Müslim. Həcc-216.
[7] Malik bin Ənəs, əl-Müvəttə, Qiblə-9; Sünəni-Nəsai. Məsacid-7.
[8] Səhihi-Buxari. Elm-37; Səhihi-Müslim. Həcc-446; Sünəni-Tirmizi. Həcc-1.
[9] əl-Küleyni. əl-Kafi. IV c. s. 418. Hədis № 2958.
[10] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 94; Yaqut əl-Həməvi. Möcəmül-büldan. V c. s. 183; Bağır Şərif əl-Qürəşi. Həyatu-Muhəmməd. I c. s. 27.
[11] Səhihi-Müslim. Həcc-449; əl-Küleyni. əl-Kafi. IV c. s. 420.

Həzrət Peyğəmbər Məkkəyə aid digər bir hədisində isə buyurur: “Sən nə xoş xəbərsən, səni nə qədər sevirəm. Əgər qövmüm məni buradan çıxmağa məcbur etməsəydi, səndən başqa bir yerdə yaşamazdım”[1].

İmam Cəfər Sadiq buyurur: “Elə ki, Adəm və zövcəsi buğdadan daddı, Allah onları Cənnətdən çıxarıb yer üzünə endirdi. Adəm Səfa dağına, Həvva isə Mərvə dağına endirildilər. Səfa dağı ona görə Səfa adlandı ki, o Adəmi-Mustafa sözündən götürülmüdü. Necə ki, Allah buyurur: “Allah Adəmi və Nuhu seçmışdi (İstafa Adəmə və Nuha).” Mərvə dağı isə ona görə Mərvə adlanır ki, o mərətun (qadin) sözündən götürülüb. Adəm deyir: “O, mənə halal olmadığından, bir birimizdən ayrı düşdük. Əgər bir-birimizə halal olsaydıq, mənimlə birlikdə Səfaya düşərdik. Adəm Həvvadan ayrılmışdı, buna görə də ona qovuşmaq istəyirdi. O, günorta vaxtı onun yanına gəldi və Mərvədə onunla söhbət etdi. Elə ki, gecə oldu onları qorxu bürüdü. Onlar Səfaya gəlib orada gecələdilər. Adəmin Həvvadan başqa ünsiyyət quracaq kimsəsi yox idi. Qadınlar ona görə (ərəbcə) nisa adlanır ki, Həvva Adəm üçün ünsiyyətə çevrildi. Allah onunla danışmır və ona heç bir elçi göndərmirdi. Sonra ona tövbəni və bəzi kəlmələri öyrətdi. Elə ki, Adəm o kəlmələrlə danışdı, Allah onun tövbəsini qəbul etdi, sonra da Cəbraili ona göndərdi. Cəbrail ona dedi: “Salam olsun sənə, ey günahlardan tövbəkar, bəlalara isə səbir edən Adəm! Allah məni sənin yanına göndərdi ki, sənə həccin əməllərini öyrədim ki, onunla paklanasan.” Sonra Cəbrail Adəmin əlindən tutub Kəbənin yerləşdiyi yerə gəldilər. Allah onlara bir xeymə endirdi, o Kəbənin yerinə qoyuldu ...”[2]

Yaqub Küleyni səhih bir sənədlə İmam Sadiqdən belə bir hədis nəql edir: “Adəm Kəbəni təvaf etdikdən və ona vacib edilən işləri sona yetirdikdən sonra Cəbrail ona dedi: “Ey Adəm, Rəbbindən istə ki, bu məkanda sənin günahlarını bağışlasın!” Adəm dayanıb dedi: “Ey Rəbbim, hər bir zəhmət çəkənin mükafatı vardır. Mən də zəhmət çəkdim, bunun mükafatı nədir?” Allah ona belə vəhy etdi: “Ey Adəm, artıq sənin günahlarını bağışladım.” Adəm dedi: “Bəs zürriyyətimin necə?” Allah belə vəhy etdi: “Ey Adəm, zürriyyətindən hər kəs bu məkana gəlsə və günahlarını iqrar etsə və sonra da sənin kimi tövbə etsə, sonra da məndən bağışlanma istəsə, onu bağışlayaram.”[3]

Həmçinin hədisi-şəriflərdə Kəbə Məkkədə yerləşdiyindən ora dünyanın hər yerindən daha fəzilətli hesab olunur. Zürarə rəvayət edir: “Asim bin Ömər adlı bir kişi İmam Sadiqin yanına gılib dedi: “Kəbul Əhbar deyirdi: “həqiqətən Kəbə hər günorta Beytülmüqəddəsə səcdə edir.” İmam ona dedi: “Kəbul Əhbarın sözü barəsində sənin fikrin nədir?” İbn Ömər dedi: “Kəbul Əhbar doğru deyir.” İmam qəzəblənib dedi: “Sən də, Kəbul Əhbar da yalan deyirsiniz. Allah yer üzündə ondan daha sevimli yer yaratmamışdır.”[4]

Məkkə şəhərinin fəzilətli olmasının səbəblərindən biri də orada Kəbədən başqa digər müqəddəs məkanların olmasıdır. Belə ki, həzrət Adəm və həzrət İbrahim peyğımbərlərin orada həcc əməllərinin əsasını qoymaları və bu ənənələrin Allah tərəfindən İslam ümmətinə vacib edilməsi sözümüzə dəlildir. Bundan əlavə, orada minlərlə peyğəmbər qəbirlərinin olması da bu şəhərin müqəddəsliyini və fəzilətlərini artırmaqdadır.

Məkkədə olan müqəddəs yerlərdən biri Ərəfat çölüdür. Buranın Ərəfat adlanmasını Şeyx Səduq belə rəvayət edir: “Ərəfat ona görə Ərəfat adlanır ki, Cəbrail İbrahimə dedi: “Burada günahlarını etiraf et və həccin əməllərini öyrən!” Bundan sora bu çöl Ərəfat adlandı.”[5]

Digər bir hədisdə isə Ərəfatın Ərəfat adlanmasının səbəbi, Adəmlə Həvvanın bir-birlərini burada tanımalarına (təarəfa) görə belə adlanib. Bir yəhudi Peyğəmbərin yanına gəlib ona belə bir sual verdi: “Nə üçün Allah axşamçağı (əsr vaxtında) Ərəfatda dayanmağı vacib edib? Peyğəmbər buyurdu: “Çünki, Adəm axşamçağı günah etdi.[6] Allah da bu vaxti orada dayanıb yalvarmağı ümmətimə vacib etdi və bununla onların Cənnətə girmələrini öz üzərinə götürdü.”[7]

---

[1] Sünəni-Tirmizi. Mənaqib -3922.
[2] əl-Küleyni. əl-Kafi. IV c. s. 400-401. Hədis № 2904, 2905.
[3] Həmin mənbə. s. 402. Hədis № 2906.
[4] Həmin mənbə. IV c. s. 424. Hədis № 3018.
[5] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 256. Hədis № 2126.
[6] Qeyd: Peyğəmbərlər mütləq mənada məsumdurlar, yəni tam günahsızdırlar. Bu Quran və Sünnədə təsbit olunmuşdur. Onların adına günah dedikdə, məqsəd onların tərki-övla olmalarıdır, yəni bəzən əlanı qoyub yaxşıya əməl etmişlər.
[7] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 411; Əllamə əl-Hairi. Dairətül-məarif. XII c. s. 548.

Məkkədə olan digər müqəddəs məkanlardan biri Müzdəlifədir. Buna Məşərül-haram da deyilir. Bu yerin belə adlanmasının səbəbini Şeyx Səduq bu rəvəyətə bağlayır: "Cəbrail İbrahimə Ərəfatda dedi: "Ey İbrahim, Məşərül-harama yola düş (izdəlif)." [1] Lakin, bəzi müəlliflər, o cümlədən Əllamə Hairi Müzdəlifə sözünü Adəmin əhvalatı ilə əlaqələndirir və belə nəql edir: "Bura ona görə Müzdəlifə adlanır ki, Adəm və Həvva burada görüşmüşdür. Bu söz toplanmaq və ictimai yer mənasındadır."[2]

Məkkədəki fəzilətli yerlərdən biri Minadır. Bu yerin Mina adlanmasının səbəbi hədisdə belə göstərilir: "Cəbrail İbrahimin yanına gəlib dedi: "Ey İbrahim istə! (təmənna)." Bundan sonra insanlar bura Mina (yəni təmənna edilən yer) dedilər." Digər bir hədisdə isə deyilir: "Bura ona görə Mina adlanır ki, İbrahim orada Rəbbindən təmənna etdi ki, oranı oğlunun qurbangahı etsin"[3].

Məkkədə diqqəti çəkən və həcc ayinlərinin icra olunduğu məkanlardan biri də Minadakı Şeytan yerinin daşlanmasıdır. Hədis mənbələrində göstərilir ki, "Bu məkanda Şeytanı ilk daşlayan Adəm olmuşdur. Ondan sonra bu işi İbrahim davam etdirmişdir. Lakin mötəbər bir hədisdə deyilir ki, bu yerdə Şeytan İbrahimə göründü. İbrahim onu görcək daşladı."[4]

1.17. Peyğəmbərin Məkkədəki möcüzələri

Peyğəmbər peyğəmbərliyinin təxminən on iki ilini Məkkədə keçirmiş və burada öz missiyasını təbliğ etmişdir. Onun Məkkədəki peyğəmbərlik dövrü miladi tarixlə 610-cu ildən 622-ci ilədək olmuşdur. O, bu dövr ərzində Məkkə müşrüklərini imana gətirmək üçün bir çox möcüzələr göstərmişdir. Əllamə Məclisi "Biharül-ənvar" adlı əsərinin XVII və XVIII cildlərində Peyğəmbərin möcüzələri haqqında çox geniş məlumat vermişdir. O, Peyğəmbərin ilk möcüzəsinin Quran olması, bütün dilləri bilməsi, ayı barmağı ilə ikiyə bölməsi, günəşi geriyə qaytarması, göydən onun üçün süfrələrin nazil olması, ölüləri diriltməsi, cansız təbiət və heyvanlar aləmi ilə əlaqəli möcüzələri haqqında yüzlərlə hədis rəvayət etmişdir.[5]

Beləliklə, Peyğəmbərin Məkkədə göstərdiyi möcüzələrdən aşağıdakıları qeyd etmək olar:

1.17.1. Qurani-Kərim

Qurani-Kərim Peyğəmbərin ən böyük möcüzəsi hesab olunur. O nazil olduğu dövrdə Məkkə şəhərində və ümumiyyətlə Ərəbistanda ədəbiyyat elmləri xüsusi ilə də şeir sənəti özünün qızıl dövrünü yaşayırdı. Belə olan təqdirdə zühur edən peyğəmbər ən yüksək fəsahət və bəlağətlə o insanların qarşısına çıxıb özünün elmi möcüzələrini ortaya qoymalı idi. Bu belə də oldu. Allah peyğəmbərə misli görünməmiş və heç bir bəşər təfəkkürü tərəfindən deyilə bilinməyən kəlmələr nazil etdi. Buna görə də Allah Quranın bir neçə yerində fəsahət və bəlağət əhlini onun sözünün müqabilində söz söyləməyə, yəni insanları söz mübarizəsinə dəvət etdi. Belə ki, O, buyurur**: "Əgər bəndəmizə nazil etdiyimizə** (Qurana) **şəkkiniz varsa, siz də** (fəsahətdə və bəlağətdə) **ona bənzər bir surə gətirin və əgər sizin iddianız doğrudursa, Allahdan savayı bütün şahidlərinizi köməyə çağırın!"** [6] **"Yoxsa: "**(Peyğəmbər) **onu özündən uydurdu! "- deyirlər. De ki: "Əgər doğru deyirsinizsə ona** (Qurana) **bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da** (köməyə) **çağırın!"**[7]

"Həqiqətən bu Quran (bütün bəşəriyyəti) **ən doğru yola** (İslama) **yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir!"**[8]

---

[1] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 256. Hədis № 2126; Əllamə əl-Məclisi. Biharül-ənvar. I c. s. 142.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 99.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 426; Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 256. Hədis № 2127.
[4] Şeyx əs-Səduq. əl-Fəqih. II c. s. 257. Hədis № 2136.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XVII və XV c. I fəsildən X fəsilədək.
[6] Bəqərə surəsi, ayə 23.
[7] Yunus surəsi, ayə 38.
[8] İsra surəsi. ayə 9.

1.17.2. Ağac möcüzəsi

Peyğəmbərin ən böyük möcuzələrindən biri ağac möcüzəsidir.[1] O, möcüzəni Məkkədə göstərmişdir. Möcüzəni İmam Əli belə rəvayət edir: "Mən Peyğəmbərlə birlikdə idim. Qüreyişdən bir toplum onun yanına gəlib dedi: "Ey Məhəmməd, sənin ata-babandan və evindən heç kəsin iddia etmədiyi böyük iddianı sənmi edirsən? Biz səndən bir şey tələb edəciyik, əgər sən bizə cavab verib onu bizə göstərsən biz biləyəcəyik ki, sən peyğəmbər və rəsulsan. Əgər bunu edə bilməsən, biləyəcəyik ki, sən sehirbaz və yalançısan."

Peyğəmbər buyurdu: "Nə istəyirsiniz?"

Onlar dedilər : "Bu ağacı bizim yanımıza çağır ki, sənin yanında dayansın."

Həzrət buyurdu: "Həqiqətən Allah hər şeyə qadirdir. Əgər Allah bunu sizin üçün etsə, haqqa iman gətirib şəhadət verəcəksinizmi?"

Dedilər: "Bəli."

Peyğəbər buyurdu: "Mən sizə istədiyinizi göstərəcəyəm, ancaq bilirəm ki, siz xeyirə qayıtmayacaqsınız."

Peyğəmbər sonra dedi: "Ey ağac, əgər Allaha və axirət gününə inanırsansa və mənim Allahın rəsulu olduğumu bilirsənsə, Allahın izni ilə mənə tərəf gəl ki, əlim sənə çatsın."

And olsun onu haqq olaraq göndərənə, ağac peyğmbərə tərəf gəldi..."[2]

1.17.3. Ayın parçalanması möcüzəsi

Müşriklər ayın parçalanmasını ondan tələb etdilər və həzrət bunu göstərdi.[3] Bu möcüzəni tələb edənlər və orada iştirak edənlər aşağıdakılardır:

Vəlid bin Müğeyrə, Əbu Cəhl, As bin Vail, As bin Hişam, Əsvəd bin Əbd, Nəzr bin Haris və digər müşriklər. Bu şəxslər Peyğəmbərin yanına gəlib dedilər: "Əgər doğru deyirsənsə, bizim üçün ayı iki yerə parçala. Bir hissəsi Əbu Qübeys, digər hissəsi isə Qeyqəanın üzərində dayansın."

Peyğəmbər onlara dedi: "Əgər siz deyəni etsəm inanarsız?"

Onlar dedilər: "Bəli."

Peyğəmər Allahdan onların istədiklərini istədi. Allah da onun duasını qəbul etdi. Onların yalnız az qismi iman gətirdilər. Ay iki yerə parçalandı, yarsı Əbu Qübeys yarsı da Qeyqəanın üstündə dayandı. Peyğəmər buyurdu: şahid olun." Onların çoxusu dedi: "Bu yalnız sehrdir."[4]

1.18. Kəbənin tarixinə aid ən mühüm hadisələr

1.18.1. Fil hadisəsi

Fil hadisəsi Kəbənin tarixinə aid olan ən mühüm hadisələrdəndir. Allah Qurani-Kərimdə bu hadisə ilə əlaqədar bir surə də nazil etmişdir. Bu surə "Fil" surəsi adlanır. Bu da Fil hadisəsinin nə qədər tarixi əhəmiyyət kəsb etdiyini və Kəbənin yer üzündə ilahi bir sığınacaq olduğunu sübut edir. Fil hadisəsi Məkkə şəhərinin tarixində elə mühüm rol oynamışdı ki, hətta ərəblər öz tarixlərini bu ildən götürüb və ona "ammul-fil" demişlər. Fil hadisəsi bütün tarix kitablarında öz əksini tapmışdır. Bu hadisəni qələmə alan görkəmli İslam alimi Cəfər Subhani yazır: "Fillərin Məkkəyə hücum etdikləri ilə "Ammul-fil" deyirlər. "Amm" ərəb dilində "il" deməkdir və fil dedikdə Yəmən ordusunun Kəbəni dağıtmaq üçün hazırladığı döyüş filləri nəzərdə tululur. Hadisə belə olmuşdur: Yəmən hakimi Zinuvas səfərlərin birində Yəsribdən keçirdi. O vaxt Yəsribin dini cəhətdən vəziyyəti yaxşı idi. Orada bir neçə yəhudi qəbiləsi yaşayırdı. Yəhudi təbliğatçıları fürsəti əldən verməyib onu öz dinlərinə dəvət etdilər. Zunuvas da qəbul etdi və bu dinin təbliğinə böyük səylər göstərərək muxalifləri cəzalandırdı. O zaman Nəcran şəhərinin əhalisi xiristian idi və yəhudi dinini qəbul etməkdən boyun qaçırdılar. O, Nəcran üsyançılarını darmadağın etmək üçün oraya qoşun

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. XVII c. III fəsil.

[2] Məhəmməd əl-Qürəşi. Həyətu-Muhəmməd. I c. s. 227.

[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XVII c. III fəsil.

[4] Səhihi-Buxari. IV c. s. 243; Səhihi-Tirmizi. III c. s. 211; Müsnədi-Əhməd. I c. s. 413; Həyatu-Muhəmməd. I c. s. 228.

yeritdi. Ordu sərkərdəsi Nəcranın bir hissəsini özü üçün ordugah seçdi, orada böyük bir xəndək qazdirdı və içində od yandırıb "muxalifləri orada yandıracağam", -deyə hədələdi. Lakin xiristian əhalisi dinindən dönmədi və odda yanmağı üstün tutdular. Nəhayət, onlar odda yanıb kül oldular. Bu vaxt həzrət Məsihin dinində olan və öz ayinini təbliğ etmək üçün çoxlu səy göstərən Roma imperatoru həmin əhvalatdan xəbərdar oldu. Nəcranlı Dus adlı bir şəxs Zunuvasın zülmündən romaya qaçaraq bu ölkənin padşahından xahiş etdi ki, Zunuvası cəzalandırsın və günahsız Nəcran əhalisinin intiqamını alsın. Roma imperatoru üzr istəyib dedi: "Yəmən bizdən uzaqdır, lakin Həbəşistan padşahına bunun əvəzini çıxması üçün bir məktub yazaram."

O, məktubu yazıb nəcranlı bir şəxsə verdi. Məktubda xahiş etdi ki, Həbəşistan padşahı nəcranlıların intiqmını o zülmkardan alsın. Məktub Həbəşistan padşahına çatdıqda o, Əryat adlı bir nəfərin başçılığı ilə yetmiş min nəfərlik ordu təşkil edib Yəmənə göndərdi. Həbəşistan ordusu dəniz yolu ilə gəlib Yəmənin sahilində düşərgə saldı.

Zunuvas öz tərafdarları ilə birgə onların qəfil hucumlarına tab gətirə bilməyib məğlub oldu.Yəmən isə Həbəşistan ordusunun əlinə keçdi və Əryat Həbəşistan hakimi tərəfindən Yəmənə hakim təyin olunmuş Əryatın bu döyüşdə qələbə çalması onda baş gicəllənməsinə səbəb oldu və nəticədə şöhrətpərəstliyə qurşandı. Bu zaman Həbəşistan padşahının diqqətini cəlb etmək üçün böyük bir kilsə tikdirdi və padşaha yazdı ki, bu kilsə ərəblərin təvaf yeri olacaq və onlar əsas ziyarətləri olan Kəbəni unudacaqlar. Lakin bunun əksinə olaraq Kəbə öz qüdrət və möqeyini qoruyub saxladı və Yəməndə tikilən məbəd razılıqla qarşılanmadı. Ancaq Əryatı əvəz edən Həbəşistan hakimi Əbrəhə bu mənəvi məğlubiyyətə görə Kəbəni məhv etmək qərarına gəldi. O, ordunun önündə hərəkət edən döyüş filləri ilə təchiz olunmuş bir ordu ilə Məkkəyə doğru yola düşdü. Yol boyu ərəb qəbilələri tərəfindən yaradılan hər bir maneəni aradan qaldırırdı. Nəhayət, Məkkənin yaxınlığında Miğməs adlı yerdə düşərgə salıb oranı öz ordusu üçün mərkəz seçərək təcavüz və qarətə başlayır. Təhamə məntəqəsinə aid dəvələri və qoyunları qarət edir. O cümlədən Məkkənin rəisi Əbdülmüttəlibin iki yüz dəvəsi qarət olunur. Sonra Hənatə adlı sərkərdəni Məkkəyə göndərir ki, oranın başçısı ilə danışıqlar aparıb onları Əbrəhənin qərarı ilə tanış etsin. Hənatə Məkkəyə daxil olanda onu Əbdülmüttəlibin evinə aparırlar. Hənatə Əbrəhənin sözünü Əbdülmüttəlibə çatdırır və deyir ki, ordunun məqsədi Kəbəni dağıtmaqdır. Əgər buna maneə olmasanız ordunun hücumundan canınızı qurtararam. Əbdülmüttəlib deyir: "Kəbə Allahın evidir, onu İbrahim Xəlil təmir və abad etmişdir. Allah bu camaatın məslhəti nə olsa, onu da yerinə yetirəcəkdir."

Əbrəhənin göndərdiyi şəxs Əbdülmüttəlibin məntiq və xoş rəftarından razı qalır və ondan xahiş edir ki, Əbrəhənin ordusuna gəlsin. Əbdülmüttəlib Əbrəhənin məclisinə daxil olur. Onun vüqar, böyüklük və əzəməti qarşısında aciz olan Əbrəhə taxtdan enir və Əbdülmüttəlibin əlindən yapışıb yanında oturdur. Beləcə danışıqlar başlanır. Əbdülmüttəlib deyir: "Təhamənin dəvələrini və mənim iki yüz dəvəmi sənin əsgərlərin aparıblar, deyin ki, onları qaytarsınlar."

Əbrəhə Əbdülmüttəlibə deyir: "Sənin nurlu üzün məni heyrətləndirdi. Lakin kiçik şey istəməyin mənim nəzərimdə səni kiçiltdi. Çünki, mən Kəbəni dağıtmaq istəyirəm. Sizin izzət və əzəmət nişanəsi olan Kəbəni! Yaxşı olardı ki, məndən başqa bir şey istəyərdin. Məndən istəyərdin ki, öz fikrimdən dönüm və sizin həyatınızı təhlükəyə salmayım."

Qüreyşin başçısı vüqarla dedi: "Mən dəvələrin sahibiyəm. Kəbənin də öz sahibi var. O, hökmən sənin hər hansı təcavzünün qarşısını alacaq."

Öz qüdrəti ilə qürrələnən Əbrəhə başını bulayıb məğrur görkəm aldı və kobud səslə "Heç bir qüvvə məni öz qərarımdan döndərə bilməz" - deyib Təhamənin dəvələrinin sahiblərinə qaytarılmasını əmr etdi.

Əbdülmüttəlib Məkkəyə qayıtdı və Qüreyş qəbiləsinin başçıları ilə danışdı. Məkkə əhalisinə əmr etdi ki, təhlükədən xilas olmaq üçün ev heyvanlarını götürüb dağlara, dərələrə pənah aparsınlar. Böyüklü-kiçikli hamı Məkkəni tərk etdi. Əbdülmüttəlib də onlarla birlikdə dağa çəkildi. Amma gecə yarısı Qüreyş dən olan bir neçə nəfərlə birlikdə dağdan enib Kəbəyə gəldi və yanıqlı səslə Allaha yalvardı: "Pərvərdigara! Səndən başqa ümid və pənahımız yoxdur. İlahi! İlahi! Bu evin düşmənləri sənin düşmənlərindir-bəndə də təcavüzkarı evə təcavüz etməsindən saxlayar.İlahi!

Onların Sənin Evinə təcavüz etmələrinin qarşısını al! İlahi! Onların xaç və tədbirləri sənin tədbirinə qələbə çalmasın."

Əbdülmüttəlib bu sözləri deyib Kəbənin qapısının zəncirini buraxdı və dağa qayıtdı ki, nə baş verəcəyini yaxından müşahidə etsin.

Sübh çağı Əbrəhə və onun məğrur əsgərləri Məkkəyə tərəf hərəkət etdilər. Həmin vaxt dəniz tərəfindən dimdiklərində və ayaqlarında xırda daşlar tutmuş bir dəstə quş peyda oldu. Quşların kölgəsi Əbrəhənin ordusunu düşərgə saldığı yeri qaranlıqlaşdırdılar və onlar ordunun üstünə daş yağdırmağa başladılar. Əsgərlərin başları əzildi, ətləri təküldü. O daşlardan biri də Əbrəhənin başına dəydi. Onun canına qorxu düşdü və bildi ki, Allahın qəzəbi tutmuşdur. Sonra ordusuna göz gəzdirdi və onları dağınıq halda gördü. Çarəsizlikdən bir hissəsi vahiməyə düşmüş əsgərlərinə əmr etdi ki, Yəmənə qayıtsınlar. Amma artıq bu tədbirin faydası yox idi. Onların çoxu yolda can verdi. Əbrəhə Yəmənin mərkəzi Sənaya qayıtdıqdan sonra onun da əti töküldü və qəribə vəziyyətdə can verdi.

Bu xəbər Kəbənin düşmənlərinin ürəyinə qorxu saldı, ərəblərin içində Kəbənin və Qüreyş Qəbiləsinin nüfuzunu artırdı. Bu hadisə o qədər təkanverici oldu ki, ərəblər onu tarixin başlanğıcı kimi qəbul edib baş verən hadisələri "bu hadisədən əvvəl və ya sonra baş vermişdir", - deyə qəbul etməyə başladılar.

Qurani-Məcid bu hadisəyə işarə edib buyurur: **"Məgər görmədin ki, sənin Pərvərdigarın fil ordusuna neylədi? Onların hiylələrini boşa çıxarmadı? Bir dəstə Əbabil quşlarını göndərdi ki, bişmiş palçıqdan olan daşları onların başlarına töküb bədənlərini yarpaq halına salsınlar."**[1]

1.18.2. Kəbədə doğulan şəxs (təvəllüd hadisəsi)

Kəbədə doğulan şəxs möminlərin əmiri Əli bin Əbi Talibdir . Bütün hədis və tarixi mənbələrdə Kəbədə doğulan şəxsin İmam Əli olması mübahisəsiz olaraq qeyd edilmişdir. Hətta bu hadisənin mutavatir olması haqqında görkəmli İslam alimi və hədisşünası Hakim Nişapuri (933-1014) yazırdı: "İmam Əlinin təvəllüdünün Kəbədə olması mütəvatir şəkildə bizə gəlib çatmışdır."[2] Digər məşhur Quran təfsirçisi Alusi Bağdadi yazırdı: "İmam Əlinin təvəllüdünün Kəbədə olması dünya millətləri arasında yayılmış və məşhurlaşmışdır. İndiyə kimi isə heç bir şəxs bu fəzilətə nail olmamışdır."[3]

İmamın həyatına aid yazılmış müasir əsərlərdən biri dövrümüzün böyük müctəhidi Cəfər Subhaninin dilimizə tərcümə olunmuş "Vilayət günəşi" əsəridir. O, adı çəkilən əsərində yazır: "Onun anası Haşimin oğlu olan Əsədin qızı Fatimədir. O, Peyğəmbərə iman gətirən ilk qadınlardan biridir. Besətdən qabaq İbrahimin dininə itaət edirdi. O, həmin ismətli qadındır ki, doğum ağrısı şiddətlənəndə Məscidülhərama tərəf gedib Kəbə divarına yaxınlaşır və belə deyir: İlahi! Sənə sənin tərəfindən göndərilən peyğəmbərə, nazil olan kitablara və həmçinin bu evi tikən cəddim İbrahimin sözlərinə tam imanım vardır. Pərvərdigara bu evi tikənin ehtiramı xatirinə və mənim bətnimdə olan uşağın xatirinə bu uşağın təvvəllüdünü mənim üçün asan et.

Bir neçə an keçmədi ki, Fatimə ecazkar şəkildə Allah evinə daxil oldu və orada uşağı dünyaya gətirdi."[4]

1.18.3. Həccac bin Yusifin Kəbəni dağıtması hadisəsi

Həccac bin Yusif əs-Səqəfi 667-ci (hicri 45-ci) ildə Taifdə doğulmuşdur. Onun əsil-nəsəbi haqqında şübhəli rəvayətlər vardır. Ancaq zalım və rəhimsiz olması bütün İslami qaynaqlarda keçməkdədir. İmam Baqir onun haqqında buyurub: "Həccac bizim tərəfdarlarımızı dəhşətli şəkildə öldürür, onları günahsız töhmətləndirirdi. Hətta zındıq və kafirlər ona İmam Əlinin tərəfdarlarından daha sevimli idi."[5] Şeyx Bəhai onun haqqında yazırdı: "Deyirlər Əbu Müslüm Xorasani yaxşıdır yoxsa Həccac? Mən buna belə cavab verirəm: Əbu Müslüm yaxşı deyil, amma Həccac ondan daha

[1] Cəfər Sübhani. İslam tarixi. Bakı, əl-Huda nəşriyyatı, 2005. s. 30-34.
[2] Hakim ən-Nisaburi. Müstədrəki-Hakim. Beyrut, Darul-mərifə. Tarixsiz. III c. s. 483.
[3] Şərhu-Qəsideyi-Əbdülbaqi Əfəndi. s. 15.
[4] Şəmsəddin əz-Zəhəbi. Murucüz-zəhəb. II c. s. 349.
[5] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. I c. Beyrut, Darut-təarifil-mətbuat, 1403/1983. s. 27.

şər adamdır. O, Süleyman adlı birinə 700 əsgər verib dedi: səni 700 şeytanla qüvvətləndirdim, bütün üsyankar və tüğyançıları zəlil et. Sonra bu ordu getdikləri bütün bölgələrdə fitnə-fəsad çıxarır, bütün əkini və canlıları məhv edirdilər. Bundan şikayətlənən camaat Həccaca məktub ünvanladılar. Həccac da Süleymana belə yazdı: artıq nemətə qarşı küfr etdin ey Süleyman! Geri dön. Süleyman da cavabında bu ayəni ona yazdı: -"Süleyman küfr etmədi, ancaq şeytanlar küfr etdilər." Həccacın bu cavab çox xoşuna getdiyindən onu, o bölgəyə vali etdi və türkləri geri qaytartdı."

O, Kəbəni mancanaqla yandıran zaman ildırım mancanaqı yandırdı. Bunu görən Həccac tez orduya uca səslə dedi: bunun sizə aidiyyatı yoxdur! Bu qurbanlıq odudur ki, sizdən qəbul edir."[1]

Mənbələrdə Həccacın 120 min adamın öldürdüyü, həbsxanasında isə, 33 min dustağın olduğu bildirilir. Onun həbsxanasının üstü açıq olmuş, yay və qış aylarında məhbuslar Günəşin və qar-yağışın altında əzab çəkmişlər. O, məhbuslara duzla qarışdırılmış çörək verər, həbsxanada isə onları paltarsız vəziyyətdə saxlayarmış. Onun dustaqları qızmar günün altında zəncilər kimi yanıb qap-qara olmuşdular. Hətta o, bir gənci həbs etdirmiş, bundan bir neçə gün sonra anası onunla görüşməyə gələndə öz oğlunu tanımamışdı. O, İraqda 20 il hökmranliq etmişdi. [2] Kəbənin yandırılması və mancanaqla dağıdılması İslam tarixində Kərbəla hadisəsindən sonra ən dəhşətli hadisədir. Həmçinin bu hadisə Əməvilər xilafətinin yalnız zahirən İslam olduğunu, əslində isə İslamdan çox-çox uzaq olduğunu göstərir.

Bu hadisə əməvi xəlifəsi Əbdülməlik bin Mərvanın dövründə (685-705) baş vermişdir. Zalımlıqda ata-babalarından geri qalmayan Əbdülməlik Məkkədəki ən qüvvətli rəqibi olan Abdullah bin Zübeyri aradan götürmək planını cızdı.

Məkkəni ələ keçirən İbn Zübeyr orada özünü xəlifə elan etmiş və insanları Əbdülməlikin əleyhinə qiyama həvəsləndirirdi. Əlbəttə ki, onun bu hərəkətlərinə qarşı Əbdülməlik sakit ola bilməzdi. Buna görə də Əbdülməlik İraq səfərində fəallıq göstərmiş Həccac bin Yusif əs-Səqəfini orduya komandan təyin edərək İbn Zübeyrin üstünə yolladı. Həccac 20 min döyüşçü ilə bir başa Məkkəyə gəldi. O, Məkkəni mühasirəyə alıb Kəbəni mancanaqla daş atəşinə tutdu. Bu hadisə 25 mart 692-ci ildə (hicri 72-ci ilin zilqədə ayının 1-də) baş vermişdi. Həccacın əmri ilə Əbu Qübeys dağına xüsusi mancanaqla daş və yanğın atan tağım yerləşdirilmişdir.

Bu müharibədə Abdullah bin Zübeyrin tərəfdarları qaçdılar. Lakin Abdullah ölənədək döyüşdü. Onun cəsədini Həccac asdırdı. Həccacın bu mübarizəsi Kəbənin tamam yanıb məhv olmasına səbəb oldu.[3]

1.18.4. Qərmətilər hadisəsi

Qərmətilər miladi IX əsrdə Cənubi Mesopotamiyada yaranmış bir təriqətdir. Bu təriqət demək olar ki, Abbasilər əleyhinə yaranmış, onların zülm və istibdadına qarşı mübarizə aparmışlar. Onlar 890-906-cı miladi illərində Cənubi Mesopotamiyada, 894-899-cu illərdə isə Bəhreyndə, 900-902-ci illərdə isə Suruyada üsyanlar etmişlər. Qərmətilər 899-cu ildə Bəhreyni ələ keçirmiş və əl-Əhsada (Şərqi Ərəbistan) XI əsrin sonunadək mövcud olmuş dövlət qurmuşlar. Onlar tarixdə misli görünməmiş qətliamlar etmiş, insanların mənəviyyatlarına belə hörmət qoymamışlar. Qərmətilər İslam tarixində qara səhifə yazmış üsyançı dəstələrdir. Belə ki, onlar 930-cu ildə Məkkə şəhərinə hücum etmiş, Kəbəni dağıtmış və Həcərül-əsvədi (Qara daşı) götürüb aparmışlar. Onlar Məkkəyə etdikləri hücüm zamanı hacıları qırmış, Kəbəni isə təhqir etmişlər.

Abbasi xəlifəsi Razi Billahın dövründə (934-940) Bağdad valisi ət-Türki vasitəsilə onlarla danışıqlar aparılmış, xəlifə tərəfindən Həcərül-əsvədin satın alınması üçün minlərlə dinar pul verilmişdir. Lakin Qərmətilər xəlifənin bu təklifini rədd etmişlər.

Ancaq sonralar 950-ci ildə xəlifə Mütinin dövründə Həcərül-əsvəd Kəbəyə qaytarılmış və öz yerinə qoyulmuşdur.

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. VII. c. s. 524.

[2] Həmin mənbə. s. 525; Şeyx Bəhai. Kəşkül. s. 507; Yaqut əl-Həməvi. əl-Möcəm. III c. s. 233.

[3] Seyid Cəfər Şəhidi. İslam tarixi və təhlillər. s. 251-252; Nuri Ünlü. İslam tarihi. 4 cilddə. I c. İstanbul, İFAV yayınları, 1997. s. 181-182.

Xatırladaq ki, qərmətilərin şiə təriqətindən olması fikri yanlışdır. Əksər mötəbər ədəbiyyatda onların xaricilərdən bir tayfa olduğu, Məhəmməd bin İsmailin imam olduğunu demələri qeyd edilir. Bəzi qaynaqlarda isə onların vaqifiyyə firqəsindən olduğu və Əbu Səid əl-Xəbabi əl-Qərməti (öl. 301 hicri) də onların başçısı olduğu bildirilir. Onun oğlu Əbu Tahir Süleyman bin Həsən Həcərül-əsvədi götürən, Məkkə əhlini qətl edən və Zəmzəm quyusunu zibilləyən şəxsdir.[1]

1.19. Məkkə (Kəbə) Qurani-Kərimdə

Məkkə şəhəri hədisi-şəriflərdə tərif edildiyi kimi, Qurani-Kərimdə də vəsf edilib tərifləmişdir. Onun Quranda tərifləmməsi və fəzilətli tutulmasının səbəbi isə müqəddəs Kəbə evinin orada yerləşməsinə, Allahın "Şəair"lərinin, orada bir çox peyğəmbərlərin qəbirlərinin orada olmasına, İmam Əlinin orada doğulmasına və Peyğəmbərimizin orada olmasına görədir. Allah Quranda bu şəhərin fəzilətli olduğunu bildirmək üçün ona and içmişdir. Hətta onun adına bir surə də adlandırılmışdır ki, bunun da adı "əl-Bələd"dir. Adı çəkilən surədə Allah buyurur**: "And olsun bu şəhərə** (Məkkəyə)**. Sənin olduğun bu şəhərə."**[2] Bütün təfsir əhlinə görə, bu surə Məkkə şəhərində nazil olmuşdur. Deməli, buna görədə ayədə işlənən "bu" əvəzliyi Məkkə şəhərinə məxsusdur. Təfsir əsərlərində bu haqda deyilir: "Qeyd etdiyimiz bu iki ayədə and içilən şəhərin məhz Məkkə olduğu göstərilməmişdir və adı çəkilməmişdir. Ancaq surənin Məkkədə nazil olduğunu və bu müqəddəs şəhərin İslam tarixində fövqəladə dərəcədə əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, burada məhz Məkkənin nəzərdə tutulduğunu qəti şəkildə deyə bilərik.

Əlbəttə, Məkkə torpağının şərafəti və əzəməti elədir ki, Allahın ona and içməsi tamamilə təbidir. Çünki Məkkə tövhidin ilk mərkəzi olmuş və Uca Allaha ilk ibadət də burada edilmişdir, bütün böyük peyğəmbərlər buradakı Allah evi ətrafında təvaf etmişlər. Ancaq surənin ikinci ayəsində - **"Sənin yaşadığın bu şəhərə"** - bəyan edilən fikir yeni bir məsələyə toxunur və oda bundan ibarətdir: Bu şəhər sənin feyz və bərəkət dolu vücudunun xatirinə elə bir əzəmət qazanmışdır ki, bu andın içilməsinə layiq görülmüşdür."[3]

Məkkə Qurani-Kərimdə **Məkkə, Bəkkə, Bələdül-əmin, Ümmül-qura, Hərəmül-əmin** adladrı ilə də yad edilmişdir.

Qurani-Kərimdə Məkkəyə aid olan ayələr içərisində daha çox Kəbənin ziyarəti ilə əlaqəli ayələr yer almaqdadır. Allah bu ayələrdə Kəbə evinin tarixinə toxunur, oranın kim tərfindən təmir olunduğunu, oraya kimlərin giriş izni oduğunu və ziyarətinin qayda-qanunlarını açıqlayir. Allah bu ayələrdə buyurur:

"Həqiqətən, insanlar üçün ilk bina olunan ev Bəkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır."[4] "Orada aydın nişanələr - İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır. Onun yoluna gücü çatan hər bir kəsin həcci gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu inkar edərsə, əlbəttə Allah aləmlərə möhtac deyildir!"[5]

"Allah Beytül-hərəm olan Kəbəni, haram ayı (zihiccə) **boyunları bağsız və bağlı qurbanları insanların düzəlib sahmana düşməsi üçün bir yol müəyyən etdi. Buna ona görədir ki, Allahın göylərdə və yerlərdə nə varsa, hamısını bilməsini, özü də Allahın hər şeyi bilməsini siz də bilirsiniz!"[6]**

"(Ya Məhəmməd!) **Yadına sal ki, biz Kəbəni insanlar üçün savab və əmin-amanlıq yeri etdik. Sizə də: "İbrahimin məqmını özünüzə namazgah edin!" - dedik. İbrahimə və İsmailə də: "Evimi** (Kəbəni) **təvaf edənlər, orada qalıb həmişə ibadətdə olanlar, rüku və səcdə ilə namaz qılanlar üçün təmizləyin!" - deyə tövsiyə etdik."[7]**

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XIV c. s. 332.
[2] əl-Bələd surəsi, ayə 1-2.
[3] Əbdürrəhman Yusifpur. Qurani-Kərimin otuzuncu cüzünün təfsiri. 2 cilddə. II c. Tərc.: Ə.Hacızadə. Bakı, 1999. s. 7.
[4] Ali-İmran surəsi. ayə 96.
[5] Ali-İmran surəsi. ayə 97.
[6] Maidə surəsi, ayə 97.
[7] Bəqərə surəsi, ayə 125.

“Yadına sal ki, İbrahim: “Ey Rəbbim! Buranı (Məkkəni) **bəladan asudə bir şəhər et, əhalisinin Allaha və axirət gününə inananlarına cürbəcür meyvələrdən ruzi ver!”- deyə dua etdikdə, Allah: “Kafir olanlara da bir qədər ruzi verərəm, lakin sonra da Cəhənnəm əzabına düçar edərəm. Amma ora** (Cəhənnəm) **nə fəna bir yerdir!” - deyə buyurdu.”**[1]

“Onu da yadına sal ki, İbrahim və İsmail Kəbənin bünövrəsini ucaltdıqları zaman: “Ey Rəbbimiz! (bu xeyirli işi) **bizdən qəbul et, Sən, doğrudan da , eşidən və bilənsən!”- deyə dua etdilər”**[2]**.**

“(İbrahim və İsmail dedilər): **“Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar** (müsəlman), **nəslimizdən yetişənləri Sənə təslim olan ümmət** (müsəlman) **et, bizə Həccin əməllərini və ibadət qaydalarını göstər, tövbələrimizi qəbul et! Həqiqətən Sən tövbələri qəbul edənsən və mərhəmətlisən!”**[3]

“...Həqiqətən, biz onu (İbrahimi) **dünyada peyğəmbərlik etmək və Kəbəni təmir etmək üçün seçdik.”**[4]

“...İndi yönəldiyin qibləni (Kəbəni) **adi sənə tabe olanlarla səndən üz çevirənləri bir-birindən ayırd etmək üçün** (qiblə) **təyin etdik. Bu,** (qibləni) **Beytülmüqəddəsdən Kəbəyə tərəf çevirmək ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyildir.”**[5]

“(Ya Məhəmməd!) **Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidülhərama tərəf çevir!** (Ey müsəlmanlar!) **harada olursanız** (namaz vaxtı) **üzünüzü ora döndərin!”**[6]

“Sizi onlara qalib etdikdən sonra Məkkə vadisində onları sizinlə, sizi də onlarla vuruşmağa qoymayan Odur...” [7] **“And olsun bu təhlükəsiz, qorxusuz-xətərsiz şəhərə** (Məkkəyə) **ki.”**[8]

“...Məgər Biz onları Özümüzdən bir ruzi olaraq hər yerin meyvəsini daşınıb gətirildiyi, qorxusuz-xətərsiz, müqəddəs bir yerdə (Məkkədə) **sakin etmədikmi?...”**[9]

“Bu Quran da mübarək, özündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, sənə (Ümmül-qura) **Məkkə əhlini və ətrafdakıları qorxutmaq üçün nazil etmişik...”**[10]

“...Allahı inkar etmək, Məscidülhəramın ziyarətinə mane olmaq, oranın xalqını oradan çıxarmaq Allah qatında daha böyük günahdır...”[11]

“Həqiqətən Səfa və Mərvə Allahın əlamətlərindəndir. Kəbəni həcc və ya ümrə yolu ilə ziyarət edən şəxsin bunları təvaf etməsində heç bir günah yoxdur...”[12]

“Allahdan ötrü həcc və ümrə əməllərini tam yerinə yetirin, əgər orada sizə maneçilik olarsa, müəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə (Minaya) **çatıncaya qədər başınızı qırxdırmayın...”** [13]

“...Ərəfatdan qayıdarkən Məşərül-haram da Allahı xatırlayın...”[14]

“...Sayı bəlli olan günlərdə (Mina dağında) **Allahı yada salın...”**[15]

“Sizin üçün qurbanlıq heyvanlarda müəyyən bir vaxta qədər mənfəət vardır. Sonra onların (gətirilib kəsiləcəyi) **yer qədim ev olan Kəbədir!”**

“Biz hər ümmət üçün qurbangah etdik...”[16]

---

[1] Bəqərə surəsi, ayə 126.
[2] Bəqərə surəsi, ayə 127.
[3] Bəqərə surəsi, ayə 128.
[4] Bəqərə surəsi, ayə 130.
[5] Bəqərə surəsi, ayə 143.
[6] Bəqərə surəsi, ayə 144.
[7] Fəth surəsi, ayə 24.
[8] Tin surəsi, ayə 3.
[9] Qəsəs surəsi, ayə 57.
[10] Ənam surəsi, ayə 92.
[11] Bəqərə surəsi, ayə 217.
[12] Bəqərə surəsi, ayə 158.
[13] Bəqərə surəsi, ayə 196.
[14] Bəqərə surəsi, ayə 198.
[15] Bəqərə surəsi, ayə 203.
[16] Həcc surəsi, ayə 29-34.

1.20. Məkkədə nazil olmuş surələr

Qurani-Kərimin aşağıdakı surələri Məkkədə nazil olmuşdur.[1]

əl-Fatihə	Yunus	Fatir	Yasin
İbrahim	əl-İsra	Fussilət	əş-Şura
Taha	əl-Furqan	Qaf	əz-Zariyat
əl-Qəsəs	Loğman	əl-Mulk	əl-Qələm
əl-Ənam	Hud	əl-Muzzəmmil	əl-Muddəssir
əl-Hicr	əl-Kəhf	Əbəsə	ət-Təkvir
əl-Ənbiya	əş-Şuəra	ət-Tariq	əl-Əla
əl-Ənkəbut	əs-Səcdə	əl-Leyl	əz-Duha
əl-Əraf	Yusif	əl-Adiyat	əl-Qariə
ən-Nəhl	Məryəm	Qüreyş	əl-Maun
əl-Muminun	ən-Nəml	əl-Fələq	əs-Saffat
ər-Rum	Səba	ən-Nas	əz-Zuxruf
ət-Tur	əl-Haqqə	əl-Qiyamət	əl-İnfitar
əl-Ğaşiyə	əş-Şərh	ət-Təkasur	əl-Kövsər
Sad	əd-Duxan	ən-Nəcm	əl-Məaric
əl-Mursəlat	əl-Mutaffifin	əl-Fəcr	ət-Tin
əl-Asr	əl-Kafirun	əz-Zumər	əl-Casiyə
əl-Qəmər	Nuh	ən-Nəbə	əl-İnşiqaq
əl-Bələd	əl-Əlaq	əl-Huməzə	əl-Məsəd
Ğafir	əl-Əhqaf	əl-Vaqiə	əl-Cin
ən-Naziat	əl-Buruc	əş-Şəms	əl-Qədr
əl-Fil	əl-İxlas		

1.21. Kəbə evini ziyarət etməyin əhəmiyyəti

İslam dinində Kəbə evinin nə qədər müqəddəs bir məkan olduğu yuxarıdakı ayə və hədisi-şəriflərdə aydın oldu. Həqiqətən də dinimizdə Kəbənin ziyarəti çox mühüm əhəmiyyət kəsb edir və onun çoxlu faydaları vardır. Kəbə evinin əhəmiyyətli olması təkcə bir formada olmayıb, özünü müxtəlif forma və sahələrdə göstərməkdədir. O həm ictimai, həm sosial, həm siyasi, həm də digər yönləri baxımından çox əhəmiyyətlidir. Kəbə evinin ziyarət edilməsinin mühüm və bəlkə də ilkin əhəmiyyətlərindən biri bəndəçilik məfhumunu anlatmaqdır. Belə ki, hər bir insan Allahın bəndəsi olmaqla yanaşı, öz əməllərində də gərək bu amalı unutmasın. İnsan Kəbənin ziyarəti üçün ağır xərc çəkərək özünü maddi və mənəvi baxımdan bir varlıq kimi Allahın evinə qonaq gedir. O, etdiyi yolçuluq zamanı bir çox problemlərlə üzləşərək onlara sinə gərir, bununla da həm özünü mənən vüqarlı edir, həm də Allahın yolunda çəkdiyi zəhmətlərin birə on əvəzini alır.

Kəbənin ziyarət edilməsinin sosial əhəmiyyətlərindən biri budur ki, ehram paltarlarını geyinən insan bütün daxilində olan təkəbbürü və təbəqələşmə psixologiyasını unudur və yalnız hamı ilə birlikdə geydiyi bir tikə bez vasitəsilə özünü onlarla eyniləşdirir.

Ehramda olan şəxs hansı sosial təbəqədən asılı olmayaraq Allahın qarşısında şahla, kölə ilə bərabər olur. Bir neçə günlük olsa da sosial münasibətlə bərabərləşir, hacılar özlərini eyni səviyyəli varlıq kimi xatırlayırlar.

Şübhəsiz ki, həcc Allaha ibadət formasıdır. Lakin bununla yanaşı o beynalxalq toplantı xarekteri daşıyır. Sanki, dünyanın hər yerindən bir mərkəzə toplanmış insanlar bir-birləri ilə görüşür, tanış olur və bir-birlərinin halına acıyırlar. Hətta bu toplantı zamanı müxtəlif İslam alimlərinin, məzhəb rəhbərlərinin bir araya gəlməsi tolerantlıqdan, mənəvi dözümlülükdən, birlikdən xəbər verir. Beynalxalq toplantı hesab olunan həcc ayini zamanı müsəlmanlar bir-birlərinin maddi və mənəvi problemlərini həll edir və bununla da Allah və bəndə qarşısında olan öhdəlikləri yerinə yetirmiş olurlar.

[1] Bağır Şərif Qüreşi. Həyatu-Muhəmməd. I c. s. 228-229.

Müxtəlif ölkələrdən gəlmiş müsəlmanlar eyni zamanda bəzi müsəlman bölgələrinin adət-ənənəsini, müxtəlif mədəniyyət formalarını bir mərkəzə daşımaqla bir-birlərinə bu və ya digər dərəcədə təsir göstərərək bir-birlərini məlumatlandırırlar. Bu mədəniyyətlərin bir-birlərinə olan təsirləri nəticəsində İslam mədəniyyəti daha darınləşir, zənginləşir, genişlənir və insanların həyatında yeni faydalara səbəb olur.

Kəbənin ziyarətinin İslamda mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan İmam Əli buyurur: "Görmürsünüzmü ki, həqiqətən Allah Adəmdən öncəkilərdən başlamış gələcəkdəkilərə qədər dünyanı Məkkədəki daşlarla sınağa çəkər. Onların nə xeyir nə də ziyanı var, nə görür, nə də eşidirlər. Bu daşları özünə möhtərəm qərar verdi, onu insanların möhkəmliyi üçün amil etdi. Sonra Kəbəni ən daşlı-kəsəkli məkanlarda, otsuz-ələfsiz yerlərdə, ən yaxın dərələrdə, sərt dağlar arasında, geniş çınqıllıqlarda, az sulu çeşmələrdə, bir-birindən uzaq abadlıqlarda qərar verdi. Həmin yerdə nə dəvənin, nə atın, nə inəyin, nə də qoyunun asayişi yoxdur. Sonra Adəm və övladlarına əmr etdi ki, Kəbəyə doğru dönsünlər və onları ictimai mərkəz, son məqsəd və qayıdış yeri seçsinlər. Belə ki, insanlar qəlblərində eşq surətlə səhralardan, düzənlərdən, şəhərlərdən, kəndlərdən, dərin dərələrdən, pərakəndə adalardan Məkkəyə üz tutsunlar, çiyinlərini çəkərək "la ilahə illəllah" dillərində, Kəbə ətrafında təvaf etsinlər. Pərişan saçlar, tozlu-torpaqlı bədənlərlə hərəkət etsinlər. Şəxsiyyətlərini göstərən hər növ libaslarını çıxarsınlar, saçlarını daramayıb, qiyafələrini dəyişdirsinlər. Çünki bu paklanmaq üçün böyük, çətin və aşkar bir sınaqdır. Allah bunu mərhəmət səbəbi, behiştə çatmaq amili qərar verdi. Əgər Allah öz möhtərəm evini və həcc mərasimi keçirilən məkanları bağlar və çaylar arasında, yaşıl-xürrəm çəmənliklərdə, meyvəli ağacları olan məntəqələrdə, evləri və sarayları olan abad bir yerdə, güllü-çiçəkli bağçalar qoynunda, gözəl və çeşməli mənzərələr arasında, şadlıq yaradan gülzarlar içində, abad yollar üstündə qərar versəydi, sınaqlar asan olardı. Beləcə də mükafat yüngülləşərdi. Əgər Kəbənin bünövrəsi və sütunları tikintisində işlənmiş daşları yaşıl zümrüddən, qırmızı yaqutdan olsaydı, qəlblər daha gec şəkk-şübhəyə düşər, şeytanın tələşları qəlblərdə gizli vəsvəsələri insanlara yol tapmazdı. Hansı ki, Allah bəndələrini növbənöv çətinliklərlə sınağa çəkir, ağır ibadətlərə çağırır, müxtəlif müşküllərə mübtəla edir ki, onların qəlbindən təkəbbürü çıxarıb səmimiyyət versin, öz fəal və rəhmət qapılarını onların üzünə açsın, əfv vasitələri asanlıqla ixtiyarlarına verilsin."[1]

1.22. Kəbə ziyarətinin adabı və qaydaları

Kəbənin ziyarəti İslam dininin namaz, oruc, zəkat kimi rüknlərindən biridir. Hər kəs bunu inkar etsə, küfr etmiş olur. Çünki yuxarıdaki ayələrdən və hədislərdən də məlum oldu ki, onun vacib olması ictihad və ya təqlid üzündən deyil, bir başa Quran və sünnəyə bağlıdır.

Kəbə ziyarəti daha çox həcc ziyarəti sözü ilə işlənməkdədir. Buna görə də Kəbə ziyarəti dedikdə, elə həcc ziyarəti nəzərdə tutulur. Həcc sözü də ərəb sözü olub lüğətdə "qəsd", "niyyət" və bu kimi mənələrda işlənir. Terminoloji mənada isə Kəbəni və ya Beytülməmuru xüsusi qaydalar əsasında Allaha yaxınlaşmaq niyyəti ilə əməllər və hərəkətlər vasitəsilə ziyarət etməkdir. Həccin nə üçün bu terminlə adlanması məsum İmamlardan gələn hədislərdə belə göstərilir:

"Bir ravi İmam Sadiqdən soruşur: "Nə üçün Həcc həcc adlanır?" Həzrət buyurdu: "Həcc ona görə həcc adlanır ki, filankəs həcc etdi dedikdə, yəni filankəs nicat tapdı, müvəffəqiyyət qazandı mənasını versin."[2] İmamın bu hədisindən belə başa düşülür ki, həcc sözünün leksik mənalarından biri, daha doğrusu, nicat tapmaq, qurtuluşa uğramaq, müvəffəqiyyət əldə etmək deməkdir. Həqiqətən də həcc sözünə İmamın bu mənaları verməsi daha uyğun görsənir. Çünki insanlar Allah evini ziyarət etmək məqsədilə Kəbəyə getdikdə onlar günahlardan və bütün mənəvi düşkünliyə səbəb olan hallardan xilas olur və paklanırlar. Necə ki, Peyğəmbər buyurur: "Hər kəs həcci iman və səmimiyyətlə ziyarət etsə, anadan olduğu kimi geri dönər."[3]

[1] Nəhcül-bəlağə. 192-ci xütbə.
[2] Şeyx əs-Səduq. İlələüş-şərae. II c. s. 96.
[3] Hürr əl-Amili. Vəsailüş-şiə. Qum, Alul-Beyt müssisəsi, 1410 h/q. Həcc fəsli; Nəsai. Sünən. Həcc fəsli.

Həcc haqqında Qurani-Kərim buyurur: **“İnsanları həccə çağır ki, onlar sənin yanına piyada və hər uzaq yoldan hər cür miniklə gəlsinlər**.”[1] Digər bir ayədə buyurur: **“Allahdan ötrü həcc və ümrə əməllərini yerinə yetirin.”**[2]

Bu ayədə Allah həcc sözü ilə yanaşı ümrə sözünü də işlətmişdir. Belə olan halda Kəbə ziyarətinə aid olan bu məfhumların mənaları nədir? Yuxarıda həcc sözünün leksik və terminoloji mənaları izah olundu. Ümrə sözünün mənasına gəldikdə isə, bunu demək lazimdır ki, bu söz etimoloji baxımdan ərəb sözü olub lüğətdə “aməra” felindən əmələ gəlib və “Allah evini təmir etmək”, “Allaha qulluq etmək”, “daxili əmin-amanlıq” və s. bu kimi mənalarda işlədilir. Terminoloji mənada isə “vacib olmuş kiçik həcdir. O niyyət, ehram, Kəbənin təvafı, iki rükət Məqami-İbrahimin arxasında namaz qılmaq, Səfa və və Mərvə arasında səy etmək, saç və dırnaqları qısaltmaqdan ibarətdir.”[3] Görkəmli İslam alimi Əllamə Şərafəddin Amili yazırdı: “Təməttö ləzzət almaq mənasındadır. Təməttö həccinin yerinə yetrilməsi qaydası belədir ki, bir şəxs şəvval, zilqədə və zilhiccə aylarında miqatda ümrə niyyəti ilə ehram bağladıqdan sonra Məkkəyə getsin, Kəbə evini ziyarət etsin, Səfa və Mərvə dağları arasında səy etdikdən sonra ehramdan çıxsın...”[4]

Yuxarıdakı ayədən və ona verilən təfsirlərdən belə məlum olur ki, ümrə həcci deyildikdə, məqsəd həcc aylarında həcdən əvvəl ümrənin yerinə yetirilməsidir. Bu həccin təməttö adlanmasının səbəbi haqqında Əllamə Amili yazırdı: “Bu həccin təməttö adlanmasının səbəbi budur ki, bu həcdə mütə vardır. Mütə isə ləzzət almaq mənasındadır. Çünki bu ehramlar (ümrə və həcc ehramları) arasındakı fasilədən ehramlı şəxsə haram olan şeylər halal olur. Ona əməl edən şəxs də həcc ehramından haram olanlardan ayrılıb ləzzət ala bilir.”[5] Deməli, ayələr və hədislər onu göstərir ki, həccin bir növü də ümrədir. Bu barədə görkəmli hədis alimi Müslüm Nişapuri (821-875) məşhur “əl-Camiüs-səhih” əsərində belə rəvayət edir: “Əbüləla, Mütərrəf, İmran bin Hüseyn deyir: Peyğəmbər öz ailəsindən bir qrupa göstəriş verdi ki, təməttö həccini yerinə yetirsinlər. Bundan sonra onu nəsx edəcək heç bir ayə nazil olmadı. Peyğəmbər də nə qədər ki, sağ idi onu qadağan etmədi.”

1.23. Həccin vacib olma şərtləri

Müqəddəs İslam şəriətində həccin vacib olma şərtləri vardır. Əgər bu şərtlər istər toplum halda, istərsə də tək halda mövcud olmazsa, həcc şəxsə vacib olmayacaqdır. Həcc aşağıdakı şərtlər əsasında ömürdə bir dəfə insana vacib olur:

-Ağıllı olmaq.

Ağıllı omayan, yəni dəli olan şəxsə həcc vacib deyildir. Əgər dəli vəziyyətdə bir şəxs həcci ziyarət etsə, sonradan ağıllanarsa və müstəti olarsa, həcc ona vacib olacaqdır.

-Həddi-buluğa yetmək.

Şəriətə görə həccə gedən şəxs gərək əqli baxımdan yetişmiş olsun. Buna görə də onun həddi-buluğa yetişməmiş həcləri, sonradan o, müstəti olsa, onun boynundan götürülmür. Həddi-buluğ olduqdan sonra müstətidirsə, gərək həcci ziyarət edə. İmam Sadiq buyurub: “Əgər həddi-buluğ olmamış şəxs on dəfə həcci ziyarət etsə, sonradan həddi-buluğ olsa, həcc ona vacibdir.”[6]

-Müstəti olmaq.

Həccin vacib olma şərtlərindən biri müstəti olmaqdır. Müstəti bacarıqlı olmaq deməkdir. Bu söz geniş mənaya malikdir. Burada nəzərdə vaxtın geniş olması, maddi və mənəvi imkana malik olmaq, təhlükəsizlikdə olmaq, ailəsinin dolanışcağına malik olmaq və s. mənalar tutulur. Qurani-Kərim buyurur: **“Onun yoluna gücü çatan hər bir şəxsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur.”**[7]

---

[1] Həcc surəsi, ayə 27.
5 Bəqərə surəsi, ayə 196.
[3] Əllamə əl-Hairi. Dairətül-məarif. X c. s. 512.
[4] Əllamə Şərafuddin Amili. ən-Nasu vəl-ictihad. s. 249.
[5] Həmin mənbə. s. 249-250.
[6] Hürr əl-Amili. Vəsailüş-şiə. XI c. s. 46.
[7] Ali-İmran surəsi, ayə 97.

1.24. Həccin növləri

İslam şəriətində Həccin üç növü vardır:

a) Qiran həcci.

b) İfrad həcci.

c) Təməttö həcci.

Həccin növləri hədislərdə öz əksini tapmıs ilahi əməllərdəndir. İmam Sadiq buna işarə edərək buyurur: "Həcc üç qismə bölünür: Həcci-müfrəd, Həcci-qiran və Həcci-təməttö."[1]

Yuxarıda göstərilən səhih rəvayətlərə istinad edən İslam hüquqşunasları (fəqihləri) Həcci üç növə bölmüş və hər bir növünü fiqhi (hüquqi) cəhətdən izah etmişlər. Buna görədə fiqh kitablarında Həcc üç növ göstərilməkdədir:

a) Qiran həcci.

Qiran həcci Məkkənin yaxınlığında yaşayanlar üçündür. Qiran həcci edən şəxslər gərək Məkkədən 48 kilometrdən artıq məsafədən uzaq olmayalar. Deməli, hər kəs 48 km. Məkkənin ətrafında yaşayırsa, onun həcci qiran və ya ifrad həcci olacaqdır. Qiran həcci edən şəxslər gərək ehramlı olduğu halda qurban kəssin.

b) İfrad həcci.

İfrad həcci də eyni ilə qiran həcci kimidir. Bu növ həcci yerinə yetirənlər də 48 km. Məkkənin ətrafında yaşamış olsunlar. Yəni Məkkənin sakinlərindən hesab olunsunlar. Həccin bu növünü izah edən İmam Sadiq buyurur: "Müfrəd həcci edənlərə Kəbənin təvafı, Məqami-İbrahimdə iki rükət namaz, Səfa və Mərvə arasında səy, nisa təvafı vacibdir. Onlara qurbanlıq lazım deyildir."[2] Müsəlman hüquqşunasları ifrad həcci haqqında deyirlər: "Əgər bir şəxsin yaşadığı mənzil miqatdan Məkkəyə daha yaxındırsa, o, öz mənzilində ehram geyinəcəkdir. Sonra o, Ərafata yolanacaq, orada dayanacaq, oradan Məşərül-harama gedib orada dayanacaq. Sonra Minaya gedib oranın əməllərini icra edəcək sonra Məkkəyə gedib Kəbəni təvaf edəcək, sonra iki rükət namaz qılacaq, sonra Səfa və Mərvə arasında səy edəcək, sonra nisa təvafı edib, iki rükət namaz qılacaqdır."[3]

Deməli, Həccin iki mühüm növlərindən olan Qiran və İfrad həcci onu göstərir ki,bu növ həccdə heç bir fərq yoxdur. Onları bir-birindən fərqləndirən xüsusiyyət yalnız Qiran həccini yerinə yetirənin qurban kəsməsidir. Bunu biz İmamın hədislərindən də başa düşməkdəyik. Həmçinin buna işarə edən ayələr də mövcuddur.

Belə ki, Quran belə bəyan edir: **"Umrə ziyarəti ailəsi Məscidülaramdan** (Məkkədən və ətrafından) **sakin olmayanlara aiddir."[4]**

Bu ayəni təfsir edən İmam Rza buyurur: "Məkkədən uzaqda yaşayanlara təməttö həcci, Məkkə sakinləri və ətrafında olanlar üçün isə qiran və ifrad həcci vacibdir."[5]

Qiran və İfrad həccinə aid çoxlu məsələlər vardır ki, bunların hamısı fiqh kitablarında bütün təfərrüatı ilə açıqlanmışdır. Həmin məsələlərin bir neçəsinə nəzər salaq:

1.Bir şəxs ifrad həcci niyyəti edibsə, O, Məkkəyə daxil olduqdan sonra ixtiyari olaraq niyyətini təməttö həccinə çevirə bilər. Amma bu hökm qiran həccinə aid deyil. Çünki qiran həcci hacıya qurbanı vacib deyir.

2.Əgər qərib bir şəxs iki il Məkkədə qalsa,ona yenə də təməttö həcci vacibdir. O, həccul-İslamı yerinə yetirmək istəsə, gərək Miqatların birində ehram bağlasın. Əgər o, üç il Məkkədə qalmışsa, gərək müfrədə niyyəti ilə həcc edə.

3.Əgər bir şəxsin Məkkədə və digər bir yerdə mənzili varsa, gərək öz əməlinə diqqət yetirsin. Yəni o, hansı mənzilində çox yaşayıbsa, oranın hökmünə əməl etməlidir. Yox əgər hər iki mənzildə eyni müddəti yaşayıbsa, o ixtiyar sahibidir. Hansı hökmə əməl etsə, doğrudur.

---

[1] Hürr əl-Amili. Vəsailuş-şiə. XI c. s. 211.

[2] Həmin mənbə. XI c. s. 213.

[3] Məhəmməd Cavad Müğniyə. Fiqhül-İmam Cəfəris-Sadiq (ə). 6 cilddə. II c. Qum, 1424 h/q. s. 166.

[4] Bəqərə surəsi, ayə 196.

[5] Hürr əl-Amili. Vəsailüş-şiə. Həcc fəsli.

c) Təməttö həcci.

Təməttö həcci Məkkənin və onun ətrafında yaşayanların vəzifəsidir. Yəni bu növ həcci yerinə yetirən şəxslər gərək Məkkə və onun ətrafəndan 48 km. uzaqda, istər Ərəbistanın digər şəhərlərində, istərsə də xarici ölkələrdə yaşayanlara aiddir.

Təməttö həcci özünü iki formada göstərir:

I. Ümrə həcci.

II. Təməttö həcci.

Ümrə həccini yerinə yetirənlər gərək beş əmələ riayət edələr. Həmin şəxslər gərək zilhiccə ayının 8-dək bu əməlləri yerinə yetirsinlər. Həmin əməllər aşağıdakılardır:

1.Niyyət və ehram.

2.Təvaf (Kəbənin ətrafına 7 dəfə dolanmaq).

3.İki rükət təvaf namazı.

4.Səfa və Mərvə arasında səy etmək.

5.Təqsir (tük və dırnaqdan qısaltmaq).

Həccə gələn şəxs istər qadın olsun istərsə də kişi gərək bu göstərilən əməlləri zilhiccə ayının 8-dək yerinə yetirsinlər. Bundan sonra təməttö həccinin əməlləri gələcəkdir.

Təməttö həccinin əməlləri isə aşağıdakılardır:

1.Ehram.

2.Ərəfatda dayanmaq (zilhiccənin 9-cu günü zöhrdən məğribədək).

3. Müzdəlifədə dayanmaq (qurban günü sübh azanından gün çıxanadək).

4.Minada Cəmərəni daşlamaq.

5.Minada bayram günü qurban kəsmək.

6.Minada saç və ya dırnaq qısaltmaq.

7.Məkkəyə qayıdıb təvaf etmək.

8.İki rükət təvaf namazı qılmaq.

9.Səfa və Mərvə arasında səy etmək.

10.Nisa təvafı.

11.İki rükət Nisa təvafı namazı.

12.Minaya qayıdıb orada 11-ci və 12-ci günləri gecələmək.

13.Üç Cəmərəni hər iki gündə daşlamaq.

Təməttö həccinin hər iki forması onu göstərir ki, həcc əməllərinin içərisində cəmi on səkkiz əməl vacibdir. Bu əməlləri mükəmməl şəkildə yerinə yetirən hər şəxs Hacı adını daşıyır. Təməttö həccinin birinci forması ümrə həcci adlanır. Əgər onun əmllərini əlavə olaraq izah etməli olsaq, gərək aşağıdakı sətirlərə diqqət yetirək:

Ehram.

Ümrə həccinin (ümrəyi-təməttönün) ilk əməli ehram adlanır. Yəni ehram paltarını geyinmək. İnsan ehram paltarını geyinməklə sonradan qeyd edəcəyimiz əməllər ona haram olur. Buna görə də bu paltar ehram adlanır. İmam Sadiq buyurur: "Ehram bəzi əməlləri qadağan etdiyinə görə ehram adlanır."[1]

Ehram geyinməyin üç şərti vardır:

a) Niyyət etmək.

Ehram geyinən şəxs gərək belə niyyət: "Ümrə həccini yerinə yetirmək üçün ehram geyinirəm qürbətən iləllah."

b) Təlbiyə demək.

Ehram geyinən şəxs gərək təlbiyə adlanan aşağıdakı sözləri desin: "Ləbbeykə Allahummə ləbbeyk. Ləbbeykə la şərikə ləkə ləbbeyk. İnnəl-həmdə vən-nimətə ləkə vəl-mulk, la şərikə ləkə ləbbeyk."

[1] Həmin mənbə.

Təvaf.

Təvaf dövrə vurmaq, fırlanmaq, dolanmaq, mənalarındadır. Təvaf dedikdə, Kəbənin ətrafına yeddi dəfə dövrə vurmaq nəzərdə tutulur. Bu əməli yerinə yetirən şəxs gərək Kəbənin küncünə qoyulmuş Həcərül-əsvəddən başlayıb, yeddinci dövrəni də həmin yerdə sona yetirsin.

Təvaf namazı.

Təvaf namazı sübh namazı kimi iki rukətdir. Bu namaz mümkün olduğu təqdirdə gərək Məqami-İbrahimin arxasında qılınsın. Buna işarə edən ayədə belə bəyan edilir: **"...İbrahimin məqamını özünüzə namazgah götürün..."**[1]

Səy etmək.

Səy etmək dedikdə yeddi dəfə Səfa və Mərvə dağları arasında gedib gəlmək nəzərdə tutlur. Səy həcc əməllərinin içərisində vacib buyrulmuş əməllərdəndir və onun tərk olunması həccin batil olmasına səbəb olur. Necə ki, İmam Sadiqdən soruşulur: "Səy əməlini tərk edən şəxsin hökmü nədir? Həzrət buyurdu: onun həcci yoxdur."[2]

Səy əməlində dörd şey vacibdir. Bunlar aşağıdakılardan ibarətdir:

a) Niyyət.

b) Səfadan başlamaq.

c) Mərvəda sona çatdırmaq.

ç) Yeddi dəfə səy etmək.

Təqsir.

Ümrə həccinin sonuncu əməli təqsir adlanır. Yəni baş tükündən və ya dırnaqlardan bir hissə azaltmaq. İmam Sadiq buyurur: "Mötəmir vacibi təvafı, təvaf namazını, Səfa və Mərvə arasındakı səyi bitirdikdən sonra, gərək təqsir etsin."[3]

Bura qədər göstərilən əməllər Ümrə həccinin əməlləri idi. İndi isə Həcci- təmättönün əməllərinə diqqət yetirək.

Təmättö həccinin on üç əməli vardır ki, ümrə həccindən sonra onun əməllərini icra etmək lazımdır. Deməli, ümrə həccinin beş əməlini başa çatdıran şəxs ehramdan xaric olacaqdır.

Sonra o, təmättö həccinin niyyətilə ehram geyinəcək və digər əməllərin icrasına başlayacaqdır. Beləliklə, təmättö həccinin əməlləri aşağıdakı kimi, ardıcıl şəkildə yerinə yetirilir.

1. Ehram.
2. Ləbbeyk demək.
3. Məşərül-haram da dayanmaq.
4. Zilhiccənin onunda Cəmərəni daşlamaq.
5. Qurban kəsmək.
6. Baş qırxdırmaq (qadınlar istisnadır).
7. Zilhiccənin on birində Cəmərəni daşlamaq.
8. Zilhiccənin on ikisində Cəmərəni daşlamaq.
9. Təvaf.
10. Təvaf namazı.
11. Səy.
12. Nisa təvafı.
13. Nisa təvafı namazı.

[1] Bəqərə surəsi, ayə 125.

[2] Hürr əl-Amili. Vəsailüş-şiə. III c. s. 485.

[3] Həmin mənbə. X c. s. 511.

II FƏSİL

MƏDİNƏ ŞƏHƏRİ

2.1. Mədinə sözünün mənaları

Mədinə sözü etimoloji cəhətdən ərəb mənşəli sözlərdən olub, "mudn" kökündən yaranmış və lüğətdə "bədəvilikdən, cəhalətdən xilas olub mədəniyyətə qovuşmaq" mənasındadır. Həmçinin bu söz daha geniş mənalar kəsb edərək "insanın elmli, savadlı, sivilizasiyalı, yüksək əxlaqlı olması" mənalarını da bildirməkdədir. Həmçinin "hər bir tikilişi və binası olan yerə də mədinə deyilir."[1] Mədəniyyət sözü də bu kökdən yaranmış və "şəhərli olmaq" mənasını bildirir.

Mədəniyyət sözünün təhlil edən görkəmli ilahiyyatçı alim Hacı Sabir Həsənli yazırdı: "Mədəniyyət sözünü ifadə etmək üçün müasir ərəb dilində əl-hədarə, ət-təməddün, əl-mədəniyyə və əs-səqafə sözləri işlədilir... Bu anlamlar nə Quranda, nə hədislərdə, nə də futuhatlardan sonra uzun müddət, İbn Xəlduna (1332-1406) qədər, İslam fikrində indiki mənalarında işlədilməmişdir."[2]

Terminoloji mənada isə Mədinə dedikdə indiki Səudiyyə Ərəbistanındakı şəhər nəzərdə tutulur ki, burada da Peyğəmbərin qəbri-şərifi yerləşir.

2.2. Mədinə şəhərinin adları

Yəsrib.

Tarixdə Mədinə şəhərinin çoxlu adları vardır. Onun ən qədim adı Yəsribdir. Bu ad Peyğəmbərin Mədinə şəhərinə köçməsinədək (622 miladi) beləcə işlənirdi. Yəsrib sözünün mənası "bədbinlik" deməkdir. Həmçinin bu söz "qəbahətinə görə danlamaq", "qəbahətini başa qaxmaq", "qınamaq" mənalarında da işlənir.[3] Yəsrib sözü Qurani-Kərimdə fel formasında ("**la təsribə"**) işlənmiş və "qınamaq" mənasında gəlmişdir. Allah buyurur: **"Bu gün qınanmayacaqsınız."**[4] Yəsrib sözü "Musərrəb" kimi ismi-məful formasında işləndikdə "fitnə-fəsadçı" mənasını bildirəcəkdir. Yəsrib Mədinənin adı kimi Qurani-Kərimin ayəsində də keçməkdədir. Allah buyurur: **"O zaman onlardan bir tayfa: Ey Yəsrib əhli! Sizin üçün duracaq bir yer yoxdur, qayıdın!- dedilər."**[5]

Yəsrib sözünün mənası pis olduğundan Peyğəmbər onun deyilməsini qadağan etmiş və buyurmuşdur: "Kim Mədinəyə Yəsrib desə, Allaha yönəlib ondan bağışlanma diləsin. O gözəldir, gözəldir."[6] Bundan başqa Yəsrib adının İslamdan əvvələ aid bir termin olduğunu və xüsusən də şəxs adı olduğunu nəzərə alsaq Peyğəmbərin bu qadağasının mənası bizə daha da aydın olacaqdır. Tarixi məlumata görə Yəsrib sözü orada ilk yaşayan Yəsrib bin Qaniyə bin Mehlail bin İrəmin adından götürülmüşdür. Lakin bəzi qaynaqlarda onun adının Əmaliqə tayfasından olan və bu şəhəri salan bir şəxsin adından götürüldüyü qeyd edilir.[7]

əl-Mədinə.

Mədinə şəhərinin ən məşhur və daha çox işlədilən adı Mədinə və ya Mədinətul-Munəvvərə, yaxud da Mədinətur-Rəsuldur. Onun belə adlanması Peyğəmbərin ora təxminən 622-ci miladi ilində hicrət etməsindən sonra olmuşdur. Mədinə sözü lüğətdə şəhər mənasını verdiyindən "Mədinətur-Rəsul" dedikdə "Peyğəmbərin şəhəri" mənası başa düşülür.

Peyğəmbər buyurur: "Kim Mədinənin istisinə və susuzluğuna dözsə, Qiyamət günü ona şəfaətçi və əməllərinə şahid olaram."[8]

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 43.
[2] Hacı Sabir Həsənli. İslam mədəniyyətində elm. Bakı, Elm və həyat nəşriyyatı, 1998. s. 18-19.
[3] Mevlut Sari. Arapça-Türkçe lüğat. s. 171.
[4] Yusif surəsi, ayə 92.
[5] Əhzab surəsi, ayə 13.
[6] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 464.
[7] Həmin mənbə.
[8] Həmin mənbə. XVII c. s. 45.

əl-Hərəm.

Mədinənin adlarından biri də Haramdır. Bu söz "qadağa" mənasını bildirir. Onun belə adlanmasının səbəbi isə Peyğəmbərin hədisi-şərifinə bağlıdır. Belə ki, o, buyurmuşdur: "Mədinə haramdır. Onun ağacı kəsilməz, orada bidət qoymaq olmaz. Hər kəs orada bidət qoysa, ona Allahın, mələklərin və bütün insanların lənəti olacaqdır."[1]

Ərzül-iman.

Mədinənin adlarından biri də Ərzül-imandır. Bu sözün mənası "İman yeri" deməkdir. Peyğəmbər buyurur : "Mədinə İslamın qübbəsi və imanın yeridir."[2]

əş-Şafiyə.

Mədinənin digər bir adı isə əş-Şafiyədir. Bu adı da Peyğəmbər ona vermişdir. Belə ki, o, hədislərinin birində buyurur: "Mədinənin tozu-torpağı xəstəliklər üçün şəfadır."[3]

əl-Qəryə.

Mədinənin adlarından biri əl-Qəryədir ki, bunun da mənası "şəhər" deməkdir. Bu söz əslində "insanların toplaşıb durduqları yer."[4] mənasındadır. Peyğəmbər buyurur: "Allah bu Qəryəni (şəhəri) şirkdən təmizləmişdir."[5]

əl-Məhfuzə.

Mədinənin digər bir adı isə Məhfuzədir. Məhfuzə lüğətdə "qorunmuş" mənasındadır. Bu ad Peyğəmbərin hədisi- şərifində belə keçir: "Qorunan şəhər üçdür, onun da biri Mədinədir." [6]

əl-Mübəyyinə.

Mədinənin adlarından biri də əl-Mübəyyinədir. Bu sözün mənası "aydınlaşdıran", "açıqlayan" deməkdir. Peyğəmbər buyurur: "Mədinə İslamın qubbəsi, halal və haramı isə açıqlayandır."[7]

ət-Tin.

Mədinə şəhərinin adlarından biri də ət-Tindir. Bu söz "əncir" mənasını bildirir və Qurani-Kərimin "ət-Tin" surəsindən götürülmüşdür. Çünki, Peyğəmbər bu surəni izah edərkən buyurmuşdur: "Allah yer üzərində dörd şəhər seçmişdir: **"Tin və əz-Zeytun və Turi-Sinin və hazəl Bələdil-Əmin."** Tin Mədinədir, Zeytun Beytülmüqəddəsdir, Turi-Sinin Kufədir, Bələdul-Əmin isə Məkkədir."[8]

Cəzirətül-ərəb.

Bəzi hədis alimlərinə görə Mədinənin adlarından biri Cəzirətül-ərəbdir. Bu sözün mənası "Ərəbistan yarımadası" deməkdir. Alimlər Mədinənin belə adlanmasını "Müşrikləri Ərəbistan yarımadasından çıxarın" hədisinə bağlayırlar. Bu hədisə görə buradakı Ərəbistan yarımadasında məqsəd Mədinə şəhəridir. Bu görkəmli alim Əbu Davudun görüşüdür.[9]

Tayyibə.

Mədinə şəhərinin məşhur adlarından biri də Tayyibədir. Bunun mənası "təmiz və pak edən" deməkdir.

---

[1] Səhihi-Buxari. Fəzailül-Mədinə. Hədis № 1867.
[2] Təbəraninin "Möcəmül-kəbir" əsərinə istinadən.
[3] Mihr Ali Suleyman. Kutlu şehir Medine. İstanbul, Kaynak kitaplığı, 1999. s. 29.
[4] Mevlut Sari. Arapça-Türkçe luğat. s. 1224.
[5] Təbəraninin "Möcəmül-kəbir" əsərinə istinadən.
[6] Səmhudinin "Vəfaül-vəfa" əsərinə istinadən.
[7] Təbəraninin "Möcəmül-kəbir" əsərinə istinadən.
[8] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 297. Hədis № 2.
[9] Mihr Ali Suleyman. Kutlu şehir Medine. s. 29.

Darül-fəth.
Bunun mənası "fəth evi" deməkdir.

əl-Müslüm ətül-mühəbbəbə.
Bu da Mədinəyə verilən məşhur adlardandır. Onun mənası "sevilən müsəlman şəhər" deməkdir.

Seyidətül-büldan.
Mənası "Məmləkətlərin rəhbəri " deməkdir.

əl-Bərrah.
Bunun mənası isə "yaxşılıqları sevən" deməkdir.

Mədinə şəhərinin aşağıdakı adları da vardır:
əl-Cabira.
Qübbətül-İslam.
Qəlbül-iman.
Muxtarə.
Darül-əbrar.
əl-Muminə.
Darüs-sünnə.
Darül-əxyar.
əd-Dirül-hasinə.
Zatül-hirar.
Qaynaqlarda Mədinənin tarixdə 95 adı olduğu qeyd edilməkdədir. Lakin onların içərisində daha məşhur olanlar yuxarıda göstərilən adlardır. Əllamə Hairi isə Mədinənin cəmi 29 adı olduğunu yazıb.[1]

2.3. Mədinə şəhərinin coğrafi mövqeyi

Mədinə şəhəri indiki Səudiyyə Ərəbistanında yerləşir. Şəhər Hicazın Məkkədən sonra ikinci ən mühüm şəhəridir. Burada çoxlu axar sular, yaşıllıqlar və bağlar vardır. Tarixi məlumata görə, Mədinə şəhəri cahiliyyə dövründə elə də mühüm şəhər olmamış, lakin İslam dini orada yayılandan və Peyğəmbər ora hicrət edəndən sonra əhəmiyyət kəsb etmişdir. Mədinə şəhəri düz və yüksək bir vadi üzərində salınmış, şimalda Ühüd, şərqdə isə Təbəri dağları ilə əhatələnmişdir. Bu şəhər Məkkənin təqribən 420 km. qərbində, Qırmızı dənizin isə 100 km. şərqindədir.

2.4. Mədinənin tarixi

Mədinə şəhərinin salınma tarixi elmə məlum deyildir. Lakin bəzi tarixi və dini rəvayətlər onun qədim olmasından və İslamiyyətdən əvvəl mövcud olmasından xəbər verir. Onun salınma tarixi haqda bir neçə rəvayət vardır. Bu rəvayətlər məşhur əsərlərdə yer almış, lakin təəssüflər olsun ki, onların səhihliyi hələlik isbat edilməmişdir. Bu rəvayətlərdən biri budur ki, Mədinə şəhərinin əsl və ilkin adı Yəsribdir. Bu ad onun ilk bina edəni Yəsrib bin Qaniyə bin Mehlail bin İrəmin adından götürülmüşdür.[2] Bu rəvayəti bir çox müsəlman alimləri, o cümlədən Yaqut əl-Həməvi,[3] Fərid əl-Vəcdi[4] və başqaları öz əsərlərində qeyd etmişlər.

İbn Xəldun Mədinənin tarixindən bəhs edərkən yazırdı: "Köhnə adı Yəsrib olan Mədinə, Əmaliqədən Yəsrib bin Mehlail tərəfindən qurulmuşdur. Sonra İsrail oğulları Mədinəni Hicaz torpaqlarının bir hissəsi ilə birlikdə Əmaliqələrin əlindən aldılar. Daha sonra da Qəssan qəbiləsinin

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 213.
[2] Həmin mənbə. XVIII c. s. 464.
[3] Yaqut əl-Həməvi. Möcəmi-buldan. VIII c. s. 424.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. X c. s. 913; VIII c. s. 528.

Kayla (Övs və Xəzrəc qəbilələrinin ataları) qolu onlara qonşu oldular və onları məğlub edib Yəsribi və qalalarını onlardan aldılar.

Sonra həzrət Peyğəmbər Allahın təqdiri ilə oraya müsəlmanlara hicrət etmək əmrini verdi və özü Əbu Bəkr ilə birlikdə oraya hicrət etdi. Oraya getdikdən sonra Allahın əzəldən hazırlayıb şərəfləndirdiyi yerə məscidini və evlərini tikdi. Kaylanın övladları (Övs və Xəzrəc qəbilələri) onlara hicrət edən muhacirləri qarşılayıb onlara yardım etdilər. Buna görə də onlar Ənsar (yardımçılar) adlandılar. Beləcə İslam Mədinədə güclənib qalib və üstün duruma gəldi. Sonra Peyğəmbər öz qövmünə (Qüreyşə) də qalib gəlib Məkkəni fəth etdi.

Məkkənin fəthindən sonra Ənsar Peyğəmbərin ora dönəcəyini güman etdilər və buna görə çox üzüldülər. Ancaq Peyğəmbər onlara Məkkəyə dönməyəcəyini xəbər verdi. Beləliklə, Peyğəmbər ömrünün sonunadək orada yaşadı və ruhunu da orada təslim etdi. Mədinənin fəziləti və üstünlüyü haqqında bir çox səhih hədislər vardır."[1]

Mədinə şəhərinin ilk dəfə kim tərəfindən salınmasını bildirən rəvayətlərdən biri də Musa Peyğəmbərin adı ilə bağlıdır. Belə ki, rəvayətdə deyilir: "Musa öz qövmündən bir qrupu o istiqamətə göndərdi ki, oranı kəşf etsinlər. Onlar ora yetişən kimi Musanın ölüm xəbərini eşitdilər. Beləliklə, Musanın göndərdiyi camaat geri dönməyib elə orada məskən saldılar. Bu hadisə hicrətdən (622 miladi) iki min iki yüz (2200) il əvvəl olmuşdur. Yəni təqribən miladdan əvvəl min altı yüzüncü (1600) ildə.[2] Deməli, əgər bu tarixi rəvayət doğru hesab edilərsə, Mədinə şəhərinin miladdan qabaq 1600-cü ildə salındığı məlum olacaqdır.

Mədinə şəhərinin salınma tarixi ilə əlaqədar nəql olunan rəvayətlərdən biri isə onun Əmaliqə qəbiləsi tərəfindən salındığını göstərən rəvayətdir. Belə ki, bu rəvayətdə qeyd edilir ki, Əmaliqədən olan Əmlaq bin Ərfəxşəd bin Sam bin Nuh ilk dəfə olaraq bu ərazidə əkin əkmiş, orada xurma becərmiş və orada ömür sürmüşdür.[3] Əgər bu rəvayət doğru hesab olunarsa, onda Mədinənin tarixi daha da qədimlərə gedib çıxacaqdır. Çünki məlum olduğu kimi, Əmlaq, Nuh Peyğəmbərin nəticəsidir, Nuh ilə Adəm arasında isə cəmi on və ya on beş əsr fərq vardır.

Mədinədə yəhudilərin məskunlaşmasına gəldikdə isə, İslam alimləri bu haqda maraqlı fikirlər irəli sürürlər. Belə ki, bu haqda ən məşhur görüş budur ki, yəhudilər müqəddəs Tövrat kitabında oxumuşdular ki, yaxınlarda bu ərazidə bir peyğəmbər zühur edib insanları doğru yola çağıracaqdır. Onlar bunu bildikdən sonra dəstə-dəstə buraya gəldilər, burada məskən salıb oranın sakinlərinə çevrildilər. Bunlardan sonra Mədinədə Övs və Xəzrəc qəbiləsi də gəlib məskən saldılar. Yəhudilər burada çoxlu oğul-uşaq və var-dövlət sahibi oldular.[4] Mədinə şəhəri İslam mədəniyyətinin formalaşdığı, inkişaf etdiyi və oradan dünyaya yayıldığı müqəddəs bir məkandır. Tarixi məlumatdan məlumdur ki, Mədinə Əqəbə beyətindən sonra müsəlmanların qüvvətləndiyi mərkəzə çevrilmişdir.

Məlum olduğu kimi, Peyğəmbər Məkkədə İslamı təbliğ edərkən daima oradakı müşriklərin tənələri və son dərəcə hər növ vasitələrlə ona mane olmaları ilə qarşılaşdı və sonda onun buranı tərk edib başqa bir yerə köçməsinə səbəb oldu. Məkkə müşriklərinin bu təzyiqlərinə baxmayaraq Peyğəmbər heç vaxt İslamı təbliğ etməkdən və insanları doğru yola yönəltməkdən çəkinib bezmədi. Onun bu müstəsna səbri Allahın onun üçün bağlı bir qapı açmasına səbəb oldu. Belə ki, Mədinədə yaşayan Xəzrəc qəbiləsindən bir qrup heyət Məkkə şəhərinə Kəbənin ziyarətinə gəldikdə, Peyğəmbər onlarla görüşmək fürsəti tapdı. Bu İslamı onlara çatdırmaq üçün ən yaxşı fürsət idi ki, Peyğəmbər bundan lazımınca yararlandı. O, Xəzrəc qəbiləsindən gəlmiş altı nəfərlik qrupa İbrahim surəsinin 35-52-ci ayələrini oxudu. Bu hadisə 620-ci ildə baş vermişdir. Onlar hamılıqla İslamı qəbul etdilər. Buna İslam tarixində "Birinci Əqəbə beyəti" deyilir. Bu beyətdə Xəzrəc qəbiləsindən iştirak edənlər aşağıdakılardır:

1. Əsəd bin Zürarə.
2. Əuf bin Haris.

---

[1] İbn Xəldun. Müqəddimə. II c. s. 482.

[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 45; Məhəmməd Fərid Vəcdi. Dairətül-məarifil-qərnil-işrin. 10 cilddə. VIII c. Darül-mərifə, 1971. s. 529.

[3] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 45.

[4] Həmin mənbə. s. 45-46.

3. Rafi bin Malik.
4. Qətbət bin Amir.
5. Üsbət bin Amir.
6. Cabir bin Abdullah.[1]

Bu altı nəfər Mədinəyə dönən kimi yeni qəbul etdikləri dini yaymağa başladılar. Onların apardıqları təbliğat yavaş-yavaş öz səmərəsini verməyə başladı. Beləliklə, az keçməmiş Mədinədə xeyli insan İslamı qəbul etdi.

Növbəti ilin zilhiccə ayında on iki nəfər "Mina Əqəbəsi" deyilən yerdə Peyğəmbərlə görüşdülər. Buna "İkinci Əqəbə Beyəti" deyilir. Burada keçən il Peyəmbərə iman gətirmiş o altı nəfərdən yalnız beşi iştirak edirdi. Çünki Cabir bin Abdullah bu dəfə həcc mövsümünə gələ bilməmişdi. Həmin on iki nəfər Peyğəmbərlə belə bir müqavilə imzaladılar ki, Allaha şərik qoşmayacaqlar, oğurluq etməyəcəklər, pis işlərin ardınca getməyəcəklər, öz uşaqlarını öldürməyəcəklər, başqalarını müttəhim etməyəcəklər və s. Məclis bitdikdən sonra hamı dağılışdı. Peyğəmbər Haşimin nəvəsi Müsəb bin Ümeyri Qurani-Kərimi öyrətmək üçün Yəsribə göndərdi. Orada Müsəb yaxşı qarşılandı və Üseyd bin Xüdeyr ilə Səd bin Müaz kimi tanınmış qəbilə başçılarını İslama gətirdi. Bundan sonra Səd bin Müaz qəbiləsinə belə bir elan verdi ki, mən siz İslamı qəbul etməyənədək heç kimsə ilə danışan deyiləm. Bu sözdən sonra onun qəbiləsinin əksəriyyəti İslam dinini qəbul etdi və beləliklə, Yəsribdə müsəlmanların sayı artdı. Orada iki böyük qəbilənin- Xəzrəc və Övs qəbilələrinin İslama girmələri İslamın Yəsribdəki inkişafına güclü təkan verdi.

Artıq Yəsribdə müsəlman olmuş şəxslər növbəti həcc mövsümünü gözləyirdilər ki, gedib Peyğəmbərlə görüşsünlər. Beləcə növbəti həcc mövsümü yetişdi. Yəsriblilərdən beş yüz nəfərlik bir heyət Məkkəyə yola düşdülər. Bunlardan bir hissə hələ müsəlman olmamışdı. O beş yüz nəfərdən ikisi qadın olmaqla yetmiş iki nəfər Peyğəmbərlə görüşdü. Bu besətin 13-cü ili zilhiccənin on üçü (622 miladi) idi. Buna ikinci "Əqəbə Beyəti" deyilir. Onları Əqəbədə Peyğəmbərlə əmisi Abbas qarşıladılar. Abbas sükutu pozaraq sözə başladı və dedi: "Ey xəzrəclilər, siz Məhəmmədin ayinini himayə edəcəyinizi bildirmisiniz. Bilin ki, o, öz qəbiləsinin ən hörmətli şəxsidir. Bəni-Haşim qəbiləsi bir nəfər kimi istər mömin olsun, istər olmasın onu müdafiə etməyi öhdəsinə almışdır. Amma indi Məhəmməd sizin aranızda olmaq istəyir. Əgər əhdi-peymanınızın üstündə durmaq və onu düşməndən qorumaq istəyirsinizsə, onu sizə tapşırırıq, yox əgər lazım olan vaxtda onu müdafiə etməyəcəksinizsə, lap elə indi ondan əl çəkin və qoyun öz qəbiləsi içində əzizlik, böyüklük və əzəmətlə yaşasın. Bu işdə məsləhətləşin və qərara gəlin, qəti qərara gəlmədən və həmfikir olmadan danışmayın. Düz danışmaq ən yaxşı işdir."

Bu vaxt Bərra bin Mərur ayağa qalxıb dedi:"And olsun Allaha, bizim qəlbimizdə sənin dediyindən başqa bir söz yoxdur: əgər olsaydı deyərdik. Biz qərara gəlmişik ki, doğrudan da Həzrət Rəsulun yolunda canımızdan keçək.[2] Bu müqavilələrdən sonra Qüreyşin təlaşı başlandı. Onların əvvəlcə bu işdən xəbərləri olmamışdı. Sonradan bundan xəbər tutan kimi mədinəliləri axtarmağa başladılar. Amma onları tapa bilmədilər. Çünki, Peyğəmbər mədinəlilərə artıq Məkkəni tərk etmək tapşırığını vermişdi. Peyğəmbər Qüreyşin bu təlaşını görüb Məkkədəki müsəlmanların vəziyyətlərinin heç də yaxşı olmayacaqlarını dərk edərək onlara Mədinəyə hicrət etmək göstərişini verdi.

Hər yerdən əli üzülən Qüreyş başçıları sonda Peyğəmbəri öldürmək qərarına gəldilər. Nəhayət, Əbu Cəhl onu öldürmək təklifini irəli sürdü və hamı bu təklifi yekdilliklə qəbul etdilər. Lakin Allah onların bu planlarını ifşa edib onun qarşısını aldı. Bu haqda Quran belə bəyan edir: **"Kafirlər sənə hiylə hazırlayıb səni zindana salmaq, öldürmək, yaxud sürgün etmək istəyən vaxt Allaha hiylə qurmaq istədilər. Lakin, Allah onların hiylələrini ifşa edib tədbirlərini təsirsiz qoydu!."**[3]

Qüreyş bu sui-qəsdi həyata keçirmək istədikdə, Allah bunu Peyğəmbərə xəbər verdi. Peyğəmbər Allahın əmri ilə öz yatağında Əlini qoyub gecə Məkkəni tərk etdi. Buna İslamda

[1] Cəfər Sübhani. İslam tarixi. s. 108; Nuri Ünlü. İslam tarihi. s. 33.
[2] Cəfər Sübhani. İslam tarixi. s. 110.
[3] Ənfal surəsi surəsi, ayə 30.

“Leylətül-məbit” deyilir. Belə ki, Peyğəmbər Əlini çağırıb ona yerində yatmasını tapşırdı. İmam Əli onun bu təklifini canla-başla qəbul etdi. Allah Quranda İmam Əlinin bu fədakarlığına ayə nazil edərək buyurdu: **“Bəziləri Allahın razılığını əldə etmək üçün canlarını satır və Allah öz bəndələrinə qarşı mehribandır.”**[1] Beləliklə, Peyğəmbər Əlini öz yatağında yatırdıb gecə ikən Məkkədən Mədinəyə yola düşdü.[2] O, Əbu Bəkr adlı birisi ilə Məkkənin cənubundakı Saur mağarasında gizləndilər. Bu Əbu Bəkrin kimliyi haqda ixtilaf vardır. Bəzi alimlərə görə o, Abdullah bin Üreyqə bin Bəkr olmuşdur.[3] Lakin məşhur görüş budur ki, bu Əbu Bəkr bin Əbu Quhafə olub. Onlar üç gün bu mağarada gizləndikdən sonra Məkkəyə yola düşdülər. Müşriklər onları tapmaq üçün hər növ vasitədən istifadə etdilər. Lakin bir şey tapa bilməyib kor-peşiman geri döndülər.[4]

Peyğəmbərin Məkkədən çıxıb Mədinəyə nə vaxt çatması tarixçilər arsında ixtilaflıdır. Belə ki, İbn Hişama görə o, rəbiul-əvvəl ayının on ikisində, bazar ertəsi, günorta vaxtı Qubaya çatır. Lakin məşhur görüş budur ki, O, besətin on dördüncü ili rəbiul-əvvəl ayının on ikisində (622-ci il, 4 sentyabr) Mədinə yaxınlığında yerləşən Quba məntəqəsinə çatmışdır.[5] Peyğəmbər bura yetişən kimi onu mədinəlilər yüksək səviyyədə qarşıladılar. Hər bir qəbilə Peyğəmbərin onlarda qalmasını istəyirdi. Buna görə də hər kəs onu öz evinə dəvət edirdi. Peyğəmbər dəvətçilərin çoxluğunu görüb onların qəlblərini qırmamaq üçün dedi: “Dəvəm harada əyləşsə, orada qalacam.” Dəvə Bəni Malik bin Nəccar əhalisinin evləri qarşısında yerə əyləşdi. O ərazi iki yetim uşağa məxsus idi. Peyğəmbər həmin ərazini Məaz bin Ərafdan on dinara satın alıb, elə orada bir məscid tikdi. Peyğəmbərin ləvazimatını Əbu Əyyub Ənsari öz evinə apardı. Çünki onun evi bura çox yaxın idi. Peyğəmbər məscidin tikilişində şəxsən iştirak edirdi.[6] Məscid tikiləndə ona bir eyvan da əlavə etdilər ki, evsiz-eşiksiz səhabələr orada yaşasınlar. Orada yaşayan səhabələrə tarixdə “əhli-suffə” deyilir. Onlara Übadət bin Samit yazıb-oxumağı öyrətməyi öz öhdəsinə aldı. Bu məscid “Məscidi-Nəbəvi” adlandırıldı. Peyğəmbər hicrətin birinci ilinin rəbiul-əvvəl ayından ikinci ilin səfər ayına kimi Mədinədə qalıb məscidin tikintisi ilə məşğul oldu. O, həmçinin məscidin ətrafında olan köhnə evlərin təmir olunmasını da ev yiyələrinə tövsiyyə etdi və bu işdə onlara köməklik göstərdi. Beləliklə, də İslam dini yavaş-yavaş Mədinədə intişar tapmağa başladı.

2.5. Mədinədə ilk İslam dövlətinin qurulması

Peyğəmbər Mədinəyə hicrət etdikdən sonra orada ilkin olaraq bir çox ictimai və siyasi addımlar atmışdı. Peyğəmbərin atacağı ilk addım təbii ki, İslam dövlətini qurmaq və bununla da İslam ümmətini idarə etmək mexanizmini hazırlamaq idi. O, vahid sistemli, dünya miqyaslı və tamamilə özünəxas bir sistem yaratdı ki, bu da İslam dövləti idi. Beləliklə, dünya tarixində misli görünməmiş, tam ədalətli, ilahi qanunlarla idarə olunan federativ İslam dövləti quruldu. O, bu İslam dövlətini qurarkən bütün irqi, milli və sosial mənsubiyyətindən asılı olmayaraq insanların vahid bir din altında yaşamasını təmin etdi. Peyğəmbərin dövlət işlərinə toxunan Məhəmməd Həmidullah yazırdı: “Bütün qanun və təsisatlara malik bir dövlət halında təşkilatlandırdığı cəmiyyətində Məhəmməd maddi, mənəvi və digər bütün sahələrə aid səlahiyyətlərindən istifadə etmişdir. Bu səlahiyyətlərin hamısı miras olaraq onun vəfatından sonra dövlətin rəhbər kürsüsünə gələn xəlifələrinə keçmişdir, ancaq bir fərqlə ki, xəlifələr peyğəmbər deyillər.”[7] İslam dövlətinin fəaliyyətinə toxunan Məhəmməd Həmidullah yazırdı: “İslam dövlətinin yerinə yetirməli olduğu

[1] Bəqərə surəsi, ayə 207. Bu ayənin İmam Əlinin haqqında nazil olması bir çox hədis və təfsir əsərlərində qeyd edilmişdir. (Bax: Hakim əl-Həskani əl-Hənəfi. Şəvahidüt-tənzil. (I c. s. 96. Hədis № 133, 134), Əllamə Bəlağı. Alaur-Rəhman. (I c. s. 184-185).

[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. XIX c. VI fəsil.

[3] İbn Hişam. əs-Sirətün-Nəbəviyyə. II c. s. 121; İbn Səd. Təbəqatül-kübra. III c. s. 173; İbn Hibban. əs-Siqat. III c. s. 23; Nəcahi Tai. Sahibul-Ğar Əbu Bəkr əm raculun axər. s. 51-75; Əli Hicrani Təbrizi. Həccin tarixi, əhkamı və mənəvi dəyərləri. Bakı, Məhdiyar nəşriyyatı, 2006. s. 48.

[4] Geniş məlumat üçün bax: Nuri Ünlü. İslam tarihi. I c. s. 34-35; Cəfər Sübhani. İslam tarixi. s. 117-119; İbn Səd. Təbəqatül-kübra. I c. s. 227-237; İbn Hişam. əs-Sirətün-Nəbəviyyə. II c. s. 123-144; İbn Əsir. əl-Kamilu fit-tarix. II c. s. 101-118; Əli Himmət Bərki və Osman Kəsikoğlu. Həzrət Məhəmmədin həyatı. s. 181-184.

[5] Seyid Cəfər Şəhidi. İslam tarixi və təhlillər. s. 68.

[6] Əllamə əl-Məclisi. Biharül-ənvar. XIX c. VII fəsil.

[7] Məhəmməd Həmidullah. İslama giriş. Bakı, Qismət, s. 140.

vəzifələri dörd qrupa ayırmaq mümkündür: (mülki və hərbi idarəçiliyi də özündə ehtiva edən) idarə etmə, qanun qoyma (qanunvericilik), ədalətin təmin olunması (məhkəmə) və mədəniyyət.[1]

Tarixi mənbələrdən alınan məlumat onu göstərir ki, Peyğəmbər Mədinəyə gələrkən oranın vəziyyəti çox mürəkkəb olmuşdur. Burada yaşayan qəbilələr arasında olan vuruşmalar insanlararası münasibətləri korlamış, idarəçilik sistemi isə qəbilə üstünlüyü ilə ölçülürdü. Peyğəmbəri böyük bir şəxsiyyət kimi qarşılayan mədinəlilər hakimiyyət cəhətdən ərəblərin icma başçılarından asılı idilər. Onların sayı da hələlik kifayət qədər deyildi. Məkkədən gələn muhacirlər isə təxminən yüz nəfərə yaxın idi. Onlara yerlilər sığınacaq vermiş və öz evlərində qonaq etmişdilər. Bu da təbii ki, çox uzun çəkə bilməzdi. Peyğəmbər çox böyük təmkinlə hərəkət edir, mühacir və ənsarın qarşılıqlı münasibətinə xüsusi diqqət yetirirdi. Çünki cüzi ehtiyatsızlıq hər iki qrupun arasında toqquşmaya gətirib çıxara bilərdi. Peyğəmbərin səbr və təmkini öz bəhrəsini verdi. Mədinədə mühacirlə ənsar arasında ilk saziş imzalandı. Beləliklə, ərəblərə xas olan qəbilə və tayfa birliklərindən fərqli olaraq Peyğəmbər yaratdığı icmanı dini qanunlar əsasında qurdu. O, özü isə bu icmanın rəhbəri oldu.

2.6. Mədinənin fəzilətləri

Mədinə şəhərinin fəziləti səhih hədislərdə öz əksini tapmış inkar olunmaz xəbərlərdəndir**.** Bu haqda Peyğəmbərdən və məsum İmamlardan çoxlu sayda hədis nəql olunmuşdur. Bu hədisi-şəriflər bütün mötəbər qaynaqlarda rəvayət olunmuşdur.

Peyğəmbər buyurur: "Həqiqətən İbrahim Məkkəni özünə hərəm etmişdi və oranın əhalisinə dua etmişdir. Mən də Mədinəni hərəm etdim. Mən də Mədinənin sakinlərinə İbrahimin Məkkənin sakinlərinə etdiyi duanı etdim."[2]

Peyğəmbər hədisi-şəriflərinin birində buyurur: "Mədinə sizin üçün çox xeyirlidir. Əgər insanlar bunu bilsəydilər, ondan başqasına rəğbət göstərməzdilər."[3]

Peyğəmbər Mədinənin fəzilətləri haqqında aşağıdakı hədislərində buyurmuşdur:

"Hər kəs Mədinənin sıxıntısına və istisinə səbr etsə, ona Qiyamət günü şəfaətçi və şahid olaram."[4]

"Allahım sən məni sevdiyin torpaqdan çıxardın və sevdiyin digər torpağa endirdin."[5]

"Allahım bizi burada məskunlaşdır və bizə burada bol-bol ruzi ver."[6]

"Sizlərdən hər kəs Mədinədə ölməyi bacarsa, bunu etsin. Çünki, hər kəs orada ölsə, Qiyamət günü ona şahid və şəfaətçi olaram."[7]

"Dəmir döyən dəmirin pasını yox etdiyi kimi Mədinə də insanların pisliklərini yox edir."[8]

"Xəbərdar olun! Həqiqətən Mədinə dəmir döyən kimi pislikləri yox edir."[9]

"Həqiqətən ilan öz yuvasına sığınan kimi iman da Mədinəyə sığınıb."[10]

"Xəbərdar olun! Həqiqətən Mədinənin dağ keçidlərində mələklər vardır, ora taun və Dəccal girə bilməz."[11]

"İlahi! Mədinədə bərəkətimizi artımlı et, necə ki, Məkkədə bərəkətli etmisən."[12]

"İlahi! Mədinəmizdə bizə və gəlirlərimizə bərəkət ver, su qablarımızın bərəkəti üzərinə bərəkət gətir."[13]

"Mədinə hərəmdir. Onun ağacı kəsilməz, orada bidət qoyulmaz. Hər kəs orada bidət çıxararsa, ona Allahın, mələklərin və bütün insanların lənəti olacaqdır."[1]

---

[1] Həmin mənbə. s. 146.
[2] ər-Rihabüt-tahirə. s. 49.
[3] Səhihi-Buxari. Fəzailül-Mədinə. Hədis № 1875; Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1363.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 45; VII c. s. 213; Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1377.
[5] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 45.
[6] Həmin mənbə.
[7] Həmin mənbə.; Sünəni-Tirmizi. Mənaqib Hədis № 3913.
[8] Səhihi-Buxari. Fəzailül-Mədinə. Hədis № 1871; Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1372.
[9] Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1371.
[10] Səhihi-Buxari. Fəzailül-Mədinə. Hədis № 1876; Səhihi-Müslim. Kitabul-iman. Hədis № 147.
[11] Səhihi-Buxari. Fəzailül-Mədinə. Hədis № 1880; Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1379.
[12] Səhihi-Buxari. Fəzailül-Mədinə. Hədis № 1885; Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1369.
[13] Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1373.

“Mədinə Sour dağı ilə Ayır dağınadək hərəmdir, hər kəs orada bidət çıxarsa, yaxud orada bidətçiyə sığınacaq versə, ona Allahın, mələklərin və bütün insanların lənəti olacaqdır. Allah Qiyamət günü onun tövbəsini və ədalətini qəbul etməyəcəkdir.”[2]

“İbrahim Məkkəni özünə hərəm etmişdi, mən də Mədinəni özümə hərəm etdim. Onun ağacı qoparılmaz, ovu isə ovlanmaz.”[3]

“Mən Mədinəni hərəm qərar verdim. Orada qan axıdılmaz və döyüş üçün silah daşınmaz. Oranın ağacları da ələf istisna olmaqla biçilməz.”[4]

“Heç kəs Mədinə camaatı üçün qələm pastasının damcısı qədər və ya duz dənəsi qədər pislik istəməsin, yoxsa Allah onu Cəhənnəmlə əzablandırar.”[5]

“Yəmən fəth ediləcək. Bir qrup insan Mədinədən oraya ailələri və özlərinə tabe olanlarla birgə gedəcəklər. Halbuki bilsəydilər Mədinə onlar üçün daha xeyirlidir. Şam da fəth ediləcək. Bir qövm Mədinədən öz ailələri və özlərinə tabe olanlarla birgə oraya gedəcəklər. Kaş biləydilər ki, Mədinə onlar üçün daha xeyirlidir. İraq da fəth olunacaq. Bir qrup kimsə ailəsi və özünə tabe olanlarla Mədinədən oraya daşınacaqlar. Kaş biləydilər ki, Mədinə onlar üçün daha xeyirlidir.”[6]

“İlahi! Məkkəyə verdiyin bərəkətin iki qatını Mədinəyə ver.”[7]

“Evimlə minbərim arasında Cənnət bağlarından bir bağ vardır. Minbərim hovuzumun üzərindədir.”[8]

“İslam şəhərlərindən ən son xarab olacaq şəhər Mədinədir.”[9]

“Allah mələklərdən çox şey yaratmamışdı, onlardan yetmiş min nəfəri hər gecə və gündüz yer aləminə enər, Beytül-haramı təvaf edərlər. Sonra isə Peyğəmbərin , daha sonra isə Əmirəlmöminin məqbərəsinə gəlib onlara salam verərlər. Bundan sonra Həsənin , sonra da Hüseynin məqbərəsinə gedib onlara salam verərlər. Onlar səhərədək Hüseynin hərəmində dayanar, səhər olduqda isə göyə qalxarlar və bir daha yerə qayıtmazlar. Ey Əli! Allah sənin və övladlarının qəbirlərini Cənnət bağçası etmişdir. Hər kəs sizin qəbirlərinizi ziyarət etsə, ona yetmiş həccin savabı verilər və günahları pozular.”[10]

Peyğəmbər digər bir hədisində buyurur: “Hər kəs Məkkəyə gəlib həcci ziyarət etsə, lakin Mədinədə məni ziyarət etməsə, mənə cəfa etmişdir. Hər kəs məni ziyarət etsə, ona şəfaətim nəsib olar. Hər kəsə şəfaətim yetişsə, ona Cənnət vacib olar. Hər kəs iki Hərəmdən birində, yəni Məkkə və ya Mədinədə ölsə, o, hesaba çəkilməz, Allah yolunda muhacir kimi ölər və məhşər günü Bədr əhli kimi dirildilər.”[11]

Həmçinin digər hədislərində buyurur: “Hər kəs məni həyatımda və yaxud da ölümümdən sonra ziyarət etsə, Qiyamət günü mənim qonşum olacaqdır.”[12]

“Hər kəs məni ziyarət etsə, Qiyamət günü ona şəfaətçi olaram.”[13]

“Hər kəs ölümümdən sonra məni ziyarət etsə, məni həyatda ikən ziyarət etmiş kimidir. Əgər kimsə bunu bacarmayırsa, mənə salam göndərsin, çünki, o salam mənə yetişir.”[14]

İmam Sadiq buyurur: “Allah Rəsulunun qəbrini ziyarət etmək Peyğəmbərlə birlikdə ziyarət edilmiş məqbul həccə bərabərdir.”[15]

Peyğəmbər buyurur: “Hər kəs məni ölümümdən sonra ziyarət etsə, həyatımda məni ziyarət etmiş kimidir. Qiyamət günü onun əməllərinə şahid, özünə isə şəfaətçi olaram.”[1]

---

[1] Səhihi-Buxari. Fəzailül-Mədinə. Hədis № 1867; Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1366.
[2] Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1370; Sünəni-Tirmizi. Hədis № 2018.
[3] Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1362.
[4] Həmin mənbə. Hədis № 1374.
[5] Həmin mənbə. Hədis № 1363.
[6] Həmin mənbə. Hədis № 1388.
[7] Həmin mənbə. Hədis № 1368.
[8] Həmin mənbə. Hədis № 1392.
[9] Sünəni-Tirmizi. Mənaqib. Hədis № 3915.
[10] Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 614.
[11] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 44.
[12] Həmin mənbə.
[13] Həmin mənbə.
[14] Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 337.
[15] Həmin mənbə.

Əbdürrəhman bin Nəcran rəvayət edir: “İmam Sadiqə dedim: “Sənə fəda olum, Peyğəmbəri ziyarət edən şəxs üçün nə var?” İmam buyurdu: “Allah onu Cənnətə daxil edər.”[2]

İmam Hüseyn babasından soruşdu: “Babacan! Səni ölümündən sonra ziyarət edən üçün nə nəzərdə tutulub?” Peyğəmbər buyurdu: “Hər kəs məni ölümümdən sonra ziyarət etsə, onun üçün Cənnət var. Hər kəs atanı ölümündən sonra onu ziyarət etsə, ona Cənnət var. Hər kəs qardaşını ölümündən sonra ziyarət etsə, ona Cənnət var. Hər kəs səni ölümündən sonra ziyarət etsə, ona Cənnət var.”[3]

Peyğəmbər buyurur: “Məscidimdə qılınan namaz Məscidülhəramı çıxmaq şərtilə yerdə qalan bütün məscidlərdən üstündür. Orada qılınan bir namaz on min namaza bərabərdir.”[4]

Qeyd etmək lazımdır ki, Peyğəmbərmizin əziz qızı Fatimeyi-Zəhranın da qəbri-şərifi böyük ehtimalla Peyğəmbər məscidindədir. Bu haqda İmam Rzadan Fatimənin qəbri haqqında soruşulduqda, Həzrət buyurdu: “Fatimə öz evində dəfn olundu. Bəni-Üməyyə məscidi genişləndirəndə onun da qəbri məscidə daxil oldu.”[5]

Peyğəmbər Fatimə haqqında buyurur: “Allah Fatimə üçün bir qrup mələk təyin etmişdir ki, onu arxadan, öndən, sağdan və soldan qorusunlar. O mələklər Fatimə dünyadan gedənədək onunla olacaqlar, o, vəfat etdikdən sonra isə qəbrinin yanında dayanıb atası, əri və iki övladı üçün namaz qılacaqlar. Hər kəs məni ölümümdən sonra ziyarət etsə, məni diri ikən ziyarət etmişdi. Hər kəs Fatiməni ziyarət etsə, məni ziyarət etmişdir. Hər kəs Əlini ziyarət etsə, elə bil ki, Fatiməni ziyarət etmişdir. Hər kəs Hüseyni ziyarət etsə, Əlini ziyarət etmiş kimidir. Hər kəs onların övladlarını ziyarət etsə, onların ikisini ziyarət etmiş kimidir.”[6]

2.7. Mədinədə tikilmiş müqəddəs yerlər

2.7.1. Məscidi-Nəbi (Peyğəmbər məscidi)

Mədinədə çoxlu sayda müqəddəs tikililər vardır ki, bunların da başında Peyğəmbərin məscidi gəlir. Buna “Məscidün-Nəbi” deyilir. Bu məscidin tikilmə tarixi Peyğəmbərin Mədinəyə hicrət etməsi ilə başlayır. Çünki, Peyğəmbər Mədinəyə hicrət edərkən ilk gördüyü iş orada məscid tikmək olmuşdur. O, məscidin ərazisini müəyyən etdikdən sonra oradakı müşrik insanların dəfn edildikləri qəbirləri sökdürüb, xurmalıqları kəsdirdi.[7] Sonra isə orada palçıqdan kərpic kəsdirib məscidin tikilməsini çiy kərpiclə həyata keçirdi.

Bu haqda qaynaqlarda kifayət qədər məlumat vardır. Belə ki, Peyğəmbər Mədinəyə hicrət edərkən dəvəsinin yatdığı yer Səhl və Suheyl adında iki yetimə məxsus idi. Peyğəmbər o yeri onlardan satın alıb, orada məscidi və özünə məxsus olan otaqları tikdi. O, bu məscidin inşa olunmasında ənsar və mühacirlə birlikdə şəxsən işləyirdi. Məscidin uzunluğu Peyğəmbərin öz əsrində 70 zira (bir zira yarım metr), eni isə 30 zira olmuşdur. Lakin, Xeybər müharibəsindən sonra məscidin ərazisi müsəlmanlar üçün darısqal olduğundan Peyğəmbər onu genişlətdi. Beləliklə, məscidin sahəsi 4410 zira oldu (1060 m^2).

Mötəbər qaynaqlardan əldə olunan məlumat onu göstərir ki, Məscidi-Nəbinin inşa olunmasında Peyğəmbər bir başa iştirak etmişdir. Sonralar o, məscidi genişlətmiş, onun inşasını yeniləmiş və oranı İslam dövlətinin mərkəzi aparatına çevirmişdi. Həmçinin Məscidi-Nəbi eyni zamanda İslamın ilk elm mərkəzi olmuşdur. Məscidin tikintisi başa çatdıqdan sonra Peyğəmbərin göstərişi ilə Ubadət bin Samit Məsciddə yoxsul və fəqirlər üçün ayrılmış yerdə onlara yazıb-oxumağı öyrədirdi.

---

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. 100-cü c. s. 142; İbn Quləveyh. Kamilüz-ziyarat. s. 45.
[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 43.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. 100-cü c. s. 142; İbn Quləveyh. Kamilüz-ziyarat. s. 39; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 329.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 614.
[5] Həmin mənbə. s. 615.
[6] Həmin mənbə.
[7] Səhihi-Müslim. Kitabül-məsacid-9. Hədis № 1173.

Məscidi-Nəbi Qurani-Kərimdə bir başa qeyd edilməsə də Bəzi rəvayətlərdə "**İlk gündən təqva üzərində qurulan məscid"**[1] ayəsində məqsəd Məscidi-Nəbidir deyilir. Şeyx Tusi yazır: "Bu barədə iki nəzəriyyə vardır. İbn Abbas, Həsən və Ətiyyənin dediyinə görə, bu ayə Quba məscidi barədə nazil olub. Ancaq İbn Ömər və İbn Müsəyyibin fikrincə ayə Məscidi-Nəbi barəsindədir." Bu iki nəzəriyyəni Təbəri də öz təfsir əsərində qeyd etmişdir. O, deyir: "Səhl və Səid rəvayət edir ki, Peyğəmbərin dövründə iki nəfər bu məsələ barəsində mübahisə etdilər və buna görə də Peyğəmbərin yanına gəldilər. Peyğəmbər onlara dedi: bu mənim məscidimdir"[2]. Bəzi alimlər bu ayədə məscid sözündə məqsədin elə Məscidi-Nəbi olduğunu deyirlər. Bu fikirin tərəfdarlarına görə Peyğəmbərin Qubada bu qədər vaxt qalıb məscid tikməyə vaxtı olmamışdı."[3]

Bütün qaynaqlarda Məscidi-Nəbinin inşasına miladi 622-ci il sentyabr ayında başlandığı və 623-cü il aprel ayında tamamlandığı qeyd edilir.[4] Səmhudinin məlumatına görə məscid ilk dəfə daş təməl üzərinə tək qat kərpicdən, bir insan boyu qədər ucaldıldı, üstü açıq formada, 60 x 70 ziralıq (1022 m^2) ölçüdə oldu.[5]

Məscidi-Nəbi tikilən zaman ona üç qapı qoyulmuş və iki otaq da onun cənub tərəfində Peyğəmbərin xanımları Aişə və Sevda üçün tikilmişdir. Sonra isə bu otaqların sayı doqquza çatdırılmışdır. Bütün otaqların qapıları məscidə açılırdı. Qiblənin istiqaməti Məkkəyə tərəf dəyişdirildikdə cənuba düşən qiblə səbəbindən otaqların qapısı bağlanıldı və şimala tərəf açıldı. Daha sonra, hicrətin 7-ci ilində (628 miladi) xeybər müharibəsindən qayıtdıqdan sonra Peyğəmbərin göstərişi ilə ona yeni əlavələr edilərək genişləndirildi. Məscidi-Nəbi bu dəfə genişləndirilərək sahəsi 100 x 100 zira (təqribən 2433 m^2) oldu.[6] Əvvəllər üstü açıq olan Məscidi-Nəbi sonralar Peyğəmbərin göstərişi ilə onun namaz qıldığı yer tərəfin üstünə xurma ağacından örtük atıldı. Bu örtük namaz qılan zaman oradakıları günəş və ya yağışdan qoruyurdu.

Məscidi-Nəbi birinci xəlifə Əbu Bəkrin (632-634) də dövründə bu formada qaldı. Xəlifə ona heç bir əlavələr etmədi. Lakin Mədinə camaatının çoxalması nəticəsində məscid orada namaz qılanlara darısqallıq etdi. Bunu nəzərə alan ikinci xəlifə Ömər bin Xəttab (634-644) hicri 17-ci (638 miladi) ildə ətrafdakı bəzi evləri alıb ona əlavə etdi. Məscidin qapılarının sayı Beləliklə, altıya yetişdi. Onun sahəsi isə Əqiq vadisindən gətirilmiş daşlarla döşəndi. Məscidin ilk səflərinə isə keçədən döşənəcək salındı.

Xəlifə Osman bin Əffanın (644-656) dövründə Məscidi-Nəbi daha da genişləndirildi. O, demək olar ki, məscidi yenidən inşa etdi. Onun bu işi hicri 29-cu ilin rəbiuləvvəl (649 noyabr) ayında başlandı və hicri 30-cu ilin məhərrəm ayında (650 sentyabr) başa çatdı. Beləliklə, Məscidi-Nəbinin sahəsi 5378 m^2 və ya 5061,5m^2 oldu.[7] Beləliklə, Məscidi-Nəbi əməvi xəlifəsi Vəlid bin Əbdülməlikin dövrünədək (705-715) belə qaldı. O, 706 və ya 707-ci ildə Mədinənin valisi Ömər bin Əbdüləzizdən Məscidi-Nəbini genişlətməsini əmr etdi. Vəlid Bizans imperatoruna məktub yazaraq məscidin təmiri üçün xüsusi ustalar istədi. Bizans imperatoru da bunun müqabilində 100000 misqal gümüş, və 100 ustanı xəlifənin ixtiyarına göndərdi.[8]

Vəlidin planında məscidin sahəsi 200 x 200 m^2 olmalı idi, lakin onun bu planı gerçəkləşmədi. Amma məscid daha da gözəl və geniş şəkildə təmir olunaraq sahəsi 7500 m^2 çatdı. Məscidin tamamlanması 710-cu ildə sona yetdi.

Bundan sonra, Məscidi-Nəbinin genişləndirilməsi Abbası xəlifəsi Mehdi Billah (775-785) tərəfindən həyata keçirildi. O, 777-ci ildə Mədinəyə gələrkən oranın darısqal olduğunu gördü və onun genişləndirilməsini əmr etdi. Beləliklə, 779-cu ildə başlanan iş 782-ci ildə sona yetdi. Bu genişləndirmə işindən sonra məscidin sütunlarının sayı 290, ümumi sahəsi isə 9309 m^2 oldu.

---

[1] Tövbə surəsi, ayə 108.

[2] Cərir ət-Təbəri. Camiül-bəyan. XI c. s. 26-28.

[3] Seyid Cəfər Şəhidi. İslam tarixi. s. 66-67; İbn Kəsir də bu ayədə söhbətin Məscidi-Nəbidən getdiyini təsdiqləyib. (Bax: "əl-Bidayə". III c. s. 218).

[4] Nebi Bozkurt, Mustafa Sabri Küçükaşçı. İslam Ansiklopedisi. 44 cilddə. XXIX c. İstanbul, 2003. s. 283.

[5] Səmhudi. Vəfaül-vəfa. I c. s. 334.

[6] Həmin mənbə. s. 336-338.

[7] İbn İshaq əl-Hərbi. əl-Mənasik və əmakinu turukil-həcc və əmakinu Cəzirə. Riyad, 1401/1981. s. 363-364; Təbəri. Tarix. IV c. s. 267.

[8] Bəlazuri. Ənsabül-əşraf. VIII c. s. 72; İbn İshaq əl-Hərbi. əl-Mənasik və əmakin. s. 365; Təbəri. Tarix. IV c. s. 456.

Bundan sonra, Məscidi-Nəbi Harun ər-Rəşid (786-809), Məmun (813-833), Mütəvəkkil (847-861) və Mötəzid Billahın (892-902) dövründə təmir olundu. Lakin onun yenidən əsaslı təmiri 1256-cı ilin sentyabr ayında baş verən yanğından sonra gerçəkləşdi. Bu hadisədən sonra xəlifə Müstəsim Billah (1242-1258) onun genişləndirilməsini əmr etdi. Lakin Hulakuların Bağdadı işğal edib, Abbasiləri devirmələri bu işi yarımçıq qoydu.

Məscidi-Nəbi sonra Məmlukların hakimiyyəti (1250-1517) dövründə bir neçə dəfə təmir olundu. Yarımçıq qalan təmir işini Yəmən hökmdarı Şəmsəddin Yusif başa çatdırdı. Bundan sonra da Məscidi-Nəbinin təmiri bir neçə dəfə həyata keçirildi.

Osmanlı imperiyası hakimiyyətə gəlib Hicazı ələ keçirdikdən sonra Məscidi-Nəbinin təmirinə xüsusi diqqət yetirdilər. Onlar tamam yeni osmanlı üslubunda məscidi bir neçə dəfə təmir etdirdilər. "Xadimül-Hərəmeyn" ünvanına sahib olan osmanlı sultanları Mədinə şəhərinin inkişafında, xüsusən də Məscidi-Nəbinin yenilənməsində xidmətlər göstərmişlər. Bu fəaliyyətdə ilk addımı osmanlı sultanı Qanuni Sultan Süleyman atdı. O, 1532-ci ildə İstanbuldan xüsusi mühəndis qrupu göndərərək oranı təmir etdirdi. Onun məscidə çəkdiyi xərclər Misir xəzinəsindən xərclənirdi. Məscidin bu təmir işi 1540-cı ildə sona çatdı. Bundan sonra, digər osmanlı xəlifələri də Məscidi-Nəbinin təmirində xidmətlər göstərmişlər. Onlardan Sultan II Səlim, III Murad, III Mehmet, I Əhməd, IV Murad və başqalarını göstərmək olar.

Məscidi-Nəbinin geniş təmiri II Mahmudun əmri ilə həyata keçirildi. O, bu iş üçün xüsusi göstəriş verdi. 1813-cü ildə bu işə hazırlıq görüldü. 1817-ci ildə başlanan təmir fəaliyyəti 1837-ci ildə tamamlandı.

Osmanlılar dövründə ən böyük təmir işi Sultan Əbdülməcidin dövründə başlandı. O, 1849-cu ildə Əbdülhəlim Əfəndini mühəndis heyətinə rəhbər təyin edərək Mədinəyə göndərdi. Onlar 1850-ci ildə işə başladılar. Lakin həmin ilin həcc mösümündə Əbdülhəlim Əfəndi vəfat etdi. Onun yerinə Mehmet Rauf Paşa təyin olundu. Beləliklə, 1851-ci ildə başlanan iş 1861-ci ildə sona çatdırıldı. Məscidin bu təmirdən sonrakı sahəsi 10.939 m^2 oldu. Bundan sonra da Məscidi-Nəbi dəfələrlə təmir olunmuşdu.

Səudilər hakimiyyətə gəldikdən sonra Məscidi-Nəbinin təmirinə xüsusi diqqət yetirmiş və bu işi dəfələrlə həyata keçirmişlər. Hakimiyyətin göstərişi ilə 1949-cu ildə məscidin təmirinə və genişləndirilməsinə başlanmış və 1955-ci ildə bu iş sona çatdırılmışdı. Bu genişləndirmə işindən sonra Məscidi-Nəbinin sahəsi 16.326 m^2 çatdı. Bunu beynalxalq səviyyədə açılışı keçirildi və müxtəlif İslam dövlətlərindən qonaqlar çağırıldı.

Məscidi-Nəbinin tarixində ən böyük genişləndirilmə işi 1984-1994-cü illər arasında oldu. Bu böyük təmir və genişləndirmək fəaliyyətindən sonra onun sahəsi 98.326 m^2 yetişdi. Məscidin damında 67.000 m^2 ərazi ilə birlikdə onun sahəsi 165.326 m^2 oldu. Hazırda orada eyni vaxtda 650.000 adam namaza dura bilir və onun bütün sahələri 400.000 m^2-dir.[1]

Məscidi-Nəbidə Peyğəmbər əvvəllər nitq söyləyərkən ayaq üstə durardı. Belə olduğu halda isə xütbənin uzun sürməsi onun yorulmasına səbəb olurdu. Buna görə də Peyğəmbərin dayanması üçün xurma kötüyü gətirilib bir ucu yerə bastırılmaqla tikildi.[2] Bundan sonra Peyğəmbər məsciddə xütbə oxuyarkən arxasını ona söykəyərdi.[3]

Bütün əksər qaynaqlarda İslamda ilk minbərin bu olduğu və hicri 8-ci ildə (629 miladi) tikildiyi qeyd edilir.[4] Peyğəmbər məscidində minbərin tikilməsini qaynaqlar belə rəvayət edirlər: "Peyğəmbər cümə günü xütbəsini ayaq üstə edərkən buyurdu: "Ayaq üstə durmaq mənə zəhmət verir." Səhabələrdən biri bunu eşitcək dedi: "Ey Allahın Rəsulu! Sənə cümə günü üzərində duracağın, xalqın isə səni görə biləcəyi bir şey düzəltsək olmazmı?"

Həzrət buyurdu: "Olar."[5]

---

[1] Nebi Bozkurt, Mustafa Sabri Küçükaşcı. İslam Ansiklopedisi. XXIX c. s. 281-284.
[2] Darimi. Sünən. I c. s. 23; Səmhudi. Vəfaül-vəfa. II c. s. 389.
[3] Müsnədi-Əhməd. II c. s. 109.
[4] Əllamə əl-Eyni. Ümdətül-qari. VI c. s. 215.
[5] İbn Səd. Təbəqat. Nəşr: Əbdülqadir Ata. I c. Beyrut, 1410/1990. s. 252; Asim Köksal. İslam Tarixi. VII c. İstanbul, 1999. s. 167-183.

Peyğəmbərin məscidi Məscidülhəramdan sonra digər bütün məscidlərdən üstündür. Əmmar bin Musa əs-Sabiti deyir: "İmam Sadiqdən soruşdum: "Peyğəmbər məscidində namaz qılmaq Mədinənin digər yerlərində namaz qılmaq kimidir?" İmam buyurdu: "Xeyr! Çünki, Peyğəmbərin məscidində namaz qılmaq min namaza bərabər, Mədinənin digər yerlərində namaz qılmaq isə başqa yerlərdə namaz qılmaq kimidir."[1]

Peyğəmbər buyurub: "Mənim məscidimdə qılınan namaz başqa yerlərdə qılınan min namazdan üstündür. Məscidülhəramıda isə qılınan namaz məscidimdə qılınan namazdan min dəfə üstündür. Allah Məkkəni fəzilətli etmişdir. Oradakı bəzi nişanələri isə bir-birindən üstün etmişdir və demişdir:" İbrahimin məqamını özünüzə namazgah götürün."[2]

İmam Sadiq buyurur: "Məscidi-Nəbidə qılınan bir namaz on min namaza bərabərdir."[3]

2.7.2. Məscidi-Quba

İslamda ilk tikilən məscid Məscidi-Qubadır. Mənbələrə görə Peyğəmbər Mədinəyə Quba tərəfdən daxil olarkən burada bir məscidin tikilməsi müjdəsini tərəfdarlarına bildirmişdir.

Quba Mədinənin cənub istiqamətində yerləşən əraziyə deyilir. Mənbələrə görə Quba Mədinə yaxınlığında bir kəndin adıdır ki, bu ad da həmin kənddə olan bir quyunun adından götürülmüşdür.[4] Peyğəmbər Məkkədən Mədinəyə hicrət edərkən yolunu buradan salmış, burada yaşayan müsəlmanlar onun Mədinəyə gəlişini məhz burada qarşılamışlar. Peyğımbər dörd gün burada qalmış[5] və müsəlmanlarla birlikdə burada camaat namazı qılmışdır. Onun burada namaz qıldığı yeri hərra daşları ilə dövrəyə alıb məscid tikdilər. Bundan sonra bu məscid Məscidi-Quba adlandı. Bəzi təfsirçilər Tövbə surəsinin: **"İlk gündən binası təqva üzərində qurulmuş məscid namaz qılmağına daha layiqdir"**[6] ayəsini bu məscid haqqında endiyi fikirindədirlər.

Buxarinin (810-870) rəvayətinə görə, Peyğəmbər Qubada on gündən artıq qalmış və Məscidi-Quba da bu ərəfədə tikilmişdir.[7]

İbn Səd isə Peyğəmbərin Qubada on dörd gecə qaldığı qənaətindədir.

Quba məscidinə bəzən Təqva məscidi də deyilir. Quba məscidi Mədinənin 6 kilometrliyində olsa da, hazırda Mədinə şəhərinin genişlənməsi nəticəsində ona bitişmişdir.

Bəzi qaynaqların verdikləri məlumata görə, Məscidi-Qubanın tikilməsi Peyğəmbərin göstərişi və şəxsən iştirakı ilə həyata keçmişdir. Belə ki, Peyğəmbər Qubaya yetişdikdə Bəni-Amr bin Afv məntəqəsində bir neçə gün iqamət etmişdir və Quba məscidinin əsasını qoymuşdur. O, məscidin tikilməsində səhabələri ilə birlikdə iştirak etmiş, qazıntı, torpaq daşımaq və.s. işlərdə işləmişdir.[8] Görkəmli hədis alimi Təbərani rəvayət edir: "Qubalılar Peyğəmbərdən bir məscid tikməsini istədilər. Peyğəmbər orada olan səhabələrdən birinin dəvəsinə minməsini istədi. Öncə Əbu Bəkr dəvəyə mindi, lakin dəvə qalxmadı. Ondan sonra Ömər dəvəyə mindi, dəvə yenə qalxmadı. Daha sonra isə İmam Əli dəvəyə mindikdə dəvə qalxıb yeridi. Peyğəmbər Əliyə dəvənin yalını sərbəst buraxmasını söylədi və dəvə harada dayanarsa, məscid də orada tikiləcək dedi.[9] Məscidin ortasında dəvənin çökdüyü yerə "Məbərəkun-Naqə" (dəvənin çökdüyü yer) deyilmişdir.[10]

Bəzi mötəbər qaynaqlarda Məscidi-Qubanın tikilməsi aşağıdakı hadisə ilə əlaqələndirilir. Belə ki, Bəni-Amr bin Afv Qubada bir məscid tikdilər, Peyğəmbər də bu məsciddə namaz qıldı. Onların qardaş qəbiləsi olan Bəni-Ğənəm bin Afv onlara paxıllıq etdilər və dedilər: "Biz də bir məscid tikib orada namaz qılacağıq. Beləliklə, onlar Məscidi-Qubanın yaxınlığında bir məscid tikdilər və Peyğəmbərə dedilər: "İstəyirik ki, gəlib bizimlə birlikdə burada namaz qılasan." Bu zaman

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 59; Hürr əl-Amili. Vəsailüş-şiə. V c. s. 281; Şeyx ət-Tusi. Təhzibül-əhkam. III c. s. 254.
[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 59; Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 12. Hədis № 7049.
[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 60; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 281.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XIV c. s. 250.
[5] Hüseyin Algül. İslam Ansiklopedisi. XXIX c. s. 279.
[6] Tövbə surəsi, ayə 108.
[7] Səhihi-Buxari. Mənaqibül-Ənsar-45.
[8] İbn Səd. Təbaqat. III c. s. 87; IV c. s. 311; Müsnədi-Əhməd. II c. s. 10.
[9] Təbərani. əl-Möcəmül-kəbir. Nəşr: Həmdi Əbdülməcid əs-Sələfi. II c. Mosul-Qahir, 1404-1983. s. 246.
[10] Səmhudi. Vəfaül-vəfa. II c. s. 23.

Peyğəmbər Təbuk səfərinə hazırlaşırdı. Peyğəmbər onlara buyurdu: "Mən səfər üstəyəm. Peyğəmbər səfərdən qayıtdıqdan sonra adam göndərib o məscidi uçurtdu və yandırtdı. Allah o məscid haqqında Tövbə surəsinin 107-ci ayəsini göndərdi**: "**[Quba məscidinə] **zərər vurmaq, küfr etmək, möminlər arasına təfriqə salmaq məqsədilə, əvvəllər Allah və onun Peyğəmbərinə qarşı müharibə edən kimsədən** [gəlib onlara rəhbərlik edəcəyi təqdirdə] **muğayət olmaq üçün məscid düzəldən və: "biz** [bununla] **yaxşılıqdan başqa bir şey istəmədik-deyə and içən munafiqlərin, həqiqətən, yalançı olmaları barədə Allah özü şahidlik edəcəkdir."**[1]

Bəzi rəvayətlərdə isə deyilir: "Mədinənin kənarında bir məscid tikdilər. O Məscidi-zirar idi. Onu tikənlər istəyirdilər ki, ora toplaşsınlar və oranı namaz üçün qorusunlar. Sonra onlar Peyğəmbərin yanına gəlib dedilər: "Ey Allahın Rəsulu! Bizim evlərimiz sənin məscidinə uzaqdır, biz də namazı camaatla qılmamağa nifrət edirik, sənin yanına gəlib camat namazında iştirak etmək də bizə çətindir. Biz bir məscid tikmişik. Əgər istəsən gəl ona bax, orada namaz qıl, biz də sənin bərəkətindən faydalanaq. Peyğəmbər onları tanımayırdı və onların nifaqından da xəbəri yox idi. Lakin Allah onların nifaqından Peyğəmbəri xəbərdar etdi. Peyğəmbər onlara buyurdu: mən səfər üstəyəm, mənə möhlət verin ki, səfərdən qayıdım. Allah Peyğəmbərə belə vəhy etdi: "**Ya Məhəmməd! Əgər sən çıxsan yerində Əlini saxla, Əgər Əlini göndərsən, yerində özün qal."** Peyğəmbər yerinə Əlini qoyub səfərə getdi, səfərdən zəfər və qənimətlə gəldi. O, münafiqlərin hiylələrini puça çıxarıb, tikdikləri Məscidi-Ziraru yandırtdı. Allah da tövbə surəsinin 107-ci ayəsini göndərdi.[2] Bəzi qaynaqlarda Məscidi-Qubanın adı Məscidi-Bəni Amr bin Afv olaraq da göstərilir.[3] Həmçinin mötəbər qaynaqlar əsasında bu nəticəyə gəlmək mümkündür ki, Məscidi-Quba Peyğəmbər Qubaya gəldikdən sonra onun göstərişi əsasında tikilmişdir. Çünki İslamda ilk məscidin Quba məscidi olduğunu qəbul etsək, bunun Peyğəmbərin göstərişi əsasında olması zərurəti ortaya çıxacaqdır.

Məscidi-Qubanın ilk qurluşu dörd divardan ibarət olmuşdur. Onun yeri hazırlandıqdan sonra ilk daşı bilavasitə Peyğəmbər qoymuş, daha sonra isə digər səhabələr növbə ilə təməl daşlarını atmışlar.

Qaynaqlarda belə bir ehtimal vardır ki, qiblənin Kəbəyə çevrilməsindən sonra (623-cü ildə) Quba məscidini Peyğəmbər yenidən inşa etdirmişdir.[4] Bununla da məscidə on divar və ona paralel düzülən yeddi sütun üstündə bir tavan tikilmişdir.

Məscidi-Quba tarix ötdükcə müxtəlif dövrlərdə genişləndirilmiş və əsaslı şəkildə təmir edilmişdir. Onun ilk genişləndirilməsi üçüncü raşidi xəlifəsi Osman bin Əffanın dövrünə (644-656 miladi) təsadüf edir. Bundan sonra Məscidi-Quba Ömər bin Əbdul Əziz Mədinəyə vali olduğu dövrdə (706-712) yenilənmişdir. Məscidin bundan sonrakı təmiri Əməvi xəlifəsi Vəlid bin Əbdülməlikin (685-705) dövrünə təsadüf etmişdir.

Qaynaqlarda belə bir ehtimal irəli sürülür ki, Məscidi-Nəbinin təmiri üçün Bizans imperatorluğundan gətirilmiş ustalar Məscidi-Qubanın da təmirində işləmişlər.[5]

Məscidi-Qubanın bir neçə dəfə Abbasilər dövründə də təmir edilməsi ehtimalı vardır. Lakin təəssüflər olsun ki, bu haqda əlimizdə mötəbər bir qaynaq yoxdur.

Məscidi-Quba 1044-cü ildə Əbu Yəla Əhməd bin Həsən, 1160-cı ildə Cəmaləddin əl-İsfəhani tərəfindən təmir edilmişdir. 1197-ci ildə məscid haqqında məlumat verən İbn Nəccarın qeyd etdiyi ölçülər İbn Şəbbənin verdiyi məlumata daha yaxındır. İbn Şəbbə bu məlumatı Mədinə şəhərinin tarixinə aid yazdığı məşhur "Tarixül-Mədinətil-Münəvvərə" əsərində qeyd etmişdir.

Məscidi-Qubanın təmirinə Məmluklar (1250-1517) da böyük önəm vermişlər. 1333-cü ildə Məhəmməd bin Kalavun Məscidi-Qubanı yenidən inşa etdirdi. Bu təmirdən əskik qalmış hissələri 1436-cı ildə Məlikül-Əşrəf Barsbay təmir ettdirdi. Daha sonra 1476-cı ildə Sultan Kayıtbay Məscidi-Qubanın binasında bəzi təmir işləri aparmışdır.

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XIV c. s. 250.
[2] Həmin mənbə. s. 250-251.
[3] Müsnədi-Əhməd. II c. s. 10.
[4] Səmhudi. Vəfaül-vəfa. II c. s. 16.
[5] Hüseyin Algül. İslam Ansiklopedisi. XXIX c. s. 280.

Bundan sonra, Məscidi-Quba Osmanlı xəlifələri (İkinci Sultan Mahmud və oğlu Sultan Əbdülməcidin dövründə) tərəfindən də, təmir edilmişdir. Osmanlı imperatoru Qanuni Sultan Süleyman 1543-cü miladi ilində Məscidi-Qubanın tavan və minarəsini sökdürüb yenidən inşa etdirdi. Ondan sonra ikinci Mustafa 1699-cu ildə məscidin divar və minarəsini təmir ettirdi. "Məbrəkün-naqə" üzərinə dörd dirəkli bir qübbə tikdirdi. Həmçinin o, məscidin həyətində təharətxana və dəstəmaz yeri də inşa etdirmişdir. O, burada su ehtiyacını ödəmək üçün dərin quyular qazdırdı.

Məscidi-Qubanın növbəti işi 1829-cu miladi ilində ikinci Mahmud zamanında gerçəkləşdi. Bundan sonra məscid 1985-ci ildə əsaslı təmir edilənədək beləcə qaldı. Onun daha geniş və ən gözəl təmiri Ali Səud orada hakimiyyətə gəldikdən sonrakı dövrə aiddir. Xadimul-Hərəmeyn Kral Fəhd bin Əbdüləziz məscidin tarixində ən böyük genişləndirmə işi üçün əmr verdi. O, 1985-ci ildə genişləndirmə işinin təməl daşını qoydu. Bu genişləndirmə işindən əvvəl məscidin sahəsi 1333 m^2 idi. Genişləndirildikdən sonra isə onun sahəsi 6000 m^2 oldu.

Bu genişləndirmə işində məscidin üstünə müxtəlif yüksəkliklərdə 56 ədəd qübbə, hər birinin diametri 5, 30 metr, bunların yanında 6 ədəd böyük qübbə tikildi. Bu qübbələrin dairəsi 12 metr, hündürlüyü isə 24, 30 metr ilə 28, 30 metr arasında dəyişməkdədir. Sonra məscidin hər tinində 4 ədəd minarə tikildi ki, hər minarənin də hündürlüyü 42 metr oldu.

Məscidi-Qubanın həyətyanı sahəsi betonlaşdırıldı, betonun üstünə isə mərmər döşəndi. Məscidin çevrəsi isə müxtəlif ağac növləri ilə əkildi. Burada şərait elə bir səviyyədə planlaşdırılmışdı ki, onun həyətində də kölgəliklər altında namaz qılmaq mümükün olsun.

Məscidi-Qubanın bu son təmirində onun üçün kitabxana, məscid rəhbərliyi və müəzzin üçün ayrıca otaqlar da təşkil edilmişdir. Bundan əlavə məsciddə yay və qış aylarında havanın sərinləşdirilib və ya qızdırılması üçün şərait də yaradılmışdır.[1]

Göründüyü kimi Kral Fəhd bin Əbdüləziz tərəfindən həyata keçirilən genişləndirilmə fəaliyyəti Məscidi-Qubanın 5 dəfə artıq genişlənməsinə səbəb olmuşdur. Həmçinin bu genişləndirmə fəaliyyəti nəticəsində məscidin tarixi görkəmi dəyişdirilməmişdir.

Peyğəmbər bu məscid haqqında buyurur: "Hər hansı bir müsəlman ən gözəl şəkildə paklanıb sonra da Məscidi-Qubaya gələrsə, onun orada qıldığı namazın savabı bir ümrə həcci qədərdir."[2]

Həmçinin qaynaqlarda rəvayət olunur: "Peyğəmbər Quba məscidinə minikdə və ya piyada gedərdi və orada iki rükət namaz qılardı."[3]

İmam Sadiq buyurur: "Məscidi-Quba ilk gündən təqva üzərində bina olmuş məsciddir, Məşrəbətu Ümmi-İbrahim, Fəzih məscidi, şəhidlərin qəbirləri, əhzab məscidi (fəth məscidi) belədir. Peyğəmbər şəhidlərin qəbirləri yanından ötəndə deyirdi: "Etdiyiniz səbirə görə salam olsun sizə! Axirət yurdu necə də gözəldir!"[4]

Mədinədə olan müqəddəs Quba məscidi İslam aləmində qədim tarixə malik olmaqla yanaşı, həm də xüsusi fəzilətə malikdir. Yuxarıdakı hədisi-şəriflər də buna dəlil olaraq göstərilir. Müsəlman alimləri buna görə də Mədinəyə gələn hər bir şəxsin Quba məscidinə gəlməsini və orada iki rükət namaz qılmasını bəyənilmiş əməllərdən hesab edirlər. Həmçinin onun ziyarət edilməsi də müstəhəbb əməllərdən hesab olunur. Hətta bu əməl bir umrə həccinin savabına bərabər tutlur.

2.7.3. Məscidi-Qiblətеyn

Mədinədə olan müqəddəs və tarixi yerlərdən biri də İki Qibləli Məsciddir. Buna Məscidi-Qiblətеyn və ya Zu Qiblətеyn deyilir. Bu məscidin belə adlanması qiblənin Məscidüləqsadan Məscidi-Harama (Kəbəyə) tərəf yönəldilməsinin bu məsciddə baş verməsinə görədir (hicri 2/miladi 623). Məscidi-Qiblətеyinin ilk adı Məscidi-Bəni Sələmə olmuşdur. Peyğəmbər Məkkədə olduğu on üç il ərzində və Həmçinin Mədinəyə hicrət etdiyi on yeddi ay ərzində üzü Məscidüləqsaya tərəf

[1] Mihr Ali Suleyman. Kutlu şehir Medine. s. 129.

[2] Sünəni-Nəsai. Kitabül-məsacid. Fəzlül-məscidi-Quba. Hədis № 700; Sünəni-İbni Macə. Kitabu-iqamətis-salat. Hədis № 1414; Müsnədi-Əhməd. III c. s. 487.

[3] Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1399; Səhihi-Buxari. Fəzlüs-salat-3-4; Müvəttai-Malik. Salat fis-Səfər-71; Sünəni-Nəsai. Məsacid-9.

[4] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 12. Hədis № 7049.

namaz qılmışdı. Məscidüləqsa Fələstin ərazisində (Qüds şəhərində) yerləşən müqəddəs bir məscidin adıdır.

Peyğəmbərin Mədinəyə hicrətindən on yeddi ay keçmiş, yəni hicri ikinci il şəban ayının ikisində Allah tərəfindən belə bir vəhy olundu: **"Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. Indi üzünü Məscidülhərama tərəfə çevir! Harada olsanız üzünüzü Məscidülhərama çevirin."**[1]

Bütün təfsir əhlinə görə, bu ayə Peyğəmbərə Məscidi-Qibləteyində nazil olmuşdur. Bu ayənin nazil olmasından sonra bu məscid İslam aləmində Məscidi-Zu Qibləteyn kimi tanındı. Burada adı çəkilən ayə nazil olduqdan sonra insanlar namaz halında ikən üzlərini Məscidülhərama tərəf çevirdilər, qadınlar kişilərin kişilər də qadınların yerində durdular və Beləliklə, bu məscid iki qibləli məscid adlandı.[2]

Bu məscid Mədinə şəhərinin cənub-qərbində yerləşir. Məscidi-Qibləteyin Məscidi-Nəbinin təxminən beş klometrliyində yerləşir. Onun yeri qədimdə Bəni-Sələmə yurdu kimi tanınardı. Bu məscid Peyğəmbərin dövründə kərpicdən tikilmişdi. Onun bu formada olması uzun illər davam etmişdir. Bu məscidi ilk dəfə yeniləşdirən Ömər bin Əbdüləziz olmuşdur. Ömər bin Əbdüləziz Mədinəyə vali olduğu dövrdə (706-712) Məscidi-Qibləteyni və Həmçinin Peyğəmbərin namaz qıldığı digər məscidləri təmir etdirmişdir. Məmluk Sultanı Kayıtbəy tərəfindən mədinəyə göndərilən Şahin əl-Cəmali 1488-ci ildə Məscidi-Qibləteyninin tavanını yeniləşdirmiş və ona əl gəzdirmişdir.[3] Bundan sonra Məscidi-Qibləteyin uzun illər təmir edilməmiş yalnız Osmanlı imperatoru Qanuni Sultan Süleymanın dövründə və onun göstərişi ilə 1543-cü ildə yenidən təmir edilmişdir. Sultan Süleyman 1543-1544-cü illərdə Məscidi-Qibləteyini əsaslı şəkildə təmir etdirmişdir. Onun bu təmirindən sonra məscidin ümumi sahəsi 425 m^2 oldu. İbrahim Rifat Paşa 1901-ci miladi ilində Hicaza səyahət edərkən Məscidi-Qibləteyinin xarab vəziyyətdə olduğunu görmüşdür.

Məscidi-Qibləteyinin ən son təmiri 1987-ci miladi ilinə təsadüf edir. Səudi hökuməti digər məscidlərlə yanaşı bu məscidin də yenidən əsaslı şəkildə təmir olunmasına diqqət göstərmişdi. Belə ki, Kral Fəhd Məscidi-Qibləteyinin yenidən təmir etdirmişdi. Bu təmirdən sonra məscidin sahəsi 3920 m^2 oldu. Bu təmirdən sonra məscidin Kəbə tərəfindəki qibləsinə bir mehrab tikilmiş, Məscidüləqsa tərəfindəki qibləsinə isə ərəbcə, türkcə, farsca, urduca, ingiliscə və fransızca Bəqərə surəsinin 144-cü ayəsi yazılmışdır. Məscidin bu təmirindən sonra ona iki qübbə qoyulmuş, onun qiblə istiqamətindəki tərəfinə iki minarə tikilmişdir. Bu qübbələrin diametri 7,80, hündürlüyü isə 18,80 metrdir. Hazırda bu məsciddə 20 min adam birdəfəyə namaza dura bilir. Onun qadınlar üçün nəzərdə tutulmuş yeri 400 m^2-dir. Son təmirdə məscidin su ehtiyacları düzəlmiş və zəvvarlar üçün nəzərdə tutulmuş bütün şəraitlər yaradılmışdır.

2.7.4. Məscidi-Ğəmamə

Mədinə şəhərində olan tarixi məscidlərdən və müqəddəs məkanlardan biri də Məscidi-Ğəmamədir. Ğəmamə bulud mənasındadır. Bu məscidin belə adlanmasının səbəbi Peyğəmbərin bayram namazı qılarkən bulud parçasının Allahın əmri ilə ona kölgə salmasına görədir. Belə ki, Həzrət namaz qılarkən şiddətli isti və qızmar günəş ona əziyyət verməsin deyə Allah bir parça buludu onun üstündə saxlamış və bununla da Peyğəmbəri qızmar günəşdən qorumuşdur. Bundan sonra müsəlmanlar bu yeri müqəddəsləşdirmək və oranı tarixdə əbədiləşdirmək üçün orada məscid tikmişlər. Tikilən məscid isə möcüzənin adına uyğun olaraq Məscidi-Ğəmamə, yəni Bulud Məscidi adlanmışdır.

Mənbələrə görə, Məscidi-Ğəmamə Peyğəmbərin vəfatından sonra tikilmişdir.[4] Bu Məscidə bəzən Məscidi-Musəlla da deyilir. Çünki, Peyğəmbər burada bayram namazı qılmışdı.

Bu məscidi də ziyarət edib orada namaz qılmaq müsəlman fəqihləri tərəfindən müstəhəbb buyrulmuşdur.

---

[1] Bəqərə surəsi, ayə 144.
[2] Bax: Şeyx ət-Tusi. Təhzibül-əhkam. II c. Kitabüs-salat. s. 267. Hədis № 1681.
[3] Səmhudi. Vəfaül-vəfa. III c. s. 842.
[4] Əli Hicrani Təbrizi. Həccin tarixi, əhkamı və mənəvi dəyərləri. s. 63.

2.7.5. Məscidi-Mübahilə

Məscidi-Mübahilə digər məscidlər kimi İslam aləmində xüsusi hörmətə və fəzilətə layiq görülmüş məscidlərdəndir. Bu Məscidin belə adlanmasının səbəbi isə Qurani-Kərimin Ali İmran surəsinin 61-ci ayəsinin məhz bu məkanda nazil olmasına görədir. Mübahilə sözü lüğətdə "qarğışlaşmaq" deməkdir ki, bu söz də həmin ayədən götürülmüşdür. Belə ki, Allah adı keçən ayədə buyurur: **"**[İsanın Allahın qulu və peyğəmbəri olması barədə] **sənə göndərilən bilikdən sonra buna dair sənin**lə **mübahisə edənlər olsa, onlara de ki: gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı, biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü** [bura] **çağıraq! Sonra Allaha yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!."**

Mədinədə xiristianlar Peyğəmbərin yanına gəlib onunla İsanın barəsində ciddi mübahisə etdilər. Allah da onları qarğışlaşmağa dəvət etdi ki, bunun vasitəsilə hansı tərəfin doğruluğu xalqa sübut olunsun. Lakin xristianlar Peyğəmbərin doğru olduğunu və onun simasında ilahi peyğəmbərlik nişanələrini görüb qarğışlaşmaqdan vaz keçdilər. Bu hadisəni İmam Cəfər Sadiq belə rəvayət edir: "Nəcran xristianlarını təmsil edən bir heyət Peyğəmbərin hüzuruna gəldi. Onların başında Əhtəm, Aqib və Seyid adlı şəxslər vardı. Onlar Peyğəmbərlə görüşən zaman namaz vaxtları daxil oldu.Onlar qalxıb baraban üfürüb ibadət etdilər. Bunu görən səhabələr: "Ya Rəsulallah! Sənin məscidində belə etmələrinə icazəmi verirsən?" deyəndə, Peyğəmbər : "Qarışmayın!" - dedi. Onlar ibadətlərini bitirdikdən sonra Peyğəmbərə yaxınlaşdılar və "nəyə dəvət edirsən?" - deyə soruşdular. Peyğəmbər buyurdu: "Allahdan başqa ilah olmadığına, mənim Allahın rəsulu olduğuma, İsanın yaradılmış, yeyən, içən və hacətlərini ödəyən bir qul olduğuna şahidlik etməyə dəvət edirəm." Xristianlar dedilər: "Bəs İsanın atası kimdir?" Allah dərhal bu ayəni Peyğəmbərə vəhy etdi: **"Şübəsiz ki, Allahın yanında İsanın durumu Adəmin durumu kimidir..."**

Peyğəmbər onlara dedi: "Gəlin mənimlə lənətləşin. Əgər mən doğru söyləsəm lənət sizin üzərnizə ensin, yox əgər siz doğru səyləsəniz lənət mənim üzərimə ensin." Xristianlar dedilər: "Sən ədalətli iş tutdun." Sonra lənətləşmək üçün sözləşdilər. Onlar yerlərinə qayıtdıqdan sonra başçıları Seyid, Aqib və Əhtəm belə dedilər:" Əgər bizimlə lənətləşməyə qövmünü gətirərsə, onunla lənətləşirik. Yox əgər ev adamlarını gətirərsə, onunla lənətləşməyəcəyik."

Onlar səhəri gün Peyğəmbərin yanına gəldilər və onun yanında Əlini , Fatiməni , Həsəni və Hüseyni gördülər. Bu mənzərəni görüb soruşdular: "Bunlar kimlərdir?" Peyğəmbər buyurdu: "Bunlar mənim Əhli-beytimdir." "Onlar bunu eşitcək öz yurdlarına geri döndülər."[1] Beləliklə, müsəlmanlar bu ayə enən yerdə məscid tikdilər və ona mübahilə adını verdilər. Hər il hicri-qəməri təqvimlə zilhiccə ayının 24 və ya 25-ci günləri Mübahilə günü kimi qeyd edilir.

2.7.6. Məscidi-Əli bin Əbi Talib

Mədinədə olan müqəddəs məkanlardan və tarixi abidələrdən biri də Əli bin Əbu Talibin adına adlandırılmış Məscidi-Əli bin Əbu Talibdir. Bu məscidin tikilməsi İslam tarixinin ən incə və mühüm tarixi hadisəsini əks etdirir. Bu yerdə Xəndək döyüşü baş vermiş və İmam Əlinin sayəsində müsəlmanlar bu döyşüdə qalib olmuşlar. Belə ki, İmam Əli bu məscidin tikildiyi yerdə görkəmli ərəb pəhləvanı, o dövr insanları üçün məğlubedilməz hesab olunan Əmr bin Əbdvüddəni öldürmüşdür. On minlik qoşunla Mədinəyə hücum edən Əmr şəhərin müdafiəsi üçün nəzərdə tutulmuş xəndəyi keçmiş və müsəlmanlardan döyüş üçün müqabil istəmişdi. Əmri yaxşı tanıyan müsəlman ordusundan heç kəs onunla döyüşə getməmişdi. Peyğəmbərin hər dəfəki çağrışına müsbət cavab verən İmam Əli onunla döyüşmək üçün o Həzrətdən icazə istəmiş, lakin Peyğəmbər : "Ey Əli! Bu Əmr bin Əbdvüddədir!" - cavabını almışdır. İmam Əli isə: "Ya Rəsulallah! Mən də Əbu Talib oğlu Əliyəm!" - demişdir. Əmrin müqabilinə Əlidən başqa kimsənin çıxa bilməyəcəyini İlahi vəhylə bilən Peyğəmbər Əlinin başına əmmaməsini bağlamış, qılıncını ona vermiş və Quranı götürüb ona dua etmişdir.

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXI c. Fəsil XXXII; Əllamə Təbatəbai. əl-Mizan təfsiri. III c. s. 343-344; Təfsiri-Qummi. I c. s. 104.

Nəhayət, İmam Əli düşmənə qalib gəlmiş və onu öldürmüşdür. İmam Əlinin bu qəhramanlığını yüksək qiymətləndirən Peyğəmbər buyurmuşdu: "Əlinin Xəndək günü Əmrə vurduğu zərbə Qiyamətədək bütün cinlərin və insanların ibadətindən üstündür."[1] Əmr kimi nəhəng pəhləvanı öldürməsi düşmən ordusunda döyüş əhval-ruhiyyəsini zəiflətmiş və onların ordugahı tərk etmələrinə səbəb olmuşdu. Bu döyüşün əhəmiyyətini önə çəkən Peyğəmbər buyurmuşdu: "İmanın hamısı küfrün qarşısında dayanmışdı."[2]

Əmrin ordu içərisində döyüşə gəlmiş bacısı qardaşının cənazəsi üstündə dayanıb demişdi: "Mən sənə ağlamayacağam, çünki sən kərim bir şəxsin əli ilə öldürülmüsən."[3]

Bu qədər əhəmiyyətli və həlledici müharibənin keçirildiyi bir yerdə sonralar müsəlmanlar bir məscid tikdilər və onu İmam Əlinin şərəfinə Məscidi-Əli bin Əbi Talib adlandırdılar. Hazırda bu məscid müsəlmanlar tərəfindən ziyarət olunur. Bu məscidə "Yeddilər Məscidi" də deyilir. Çünki burada yeddi kiçik məscid tikilmişdir. Onların hamısı bir-birlərinə yaxındır.

2.7.7. Məscidi-Cümə

Məscidi-Cümə Mədinədə olan qədim və tarixi əhəmiyyət kəsb edən məscid-lərdəndir. Məscidin belə adlanmasının səbəbi isə Peyğəmbərin ilk dəfə olaraq məhz burada cümə xütbəsi söyləməsinə görədir. Çünki Petğəmbər Mədinəyə hicrət etdikdə cümə günü cümə namazını bu məsciddə qılmış və burada cümə xütbəsi oxumuşdur. Məscidin yerləşdiyi yer Salim bin Əfv yurdunda Ramimə Vadisindədir.[4]

Məscid hicri IX əsrdə Osmanlı Sultanı Bəyazid Vəli tərəfindən inşa edilmişdir. Hazırda Mədinədə Qubada mövcud olan bu məscid Sultan Bəyazidin inşa etdirdiyi formadadır. Məscidin sahəsi 1965-ci ilədək 8x4 metr, hündürlüyü isə 2 metr idi. Məscidi-Cümə Məscidi-Qubadan təxminən 500 metr aralıda olub, xurma bağları içindədir.

2.7.8. Bəqi qəbristanlığı

Mədinədə olan ən müqəddəs yerlərdən biri, bəlkə də Peyğəmbərin məzari-şərifindən sonra ən müqəddəs yer Bəqi qəbristanlığıdır. Burada çoxlu İslam şəhidlərinin, Peyğəmbər səhabələrinin, onun ailəsinə məxsus insanların qəbirləri vardır. Burada ilk dəfn olunan şəxs Osman bin Məzun olmuşdur.[5] Bütün bunlardan başqa, Əhli-beyt İmamlarından dördünün müqəddəs qəbrinin burada olması Bəqinin məqam və fəzilətlərini daha da artırmaqdadır. Bunlar İmam Həsən , İmam Zeynülabidin , İmam Baqir və İmam Sadiqin qəbirləridir. Hədisi-şəriflərə görə, bu yerləri ziyarət etmək böyük savaba nail olmağa səbəb olur.

Hədisi-şərifdə deyilir: "Zeyd bin Şəhham İmam Sadiqdən soruşdu: "Sizlərdən birini ziyarət edən şəxs üçün hansı savab vardır?" İmam buyurdu: "Peyğəmbəri ziyarət etmiş kimidir."[6]

İmam digər bir hədisdə buyurur: "Hər kəs bizi ziyarət edə bilmirsə, bizim saleh dostlarımızı ziyarət etsin. Həqiqətən onlar belə etsələr, bizi ziyarət etməyin savabına nail olarlar."[7]

"Əbdürrəhman bin Müslüm nəql edir: "İmam Museyi-Kazimdən "Həzrət Hüseynin , İmam Əlinin və digər imamların hansının ziyarət edilməsi daha üstündür?" - deyə soruşdum. İmam buyurdu: "Ey Əbdürrəhman! Hər kəs bizim birincimizi ziyarət etsə, sonuncumuzu ziyarət etmiş kimidir. Hər kəs bizim sonuncumuzu ziyarət etsə, birincimizi ziyarət etmiş kimidir..."[8]

Digər bir hədisdə isə İmam Museyi-Kazim buyurur: "Hər kəs İmamlardan birinin qəbrini ziyarət etsə, ona ən ali dərəcə verilər."[9]

Əli bin Hüseyn buyurur: "Hər kəs məni ziyarət etsə, onun günahları bağışlanar və heç vaxt yoxsul ölməz."[1]

---

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. XX c. s. 216; Hakim ən-Nisaburi. Müstədrək ələs-səhiheyn. III c. s. 32.
[2] Cəfər Sübhani. İslam tarixi. s. 199-200.
[3] Hakim ən-Nisaburi. Müstədrək ələs-səhiheyn. III c. s. 33.
[4] Mih Ali Suleyman. Kutlu Şehir Medine. s. 176.
[5] Səmhudi. Vəfaül-vəfa. II c. s. 84.
[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 283-284.
[7] Həmin mənbə. s. 528.
[8] Həmin mənbə. s. 552-553.
[9] Həmin mənbə. s. 512.

İmam Həsən Əskəri buyurur: “Hər kəs Cəfəri və onun atasını ziyarət etsə, gözü ağlamaz, ağır xəstəliyə mübtəla olmaz və bəlaya düçar olub ölməz.”[2]

İmam Rza buyurur: “Hər bir İmamın öz dostları və tərəfdarları boynunda əhdi vardır. Onların əhda vəfa etmələrinin tamamlanması gözəl şəkildə öz imamlarını ziyarətə etməlidir. Hər kəs onları rəğbətlə ziyarət etsə, onları təsdiq etsə, Qiyamət günü imamlar ona şəfaət edəcəklər.”[3]

Əbu Abdullah əl-Hərrani deyir: “İmam Sadiqə dedim: “Hüseyn bin Əlini ziyarət edən üçün nə savab var?” O, dedi: “Hər kəs onun qəbri yanına gəlsə, onu ziyarət etsə və onun yanında iki rükət namaz qılsa, ona qəbul edilmiş həccin savabı verilər. Hər kəs onun yanında dörd rükət namaz qılsa, ona qəbul edilmiş həccin və ümrənin savabı verilər.” Dedim: “Sənə fəda olum! İtaəti vacib olan hər bir imamı ziyarət edənə bu savab verilər?” Dedi: “Bəli, hər bir itaəti vacib olan imamı ziyarət edənə bu savab verilər.”[4]

İmam Sadiq buyurur: “Peyğəmbər bir qrup səhabələri ilə birlikdə hər həftə Bəqi qəbristanlığına gələr və deyərdi: “Salam olsun sizə ey qəbristan əhli! Allah sizə rəhmət eləsin!” O, bunu üç dəfə təkrar edərdi. Sonra da səhabələrinə tərəf üz tutub deyərdi: “Onlar sizlərdən daha xeyirlidirlər.” Səhabələr “nə üçün? Onlar da iman ediblər biz də iman etmişik, onlar da cihad ediblər, biz də cihad etmişik”, - deyə soruşduqda, Həzrət buyurdu: “Onlar iman etdilər, ancaq imanlarına zülm donu geydirmədilər və beləcə də dünyadan getdilər. Biz də buna şahid olduq. Siz isə məndən sonra qalacaqsınız, amma bilmirəm məndən sonra nə bidətlər edəcəksiniz!.”[5] Həqiqətən İmamın bu hədisi Buxarinin nəql etdiyi aşağıdakı hədislərə uyğundur. Belə ki o, rəvayət edir: “İbn Müsəyyib atasından nəql edir: “Bərra bin Azibi görüdükdə dedim: “Xoş olsun halına! Peyğəmbərlə səhabə olmusan və ağac altında ona beyət etmisən!” O, dedi:” Qardaş oğlu! Sən bilmirsən biz Peyğəmbərdən sonra dində nə bidətlər etdik?!”[6]

Buxari yenə rəvayət edir: “Əta bin Yəsar Əbu Hüreyrədən nəql edir ki, Peyğəmbər buyurmuşdur: “Ayaq üstə idim ki, bir dəstə gördüm və tanıdım. Birdən bir şəxs onlara dedi: “Tez gəlin!” Dedim: “Hara?” Dedi: “Allaha and olsun Cəhənnəmə!” Dedim: “Məgər bunlar nə etmişlər?” Dedi: “Səndən sonra mürtəd olub öz cahiliyyətlərinə qayıtmışlar. Sonra onlardan olan başqa bir dəstəni görüb tanıdım. Yenə də aramızdan bir kişi çıxıb dedi: “Tez gəlin!” Dedim: “Bunları hara aparırsınız?” Dedi: “Bunlar da səndən sonra mürtəd olub dindən döndülər, onlardan yalnız bir neçə nəfər nicat tapacaqlar, oda sürüdən bir neçə dəvənin azlığı kimi...”

Uzaq olsun, uzaq olsun o kəslər ki, məndən sonra dində dəyişikliklər edib bidətlər qoyarlar.”[7]

Bəqi qəbristanlığının fəzilətli bir yer olması haqqında Müslüm rəvayət edir: “Aişə deyir: “Peyğəmbər gecənin son hissəsində evdən çıxıb Bəqiyə gedər və deyərdi: “Salam olsun sizə ey möminlər diyarı! Sizə vəd edilən şeylər sizə verildi, sabahadək (Qiyamətədək) möhlət içindəsiniz. Biz də sizə yetişəcəyik. Allahım Bəqi əhlini bağışla!”[8]

2.7.9. Məscidi-Qədirxum

Qədirxum məscidi Mədinədə olan mühüm dini və tarixi əhəmiyyət kəsb edən məscidlərdəndir. Bu məscidin tikilməsinin səbəbi İmam Əlinin Allahın göstərişi ilə Peyğəmbərin onu ümmətə imam və xəlifə təyin etməsinin tarixdə əbədiləşdirilməsidir. Bu məscid hədisi-şəriflərdə özünə yer etmiş və böyük əhəmiyyəti olan məscidlərdəndir. Belə ki, Əbdürrəhman bin Həccac deyir: İmamSadiqdən soruşdum ki, mən günorta vaxtı Qədirxum məscidində müsafirəm. İmam buyurdu: “Orada namızını qıl, bunun fəziləti vardır. Bu işi atam da belə edərdi.”[9]

---

[1] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 45. Hədis № 7164.
[2] Həmin mənbə. Hədis № 7165.
[3] Həmin mənbə. Hədis № 7166.
[4] Həmin mənbə. Hədis № 7167.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. 102-ci c. s. 295; 103-cü c. s. 203; İbn Quləveyh. Kamilüz-ziyarat. s. 529-530.
[6] Səhihi-Buxari. V c. s. 66.
[7] Həmin mənbə. VII c. s. 209.
[8] Səhihi-Müslim. Kitabül-cənaiz-974. Hədis № 2255.
[9] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. Kitabül-məzar. s. 13. Hədis № 7052.

İmam Sadiq digər bir hədisində buyurur: “Qədirxum məscidində namaz qılmaq müstəhəbbdir. Çünki, orada Peyğəmbər İmam Əlinin xəlifəliyini bəyan etmişdir. Allah orada haqqı zahir etmişdir.”[1]

Üqbə bin Xalid deyir: “İmam Sadiqə Mədinədə olan məscidlərə gəlirəm, ziyarətə onların hansından başlayım?” - deyə sual etdim. Həzrət buyurdu: “Quba məscidindən başla, orada iki və ya daha çox namaz qıl, çünki, o ilk məsciddir ki, Peyğəmbər bu yerə gələndə orada namaz qılmışdılr. Sonra Məşrəbətu-ummi İbrahim məscidinə get, orada namaz qıl, çünki ora Peyğəmbərin məskəni və namaz qıldığı yerdir. Sonra Məscidi-Fəzihə get, orada namaz qıl, çünki, Peyğəmbərin orada namaz qılmışdır. Buradan bitdikdən sonra Ühüdə get, oradakı məsciddə namaz qıl,sonra Həmzə bin Əbdülmüttəlibin qəbri yanına get və orada ona salam ver. Çünki, Peyğəmbər orada əhzab günü dua etmişdir...”[2]

2.7.10. Məscidi-Fəzih

Mədinədə olan məscidlərdən biri də Fəzih məscididir. Bu məscidin belə adlanmasının səbəbi onun xurmalıqda tikilməsinə görədir. Leys əl-Muradi deyir: “İmam Sadiqə dedim: “Nə üçün Məscidi-Fəzih belə adlanır?” İmam buyurdu: “Xurma fəzih adlandırılmışdır, buna görə də bu məscidə Məscidi-Fəzih deyirlər.”[3]

2.8. Mədinədə baş vermiş İslam müharibələri

İslam peyğəmbəri Məhəmməd Mədinəyə gəldikdən sonra burada ilk federativ İslam dövləti qurmuş və müsəlmanları vahid bir siyasət altında birləşdirmişdi. O, Mədinəyə gəldikdən sonra atdığı ilk siyasi addım müsəlmanlar arasında qardaşlıq əqdini bağlamaq və bununla da müsəlmanlar arasında birlik yaratmaq olmuşdur. Onun atdığı bu ilk siyasi addım müsəlman tarixçiləri arasında “İslamın ilk siyasi sənədi” adı ilə tanınmaqdadır. Bu mühüm məqama diqqət yetirən görkəmli alim Cəfər Subhani yazırdı: “Əgər xüsusi tərkibə malik Mədinədə siyasi birlik yaranmasaydı, İslam o mühitdə inkişaf edə bilməz və daimi olaraq Mədinəni hədələyən xarici düşmənlər məsələsi həll olunmazdı. Buna görə də Peyğəmbər müfəssəl siyasi sənəd yazdı ki, onun maddələrinin hamısını bəyan etmək mümkün deyil.”[4] Beləliklə, Peyğəmbər mühacir və ənsar arasında qardaşlıq əqdini yaratmaqla güclü İslam birliyini yaratmış və müsəlmanları vahid bir cəbhədə birləşdirmişdi. Bundan sonra o, Mədinədə yaşayan yəhudi icmaları ilə ittifaqa girmiş, onlarla ittifaq bağlayaraq İslamın Mədinədə genişlənməsini təmin etmişdir.

Onun Mədinədə yaratdığı siyasi sənəddə aşağıdakı maddələr yer almışdır:

1. Sənədə qol çəkənlər vahid bir millət təşkil edirlər.
2. Onların hər biri dini mərasimlərini yerinə yetirməkdə azaddırlar.
3. Müharibə vaxtında bu dəstələrin hər biri başqasına yardım etməlidir. Ancaq bu şərtlə ki, onların özü təcavüzkar olmamalıdır.
4. Mədinə düşmənlərin hücumuna məruz qaldıqda hamı şəhəri müdafiə etməlidir.
5. Düşmənlə sülh imzalandıqda hər iki dəstənin məsləhəti olmalıdır.
6. Mədinə müqəddəs şəhərdir. Hamı onun hörmətini qorumalıdır.
7. İxtilaflarda son qərar Peyğəmbərin olmalıdır.[5]

Peyğmbər bu müqaviləni Mədinədə yaşayan Bəni-Qüreyzə, Bəni Nadir və Bəni-Qeynuqə qəbilələri arasında imzalamışdı. Hətta Peyğəmbər qurduğu İslam dövlətinin konstitusiyasında yəhudiləri unutmamış, onlarla əlaqəli təxminən 23 maddə yazmışdı. Onun yazdığı bu konstitusiyanın 1-dən 23-ə qədər olan hissəsi müsəlmanlara, 24-dən 47-dək olan hissəsi isə yəhudilərə aiddir.[6] Lakin təəssüflər olsun ki, yəhudilər əzəli xislətlərinə uyğun olaraq sonralar bu müqavilənin şərtlərini pozmuş və müsəlmanlarla bir neçə dəfə müharibə etmişlər.

---

[1] Həmin mənbə. Hədis № 7053.
[2] Həmin mənbə. Hədis № 7050.
[3] Həmin mənbə. Hədis № 7051.
[4] Cəfər Sübhani. İslam tarixi. s. 127.
[5] İbn Hişam. əs-Sirətün-Nəbəviyyə. I c. s. 501-504; Vaqidi. Kitabül-məğazi. I c. s. 176.
[6] Nuri Ünlü. İslam tarihi. I c. s. 38.

Mədinədə bir çox İslam müharibəsi baş vermişdir. Ümumiyyətlə demək olar ki, Peyğəmbər dövründə baş vermiş əksər İslam müharibələri Mədinədə olmuşdur. Orada baş vermiş ilk müharibə Bədr müharibəsi olmuşdur.

2.8.1. Bədr döyüşü (17 ramazan 02 / 24.03.624)

Bədr Mədinəyə yaxın, bol quyulu və yaşıl bağları olan bir ərazidir. Burada baş verən müharibə İslamda ikinci müharibə hesab olunur. Belə ki, müşriklərin başçısı olan Əbu Süfyan rəhbərlik etdiyi ticarət karvanı ilə Şamdan qayıdarkən Peyğəmbər onun yolunu kəsmək üçün Bədrə qoşun çıxarıb onlarla döyüşmək istəmişdi. Peyğəmbərin bu addımı mühüm əhəmiyyət kəsb edib, müşriklərin ticarət yolunu kəsmək, beləliklə, də onları iqtisadi cəhətdən sıxışdırmaq və onlarda qorxu hissi yaratmaq olmuşdur. Mənbələrə görə Peyğəmbər Bədrə 313 nəfərlik qoşun çıxarmışdı.[1]

Əbu Süfyan Peyğəmbərin bu işindən xəbərdar olub tez karvanın yolunu dəyişdirdi və onu salamat Məkkəyə çatdırdı. Lakin o, qabaqcadan Məkkəyə adam göndərib məkkəliləri bu işdən xəbərdar etdi və təcili olaraq müsəlmanların üstünə hücum etmək təklifini verdi. Bundan sonra Əbu Cəhl 900 nəfərlik qoşun toplayıb Mədinəyə yola düşdü. Müsəlmanlarla Əbu Cəhlin müşrik ordusu Bədrdə üzləşdilər.

Bu döyüşdə Əbu Cəhl başda olmaqla 70 müşrik öldürüldü. Bu müharibə hicri ikinci il ramazan ayının 17-də (24 mart 624) baş vermişdi.

2.8.2. Ühüd döyüşü (16 şəvval 03 / 01 aprel 625)

Ühüd Mədinənin 5 kilometrliyində bir dağın adıdır. Bədr müharibəsində məğlub olmuş müşriklər, xüsusən də onların başçılarından olan Əbu Süfyan bu məğlubiyyətin acısını unuda bilmirdi. Buna görə də o, 3000 nəfərlik qoşun toplayıb Mədinəyə hücum etmək qərarına gəldi. Peyğəmbərin Məkkədəki əmisi Abbas Əbu Süfyanın bu hərəkətini ona məktub vasitəsilə bildirdi. Peyğəmbər bundan xəbər tutan kimi müşriklərlə harada döyüşməyi müsəlmanlarla məsləhətləşdi. Ümumi məsləhət belə oldu ki, döyüş şəhərdən kənarda olsun. Peyğəmbər bu məsləhətə qulaq asdı və min nəfərlik ordu ilə Mədinədən çıxıb Ühüdə tərəf gəldi. Lakin Ühüdə çatmamış münafiq Abdullah bin Übey 300 nəfərlik dəstəsi ilə ordudan ayrıldı. O, ordudan ayrılmasının səbəbini isə - Peyğəmbərin gərək onun sözünü eşidib şəhərdə döyüşmək qərarını verəydi- deməsi oldu. Allah onun ikiüzlüyünü açaraq Ali İmran surəsinin 167-ci ayəsini endirdi.

Peyğəmbər yoluna davam edərək gəlib Ühüdə yetişdi. O, 50 nəfərlik oxatan dəstəsini Eyneyn dağında Abdullah bin Cübeyrin başçılığı altında gözətçi qoydu.

Müşriklər də bu döyüşə yaxşı hazırlaşmışdılar. Onların sol cinahına İkrimə bin Əbu Cəhl, sağ cinahına isə Xalid bin Vəlid başçılıq edirdi. Müsəlmanlar ilk döyüşdə qalib gəlsələr də sonradan oxatanların qənimət tamahı ilə ordugahı tərk etmələri döyüşün vəziyyətini müşriklərin xeyrinə dəyişdi. Oxatanların öz mövqelərini tərk etməsini görən Xalid bin Vəlid tez hücuma keçib müsəlmanları məğlubiyyətə uğratdı. Bu döyüşdə Peyğəmbər ağır yaralandı, dişi sındı və hətta ölüm xəbəri yayıldı. Lakin həmişə olduğu kimi bu dəfə də İmam Əli onun köməyinə gəldi. Bütün qoşun döyüş meydanında Peyğəmbəri atıb qaçdıqları halda , İmam Əli onun yanında tək-tənha vuruşurdu. O, sonadək Peyğəmbəri qorudu və tam əminliklə demək olar ki, bu döyüşdən Peyğəmbərin salamat çıxması məhz İmam Əlinin adı ilə bağlıdır. İmam Əli bu döyüşdən danışarkən deyir: "Qüreyş qoşunu hücum edən vaxt mühacir və ənsarın çoxu meydandan qaçmışdı. Bədənimdə 70-dən çox yara olmasına baxmayaraq, Peyğəmbəri müdafiə edirdim. Elə qılınc çəkdim ki, axırda qılıncım sındı və Peyğəmbər öz qılıncını mənə verdi."[2] İmamın bu döyüşdəki qəhrəmanlığını dilə gətirən İbn Əsir yazırdı: "Peyğəmbər hər tərəfdən Qüreyş qoşununun hücumuna məruz qaldı. Hər bir dəstə Peyğəmbərə hücum etdikdə İmam Əli də onlara həmlə edirdi, onların bəzilərini öldürür, bəzilərini isə ondan uzaqlaşdırırdı. Bu əsnada vəhy mələyi nazil olub İmam Əlinin bu fədakarlığını qiymətləndirdi və belə bir səs eşidildi: "**Əli kimi fateh, zülfiqar kimi qılınc yoxdur**."[3]

[1] Vaqidi. Kitabül-məğazi. I c. s. 7.
[2] Cəfər Sübhani. İslam tarixi. s. 169.
[3] İbn Əsir. əl-Kamilu fit-tarix. II c. s. 107.

Bu döyüşdə müsəlmanlardan 70, müşriklərdən isə 22 nəfər ölmüşdü. Bu döyüşdə müsəlmanlar məğlub olsalar da, onların mənəvi gücünü daha da artırdı. Allah Ali İmran surəsində təxminən 60 ayə (121-179) bu müharibə ilə əlaqədar nazil etmişdi. Bu döyüşdə müsəlmanların məğlub olmasının səbəbi isə onların dünya malına aludə olub döyüş meydanını tərk etmələri olmuşdur.

2.8.3. Xəndək döyüşü (şəvval 05 / mart 627)

Xəndək döyüşü bəzən Əhzab döyüşü də adlanır. Bu döyüş İslam müharibələri içərisində həlledici döyüşlərdən hesab olunur. Bəlkə də bu müharibə İslam müharibələri içərisində həlledici xüsusiyyətinə görə birinci yerdə durur. Çünki, əvvəldə də qeyd etdiyimiz kimi bu döyüşü Peyğəmbər imanla küfrün qarşı-qarşıya dayanması adlandırmışdı.

Bu döyüşün Xəndək adlanmasının səbəbi isə müsəlmanların bu döyüşə Mədinə ətrafında xəndək qazmaqla hazırlaşmaları olmuşdur. Onun Əhzab adlanmasının səbəbi isə ərəb və yəhudi qəbilələrinin dəstə-dəstə Qüreyş ilərə qoşulmalarına görədir. Ərəb qəbilələrindən Əhabis, Səqif, Süleym, Qətfan, Fəzarə, Mürrə və Əşca ordunun əsasını təşkil edirdi. Yəhudi qəbilələrindən olan Bəni-Qeynuqə və Bəni-Nəzir qəbilələri Peyğəmbərlə olan əhdi pozub müşriklərə qoşulmuşdular. Beləliklə, müşrik ordusunun sayı 10000 nəfər təşkil edirdi.

Ühüd müharibəsindən sonra müşriklər İslamın kökünü birdəfəlik kəsmək üçün ordu toplayıb Mədinəyə hücuma keçdilər. Bu xəbəri eşidən Peyğəmbər təcili tədbirlər gördü. O, müsəlmanlarla məsləhətləşib müdafiə üçün hazırlıq gördü. Beləliklə, Salman əl-Farsinin məsləhəti ilə şəhərin ətrafı xəndək qazıldı. Mənbələrə görə bu xəndək 3-4 ay ərzində və təxminən 3000 adamın iştirakı ilə qazılmışdı.[1] Bu xəndəyin uzunluğu 5, 5 km. olmuşdur.

Müşriklər gəlib Mədinəyə yetişdilər və şəhərin xəndəklə mühasirə edilib qorunduğunu gördükdə dedilər: "Məhəmməd bu taktikanı iranlılardan öyrənib, çünki ərəblər bunu bilmirlər." Nəhayət, beş nəfər məşhur pəhlavan, o cümlədən Əmr bin Əbdvüddə, İkrimə bin Əbu Cəhl, Hübeyrə bin Vəhəb, Nofəl bin Abdullah və Zirar bin Xəttab xəndəyi keçdilər. Bunların içərisində ən şücaətli Əmr bin Əbdvüddə idi. Ərəblər onu min pəhləvana bərabər tuturdular. Çünki, O, bir dəfə tək başına min döyüşçü ilə vuruşmuş və onları pərən-pərən etmişdir. Əmr döyüş meydanına daxil olub müqabil istədi. Lakin onun bərabərinə müsəlmanlardan kimsə çıxmadı. Bunu görən Peyğəmbər qoşuna üç dəfə müraciət edib onları Əmrlə vuruşmağa səslədi. Lakin Əmri yaxşı tanıyan müsəlman qoşunundan səs çıxmadı. Vaqidi yazırdı: "Ərəb pəhləvanı döyüşçü tələb edəndə ölüm sükutu İslam qoşununu bürümüşdü."[2] Peyğəmbərin hər dəfəki çağrışına Əli bin Əbu Talib cavab verdi. İmam Əlinin bu təkidini görən Peyğəmbər buyurdu: ya Əli bu Əmr bin Əbdvüddədir! İmam Əli isə bunun cavabında dedi: "Mən də Əbu Talib oğlu Əliyəm, ya Rəsulallah!"

Nəhayət, Peyğəmbər Əlini Əmrin müqabilinə göndərdi. İmam Əli Əmrə ilk öncə nəsihət edib onu İslama dəvət etdi. Lakin Əmr bu işin hec cürə mümkün olmayacağını dedi. Bunu görən İmam Əli onunla döyüşə girdi. Güclü döyüşdən sonra İmam Əli onu öldürdü. Bunu görən digər pəhləvanlar qaçmağa üz qoydular. İmam Əli onları təqib etdi. Onlardan Nofəl xəndəyi keçərkən ora düşdü. İmam Əli fürsəti fövtə verməyib xəndəyə atıldı və onu orada öldürdü. İmam Əlinin bu qəhrəmanlığı düşmən qoşununda müharibə alovunun sönməsinə və öz yurdlarına qayıtmalarına səbəb oldu. Bu döyüşü ilahi vəhy əsasında qiymətləndirən Peyğəmbər buyurdu: "Əlinin xəndək günü düşmünə endirdiyi zərbə Qiyamətədək cinlərin və insanların ibadətindən üstündür."[3] İlahi yardım bu dəfə də Peyğəmbəri yalqız qoymadı. Allah müşriklərin üstünə külək göndərib onların ordugahını dağıtdı. Əbu Süfyan ordunu götürüb Məkkəyə qayıtdı. Beləliklə, on beş gün mühasirədə qalan Mədinə bu dəfə də təhlükədən sovuşdu. Allah Qurani-Kərimdə bu döyüş haqqında ayələr nazil etdi.[4]

Xəndək müharibəsi bitdikdən sonra Peyğəmbər Bəni-Qüreyzə qəbiləsi üzərinə yürüş etdi. Bu hadisə hirətin 5-ci ilində zilqədə ayında (16 aprel 627) baş vermişdi. Çünki, bu qəbilə Peyğəmbərlə

[1] Nuri Ünlü. İslam tarihi. I c. s. 55.
[2] Vaqidi. əl-Məğazi. II c. s. 470.
[3] Hakim ən-Nisaburi. əl-Müstədtək. III c. s. 32; Əllamə əl-Məclisi. Biharül-ənvar. XX c. s. 216.
[4] Bax: Əhzab surəsinə.

bağladıqları əhdi pozmuş və xəndək müharibəsində müşriklərə qoşulub müsəlmanların üstünə gəlmişdilər. Peyğəmbər onları 25 gün mühasirədə saxladı. Nəhayət ,onlar təslim oldular.

Xəndək döyüşündən sonra bir daha müşriklər müsəlmanların üstünə hücum etmədi. Onlar artıq Peyğəmbərin ilahi bir insan olduğunu və ona heç vaxt qalib gələ bilməyəcəklərini duyub bir daha onun üzərinə hücum etmədilər. Artıq bu həlledici döyüşdən sonra hücum etmək növbəsi müsəlmanların oldu.

2.8.4. Xeybər döyüşü (məhərrəm 07 / may 628)

Hicri 6-cı ildə (628 miladi) müsəlmanlar Mədinənin ətrafında yaşayan qəbilələrə hücum etdilər. Peyğəmbərin onların üzərinə etdiyi bu yürüşlər həmin qəbilələri cəzalandırmaq məqsədi daşıyırdı. Çünki, həmin qəbilələr dəfələrlə müşriklərə qoşulub müsəlmanların üzərinə hücumlar etmişdilər. Bu qəbilələr içərisində yəhudi qəbilələri də vardı. Məkkə müşrikləri Xeybər yəhudiləri ilə ittifaqa girib müsəlmanların əleyhinə müqavilə imzalamışdılar. Bu müqavilənin şərtlərinə görə müsəlmanlar bunlardan hansının üzərinə hücum edərsə, digəri də ona kömək göstərməli idi. Bunu bilən Peyğəmbər məkkəlilərlə sülh müqaviləsi bağlamaq istəyirdi. Buna görə də o, Məkkədə qıtlıq olan zaman oranın yoxsullarına ərzaq göndərmişdi. Peyğəmbər hicri 6-cı ildə (628 mart) ümrə ziyarəti üçün 1400 nəfərlik heyətlə Məkkəyə getdi. O, özü ilə birlikdə 70 qurbanlıq da götürmüşdü. Peyğəmbər Zül-Hüleyfə adlanan yerdə ehram bağladı. Müsəlmanlar da Peyğəmbərə tabe olub ehrama girdilər.

Məkkəlilər Peyğəmbərin gəlişindən xəbər tutub qorxuya düşdülər. Buna görə də Xalid bin Vəlid 200 nəfərlik silahlı ilə müsəlmanları izləməyə başladı. Peyğəmbər onların gözündən yayınaraq dəstəsini Hüdeybiyyə adlanan yerə gətirdi. Burada Osman bin Əffanı məkkəlilərlə danışmaq üçün onların yanına göndərdi. Lakin Osmandan üç gün səs-soraq çıxmadı. Müsəlmanlar içərisində onun ölüm xəbəri yayıldı. Buna görə də Peyğəmbər Məkkəlilərlə döyüşmək qərarına gəldi. O, hamıdan bu barədə beyət aldı. Bu beyət İslam tarixində "Hüdeybiyyə sülhü", "Hüdeybiyyə beyəti", "Beyəti-Rizvan" və ya "Beyəti-Şəcərə" adlanır. Allah Quranda bu müqavilə ilə əlaqədar ayələr nazil etdi.[1] Peyğəmbərin diktəsi, İmam Əlinin isə imlası ilə yazılan Hüdeybiyyə sülhü mühüm əhəmiyyət kəsb edirdi. Çünki bu müqavilənin şərtlərinə görə tərəflər arasında 10 il müddətinə müharibə olmayacaqdı.

Bu sülh sazişi İslamın Mədinənin şimal ərazilərində yayılmasına zəmin yaratdı. Vaxtilə Peyğəmbərə sui-qəsd etmiş və müşriklərlə əlbir olub müsəlmanlara hücum etmiş yəhudilər Xeybər deyilən yerdə məskən salmışdılar. Peyğəmbər onların üzərinə 1400 nəfərlik qoşunla hücum etdi. Yəhudilər burada çox güclü istehkamlar yaratmış və yaxşıca müdafiə olunurdular. Onların başçıları isə öz düvrünün ən görkəmli qəhrəmanlarından olan Mərhəb idi. Onun qardaşı Haris də şücaət və igidlikdə qardaşından geri qalmırdı. Xeybər iç-içə yeddi qaladan ibarət idi. Peyğəmbər qalanın üstünə Əlini göndərdi. O, bundan bir gün əvvəl demişdi: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onu Allah və Rəsulu sevir, o da Allah və Rəsulunu sevir."[2] İmam Əli əlindəki İslam bayrağını qalanın önünə sancdı. Bunu görən qala müdafiəçiləri onun üstünə atıldılar. Onların içərisində Mərhəbin qardaşı Haris də var idi. İmam Əli onunla döyüşüb onu öldürdü. Bunun ardınca Mərhəb təpə-dırnaq silahlanaraq İmam Əlinin meydanına gəldi. Hər iki tərəf bir-birlərinə olmazın ağır zərbələr endirirdilər. Nahəyət, İmam Əli onu öldürdü. İmam müsəlman əsgərlərinə qalaya girmək əmrini verdi. Lakin qalanın qapısı bağlı olduğundan əsgərlər ora girə bilmədilər. Bunu görən İmam Əli qalanın qapısını qopardıb kənara tulladı.

Göründüyü kimi bu müharibələrin hamısında İmam Əli xüsusi fədakarlıq göstərmiş və Allah yolunda canını bir an belə əsirgəməmişdi.

Mədinədə müsəlmanlarla yəhudilər arasında bir neçə döyüş olmuşdur. Bu döyüşlərdən biri Bəni-Qeynuqə döyüşü adlanır.

[1] Bax: Fəth surəsinə.
[2] Səhihi-Buxari. Hədis № 3702.

2.8.5. Bəni-Qeynuqə döyüşü (şəvval 2/10 aprel 624)

Mədinədə yəhudilər çoxluq təşkil edirdilər. Onlar demək olar ki, Mədinəni iqtisadi cəhətdən öz nəzarətləri altında saxlayırdılar. Müsəlmanların güclənməsi isə onların qəlbində həsəd və kin-kudurəti daha da artırmaqdaydı. Peyğəmbərin onlara qarşı səmimi davranmasına baxmayaraq, onlar yenə də əzəli xəyanət xislətlərini tərk edə bilmirdilər. Beləliklə, Mədinə yəhudilərindən olan Bəni-Qeynuqə Bədr döyüşündən sonra Peyğəmbərlə bağladıqları əhdi pozdular. Onlar bu əhdi pozduqları üçün Allah onları xəyanətkar adlandırıb, onlarla döyüşməyə icazə verdi.[1] Miladi təqvimlə 624-cü il aprel ayında müsəlmanlarla Bəni-Qeynuqə yəhudi qəbiləsi arasında silahlı toqquşma baş verdi. Bu döyüşün səbəblərini tarixi qaynaqlar belə nəql edirlər: "Bir ərəb qadını bazardan zinət əşyaları alarkən oturmuşdu. Bir yəhudi onun ətəklərini oturduğu taxtaya bağlamışdı. Qadın ayağa qalxarkən paltarları tamamilə əynindən siyrilib çıxmış və o pis bir vəziyyətdə qalmışdı. Onun qışqırığına bir müsəlman köməyə gəlmiş və nəticədə yəhudini öldürmüşdü. Yəhudilər də həmin müsəlmanı öldürdülər. Beləliklə, yəhudilərlə müsəlmanlar arasında müqavilə pozulmuş və nəticədə müsəlmanların qoşun çəkərək onların üzərinə getmələrinə səbəb olmuşdu. Bəni-Qeynuqədə 15 günlük mühasirədən sonra təslim olan yəhudilər Peyğəmbərin əmri ilə Mədinədən sürgün edildilər.[2]

2.8.6. Bəni-Qüreyzə döyüşü (hicri 5/ 627)

Müsəlmanlarla yəhudilər arasında baş vermiş diğər döyüşlərdən biri də Bəni-Qüreyzə döyüşüdür. Bu döyüş də yəhudilərin xəyanətləri nəticəsində meydana gəlmişdir. Bəni-Qüreyzə müsəlmanlarla əhd bağlamışdılar. Lakin sonralar onlar Qüreyş ilərlə ittifaqa girib müsəlmanlarla olan əhdlərini sındırdılar. Bunun nəticəsində isə onlarlarla müsəlmanlar arasında hərbi toqquşma oldu.

2.9. Mədinənin quyuları

Mədinənin tarixi keçmişində diqqəti çəkən və hədisi şəriflərdə özünə yer alan yerlərdən biri də Mədinədə olan quyulardır. Burada çoxlu sayda quyu vardır ki, bunların da bir hissəsi Peyğəmbərimizin hədislərində öz əksini tapmışdır. Həmin quyulardan aşağıdakıları qeyd etmək olar:

Qars quyusu.

Bu quyu Peyğəmbərimizin nəzərində ən müqəddəs quyulardandır. Qaynaqlara görə, Peyğəmbər dəstəmaz almaq üçün bu quyunun suyundan istifadə edərmiş və bunun üçün Əlinin gedib onun suyundan gətirməsini buyurarmış. Hətta o, vəfat edəndə də Əliyə onun suyu ilə qüsl verilməsini vəsiyyət etmişdir.[3] Bu quyu Quba məntəqəsindədir. İmam Əlidən gələn rəvayətə görə, Peyğəmbərə vəsiyyəti üzrə bu quyunun suyundan qüsl edilmişdir.

Bu quyunun ağzının genişliyi 10, uzunluğu isə 7 ziradır. Quyu zaman keçdikcə xarab olmuş, lakin xoşbəxtlikdən hicri 7-ci əsrdə (miladi XIII əsr) onun yerində yeni bir quyu qazılmışdır.

Ha quysu.

Quyu Əbu Təlhə adlı səhabənin bağçasında olan quyudur. Mənbələrə görə, Qurani-Kərimin **"İstədiyiniz şeylərdən xərcləmədikcə yaxşılığa yetişməzsiniz"** [4] ayəsindən sonra Təlhə Peyğəmbərin yanına gəlmiş və demişdir: "Ey Allahın Rəsulu! Çox sevdiyim və Ha quyusu olan bağçamı Allah üçün vəqf etdim. Peyğəmbər isə bunun müqabilində buyurmuşdur: "Yaxın qohumlarına vəqf et." Peyğəmbər məscidinə yaxın olan bu quyu sonralar məscidin genişləndirilməsi nəticəsində məscidə daxil edilmişdir.

[1] Ənfal surəsi surəsi, ayə 58.
[2] Nuri Ünlü. İslam tarihi. I c. s. 64; Vaqidi. Kitabül-məğazi. I c. s. 176-177; İbn Hişam. əs-Sirətün-Nəbəviyyə. III c. s. 50-53; Təbəri. Tarix. II c. s. 48-50.
[3] Mihr Ali Süleyman. Kutlu Şehir Medine. s. 205.
[4] Ali İmran surəsi, ayə 92.

Rumə quyusu.

Quyu Məscidi-Qiblətеynin cənub tərəfində, Əqiq vadisində yerləşir. Quyu xaraba qalmış, lakin Məkkə qazısı İbn Mühibb ət-Təbəri tərəfindən 1349-cu ildə təmir edilərək istifadəyə verilmişdir. Quyunun ağzının uzunluğu 18, genişliyi 8 ziradır. Bu quyu Cahiliyyə dövründə bir yəhudiyə məxsus olmuş, o da quyunun suyunu heç kəsə pulsuz verməmişdir. Peyğəmbər müsəlmanların sudan əziyyət çəkdiklərini görüb demişdir: "Hər kəs Rumə quyusunu satın alsa, müsəlmanlara hədiyyə etsə, Allah onu bağışlayacaq."

Bussa quyusu.

Bu quyu da Peyğəmbərimizin dövrünə aid olan quyulardandır. Əbu Səid əl-Xüdriyə görə, Peyğəmbər quyunun suyu ilə başını yuyarmış. Bu quyu da Quba məntəqəsindədir. Onun genişliyi 7, uzunluğu isə 11 ziradır. Bu quyu da sonradan təmir edilib təzələnmişdir. Quyu Məscidi-Nəbinin cənub-şərqində Cənnətül-Baqinin yanında yer alır. Peyğəmbər bu quyunun suyundan içmişdir. Lakin təəssüflər olsun ki, bu quyunun yerində hotel tikilib və ondan əsər-əlamət qalmayıb.

Mədinədə olan digər quyulardan aşağıdakıları qeyd etmək olar:

Besət quyusu.
Zəmzəm quyusu.
Ənəs bin Malik quyusu.
Zərvan quyusu.
Maunə quyusu.
Buveyra quyusu.
Əbu Ənbə quyusu. Peyğəmbər Bədrə gedəndə bu quyunun yanından keçmişdir.
Əris quyusu. Quyu Quba məscidinin qabağındadır.
Ənna quyusu.
Buzaə quyusu. Quyu Bəni Səqifədə yerləşir.
Cəşm quyusu.
Cəməl quyusu.
Dureyk quyusu.
Riab quyusu.
Aişə quyusu.
Ürvə bin Zübeyr quyusu.
Mərəq quyusu.
Ğərəs quyusu.
Ğədəq quyusu.
Rumə quyusu.
Mələk quyusu.

III FƏSİL

QÜDS ŞƏHƏRİ

3.1. Qüds sözünün mənaları

Qüds sözü etimoloji cəhətdən ərəb mənşəli sözlərdən olub lüğətdə "pak", "təmiz" "bərəkət" və mübarək olmaq" mənalarında işlədilir.[1] Dilimizdəki müqəddəs sözü də bu kökdən əmələ gəlmişdir. Ehtimala görə, Qüds şəhəri müsəlman ərəblər oranı fəth etdikdən sonra bu adı almışdır. Qüds şəhərinin qədim mənbələrdəki adı İeruşalaim olmuşdur. Bu söz etimoloji cəhətdən qədim yəhudi mənşəli söz olmuşdur. Onun bu adına miladdan öncəki XIX və XVIII əsrlərdəki Misir mətnlərində rast gəlinir. Miladdan qabaqkı XIV əsrə aid Təll Amarna məktublarında Qüdsün adı Urusalim, Assur mətnlərində Urusilimmu və ya Ursalimmu, İbrani Masoretik mətnlərdə isə Yuruşim kimi yazılıb və Əski Əhdin Aramicə mətnlərində Yeruşalem şəklində tələffüz edilməkdədir.[2] Onun bugünkü qərb aləmində işlənən adı da Yerusəlim kimi tələffüz olunur. Bu söz də müqəddəslik mənasında başa düşülür. Lakin tədqiqatçılar bu sözün İbranicə iki sözdən əmələ gəldiyini və sözün birinci hissəsinin kökü barədə ixtilaf olduğunu deyirlər. Belə ki, sözün birinci hissəsini təşkil edən **"yeru"**nun mənşəyi "qorxmaq" mənasındakı yare, yaxud "sahib olmaq" mənasındakı yaraştan əmələ gəldiyi ehtimalı vardır. Kəlmənin ikinci hissəsi olan **"şalayim"**in əsli şalem və ya şalimdir. Bu sözün mənası isə "barış" deməkdir.[3]

Bəzi tədqiqatçılar isə qədim Sami xalqlarında ilk salınan şəhərin Tanrının və ya onu saldıran şəxsin adına adlandırmaq ənənəsini əsas götürərək Yerusəlimin ibrani dilində "Salimin şəhəri" mənasında olduğu ehtimalını daha güclü görürlər. Çünki qədim Sami xalqlarında Salim adlı tanrının olduğu tarix kitablarında öz əksini tapmışdır.

Beləliklə, bütün ehtimalları cəm şəklində qeyd etsək qədim adı Yerusəlim olan Qüds şəhərinin adının mənaları "Salimin şəhəri", "barışın şəhəri", Bet şalem şəklində "Şalemin evi" mənalarında başa düşülür.

Qaynaqlara görə, Qüds şəhərin deyil, oradakı müqəddəs məbədin adına şamildir. Qüds sözü də etimoloji cəhətdən Arami mənşəli söz olub, "Qudş" sözündən əmələ gəlib və təmizlik, müqəddəslik mənalarındadır. Bəzi İslami mənbələrdə Qüdsə İlya deyilməsinin səbəbi isə onun romalıların şəhərə verdikləri Aelia adının ərəbləşmiş variantıdır[4].

Amma İlya adının Allahın adlarından biri olması versiyası daha doğru görünə bilər. Bu haqda "Məcməül-bəhreyn" əsərinin müəllifi yazırdı: "**İl** ivrit yaxud da suryani dilində Allahın adlarından biridir və ərəb dilində işlənən Cəbrail, Mikail və İsrafil kəlmələrində Allahın bəndəsi mənasında işlədilir. **İl** Beytülmüqəddəsə aid edildikdə, Allahın evi mənasında başa düşülür. Çünki **İl** ivrit (ibrani) dilində Allah deməkdir."

3.2. Qüds şəhərinin adları

Qüds şəhərinin qədim qaynaqlarda aşağıdakı adları vardır:

1. Moriya.
2. Yəbus.
3. Sion.
4. Davudun şəhəri.
5. Ariel.
6. Qüds.
7. Yerusəlim.
8. Ədalət yurdu.
9. İnanalar şəhəri.
10. Allahın şəhəri (ir Elohim).

---

[1] İbn Mənzur. Lisanül-ərəb. "qds" maddəsi.
[2] Ömer Faruk Harman. İslam Ansiklopedisi. XXVI c. İstanbul, 2002. s. 323.
[3] Həmin mənbə.
[4] Yaqut əl-Həməvi. Möcəmül-büldan. IV c. s. 353.

11. Orduların Rəbbinin şəhəri (ir Yahveh şebaöt).
12. Müqəddəs şəhər (ir haqqodeş).[1]
13. Zeytun.[2]
14. İlya.[3]

Bu adlar içərisində ən məşhuru və daha çox işlənəni Qüds və Yerusəlimdir. Baxmayaraq ki, hədisi-şəriflərdə İlya adı da çox işlənmişdir. Tirmizi Peyğəmbərdən rəvayət edir: "Xorasandan qara bayraqlılar çıxacaqdır, heç bir şey onları qaytarmağa qadir olmayacaqdır. Nəhayət bayrağı İlyada yellədəcəklər."[4]

Qüds şəhəri Fələstin ərazisində yerləşdiyi üçün əvvəlcə Fələstinin tarixinə qısa şəkildə nəzər yetirmək lazımdır. Baxmayaraq ki, bu tarixi məlumatın bir hissəsinə Qüdsün tarixi bölümündə toxunacağıq.

3.3. Fələstinin tarixi

Fələstin adı miladdan əvvəl XII yüzillikdə qövmlərin köçməsi nəticəsində dəniz yolu ilə buraya gələn Filistilərdən alır. Bu bölgə miladdan qabaq XII yüzillikdə müxtəlif qövmlərin bura köçməsi nəticəsində formalaşmış və nəticədə yaşayış məskəninə çevrilmişdir. Bura ilahi dinlərin beşiyi və mərkəzi olduğundan onun bir adı da "Ərzül-müqəddəs"dir.

Arxeoloji qazıntılardan əldə olunan məlumata görə Fələstində ilk insan mədəniyyəti günümüzdən on dörd min il öncəyə məxsusdur.[5] Ora miladdan qabaq 5-ci minillikdə Samilər köçmüşdür. Fələstinə ilk köçən və oranın yerli sakinləri isə Əmaliqələr hesab olunur. Tövrata görə, Əmaliqələr dünyanın ən qədim milləti olub ərəblərin atası hesab olunur. Mənbələrə görə, Əmaliqələr haqqında məlumat ixtilaflı olsa da daha məşhur görüş budur ki, onlar Əmliq və ya Əmaliqə bin Vilad bin Sam bin Nuhun adından götürülüb və təmiz ərəblərin (əl-Ərəbül-aribə) atasıdır[6]. Lakin bəzi İslami qaynaqlar bu qövmün ataları Əmaliqə bin Lavəzi bin Sam bin Nuhdan gəldiyini və onların əsil vətənlərinin Babil olduğunu qeyd edirlər[7]. Sonra onlar Fələstin, Misir, Nəcd, Amman və başqa yerlərə köçmüşlər. Tövratdakı məlumata görə isə Əmaliqələrin atası İshaq Peyğəmbərin nəvəsi Əlfazın cariyəsi Timnadan doğulan oğlu Əmaliqədir.[8] Miladdan əvvəl XI əsrdə İsrail dövlətinin qurulması nəticəsində Əmaliqələr böyüklü kiçikli kütləvi qırğına məruz qalmışlar.

Fələstin qərbdən Aralıq dənizi, şimaldan Livan respublikası, şərqdən İordaniya çayı və Suriya Respublikası, cənubdan isə Misirin bir hissəsi olan Sina yarımadası ilə əhatə olunmuş bir ərəb məntəqəsidir. Fələstin coğrafi baxımdan Suriyanın cənubunda bir hissə olduğu üçün Fələstin kəlməsinin yerinə bəzən Cənubi Suriya sözü işlədilir. Fələstin coğrafi baxımdan ərəb məmləkətləri üçün çox mühüm mövqeyə malikdir. Belə ki, o Asiya ərəb ölkələrini Afrika ərəb ölkələrinə birləşdirən və Ərəbistan Yarımadasını Aralıq dənizinə qovuşduran bir körpüdür.

İlkin tarixi dövrlərdə Kənani ərəbləri Fələstində yaşadığı üçün oraya keçmiş zamanlarda "Ərzi-Kənan" (Kənan torpağı) deyilirdi. Fələstin adı isə təqribən miladdan on iki əsr əvvəl Aralıq dənizi sahillərində, "Yafa" və "Qəzza" aralarında məskən salmış, sonradan isə fələstinlilər adı ilə tanınmış "Kriti" qəbilələrindən birinin adına münasib olaraq oraya verilmişdir.

Təqribən miladdan 2500 il əvvəl bir neçə ərəb qəbiləsi indiki Fələstin ərazisinə köçmüş və orada məskunlaşmışdılar və sonradan "Kənanilər" adlanmışdılar. Bir müddət sonra bu insanların bir qrupu Livan dağlarına tərəf olan sahillərə gəlmiş və orada məskən salmışlar. Get-gedə Finiqiyyun (finikiyalılar) adı ilə tanınmışlar (əslində hər iki firqənin kökü eynidir). Kənanilər kənd təsərrüfatı ilə, finikiyalılar isə dənizçiliklə məşğul olmuşlar. Onlar Fələstində istilaçılardan qorunmaq məqsədi

---

[1] Bax: Lütfullah Karaman. İslam Ansiklopedisi. XXVI c. İstanbul, 1996. s. 323-324.
[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. XC c. s. 298. Hədis № 2.
[3] Həmin mənbə. XIV c. s. 365.
[4] Səhihi-Tirmizi. III c. s. 362. Bu hədisin sənədi haqqında Tirmizi "qərib həsən" demişdir. Hədis İbn Kəsirin "ən-Nihayə", Əhməd bin Hənbəlin "Müsnəd" və Beyhəqinin "Dəlailün-nübüvvət" kitablarında da rəvayət olunmuşdur. Həmçinin hədisi fərqli formada İbn Tavusun "əl-Məlahim vəl-fitən" əsərində (s. 43-58) də qeyd olunmuşdur.
[5] Lütfullah Karaman. İslam Ansiklopedisi. XIII c. s. 89.
[6] Əllamə əl-Hairi. Dairətül-məarif. XIII c. s. 415.
[7] İslam Ansiklopedisi. II c. İstanbul, 1989. s. 557.
[8] Həmin mənbə.

ilə möhkəm hasarlı şəhərlər tikmiş və bununla orada mədəniyyətin əsasını qoymuşlar. Həmçinin özləri üçün bir din də seçmişlər. Təqribən mədəniyyətin əsasının hamısı və "İbranilər" dininin əsaslarının əksriyyəti onlardan ayrılmışdır.

Bu tayfanın dini bütpərəstlik və onların məşhur bütü isə "Seyid", "Rəbb" mənasını verən günəş allahı adı ilə tanınan Bəəl olmuşdur. Əştərut bütünü isə ay allahı kimi tanıyıb bütün şəhər üçün padşah bilmişlər.

-Kənanilər.

Kənanilər bir neçə qəbilə olmuşdular. Onların ən mühüm qəbiləsi Qüds şəhərində və onun ətrafında yaşayan Yəbusilər qəbiləsidir. Həmin tayfalara müvafiq olaraq Fələstini "Kənanlıların yurdu" adlandırmışdılar. Çünki miladdan əvvəl 2500-ci ilədən 1000-ci ilədək (1500 ilə yaxın) bu ərazi onların əlində olmuşdur. O cümlədən onların hakimiyyəti dövründə aşağıdakı şəhərlər tikilmişdir.

1.Əriha, 2.Bisan, 3.Şekim, 4.Nabiş, 5.Məcducazər, 6.Nəblus, 7.Şəkim, 8.Əriha, 9.Bisan.

Bu şəhərlər uzun müddət Misir, Babil və Heysin əsgərlərinin nəzarətində olmuş və çox vaxt Misir-Əmaliqələr və Misir-Heys müharibələri üçn döyüş meydanı olmuşdur. Suriya-Misir müharibələri və Kənani rəhbərləri arasında baş verən çəkişmələr bu ərazilərdə Kənanilərin zəifləməsinə və İbranilərin hakimiyyətə gəlməsinə səbəb oldu.

-Fələstinlilər.

Miladdan əvvəl 1184-cü ildə Kriti-icinlərin Qəzzanın cənubuna köç edib Kərməl dağına qədər Aralıq sahilini ələ keçirdi və get-gedə Kənani şəhərlərinin də bir qismini tutdular. Lakin dini baxımdan Kənanilərin təsiri altına düşüb bütpərəst oldular. Onlar taxıl allahı Racunu özlərinə baş büt götürdülər. Onların əsas məşğuliyyətləri isə ticarət, əsas şəhərləri isə Qəzza, Usdad və Əsqəlan idi.

Onlarla Fələstində yaşayan İbranilər arasında böyük müharibələr baş vermişdir. Lakin nəticədə üstünlük Fələstinlilərin oldu və miladdan əvvəl 1500-ci ildə İbraniləri bütünlüklə məğlubiyyətə uğratdılar.

-İbranilər

İbranilərin mənşəyi: təqribən miladdan 1805 il əvvəl İbrahim Kəldanilərin mərkəzi olan İraqın Ur şəhərindən Kənan ərazisinə (Fələstinə) hicrət edir və elə həmin ərazidə oğlu İshaq dünyaya gəlir. Sonra İshaqdan Yaqub olur. Ona İsrail adı verilir. Buna görə də Yəhudilər Yaquba mənsubla Bəni-İsrail adlanırlar.

Yaqubun oğlu Yusif baş vermiş məlum hadisələr nəticəsində Misirə qul kimi getmiş və müəyyən müddətdən sonra orada hakimiyyətə çatmışdır. Fələstində baş vermiş şiddətli qıtlıqdan sonra həzrət Yaqub və digər övladları Misirə gedib Yusifin yanında qalması nəticəsində İsrail övladlarının sayı xeyli artmışdı.

Firon II Ramzes Bəni İsraili ciddi əzablar və təzyiqlər altında saxlayırdı. Musa onları bu zalım şahın zülmündən xilas edir və onaları Misirdən Kənan ərazisinə (Fələstinə) gətirir. Miladdan əvvəl 1290-cı illərdə həzrət Musa və Bəni İsrail Misirdən çıxdılar. Onlardan bir qrupu həzrət Yuşa bin Nunla Fələstinə göndərildi ki, oradakı vəziyyət haqqında mükəmməl məlumat əldə etsinlər. Göndərilən heyət qayıdandan sonra Musaya xəbər verdilər ki, orada zalım və inadkar insanlar yaşayırlar. Bunu eşidən Bəni İsrail camaatı qorxuya düşdü və Fələstinə getməkdən üz döndərdilər. Onlar Musanın əmrinə qulaq asmadılar və qırx il o səhrada sərgərdan qaldılar. Bu əsnada Musanın şəriəti Mədyəndə (Sina yarımadasının cənubunda) ona vəhy olundu. Bu sərgərdanlıq və şəriətin nüzulu dövründə Musaya Bəni İsrail tərəfindən çoxlu təzyiqlər oldu. Onlardan bir qrupu bütpərəstliyə qoşuldular, bir qrupu isə Musanın göstərişlərinə xilaf çıxaraq geriyə-Misirə qayıtmağa israr etdilər. Həzrət Musanın vəfatından sonra Bəni İsrail həzrət Yuşanın rəhbərliyi altında Urdun çayından keçib Əriha şəhərinə daxil oldular. Yuşa bin Nunun səfəri haqqında Əhdi-Ətiqin altıncı fəslində yazılmışdır: "Bəni İsrail Ərihanın bütün əhalisini, kişiləri, qadınları, uşaqları, qocaları və hətta bütün heyvanları belə qılıncdan keçirib qanlarına qəltan etdilər. Onlar şəhərdə nə vardısa hamısına od vurub yandırdılar. Onlar yalnız qızıl-gümüş qabları və dəmir əşyaları tələf etməyib Rəbbin (bütün) xəzinəsinə verdilər." Bəni İsrail Ərihadan sonra Fələstinin başqa şəhərlərini də

tutdular. Ancaq Beytülmüqəddəsin (Yəbus) əhalisi müqavimət göstərərək təslim olmadılar və Beləliklə, Fələstin sahilləri Fələstinlilərin əllərində qaldı.

Həzrət Yuşanın vəfatından sonra Bəni İsrailin rəhbərliyi Quzatın əlinə keçdi. O, həmişə Kənanilərə nifrət bəsləyirdi. Baş vermiş toqquşmaların nəticəsində Bəni İsrail Kənanilərin dini və mədəniyyətinin təsiri altına düşdü və onların bütü olan Bəəli özlərinin pərəstiş obyekti qərar verdilər.

Ümumiyyətlə yəhudilər Şaul və Talutun hakimiyyəti altına düşüənədək həmişə müharibə etmişlər. Şaul Əmaliqəə, Əminiyyun, Muabiyyun və Udumiyyun ilə müharibə etdi. Fələstinlilər onun qoşununu Məər bin Amirdə məğlub etdilər, övladlarını öldürdülər, özünü isə ağır yaraladılar. O, düşmənin əlinə keçməmək üçün özünü öldürdü. Şauldan sonra onun vəzifələrini daşıyan həzrət Davud Bəni İsrailin rəhbərliyini öz əlində cəmləşdirdi və qırx il hakim oldu. Həzrət Davud Bəni İsrail üçün məmləkət təsis etdi. Bütün İsrail qəbilələrini birləşdirdi, Yəbus camaatının (Beytülmüqəddəs əhalisinin) müqavimətini qırdı, Yerusəlimi tutub oranı məmləkətin paytaxtı elan etdi. O, iki tayfanı- Yəhuza və Benyamini Yerusəlim ətrafında, qalan tayfaları isə şimal ərazilərində yerləşdirdi və Fələstinliləri məğlub etdi.

O, Yerusəlimdə Finikiya sultanının göndərdiyi mühəndislərin köməyi ilə böyük bir məbəd ucaltdı.

Həzrət Davud Misir və İraq arasında olan ixtilafdan və Suriyanın bölünməsi məsələsindən istifadə edərək Fələstin ərazisini genişlətdi və Dəməşq Aramilərini məğlubiyyətə uğratdı. Amma Yəfadan Rəfəhə qədər olan ərazilər Misirlilərin əlində qaldı.

Həzrət Davud yüksək peyğəmbərlik məqamından başqa, həm də şücaətli, gözəl səsli, siyasətçil və şair təbiətli bir şəxsiyyət idi. O, məşhur Heykəl binasını (Beytülmüqəddəsi) tikdirməyə başlamış, ölümünün yaxınlaşdığını hiss etdikdə isə oğlu Süleymana onu tmamlamağı vəsiyyət etmişdir.

Həzrət Davuddan sonra hakimiyyətə oğlu Süleyman gəldi. O, İbranilərin sultanı oldu (e.ə. 972 - e.ə. 932). O, Sur padşahı Heyranın işçilərinin köməkliyi ilə bir donanma yaratdı. Bu donanma müntəzəm olaraq Suriya sahillərində hərəkət edir və oranın məhsullarını Fələstinə daşıyırdı. Süleyman həm də Aralıq dənizi sahilində bir liman tikdirdi.

Süleymanın vəfatından sonra Şəkum tayfasından bir nümayəndə heyəti onun oğlu Rəhoboamın yanına gəlib ondan istədilər ki, atasının bəzi qanunlarını onların üstündən götürsün və onlara daha çox azadlıq versin. Amma Rəhoboam onlara dedi: "Atam sizi qamçı ilə, mən isə cəza ilə cəzalandıracam." Bunu eşidən İsrail qəbiləsi onun əleyhinə qiyam etdilər və nəticədə krallığ iki hissəyə parçalandı (miladdan qabaq 928-ci ildə), Şimalda İsrail, cənubda isə Yəhudi padşahlığı (e.ə. X əsrin ikinci yarısı, e.ə. VI əsr) yarandı. İsrail padşahlığının paytaxtı Samiriya, Yəhudi padşahlığının paytaxtı isə Qüds oldu[1]. Lakin hər iki padşahlıq tarix səhnəsindən tez bir zamanda silindi. Belə ki, miladdan qabaq 721-ci ildə Assurlar İsrail padşahlığına, miladdan qabaq 586-cı ildə isə Büxtünnəsr Yəhudi padşahlığına son qoydu.

Qüds cənub ərazilərin krallığının paytaxtına çevrilmişdir.

Parçalanmış əraziləri Assurlar işğal etdilər. Onlar əhalinin üzərinə ağır vergi qoyurlar. İsrail padşahlığı vergi ödəməkdən boyun qaçırır. Assur hökmdarı II Sarqun onu mühasirəyə alıb İsrail məmləkətini darmadağın edir və üç minə yaxın əsir götürüb Midiyaya qayıdır. Onların yerinə isə Babildən, Suriyadan və Ərəbistan Yarımadasından qəbilələr yerləşdirir.

Gəlmə tayfalarla yerli İsraillilər və Kənanilərin bir-birinə qarışması nəticəsində yeni bir tayfa yaranır. Bəzi tədqiqatçılara görə Samirilər həmin nəslin törəmələridir. Lakin bu tayfanın ardıcılları bu fikri qəbul etməyərək özlərinin köklü nəsil olduqlarını iddia etmişlər.

Kəldanilərin Assuriyanın mərkəzi Neynəvada onlara ağalıq etməsi və Assurluların zəifləməsi Misirlilərə Suriyaya qədər öz ərazilərini genişlətmək imkanı verdi. Bununla da Yəhudi dövləti Misir dövlətinin təsir dairəsinə düşdü.

Nəhayət Qüds miladdan qabaq 586-cı ildə Babil padşahı II Novuxodonosor (Büxtünnəsr) tərəfindən işğal edilmiş və şəhər dağıdılmışdır. O, şəhəri işğal etdikdən sonra oranı dağıtmış, xeyli

[1] Lütfullah Karaman. İslam ansiklopedisi. XIII c. s. 90.

insan əsir edərək məbədi xəzinələri ilə birlikdə öz ölkəsinə aparmışdır. Bundan təxminən on bir il sonra, miladdan qabaq 597-ci ildə şəhərə ikinci dəfə girən Novuxodonosor məbədin qalan bütün əşyalarını kral Yehoyaki ilə birlikdə Babilə aparmışdır. O, kralın yerinə öz valisi Tsedekiyanı təyin etmişdir.

Fələstin təxminən miladdan qabaq 538-ci ildə İranın hakimiyyətinə (Əhəmənilər dövlətinə) tabe edilmişdir. Bu şəhəri Büxtünnəsrin əsarətindən İran hökmdarı Kuruş azad etmişdir.[1] Babillilər Farslara məğlub olduqdan sonra Fələstinlilər fars hökmdarı Kuruşa vergi ödəməyə hazır olduqlarını bildirdilər. Kuruş Büxtünnəsrin dövründə məcburi əsir edilib Babilə aparılan Yəhudi əsirlərini geri qaytarır və onların Süleyman məbədini (Beytülmüqəddəsi) yenidən tikmələrinə icazə verir.

Bundan sonra Qüdsü İsgəndər Zülqərneyn miladdan qabaq 332-ci ildə işğal etmişdir. O, farsları məğlub etdikdən sonra Suriyanı tutmuş, Qəzza bölgəsində ərəblərin ciddi müqavimətinə rast gəlmişdir. Ağır vuruşmadan sonra ərəbləri də məğlub edən İsgəndər Qüds şəhərinə tərəf hərəkət etdi. Yəhudilərin padşahı onu qarşılamağa çıxır və onunla birlikdə şəhərə daxil olur. Bununla da o, İsgəndərə təslim olduğunu bildirir. Bu vaxtdan Fələstin Yunan dövlətinin tabeçiliyində olur.

İsgəndərin ölümündən sonra onun canişinləri Sulufyan və Betalisi bu şəhərdə öz aralarında döyüş aparmışlar.[2] Nəticədə Fələstin onların birinin payına düşür. Az müddətdən sonra Misirin hərbi müdaxiləsi zamanı Qəzza müharibəsi başlayır və Fələstin yenidən miladdan əvvəl 312-ci ildə Misir dövlətinin bir hissəsinə çevrilir.

Bundan sonra Suriya hakimi III Antiyuxus Selevki miladdan əvvəl 198-ci ildə Misiri məğlub edərək Fələstini Suriya-Yunan dövlətinə birləşdirdi. Yəhudilər mərkəzi hakimiyyətin təsiri altında Yunanlıların adət-ənənələrini, dillərini, və digər mədəniyyətlərini mənimsədilər.

IV Antiyuxus Yəhudiləri bir az da zəiflədərək Süleyman heykəlində (məbədində) Yunan bütlərinə qurbankəsmə mərasimi təşkil etdi. Bundan hiddətlənən Yəhudilər inqilab edərək Qüdsü onun əlindən aldılar və oradakı Süleyman heykəlində öz ayinlərini icra etdilər.

3.4. Fələstinin sahəsi

Fələstinin ümumi sahəsi 270, 24 km^2-dir. Onun 70, 4 km^2-i iki göl (Təbəriyyə və Hövla) və Fələstinə bitişik olan Ölü dənizin yarısı ilə əhatə olunmuşdur. Qalan 26, 320 km^2-i isə təqribən Belçikanın ərazisi qədər quraqlıqdır.

3.5. Fələstinin əhalisi

İngiltərə müstəmləkəçiliyinin sonlaraında və Fələstin bölünməmişdən qabaqkı (təqribən 1947-ci ildə) statistikaya əsasən Fələstinin əhalisi 1948000 nəfər idi. Onun 1319000-i ərəb, 629000-i isə yəhudi idi.

3.6. Qüds şəhərinin tarixi

Qüds şəhərinin tarixi çox qədimdir. Qüds şəhəri Fələstin ərazisində yerləşir və tarixən oranın ayrılmaz hissəsi kimi tanınmışdır. Miladdan qabaq III minillikdən etibarən Fələstinə sami qövmündən olan Kənanilər, sonra da Finikiyalılar köçmüşdür. Onlardan sonra bura Aramilər köçmüşlər. Bəzi qaynaqlara görə Fələstində Qüds şəhərinin əsasını Kənanilərin bir qolu olan Yəbusilər qurmuşlar.[3] Buna görə də Qüdsün qədim qaynaqlardakı bir adı da Yəbus kimi qeyd edilir.

Miladdan əvvəl XII əsrdə bura gələn Filistlər Qəzza və onun ətrafında beş böyük şəhər salmış və buranı özlərinə məskən etmişlər.[4]

Mənbələrə görə Qüdsün haqqında ilk məlumat miladdan qabaq 2-ci minilliyin ortalarına aiddir.[5] Amma bəzi dini qaynaqlarda Qüds şəhərinin salınması və orada Beytülmüqəddəsin tikilməsi bəşəriyyətin ilkin dövrlərinə aid edilir. Həmin dini qaynaqlarda Beytülmüqəddəsin ilk dəfə kim tərəfindən tikilməsi də ixtilaflı olub bu barədə müxtəlif fikirlər qeyd edilmişdir. Şübhəsiz ki, bu

[1] Əli Əkbər Dehxuda. Lüğətnamə. "Qüds" maddəsi. s. 178-179; İslam Ansiklopedisi. XXVI c. s. 325; Azərbaycan Sovet Ensiklopediyası. III c. s. 292.
[2] Əli Əkbər Dehxuda. Lüğətnamə. "Qüds" maddəsi. s. 178-179.
[3] Lütfullah Karaman. İslam Ansiklopedisi. XIII c. s. 89.
[4] Həmin mənbə.
[5] Azərbaycan Sovet Ensiklopediyası. III c. s. 292.

müxtəlifliyin hamısı rəvayətlərin müxtəlifliyi ilə əlaqədardır. Beləliklə, Beytülmüqəddəsin ilk dəfə tikilməsi haqqında aşağıdakı fikirlər vardır:

1. Beytülmüqəddəs ilk dəfə mələklər tərəfindən tikilib.

2. Beytülmüqəddəs ilk dəfə Adəm tərəfindən tikilib, bundan sonra onu Sam bin Nuh , ondan sonra Davud , ondan da sonra isə Süleyman tikmişdir.[1]

3. Beytülmüqəddəsi Davud tikib.

4. Beytülmüqəddəsi Süleyman tikib.

Əllamə Məclisi isə Beytülmüqəddəsin tikilməsi haqqında rəvayət edir: "Davud Peyğəmbərin dövründə insanlar taun xəstəliyinə düçar oldular. Davud onları götürüb Beytülmüqəddəsin yerləşdiyi yerə gətirdi. Orada olan mələklər onları görüb dua etmək məqsədilə göyə qalxdılar. Onlar qayanın üstündə dayanıb Allahdan dilədilər ki, bu xəstəliyi onların üstündən götürsün. Allah onların duasını qəbul edib xəstəliyi onlardan götürdü. İnsanlar dua etdikləri həmin yeri müqəddəs tutub orada bir məscid tikdilər. Onun tikintisi on bir il çəkdi. Davudun əcəli tamama yetdiyindən bu işin sona yetirilməsini oğlu Süleymana tapşırdı. Davud vəfat etdi. Davudun bir cariyəsi vardı. O, hər axşam məscidə gələr, onun işıqlarını yandırar və qapılarını bağlayardı."[2]

Əllamə Məclisi bu hədisi başqa bir yerdə bir az da geniş formada rəvayət edərək yazırdı: "Allah xəstəliyi o insanların üzərindən götürdükdə Davud onlara dedi: Allaha olan şükrünüzü təzələyin və sizə şəfa verdiyi bu yerdə bir məscid tikin. Onlar Davudun dediklərini etdilər və onu Beytülmüqəddəs adlandırdılar."[3]

Bəzi rəvayətlərdə deyilir: "Davud 140 yaşına yetişdikdə Allah onun canını aldı və Beytülmüqəddəsin tamamlanma işlərini oğlu Süleymana vəsiyyət etməsini ona tapşırdı. Süleyman cinləri və şeytanları bir araya topladı və onlara tikinti işində ona kömək etmələri barədə and içdirdi. Sonra o, cinləri və şeytanları mədənlərdən bolluca xalis ağ qızıl gətirmələri və onunla məscidə suvaq çəkməyi tapşırdı. Onlar tapşırıq üzrə hərəkət edərək qızıl, gümüş və yaqut gətirmək üçün yer üzünün mədənlərinə yollandılar. Onlardan bir qrupu daş daşımaq, digər qrupu müşk-ənbər, başqa bir qrupu isə dənizlərdən inci gətirmək üçün yollandılar. Süleyman onların gətirdikləri qiymətli əşyalar vasitəsiylə məscidi ağ, sarı, yaşıl rənglər və təmiz billur divarlardan tikdirdi. Onun tavanını gövhərdən, döşəməsini isə firuzədən düzəltdirdi. Yer üzündə ona oxşar heç bir tikili tikilməmişdi. Axşam düşdükdə o məscid göydə ay parıldayan kimi parıldayırdı. Sonra Süleyman bu işin Allah tərəfindən olduğunu bəni İsrailə çatdırdı və onun tikilib qurtardığı günü bayram günü kimi qeyd etdi. Beləliklə, Beytülmüqəddəs Büxtünnəsr oranı işğal edib şəhəri dağıdanadək beləcə qaldı. Sonra Büxtünnəsr oranı dağıdarkən məscidi sökdürdü və onun bütün qiymətli əşyalarını öz ölkəsi İraqa apardı.

İbn Müsəyyib nəql edir ki, Süleyman Beytülmüqəddəsi tikdikdən sonra onun qapılarını açıq saxlayıb ora on min qari təyin etdi. Onlardan beş mini axşam, beş mini isə günorta məsciddə qalırdılar. Bununla da məscidin qapıları bir saat olsun belə bağlı qalmırdı."[4]

Zəməxşəri Vəhəb bin Münəbbihdən rəvayət edərək yazırdı: "Beytülmüqəddəsdə işıq saçan min qəndil vardı..."[5]

Yaqut əl-Həməviyə görə İbrahim Peyğəmbərin qəbri Beytülmüqəddəsin içindədir.[6]

Beytülmüqəddəsin tikilməsi haqqında başqa rəvayətlər də vardır. Belə ki, İbn Xəldun özünün məşhur "Müqəddimə" əsərində yazırdı: "Beytülmüqəddəsin tikildiyi yerə gəlincə bura Sabiilər dövründə Zöhrə (Venera) adına tikilən bir məbədin yeri idi. Sabiilərin ona təqdim etdikləri hədiyyələrin (qurbanların) zeytun yağı da olurdu. Zeytun yağını orada olan min qadının üzərinə sürtərdilər. Sonra bu məbəd tamamilə yox olmuşdur. İsrail oğulları buranı ələ keçirdikdə, məbədin yerini özləri üçün qiblə etdilər. Bu belə olmuşdur: Allahın daha öncə ataları İsrailə (Yaquba) və onun atası İshaqa vəd etdiyi Beytülmüqəddəsə sahib olmaq üçün həzrət Musa İsrail oğullarını

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 361.
[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. XIV c. s. 599.
[3] Həmin mənbə.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 362; Əllamə əl-Məclisi. Biharül-ənvar. XIV c. s. 599.
[5] Rəbiül-əbrar. V fəsil.
[6] Yaqut əl-Həməvi. Möcəmül-büldan. III c. s. 208.

Misirdən çıxaranda müəyyən bir müddətə Tih səhrasında dayanmışdılar. Tih səhrasında qaldıqları vaxtda Allah Musaya akasya ağacından bir qübbə tikmələrini əmr etdi. Bu qübbənin ölçüləri, əlaməti və şəkili vəhy yolu ilə bildirildi. Onun içində bir sandıq, qab-qacağı ilə birlikdə bir süfrə və qəndilləri ilə birlikdə bir minarənin olması və qurbanlar üçün bir də qurban kəsilən yerin tikilməsi əmr edildi. Bütün bunlar ən aydın şəkildə Tövratda qeyd edilmişdir.

Bəli bu şəkildə qübbə tikilmiş və sandıq onun içinə qoyulmuşdur. Bu sandığın içində göydən həzrət Musaya endirilən və "on əmir"in yazılı olduğu, daha sonra qırılan lövhələrin yerinə yenisi ilə əvəz edilən lövhələr vardır. Qurbangah da bu qübbənin yanında yer alırdı.

Allah həzrət Musaya qurban işləri ilə Harunun məşğul olmasını əmr etdi. İsrail oğulları bu qübbəni Tih çölündə çadırlarının ortasına tikmişdilər. Namazlarını ora yönəlib qılırdılar, önündə qurbangahda qurbanlarını kəsirdilər və peyğəmbərlərinə vəhyin gəlməsini orada gözləyirdilər. Sonra Şama hakim olduqda bu qübbəni də müqəddəs torpaqlardakı Yamin (Binyamin) oğulları ilə Əfraim oğulları arasında qalan Kilkal məntəqəsinə qoydular. Orada yeddi il müharibə dövründə, yeddi il də fəthdən sonra ölkənin bölüşdürülməsi dövründə on dörd il qaldı. Həzrət Yuşanın vəfatından sonra qübbəni Kilkaya yaxın bir yer olan Şilu ölkəsinə apardılar və ətrafını divarla hördülər. Fələstinlilər onları məğlub edib bu qübbəni onların əlindən alana qədər qübbə üç yüz il burada qaldı. Sonra qübbəni təkrar İsrail oğullarına qaytardılar və onlar da Kohən Əlinin vəfatından sonra qübbəni Nufa apardılar. Sonra qübbə Talut zamanında, Yamin oğullarının torpaqları içində yer alan Kənana aparıldı. Davud hökmdar olduqda qübbəni və sandığı Beytül-məqdisə gətirdi, ona xüsusi çadır tikdirdi və bir qayanın üzərinə yerləşdirdi.

Qübbə beləcə, Musanın dövründən etibarən beş yüz il İsrail oğullarının qibləsi olaraq qaldı. Həzrət Davud qübbənin yerinə, o qayanın üzərinə məscid bina etmək istədi ancaq buna ömürü vəfa etmədi. Məscidi tikməyi oğlu Süleymana vəsiyyət etdi. Süleyman da - Musanın vəfatından beş yüz il sonra- hökmdarlığının dörd ili içərisində bu məscidi tikdirdi. Məscidin sütunlarını tuncdan, yerini billurdan (kristaldan), qapılarını və divarlarını isə gümüşdən etdi. Həmçinin mehrabları, heykəlləri, minarənin şamdanlarını və açarları qızıldan düzəltdirdi. İçində lövhələr olan sandığı qoymaq üçün məscidin arxa tərəfinə bir qəbir düzəltdirdi. Sonra məscid inşa edilərkən sandığı atası Davudun ölkəsi olan Siyondan gətirdib ora yerləşdirdi. Sandığı oradan əs-Səbat (on iki yəhudi qəbiləsinin təmsilçiləri) və hahamlar daşıdılar. Qübbə və qurbangah da məsciddəki yerlərinə qoyuldu. Bu durum Allahın istədiyi vaxtadək davam etdi. Məscidüləqsanın tikilməsindən səkkiz yüz il sonra Büxtünnəsr məscidi dağıtdı. Tövtatı yandırdı, gümüşdən düzəldilmiş mehrabı və heykəlləri əritdi və məscidin daşlarını dağıtdı. İsrail oğullarını isə vətənlərindən sürgün etdirdi.

Sonra fars hökmdarları əsirləri vətənlərinə qaytardı. İsrail oğullarının o zamankı peyğəmbəri Üzeyir fars hömdarı Bəhmənin yardımı ilə məscidi təkrar bina etdirdi. Ama məscidin ərazisini Süleymanın tikdirdiyindən kiçik etdi."[1]

Yuxarıdakı dini-tarixi rəvayətlərdən başqa Qüds şəhərində aparılan arxeoloji qazıntılar və qədim yazılı mənbələr də onu göstərir ki, bu şəhər ən qədim yaşayış məskənlərindən olmuşdur. İslam alimlərinin verdikləri məlumata görə bu şəhəri Əmaliqələr salmışlar. Həmçinin müsəlman tədqiqatçılarına görə bu şəhər tarix səhnəsinə ilk dəfə Bronzun (miladdan qabaq XV əsr) dövründə çıxmışdır. Onun dövründə Fələstinə gələn Hurrilər orada binalar inşa etmişlər. Qüds şəhəri Kənanilərin qalası olmuşdur. Musa Peyğəmbərin Misir fironunun zülmündən qaçması nəticəsində İsrail oğulları böyük bir köçlə buraya gəlmişlər. Onlar bura köçdükdən sonra yerli camaat olan samilərlə və filistlərlə savaşdılar. İsrail oğulları bu bölgənin böyük bir hissəsini ələ keçirdilər və miladdan əvvəl XI əsrdə İsrail dövlətini qurdular. İlk İsrail kralı olan Səlulun (Talutun) yerinə keçən Davud peyğəmbər Qüdsü təqribən miladdan qabaq 1000 ildə fəth etdi. O, burada bir saray tikdirdi və buranı dövlətin paytaxtı etdi. Davudun dövründə buranın həqiqi sahibi olan Əmaliqələr başda olmaqla bütün qövmlər əsarət altına alındı. Davuddan sonra taxta çıxan oğlu Süleyman Peyğəmbərin dövründə (e.ə. 972, e.ə. 932) krallıq qızıl dövrünü yaşayırdı. O, Qüdsdə Süleyman məbədini və ya Məscidüləqsanı tikdirdi.

[1] İbn Xəldun. Müqəddimə. II c. s. 479-480.

O, buranı tutduqdan sonra şəhərə Davudun adı verilmişdir. Davud şəhəri aldıqdan sonra onu yenidən təmir etdirmiş, şəhərin iqtisadı və hərbi cəhətdən gücləndirilməsinə yardım etmişdir. Ondan sonra hakimiyyətə gələn oğlu Süleyman peyğəmbər Qüdsü daha da genişləndirmiş və onun inkişafına güclü təkan vermişdir.

Bəzi tədqiqatçılara görə isə, Qüdsü Davud peyğəmbər fəth etməmişdən əvvəl ora Yəbusilərin əlində olmuş, oranı Yəhuda və Simeon qəbilələri işğal etmişlər. Onlar şəhərə soxulub kralı əsir almış, sonra isə oranı yandırmışlar.

Süleyman peyğəmbər təxminən yeddi il ərzində Qüdsədə böyük bir məbəd tikdirmişdir (e.ə. X əsr). Bu məbədin adı Yəhva məbədi (Süleyman məbədi) adlanmışdır. Bu məbəd bu gün Məscidüləqsa kimi tanınır və hər üç dinin davamçıları yanında ən müqəddəs məbədlərdəndir.

Süleyman peyğəmbəri vəfatından sonra onun krallığı iki hissəyə parçalanmış (e.ə. 928-ci ildə), Şimalda İsrail, cənubda isə Yəhudi padşahlığı (e.ə. X əsrin ikinci yarısı, e.ə. VI əsr) yarandı. İsrail padşahlığının paytaxtı Samiriya, Yəhudi padşahlığının paytaxtı isə Qüds oldu[1]. Lakin hər iki padşahlıq tarix səhnəsindən tez bir zamanda silindi. Belə ki, e.ə. 721-ci ildə Assurlar İsrail padşahlığına, e.ə. 586-cı ildə isə Büxtünnəsr Yəhudi padşahlığına son qoydu.

Qüds cənub ərazilərin krallığının paytaxtına çevrilmişdir.

Süleymanın oğlu Rəhoboam krallığı zamanı Misir kralı Çiçak Qüdsə hücum etmiş, məbədin və kral evinin xəzinələrini qarət etmişdir. Bundan təxminən 80 il sonra şəhər yenidən talan və viran edilmişdir. Qüdsə hakim olan kral Amatsyanın dövründə şimal ərazilərin krallığının orduları oraya girmiş və şəhəri dağıtmış və məbədin xəzinəsini götürüb aparmışlar. Bundan sonra şəhərə hakim olan Uzziya və Yotam şəhərin yenidən qurulmasını təmin etmişlər. Qüds sonralar İsrail kralları tərəfindən dəfələrlə hücuma məruz qalmışdır. Onların bu işğalçılıq yürüşləri Qüdsün başına bəlalar açmış, oranın inkişaf etməsini ləngitmişlər. Nəhayət Qüds miladdan qabaq 586-cı ildə Babil padşahı II Novuxodonosor (Büxtünnəsr) tərəfindən işğal edilmiş və şəhər dağıdılmışdır. O, şəhəri işğal etdikdən sonra oranı dağıtmış, xeyli insan əsir edərək məbədin xəzinələri ilə birlikdə öz ölkəsinə aparmışdır. Bundan təxminən on bir il sonra, miladdan qabaq 597-ci ildə şəhərə ikinci dəfə girən Novuxodonosor məbədin qalan bütün əşyalarını kral Yehoyaki ilə birlikdə Babilə aparmışdır. O, kralın yerinə öz valisi Tsedekiyanı təyin etmişdir. Sonra bu şəhəri Büxtünnəsrin əsarətindən İran hökmdarı Kuruş azad etmişdir.[2] Büxtünnəsrin işğalından sonra Qüdsdə yaşayan yəhudilər Hicazın müxtəlif şəhərlərinə yayılmışlar. Bu işğaldan böyük ziyan çəkən Qüds təxminən əlli ilə yaxın bir müddət ərzində xaraba qalmışdır. Nəhayət, miladdan qabaq 538-ci ildə şəhər Zarubbabəl məbədin təməllərini qurmuş, miladdan qabaq 444-cü ildə isə Nehemya şəhərin divarlarını qurmuşdur. Qüds təxminən miladdan qabaq 538-ci ildə İranın hakimiyyətinə (Əhəmənilər dövlətinə) tabe edilmişdir. Bundan sonra Qüdsü İsgəndər Zülqərneyn e.ə. 332-ci ildə işğal etmiş, onun ölümündən sonra onun canişinləri Sulufyan və Betalisi bu şəhərdə öz aralarında döyüş aparmışlar.[3] Qüds sonra misirli Ptolomeylərin və daha sonra isə e.ə. 198-ci ildən etibarən Suriya Selevkilərin mübarizə meydanına çevrilmişdir. Qüds e.ə. 63-cü ildə romalılar tərəfindən işğal olunmuş və şəhər dağıdılmışdır. İncilə görə vali Rumani Bilatusun göstərişi ilə İsa Məsih burada çarmıxa çəkilmişdir.[4] Daha sonra eramızın 70-ci ilində şəhər romalı komandan Titus tərəfindən tamamilə yandırılmış və bununla da Beytülmüqəddəs məhv olmuşdur.

İbn Xəldun (1332-1406) yazırdı: "İsrail oğulları Yunanların, Farsların və Romalıların hakimiyyəti altına girdilər. Bu dövrlərdə onlar güclənib hökmdarlıqları böyüdü. Hökmdarlıq öncə din adamlarından olan Haşmeney oğullarının, sonra da onların yeznələri olan Heredosun və ondan sonra da onun soyundan gələnlərə aid oldu. Herodos Məscidüləqsanı Süleymanın ölçülərinə görə, böyük bir önəm və həvəslə altı il içində bina etdirdi. Sonra Roma hökmdarlarından Titus, İsrail oğulların məğlub edib Qüdsü və məscidi dağıtdı, yerlərinə isə əkin əkdirdi."[5]

[1] Lütfullah Karaman. İslam Ansiklopedisi. XIII c. s. 90.
[2] Əli Əkbər Dehxuda. Lüğətnamə. s. 178-179; Azərbaycan Sovet Ensiklopediyası. III c. s. 292.
[3] Əli Əkbər Dehxuda. Lüğətnamə. s. 178-179.
[4] Həmin mənbə.
[5] İbn Xəldun. Müqəddimə. II c. s. 480.

Miladın 135-ci ilində İmperator Hadrienin zamanında şəhərin xarabalıqları üzərində bütpərəstlik məbədi tikilməyə başlansa da yəhudilərin ayağa qalxması nəticəsində bu iş baş tutmamışdı. Onlar salacaqları şəhərə İlya Kabitulina adını verəcəklərmiş. Amma Əli Əkbər Dehxudanın verdiyi məlumata görə onlar şəhərin xarabalıqları üzərində bir şəhər salmış və onu İlya Kabitulina (və ya Kaptolina) adlandırmışlar. Ərəblər oranı tutanda da şəhəri bu adla çağırardılar[1]. Buna görə də şəhər uzun illər İlya kimi tanınmış və müsəlmanlar oranı fəth edərkən onu bu adla tanımışlar. Qüdsün hədisi şəriflərdə də İlaya adına rast gəlinir. Müslüm bin Həccac Peyğəmbərdən nəql edir: "Yalnız üç şəhərə səfər edilər: Kəbə məscidinə, mənim məscidimə və İlya məscidinə."[2] Şəhərə daxil olmağı yəhudilərə qadağan edən romalıların qadağasını İmperator Konstantin ortadan qaldırmışdı. Onun anası Helena eramızın 326-cı ilində Zeytun dağında bir kilsə tikdirmişdir. İmperator özü isə xüsusi əmr verərək 333-cü ildə İsa Peyğəmbərin çarmıxa çəkildiyi yerdə kilsə tikdirmişdi. Bu kilsənin tikintisi 335-ci ildə sona çatmışdı. Bu məqama toxunan İbn Xəldun yazırdı: "Sonralar Romalılar İsanın dinini qəbul edərək, ona sayğı və hörmət göstərdilər. Ancaq Konstantin hakimiyyətə gəlincəyə qədər xristianlığı qəbul etmək və ya tərk etmək xüsusunda Roma hökmdarları tərəddüd içindəydilər. Konstantinin anası Helena xristianlığı qəbul etdi və - onların iddialarına görə - İsanın çarmıxa çəkildiyi ağacı tapmaq üçün Qüdsə getdi. Rahiblər ona İsanın çarmıxa çəkildiyi ağac ilə birlikdə yerə basdırıldığını xəbər verdilər. Helena o ağacı deyilən yerdən çıxartdı və yerində "Qumamə Kilsəsini" tikdirdi. Onların iddialarına görə bu kilsə İsanın qəbri üzərində tikilmişdir. Sonra da yəhudilərin İsanın qəbrinə etdiklərinin intiqamını almaq üçün Beytülmüqəddəsi dağıtdırdı və yerinə zibil atdırdı. Sonra o, "Qumamə Kilsəsinin" qabağında "Beytül-Ləhmi" tikdirdi. Bur İsanın doğulduğu yerdir. Bu durum İslamın gəlişinə və müsəlmanların Qüdsü fəth etmələrinə qədər beləcə qaldı."[3] Beləliklə, Qüds miladın IV əsrindən müsəlmanların oranı fəth etmələrinə qədər xristianların müqəddəs şəhərinə çevrilmişdir. Bununla əlaqədar olaraq Qüds xristianlar yanında, xüsusən də Markos İncilində özünəməxsus yer almışdır.

Qüds sonralar 614-cü ildə Sasani İmperatoru II Xosrov tərəfindən işğal olunmuş və 629-cu ildə Bizans İmperatoru Heraklus tərəfindən geri alınmışdır. Bundan sonra Qüds şəhərini fəth etmək üçün xəlifə Ömər bin Xəttab (634-644) Əbu Übeydəni orduya sərkərdə təyin edərək ora göndərmişdir. Beləliklə, 638-ci ildə (İbn Əsirə görə isə, 637-ci il 1 mayda[4]) müsəlmanlar Qüdsü fəth etmişlər. Lakin bəzi müsəlman tarixçilərinə görə, ora xəlifə Əbu Bəkrin (632-634) dövründə fəth edilmişdir.[5] Xəlifə Ömər bin Xəttab oranı döyüşsüz fəth etdikdən sonra yəhudilərin orada yaşamaması şərtini qoymuşdur.[6] O, Helena tərəfindən dağıdılan məscidin yerini soruşdu. Məscidin yeri ona göstərilərkən dərhal onun yerinin təmizlənməsini və yerində məscidin inşa edilməsini əmr etdi. Xəlifə ora Ubadə bin Samiti qazı təyin etmiş və ona xalqa İslamı öyrətmək tapşırığını vermişdir. Sonra Osman bin Əffan (644-656) xəlifə olduqdan sonra, Qüdsə böyük ehtiram göstərmiş, Silvan bağçalarının gəlirlərini oranın əhalisi içərisində olan yoxsullara və yetimlərə paylamışdı. Müsəlmanların fəthindən sonra Qüds onlar üçün müqəddəs şəhərə çevrilmişdir. Əslində onun müqəddəsliyi Süleyman Peyğəmbərin dövründən hər bir səmavi din ardıcılının müqəddəs məbədi olmuşdur. Fəthdən sonra Qüdsi bir çox səhabələr və müsəlman böyükləri ziyarət etmiş və orada məskunlaşmışlar. Qazi Übadə bin Samit orada yaşayıb orada da vəfat etmişdir.

Qüds şəhərinin ən inkişaf etmiş dövrü oranın müsəlmanların əlində olduğu dövrlərdə olmuşdur. Orada Əməvilər çoxlu mədrəsələr, Səxra məscidini (Qübbətüssəxra) və Hərəmi (Məscidüləqsa) tikdirmişlər. İbn Xəldun yazırdı: "Vəlid bin Əbdülməlik Məscidülhəramı, Məscidi-Nəbini və Dəməşqdəki məscidi böyütdüyü kimi Qüdsdəki Məscidüləqsanı da böyütdü." [7] Qübbətüssəxranı xəlifə Əbdülməlik bin Mərvan (685-705) tikdirmişdir (687-691-ci illərdə). Bunun tikilməsi haqqında müxtəlif görüşlər olsa da, ən doğrusu müsəlmanları Məkkədəki

[1] Əli Əkbər Dehxuda. Lüğətnamə. s. 178-179; Əllamə əl-Hairi. Dairətül-məarif. V c. s. 510.
[2] Səhihi-Müslim. Kitabül-həcc. Hədis № 1397.
[3] İbn Xəldun. Müqəddimə. II c. s. 480-481.
[4] İbn Əsir. əl-Kamilu fit-tarih. Çev: Beşir Eryarsoy. Bahar yayınları, II c. s. 459.
[5] Həmin mənbə.
[6] Əli Əkbər Dehxuda. Lüğətnamə. s. 178-179.
[7] İbn Xəldun. Müqəddimə. II c. s. 480-481.

Məscidülhəramdan döndərib Qüdsə yönəltmək olmuşdur. Çünki onun dövründə Məkkə camaatı Əbdülməlikin əleyhinə olmuş, xəlifə də həccə gedənlərin onların təsiri altına düşməsindən ehtiyatlanaraq, Qübbətüssəxranı (Məscidüssəxranı) Kəbə əvəzi tikdirmişdir.[1] Bu dövrdə Qüds şəhəri yaxşı inkişaf etmiş, şəhər abadlaşdırılıb xeyli genişləndirilmişdir. Müaviyə bin Əbi Süfyan (661-680), Əbdülməlik bin Mərvan (685-705) və Süleyman bin Əbdülməlik (715-717) kimi Əməvi xəlifələri əhalidən orada beyət almışlar.[2]

Əməvilər tarix səhnəsindən silindikdən sonra (749 oktyabr) Qüds Abbasilərin (750-1258) əlinə keçmişdir. Abbasi xəlifələri də Qüdsə Məkkə və Mədinədən sonra ən müqəddəs şəhər kimi baxmış, oranın inkişaf etməsində mühüm xidmətlər göstərmişlər. Məşhur Abbasi xəlifəsi Əbu Cəfər Mənsur (754-775) oranı 758-ci və 771- ci illərdə ziyarət etmişdir. O, Məscidüləqsanın yenidən inşa edilməsi haqqında göstəriş vermiş və oranı yaxşı səviyyədə təmir etdirmişdir. Oranı digər Abbasi xəlifəsi Mehdi Billah (775-785) 780-cı ildə ziyarət etmiş və 774-cü ildə zəlzələdən ziyan çəkmiş məscidi təmir etdirmişdir. Sonra hakimiyyətdə olan Harun ər-Rəşidlə (786-809) imperator Karlemaqne arasında olan dostluq nəticəsində oraya çoxlu sayda xristian ailələri köçmüş, imperator da onların oradakı yaşayışlarına xüsusi diqqət yetirərək orada onlar üçün yerlər tikdirmişdi. Həmçinin o, orada yaşayan xristianların cizyə vergisini dövlət xəzinəsindən ödəmişdir.

Abbasi xəlifəsi Məmunun dövründə (813-833) Qüds şəhəridə üsyan baş vermişdir. Vergilərin çox olması nəticəsində var-yoxdan çıxmış əhali üsyan qaldırdı. Mötəsim Billahın dövründə (833-842) isə şəhər üsyan nəticəsində böyük ziyan çəkmişdi.

Misirdə hakimiyyətə gələn Tolunoğulları (878-905) Fələstini işğal etdilər və bununla da Qüds Qahirəyə tabe edildi. Sonralar Misirdə Tolunoğullarını devirib (905-ci ildə) hakimiyyətə gələn İhşidilər (905-969) Qüdsə hakim oldular.

Bundan sonra, Qüds Fatimilərin əlinə keçdi. Fatimilər 969-cu ildə İhşidiləri yıxıb hakimiyyətə gəldilər. Bundan sonra, Qüds təxminən yüz il (969-dan 1071-dək) Fatimilərin hakimiyyəti altında oldu. Bu dövrlərdə Qüds şəhəri bəzən Qərmətilərin və Cərrahilərin döyüş meydanına çevrilmişdi. Qüdsdə olan Qiyamə kilsəsinin Fatimi xəlifəsi Hakim Biəmrillah tərəfindən dağıdılması və onun qırx il bağlı qalması Bizans imperatorluğunu qıcıqlandırdı. İmperator Çimikses dəfələrlə ora hücum etsə də, bir nəticə ələ edə bilmədi.

Qüds Fatimilər dövründə yeni inkişaf mərhələsinə qədəm qoymuş, orada xəstəxanalar tikilərək ödənişsiz xalqın istifadəsinə verilmişdir. Bundan başqa, X əsrin lap sonlarında orada Darül-fünun tikilmiş və bu elm ocağında dini və dünyəvi elmlər yüksək səviyyədə tədqiq edilərək öyrədilmişdir.

Qüdsün tarixinin qaranlıq səhifələrindən biri də Səlib yürüşləri zamanı olmuşdur. Bu hadisə orta əsrlər dünya tarixininən mühüm və ən faciəli hadisələrindəndir. Buna Xaç yürüşləri də deyilir. 1081-ci ildə taxta çıxan Bizans İmperatoru Alexios Səlcuqilərin İstanbulu qurudan və dənizdən təhdid etdiyini görüb Qərb dünyasından yardım istədi. Beyinlərdə çoxdan mövcud olmuş İslam dünyasına hücum fikri bundan sonra yavaş-yavaş reallaşmağa başladı. 1095-ci ildə Roma Papası Urbanus İsa Peyğəmbərin qəbrini xilas etmək üçün bütün xristian dünyasını yardıma çağırdı. O, bu çağrışa qoşulan insanların günahlarının bağışlanacağını vəd etdi. Beləliklə, bu yürüş miladın 1096-cı ilində başladı və artıq 1099-cu ildə Qüds xristianlar tərəfindən işğal edildi. İbn Xəlduna görə, onlar Qüdsü tutduqdan sonra Məscidüləqsanı dağıdıb yerində bir kilsə tikdilər.[3] Bu zaman ora Fatimilərin əlində idi. Oranı işğal etmiş səlibçilər şəhəri tamamilə dağıtmış və əhalisini isə kütləvi şəkildə qırmışlar. Qaynaqlara görə onlar orada 65-70 min müsəlman öldürmüşdülər.[4] Bu yürüşün başlanmasının əsas səbəblərindən biri Avropa feodallarının yeni torpaqlar ələ keçirmələri idi. Qüds krallığını tutan səlibçilər Antakiya, Trablus və Urfada xaçlı dövlətləri qurdular. Bu zaman Qüds Səlcuqi sultanlığına tabe idi. Oranı 1071-ci ildə Səlcuqilər almışdılar. Xaçlıların sürətlə irəliləməsinin və müsəlmanların bu döyüşlərdə məğlub olmalarının səbəbi isə müsəlman dünyasında mövcud olan Səlcuqilər dövlətində pərakəndəlik və özbaşnalığın olması idi. Belə ki,

[1] Yəqubi. Tarixi-Yəqubi. II c. s. 261.
[2] Nebi Bozkurt. İslam Ansiklopedisi. XXVI c. İstanbul, 2002. s. 327.
[3] İbn Xəldun. Müqəddimə. II c. s. 481.
[4] Nuri Ünlü. İslam tarihi. I c. s. 536.

1092-ci ildə vəfat etmiş Səlciqi İmperatoru Məlikşahın varisləri arasında taxt-tac üstündə gedən mübarizələri İslam torpaqlarının xristianların əllərinə düşməsinə səbəb oldu. Fatimilər dövlətinin isə həm səlcuqilərlə olan münaqişələri və həm də təkbaşına bu yürüşün qabağına çıxa bilməmək qorxusu onların müharibədən yan keçmələrinə, daha doğrusu geri çəkilmələrinə səbəb oldu. Mövcud olan Abbasilər dövləti isə demək olar ki, öz hayında idi və müharibə aparmaq iqtidarında deyildi.

Nəhayət, Allah bu dəfə də müsəlmanların imdadına yetişdi. Qüdsü azad etmək üçün türklər səlibçilərlə müharibəyə başladılar. Bu işdə türklərə digər müsəlman xalqları da köməklik göstərdilər. Beləliklə, 1187-ci ilin oktyabr ayının 2-də (27 rəcəb 583 h/q.) Səlahəddin Əyyubi Qüds şəhərini səlibçilərdən azad etdi. Beləcə, 88 il xristianların əlində olan müqəddəs Qüds şəhəri onların əlindən qurtarıldı.

Bundan sonra Qüds Əyyubilərin (1171-1260) əlində oldu. Bu dövrlərdə səlibçilərin dəfələrlə Qüdsə hücum etmələrinə baxmayaraq, Qüds onlara təslim edilmədi.

Qüds Əyyubilərdən Məmlukların (1250-1517) əlinə keçdi. 1250-1260-cı illər arasında Əyyubilərlə Məmluklar arasında baş vermiş toqquşmalar sonda Qüdsün 1253-cü ilin aprelində (səfər 651 h/q.) Məmlukların əlinə keçməsinə səbəb oldu. Onlar da şəhərə böyük önəm vermiş və oranın yenidən qurulmasını təmin etmişlər. Hazırda orada olan 150 tarixi abidənin 80-ni Məmluklar dövründə tikilmişdir.[1]

Qüdsün Məmluklar zamanındakı ən inkişaf dövrü Məhəmməd bin Kalavun dövrünə (1293-1294, 1299-1309, 1309, 1341) təsadüf edir. O, Məscidüləqsanı və Qübbətüssəxranı yenidən təmir etdirmiş, Məscidüləqsanın arxa tərəfini mərmərdən döşətmişdir. Qırx ildən artıq hökmdar olan Məhəmməd Qüdsdə çoxlu sayda mədrəsələr, hamamlar, qasid mərkəzləri qurdurmuşdur. Buna görə də Qüds şəhəri Məmluklar dövründə elm cəhətdən özünün ən inkişaf etmiş mərhələsinə qədəm qoymuşdu. İslam dünyasının hər yerindən elm öyrənməyə və dərs verməyə gələn tələbə və alimlər orada əmniyyət içərisində yaşamışlar.

Qüds şəhəri Məmluklardan Osmanlıların (1299-1923) əlinə keçdi. Bu dövrlərdə də Qüds şəhəri Osmanlı xəlifələri tərəfindən yüksək qayğı görmüş və dəfələrlə abadlaşdırılmışdır. Osmanlı Sultanı Yavuz Sultan Səlim Məmluklarla etdiyi savaşda (29 dekabr 1516) qalib gəldi və Qüds onun hakimiyyəti altına keçdi.[2] Bundan sonra Qüds təxminən dörd əsr, 1517-ci ildən 1917-ci ilədək, Mehmet Ali Paşanın dövrünü (1831-1840) çıxmaq şərtilə Osmanlılara tabe oldu. Məşhur Osmanlı sultanı Qanuni Sultan Süleymanın dövründə Qüdsdə böyük tikinti işləri aparılmışdı.

Bundan sonra, Qüds miladın XVIII əsrinin sonlarında gözlənilməyən təhdidə məruz qaldı. Belə ki, 1798-ci ildə Misiri işğal edən Napolyon bir il sonra Qəzzəni, Rəmləni və Qüdsün digər ətraf rayonlarını ələ keçirdi. Lakin Əhməd Paşanın Akkadda fransızlara qalib gəlməsi Qüdsi xilas etdi.

1845-ci ildə Osmanlı Sultanının əmri ilə Ortodoks Patriarxlığı İstanbuldan Qüdsə köçürüldü. Bunun ardınca Latın Patriarxlığı orada canlandırıldı. Artıq XIX əsrdə Qüds Avropa dövlətlərinin ciddi marağına səbəb oldu. Əlverişli şəraitdən istifadə edən İngiltərə hökuməti 1838-ci ildə Qüdsdə ilk dəfə konsulluq açdı. Yəhudilərin himayəçisinə çevrilən İngiltərə hökuməti Qüds və onun ətrafında Protestant xristian nüfuzunu artırdı. Bununla yanaşı Rus imperiyası da orada Ortodoks qruplar yerləşdirdi.

1870-ci ildən etibarən Qüdsə yəhudi köçünün başlaması, 1882 və 1905-ci illərdə iki böyük yəhudi qrupunun Qüdsə gəlməsi Qüds əhalisinin sayını və durumunu dəyişdirdi. Çar Rusiyasında sıxışdırılan yəhudilər bu illər ərzində Fələstinə köçdülər. Bu köçlər nəticəsində yəhudilər 1909-cu ildə Yəfanın şimalında Təl-Əviv şəhərini saldılar. XX əsrin əvvəllərində II Əbdülhəmidin dövründə Osmanlı dövlətində yaşayan bir qrup yəhudilər də buraya köçürüldü. Bundan sonra Qüds bugünə kimi davam edən Yəhudi problemləri ilə üzləşdi. Xüsusilə Osmanlı sultanı II Əbdulhəmidin dövründə Fələstinə yəhudi köçünün çoxalması, xəlifə tərəfindən onlara Fələstində torpaq almaq hüququnun verilməsi və sionizmin hərəkatı problemləri dərinləşdirdi.

[1] Nebi Bozkurt. İslam Ansiklopedisi. XXVI c. s. 333.
[2] Həmin mənbə. s. 334.

Hər üç dində müqəddəs hesab olunan Qüds şəhəri artıq XIX əsrin sonlarından etibarən siyasət meydanına çevrildi. Beytülmüqəddəsin yaxınlığında bir dağ olan Sion yəhudilər üçün müqəddəs dağa və orada yəhudi mədəniyyətini qurmaq arzusuna çevrildi. XIX əsrin lap sonlarında Siona qayıdış təfəkkürü Teodor Hertzel (1860-1904) tərəfindən siyasi bir addım kimi ortaya atıldı və bununla da dünyada sionizm hərəkatının əsası qoyuldu. Buna sionizm tarixində "Hertzel mərhələsi" deyilir.[1] İsveçrənin Bal şəhərində ilk konfrans təşkil edildikdən sonra bu hərəkat başlandı və bunun ardınca sionist təşkilatı yaradıldı ki, yəhudilərə vədə verilən ərazilərə qayıdışın və müstəqil yəhudi dövlətinin təsis olunması üçün lazım olan ilkin işlər görülsün.

Beləliklə, 1897-ci ilin may ayında Bazeldə keçirilmiş I sionist konqresi beynalxalq sionist hərəkatının fəaliyyəti ilə bağlı olub Fələstin torpaqlarını müstəmləkəyə çevirmək və bu torpaqlar hesabına "Böyük İsrail" dövləti yaratmaq olmuşdur. Bu konqresdə 200-250 adam iştirak etmişdir ki, bunun da çoxsu sionsevərlər cəmiyyətindən, Qərbdən və Şərqi Avropadan idi. Bu konqresin proqramı Hertzel tərəfindən hazırlanmışdır. Konfransın gerb layihəsi alman sionistlərinin rəhbəri Maks Budenhaymer (1860-1940) tərəfindən hazırlanmışdır və qırmızı rəngli haşiyəsi olan abı lövhədən ibarət idi ki, üstündə aşağıdakı cümlə həkk olunmuşdur: "Yəhudi dövlətinin təsisi yəhudi məsələsinin tənha həll yoludur." Lövhənin ortasında yəhudinin şiri və ətrafında Davudun ulduzu və bəni İsrailin övladlarının sayına nişanə kimi başqa on iki ulduz çəkilmişdir.[2]

1917-ci il noyabrın 2-də mənfur Balfur bəyannaməsi imzalandı. Bu bəyannamə 1916-cı ildən 1919-cu ilədək Böyük Britaniyanın xarici işlər naziri olmuş Balfur Artur Ceymsin (1848-1930) adı ilə adlanır. Bəyannamənin onun adına adlanmasının səbəbi isə onun Fələstində yəhudi "Milli ocağının" yaradılması haqqında qanunların müəllifi olmasına görədir. Bu bəyannamənin əsas məğzi müsəlman Şərqinin bölüşdürülməsi və əsarət altına alınmasından ibarətdir. Bununla yanaşı, İngiltərə müsəlman Şərqində özünün mövqeyini gücləndirmək istəyirdi. 1917-ci ilin dekabrında İngiltərə qoşunları Qüdsü işğal etdi. Balfur bəyannaməsinə görə Fələstinin torpaqları Qüdslə birlikdə yəhudilərə verilməlidir. Bəyannaməyə 1919-cu ildə ABŞ, ondan sonra isə Fransa qoşuldular. Bu işlərdən sonra Fələstin ərazisinə müxtəlif dünya ölkələrindən yəhudi ailələri köçürüldü. Tədqiqatçılara görə, XX əsrin başlanğıcında yəhudilər Fələstinin bütün əhalisinin (təqribən 750 min nəfər) 10 faizindən azını (60 min nəfər) təşkil edirdilərsə, İkinci dünya müharibəsinin axrına yaxın onların sayı on dəfə çoxalıb 608 min nəfərə çatmışdı, yəni Fələstinin bütün əhalisinin təqribən üçdə birini təşkil edirdi.[3]

Balfur bəyannaməsinin müddəalarına görə, Fələstində yaşayan müsəlmanlar və xristianlar öz yerlərini yəhudilərə verməli, onlar orada üstün məziyyətlərlə yaşamalı və bir sözlə orada ağalıq etməlidirlər. Bütün bunlardan başqa bəyannəmədə yəhudilər üçün digər üstünlüklər də nəzərdə tutulmuşdur. Buna görə də BMT tərtib etdiyi "Fələstin problemlərinin mənbələri və tarixi, I hissə, 1917-1947, II hissə, 1947-1977-ci illər" adlı tədqiqat əsərində "Balfur bəyannaməsinin" nəinki təkcə ikibaşlı və ziddiyyətli xarakteri, həm də beynalxalq hüquq nöqteyi-nəzərindən qanunauyğunsuzluğu göstərilir.[4]

BMT-nin Baş Məclisinin 1949-cu il 29 noyabr tarixli 181/II nömrəli qətnaməsinə görə Fələstində İngiltərənin mandatı altında olan keçmiş ərazidə iki dövlət-sahəsi 11,1 min kvadrat kilometr olan ərəb dövləti və sahəsi 14, 1 min kvadrat kilometr olan yəhudi dövləti yaratmaq nəzərdə tutulurdu. Qüds zonasını ayrıca müəyyənləşdirmək də ayrıca nəzərdə tutulurdu.

Nəhayət, 1948-ci ilin aprel ayında yəhudi dövləti yaradıldı. 1948-1949-cu illər ərəb-İsrail müharibəsindən sonra İsrail və İordaniya arasında 1949-cu il 3 apreldə barışıq sazişi imzalandı. Bu sazişə görə Qüds iki hissəyə parçalandı. Qüdsün qərb (böyük) hissəsi İsrailə, şərq (kiçik) hissəsi isə İordaniyaya verildi[5]. 1951-ci ildə isə iyirmi üçüncü sionist təşkilatının konfransı keçrildi. Həmin konfransın əsas müzakirə mövzusu "İsrail dövlətinin gücləndirilməsi, yəhudi sürgünlərinin İsrail dövlətində yığılması və yəhudi millətinin birliyinin təmini" idi.

---

[1] Əbdülvəhab əl-Mesiri. Sionizm. Tərc.: Nüşabə Əlizadə. Bakı, 2003. s. 63.
[2] Əbdülvəhab əl-Mesiri. Sionizm. s. 73.
[3] L.İ.Medvedko, A.B.Germanoviç. Allahın adı ilə. s. 171.
[4] Həmin mənbə.
[5] Azərbaycan Sovet Ensiklopediyası. III c. Bakı, 1979. s. 292.

Sionizm dövlətinin yaranmasının ardınca təzadlar və problemlər daha da dərinləşdi. 1949-cu il ərəb-İsrail müharibəsində İsrail BMT-nin onun üçün ayırdığı torpaqdan əlavə 6, 7 min kvadrat kilometr torpaq sahəsi işğal etdi, o cümlədən Qüdsün böyük hissəsini ələ keçirməyə müvəffəq oldu. Əvvəlki müharibədə 400 min Fələstin qaçqınına 350 min nəfər də əlavə olundu. Fələstin qaçqınları 75 min yaşayış evini və təqribən 350 kənd qoyub getməyə məcbur edilmişlər. Həmin ərəfədə Fələstin ərəblərinin əllərindən alınan mülkiyyətin ümumi dəyəri 2, 5 milyard dollar idi.[1]

1950-ci ilin yanvarında İsrail Qüdsün beynalxalq statusu haqqında BMT-nin qətnaməsini pozaraq bu şəhəri özünün paytaxtı elan etdi. 1967-ci il iyunun 5-də İsrail Qüdsün şərq hissısini də ələ keçirdi və iyunun 28-də İsrail hökuməti onun şəhərin qərb hissəsi ilə birləşdirirlməsi haqqında qərar qəbul etdi. BMT Təhlükəsizlik Şurası 1968-ci il 21 may,1969-cu il 3 iyul və 1975-ci il 25 sentyabr tarixli qərarlarında İsraili Qüdsün şərq hissəsinin ilhaqına yönəldilən hər cür tədbirlərdən əl çəkməyə çağırmışdır.[2]

3.7. Qüds şəhərinin fəziləti

Bütün səmavi dinlərdə Qüds şəhəri müqəddəs şəhər hesab olunur. Amma onun müqəddəsliyinin ehtiramını bəlkə də müsəlmanlar kimi heç bir dinin ardıcılları qorumamışlar. Qüdsün İslam ordusu tərəfindən fəth edilməsindən etibarən ora həmişə müsəlman xəlifələrinin və müsəlman kütlələrinin xüsusi hörmət və ehtiramına layiq görülmüşdür. Tarix özü şahiddir ki, müsəlmanlar oranı fəth edəndən sonra orada həmişə abadlıq işləri aparmış, oranın sakinlərinin dini mənsubiyyətindən asılı olmayaraq şəhərin sosial və iqtisadi problemlərinin həllində müsbət rol oynamışlar. Amma təssüflər olsun ki, Qüds şəhəri istər Səlib yürüşləri zamanı, istərsə də XIX əsrin sonları XX əsrin isə əvvəllərində başlayan sionist hərəkatı zamanı daim dağıntılara, əhalisi isə dini və irqi ayrı-seçkilik nəticəsində zülmə məruz qalmışdır.

İslam Peyğəmbərinin müsəlmanlara verdiyi tövsiyələr əsasında müsəlman din ardıcılları Qüds şəhərinə müqəddəs gözlə baxmış və oranın ehtiramını göz bəbəyi kimi qorumuşlar. Müsəlmanların həm milliyyətcə yəhudi olan Davud və Süleyman peyğəmbərlərə, həm də xristianların müqəddəs saydıqları İsa peyğəmbərə təzim göstərmələri onların dini əqidəsindən irəli gələn bir haldır. İstər Qurani-Kərimdə, istərsə də hədisi-şəriflərdə adı çəkilən peyğəmbərləri fəzilətli bilmək, onların peyğəmbərliyinə iman etmək, gətirdikləri kitabın (əslinin) Allah tərəfindən göndərildiyini qəbul etmək haqqında çoxlu sayda ayələr və hədislər vardır. Buna görə də onların doğulub yaşadıqları şəhərin də müsəlmanlar yanında əziz və müqəddəs olması təbii haldır. Beytülmüqəddəs hər nə qədər məscid adı olsa da bəzi rəvayətlərdə bu sözdə məqsədin Ali Məhəmmədin evi mənasında olduğu vurğulanır.[3]

Qüds şəhəri İslam Peyğəmbərinin və onun səhabələrinin təqribən on üç il qibləgahı olmuş və namaz qıldıqları vaxt üzlərini ora tutmuşlar. Bu mənada da Qüds şəhəri müsəlmanlar yanında yeni bir üstünlük qazanmışdır. Əksər İslam mənbələrində, xüsusilə sə hədis ədəbiyyatlarında Qüdsün müqəddəs və üstün bir şəhər olması haqqında kifayət qədər hədislər vardır. Həmin hədislərdə Qüds şəhəri və orada olan Beytülmüqəddəs məxsusi üstünlüklərə malikdir. Qüdsün müqəddəs şəhər olmasının ən mühüm səbəblərindən birincisi isə Beytülmüqəddəsin burada olmasına görədir.

Əbuzər əl-Qiffari deyir: "Peyğəmbərdən yer üzündə ilk məscidin hansı olduğu haqqında soruşdum, Peyğəmbər dedi: Məscidülhəram. Dedim: sonra hansı? Dedi: Məscidüləqsa. Dedim: Onların arası nə qədər çəkmişdir? Dedi: qırx il, sonra yer üzü sənə məsciddir, harda namaz vaxtı daxil oldu qıl."[4]

Bu hədisi izah edən İbn Xəldun yazırdı: "Bu hədis səni çaşdırmasın. Məkkənin (Kəbənin) bina edilməsi ilə Beytülmüqəddəsin bina edilməsi arasında olan zaman İbrahimlə Süleymanın arasında olan zamandır. Çünki Beytülmüqəddəsi Süleyman tikdirmişdir ki, onula İbrahimin arasında da min ildən artıq zaman fasiləsi vardır.

---

[1] L.İ.Medvedko, A.B.Germanoviç. Allahın adı ilə. s. 172.
[2] Azərbaycan Sovet Ensiklopediyası. III c. s. 292.
[3] Əllamə əl-Məclisi. Miratül-üqul. I c. s. 405; Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 363.
[4] Şeyx əs-Səduq. əl-Fəqih. II c.; Səhihi-Müslim. s. 212. Kitabül-məsacid-2. Hədis № 1162.

Bil ki, hədisdə ilk evin qurulmasında məqsəd inşa etmək deyildir. Burada Peyğəmbərin məqsədi ibadət üçün ilk seçilən yerin hara olmasıdır. Dolayısı ilə Süleyman oranı tikməmişdən əvvəl ora Allah yanında ibadət üçün seçilmişdir. Məlum olduğu kimi Sabiilər Zöhrə məbədini (sonralar Süleymanın tikdiyi) qayalığın üstündə tikmişdilər. Bəlkə də bu oranın ibadət yeri olmasından qaynaqlanırdı."[1]

Qüdsün fəzilətinə aid olan xəbərlərdən biri Peyğəmbərimizin oradan meraca getməsi olmuşdur. Allah Qurani-Kərində buyurur: **"Bəzi ayələrimizi göstərmək üçün bəndəsini bir gecə Məscidülhəramdan Məscidüləqsaya aparan Allah pak və müqəddəsdir. O, doğrudan da eşidən və biləndir."[2]** Bu ayənin təfsirində İmam Sadiq buyurur: "Cəbrail , Mikail və İsrafil Buraqla gəldilər. Onlardan biri yüyəni, o biri miniyi, digəri isə onun paltarını götürmüşdür. Buraq yerində dayanmadığından Cəbrail ona acıqlandı və dedi: sakit ol ey Buraq! Sənə bundan qabaq heç bir peyğəmbər minməmişdir və bundan sonra da onun kimisi sənə minməyəcəkdir. Bundan sonra Buraq Peyğəmbəri götürdü və göylərə qaldırdı. Peyğəmbərlə birlikdə Cəbrail vardı. O, göylərin və yerlərin ayələrini görürdü. Peyğəmbər buyurmuşdur: "Bu vaxt məni sol tərəfimdən kimsə çağırdı, mən isə ona tərəf baxmadım. Sonra məni üzərində dünyanın bütün bər-bəzəyi olan bir qadın qarşıladı və mənə dedi: "mənə bax, ya Məhəmməd! Səni kamına çatdırım." Mən isə ona əhəmiyyət vermədim. Sonra məni bir səs çağırdı ki, ondan qorxdum. Cəbrail məni aşağı endirdi və dedi: "namaz qıl." Mən namaz qıldıqdan sonra dedi: "Bilirsən harada namaz qıldın?" Dedim: "yox." Dedi: "Sən hicrət edəcəyin yerdə namaz qıldın." Sonra mindim və Allahın istədiyi yerədək gəlmişdim ki, Cəbrail dedi: "düş namaz qıl." Mən namz qəldıqdan sonra o, soruşdu: "bildin harada namaz qıldın?" Dedim: "yox." Dedi: "Musanın Allahla danışdığı Turi-Sinada qıldın." Sonra mindim və Allahın istədiyi yerədək gəlmişdim ki, o, dedi: "en namaz qıl." Mən namaz qıldıqdan sonra soruşdu: "bildin harada namaz qıldın?" Dedim: "yox." Dedi: "sən İsanın doğulduğu Beytül-ləhmdə namaz qıldın. Beytül-ləhm Beytülmüqəddəsin yanında bir yerdir."

Sonra Beytülmüqəddəsə gəldik, Cəbrail ilə birlikdə ora daxil olduq. Orada İbrahimi , Musanı , İsanı və digər peyğəmbərləri gördük ki, toplaşıb namaz qılırdılar. Sonra Cəbrail mənim əlimdən yapışıb məni onların önünə keçirdi..."[3]

İmam digər bir hədisində buyurur: "Allahın Peyğəmbərə göstərdiyi möcüzələrdən biri onu Beytülmüqəddəsin yanına gətirib bütün əvvəlki peyğəmbərləri dirildib ona göstərməsi olmuşdur. Cəbrail onu önə keçirmiş və o da öndə namazı qıldırmışdı..."[4]

Meymunə rəvayət edir: "Peyğəmbərə dedim: "Ey Allahın Rəsulu! Bizə Məscidüləqsa haqqında fətva ver!" O, buyurdu: "Ora gedin, içində namaz qılın. Əgər müharibə səbəbindən gedib içində namaz qıla bilməsəniz, heç olmasa şamdanlarında yanacaq zeytun yağı göndərin."[5]

Bərra bin Azib rəvayət edir: "Peyğəmbər on altı və ya on yeddi ay Beytülmüqəddəsə tərəf namaz qıldı..."[6]

İmam Sadiq buyurur: "Məscidlər dörddür: Məscidülhəram, Məscidür-Rəsul, Beytülmüqəddəs və Məscidül-Kufə. Ey Əbu Həmzə! Orada qılınan vacibi namaz həccə, müstəhəbb namaz isə ümrə savabına bərabərdir."[7]

İmam Sadiq buyurur: "Peyğəmbər Beytülmüqəddəsə peyğəmbərlikdən sonra on üç il Məkkədə, on doqquz ay isə Mədinədə namaz qıldı... "[8]

Peyğəmbər buyurur: "Allah yer üzündə dörd şəhər seçmişdir **"vət-Tin vəz-Zəytun. Və Turi Sinin. Və hazəl-Bələdil-Əmin."** Tin Mədinə, Zeytün Beytülmüqəddəs, Turi Sinin Kufə, Bələdi Əmin isə Məkkədir."[9]

---

[1] İbn Xəldun. Müqəddimə. II c. s. 481.
[2] əl-İsra surəsi, ayə 1.
[3] Əllamə əl-Hüveyzi. Təfsiri-nuris-səqəleyn. III c. s. 102. Hədis № 19.
[4] Həmin mənbə. s. 132. Hədis № 50.
[5] Əbu Davud əs-Sicistani. Sünən. s. 113. Kitabüs-salat-14. Hədis № 457.
[6] Səhihi-Buxari. s. 70. Kitabüs-salat-31. Hədis № 399; Səhihi-Müslim. s. 214. Kitabül-məsacid-11-12. Hədis № 1176-1177.
[7] Şeyx əs-Səduq. əl-Fəqih. I c. s. 70. Kitabüs-salat. Hədis № 684.
[8] Həmin mənbə. Hədis № 845.
[9] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 298. Hədis № 2.

Digər bir hədisdə isə buyurur: “Yalnız bu üç məscidə səfər edilər: Məscidülhərama, Məscidun-Nəbiyə və Məscidüləqsaya.”[1]

[1] Səhihi-Buxari. Kitabu cəzaüs-sayd. Babu həccin-Nisa. Hədis № 1864; Səhihi-Müslim. Hədis № 1397.

IV FƏSİL

KUFƏ ŞƏHƏRİ

4.1. Kufə sözünün mənaları

Kufə sözünün etimologiyası və mənası haqqında fikirlər müxtəlifdir. Bəzi qaynaqlar bu sözün fars mənşəli olduğunu qeyd etdikləri halda, digər qaynaqlar isə onun süryani mənşəli olduğunu qeyd edirlər. Amma onun etimoloji cəhətdən ərəb mənşəli söz olması və lüğətdə **"yuvarlaq qum təpəsi"**, **"çınqıl daşları ilə qarışmış qum təpəsi"** və ya **"insanların toplaşdıqları yer"** mənasında olması ən güclü ehtimaldır.[1] Çünki ərəb dilində bu məanaları özündə daşıyan sözə **"kufə"** deyilir. Yaqut əl-Həməviyə görə, isə bu söz bu ərazidə yerləşən **"Kufan"** adlı bir qum təpəsindən götürülmüşdür.[2] Əllamə Hairi isə Kufə adının **"əl-Kufan"** sözündən götürüldüyünü və **"bəla və şərin bir-birinə qarışması"** mənasında olduğunu qeyd edir.[3] Həmçinin o, qaynaqlara əsasən Kufənin Kufə adlanmasının səbəbini xəlifə Osmanın dövründə (644-656) oranın ordugaha çevrilməsinə, oraya çoxlu əsgərin toplanmasına görə olduğunu qeyd edir.[4] Həmçinin onun Kufə adlanmasının səbəbini bəzi alimlər belə ifadə etmişlər: **"Kufə ona görə kufə adlanır ki, o ölkələrdən bir parçadır."**[5] Buradan belə başa düşmək olur ki, Kufə sözü "hissə", "parça" mənalarında işlədilir.

Terminoloji mənada isə Kufə dedikdə İraqın cənubunda, qədim Babilistan ərazisində qurulmuş və mövcud olan şəhər nəzərdə tutulur.

4.2. Kufə şəhərinin adları

Kufə şəhərinin tarixdə başqa bir neçə adla adlanmasına rast gəlinir. Onun tarixdə ən qədim adı **Suristan**[6] olmuş, lakin İslamın ora gəlişindən sonra iki adına daha çox rast gəlinmişdir ki, bu da onun yaxınlığında yerləşən Bəsrə şəhərinin adı ilə bir çəkilir. O adlardan biri **İraqeyn** (iki İraq), digəri isə **Misreyndir** (iki şəhər). Beləliklə, onun adları aşağıdakılardan ibarət olmuş olur.

1. **Suristan.**
2. **Kufə.**
3. **İraqeyn.**
4. **Misreyn.**

4.3. Kufə şəhərinin tarixi

Kufə şəhərinin salınma tarixi İslamdan sonrakı dövrə təsadüf etsə də mənbələr onun qədim tarixə malik olmasından xəbər verir. Çünki Kufə şəhəri qədim Babilistanın ərazisində yerləşir və bu bölgənin ən qədim mədəniyyət ocağı olması artıq elmə çoxdan sübut olunmuşdur. Əbəs deyildir ki, qədim Babilistan bəşər mədəniyyətinin beşiyidir və onun bugünkü xarabalıqları buna əyani sübutdur. Bu mənada Kufə şəhəri qədim mədəniyyətin beşiyi hesab oluna bilər. Hətta Qurani-Kərimdə Nuhun tufanı zamanı qaynayan təndirin[7] məhz burada yaşayan bir qadının təndiri olduğu haqqında mənbələrdə məlumat vardır. Bu haqda Əli Əkbər Dehxuda özünün məşhur "Lüğətnamə" əsərində yazırdı: "Nuhun tufanı zamanı qaynayan təndir burada qaynamışdı."[8] Onun bu qeydi bəzi rəvayətlərdə öz əksini tapmışdır.[9] Deməli, Nuhun tufanı zamanı qaynayan təndirin Kufə şəhərində olması oranın ən qədim insan məskəni olmasına bir dəlildir. Mötəbər qaynaqlara görə, bura Nuhun dövründə yaşayış məskəni olmuş və Nuh orada böyük bir məscid tikdirmişdir.[10] O, Kufə şəhərində

[1] İslam Ansiklopedisi. XXVI c. İstanbul, 2002. s. 339.
[2] Yaqut əl-Həməvi. Möcəmül-büldan. IV c. s. 557-558.
[3] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 293.
[4] Həmin mənbə. XV c. s. 302.
[5] Həmin mənbə. XV c. s. 294.
[6] Həmin mənbə. XV c. s. 304.
[7] Hud surəsi, ayə 40.
[8] Əli Əkbər Dehxuda. Lüğətnamə. Tehran-1351 h/ş., "kəf" maddəsi, s. 363.
[9] Əllamə əl-Hairi. Dairətül-məarif. VI c. s. 538.
[10] əl-Bərqi. Tarixül-Kufə. s. 83.

yaşamış və burada da vəfat etmişdir. Onun qəbrinin Kufədən on km aralıda olan Nəcəf şəhərində olması da buna dəlil göstərilə bilər. Lakin sonradan ora xaraba qalmışdır. Bu haqqqda Kufənin tarixinə aid dəyərli əsər meydana gətirmiş əl-Bərqi yazırdı: "Kufə qədim zamanlardan bəri mövcud olmuş, sonra isə xaraba qalmışdır. Onu yenidən Səd bin Əbi Vəqqas qurmuşdur."[1]

Bəzi qaynaqlarda rəvayət olunur ki, Kufənin sərhədlərini Adəm cızmış və onu tikmişdir. Sonra Nuhun tufanı zamanı dağılmış, daha sonra isə Kəsralar (İran şahları) zamanı yenilənmişdir.[2]

İslamın zühuru ərəfəsində Kufədə yaşayış olmamışdır. Onun ilk dəfə şəhərə çevrilməsi II xəlifə Ömər bin Xəttabın hakimiyyəti dövrünə (634-644) təsadüf edir. Mənbələrdə qeyd olunmuş bəzi rəvayətlərə görə, xəlifə Ömər bin Xəttab Səd bin Əbi Vəqqasa məktub yazaraq müsəlmanlar üçün bir hicrət yerinin tikilməsini tapşırır. Səd bin Vəqqas Ənbara gələrək oranı götürmək istəyir. Lakin yerli camaat burada milçəyin çox olmasını ona xəbər verirlər. Bundan sonra Səd bin Vəqqas fikrini dəyişir və gözəl bağları və suyu olan Kufəni seçir.[3]

Belə ki, bütün mənbələrin verdikləri məlumata görə, Kufəni miladi 638-ci ildə Səd bin Əbi Vəqqas tikdirmişdir[4]. Nəcəfin şərqində, ondan on km aralıda yerləşən Kufənin İslamda çox böyük əhəmiyyəti və yeri vardır. Çünki onun yerləşdiyi məkan strateji əhəmiyyət kəsb edərək o dövr üçün hərbi qərəgahların yerləşdirilməsi üçün ən yaxşı yer hesab olunurdu. Onun salınmasının müxtəlif səbəbləri vardır. Tarixçilərin verdikləri məlumata görə Kufə şəhərinin salınmasının başlıca səbəbi bütün İraqın fəth olunması və sərhədlərin Sasani hücumundan qorunması olmuşdur. Bundan əlavə Kufənin yerləşdiyi yer əl-Cəzirə, Həmədan, Curcan, Azərbaycan, İsfahan və digər bölgələrin fəth edilməsi üçün xilafətə lazım olan bir ərazi idi. Həqiqətən bu şəhər salındıqdan sonra yuxarıda adı çəkilən bölgələrin tutulması gerçəkləşdi. Sonra burada oturan vali Azərbaycanı, İsfahanı, Rey və Qəzvin şəhərlərini buradan idarə etmişdir. Dünya tarixində böyük imperiya kimi tanınan Sasanilər imperatorluğunun süqutunda da Kufənin rolu danılmazdır. Bu baxımdan Kufə İslamda hərb tarixinin qübbələrindəndir.

Beləliklə, Səd bin Vəqqas tərəfindən əsası qoyulan Kufə şəhəri xəlifə Ömərin göstərişi və fərmanı əsasında tikildi. Xəlifənin əmri ilə orada ilk öncə bir məscid tikilmişdir. Məscidin yeri şəhərin mərkəzində təyin edildikdən sonra güclü bir oxatanaın atdığı oxun düşdüyü yerə qədər evlərin tikilməsinə icazə verilmişdir. Kufədə evlər ilk öncə qamışdan və buna bənzər şeylərdən düzəlirdi. Lakin sonralar bu evlərə od düşmək nəticəsində şəhərin bir hissəsi yandıqdan sonra evlərin palçıq kərpicdən tikilməsinə başlanıldı. Bu haqqda əş-Şəbi rəvayət edir: "...Kufə və Bəsrədə yanğın baş verdi. Bunun nəticəsində 80 ev yandı. Səd bin Vəqqas evi yanmış şəxslərdən bir qrupunu xəlifə Ömərin yanına göndərdi ki, ondan evlərin kərpicdən tikilməsinə icazə alsınlar. Xəlifə onları qəbul edib dinlədi. Onların xahişini eşidən xəlifə hər kəsə üç evdən artıq ev tikməmək şərti ilə onlara icazə verdi və dedi: hər biriniz üç evdən artıq tikməyin və tikdiyiniz evləri çox hündür etməyin, sünnətə əməl edin ki, dövlət də sizi qorusun."[5]

Səd bin Vəqqas şəhərə insanların köçürülməsini və onların yerləşdirilməsini Əbil Həyyac əl-Əsədiyə tapşırmışdı[6]. O, Kufəni dörd ana qismə bölmüş və "mənhəc" adı verilən bu qismlərə on beş yol çəkdirmişdi.[7] Orada yerləşdirilən Süleym, Səqif, Kində, Təmim, Əsəd, Əzd və digər qəbilələr özlərinə aid bir məhəllə quraraq orada qərarlaşmışlar. Kufənin tez bir zamanda iqtisadi və ticari mərkəzə çevrilməsi xilafətin müxtəlif bölgələrindən burya köçün başlanmasına səbəb oldu. Əhalinin artması nəticəsində Kufə şəhərinin daha da genişləndirilməsini ortaya çıxardı. Buna görə də Səd bin Vəqqas mövcud problemi xəlifəyə məktubla bildirdi. Xəlifə məşhur nəsəb alimi olan Səid bin Numranı Kufəyə göndərdi ki, orada qəbilələri uyğun və problemsiz şəkildə yerləşdirilməsinə köməklik göstərsin. O, Kufəyə gələn kimi bütün qəbilələri yeddi qrupa ayıraraq

[1] Həmin mənbə. s. 101.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 305.
[3] Həmin mənbə. XV c. s. 303.
[4] Yaqut əl-Həməvi. Möcəmül-büldan. IV c. s. 557-558; Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 293.
[5] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 305.
[6] əl-Bərqi. Tarixül-Kufə. s. 91.
[7] Casim Avcı. İslam Ansiklopedisi. XXVI İstanbul, 2002. c. s. 339.

onları yenidən yerləşdirdi.[1] Təbərinin verdiyi məlumata görə, bu arada Kufədə yerləşdirilən qəbilələrdən Yəmən qəbiləsindən 12000, Cənub Ərəb qəbilələrindən 8000 və deyləmilərdən isə 4000 adam olaraq Kufə əhalisinin əsas tərkibini təşkil edirdi. Kufəyə gələn əhali içərisində yetmiş nəfər Bədr iştirakçısı olmaqla aşağıdakı səhabələr də olmuşdur: İbn Əbi Şeyx əl-Muharibi, Əbu Ümeyyə əl-Fəzari, Vəhəb bin Abdullah, Əbul Xəttab, Əbu Rəmsə ət-Təmimi, Əbu Subrə Yezid bin Malik, Əbu Şəhim Zeyd, Əbu Qətadə Rəbi əl-Ənsari, Əbu Leyla Bilal bin Bəlil, Əbu Musa əl-Əşəri, Əşəs bin Qeys əl-Kindi, Əğər bin Yəsar əl-Cuhəni, Bərra bin Azib əl-Ənsari, Cabir bin Sumrə, Haris bin Ziyad əl-Ənsari, Hüzeyfə bin əl-Yəman, Zeyd bin Ərqəm, Salman əl-Farisi, Səlmə bin Yezid, Səhl bin Hüneyf, Əbu Tüfeyl Amir bin Vailə, Abdullah bin Məsud, Əli bin əbi Talib , Əmmar bin Yasir və başqaları.[2]

Kufə şəhəri yavaş-yavaş böyüdükcə onun idarə olunması problemi də ortaya çıxırdı. Xəlifə Ömər Abdullah bin Məsudu Kufəyə qazı və beytülmala sahib təyin etdi. İbn Məsud Kufəyə gələn kimi xəlifənin tapşırıqları əsasında hərəkət etdi və o, ilk dəfə olaraq orada hədis, fiqh, təfsir dərsləri vermək üçün mədrəsələr qurdurdu. O, az bir müddət qazı işlədikdən sonra xəlifə Ömər tərəfindən bu vəzifədən azad edildi, yerinə isə Qazi Şureyh gətirildi. Lakin xəlifə onu beytülmala sahiblik etmək vəzifəsindən uzaqlaşdırmadı. Şəhərin ilk valisi onun əsasını qoyan Səd bin Vəqqas olmuşdur. O, bir müddət bu vəzifədə çalışdıqdan sonra əhaliyə etdiyi pisliklər nəticəsində ona qarşı narazılıqlar baş qaldırdı. Xəlifə Ömərə çatan bu xəbərlər xəlifənin onu vəzifədən azad etməsi və yerinə Əmmar bin Yasirin gətirməsi ilə nəticələndi. Lakin Əmmar az bir müddət bu vəzifədə çalışdı. Onun yerinə Müğeyrə bin Şöbə gətirildi. Xəlifə Ömər vəfat etdiyi arada Səd bin Vəqqasın Kufə valiliyinə yenidən təyin olunmasını Osman bin Əffana vəsiyyət etdi. Xəlifə Osman (644-656) Ömərin vəsiyyətinə əsasən onu Kufəyə vali təyin etdi. Kufəyə gələn Səd bin Vəqqasla beytülmal sahibi Abdullah bin Məsud arasında münaqişələr başladı. Onların dünya malı üstündə apardıqları mübarizələr Kufə xalqını iki hissəyə parçaladı. Baş vermiş bu münaqişələri aradan qaldırmaq üçün xəlifə Osman bin Əffan Səd bin Vəqqası vəzifədən götürüb yerinə Vəlid bin Uqbəni təyin etdi. Vəlidin Kufə camaatı ilə yola getməməsi, beytülmal ı istədiyi yerə xərcləməsi və dini işlərə lazımı əhəmiyyət verməməsi əhali arasında ona qarşı ikrah hissi oyatdı. Beləliklə, xalq ona qarşı çıxıb onun vəzifədən kənarlaşdırılmasını tələb etdi. Xəlifə əhalinin narazılığını görüb onu valilikdən kənarlaşdırdı və yerinə Səid bin Ası gətirdi. Lakin artıq mərkəzi aparatda siyasi vəziyyətin pisləşməsi, xəlifənin ucqar rayonlara lazımı nəzarəti edə bilməməsi və Həmçinin iş başına təyin olunan adamların qohumluq prinsiplərinə dayanması digər bölgələrdə olduğu kimi Kufədə də vəziyyəti pisləşdirdi. Səid bin Asın beytülmalı kufəlilər arasında fərqli şəkildə bölməsi sonda ona qarşı üsyanın qalxmasına səbəb oldu. Hətta bu üsyan geniş vüsət alaraq xəlifəyə qarşı yönəldi və bundan sonra kufəlilər xəlifə Osmana qarşı olan cəbhədə yer aldılar. Nəhayət miladın 656-cı ilində öldürülən xəlifənin qanında bir qrup kufəlinin də olması bu problemin nə qədər dərin olmasından xəbər verir.

Xəlifə Osman bin Əffanın qətlə yetirilməsindən sonra müsəlmanların təkidi ilə İmam Əli xəlifə seçildi (656-cı ildə). O, xəlifə olandan sonra atdığı ilkin addımlardan biri bölgələrə vali təyin olunmuş bəzi kimsələri tutduqları vəzifədən azad etmək və bununlada daxili sabitliyi yaratmaq olmuşdur. İmam Əli Kufə valiliyinə xəlifə Osman tərəfindən vali təyin olunmuş Əbu Musa əl-Əşərini götürüb yerinə Ümarə bin Şihabı gətirdi. Lakin kufəlilər xəlifənin bu təyinindən xoşlanmadıqlarından onu şəhərə buraxmadılar.[3] İmam Əli Cəməl müharibəsindən əvvəl Əbu Musa Əşərini valilikdən azad edərək yerinə Qərəzə bin Kəbi gətirdi. Kufəlilər Cəməl (36/656-cı il) və Siffin (37/657-ci il) müharibələrində İmam Əlinin tərəfində iştirak etdilər. Cəməl müharibəsində 400 kufəli İmam Əlinin ordusunda iştirak edirdi. Kufə valisi Əbu Musa əl-Əşəri insanları İmam Əliyə kömək olmalarına mane olur və onları bu işdən çəkindirirdi. Bunu eşidən İmam Əli valinin məzəmmət etmək üçün onun yanına Məhəmməd bin Əbi Bəkri və Məhəmməd bin Cəfəri göndərdi. Onların ardınca kufəlilərə nəsihət etmək və onlardan orduda iştirak etmək üçün qoşun toplamağa xüsusi nümayəndələri olan Əmmar bin Yasiri, Hücr bin Ədini və oğlu Həsəni göndərdi. Onlar

[1] Cərir ət-Təbəri. Tarixil-üməm vəl-muluk. IV c. s. 48.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 309-314.
[3] Casim Avcı. İslam Ansiklopedisi. XXVI c. s. 340.

Kufəyə çatdıqda Həsən bin İmam Əli kufəlilərə xitab edərək buyurdu: “Ey kufəlilər! Mən sabah erkən buradan çıxacağam, hər kəs İmam Əlinin ordusuna qoşulmaq istəyirsə günorta vaxtı burada olsun.” Bəzi tarixi qaynaqlara görə, İmam Əli oğlu Həsəndən sonra Malik Əştəri də Kufəyə göndərdi. O, Kufə məscidinə girdikdə vali Əbu Musa Əşərinin xütbə söylədiyini və insanları Əliyə kömək etməkdən yayındırdığını gördü. Həsən bin İmam Əli Əbu Musanı minbərdə görüb dedi: “Ey anasız, minbərimizdən rədd ol!” Əbu Musa bundan sonra minbərdən düşdü və məscidi tərk etdi. Bundan sonra kufəlilərdən İmam Əlinin ordusuna qoşulanların sayı 12000-ə yetişdi.[1]

Xəlifə İmam Əli Cəməl müharibəsindən sonra (36/656) Kufəni dövlətin paytaxtına çevirdi. Onun Kufəni özünə mərkəz seçməsində orada tərəfdarlarının çox olması olmuşdursa, həm də buranın strateji mövqeyini nəzərə alaraq oradan Şam valisi Müaviyə bin Əbi Süfyanı zərərsizləşdirmək olmuşdur. Lakin təəssüflər olsun ki, Kufədə yaşayan bəzi qəbilələr Müaviyənin hiylələrinə aldanaraq İmam Əlini tərk edib Kufədən köçdülər. Sonralar Əliyə ifrat nifrət hissi ilə yaşayan və onun şəhid edilməsinə bais olan Xaricilər bu şəhərdə meydana gəldilər. Onlardan olan İbn Mülcəm 661-ci miladi ilində xəlifəni şəhid etdi.

İmamın şəhadətindən sonra bütün xilafət Müaviyə bin Əbi Süfyanın əlinə keçdi. O, 661-ci ildə dünya tarixində məşhur Əməvilər imperiyasının əsasını qoydu. Artıq bundan sonra müsəlmanların parçalanması və İslamın öz mehvərindən uzaqlaşması təhlükəsi yarandı. Müaviyə Kufəyə Müğeyrə bin Şöbəni təyin etdi. O, bir müddət bu vəzifədə çalışdıqdan sonra yerinə Ziyad bin Əbihi gətirildi. Kufənin böyüklərindən olan məşhur səhabə Hücr bin Ədiy valinin özbaşnalığını, xəlifə Müaviyənin fərmanı ilə minbərdə Əlinin söyülməsini və İmam Əli tərəfdarlarının zülmə məruz qalmasını görüb xalqı ona qarşı üsyana səslədi. Nəticədə o, Müaviyənin göstərişi ilə bir qrup tərəfdarlarla birlikdə öldürüldü (671-ci ildə).

Kufədə baş qaldırmış Xaricilər Kufə tarixinin qaranlıq səhfəsini yazanlardan oldular. Onlar tez-tez yerli əhaliyə hücumlar edir, onların dinc yaşamasını pozurdular. Nəticədə Kufəyə Müaviyə tərəfindən vali təyin olunmuş İbn Ümmül Həkəm onlarla müharibəyə başladı və 678-ci ilin sonlarında onları məğlub edib Kufə ətrafından qovdu.

Müaviyə bin Əbi Süfyanın ölümündən sonra xəlifə olan oğlu Yezid (680-683) Kufəyə Übeydullah bin Ziyadı vali təyin etdi. Qəddarlığı və Əhli-beytə düşmənliyi ilə məşhur olan İbn Ziyad şəhərdə nizam-intizam yaratdı. O, çoxlu qətlllər və həbslər hesabına Kufədə baş verə biləcək bütün üsyanları qabaqladı. Kufəlilərin Yezidə beyət etməyib Əli oğlu Hüseynə məktub yazıb ona beyət etmələri xilafətin buraya daha da nəzarətini gücləndirdi. Nəticədə Hüseyn bin İmam Əli tərəfindən vəziyyəti yerində öyrənmək üçün Kufəyə göndərdiyi əmoğlusu Müslüm bin Əqil orada şəhid edildi. Bunun ardınca Kufəyə gələn İmam Hüseyn Kufə yaxınlığında xəlifə Yezidin fərmanı və Kufə valisinin işə rəhbərliyi əsasında Kərbəla çölündə şəhid edildi (oktyabr 680). Bundan sonra Kufə camaatı Süleyman bin Surədin başçılığı altında Hüseynin qanını almaq adı altında üsyan qaldırdı. Təvvabin adını alan bu üsyan Kufə valisi İbn Ziyadın Hüseyn bin Nümeyrin sərkərdəliyi altında göndərdiyi ordu ilə yatırıldı və üsyançılar qılıncdan keçirildilər (65/685-ci ildə).

Təvvabin qiyamının ardınca Muxtar əs-Səqəfi Kufəni ələ aldı, oradakı valini qovub əhalini ətrafına topladı. 686-cı ilin avqustun 5-də Übeydullah bin Ziyadın başçılıq etdiyi ordunu Mosul yaxınlığında tərəfdarları ilə birlikdə məhv etdi.

Məkkədə özünü xəlifə elan etmiş Abdullah bin Zübeyr Bəsrəyə qardaşı Müsəb bin Zübeyri vali təyin etdi və ona xeyli qoşun verərək Kufəni almasını tapşırdı. Nəticədə Muxtarla Müsəb arasında Kufə yaxınlığındakı Hərurə məntəqəsində güclü döyüş başlandı və Muxtar bu döyüşdə şəhid oldu. Beləliklə, Kufə Abdullah bin Zübeyrin hakimiyyətinə tabe edildi. Lakin 687-ci ildə əməvi xəlifəsi Əbdülməlik bin Mərvanın ordusu Müsəb bin Zübeyri məğlub edib Kufə camaatından özünə beyət aldı. Kufədə əməvi hakimiyyəti altında formalaşan şəhərə Əbdülməlikin qardaşı Bişr bin Mərvan vali təyin olundu. O, şəhərdə yenidənqurma işlərinə başladı və bununla yanaşı, Xaricilərlə döyüşə 5000 kufəlini İbn Əşəsin komandanlığı altında göndərdi.

Bişr bin Mərvanın ölümündən sonra (694-cü ildə) Kufəyə Həccac bin Yusif vali təyin olundu. Qəddarlığı ilə məşhur olan Həccac iyirmi illik valiliyi dövründə kufəlilərə olmazın zülm və sitəmlər

[1] Bax: Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 338-339.

etdi. Onun hədəf aldığı əsas şəxslər İmam Əli tərəfdarları idi. Bu məqama diqqəti çəkən İmam Baqir onun haqqında buyurub: "Həccac bizim tərəfdarlarımızı dəhşətli şəkildə öldürür, onları günahsız töhmətləndirirdi. Hətta zındıq və kafirlər ona İmam Əlinin tərəfdarlarından daha sevimli idi." [1] Həccacın valiliyi dövründə Şəbib bin Yezid əş-Şeybaninin başçılığı altında Kufəyə Xaricilərin hücumu oldu (695-ci ildə). Həccac böyük çətinliklə də olsa bunun qarşısını aldı.

Həccac bin Yusif 702-ci ildə Kufə ilə Bəsrə arsaında Vasit adlı bir şəhər tikdirdi və valiliyin idarə olunmasını ora köçürtdü.

721-ci ildə İraqa vali təyin olunan Ömər bin Hübeyrə Kufənin təmir edilib qurulmasında xeyli iş gördü. Qaynaqlara görə, Kufə onun İraqa vali olduğu dövrdə (723-738) əmin-amanlıq dövrünü yaşadı. 738-ci ildə İraqa Yusif bin Ömər əs-Səqəfi vali təyin olundu. 740-cı ildə Hüseynin nəvəsi Zeyd bin İmam Əli Kufədə xilafətə qarşı üsyan qaldırdı. Lakin onun üsyanı amansızcasına yatrıldı. Bundan sonra Kufə 744-745-ci illərdə Zəhhak əş-Şeybaninin rəhbərliyi altında 100000-lik ordunun hücumuna məruz qaldı və Kufə onların əlinə keçdi. Bunun ardınca Kufəyə ordu göndərən əməvi xəlifəsi II Mərvan bin Məhəmməd oradan üsyançıları təmizləyib şəhəri yenidən öz hakimiyyətinə tabe etdi. Əməvilər imperiyasının süquta uğraması (749-750) nəticəsində Kufə Abbasilərin (750-1258) hakimiyyətinə tabe oldu (miladi 750-ci ildə).

Kufə əhalisinin çoxalması Əməvilər dövründə daha da artmışdır. Ziyad bin Əbihin dövründə orad əhalinin sayı 140000 nəfər, Əməvilərin son dövrlərində isə 300-350000 nəfər olmuşdur.[2] Getdikcə inkişaf edən Kufə Abbasilərin hakimiyyətinə gəlməsinədək özünü tarix səhifəsinə beləcə yazdırdı.

Nəhayət, dünya tarixində yeni bir imperiya Abbasilər xilafəti yarandı (750-ci ildə). Bundan sonra Kufə özünün uzunillik tarixini bu dövrdə yaşamalı oldu. Abbasilər dövründə Kufə şəhəri daha da inkişaf etmiş və daim xəlifələrin diqqət mərkəzində olmuşdur. Əbəs deyildir ki, Abbasi xilafətinin qurucusu olan Əbul Abbas əs-Səffah (750-754) demişdir: "Kufə elm şəhəri, İraqın üzü, parıldayan ayı, ən yaxşı səhabələrin və ən şərəfli adamların mənzilidir."

Abbasi xilafətini quran insanlar Əməvilər əleyhinə gizli siyasi qruplaşmalar yaradır və onların əleyhinə siyasi təbliğat aparırdı. Artıq 740-cı illərin sonlarına yaxın onların apardıqları bu antitəbliğat işləri yavaş-yavaş görünməyə başladı. Bu siyasi təbliğatın mərkəzi Kufə şəhəri idi. Bu haqda qaynaqlar yazırlar: Məhəmməd bin Əli Abbasi propaqandasını öncə Kufədə başlatmış, sonra da Xorasana getmişdir. Yerinə keçən oğlu İbrahim əl-İmam xəlifə II Mərvan tərəfindən həbs edildikdə qardaşı Əbülabbas əs-Səffahı yerinə imam təyin edərək Kufəyə göndərdi. Hümeyd bin Qəhtəbə və qardaşı Həsən komandası altındakı Abbasi ordusu 749-cu ilin sentyabrında Kufəni ələ keçirdi.[3] Bundan bir ay sonra ilk Abbasi xəlifəsi Əbbul Əbbas özünü Kufədə xəlifə elan edərək adına beyət aldı. O, 28 noyabr 749-cu ildə Kufə məscidində ilk xütbə oxudu. Beləliklə, Kufə şəhəri yeni bir xilafətin həyta qədəm qoyduğu tarixi bir yer oldu.

Kufə şəhəri Bağdad şəhəri salınanadək Abbasilərin mərkəzi şəhəri oldu. Bağdad şəhəri Əbu Mənsur (754-775) tərəfindən tikildikdən sonra (762-ci ildə) paytaxt oraya köçrüldüsə də Kufə öz əvvəlki əhəmiyyətini itirmədi. Ora xilafətin hərbi və daha sonra elmi mərkəzi kimi uzun illər fəaliyyət göstərdi. Xilafətin bütün yerlərindən ora elm və mərifət adamlarının axını başladı və Beləliklə, Kufə VIII-IX əsrlərdə qrammatika, kəlam, fiqh və digər elmlərin mərkəzinə çevrildi. Ərəb qrammatika tarixinin ən şanlı dövrü məhz Kufə və qonşusu Bəsrə şəhərində həmin dövrdə başlamış və mükəmməl olaraq inkişaf etdirilmişdir. Bu gün də qrammatikaya aid olan problemlərdən danışılarkən Kufəli qrammatiklər (Kufiyyun), Bəsrəli qrammatiklər (Bəsriyyun) sözləri əbəs yerə işlənmir.

815-ci ildə Abbasi xəlifəsi Məmunun düvründə (813-833) Kufədə Zeydi tərəfdarlarının lideri Əbu Abdullah bin Təbatəba qiyam etdi. O, özünü xəlifə elan edərək şəhər valisini şəhərdən qovdu. Xəlifə onun üzərinə İraq və Ərəbistan valisi Həsən bin Səhlin komandanlığı altında 10000-lik ordu göndərdi. Xilafət ordusu şəhərə daxil oldu və qiyamçılarla ağır döyüşə girdi. Bu döyüşdə xilafət ordusu məğlubiyyətə uğradı. Döyüşdə İbn Təbatəba öldürüldüsə də onunla birlikdə hərəkət edən

[1] Əllamə Əmini. Əyanüş-şiə. I c. s. 27.
[2] Casim Avcı. İslam Ansiklopedisi. XXVI c. s. 339-340.
[3] Casim Avcı. İslam Ansiklopedisi. XXVI c. s. 341.

Əbu Səraya əş-Şeybani onun yerinə İmam Əlinin soyundan olan Məhəmməd bin Məhəmməd bin Zeydi xəlifə elan etdi. Həsən bin Səhl xəlifə tərəfindən yeni bir əmr alaraq böyük bir ordu ilə yenidən Kufəyə hücum çəkdi. Lakin mövqeyini yaxşı möhkəmlədən Əbu Saraya bu dəfə də xilafət ordusunu ağır məğlubiyyətə düçar etdi. O, bundan sonra Bəsrə şəhərini də ələ keçirib öz adına pul kəsdirdi. Nəhayət Kufədə xilafət quran Əbu Sərayanın üstünə Hərsəmə bin Əyanın komandanlığı altında böyük bir ordu göndərildi. Təcrübəli sərkərdə Hərsəmə ilk öncə qiyamçıların mövqeyini və zəif yerlərini öyrədi. Nəhayət 815-ci ildə tərəflər arasında həlledici döyüş başladı. Bu döyüşdə xilafət ordusu qalib gəldi və qiyamçılar qılıncdan keçirildi. Qiyamçıların başçısı Əbu Saraya və Məhəmməd bin Məhəmməd bin Zeyd canlarını bu döyüşdən qurtarsalar da sonradan ələ keçrilib əsir alındılar. Əbu Saraya Bağdadda 815-ci ilin oktyabr ayında Həsən bin Səhlin əmri ilə edam edildi və başı kəsilib xəlifə Məmuna göndərildi. Məhəmməd isə Haşimi soyundan olduğundan edam edilməyib Xorasana Məmunun yanına göndərildi. Məmun onu ev dustağı etdi. Lakin təxminən 40 gündən sonra Məhəmməd xəlifənin əmri ilə zəhərləndirilib şəhid edildi.[1]

Kufə IX əsrdə dəfələrlə qiyamçıların üsyan mərkəzinə çevrilmişdir. Burada baş verən üsyanların demək olar ki, hamısı şiə təmayüllü olub xilafətə qarşı yönəldilmişdir. Burada 864-cü ildə Yəhya bin Ömər, 870-ci ildə Əli bin Zeyd üsyan etmişlər ki, hər iki üsyanın liderləri İmam Əlinin soyundan hesab olunurlar. Onların etdikləri bu üsyanlar nəticəsində Kufə şəhəri mərkəzi hakimiyyətdən alınıb onların əllərinə düşmüşdür.

X əsrdə Kufə şəhəri dəfələrlə böyük təhlükələrə və dağıntılara məruz qalmışdır. Belə ki, Qərmətilərin 906, 924, 927 və 937-ci illərdə Kufəyə etdikləri basqınlar nəticəsində xeyli insan tələf edilmiş, əhaliyə böyük maddi və mənəvi ziyan yetişmişdir. Qərmətilər 930-cu ildə Məkkəyə hücum edib oranı dağıtmış, Məscidülhəramı sökmüş və ziyarətə gələn hacıları qırmışlar. Onlar Kəbədəki Qara daşı yerindən götürün onu Kufəyə gətirmiş və Kufə məscidinə qoymuşlar. Qara daş Kufə məscidində xeyli müddət qalmışdır[2].

Miladın 935-ci ilində Büveyhi (935-1055) dövlətinin meydana gəlməsi və onların Bağdadı tutması (945-ci ildə) nəticəsində Kufə şəhəri nisbətən əmin-amanlıq və yeni inkişaf dövrünə başlamışdı. Büveyhilərin ən görkəmli nümayəndəsi olan Əduddövlə (949-983) hakimiyyəti altında olan şəhərlərə xüsusi diqqət yetirmiş, suvarma sistemini genişləndirmiş və şəhərlərdə böyük tikinti işləri aparmışdır. Büveyhilərin Kufə şəhərinə verdikləri xüsusi önəm nəticəsində şəhər gündən-günə inkişaf etmiş, böyümüş və orada xeyli türbələr, ziyarətgahlar və məscidlər tikilmişdir.

XII əsrin lap əvvəllərindən başlayaraq Kufə özünün tənəzzül və geriləmə dövrünə qədəm qoydu. Belə ki, 1101-1102-ci illərdə Hillə şəhərinin yeni bir mərkəz olaraq qurulması nəticəsində bütün idarəçilik sistemi yeni şəhərə köçrüldü. Bundan sonra Kufə yalnız şəhər statusunu almış bir yaşayış məskəni kimi mövcud oldu. Onun Səlcuqilər, osmanlılar və Səfəvilər dövründə heç bir siyasi və dini əhəmiyyəti qalmamışdır. Kufə osmanlılar dövründə Kərbəla vilayətinin Nəcəf qəzasına tabe olan bir şəhər oldu.

4.4. Kufədə meydana gəlmiş elmi mərkəzlər

Kufə şəhəri miladın XII əsrindən etibarən geriləmə dövrünü yaşasa da müsəlman ümməti yanında daim müqəddəs bir şəhər, elm və mədəniyyətin ocağı kimi yad ediləcəkdir. Xəlifə İmam Əlinin oranı özünə paytaxt seçməsi nəticəsində elm və mədəniyyət orada özünün ən inkişaf etmiş dövrünü yaşadı. Bundan əlavə orada olan tarixi abidələr, Kufə məscidinin həyətindəki Adəmin , Nuhun , İbrahimin və digər peyğəmbərlərin namazgahlarının olması, Həmçinin Muxtar Səqəfinin, Hani bin Ürvənin və digər şəhidlərin məqbərələrinin olması oranın qədimdən bəri əziz və müqəddəs olmasına canlılıq gətirir. Xüsusilə Kufə məscidinin qədim üslubdakı görnüşü şəhərə xüsusi mənzərə gətirməkdədir. Bu məscid xəlifə Ömərin əmri əsasında hicri 18-ci ildə (miladi 638-ci ildə) tikilmiş, daha sonralar insanlar üçün darısqallıq yaratdığından Müaviyə bin Əbi Süfyanın göstərişi və Müğeyrə bin Şöbənin rəhbərliyi ilə genişləndirilmişdir. Daha sonra Kufə məscidi Ziyad bin Əbihin vali olduğu dövrdə 20 zira artırılaraq genişləndirildi. O, məscidin divarlarını 30 zira qaldırdı. Onun

[1] Bax: Natiq Rəhimov. İslam tarixi. III hissə. Bakı, 2005. s. 118.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 298-299.

gördüyü bu işlər Həccac bin Yusifin Kufədə vali olduğu dövrdə dağıdıldı. Sonra onu müxtəlif dövrlərdə təmir etmişlər ki, onun günümüzdəki durumu qənaətbəxş hesab oluna bilər.

Kufədə ilk elmi mədrəsələrin yaranması oranın ilk qazısı olmuş Abdullah bin Məsudun adına bağlıdır. Belə ki, xəlifə Ömər bin Xəttabın əmri ilə orada ilk qazı və beytülmal sahibi olan İbn Məsud həm də dərs verməyə başlamışdı. O, hədis, təfsir, fiqh və qiraət elmlərindən dərslər verir və insanlara elm öyrədirdi. Onun və tələbələri tərəfindən əsası qoyulan İraq təfsir məktəbi də bir başa onun adı ilə bağlıdır. Çünki o, ilk dəfə olaraq Kufə məscidində ətrafına tələbələr yığmış və onları adı çəkilən elmlər sahəsində mükəmməl olaraq yetişdirmişdir. Bundan sonra Kufəni özünə paytaxt seçən İmam Əli onun inkişafında müstəsna xidmətlər göstərmişdir. Elm şəhərinin qapısı olan İmam Əli və onun oğlanları İmam Həsən və İmam Hüseyn ilahi elmlərin incəliklərini müsəlmanlara öyrədir və Kufənin mədəni səviyyədə yetişməsinə yardımçı olurdular. Onlardan sonra İmam Məhəmməd Baqirin və İmam Sadiqin Kufənin elmi cəhətdən inkişafındakı rolları danılmazdır. Xüsusilə də İmam Sadiqin Kufəyə gəlməsi, onun Əməvilərlə Abbasilərin arasındakı münaqişələr nəticəsində Əhli-beytə təzyiqlərin azalmasından istifadə edərək ətrafına 4.000-dən artıq tələbəni toplayıb onlara elm öyrətməsi xüsusilə qeyd edilməlidir. O, xilafətdə yaranmış siyasi boşluqdan faydalı şəkildə yararlanaraq Kufəyə gəlmiş, burada özünə məskən salaraq İslam aləmində ilk dəfə olaraq universitet tipli mədrəsə qurmuş və orada elmi akademik səviyyədə öyrətmişdir. Bu məqama diqqəti yönəldən Əllamə Möhsün əl-Əmin yazırdı: "Onun dövrü Əhli-beytin ən az sıxışdırıldığı dövr idi. Buna görə də onun dövründə ravilər və şiə əsər yazanları ata-babasının dövrünə nisbətən daha çox idi. Hətta İmam Rzanın əshabından olan Həsən bin Əli əl-Vəşşa deyir: "Kufə məscidində doqquz yüz şeyx gördüm ki, hamısı Cəfər bin Məhəmməddən hədis rəvayət edirdi."[1]

Görkəmli alim İbn Şəhraşub (1095-1192) yazırdı: "İmam Sadiqdən səhabələrdən Cabir bin Abdullah, Cəfi, Keysan əs-Səxtiyani, fəqihlərdən İbn Mubarək, Zuhri, Əhvazi, Əbu Hənifə, Malik, Şafei, Ziyad bin Münzir ən-Nəhdi, musənniflərdən Təbəri, Bəlazuri, Xətib öz tarix kitablarında Əbu Davud sünən, Əbu Hənifə əl-Mərvəzi müsnəd, Nəqqaş və Zəməxşəri təfsirdə, Səmani usulil-hədis və risaləsində rəvayətlər etmişlər."

Onun haqqında Əbu Hənifə (öl. 767) demişdir: "Mən Cəfər bin Məhəmməddən elmli şəxs görməmişəm."[2]

Malikilik məzhəbinin banisi Malik bin Ənəs (712-795) isə İmam Sadiq haqqında deyir: "Bir müddət Cəfər bin Məhəmmədin yanına gedib-gəlirdim. Onu daima bu üç halda gördüm: ya namaz qılırdı, ya oruc tuturdu, ya da Quran oxuyurdu."[3]

İbn Həcər əl-Heysəmi (1503-1566) isə deyir: "Ondan o qədər elm söylənilmişdir ki, artıq bütün müsəlmanların yanında məşhur olmuş, onun səs-sədası hər tərəfə yayılmış, fiqh və hədis aləminin böyük rəhbərlərindən olan Yəhya bin Səid, İbn Cərih, Malik, Süfyan Səvri, Süfyan bin Uyeynə, Əbu Hənifə, Şöbə və Əyyub Sicistani kimi şəxslər ondan hədis söyləmişlər."[4]

İmam Sadiqin Kufədəki elmi fəaliyyəti bir çox dünyəvi elmlər sahəsində də özünü göstərmişdir. Belə ki, onun tələbəsi Cabir bin Həyyan kimya elminin banisi olmuşdur. Mötəbər qaynaqlara görə o, kimya elmini İmam Sadiqdən almış və bu sahədə 150-ə yaxın əsər yazmışdır. Buna görə də dünyada kimya elminin banisi məşhur İslam alimi Cabir bin Həyyan hesab olunur. Onun latınlaşdırılmış adı Heberdir. Onun adına olan "Heber traktatlar" əsərlərdən məşhuru "Yetmişlərin kitabı"nın son fəsilləridir.

İmam Sadiqin elmi fəaliyyətlərinə yüksək qiymət verən görkəmli İslam alimi İbn Əbil Hədid yazırdı: "Dörd məzhəbin imamlarının fiqhdəki elmləri ona qayıdır."[5] İmam Sadiq hədis və fiqh elmlərinin inkişafında da böyük əmək sərf etmişdir. O, mədrəsəsindəki tələbələrinə deyirdi: "Hədis öyrənməzdən əvvəl doğru danışmağı öyrənin." Həmçinin buyurmuşdur: "Yazın! Çünki yazmasanız

[1] Əllamə Əmini. Əyanüş-şiə. I c. s. 100.
[2] Şəmsəddin əz-Zəhəbi. Təzkirətül-hüffaz. I c. s. 166.
[3] İbn Həcər əl-Əsqəlani. Təhzibüt-təhzib. I c. s. 88.
[4] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 201; Mehdi Pişvayi. Məsum İmamların həyatı. s. 190.
[5] İbn Əbilhədid. Şərhu Nəhcil-bəlağə. I c. s. 6.

öyrənə bilməzsiniz. Öyrəndiklərinizi isə müsəlman qardaşlarınıza öyrədin. Əgər siz ölsəniz onlar elmi sizdən miras aparsınlar. Sizin yazdıqlarınız övladlarınız üçündür."

İmam Sadiqin məktəbini bitirmiş və ondan hədis rəvayət edənlərdən aşağıdakıları qeyd etmək olar:

1. Adəm bin Hüseyn.
2. Adəm bin Sübh.
3. Əban bin Əbi Müsafir.
4. Əban bin Ərqəm.
5. İbrahim bin Əbil Məsna.
6. İbrahim bin Əhməri.
7. İbrahim bin Zəbrəqan.
8. Əban bin Təğlib.
9. Hişam bin Həkəm.
10. Hişam bin Salim və b.[1]

Kufədə meydana gəlmiş elmi mərkəzlərdən biri dilçilik məktəbləridir. Miladın VIII və IX əsrlərində Kufə şəhəri ilə Bəsrə şəhəri ərəb dilinin mərkəzi hesab olunurdu. Əbəs deyildir ki, bu günədək işlənən "Kufəli qrammatiklər" və "Bəsrəli qrammatiklər" anlayışı ərəb dilçiliyi tarixində mühüm əhəmiyyət kəsb edir və bu məktəbləri təhlil etmədən, öyrənmədən ərəb dili haqqında mükəmməl məlumat əldə etmək mümkün deyildir. Kufə qrammatika məktəbinin təməlinin qoyulmasında da İmam Əlinin rolu danılmazdır. Ümumiyyətlə əksər ərəb filoloqlarının və Avropa şərqşünaslarının verdikləri məlumata görə İmam Əli bütövlükdə ərəb dili qrammatikasının banisi hesab olunur. Nəhv adlanan ərəb qrammatikası İmam Əlinin adına bağlıdır. Bu haqda İbn Əbil Hədid yazırdı: "Nəhv və dilçilik elmlərinin ilk dəfə İmam Əli tərəfindən qoyulmasını hamı bilir. Hər kəsə məlumdur ki, o, Əbüləsvəd əd-Düvəliyə bu elmin əsaslarını yazdırmışdır. Onun yazdırdığı yazıda kəlmələr üç qismdir: isim, fel və hərf. Həmçinin o, kəlmələri mərifə (məlum) və nəkərə (qeyri-məlum) olmaqla iki yerə bölmüşdür. Erabın qismlərini isə nəsb, rəf, cərr və cəzm olmaqla dörd yerə ayırmışdır."[2]

Nəhv elminin İmam Əli tərəfindən yaradılması hədis alimlərinin də yanında məşhurdur. Belə ki, Şeyx Müfid, Seyid Mürtəza və digər hədis alimləri öz məşhur əsərlərində belə bir hədis nəql edirlər: "Əbüləsvəd İmam Əlinin yanına daxil olarkən həzrət ona bir yazılı vərəqə uzadır. Həmin vərəqənin içərisində: "Bismillahir-Rəhmanir-Rəhim. Kəlam üç qismdir: isim, fel və hərf. İsim ad, fel hərəkət bildirir, hərf isə başqaları ilə işlənməzsə, məna bildirməz"sözləri yazılmışdır. Əbüləsvəd ya Əmirəlmuminin bu kəlmələr gözəldir, amma məni burada ayaq üstə saxlamağını və onların üzərinə nə əlavə edəcəyimi bilmirəm. Həzrət ona buyurdu: mən eşitmişəm ki, sizin bölgənizdə dilin qrammatik xüsusiyyətlərini gözləmədən danışan insanlar var. İstəyirəm bir kitab hazırlayam ki, onun vasitəsiylə ərəb kəlmələrini onların kəlmələrindən seçmək mümkün olsun. Əbüləsvəd: Allah sizi müvəffəq etsin ey Əmirəlmöminin dedi."[3] Beləliklə, ilk təməli İmam Əli tərəfindən atılan ərəb qrammatika elmi onun tələbəsi Əbüləsvəd tərəfindən inkişaf etdirildi. O, ilk dəfə olaraq "Üsulun-nəhvil-ərəbi" əsərini İmam Əlidən aldığı təlimlər əsasında yazdı. Görkəmli ərəb qrammatiki İbn Faris yazırdı: "Ərəb dili və əruz elmləri qədimdə də məlum idi. Zamanə alimləri dünyadan köçdükcə, onlar da öz əhəmiyyətini itirib məhdudlaşdı. Sonra Əbüləsvəd əd-Düvəli gəlib ərəb dili elmini, Xəlil isə əruz elmini bərpa etdi."[4]

Kufədə nəhv elminin əsasını Əbu Cəfər Məhəmməd bin Həsən bin Əbi Sarə ər-Ruasi əl-Kufi qoymuşdur. İbn Nədim əl-Fihrist əsərində yazırdı: "Doğrudan da ər-Ruasi kufəlilərdən ilk dəfə olaraq nəhv haqqında kitab yazmışdır."

ər-Ruasi tərəfindən əsası qoyulan Kufə qrammatika məktəbi sonralar daha da inkişaf mərhələsinə qədəm qoymuşdur. O, nəhv elminin inkişafında böyük rol oynayaraq bu elm sahəsində

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 346-399.
[2] İbn Əbilhədid. Şərhu Nəhcil-bəlağə. I c.
[3] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. I c. s. 132.
[4] İbn Faris. əs-Sahibi fi fiqhul-lüğə. Qahirə, 1910. s. 10.

böyük şəxsiyyətlər yetişdirmişdir. Kufə qrammatika məktəbinə aid olan ən məşhur alimlərdən aşağıdakıları qeyd etmək olar.

1. Əbülhəsən Əli bin Həmzə əl-Kisai (öl. 805). O, "İmamün-nəhviyyin" ləqəbi ilə tanınmış və öz dövründə nəhv elmi sahəsində insanların əl biliklisi hesab edilmişdir. Onun haqqında əl-Ərəbi deyir: "əl-Kisai ərəb dili sahəsində insanların ən biliklisi idi." Mənbələrə görə, Kisai ölən zaman "Nəhv elmi dəfn edildi" sözləri deyilmişdir.

2. Müaz bin Müslüm əl-Hərra əl-Kufi ən-Nəhvi. O, nəhv elminin böyüklərindən hesab olunur. Onun bu elmə aid çoxlu əsərləri olmuşdur. Həmçinin o, sərf (morfologiya) elminin banisidir. Çünki o, ilk dəfə olaraq sərf istilahını işlətmiş, onu nəhvdən ayıraraq müstəqil şəkildə öyrənmiş və hüdudlarını göstərmişdir.

3. Yəhya bin Ziyad əl-Əta əl-Fərra əl-Kufi (öl. 822). O, Kisainin tələbəsi olmuş və əl-Fərra ləqəbi ilə tanınmışdı. əs-Səmani onun haqqında deyir: "Fərraya nəhvdə Əmirəlmömininin deyilmişdir." əl-Fərra kəlmələri çox incələmiş və dilə yeniliklər gətirmişdir. Sələbi onun haqqında deyir: "Əgər Fərra olmasaydı, ərəb dili olmazdı. Çünki o, ərəb dilini xilas etmiş, möhkəmləndirmişdir."

4. Əhməd bin Fars əl-Lüğəvi. O, "Mücməl" adlı məşhur əsərin müəllifidir. "Bəqiyyətül-Viat" kitabının müəllifi onun kufəlilərin yolu ilə getdiyini adı çəkilən əsərdə qeyd etmişdir. əl-Lüğəvinin "Müqəddimə fin-nəhv", "Fiqhül-lüğə" və "İxtilafün-nəhviyyin" adlı əsərləri vardır.

5. Hüseyn bin Əhməd bin Xaləveyh ən-Nəhvi. O, İbn Dəridin şagirdi olmuşdur. Onun haqqında "Büğyətül-via" əsərində yazılıb: "Onun lüğət, ərəb dili, ədəbiyyat və digər elmlər sahəsində əsərləri var. O, öz dövründə yeganə şəxsiyyət olmuş və dünyanın müxtəlif bölgələrini dolaşmışdır." əd-Dani onun haqqında deyir: "O, ərəb dili elmində alim, lüğət elmində isə hafizdir." Rical əsərlərində onun haqqında çoxlu məlumatın olduğu və İmamlar haqqında dəyərli əsərlər yazdığı qeyd edilmişdir.[1] Onun "əl-Cümal fin-nəhv", "Kitab fil-lüğə", "Şərhüd-Dəridiyyə" adlı əsərləri vardır.

6. Əbülabbas Əhməd bin Yəhya bin Zeyd Sələb.

7. Əbu Musa Süleyman bin Məhəmməd əl-Hamiz (öl. 918).

8. Əhməd bin Məhəmməd bin Abdullah əl-Məbədi (öl. 905).

9. Cəfər bin Ənbəsə Əbu Məhəmməd əl Yəşkəri (öl. 888).

10. Übeydə bin Həmid əl-Hizai (öl. 803).

11. Əli bin Mübarək əl-Əhmər (öl. 807).

12. Hişam bin Müaviyə əz-Zərir (öl. 822) və s.[2]

Kufə şəhəri eyni zamanda ədib və şairlər bölgəsi kimi də məşhurdur. Burada çoxlu sayda ərəb ədəbiyyatında özünəməxsus yer qazanmış şair və ədiblərin yaşayıb yaratmışlar. Onlardan aşağıdakıları qeyd etmək olar.

1. Əbu Dilamə əl-Əsədi Zeyd bin Cun (öl. 762 161 h).

2. Əbul Ətahiyə İsmail bin Qasim (öl. 812).

3. Həmad Əcrəd bin Ömər bin Yunis (öl. 762).

4. Həmmad Raviyə bin Meysərə Deyləmi (öl. 756).

5. Həmzə bin Beyz əl-Hənəfi (öl. 719).

6. Şərik bin Abdullah ən-Nəxəi (öl. 777).

7. Tərmah bin Həkim ət-Tai (öl. 701).

8. Debəl əl-Xuzai (öl. 958).

9. Qeys bin Əmr ən-Nəcaşi.

10. Məti bin İyas əl-Ərəbi (öl. 767).[3]

Kufə şəhəri Həmçinin Quran qarilərinin yetişdikləri mərkəz olmuşdur. Burada qiraət elminin görkəmli şəxsləri yetişmişlər onlardan aşağıdakıları qeyd etmək olar

1. Əli bin Həmzə əl-Kisai.

2. Əbu İshaq əs-Səbi.

[1] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. I c. s. 164.

[2] Geniş məlumat üçün bax: Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 325-329.

[3] Geniş məlumat üçün bax: həmin mənbəyə. XV c. s. 322-328.

3. Asim bin Bəhdələ.
4. Həfs bin Süleyman.
5. Əbu Bəkr bin Əyyaş və b.[1]

Hazırda Kufə şəhəri Nəcəf şəhəri ilə aralarında olan 10 km. Məsafənin olmasına baxmayaraq hər iki şəhərin böyüdülməsi nəticəsində bir-birlərinə bitişmişdir. Bu şəhərin 2002-ci ildəki əhali sayı 115000 nəfər olmuşdur. Təəssüflər olsun ki, ABŞ-ın İraqda apardığı işğalçılıq siyayəsəti və bunun da nəticəsində törədilən qətl-amlar Kufə şəhərindən də yan keçməmişdir. ABŞ-ın bəzi Qərb dövlətləri ilə İraqı işğal etməsi nəticəsində Kufədə bir çox dini-tarixi abidələr dağıdılmış və ya tamamilə məhv edilmişdir.

4.5. Kufə şəhərinin fəzilətləri

Kufə şəhəri hədisi-şəriflərdə müqəddəs bir şəhər kimi vəsf olunur. Hədis ədəbiyyatı kitablarında buna aid çoxlu sayda hədis vardır. Bu hədislərin bir hissəsi Peyğəmbərin dilindən, digər hissəsi isə məsum imamların dilindən nəql olunmuşdur. Kufə şəhərinin tikilməsi hər nə qədər Peyğəmbərin vəfatından sonrakı dövrə aid edilsə də onun Adəmdən və Nuhdan bəri mövcud olduğunu və Həmçinin Adəmin , Nuhun , Salehin və digər peyğəmbərlərin qəbirlərinin orada olması onun qədim bir müqəddəs şəhər olmasından xəbər verir.

Həzrət Peyğəmbər buyurur: "Allah yer üzündə dörd şəhər seçmişdir: **" vət-Tin vəz-Zəytun. Və Turi Sinin. Və hazəl-Bələdil-Əmin."**[2] **Tin** Mədinə, **Zeytun** Beytülmüqəddəs, **Turi Sinin** Kufə, **Bələdi Əmin** Məkkə."[3]

İmam Əli buyurur: "Dörd tikili Cənnət qəsrlərindəndir: Məscidülhəram, Məscidür-Rəsul, Məscidül-Kufə və Məscidüləqsa."

İmam Sadiq buyurur: "Allah bizim vilayətimizi şəhərlər əhlinə göstərib təklif etdi, onu Kufə əhlindən başqa kimsə qəbul etmədi."

Digər bir hədisində buyurur: "Bizim vilayətimiz göylərə, yerlərə, dağlara və şəhərlərə göstərilib təklif edildi, amma onu Kufə əhlindən başqa kimsə qəbul etmədi."

Peyğəmbər Əliyə buyurdu: "Allah sənin vilayətini göylərə göstərib təklif etdi, onu yeddinci göy hamısından əvvəl qəbul etdi, buna görə də onu ərşlə zinətləndirdi. Ondan sonra dördüncü göy hamıdan tez qəbul etdi, buna görə onu Beytülməmurla zinətləndirdi. Sonra onu dünya səması qəbul etdi, buna görə onu ulduzlarla zinətləndirdi. Sonra vilayətini yerlərə göstərib təklif etdi, onu Məkkə hamısından əvvəl qəbul etdi və buna görə Kəbə ilə zinətləndirdi. Sonra Mədinə hamıdan qabaq qəbul etdi və mənimlə zinətləndirdi. Ondan sonra Kufə hamıdan önə keçdi və sənlə zinətləndirdi. Sonra onu Qum hamısından öncə qəbul etdiyindən ərəblərlə zinətləndirdi və ona Cənnət qapılarından bir qapı açdı."

Həzrət Peyğəmbər digər hədisində buyurur: "Allah Kufəni digər şəhərlərə, onun möminlərini isə digər bölgələrin möminlərinə dəlil gətirdi. Sonra Qum şəhərini və oranın möminlərini məşriqə, məğribə cinlərə və insanlara dəlil göstərdi."

Digər bir hədisində isə belə buyurur: "Bəlalar hər yeri əhatə edəndə Kufə və onun ətrafı amanda olacaqdır."

Bəni-Abbasın fitnələrindən danışarkən ravi soruşdu: "Köməklik və qaçış haradadır?" Həzrət buyurdu: "Kufəyə, Quma və onların ətraflarına."

Həmçinin buyurur: "İmam Əlinin hərəmi Kufədir."

Digər bir hədisdə buyurmuşdur: "Allah bütün bölgələr içərisində Kufəni, Qumu və Tiflisi seçmişdir."

Ravi deyir: "Bir gün İmam Sadiqin yanındaydım. Kufədən olan iki kişi içəri girdi. Onlar bizim əshabımızdan idi. İmam mənə dedi: "Bunları tanıyırsanmı?" Dedim: "Bəli, Sizin dostlarınızdandır." İmam dedi: "həmd olsun Allaha ki, İraqda bizim dostlarımızı parlaq etmişdir."[4]

---

[1] Geniş məlumat üçün bax: Casim Avcı. İslam Ansiklopedisi. XXVI c. s. 342.
[2] ət-Tin surəsi, ayə 1-2-3.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 298. Hədis № 2; Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 295.
[4] Bütün hədislər Əllamə əl-Hairinin "Dairətül-məarif" (XV c. s. 295-296) əsərindən götürülüb.

İmam Əli buyurur: “Kufə elə bir yerdir ki, nazil olanlar ora nazil olar, hadisə törədənlər orada hadisə törədər və orada zalımlar hakimiyyət sürərlər. Allah da Kufənin fəzilətinə görə onların boyunlarını qırıb onları həlak edər. Orada elə bir zülm edən olmamışdır ki, Allah ondan intiqam almamış olsun.”

Digər bir hədisində buyurur: “Mən səninləyəm ey Kufə! Səndə zülm edən elə bir kimsə olmadı ki, Allah onu bəlaya giriftar etməsin.”

İmam Sadiq buyurur: “Kufənin torpağı bizi sevir, biz də onu sevirik. Allahım onu əlindən buraxanı tərk et və ona düşmən olana düşmən ol.”[1]

İbn Əbil Hədid yazırdı: “Kufə əhlinin fəzilətləri barədə Əhli-beytdən çoxlu sayda hədis nəql olunmuşdur. Hər kəs orada zülm və təkəbbürçülük törədibsə, Allah onu bəlaya giriftar etmişdir. Bir gün insanlar İmam Əlinin lənətlənməsinə görə məscidə toplaşmışdılar. Məscidin xidmətçisi çıxıb onlara dedi: “qayıdın gedin!” əmir məşğuldur. O, həmin an iflic olub qaldı. Übeydullah bin Ziyad cüzam xəstəliyinə düçar oldu. Yusif bin Həccacın qarnında qurd əmələ gəldi ki, onunla da həlak oldu. Əmr bin Hübeyrə və oğlu Yusif xora xəstəliyinə tutuldu. Xalid əl-Qəsəri həbs olunub orada da öldü. Orada qətl törədənlərə gəldikdə isə, İbn Ziyad, İbn Zübeyr, Əbu Saraya və Zeyd bin Mehləb, onların hamısı öldürüldü.”

İmam Əli buyurur: “Kufədə zülm və pisliklər edəni Allah həlak edəcəkdir.”

Həmçinin buyurur: “Məkkə Allahın hərəmi, Mədinə Peyğəmbərin hərəmi, Kufə də mənim hərəmimdir. Zülm edən şəxs ora gəlib zülm etsə, Allah onu həlak edəcəkdir.”[2]

Digər bir hədisində isə buyurur: “Kufənin arxasından Qiyamət günü yetmiş min adam həşr olunacaqdır ki, onların üzləri ay kimi parıldayacaqdır.”[3]

İmam Əli buyurur: “Kufə məscidində bir namaz min namaza, orada xərclənən bir dirhəm isə min dirhəmə bərabərdir.”[4]

Əllamə Məclisi İmam Əlinin Kufənin fəzilətləri haqqında danışarkən belə buyurduğunu yazırdı: “Kufə məscidində yetmiş peyğəmbər, yetmiş isə peyğəmbər vəsisi namaz qılmışdır. O vəsilərdən biri də mənəm.”[5] Müəllif adı çəkilən əsərdə İmam Cəfər Sadiqdən rəvayət etdiyi digər bir hədisdə isə orada yetmiş min Peyğəmbərin namaz qıldığını yazır.[6]

Kufədə olan müqəddəs məkanlardan biri Kufə məscidinin yanında yerləşən Səhlə məscididir. Bu məscidin fəzilətləri və üstünlükləri haqqında çoxlu sayda Məsumlardan hədislər nəql olunmuşdur. Səhlə məscidini Kufədə yerləşməsi də bu şəhərin fəziləti üstünə bir fəzilət də əlavə etməkdədir. Bu məscidin fəzilətləri haqqında İmam Sadiq səhabəsi Əbu Bəsirə buyurur: “Ey Əbu Bəsir! Sanki mən Sahibul-Əmrin Səhlə məscidində zühur etdiyini və orada məskunlaşdığını görürəm.”[7]

Əbu Bəkr əl-Həzrəmi yazırdı: “İmam Baqirə dedim: “Allahın və Peyğəmbərin hərəmindən sonra hansı yer daha üstündür?” O, buyurdu: “Kufə. Ey Əbu Bəkr! Ora pak-pakizədir, orada peyğəmbərlərin, mürsəllərin və qeyri-mürsəllərin, sadiq vəsilərin qəbirləri vardır. Orada Süheyl məscidi vardır ki, Allah elə bir peyğəmbər göndərməyib ki, orada namaz qılmamış olsun. Orada Allahın ədaləti zahir olacaq, ondan sonra orada qiyamı və tərəfdarları olacaqdır. Ora peyğəmbərlərin, vəsilərin və salehlərin mənzilidir.”[8]

İmam Sadiq buyurur: “Kufə Allahın, Peyğəmbərin və Əbu Talib oğlu Əlinin hərəmidir. Orada qılınan bir namaz min namaza, xərclənən bir dirhəm isə min dirhəmə bərabərdir.”[9]

Əbu Həmzə əs-Sumali rəvayət edir: “Əli bin Hüseyn Mədinədən birbaşa Kufə məscidinə gəldi, orada iki rəkət namaz qıldı və sonra da yoluna düzəlib getdi.”[1]

---

[1] Həmin mənbə.
[2] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 10. Hədis № 7032.
[3] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 296.
[4] Məhəmməd bin Cəfər əl-Məşhədi əl-Hairi. Fəzlül-Kufə və məsaciduha. Beyrut, Darül-Mürtəza. Tarixsiz, s. 12.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 58.
[6] Həmin mənbə.
[7] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 10. Hədis № 7068.
[8] Həmin mənbə. VI c. s. 19. Hədis № 7068.
[9] Həmin mənbə. VI c. s. 19-20. Hədis № 7069; Məhəmməd bin Cəfər əl-Məşhədi əl-Hairi. Fəzlül-Kufə və məsaciduha. s. 12.

İmam Sadiq buyurur: "Əgər insanlar bilsəydilər ki, orada nə vardı ən uzaq məkanlardan ora gələrdilər. Orada bir vacib namaz bir həccə, nofilə namazı isə bir ümrəyə bərabərdir."[2]

Əsbəğ bin Nübatə Əlidən rəvayət edir: "Bu məsciddə qılınan nofilə namaz Peyğəmbərlə birlikdə ümrə etməyə, vacib namazı qılmaq isə Peyğəmbərlə birlikdə həcc etməyə bərabərdir."[3]

İmam Sadiq buyurur: "Elə bir saleh bəndə və elə bir peyğəmbər olmamışdır ki, Kufə məscidində namaz qılmamış olsun. Hətta Peyğəmbər meraca gedərkən Cəbrail ona dedi: "Ey Allahın Rəsulu! Sən bilirsənmi indi hardasan? Sən Kufə məscidinin müqabilindəsən." Peyğəmbər dedi: "Rəbbimdən mənə icazə al ki, orada iki rükət namaz qılım." Allah ona icazə verdi. Onun sağında və arxasında Cənnət bağlarından bir bağ vardır. Orada qılınan vacib namaz min namaza, nofilə namazı isə beş yüz namaza bərabərdir. Orada zikrsiz və tilavətsiz oturmaq belə ibadətdir. Əgər insanlar bilsəydilər orada nə var ora getməyə zəiflik göstərməzdilər."[4]

İmam Sadiq səhabəsi Əbu Həmzə Sumaliyə dedi: "Ey əbu Həmzə! Sən əmimi gecə vaxtı çıxdığını gördünmü?" Dedi: "Bəli" Dedi: "O, Süheylə məscidində namaz qıldımı?" Əbu Həmzə dedi: "Süheylə məscidi haradadır? Yəqin siz Səhlə məscidini deyirsiniz?" İmam buyurdu: "Bəli." Orada İbrahimin Əmaliqələrə tərəf çıxdığı evi, İdrisin yazı yazdığı evi və yaşıl qaya vardır ki, orada bütün peyğəmbərlərin surətləri vardır. O qayanın altında Allahın peyğəmbərləri yaratdığı torpaq vardır..."[5]

Həmçinin buyurur: "Kufə məscidində bir namaz min namaza bərabərdir."[6]

İmam Sadiq yenə buyurur: "Məscidlər dörddür: Məscidülhəram, Məscidür-Rəsul, Məscidu Beytülmüqəddəs və Məscidül-Kufə. Ey Əbu Həmzə! Orada qılınan vacibi namaz həccə, müstəhəbb namaz isə ümrə savabına bərabərdir."[7]

Kufə məscidinin fəzilətlərinə aid olan xəbərlərdən biri müsafir olan şəxsin burada, daha doğrusu Kufə məscidində namazlarını ixtiyari olaraq qəsr və ya bütöv qıla bilməsidir. Səhih rəvayətlərdən də gördüyümüz kimi, burada qılınan namazın savabı qəbul olunmuş bir həccin savabına, başqa yerlərdə qılınan namazın isə min rukətinə bərabərdir. Həmçinin mötəbər rəvayətlərə əsasən, burada Adəm , İbarahim və digər peyğəmbərlər namaz qılmış, burada onlarla yanaşı Cəbrailin məqamı var,[8] dünyanın sonunda isə İmam Mehdi də zühur edib orada namaz qılacaqdır. Bu məscidin İslamda özünəməxsus yeri və məqamı vardır ki, bu haqda Höccətul-İslam Əbdürrəhman Yusifpur yazırdı: "Kufə şəhərinin özünəməxsus tarixi məqamları vardır. Onlardan bir neçəsini yada salaq:

Onlardan biri "Dəkkatül-qəza"dır. Bu həmin yerdir ki, İmam Əli burada əyləşib camaat üçün məhkəmə qurardı. Burada Adəm , Nuh Peyğəmbərin məqamları vardır.

Məsum imamlarımızdan İmam Əlinin , İmam Cəfər Sadiqin və İmam Zeynülabidinin məqamları vardır. Bu məqamlar mehrab şəklindədir."[9]

Digər bir hədisdə isə deyilir: "Allah yer üzünə elə bir peyğəmbər göndərməyib ki, o, Səhlə məscidində namaz qılmamış olsun. Hər kəs bu məsciddə qərar tutsa, sanki Peyğəmbərin xeyməsində qərar tutmuşdur."[10]

Mənbələrdə qeyd edilir ki, bu məscidi ziyarətə gələn elə bir mömin olmaz ki, o, öz mətləbinə çatmamış olsun. Elə bir gecə-gündüz yoxdur ki, Mələklər gəlib orada namaz qılmamlş olsunlar. Burada İmam Zeynülabidinin və İmam Mehdinin məqamları yerləşir.[11]

---

[1] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 20. Hədis № 7070.
[2] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 20. Hədis № 7071.
[3] Həmin mənbə. Hədis № 7072.
[4] Həmin mənbə. Hədis № 7073.
[5] Həmin mənbə. s. 23. Hədis № 7087.
[6] Həmin mənbə. s. 20. Hədis № 7074.
[7] Şeyx əs-Səduq. əl-Fəqih. I c. s. 70. Kitabüs-salat. Hədis № 684.
[8] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 20-21. Hədis № 7076.
[9] Əbdürrəhman Yusifpur. Məşhəd və Kərbəla ziyarəti. Tərc.: Cavanşir Əhmədov. Bakı, 1997.
[10] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 10. Hədis № 7068.
[11] Əbdürrəhman Yusifpur. Məşhəd və Kərbəla ziyarəti.

Həmçinin İmam Sadiqin : “Dərdli-bəlalı şəxsin bu məscidə pənah gətirərsə, orada iki rükət axşam namazları arasında namaz qılarsa, onun dərdi-qəmini Allah aradan gedər” deyə buyurduğu nəql edilir.[1]

Əli bin Hüseyn buyurur: “Allah hər gecə bir mələki Cənnətin müşk-ənbəri ilə dolu olan üç qabla yerə endirir və onunla Fəratı ətirləyir. Yer üzünün nə Şərqində nə də Qərbində elə bir çay yoxdur ki, Fərat kimi bərəkətli olsun.”[2]

İmam Sadiq buyurur: “Əgər Fəratın yanında olsaydım, günün hər iki tərəfində (səhər-axşam) ora gedərdim.”[3]

İmam digər bir hədisində buyurur: “Kufədə bir dirhəm sədəqə etmək digər yerdə yüz dirhəm xərcləməyə bərabərdir. Orada bir rükət namaz yüz rükət namaza bərabərdir. Hər kəs istəyirsə, Cənnət suyundan dəstəmaz alsın, içsin və onunla qüsl etsin, ona Fərat çayını tövsiyə edirəm. Çünki onda Cənnətin iki yeraltı çayı vardır. Cənnətdən hər gecə Fərata müşk-ənbərlə dolu iki qab endirilir.”[4]

Kufə haqqında varid olmuş hədislərin bir hissəsi İmam Mehdinin qiyamı ilə əlaqədar olan və qiyam zamanı bu şəhərin oynadığı rol haqqındadır. Bu haqda həm Peyğəmbərimizdən həm də məsum imamlarımızdan çoxlu sayda hədis nəql olunmuşdur. Həmin hədislərdə İmamın zühuru zamanı baş verəcək təbi və ictimai hadisələr öz əksini tapmışdır. Həmin hədislərdən aşağıdakıları qeyd etmək olar.

İmam Əli buyurur: “Qara bayraqlılar Xorasandan Kufəyə gələcəklər. Mehdi zühur etdikdə isə beyət orada olacaqdır.”[5]

“Süfyaninin [6] süvariləri Xorasan əhlini axtarmağa gələr və Kufədə Ali-Məhəmməd tərəfdarlarını öldürərlər. Sonra Xorasan əhli həzrət Mehdini axtarmaq üçün çölə çıxar.”

İmam Baqir buyurur: “Sanki mən Süfyanini görürəm ki, sizin yam-yaşıl olan ölkəniz Kufədə məskən salmışdır. Onun carçısı nida edib deyir: Hər kəs İmam Əli tərəfdarlarından birinin başını kəsib gətirsə, min dirhəm mükafat alacaqdır. Bu zaman qonşu qonşuya hücum edər və deyər ki, bu kəs onlardandır, sonra onun başını kəsib min dirhəm mükafat alar. Agah olun ki, belə bir gündə sizə haramzadələr rəhbərlik edəcəkdir. Sanki indi niqablı bir şəxsi görürəm.”[7]

İmam digər bir hədisində buyurur: “Süfyaninin süvariləri Xorasan əhlini axtarmağa gələr və Kufədə Ali-Məhəmməd tərəfdarlarını öldürərlər. Sonra Xorasan əhli həzrət Mehdini axtarmaq üçün çölə çıxar.”[8]

İmam Sadiq İmam Mehdinin zühuru haqqında danışarkən dedi: “Onun hakimiyyət yeri Kufə, qəzavət kürsüsü o şəhərin Came məscidi, beytül-malı və qənimətləri bölüşdürdüyü yar Səhlə məscidi, istirahət və Allaha razi-niyaz etdiyi yer Qəriyyənin ağ təpələridir. Allaha and olsun elə bir mömin qalmayacaqdır ki, orada və onun ətrafında yaşamamış olsun.”[9]

İmam Sadiq buyurur: “Yüz otuz min nəfər Kufəyə göndərilərək Rovhada və Faruqda, altmış min nəfəri isə oradan hərəkət edib Kufədəki Nuxeylədə - Hudun qəbrinin yanında düşərgə salacaqdır.”[10]

---

[1] Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 23. Hədis № 7077.

[2] Məhəmməd bin Cəfər əl-Məşhədi əl-Hairi. Fəzlül-Kufə və məsaciduha. s. 13.

[3] Həmin mənbə.

[4] İbn Əsakir. Tarixi-İbn Əsakir. I c. s. 45.

[5] Şeyx ət-Tusi. əl-Ğeybə. s. 274; Seyid Məhəmməd əs-Sədr. Məta yəzhərül-Mehdi (ə). s. 32. Bu rəvayəti Əbu İsa ət-Tirmizi “Qara bayraqlılar Xorasandan çıxarlar, onların qarşısın kimsə ala bilməz və onlar bayraqlarını İlyaya (Qüdsə) sancarlar”, şəklində də rəvayət etmiş və sənədi haqqında “qərib həsəndir” demişdir. (Bax: “Sünəni-Tirmizi”. III c. s. 362).

[6] Süfyani İmam Mehdinin hərakatı zamanı peyda olan və İmamla əks cəbhədə dayanıb onunla düşmənçilik edən şəxsdir. Onun Süfyani adlanmasının səbəbi isə Əbu Süfyanın övladlarından olmasıdır. (Süfyani haqqında bax: Əli Kurani. “Zuhur Əsri”, s. 82-dən sonra. Həmçinin Hakim ən-Nisaburi “əl-Müstədrək ələs-Səhiheyn”, IV c. s. 482).

[7] Şeyx ət-Tusi. əl-Ğeybə. s. 273; Əllamə əl-Məclisi. Biharül-ənvar. LII c. s. 190; Seyid Məhəmməd əs-Sədr. Məta yəzhərül-Mehdi (ə). s. 145.

[8] Əli Kurani. Zühur əsri. s. 87.

[9] Əllamə əl-Məclisi. Biharül-ənvar. LII c. s. 11-12.

[10] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 297; Əllamə əl-Məclisi. Biharül-ənvar. LII c. s. 219.

İmam Süfyaninin xurucundan danışarkən buyurdu: “Bu zaman əcəmdən və Kufə əhlindən olan bir kişi zəif bir qrupla qiyam edəcək, Süfyani ordusunun sərkərdəsi onu Hirə-Kufə arasında qətlə yetirəcəkdir.”[1]

İmam Baqir buyurur: “Süfyani sayı yetmiş min nəfərə çatan bir qoşunu Kufəyə göndərəcək, oranın əhalisini qətlə yetirmək, dara asmaq və əsir tutmaqla müsibətə düçar edəcəkdir. Bu halda Xorasan tərəfdən qara bayraqlılar gələcək, evləri biri digərindən sonra sürətlə geridə qoyacaqlar.”[2]

Digər bir hədisdə deyilir: “Süfyani Kufəyə daxil olub orada üç gün ərzində qətl-qarət törədər, oranın əhalisindən altmış min nəfəri qətlə yetirər və on səkkiz gecə orada qalar. Bundan sonra qara bayraqlılar gələr və suyun kənarında düşərgə salarlar. Süfyaninin köməkçiləri onların gəlişindən xəbərdar olan kimi qaçmağa üz qoyarlar. Bir dəstə adam Kufənin xurmalıqlarından çıxar, halbuki onlardan bir azı istisna olmaqla silahlı deyildilər, bəziləri də Bəsrə əhalisindəndir. Onlar Süfyaninin köməkçilərini tapar və Kufəni onların əlindən azad edərlər. Qara bayraqlılar beyət etmək üçün bir dəstəni İmamın yanına göndərərlər.”[3]

Əllamə Məclisi adı çəkilən əsərində yazırdı: “Müfəzzəl İmam Sadiqdən soruşdu: Kufə məscidi qədimdirmi? İmam buyurdu: bəli, orada peyğəmbərlər namaz qılıblar”[4]. O, digər bir hədisi əsərində səhih bir sənədlə belə yazırdı: “Kufə məscidi Beytülmüqəddəsdən daha fəzilətlidir.”[5]

Beləliklə, hədisi-şəriflərdə yer üzündə olan və müsəlmanlar yanında müqəddəs şəhərlərdən birinin Kufə olduğu məlum oldu. Həmçinin tarixi qaynaqlarda da bu şəhərin İslam tarixində mühüm rol oynadığının şahidi olduq. Bu şəhər haqqında XX əsrin ən böyük alimlərindən olmuş Seyid Məhəmməd əs-Sədr Kufə məscidinin minbərində xütbə oxuyarkən demişdir: “Kufə şəhəri İmam Mehdinin paytaxtıdır. O, Kufəyə gələcək, onun minbərinə çıxacaq, amma orada nə deyəcəkdir onu bilmirik. Ancaq rəvayətdə deyilir ki, uca səslə ağlamağlarına görə kinsə ondan bir şey eşitməz. Bu onun ilk xütbəsi olacaqdır. O, həm özünün, həm də ata-babasının haqlarını zikr edəcək, sonra da Kufəni özünün paytaxtı elan edəcəkdir. Biz hazırda müqəddəs bir məkandayıq. Daşıdığınız bu nemətin məsuliyyətini və qədrini bilin.[6]

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. LII c. s. 238.
[2] Həmin mənbə.
[3] Əli Kurani. Zühur əsri. s. 102.
[4] Əllamə əl-Məclisi. Biharül-ənvar. XVIII c. s. 312.
[5] Həmin mənbə. s. 385.
[6] Seyid Məhəmməd əs-Sədr. Məta yəzhərül-Mehdi (ə). s. 205.

V FƏSİL

NƏCƏF ŞƏHƏRİ

5.1. Nəcəf sözünün mənaları

Nəcəf sözünün hansı kökdən əmələ gəlməsi haqqında alimlər arasında müxtəlif görüşlər vardır. Görkəmli lüğət alimi Mühibəddin Mürtəza Hüseyni yazırdı: "Nəcəf **nəcfətun** sözündən olub suyun ustünə yetişmədiyi yerə deyilir."[1] Məhəmməd Əli Cəfər ət-Təmimi Nəcəf sözü haqqında mənbələr əsasında aşağıdakı qənaətə gəlmişdir:

-Nəcəf **"Nicaf"** sözünün təkidir və "vadinin daxili" mənasındadır.

-Nəcəf **"nəcfə"** sözünün cəmidir və "hündür dairəvi yer" mənasındadır.

-İbn Ərəbi deyir: "Nəcəf hündür təpə mənasındadır.[2]

əl-Lüğəvi isə Nəcəf haqqında yazırdı: "Nəcəf, suyun üstünə yetişmədiyi məkana deyilir. Həmçinin Nəcəf vadinin ortasında olan hündür yerə də deyilir. Onun cəm forması "**nicaf"**dır. Ətrafındakı ərazilərə nisbətən hündür olan yerə də nəcəf deyirlər.

Nəcəf Kufənin arxasında, Bəhreynlə Bəsrə arasında yerləşir və sel sularının oradakı mənzillərə və qəbirlərə yetişməsinə mane olur."[3]

Lakin Nəcəf haqqında olan bəzi mülahizələri də nəzərə alsaq, sonda belə bir nəticəyə gələ bilərik ki, bu söz "**cif**" kökündən əmələ gəlmiş və lüğətdə "**qurumuş və iylənmiş leş**" mənasını bildirir. Digər məşhur görüş budur ki, Nəcəf sözü elə "**Nəcəf**" kəlməsindən əmələ gəlmiş və lüğətdə "**hündür təpə**" mənasında işlədilir.

Nəcəf sözünün hansı kəlmədən əmələ gəlməsi və mənası haqqında bəlkə də ən doğru fikir İmam Sadiqin söylədiyi hədisdir. Belə ki, İmam Nəcəf şəhəri haqqında danışarkən buyurmuşdur: "Nəcəf bir dağ idi. Yer üzündə ondan hündür dağ yox idi. Nuh Peyğəmbərin oğlu tufan zamanı canını qurtarmaq üçün ona sığındı və dedi: "Mən bu dağa sığınacaq və bununla da canımı sel sularından qurtaracağam." Bu zaman Allah həmin dağa belə vəhy etdi: "Ey dağ, məndən üz döndərənə sığınacaqmı verirsən?" Dağ Allahın qəzəbindən parça-parça oldu və xırda qumlara çevrildi. Sonra isə onun yerində böyük bir dəniz əmələ gəldi. Bu dəniz "**Bəhrəni"** (bataqlıq) adlandı, çünki onda ancaq qamış bitirdi. Bundan sonra onun suyu qurudu və beləliklə, Nəcəf adlandı."[4] Əgər bu hədis doğru hesab edilərsə, yuxarıda bütün versiyalar daha da dolğun məna kəsb edəcəkdir. Çünki Nəcəf sözünün "qurumuş" mənası dənizin suyunun qurumasına, "iylənmiş leş" dedikdə isə, Nuhun oğlunun cəsədinə, "hündür təpə" dedikdə isə, o yerin əvvəlcə dağ olması mənalarına uyğunluğu vardır.

5.2. Nəcəf şəhərinin adları

Nəcəf şəhərinin mənbələrdə çoxlu adları qeyd olunmuşdur. Onların hamısını burada qeyd etmək imkan xaricində olduğundan onun ən məşhur adlarını qeyd edirik. Bu adlar aşağıdakılardır:

1. **Nəcəfül-əşrəf**. (Bu adla o tarixdə daha məşhurdur).
2. **Gira** (**Giryan**).[5] (Bu Qəri kökündən əmələ gəlib yaxşı və gözəl mənasındadır).
3. **Rəbvə.**
4. **Vadiyüs-salam.**[6]
5. **Məşhədi-İmam Əli .**
6. **ət-Tur.**
7. **əz-Zəhr.**
8. **əl-Cudi.**
9. **Bərasa.**[1]

[1] Məhəmməd əz-Zübeydi. Tacül-ərus. 40 cilddə. Küveyt, VII c. s. 350.
[2] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam və mədinətün-Nəcəf. I c. Nəcəf, 1372/1953. s. 40.
[3] Məhəmməd bin Yaqub əl-Firuzabadi. Qamusül-muhit. Müəssistür-risalə, 1426/2005. s. 197.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 58; Şeyx əs-Səduq. İlələş-şərai. İran çapı, s. 22.
[5] Yaqut əl-Həməvi. Möcəmül-büldan. V c. s. 281.
[6] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam və mədinətün-Nəcəf. I c. s. 68.

Nəcəfin Rəbva adlanması haqqında Süleyman bin Nəhik İmam Sadiqdən belə rəvayət edir: "Allahın "**Və aveynaha ilər-Rəbvə zatu qərarin Məin**" ayəsindəki **Rəbvə** Nəcəfdir, **Məin** isə Fərat."[2]

Nəcəfin Cudi adlanması isə Nuhun gəmisinin Cudi dağında qərar tutmasına görədir. Quran belə bəyan edir: "**İstəvət aləl-Cudiyyi - Cudi dağının üzərində qərar tutdu**."

5.3. Nəcəf şəhərinin tarixi

Nəcəf Allah dostlarının məskən saldığı, peyğəmbərlərin hicrət etdikləri, Nuhun gəmisinin dayandığı, Nuhun övladlarının bir-birlərindən ayrıldıqları, İbrahim Xəlilin məskən saldığı və hicrət etdiyi yerdir[3].

Nəcəf şəhəri hazırda Nəcəfül-əşrəf adı altında İraqın Kərbəla muhafazasında, Kufə şəhərinin 10 km şimalında yerləşən, məşhur ziyarətgahları, xurma bağları, bazarları olan bir şəhərdir. Nəcəf coğrafi mövqeyinə görə də çox mühüm əhəmiyyət kəsb etməkdədir. O Fərat çayının sağ sahilində, Məkkə və Mədinə yolunda ticarət-nəqliyyat mərkəzində yerləşməklə mühüm coğrafi əhəmiyyət kəsb etmişdir. Nəcəf şəhəri miladi VIII əsrin ikinci yarısında İmam Əlinin Kufə ətrafında dəfn edildiyi yerdə salınmışdır. Bura "**Nəcəf əl-Kufə**" də deyilir.[4] Məşhur alim Təbərinin verdiyi məlumata görə Nəcəf Sasanilər, Ləhmilər və Abbasilərin ilk dövrlərində istirahət guşəsi və səyahət mərkəzi olmuşdur.[5] Təbərinin məlumatına görə, İslam ordusu Nəcəfi tutan zaman orada ərəblər məskunlaşmışdılar. Onlar burada əkinçiliklə məşğul olurdular. Oranı hicri on ikinci ildə Xalid bin Vəlidin komandanlığı altında müsəlman ordusu tutmuşdur.[6] Bu zaman müsəlmanlarla yerli ərəblər arsında ciddi toqquşma olmuş və xeyli müsəlman öldürülmüşdür. İmam Əlinin burada dəfn edilməsi şəhərə xüsusi şöhrət gətirmişdir. Doğrudur, mötəbər qaynaqlara görə İmamın qəbri ilk dövrlərdə, daha doğrusu təxminən yüz il gizlin qalmış, sonra isə onun yeri bilindikdən sonra Nəcəf bir şəhər kimi yavaş-yavaş inkişaf etməyə başlamışdı. İmam Əlinin qəbrinin yerinin aşkar edilməsi İmam Sadiqin adı ilə bağlıdır. Bu haqda müxtəlif rəvayətlər vardır. Belə ki, bəzi qaynaqlara görə, Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsur (754-775) İmam Sadiqi Mədinədən Kufəyə çağırmış, İmam qəbrin olduğu yerə gəlib əvvəlcə qüsl etmiş, paltarını təzələmiş və İmam Əlinin qəbrinin bura olduğunun elan etdikdən sonra xəlifənin görüşünə getmişdir. Qəbrin Əliyə aid olduğunu eşidən Səfvan əl-Cəmmal adlı şəxs İmamdan bu xəbərin yayılması icazəsini almış və bunu bütün Kufə şəhərində yaymışdır."[7] Bu rəvayəti azca fərqlə Əllamə Məclisi[8] və Əllamə Hairi də rəvayət etmişlər.[9]

Bəzi qaynaqlara görə, qəbrin yerinin rəsmən tanınıb elan edilməsi və dövlət tərəfindən təmir edilməsi məşhur Abbasi xəlifəsi Harun ər-Rəşidin (786-809) dövrünə təsadüf edir[10]. Belə ki, nəql olunmuş tarixi rəvayətə görə bir gün xəlifə Harun ər-Rəşid ceyran ovuna çıxmışdı. O, bir ceyranı xeyli qovduqdan sonra nəhayət ceyran İmam Əlinin qəbri yerləşən yerin üstünə gəlmiş və özünü qəbrin üstünə ataraq oranın torpağını yalamışdır. Bu mənzərəni görən xəlifə bu ərazinin öyrənilməsini və bu işin sirrinin açılmasını istəmişdir. Ətraf sakinlərdən olan bir qoca kişi burada İmam Əlinin qəbrinin yerləşdiyini söyləmişdir. Bundan sonra xəlifə orada məqbərə tikilməsini və zəvvarlara lazımı şəraitin yaradılmasını əmr etmişdir. Buna oxşar rəvayəti görkəmli şiə alimi Şeyx Müfid nəql etmişdir.[11]

---

[1] Həmin mənbə. I c. s. 72.
[2] Həmin mənbə.
[3] Cəfər Bağır Əli Məhbubə. Mazin-Nəcəf və haziruha. Beyrut, 1406/1986. s. 13.
[4] Azərbaycan Sovet Ensiklopediyası. VII c. Bakı, 1983. s. 233-234.
[5] Cərir ət-Təbəri. Tarixüt-Təbəri. II c. s. 67.
[6] Həmin mənbə. IV c. s. 12.
[7] Əbu Məhəmməd Həsən bin Məhəmməd əd-Deyləmi. İrşadül-qülub. Beyrut, 1398/1978. s. 441-442.
[8] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXI c. s. 37.
[9] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 58.
[10] Mustafa Öz. İslam Ansiklopedisi. XXXII c. İstanbul, 2006. s. 486.
[11] Əbdürrəhman Yusifpur. Məşhəd və Kərbəla ziyarəti. Bakı, 1997. s. 36. Rəvayəti az fərqlə Dəmiri "Həyatül-heyvan" əsərində "fəhd" maddəsində nəql etmişdir.

Nəcəf X əsrdə Həmdanilər dövlətinin banisi Abdullah bin Həmdan (öl. 929 miladi) tərəfindən memarlıq üslubunda qurulmağa başlanmışdır. Abdullah bin Həmdan qəbrin üstünə bahalı xalı və türbə tikdirmişdir. Sonra orada tikinti-təmir işlərini Büveyhilər davam etdirmişlər. Büveyhilər dövlətinin (935-1055) başçısı olan Abduddövlə (978-983 miladi) tərəfindən burada xüsusi türbələr tikdirilmişdir. Bu ərəfədə artıq Nəcəfin ərazisi 2500 addım idi.[1] Burada görülən bütün təmir-tikinti işləri 1051-ci ildə şiə məzhəbinin müxalifləri tərəfindən dağıdılmışdı. Bundan sonra şəhərin ətrafına qala divarları çəkilmişdir.

Nəcəf şəhərinin məşhurlaşması və inkişaf etməsi miladın VIII əsrinə təsadüf etsə də onun elmi-mədəni inkişafı XI əsrə təsadüf edir. Belə ki, şiə məzhəbinin elmi-dini mərkəzi olan Bağdad şəhəri Səlcuqi imperiyasının (1038-1157) banısı Toğrul Bəy (1038-1064) tərəfindən işğal olunduqdan sonra (1055-ci ildə) məşhur şiə alimi Şeyx Məhəmməd bin Həsən ət-Tusi (995-1067) oradan sürgün edilmişdir. Bağdaddan çıxan alim İmam Əlinin məqbərəsinə pənah gətirmiş və orada ilk dəfə olaraq "Camiətün-Nəcəfil-Üzma" adlı universitet tipli mədrəsə bina etmişdir. Bundan sonra xilafətin müxtəlif ərazilərindən insanlar Nəcəfə gəlmiş və orada Şeyx Tusinin təsis etdiyi mədrəsədə təhsil almışlar. Onun burada yetişdirdiyi tələbələrin sayı yüzlərlə olmuşdur. Hətta mötəbər qaynaqlara görə Şeyx Tusi hələ sağlığında ikən 300 nəfər müctəhidlik məqamına yüksələn tələbə yetişdirmişdir[2]. Beləliklə, ömrünün on iki ilini Nəcəfdə keçirən Şeyx Tusi Nəcəf şəhərinin elm və mədəniyyət ocağına çevrilməsində mühüm xidmətlər göstərmiş alimlərdəndir. Əbəs deyildir ki, onun təsis etdiyi bu elmi mərkəzlər bu gün də fəaliyyət göstərir. Həmin elmi mərkəzlərdə müxtəlif elmlər sahəsində alimlərin, müctəhidlərin, filosofların və digər elm mütəxəsislərinin çıxmasına tarix şahiddir.

Nəcəf şəhəri Səlcuqi imperatoru Məlikşah (1072-1092) və onun vəziri Nizamulmülk təfindən 1087-ci miladi ilində ziyarət edildi. Bundan sonra isə Nəcəf Elxanı hökmdarı Qazan Xan tərəfindən xüsusi ehtirama layiq görülərək təmir edildi. Qazan şəhəri ziyarət etməsə[3] də onun ziyarətgahının təmir edilməsinə xüsusi fərman vermişdi.

Məşhur səyahətçi alim İbn Bəttutə (1304-1369) özünün "ər-Rihlə" əsərində Nəcəfi ziyarət etdiyini, onun çox gözəl, mədəni və iqtisadi cəhətdən inkişaf etdiyini, burada məscidlərin, mədrəsələrin, hamamların, yeməkxanaların və dükanların olduğunu qeyd etmişdir.[4]

Nəcəf şəhərinin daha da inkişaf etməsi şübhəsiz ki, Səfəvilər dövrünə aiddir. Görkəmli səfəvi hökmdarı Şah İsmayıl Xətai (1501-1523) Nəcəf şəhərini ziyarət etmişdir. O, şəhərin su xətlərinin çəkilməsinə, şəhərdə abadlıq işlərinin aparılmasına, ziyarətgahların və mədrəsələrin təmir edilməsinə dair fərman vermişdir. Mənbələrə görə Şah İsmayıl Elxanilər dövründə şəhərə Fərat çayından çəkilmiş su kanalını təmizlətdirmişdir.[5]

Nəcəf şəhərinin inkişafında Osmanlılar xilafətinin (1299-1923) də rolu danılmazdır. Belə ki, 1434-1435-ci illər ərzində şəhərə gələn Qanuni Sultan Süleyman İmam Əlinin məqbərəsini ziyarət etmiş və şəhərlə birlikdə məqbərənin təmir edilib genişləndirilməsinə dair əmr vermişdir. Bundan sonra digər Osmanlı xəlifəsi II Əbdülhəmid də Nəcəf şəhərinin təmir-tikinti işlərinə göstəriş vermişdir. Hətta mənbələrə görə o, Nəcəf şəhərinə iki su kanalı da çəkdirmişdir.[6]

Nəcəf şəhəri digər müqəddəs şəhərlər kimi bədnam insanların və işğalçı qoşunların zərbəsindən yan keçə bilməmişdir. Nəcəfin tarixində qaranlıq səhifə açan işğalçılardan biri də vəhhabi məzhəbinin davamçılarıdır. Onlar da ingilis havadarlarının köməkliyi və səyi nəticəsində Nəcəf şəhərinə dəfələrlə hücumlar etmiş, əhalini qırmış və minlərlə müsəlmanın qanını axıdaraq əmlakını talan etmişlər.

Əllamə Seyid Məhəmməd Cavad Amili vəhhabilərin Nəcəf və Kərbəlada törətdikləri vəhşiliklərə işarə edərək yazırdı: Mən "Miftahül-kəramə" adlı kitabımın bir hissəsini 1225-ci hicri ilinin ramazan ayında böyük narahatlıq və nigarançılıq içində tamamladım. Çünki Uneyzə ərəbləri

[1] Bax: Mustafa Öz. İslam Ansiklopedisi. XXXII c. İstanbul, 2006. s. 486.
[2] Seyid Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 159.
[3] Mustafa Öz. İslam Ansiklopedisi. XXXII c. s. 486.
[4] İbn Bəttutə. ər-Rihlə. Beyrut. Tarixsiz. s. 176, 178.
[5] Mustafa Öz. İslam Ansiklopedisi. XXXII c. s. 486.
[6] Həmin mənbə.

Nəcəfül-əşrəf və Kərbəla şəhərlərini mühasirəyə almışdılar. Kərbəladan Niməti-Şəban[1] ziyarətindən qayıdan zəvvarların mallarını qarət edib, bir çoxlarını qətlə yetirmişdilər. Qətlə yetirilənlərin sayı yüz əlliyə yaxın idi."[2]

Bundan başqa Nəcəf şəhərini 1917-ci ilin mart ayında ingilislər işğal etmiş və orada olmazın qətliamlar törətmişlər.

5.4. Nəcəfdə dəfn edilmiş səhabələr

Nəcəf şəhəri İslam ordusu tərəfindən tutulduqdan sonra ora çoxlu sayda səhabələr gəlmişlər. Onların bir hissəsi ömrünün axrınadık burada yaşamış və burada da dəfn edilmişlər. Nəcəfdə dəfn edilmiş səhabələrdən aşağıdakıları qeyd etmək olar.

1. Əbu Musa əl-Əşəri.
2. Əbu Kahil əl-Əhməsi (öl. 664).
3. Əbu Cüheyfə əs-Sui (öl. 696).
4. Əşəs bin Qeys (öl. 664).
5. Cərir bin Abdullah əl-Bəcli (öl. 676).
6. Cabir bin Səmrə əs-Sui (öl. 696).
7. Xəbbab bin Ərət (öl. 659).
8. Xərim bin Əhrəm (Müaviyənin dövründə ölüb).
9. Səhl bin Hüneyf (öl. 660).
10. Səid bin Həris bin Əmir bin Osman.
11. Səmrət bin Cünadə (öl. 678).
12. Səid bin Yəcir bin Müaviyə.
13. Ütbə bin Fərqat.
14. Amr bin Vailə əl-Leysi (öl. 718).
15. Abdullah bin Yezid əl-Xətəmi.
16. Abd bin Übeyr (öl. 704).
17. Üdey bin Hatəm Tai (öl. 686).
18. Amr bin Həris.
19. Üdey bin Ümeyr əl-Hindi (öl. 658).
20. Qərzə bin Kəb əl-Ənsari.
21. Lübeyd bin Rəbiə (öl. 659).
22. Məcmə bin Cariyə bin Əmr bin Məcmə.
23. Müğeyrə bin Şöbə (öl. 668).
24. Vail bin Hicr əl-Xədrəmi.
25. Hani bin Ovs əl-Əsləmi.[3]

5.5. Nəcəfül-əşrəfin fəzilətləri və İmam Əlini ziyarət etməyin savabı

Nəcəfül-əşrəf şəhəri İslamın müqəddəs şəhərlərindən biri kimi dəyərləndirilir. Onun fəziləti və İslamdakı üstünlükləri heç də Məkkə və Mədinə şəhərlərinin fəzilət və üstünlüklərindən geri qalmır. Buna işarə edən çoxlu sayda səhih hədislər vardır. Əlbəttə ki, Nəcəf şəhərini bu qədər fəzilətli edən İmam Əlinin qəbrinin orada olması səbəb olmuşdur. Necə ki, Məkkəni Kəbə evi, Mədinəni Peyğəmbərin qəbri, Kərbəlanı İmam Hüseynin qəbri fəzilətli etmişdir.

Əllamə Məclisi İmam Əlinin qəbrinin orada olmasını adı çəkilən əsərin müxtəlif yerlərində qeyd etmişdir.[4] O, eyni zamanda özündən əvvəlki alimlərə istinadən sübut etməyə çalışmışdır ki, İmam Əlinin qəbrinin harada olması alimlər arasında ixtilaflı olsa da, məşhur nəzər onun Nəcəfdə olmasıdır.[5]

---

[1] On ikinci imamın doğum günü bayramı.
[2] Seyid Məhəmməd cavad Amili. Miftahül-kəramə. VII c. s. 653.
[3] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam və mədinətün-Nəcəf. I c. s. 99-103.
[4] Əllamə əl-Məclisi. Biharül-ənvar. XLII c. s. 236.
[5] Həmin mənbə. s. 322.

Məsum imamlardan çoxlu sayda hədis vardır ki, orada Nuhun İbrahimin və digər peyğəmbərlərin qəbirləri vardır.[1] Həmçinin İmam Əlinin də qəbri-şərifi bu müqəddəs məkandadır. Əbu Bəsir deyir: "İmam Sadiqdən soruşdum: "Əmirəlmöminin qəbri haradadır?" Həzrət buyurdu: "Babası Nuhun yanında." Dedim: "Nuhun qəbri haradadır?" Dedi: "Kufənin arxasında."

Həmçinin İmam digər bir hədisində buyurmuşdur: "İmam Əlinin qəbri Qəridə Nuhun qəbri yanındadır."

İmam Əli isə özü buyurmuşdur: "Mən vəfat edəndən sonra məni qardaşım Nuhun yanında dəfn edin."[2]

Nəcəf şəhəri haqqında hədisi-şəriflərdə kifayət qədər məlumat vardır. Onlardan aşağıdakıları qeyd etmək olar:

İmam Əli buyurur: "İbrahim Xəlilullah Kufənin arxasından keçirdi. Bu yerlər hər vaxt titrəyiş və zəlzələ içində idi. İbrahim bir gecə orada gecələməli oldu. Səhər açılanda şəhər əhalisi bir-birlərinə dedilər: "Bu gecə nə baş vermişdir ki, heç bir zəlzələ olmadı?" Onlara deyildi: "Bu gecə burada bir qoca oz oğlu ilə gecələyib. Camaat onun yanına getdi və ona dedilər: "Sən bu gecəni bizimlə gecələmisən və buna görə də burada heç bir zəlzəzlə baş verməyib. Sən bizim yanımızda qal, nə istəsən sənin üçün edərik." İbrahim onlara dedi: "Yox, amma siz bu ərazini mənə satın ki, bir daha burada zəlzələ baş verməyəcəkdir." Cammat dedi: "İstədiyin ərazi sənin olsun." İbrahim onlara dedi: "Yox, gərək buranı mənə satasınız." Camaat dedi: "Buranı istədiyin qiymətə bizdən al." İbrahim oranı yeddi keçiyə və dörd ulağa aldı." İbrahimin oğlu dedi: "Ey Rəhmanın dostu! heç bir bitki və əkin bitməyən ərazini neynirsən?" İbrahim dedi: "Sakit ol! Allah Qiyamət günü buradan yetmiş min nəfəri dirildib sorğu-sualsız Cənnətə daxil edəcəkdir. Onlardan olan şəxs şəfaət edəcəkdir."[3]

İmam Sadiq buyurur: "Ğəri (Nəcəf) dağdan bir parçadır. Allah Musa ilə burada danışmış, İsanı burada təmizə çıxarmış, İbrahimi burada özünə dost götürmüş və Məhəmmədi burada özünə həbib etmişdir."[4]

İmam yenə buyurub: "Kufə cənnətdən bir bağçadır. Orada Nuhun , İbrahimin və bunlardan başqa səkkiz yüz yetmiş Peyğəmbərin, altı yüz isə vəsinin qəbri var."[5]

Həmçinin buyurur: "Tufan zamanı dörd məkan tufandan salamat qaldı: Beytülməmur, Ğəri (Nəcəf), Kərbəla və Tus."[6]

Görkəmli alim Əllamə Məclisi belə bir hədis nəql edir: "İmam Əli Nəcəflə Kufə ərazisini torpaq sahiblərindən satın aldı. Bu zaman ona deyildi: "Ey Möminlərin əmiri! Heç bir şey bitməyən ərazinimi satın alırsan? İmam buyurdu: "Peyğəmbərdən eşitdim ki, deyirdi: "Kufə! Kufə! Onun arxa hissəsindəki ərazidə yetmiş min nəfər dirildilərək məhşərə gətrilər və sorğu-sualsız Cənnətə daxil edilərlər. Mən də istəyirəm ki, onlar mənim yanımda dirilsinlər."[7]

İbn Abbas rəvayət edir: "Bir gecə Peyğəmbərlə birlikdə işa namazını qılırdıq. O, salamdan sonra bizə tərəf çevrilib buyurdu: "Fəcr vaxtı günçıxan tərəfdən bir ulduz doğacaq. O kimin evinin üstündə qərar tutsa, o şəxs mənim xəlifəm, vəsim və məndən sonra imam olacaqdır. Bizdən hər kəs fəcrə qədər öz evində oturub ulduzun doğmasını gözləyirdi. Bu zaman çıxan ulduz göründü və o Əli bin Əbi Talibin evinin üstündə qərar tutdu. Peyğəmbər Əliyə buyurdu: "Ey Əli! And olsun məni peyğəmbər göndərənə! Sənə məndən sonra vəsi, imam və xəlifə olmaq vacib edildi. Münafiqlər, xüsusilə də Abdullah bin Übeyy və onun tərəfdarları dedilər: "Peyğəmbər əmisi oğlunu sevməklə yolunu azdı və onun haqqında özbaşına danışdı. Bu zaman Allah: "**And olsun batmaqda olan ulduza! Sizin yoldaşınız nə haqq yoldan sapmış, nə də azmışdır! O, kefi istəyəni danışmır. Bu**

[1] İbn Tavus. Fərəhətül-Qəri. Nəcəf çapı. s. 56.
[2] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam əv mədinətün-Nəcəf. I c. s. 89.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXI c. s. 35; Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 58.
[4] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam əv mədinətün-Nəcəf. I c. s. 79.
[5] Həmin mənbə.
[6] Həmin mənbə. I c. s. 80.
[7] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXI c. s. 36; Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 58.

ancaq nazil olan bir vəhydir"[1] ayələrini göndərdi. Buna uyğun hədis İmam Rzadan da nəql olunmuşdur.[2]

Nəcəf şəhərinin fəzilətlərinə aid hədislərin birində İmam Əli buyurmuşdur: "Yer üzündə Allaha ilk ibadət edən ərazi Kufənin arxasıdır (Nəcəfdir). Allah mələklərə Adəmə səcdə etməyi əmr etdikdə, onlar Kufənin arxasında səcdə etdilər."[3]

İmam Sadiq buyurur: "İmam Əli Kufənin arxasına (Nəcəfə) tərəf baxdıqda buyurdu: "Nə gözəl mənzərən və nə gözəl ağacların var! İlahi, buranı mənim qəbrim et, onun torpağını qəbir əzabını aradan aparan et və orada dəfn olunanları Nəkir və Münkərin hesabından qoru!"[4]

İmam Sadiq digər bir hədisində buyurur: "Yer üzünün Şərqində və Qərbində elə bir ölən şəxs yoxdur ki, Allah onun ruhunu Vadissalamda həşr etməsin.. Ora Ədn cənnətindən bir hissədir."[5]

Görkəmli İslam alimi Şeyx Tusi səhih sənədlə İmam Sadiqdən rəvayət edir: "Allah mələklərdən çox heç bir yaranmış xəlq etməmişdir. Hər gün yetmiş min mələk Allahın izni ilə Beytülməmura nazil olub bu müqəddəs məkanı ziyarət edirlər. Buranı ziyarət etdikdən sonra Kəbəyə gedirlər. Kəbəni ziyarət etdikdən sonra Mədinəyə tərəf gedirlər. Orada Peyğəmbərin qəbrini ziyarət edib ona salavat və salam göndərirlər. Oradan Nəcəfül-əşrəfə İmam Əlinin qəbrinin üstünə gəlirlər. Həzrət Əlini ziyarət edib ona salam göndərirlər. Bundan sonra Kərbəlaya gedib İmam Hüseynin qəbrini ziyarət edirlər. Ona salam verdikdən sonra göyə yüksəlirlər.

Bu minvalla hər gün yetmiş min mələk bu ziyarətgahları ziyarət edirlər. Onların bu işi Qiyamətədək davam edəcəkdir."[6]

İmam digər bir hədisində buyurur: "Hər kəs Əlini onun tanıyaraq, ziyarət edərsə, Qiyamət günü Allah ona yüz min şəhidin savabın verər və onun yüz min günahın bağışlayar. Qiyamət günü o şəxsi əminamanlıq içində dirildər və onun haqq-hesabını yüngül edər."[7]

İmam Marid adlı şəxsə buyurdu: "Ey Marid! Hər kəs Əli bin Əbi Talibi ziyarət edərsə, Allah o şəxsin atdığı hər qədəmə qəbul olunmuş həccin və bəyənilmiş ümrənin ziyarətin yazar. Ey Marid! O qədəmlər ki, İmam Əlinin ziyarətində toza-torpağa bulaşıblar, Allah onları Cəhənnəm odunda yandırmaz. İstər o şəxslər bu ziyarətə piyada, istərsə də minikdə getsinlər."[8]

İmam digər bir hədisində buyurur: "Hər kəs İmam Əlinin qəbrini ziyarət etsə, onun hər addımına min savab yazılar və min günahı pozular. Onun dərəcəsi min dəfə yüksələr və onun min istəyi ödənilər. O şəxsə hər bir siddiqin və şəhidin savabı verilər. Həmin şəxs öz evinə günahları bağışlanmış halda dönər və onu ziyarət edən hər bir mələyin savabı o şəxsə verilər. O şəxsin Nəcəfdə keçirdiyi bir gecə yeddi yüz min ilin ibadətindən üstündür. İmam Əlinin qəbrinin kənarında qılınan bir namaz iki yüz min namazdan üstündür."[9]

İmam Sadiq ata-babası vasitəsiylə Əlidən rəvayət edir: "Peyğəmbər dedi: "Ey Əbəlhəsən! Sən İraqda öldürüləcək və orada dəfn ediləcəksən." Dedim: "Bizi ziyarət edənlər üçün nə savab var?" Dedi: "Ey Əbəlhəsən! Allah sənin və övladlarının qəbirlərini Cənnət bağçalarından bir bağça etmişdir. O, nəcib insanların qəlblərini öz əxlaqından yaradıb və onları sizin məhəbbətinizlə təmizləyib. Onlar sizin qəbirlərinizi təmir edər və sizi çox ziyarət edərlər. Bununla da onlar Allaha yaxınlaşarlar. O şəxslər mənim şəfaətimi görər, (Kövsər) hovuzumun kənarına gələr və onlar sabah Cənnətdə mənim ziyarətçilərim olarlar. Hər kəs sizin qəbirlərinizi təmir etsə, sanki Süleyman bin Davuda Beytülməmuru tikəndə kömək etmişdir. Hər kəs sizin qəbirlərinizi ziyarət etsə, ona yetmiş həccin savabı verilər, günahları bağışlanar. Sizi ziyarət edənlər geriyə anadan doğulduqları kimi dönərlər."[10]

---

[1] ən-Nəcm surəsi, ayə 1-4.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 60.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXI c. s. 37; Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 61.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 61.
[5] Həmin mənbə. s. 62.
[6] Əbdürrəhman Yusifpur. Məşhəd və Kərbəla ziyarəti. s. 34.
[7] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam əv mədinətün-Nəcəf. I c. s. 143.
[8] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam əv mədinətün-Nəcəf. I c. s. 143.
[9] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 63; Cəfər Bağır Əli Məhbubə. Mazin-Nəcəf və haziruha. Beyrut, 1406/1986. s. 441-442.
[10] Məhəmməd Əli Cəfər ət-Təmimi. Məşhədül-İmam əv mədinətün-Nəcəf. I c. s. 144.

Abdullah bin Təlhə deyir: "İmam Sadiq mənə dedi: "İmam Əlinin qəbrinin ziyarətinə gedirsənmi?" Dedim: "Bəli." Dedi: "Hər cümə?" Dedim: "Yox." Dedi: "Sən nə cəfakeş adamsan! Onun ziyarəti həcc və ümrə ziyarətindən üstündür."[1]

Həssan bin Mehran əl-Cammal deyir: "İmam Sadiq mənə dedi: "Ey Həssan! Sizdən əvvəlki şəhidlərin ziyarətlərinə gedirsinizmi?" Dedim: "Hansı şəhidlərin?" Dedi: "İmam Əli və Hüseynin ." Dedim: "Biz onları çox ziyarət edirik." Dedi: "Onlar ruzi yeyən şəhidlərdir. Onları ziyarət edin. Ehtiyaclarınızı onlardan diləyin. Əgər onların qəbirləri burada olsaydı, onları özümüzə hicrət yeri götürərdik."[2]

5.6. İmam Əlinin qəbrinin Nəcəfdə olmasının sübutu

Təssüflə qeyd etmək lazımdır ki, bəzi şəxslər bu və ya digər səhih hədislərə məhəl qoymayaraq İmam Əlinin qəbrinin Nəcəfül-əşrəfdə olmadığını iddia edir və yaxud da buna ən azından şübhə ilə yanaşırlar. Amma tarixdə İmam Əlinin qəbrinin Nəcəfdə olması sübut olunmuş və isbata ehtiyacı olmayan həqiqətlərdəndir. Doğrudur, İmam Əlinin dəfni ilə əlaqədar olaraq müxtəlif yerlərdə bir neçə qəbir qazılmış və bununla da onun düşmənlərinin fikirlərini yayındırmaq halları olmuşdur. Bu da onunla əlaqədardır ki, İmamın düşmənləri, xüsusilə də xaricilər müqəddəs qəbirə hörmətsizlik etməsinlər. Lakin qəbrin yerinin bilinməməsi necə mümkün ola bilər? Məgər İmam Əli öz ailəsi və İslam ümməti tərəfindən bu qədər unudulmuş şəxsdir ki, onun dəfn olunduğu yer hələ də bilinməmiş olsun?! Biz bu fikirdən Allaha sığınırıq.

Əllamə Məclisi yazırdı: "Bütün imamlarımız İmam Əlinin qəbrinin yerini bilmiş və bunu xüsusi tərəfdarlarına bildirmişlər. Onun qəbrinin Nəcəfdə olması haqqında varid olmuş rəvayətlər isə mütəvatir həddədir." Bu fikir digər məzhəblərin bəzi alimlərinin də qəbul etdikləri bir fikirdir. Məşhur alim Əbülfərəc bin Cövzi Əbülqənaimdən rəvayət edir ki, Kufədə üç yüz səhabə vəfat etmiş, lakin onlardan yalnız Əmirəlmöminin və Kümeyl bin Ziyadın qəbirləri məşhur olmuşdur ki, onları da şiələr ziyarət edirlər."[3]

İmam Əlinin qəbrinin gizli qalması İmamın özünün vəsiyyətinə uyğun olmuşdur. Belə ki, Həzrət vəfat edərkən öz övladlarına, xüsusən də İmam Həsənə bir neçə vəsiyyət etmişdir ki, onlardan biri də qəbrinin yerinin gizlin qalması və dörd müxtəlif yerdə qəbir qazılmasıdır. Bu hadisəni Əllamə Hairi belə yazırdı: "İmam düşmənlərinin və xaricilərin qəbri açıb hörmətsizlik etməsindən ehtiyat edərək oğlu Həsənə vəsiyyət etdi ki, qəbrin yeri gizli qalsın və dörd müxtəlif yerdə - Məsciddə, ər-Ruhbədə, əl-Qəridə və Cədə bin Hübeyrənin evində - qəbir qazılsın."[4] Beləliklə, dörd müxtəlif yerdə qəbir qazılmış, lakin cənazə İmamın oğlanları Həsən , Hüseyn , Məhəmməd Hənəfiyyə, Abdullah bin Cəfər və bir neçə Əhli-beytinin iştirakı ilə Qəriyə gətirilmişdir. Orada nəzərdə tutulmuş yerdə mövcud olan daşa İmam Həsən zərbə vurmuş, qəbrin yeri açılaraq orada aşağıdakı süryanı dilində belə bir yazıya rast gəlinmişdir: "Mehriban və Mərhəmətli Allahın adı ilə. Bu qəbir Nuh Peyğəmbərin qəbridir ki, o tufandan yeddi yüz il əvvəl Məhəmməd Peyğəmbərin vəsisi İmam Əli üçün nəzərdə tutulmuşdur."[5]

5.7. İmam Əlinin nəsil şəcərəsi

Bildiyimiz kimi, İmam Əli Peyğəmbərin doğma əmisi oğludur. O, Peyğəmbərə iman gətirən ilk şəxsdir. Bu haqda Peyğəbmər buyurmuşdur: "Əli mənə ilk iman gətirən və məni ilk təsdiq edən şəxsdir."[6] Onun atası Əbu Talib Peyğəmbərin atası Abdullah ilə qardaşdır. Nəsəb baxımından eyni kökdən gələn bu nəslin silsiləsi, bütün qaynaqların ittifaqla bildirdiyi, Peyğəmbərin iyirminci babasına qədər uzanan nəsəb silsiləsi belədir:

İmam Əli, Əbu Talib, Əbdülmüttəlib, (əsil adı Şeybədir), Haşim, Əbdülmanaf, Qüseyy, Kilab, Mərrə, Kəb, Lühəyy (Luva), Qalib, Fəhr, Malik, Nəzr, Kənanə, Xüzeymə, Müdrikə, İlyas, Muzar,

[1] Həmin mənbə. I c. s. 145.
[2] Həmin mənbə. I c. s. 146.
[3] Əllamə əl-Hairi. Dairətül-məarif. XIII c. s. 203-204.
[4] Həmin mənbə. s. 62.
[5] Həmin mənbə.
[6] İbn Əsakir əş-Şafei. Tarixu mədinəti-Diməşq. XLII c. Beyrut, Darul-fikir, 1417/1996. s. 36.

Nizar, Məədd, Ədnan. Bunlar Peyğəmbərin böyük babalarıdır. Peyğəmbərin əcdadları Məədd bin Ədnana qədər məhz qeyd etdiyimiz ardıcıllıqladır.[1] Hamısının zürriyyəti çoxalıb artmış, əşirətlər və qəbilələr halında Hicazda da yaşamışdılar.

İyirminci babadan sonrakı əsli-nəsəb xəttinə gəldikdə, demək lazımdır ki, nəsəb alimləri Peyğəmbərin iyirminci babası olan Ədnanın həzrət İbrahimin nəslindən olduğunu ittifaqla qəbul etmişdilər. Ədnan ilə İbrahim arasında uzun zaman məsafəsi olmuşdur. Bəzi alimlər həzrət Peyğəmbərin nəsəbini yeddi, bəzisi də doqquz nəsil həzrət İsmailə bağlayırlar.[2]

Ədnan, Üdəd, Ümeyyə, Şacib, Nabit, Sələbə, Əntər, Sarese, Mahlen, Avvam, Mühtəməl, Raimə, Ukban, Allah, Şəmdud, Razib, Ayfer, İbrahim, İsmail, Zerrin, Avec, Mutam, Tiham, Kasver, Atud, Daada, Mahdud, Raid, Bədvan, Əmanə, Devs, Haşim, Misal, Ümeyr, Mahşər, Mazer, Sayfi, Nəbat, Kayzar, İsmail, İbrahim.[3]

5.8. İmam Əlinin doğumu

Möminlərin əmiri Əli bin Əbi Talib miladi tarixlə təxminən 599-cu ildə, yəni Peyğəmbərə peyğəmbərlik verilməmişdən 10 və ya 12 il əvvəl Məkkədə doğulmuşdur. Onun doğum tarixini müsəlman müəllifləri belə yazırlar ki, o, fil ilindən otuz il sonra, cümə günü, rəcəb ayının on üçündə Allahın evi Kəbədə doğulmuşdur.[4] İmam Əlinin Kəbədə dünyaya gəlməsi haqqında nəql olunmuş hədislər mütəvatir həddindədir. Qaynaqlar yazır: "Əlinin anası Fatimə bint Əsəd doğuş ağrılarını hiss edərkən Məscidülhərama gəldi və Kəbənin ətrafına təvaf etdi. Təvafı bitirdikdən sonra dayanıb Allaha yalvarış və dua ilə deyirdi: "Allahım mən sənə inanmış bir qadınam, sənin göndərdiyin peyğəmbərlərə və nazil etdiyin kitablara inanmışam. Mən sənin və babam İbrahimin kəlamını təsdiq etmişəm, hansı ki, o, sənin evini bina etmişdir. Səni and verirəm göndərdiyin peyğəmbərlərinə və müqərrəb mələklərinə bətnimdəkinin doğuşunu mənim üçün asan et."

Bundan sonra, Kəbə evinin divarı yarılmış və Fatimə bint Əsəd ora daxil olaraq Əlini orada dünyaya gətirmişdir.[5] İmam Əlinin Kəbədə doğulması bütün məzhəb alimlərinin nəzərində məşhur olmuş rəvayətdir. Bütün İslam müəllifləri bu hadisəni İmam Əlinin fəzilətinə dəlil gətirmiş və ondan başqa bu fəzilətə nə əvvəlki, nə də sonrakı ümmətdən heç kəsin yetişmədiyini qeyd etmişlər. Müxtəlif İslam məzhəblərinin otuzdan artıq məşhur alimi yazdıqları əsərlərində İmam Əlinin Kəbədə doğulmasını qeyd etmişlər. Həmin müəlliflərdən bəziləri aşağıdakılardır:

1. Cəmaləddin Zərəndi əl-Hənəfi (öl. 1349). "Nəzmu dürəris-simteyn." Nəcəfül-əşrəf çapı, s. 80.
2. Hafiz Əbu Abdullah ən-Nisaburi (933-1014). "Müstədrək ələs-səhiheyn." III c. Heydərabad çapı, s. 483.
3. Əbu Abdullah Məhəmməd bin Yusif əş-Şafei (öl. 1260). "Kifayətüt-talib." s. 26 və 261.
4. İbrahim bin Məhəmməd əl-Həməvini əş-Şafei (öl. 1321). "Fəraidüs-simteyn." I hissə.
5. Məhəmməd bin Təlhə əş-Şafei (öl. 1166). "Mətalibüs-sual." Tehran çapı, s. 11.
6. Əbdürrəhman əs-Səfuri əş-Şafei (öl. 1479). "Nüzhətül-məcalis." II c. s. 166.
7. Məhəmməd bin Şəblənci əş-Şafei (öl. 1881). "Nurül-əbsar." s. 69.
8. Yusif bin Müzəffər əl-Hənəfi (öl. 1256). "Təzkirətül-xəvvasil-əimmə." s. 8.
9. Əli əl-Qari əl-Hənəfi. "Şərhüş-şifa." I c. s. 151.
10. Şah Vəliyyullah Dehləvi (öl. 1763). "İzalətül-xəfa."
11. Əli bin Hüseyn Məsudi (öl. 896-956). "Murucüz-zəhəb." II c s. 4.
12. Süleyman Qunduzi əl-Hənəfi (öl. 1878). "Yənabiül-məvəddə." s. 255.[6]

---

[1] Cəfər Sübhani. Furuği-əbədiyyət. Həzrət Mühəmməd. Mütərcim: Mais Ağaverdiyev. Bakı, 2010. s. 64.
[2] Salih Suruç. Kainatın Efendisi, Peyğəmbərimizin Həyatı. I c. İstanbul, Yeni Asya Nəşriyatı, 2001. 19-22.
[3] Sabri Hizmetli. İslam tarihi ilk dönem. Ankara, Özkan mətbəəsi, 2001. s. 167-168.
[4] Əllamə Həsən bin Mutəhhər əl-Hilli. Kəşfül-yəqin fi fəzaili-Əmirilmuminin (ə). Tehran, I nəşri, 1411/1991. s. 17-18; Əllamə əl-Hairi. Dairətül-məarif. XIII c. s. 172.
[5] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi iləl-ləhd. Beyrut, II nəşri, 1413/1993. s. 14.
[6] Geniş məlumat üçün bax: Seyid Haşim Bəhrani. Qayətül-məram. Təhqiq edən: Əllamə Seyid Əli Aşur. I c. Tarixsiz. s. 50.

İmam Sadiq İmam Əlinin doğum hadisəsinə toxunarkən deyir: "Abbas bin Əbdülmüttəlib, Yezid bin Qənəb və Bəni-Haşimdən bir qrup şəxs Kəbə evinin ətrafında oturmuşdular. Fatimə bint Əsəd bin Haşim Əliyə doqquz aylıq hamilə idi. O, dua etdi. Bu zaman Kəbə evinin divarı yarıldı və o, oradan içəri daxil oldu. Sonra divar yenidən bağlandı. Bu xəbər Əbu Talibə çatdıqda o, bir qrup qadınla ora gəlib Kəbənin qapısını açmaq istədilər, lakin bacarmadılar. İş belə olduqda bildilər ki, burada bir ilahi sirr vardır.

Fatimə bint Əsəd Kəbə evində üç gün qaldı. Bu xəbər bütün Məkkəyə yayılmışdı və hətta bütün qadınlar bu hadisədən danışırdılar. İnsanlar toplum şəkildə Kəbəyə gəlir və hadisəyə tamaşa edirdilər. Fatimə bint Əsəd divarın onun üçün yarılmış yerindən bayıra çıxdı və camaata xitabən buyurdu: "Ey insan toplusu! Allah yaratdıqları içərisində məni seçdi və məni məndən əvvəl seçdiklərindən fəzilətli etdi..."[1]

Kəbə divarının yarılmasının izi xoşbəxtlikdən bu günədək qalmaqdadır. Kəbənin zaman-zaman təmir edilməsinə baxmayaraq bu iz heç vaxt itməmiş və tarixdə "əl-Müstəcar" adı ilə yaşamaqdadır. Kəbəyə gedən hacılar bu divar önündə dayanaraq Allahdan öz hacət və istəklərini diləyirlər.

5.9. Əbu Talibin müsəlman olması

Əvvəldə qeyd olunduğu kimi, Əbu Talib İmam Əlinin atasıdır. O, İslamın ilk çağlarından bu dini qəbul etmiş və Peyğəmbərin qorunmasında, İslamın yayılmasında öz canını belə əsirgəməmişdir. Ancaq təssüflə qeyd etmək lazımdır ki, İmam Əlinin düşməni olan bəzi kimsələr yalandan hədis qondararaq guya Əbu Talibin iman gətirməməsi məsələsini ortalığa atmış və bununla da müsəlmanlar arasına ixtilaf salmışlar. Lakin mötəbər qaynaqlar daha da obyektiv şəkildə araşdırıldıqda məlum olur ki, Əbu Talibin iman gətirməməsini rəvayət edən ravilər heç də hədis elminin prinsiplərinə cavab verməyən və bütün dövrlərdə yalançı kimi tanınan ravilərdir. Biz burada Əbu Talibin imansız öldüyünü deyən hədislərin zəif olduğunu mötəbər qaynaqlar əsasında üzə çıxaracaq və bu növdən olan hədis ravilərinin hamısının yalançı olduğunu göstərəcəyik. Beləliklə, həmin "hədislər" aşağıdakılardır:

1. Məhəmməd bin Səd, əl-Vaqidi, Süfyan əs-Səvri, Həbib bin Əbi Sabit, Yəhya bin Cədət, İbn Abbasdan rəvayət edir:

"Müşriklər Quranı dinləməyi qadağan edər, özləri də ondan uzaq durarlar. Onlar yalnız özlərini həlak edər, lakin bunun fərqinə varmazlar",[2] ayəsi Əbu Talibin haqqında nazil olmuşdur.[3]

2. Peyğəmbərə deyildi: "Əbu Talib üçün istiğfar dilə. Elə bu zaman **"Müşriklərin Cəhənnəmlik olduqları bəlli olduqdan sonra onlara qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz",** [4] ayəsi nazil oldu.[5]

3. Səid bin Müsəyyib rəvayət edir: "Peyğəmbər Əbu Talibə: "Allahdan başqa Allah yoxdur", kəlməsini deməsini istədi, lakin o, üz çevirdi."[6]

4. Yezid bin Ziyad rəvayət edir: **"Sən istədiyini doğru yola yönəldə bilməzsən. Ancaq Allah istədiyini doğru yola yönəldə bilər",**[7] ayəsi Əbu Talibin haqqında nazil olub.[8]

5. Əhməd bin İbrahim əd-Dürəqi, Əli bin Asim, Yezid bin Əbi Ziyad, Abdullah bin Haris bin Nofəl rəvayət edir: "Peyğəmbər dedi: "Əbu Talib Cəhənnəmdə bir quyudadır ki, o quyu onun topuğundandır. Amma od onun beynini qaynadır."[9]

---

[1] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi ilələhd. s. 15; Əllamə əl-Məclisi. Biharül-ənvar. XXXV c. s. 17.

[2] Ənam surəsi, ayə 26.

[3] Əhməd bin Yəhya bin Cabir əl-Bəlazuri. Ənsabül-əşraf. Beyrut, I çap, 1394/1974. s. 26. Şeyx Məhəmməd Bağır əl-Mahmudinin təhqiqi və əlavəsi ilə.

[4] Tövbə surəsi, ayə 113.

[5] Əhməd əl-Bəlazuri. Ənsabül-əşraf. s. 26.

[6] Həmin mənbə. s. 24.

[7] Qəsəs surəsi, ayə 1.

[8] Əhməd əl-Bəlazuri. Ənsabül-əşraf. s. 28.

[9] Həmin mənbə. s. 29.

Bu hədisləri mötəbər qaynaqlar əsasında tədqiq edən görkəmli alim Şeyx Məhəmməd Bağır Mahmudi yazırdı: "Bu hədislər aşağıdakı xüsusiyyətlərinə görə zəifdir:

1. Səid bin Müsəyyib Əbu Talibin vəfat tarixini görməyib. Belə olduğu təqdirdə gərək o, bu hadisəni görən kimsədən rəvayət edəydi.

2. Səid bin Müsəyyib İmam Əlinin əleyhinə olan kimsələrdən olmuşdur.

3. Bu qrupdan olan hədislərin sənədində Zöhri adlı ravi də keçməkdədir. O, miskin və yoxsul adam olmuş, lakin Əməvi hökmdarlarına xidməti sayəsində zəngin və məşhur bir adama çevrilmişdir.

4. Bəlazurinin nəql etdiyi hədisdə Bəkr bin Heysəm adlı şəxs keçir. Bu şəxs Bəlazurinin ustadıdır və məchul bir adamdır.

Həqiqətən də alimin gəldiyi bu nəticələr çox güclü məntiqi dəlillərdir ki, onların inkar edilməsi mümkün deyildir. Bundan əlavə İslam məzhəblərinin ən görkəmli təfsir alimləri yuxarıda guya Əbu Talib haqqında nazil olmuş ayələrin Peyğəmbərə maneçilik törədən şəxslər barədə nazil olduğunu qeyd etmişlər. Halbuki Əbu Talib ömrünün sonunadək Peyğəmbəri müdafiə etmiş və onunla birlikdə üç il dərədə sürgün həyatı keçirmişdir. Həmin əsərlərə baxmaqla bu ayələrin kimin haqqında nazil olduğunu görmək elə də çətin deyildir. Həmin təfsir əsərləri aşağıdakılardır:

1. "Təfsirüt-Təbəri." VII c. s. 109.
2. "Dürrül-mənsur." III c. s. 2, 8 və 9.
3. "Təfsiri-Alusi." VII c. s. 126.
4. "Təfsirül-Qurtubi." VI c. s. 382.
5. "Təfsiru-İbn Kəsir. II c. s. 122.
6. "Təfsirüş-Şovkani. III c. s. 91-92.

İndi isə Bəlazurinin nəql etdiyi hədislərin sənədlərini araşdıraq. Şübhəsiz ki, bu növdən olan hədislərin sənədilərində yer alan ravilər hədis elminin prinsiplərinə cavab verdiyindən onların nəql etdikləri hədislər qeyri-məqbul hesab ediləcəkdir. Bu hədislərin sənədlərini araşdırarkən müsəlman dünyasının ən böyük rical alimlərindən olan İbn Həcər əl-Əsqəlaninin (1372-1449) "Təhzibüt-təhzib" və digər rical alimlərinin əsərlərindən istifadə etmişik. Beləliklə, bu və ya digər mənbələrə istinad edərək Əbu Talibin imansız ölməsini deyən hədislərin sənədində aşağıdakı zəif ravilər keçir:

1. Həbib bin Əbi Sabit. Bu ravi müdəllis olmuşdur.[1] Bunu İbn Hibban "Təsrih", İbn Xəzim isə "Səhih" əsərində qeyd etmişdir.

2. Süfyan əs-Səvri. Bu ravi də tədlis əhli olmuşdur.[2] Hətta məşhur rical alimi Şəmsəddin əz-Zəhəbi (1274-1348) onun yalançı olduğunu və yalançı adamlardan hədis yazdığını "Mizanül-etidal" əsərinədə qeyd etmişdir.

3. Yezid bin Ziyad. Bu ravi əksər rical alimlərinə görə çox zəif ravidir. İbn Həcər onun haqqında "çox zəifdir" demişdir.[3] Dəraqütni (918-995) də onun zəif və çox səhv edən bir ravi olduğunu yazırdı.

4. Əli bin Asim. Bu ravi yalançı ravilərdəndir. İbn Həcər onun haqqında yazırdı: "O, yalançıdır, ondan qorunun", Şöbə deyir: "Ondan bir şey yazmayın", Yəhya bin Məin onun haqqında demişdir: "O, yalançıdır və bir şey deyildir."[4]

5. Əhməd bin İbrahim əd-Dürəqi. Bu ravi də zəif ravi kimi qiymətləndirilmişdir. Xətib əl-Bağdadi (1002-1071) onun haqqında yazırdı: "Yəhya bin Məinə deyildi: "İbrahim Dürəqi deyir ki, sən ondan hədis yazırsan?" Yəhya dedi: "Mən ondan heç vaxt hədis yazmaram, çünki o, dəlilik həddindədir."[5]

6. Əbdülməlik bin Ümeyr. Bu ravi də hədis elminin qaydalarına cavab verməyən və alimlər tərəfindən cərh edilən ravilərdəndir. Onun tərcümeyi-halını yazan İbn Həcər yazırdı: "O,

[1] İbn Həcər əl-Əsqəlani. Təhzibüt-təhzib. II c. s. 179.
[2] Həmin mənbə. IV c. s. 115; Zəhəbi. Mizanül-etidal. I c. s. 396.
[3] İbn Həcər əl-Əsqəlani. Təhzibüt-təhzib. XI c. s. 330.
[4] Həmin mənbə. VII c. s. 347.
[5] Xətib əl-Bəğdadi. Tarixi-Bəğdad. IV c. s. 7.

müztəribül-hədisdir" (yəni hədisi hər dəfə müxtəlif formada rəvayət edir). Əhməd də onun haqqında "çox zəif ravidir", sözünü demişdir.[1]

Belə olduğu təqdirdə, hansı ağılla və məntiqlə Əbu Talibin imansız öldyünü demək olar? Biz bu işdən Allaha sığınır və bu əqidədə olan insanlara daha da dərindən düşünmələrini tövsiyə edirik. Bütün bunlardan əlavə, bir çox müsəlman alimləri Əbu Talibin imanı haqqında müstəqil əsərlər yazmışlar. Həmin alimlərdən və onların yazdıqları əsərlərdən aşağıdakıları qeyd etmək olar:

1. "İsbatu-islami-Əbi Talib." (Məhəmməd Məin bin Məhəmməd Əmin bin Talibillah əl-Hindi əl-Hənəfi (öl. 1748).
2. "Əxbaru-Əbi Talib və vələdihi." (Əllamə Hafiz Əbülhəsən Əli bin Məhəmməd əl-Mədaini (752-832).
3. "Əsnal-Mətalib fi nəcati Əbi Talib." (Əllamə Əhməd Zeyni Dehlan (1866/1948).
4. "Bəğiyyətüt-Talib li imani-Əbi Talib." (Əllamə Məhəmməd bin Rəsul əl-Bərzənci).
5. "İmanu-Əbi Talib." (Əhməd bin Qasim).
6. "İmanu-Əbi Talib." (Şeyx Əbülhüseyn Əhməd bin Məhəmməd bin Əhməd bin Tərxan əl-Cərcərai).
7. "İmanu-Əbi Talib." (Şeyx Əbu Əli Əhməd bin Məhəmməd əl-Kufi (öl. 958).
8. "İmanu-Əbi Talib." (Seyid Cəmaluddin ibn Tavus (öl. 1565).
9. "İmanu-Əbi Talib." (Şeyx Müfid (öl. 1022).
10. "İmanu-Əbi Talib." (Ağa Bozorg Tehrani (1876-1970).
11. "Ə Talib muminu-Qüreyş." (Şeyx Abdullah Əli əl-Xinziri əl-Qətifi (öl. 1932).
12. "İmanu-Əbi Talib." (Əllamə Əmini (1902-1970).

Bunlardan başqa, Əbu Talibin çoxlu sayda, hətta bəzi müəlliflərə görə, yüz iyirmi beytlik şeiri də vardır ki, bunun da hamısını o, İslam dininə və Məhəmməd Peyğəmbərin peyğəmbərliyinə aid yazmışdır. Həmin şeirlər aşağıdakı qaynaqlarında keçməkdədir:

1. "Sirətu-İbn Hişam." I c. s. 291, 299.
2. "Şərhu Nəhcil-bəlağə." XIV c. s. 79.
3. "əl-Bidayə vən-nihayə li İbn Kəsir." III c. s. 51, 55.
4. "Sirətün-Nəbəviyyə liz-Zəhəbi." s. 95.

Bütün bu deyilənlər onu göstərir ki, Əbu Talib Peyğəmbərin babası Əbdülmüttəlib öldükdən sonra Peyğəmbəri müdafiə etmiş, ona iman gətirmiş və onu ömrünün axrınadək himayə etmişdir. O, Peyğəmbəri səkkiz yaşında ikən evinə gətirmiş və onun tərbiyəsi ilə xanımı Fatimə bint Əsədlə birlikdə bir valideyin kimi məşğul olmuşlar. Hətta tarix şahiddir ki, o, Peyğəmbəri xanım Xədicə bint Xüveylidlə evləndirmişdir.

Görkəmli alim İbn Əsir (1160-1233) yazırdı: "Əbu Talib gördü ki, Peyğəmbər və Əli namaz qılırlar. Əli onun sağ tərəfindədir. Belə olduqda Cəfərə dedi: "Sən də onun sol tərəfində dayan." Cəfər qalxıb Əlinin sol tərəfində durdu. Əbu Talib bunu görcək sevindi və aşağıdakı şeiri dedi:

"Həqiqətən Əli və Cəfər mənim arxam və güvəndiyimdirlər, zaman ötüb keçdikcə.
Əminiz oğlunu tək buraxmayın ona kömək edin,
And olsun Allaha onu tək buraxmaram."

Bundan başqa, Əbu Talibin Məkkə müşriklərinə dediyi söz də çox əhəmiyyətlidir. O, demişdir: "And olsun Allaha, əgər onu öldürsəydiniz, heç birinizi sağ buraxmazdım və son gücümə qədər sizinlə vuruşardım."[2]

Əbu Talibin bir şeirinin tərcüməsini verməklə bir daha bildiririk ki, o, mömin olaraq dünyadan getmişdir:

"Böyük adamlar bilsinlər ki, Məhəmməd də Musa və İsa kimi peyğəmbərdir.
O da onlar kimi yol göstərəndir. Peyğəmbərlərin hər biri Allah tərəfindən hidayət yolu tutur, camaatı günahdan uzaqlaşdırır.

[1] İbn Həcər əl-Əsqəlani. Təhzibüt-təhzib. VI c. s. 411.
[2] Məhəmməd bin Səd Katib əl-Vaqidi. ət-Təbəqatül-kübra. c. I. Beyrut, 1975, s. 202-203.

Siz onu öldürməyi planlaşdırırsınız, bu istəyiniz xam xəyaldan başqa bir şey deyil. O, bir peyğəmbərdir. Allah dərgahından ona vəhy nazil olur. Bunu deyən şəxs heç vaxt peşman olmaz."[1]

Əli Əbu Talibin vəfat xəbərini Peyğəmbərə bildirdikdə, o, möhkəm ağlayır, onun qüsl, kəfən işlərini icra edir və ona Allahdan bağışlanma diləyir.[2]

Görkəmli İslam alimi Əllamə Əmini yazırdı ki, indiyədək Əbu Talibin haqqında on yeddi kitab yazılmışdır.[3]

5.10. Quran və hədisdə İmam Əlinin şəxsiyyət və fəzilətləri

İmam Əlinin kimliyini, İslamdakı yerini və bir sözlə, fəzilətlərini öyrənmək üçün ən doğru qaynaq Quran və hədislərdir. Çünki bu iki qaynaq İslamın əsas qaynaqlarıdır və heç bir müsəlman firqəsi bu barədə fikir ayrılığına düşməyib. İmam Əlinin fəzilətləri haqqında İslamın bütün məzhəblərinin qaynaqlarında kifayət qədər məlumat vardır. Hətta bəzi müsəlman müəllifləri bu haqqda müstəqil əsərlər də yazmışlar. Biz də bu və ya digər əsərlərdən istifadə edərək, İmam Əlinin haqqında nazil olmuş ayələrdən və Peyğəmbərin onun haqqında söylədiyi hədislərin bir hissəsini burada qeyd edəcəyik. Onu da xatırladaq ki, İslamda heç bir kəsin haqqında bu qədər ayə və hədis deyilməmişdir. Görkəmli İslam alimi Hakim əl-Həskani səhih sənədlə İbn Abbasdan rəvayət edir: "Əbu Talib oğlu Əlinin on səkkiz üstün cəhəti vardır ki, onlardan biri bizdə olsa, mütləq nicat taparıq."[4]

Hüzeyfə bin Yəman isə deyir: "Quranda elə bir **"Ey iman gətirənlər!"** ayəsi yoxdur ki, orada Əliyə işarə olmasın."[5]

Əksər müsəlman alimlərinə görə, Qurani-Kərimdəki aşağıdakı ayələr İmam Əlinin haqqında nazil olmuşdur:

1. İbn Büreydə deyir: **"Bizi doğru yola yönəlt"**[6] ayəsi Məhəmməd və onun əhlinin yoludur."[7]

2. İbn Abbas deyir: **"Müttəqilər üçün hidayətdir"**[8] ayəsi Əbu Talib oğlu Əlinin haqqında nazil olmuşdur. O, heç vaxt Allaha şərik qoşmamış, bütlərə sitayiş etməmişdir. Əli və tərəfdarları Cənnətə hesabsız daxil olacaqlar."[9]

3. İbn Abbas deyir: "Peyğəmbərdən **"Adəmə Rəbbi tərəfindən bir neçə kəlmə öyrədildi və o, onların vasitəsiylə tövbə etdi"** [10] ayəsi haqqında soruşulduqda o, buyurdu: "Məhəmmədin, Əlinin, Fatimənin, Həsənin və Hüseynin haqqına and verdi və tövbəsi qəbul olundu."[11]

4. İbn Abbas deyir: **"Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə ruku edin"**[12] ayəsi Məhəmmədin və Əbu Talib oğlu Əlinin haqqında nazil olmuşdur. Çünki onlar ilk namaz qılanlardır."[13]

5. Abdullah bin Məsud deyir: **"Səni insanlara imam təyin edəcəyəm"**[14] ayəsi haqqında Peyğəmbər buyurdu: "Dəvət mənimlə və Əli ilə sona yetdi. Biz heç vaxt bütə sitayiş etməmişik. Allah məni peyğəmbər, Əlini isə vəsi götürüb."[15]

---

[1] Cəfər Sübhani. Furuği-əbədiyyət. Həzrət Mühəmməd. s. 233.
[2] İbn Əbilhədid. Şərhu Nəhcil-bəlağə. XIV c. Misir çapı. Nəşr ili yoxdur. s. 76.
[3] Əllamə Əmini. əl-Qədir. VII c. s. 402, 404.
[4] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. Beyrut, I nəşri, 1393/1974. s. 15.
[5] Həmin mənbə. I c. s. 48.
[6] Fatihə surəsi, ayə 6.
[7] Seyid Əbu Bəkr ibn Şihabəddin əl-Xədrəmi əş-Şafei. Rüşfətüs-sadi. Misir, 1331 h/q. s. 25.
[8] Bəqərə surəsi, ayə 2.
[9] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 67.
[10] Bəqərə surəsi, ayə 37.
[11] İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. Misir, 1367 h/q. s. 63; Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. I c. Misir, Mətbəətül-Yəməniyyə, 1314 h/q. s. 60.
[12] Bəqərə surəsi, ayə 43.
[13] İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. s. 198.
[14] Bəqərə surəsi, ayə 124.
[15] İbn Məğazili əş-Şafei. Mənaqibu -Əli bin Əbi Talib. s. 276; Əllamə Mir Məhəmməd Salih ət-Tirmizi əl-Kəşəfi. Mənaqibu-Murtəzəvi. Hindistan, Bombey, 1269 h/q.

6. İbn Məsud rəvayət edir ki, Peyğəmbər **"Hər kəsə hikmət verilmişsə, ona çoxlu xeyir verilmişdir"**[1] ayəsinin təfsirində buyurdu: "Hikmət on hissədir, onun doqquzu Əliyə , yerdə qalan biri isə insanlara bölüşdürülüb."[2]

7. Osman əl-Xədivi və bir çox Quran təfsirçiləri öz təfsir əsərlərində **"Öz mallarından gecə və gündüz, gizlində və aşkarda sədəqə verənlərin Rəbbləri yanında mükafatları vardır. Onlar üçün heç bir qorxu yoxdur və onlar heç vaxt kədərlənməzlər"**[3] ayəsinin təfsirində yazırlar: "Bu ayə Əli bin Əbi Talib haqqında nazil olmuşdur. Onun dörd dirhəm pulu vardı. Onun bir dirhəmini gecə, bir dirhəmini gündüz, bir dirhəmini aşkar, bir dirhəmini isə gizli sədəqə vermişdir."[4]

8. **"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə inanmış və möminlər də iman gətirmişlər.Onların hamısı Allaha, onun mələklərinə, kitablarına və bütün peyğəmbərlərinə iman gətirmişlər"**[5] ayəsi barədə Əbi Səlma deyir: "Peyğəmbərdən eşitdim: "Merac gecəsi mən göyə yüksəldikdə, Rəbbim mənə dedi: **"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə inanmış."** Dedim: "Möminlər də." Dedi: "Doğru dedin. Ey Məhəmməd! Mən yer üzünə baxdım orada yalnız səni seçdim. Sənə öz adlarımdan birini qoydum, istədim mənimlə birlikdə sənin adın da yad olunsun. Mən Mahmudam, sən Məhəmməd.

İkinci dəfə yerə baxdıqda Əlini seçdim. Ona da öz adlarımdan biri olan Əlanı qoydum. Mən Əlayam o, Əli. Ey Məhəmməd, Mən səni, Əlini, Həsəni, Hüseyni və onun övladlarını öz nurumdan yaratmışam. Sizin vilayətinizi yer və göy əhlinə göstərdim. Onlardan hər kəs bunu qəbul etdisə, mənim yanımda mömin, qəbul etmədisə, mənim yanımda kafir oldu. Ey Məhəmməd! Əgər bəndələrimdən biri əldən düşənədək mənə ibadət etsə, amma sizin vilayətinizi qəbul etməsə, onu bağışlamaram.

Ya Məhəmməd! Sən onları görmək istəyirsənmi?"

Dedim: "Bəli, ey Rəbbim."

Dedi: "Ərşimin sağ tərəfinə bax! Mən baxdıqda Əlini, Fatiməni, Həsəni, Hüseyni, Əli bin Hüseyni, Məhəmməd bin Əlini, Cəfər bin Məhəmmədi, Musa bin Cəfəri, Əli bin Musanı, Məhəmməd bin Əlini, Əli bin Məhəmmədi, Həsən bin Əlini və Mehdini gördüm. Onlar namaz qılırdılar. Mehdi onların ortasında ulduz təki parıldayırdı..."[6]

9. **"...Onların həqiqi izahını Allahdan başqa kimsə bilməz..."** [7] ayəsinin təfsirində Peyğəmbər buyurdu: "Mən Quranın nazil olması uçun, Əli isə onun izahı üçün vuruşacaq.[8] Əli məndən sonra insanlara Quranın izahı barədə bilmədiklərini öyrədəcəkdir.[9] Bu ayənin təfsirində adı keçən hədisi aşağıdakı alimlər rəvayət etmişlər:

- Hafiz Əhməd bin Əli bin Həcər əl-Əsqəlani. "əl-İsabə fi təmyizis-səhabə." Qahirə, 1327 h/q. I c. s. 22.
- Übeydullah bin Abdullah bin Əhməd Hakim əl-Həskani. "Şəvahidüt-tənzil. Beyrut, I çap, 1393/1974. I c. s. 29. Şeyx Məhəmməd Baqir Məhmudinin təhqiq və əlavəsi ilə.
- Əlaəddin Əli əl-Müttəqi əl-Hindi əl-Hənəfi. "Kənzül-ümmal." Heydərabad, 1364 h/q. VI c. s. 390-391.
- Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. "Yənabiül-məvəddə." Misir, 1384 h/q. s. 521.

---

[1] Bəqərə surəsi, ayə 269.

[2] İsmail bin Ömər ibn Kəsir əş-Şafei. əl-Bidayə vən-nihayə. VII c. Misir, 1348 h/q. s. 359; Əhməd bin Hənbəl. Fəzailu-Əli bin Əbi Talib. I c. Misir,1402 h/q. s. 63; Əlaəddin Əli əl-Müttəqi əl-Hindi. Kənzül-ümmal. VI c. Heydərabad, 1364 h/q. s. 154.

[3] Bəqərə surəsi, ayə 274.

[4] Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. Nəcəf, 1367 h/q. s. 198; İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. Misir, 1308 h/q. s. 78; Əllamə Əbu Abdullah Məhəmməd bin Yusif əl-Kənci əş-Şafei. Kifayətüt-talib. ən-Nəcəfül-əşrəf, 1361 h/q. s. 322; Şeyx Nuriddin Əli bin Məhəmməd bin Səbbağ əl-Maliki. Fusulül-mühimmə. I fəsil; Hafiz Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-üqba. II c. Qahirə, 1356 h/q. s. 206.

[5] Bəqərə surəsi, ayə 285.

[6] Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. Misir, 1384 h/q. s. 486; Əbi İshaq İbrahim əl-Həməvini əş-Şafei. Fəraidüs-simteyn. II c. Misir çapı. Tarixsiz, s. 234; Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. Məqtəlül-Hüseyn. I c. Misir, 1367 h/q. s. 95.

[7] Ali İmran surəsi, ayə 7.

[8] Hafiz Əhməd bin Əli bin Həcər əl-Əsqəlani. əl-İsabə fi təmyizis-səhabə. I c. Qahirə, 1327 h/q. s. 22.

[9] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 29.

- İbn Məğazili əş-Şafei. “Mənaqibu-Əli bin Əbi Talib.” Tehran, 1394 h/q. s. 112.

- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. “Mənaqibu-Xarəzmi.” Nəcəf, 1367 h/q. s. 246.

- Əbi İshaq İbrahim əl-Həməvini əş-Şafei. “Fəraidüs-simteyn.” Misir, tarixsiz. 58-ci fəsil.

- İbn Həcər əl-Heysəmi əş-Şafei. “əs-Səvaiqül-mühriqə” Misir, 1308. s. 75, 93.

- Hafiz Şəmsudddin əz-Zəhəbi. “Mizanül-etidal fi nəqdir-rical.” Hindistan, 1301 h/q. I c. s. 205.

- Əllamə Əbu Abdullah Məhəmməd bin Yusif əl-Kənci əş-Şafei. “Kifayətüt-talib.” Nəcəfül-əşrəf, 1361 h/q. s. 242.

- Əhməd bin Şüeyb ən-Nəsai. “əl-Xəsais fi fəzli Əli bin Əbi Talib.” Misir, 1348 h/q.

- Hakim ən-Nisaburi. “əl-Müstədrək ələs-səhiheyn.” ər-Riyad, Mətbəətün-nəsril-hədisiyyə, tarixsiz, II c. s. 148.

- Əhməd bin Hənbəl. “Müsnədu-Əhməd.” Misir, 1313 h/q. VI c. s. 289.

- Süleyman bin Davud ət-Təyalisi. “Müsnədu-Əbi Davud.” Hindistan, 1321 h/q. III c. s. 9.

- İbn Qüteybə. “əl-İmamə vəs-siyasə.” Mətbəətil-futuhul-ədəbiyyə, 1313 h/q. II c. s. 106.

- Müslüm bin Həccac ən-Nisaburi. “Səhihül-Müslim.” Bulaq, 1290 h/q. IV c. s. 235.

10. Hakim əl-Həskani **“Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini məxluqat üzərində üstün etdi”**[1] ayəsinin təfsirində Peyğəmbərdən belə rəvayət edir: “Həqiqətən Məhəmməd və Əli bin Əbi Talib İbrahim övladlarındandır.”[2]

11. **“Sənə göndərilən bilikdən sonra buna dair sənինlə mübahisə edənlər olsa, onlara de ki: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı: biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü çağıraq və sonra yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!”**[3] ayəsinin təfsirində İslam alimləri yazırlar: “Bu ayə nazil olduqda, Peyğəmbər Hüseyni qucağına aldı, Həsənin əlindən tutdu, Fatimə onun arxasınca, Əli bin Əbi Talib də onların ikisinin arxasınca yeriyərək çıxdılar. Peyğəmbər onlara deyirdi: “Mən dua etdikdə siz amin deyərsiniz.” Xristianların başçısı bu şəxsləri gördükdə dedi: “Ey xristianlar! Mən elə üzlər görürərm ki, əgər onlar dua etsələr, Qiyamətədək yer üzündə heç bir xristian qalmayacaq.”

Həmin İslam alimləri sözügedən hədisi bu və ya digər formada aşağıdakı əsərlərində qeyd etmişlər:

- Şeyx Əhməd Mustafa əl-Məraği. “Təfsirül-Məraği.” Misir, 1385/1966. III c. s. 171.

- Şeyx Süveysi əl-Ayatləğəvi. “Üyunüt-təfasir.” s. 66.

- Şeyx Məhəmməd Məhmud Hicazi. “ət-Təfsirül-vazeh. III c. s. 57.

- Şeyx Süleyman əl-Əcili əş-Şafei. “əl-Futuhatül-İlahiyyə.” I c. s. 283.

- İbn Cövzi Cəlaləddin əl-Bəğdadi. “Zadül-məsir fi ilmit-təfsir.” s. 399.

- Əllamə əl-Hənəfi Şeyx Əli əl-Məhayimi. “Təbirür-Rəhman və təysirül-mənar.” I c. s. 61.

- Şeyxulislam Əbu Səud bin Məhəmməd. “Təfsiru Əbi Səud.” Misir, tarixsiz. I c. s. 244.

- Cəlaləddin əs-Süyuti. “Mutərikül-əqran fi icazil-Quran.” s. 562.

- Şeyx Məhəmməd Əbduh. “Təfsirül-Quranil-Həkim.” III c. s. 322.

- Müslüm bin Həccac ən-Nisaburi. “Səhihül-Müslim.” Bulaq, 1290 h/q. VII c. s. 120.

- Məhəmməd bin Əli ət-Tirmizi. “Səhihüt-Tirmizi.” Bulaq, 1290 h/q. IV c. s. 293.

- Əhməd bin Hənbəl. “Müsnədu-Əhməd.” Misir, Mətbəətül-Yəməniyyə, 1313 h/q. I c. s. 175.

- Hakim ən-Nisaburi. “əl-Müstədrək ələs-səhiheyn.” ər-Riyad, Mətbəətün-nəsril-hədisiyyə, tarixsiz. III c. s. 150.

- Übeydullah bin Abdullah bin Əhməd Hakim əl-Həskani. “Şəvahidüt-tənzil.” Beyrut, I çap, 1393/1974. I c. s. 124,129. Şeyx Məhəmməd Baqir Məhmudinin təhqiq və əlavəsi ilə.

12.Cabir bin Abdullah **“Allaha sığınan şəxs şübhəsiz ki, doğru yola yönəlmişdir”**[4] ayəsinin təfsirində Peyğəmbərin belə buyurduğunu rəvayət edir: “Allah Əlini, həyat yoldaşını və övladlarını

[1] Ali İmran surəsi, ayə 33.
[2] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 118-119.
[3] Ali İmran surəsi, ayə 61.
[4] Ali İmran surəsi, ayə 101.

özünün yaratdıqları üzərinə höccəti etdi. Onlar ümmətim içərisində elm qapılarıdırlar. Hər kəs onlarla hidayət olsa, doğru yola hidayət olmuşdur."[1]

13. **"Hamınız birlikdə Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın"**[2] ayəsinin təfsirində rəvayət olunur ki, Peyğəmbər İmam Əlinin əlindən yapışdı və dedi: "Bu əldən yapışın, həqiqətən o Allahın möhkəm ipidir." Həmçinin buyurmuşdur: "Əlinin vilayətindən ayrılmayın. Hər kəs ondan yapışsa mömin, əks halda isə imandan xaricdir."[3]

14. **"Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. Əgər o ölsə və ya öldürülsə, siz geriyəmi dönəcəksiniz?..."**[4] ayəsinin təfsirində Əllamə Şövkani Peyğəmbərdən belə rəvayət edir: "Hər bir Peyğəmbərin vəsisi vardır, mənim də vəsim Əbu Talib oğlu Əlidir."[5] Digər görkəmli İslam alimi Fəqir əl-Eyni ləqəbi ilə məşhur olan Əllamə əl-Hindi (1483-1567) Əbuzər əl-Qiffaridən Peyğəmbərin belə buyurduğunu rəvayət edir: "Əli Allahın dostudur."[6] Xarəzmi isə bu ayənin təfsirində Peyğəmbərdən belə nəql edir: "Məndən sonra fitnə baş verəcəkdir. Bu zaman Əbu Talib oğlu Əlinin yanında olun. O, haqqla batili bir-birindən ayırandır."[7] Həmçinin Peyğəmbər səhabələrinə buyurmuşdur: "Məndən sonra geriyə dönəcəksiniz."[8]

Bütün bunlardan başqa, sözügedən ayənin təfsirində bəzi İslam alimləri yazırlar: "Ühüd döyüşündə bütün səhabələr Peyğəmbəri atıb qaçdıqda, yalnız İmam Əli və Əbu Dücanə əl-Ənsari öz qılıncları ilə Peyğəmbəri müdafiə etdilər. Buna görə də Allah bu ayəni İmam Əlinin və Əbu Dücanənin haqqında nazil etdi."[9]

15. **"Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilən şəxs muradına çatacaqdır"**[10] ayəsinin təfsirində Səmamə bin Abdullah bin Ənəs, o da babasından Peyğəmbərin belə buyurduğunu rəvayət edir: "Qiyamət günü baş verdikdə Sirat körpüsü Cəhənnəmin üstündə asılacaqdır. Oradan yalnız Əbu Talib oğlu Əlinin vilayət kitabı ilə gələnlər keçəcəklər." Bu hədisi bir çox alimlər nəql ediblər. Onlardan aşağıdakılarını qeyd etmək olar:

- İbn Həcər əl-Əsqəlani. "Lisanül-mizan." Heydərabad, 1331 h/q. I c. s. 51, 57.
- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. "Mənaqibu-Xarəzmi." Nəcəf, 1367. s. 253.
- Hafiz Mühibəddin Təbəri əş-Şafei. "Zəxairül-üqba." Qahirə, 1356 h/q. s. 71.
- Hafiz Şəmsudddin əz-Zəhəbi. "Mizanül-etidal fi nəqdir-rical." Hindistan, 1301 h/q. I c. s. 28.
- Hafiz Əbu Nəim Əhməd bin Abdullah əl-İsbəhani. "Əxbaru-İsbəhan." Beyrut, 1387 h/q. I c. s. 342.
- Hafiz Mühibəddin Təbəri əş-Şafei. "ər-Riyazün-nəzrə." Misir, 1327 h/q. II c. s. 177.
- İbn Məğazili əş-Şafei. "Mənaqibu-Əli bin Əbi Talib." Tehran, 1394 h/q. s. 242.

16. **"Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeyə görə insanlara həsəd aparırlar..."**[11] ayəsinin təfsirində İbn Abbas rəvayət edir: "Bu ayə Peyğəmbərin və Əlinin haqqında nazil olmuşdur. Burada fəzilət peyğəmbərlik, Əliyə aid olan isə imamətdir."[12]

17. **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!"**[13] ayəsinin təfsirində görkəmli Quran təfsirçisi Hakim əl-Həskani mötəbər sənədlərlə Əlidən

---

[1] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 58.
[2] Ali İmran surəsi, ayə 104.
[3] Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. Misir, 1384 h/q. s. 118-119; İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. Misir, 1308 h/q. s. 93; Hakim əl-Həskani, Şəvahidüt-tənzil. I c. s. 131.
[4] Ali İmran surəsi, ayə 144.
[5] Əllamə əş-Şövkani. əl-İqdüs-səmin. Misir, 1348 h/q. s. 8.
[6] Mənaqibu-Əllamə əl-Hindi. Misir, 1389 h/q.
[7] Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. Nəcəf, 1367 h/q. s. 105. Hədis № 108.
[8] Şeyx Əbduləzim ər-Rəbi. Siyasətül-Hüseyn. II c. Ruşdiyyə mətbəəsi, 1378 h/q. s. 109.
[9] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 136.
[10] Ali İmran surəsi, ayə 185.
[11] Ən-Nisa surəsi, ayə 54.
[12] İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. Tehran, 1394 h/q. s. 267; İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. s. 15; Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. s. 121; Əbu Bəkr bin Şihabəddin əl-Xədrəmi əş-Şafei. Rüşfətüs-sadi. Misir, 1231 h/q. s. 37.
[13] Ən-Nisa surəsi, ayə 59.

rəvayət edir: "...Peyğəmbər : "Mənim şəriklərim o kəslərdir ki, Allah onları özünə və mənə yaxın etmişdir", buyurduğu zaman, **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!"**ayəsi nazil oldu. Mən dedim: "Ey Rəsulallah! Əmr sahibləri kimlərdir?" Həzrət buyurdu: "Sən onların birincisisən."[1]

18. **"Ey iman gətirənlər! Allahdan qorxun və sadiqlərlə birlikdə olun"**[2] ayəsinin təfsirində bir çox İslam alimləri İbn Abbasın hədisinə əsasən ayənin Əli bin Əbi Talib haqqında nazil olduğunu bildirmişlər. İbn Abbas demişdir: "Yəni Əli bin Əbi Taliblə birlikdə olun!" Həmin alimlərdən aşağıdakıları qeyd etmək olar:

- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. "Mənaqibu-Xarəzmi." Nəcəf, 1367. s. 198.
- Əbi İshaq İbrahim əl-Həməvini əş-Şafei. "Fəraidüs-simteyn." Misir, tarixsiz. I c. s. 68.
- Əllamə Əbu Abdullah Məhəmməd bin Yusif əl-Kənci əş-Şafei. "Kifayətüt-talib." Nəcəfül-əşrəf, 1361 h/q. s. 111.
- Cəlaləddin əs-Süyuti əş-Şafei. "əd-Dürrül-mənsur fit-təfsiril-məsur." Misir, Mətbəətül-Yəməniyyə, 1314 h/q. III c. s. 390.
- Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. "Yənabiül-məvəddə." Misir, 1384 h/q. s. 119.
- Hafiz Cəmaluddin Yusif ər-Rəzəndi əl-Hənəfi. "Nəzmu dürəris-simteyn." 1377 h/q. s. 92.
- İbn Həcər əl-Heysəmi əş-Şafei. "əs-Səvaiqül-mühriqə." Misir, 1308 h/q. s. 93.

19. **"Bu gün dininizi tamamlayıb mükəmməl etdim, sizə olan nemətimi başa çatdırdım və bir din kimi msizə İslamı bəyənib seçdim"**[3] ayəsinin təfsirində alimlər Əbu Səid əl-Xudrinin rəvayətinə əsaslanaraq ayənin İmam Əlinin haqqında nazil olduğu qənaətindədirlər.[4]

20. **"Sizin rəhbəriniz ancaq Allah, onun peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, iman gətirib namaz qılır və ruku halında zəkat verirlər"**[5] ayəsinin Əli bin Əbi Talib haqqında nazil olmasını əksər təfsir alimləri təsdiq etmişlər. Görkəmli alim Cəlaləddin Süyuti yazırdı: "Əli namazda ruku halında olarkən bir yoxsul ondan kömək istəyir. Əli də barmağındakı üzüyü çıxarıb ona verir. Peyğəmbər yoxsuldan "Bu üzüyü sənə kim verdi?"- deyə soruşduqda, o, Əliyə işarə edib deyir: "Rüku halında olan o kişi!" Bu zaman **"Sizin rəhbəriniz ancaq Allah, onun peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, iman gətirib namaz qılır və ruku halında zəkat verirlər"** ayəsi nazil oldu.[6] Bunu aşağıdakı digər alimlər də öz əsərlərində qeyd etmişlər:

- "Təfsiru-Muhyiddin bin Ərəbi." I c. s. 334.
- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. "Mənaqibu-Xarəzmi." Nəcəf, 1367. s. 186.
- İbn Cərir ət-Təbəri. "Təfsirül-kəbir" ("Camiül-bəyan"). Misir, 1321 h/q. I c. s. 165.
- əl-Vaqidi. "Əsbabün-nüzul." Misir, tarixsiz. s. 148.
- Əllamə əl-Hindi. "Kənzül-ümmal" Heydərabad, 1346 h/q. VI c. s. 405.
- Əllamə Şövkani. "Fəthül-Qədir." II c. s. 50.
- Əllamə Kənci əş-Şafei. "Kifayətüt-talib." s. 250.
- Məhəmməd bin Əhməd əl-Qürtubi. "Təfsirül-Qürtubi." Misir, 1351 h/q. IX c. s. 336.
- Qunduzi əl-Hənəfi. "Yənabiül-məvəddə." s. 202.
- əl-Bəlazuri. "Ənsabül-Əşraf." II c. s. 150.

21. **"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə endirilmiş olanı təbliğ et. Əgər bunu etməsən, Allahın risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!"** [7] ayəsinin təfsirində Hakim əl-Həskani Əbu İshaq əl-Hümeydidən rəvayət edir: "Bu ayə Əli bin Əbi Talibin haqqında nazil olmuşdur."[8] Həmçinin bu

[1] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 148-151.
[2] Tovbə surəsi, 119.
[3] Maidə surəsi, 3.
[4] Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 80; Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. Məqtəlül-Hüseyn. I c. Misir, 1367 h/q. s. 48.
[5] Maidə surəsi, ayə 55.
[6] Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. II c. Misir, Mətbəətül-Yəməniyyə, 1314 h/q. s. 295.
[7] Maidə surəsi, ayə 67.
[8] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 188.

ayənin təfsirində Abdullah bin Əbi Əfva deyir: "Peyğəmbərdən Qədirxum günündə eşitdim ki, tilavət edirdi: **"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə endirilmiş olanı təbliğ et. Əgər bunu etməsən, Allahın risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!"**Sonra o, Əlinin əlini qaldırdı. Onların hər ikisinin qoltuqlarının altı görünürdü. O, dedi: "Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir. İlahi, onu rəhbər bilənə rəhbər ol, onu düşmən bilənə isə düşmən ol!" Sonra yenə dedi: "İlahi, buna şahid ol!"[1]. Görkəmli İslam alimi İbn Qüteybə yazırdı: "Həmədanlı Bərəd adlı bir kişi Müaviyənin yanına getmişdi. Orada o, Əmr Asın Əlinin barəsində danışdıqlarını gördükdə, ona dedi: "Ey Əmr As! Biz böyüklərimizdən eşitmişik ki, Peyğəmbərdən belə rəvayət edirlər: "Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir." Bu söz doğrudur yoxsa yalan? Əmr As dedi: "Doğrudur, mən bunu da əlavə edirəm ki, Peyğəmbərin səhabələri içərisində heç bir kəs Əli qədər üstünlüklərə malik deyildir."[2] Həmçinin Əbu Səid əl-Xudri bu ayənin təfsirində deyir: "Ayə Qədirxum günündə Əlinin üstünlüyü haqqında nazil olmuşdur. Peyğəmbər onun əlini qaldırdı və dedi: "Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir. İlahi, onu rəhbər bilənə rəhbər ol, onu düşmən bilənə isə düşmən ol!" Bundan sonra Ömər bin Xəttab onunla görüşüb dedi: "Mübarək olsun sənin bu məqamın, ey Əli! Sən bizim və bütün möminlərin rəhbəri oldun!" [3] Həmçinin bu hədisi aşağıdakı digər İslam alimləri də öz əsərlərində qeyd etmişlər.

- Hafiz Mühibəddin Təbəri əş-Şafei. "Zəxairül-üqba." Qahirə, 1356 h/q. s. 67.
- Əhməd bin Hənbəl. "Müsnədu-Əhməd." Misir, 1313 h/q. IV c. s. 281.
- Məhəmməd bin Yusif əş-Şafei əl-Bəlxi. "əl-Mənaqib. Hindistan, 1290 h/q. s. 28.
- Cəlaləddin əs-Süyuti əş-Şafei. əd-Dürrül-mənsur fit-təfsiril-məsur. Misir, Mətbəətül-Yəməniyyə, 1314 h/q. II c. s. 297.
- İbn Səbbağ əl-Maliki. "Füsulül-mühimmə." I fəsil.
- İbn Həcər əl-Əsqəlani. "Təhzibüt-təhzib." Heydərabad, 1325 h/q. III c. s. 327.
- Əllamə Zəhəbi. "Mizanül-etidal fi nəqdir-rical." Hindistan, 1301 h/q.. II c. s. 108.
- İbn Əbi Hatəm. "əl-Cərh vət-tədil." I c. II hissə. s. 573.
- Hafiz Əbülqasim Süleyman ət-Təbərani. "Möcəmüs-səğir." I c. s. 71.
- Məhəmməd bin Əhməd əd-Dulabi. "əl-Kuna vəl-əsma." Heydərabad, 1322 h/q. II c. s. 61.

22. **"Əraf üzərində bir dəstə insan vardır ki, onlar cənnət və Cəhənnəm əhlinin hamısını üzlərindən tanıyıb cənnətdəkilərə: "sizə salam olsun"- deyə müraciət edərlər"** [4] ayəsinin təfsirində məşhur İslam alimi İbn Həcər əl-Heysəmi (1503-1566) Sələbinin "Təfsiri-Sələbi" əsərindən İbn Abbas vasitəsilə belə rəvayət edir: "Əraf Sirat körpüsü üzərində bir dayanacaqdır. Onun üzərində Abbas, Həmzə, Əli bin Əbi Talib və Cəfər olacaqdır. Onlar onları sevənləri üzlərinin ağlığından, düşmənlərini isə üzlərinin qaralığından tanıyacaqlar."[5]

23. **"Əraf əhli üzlərindən tanıdıqları adama müraciət edib: "Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi», - deyəcək"**[6] ayəsinin təfsirində məşhur İslam alimi Qunduzi əl-Hənəfi Salmani Farsidən belə rəvayət edir ki, Peyğəmbərdən on dəfədən artıq eşitdim deyirdi: "Ey Əli! Sən və övladlarından olan vəsilər Cənnət və Cəhənnəm arasındakı Ərafda olacaqsınız. Sizi tanıyan və sizin tanıdığınız şəxslər Cənnətə, sizi inkar edən və sizin inkar etdiyiniz şəxslər isə Cəhənnəmə girəcəklər."[7]

24. **"Bir zaman da: "Ya Allah əgər bu sənin tərəfindən gəlmiş haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli əzab göndər!"- demişdilər"**[8] ayəsinin təfsirində bir çox təfsir alimləri belə bir hədis nəql edirlər: "Peyğəmbər Qədirxum günündə İmam Əlinin haqqını elan edib çatdırdıqda, Cabir bin Nəzr bin Haris bin Kəldə əl-Əbdi gəlib Peyğəmbərə dedi: "Allahdan

[1] Həmin mənbə. I c. s. 190.
[2] İbn Qüteybə. əl-İmamət vəs-siyasət. Mətbuətül-futuhil-ədəbiyyə, 1331 h/q.
[3] Əbu Bəkr Məhəmməd bin Həsən əş-Şafei, Təfsirun-Ən-Nisa surəsiburi, Təbərinin Təfsirül-kəbir əsərinin haşiyəsində, c. VI, Misir-1321 h/q. s. 194-195; İbn Əsir əş-Şafei. Üsdül-qabə fi mərifətis-səhabə. II c. Qahirə, 1280 h/q. s. 67.
[4] Əraf surəsi, ayə 46.
[5] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. Misir, 1038 h/q. s. 101.
[6] Əraf surəsi, ayə 48.
[7] Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. s. 452.
[8] Ənfal surəsi surəsi, ayə 32.

bizə gətirdin ki, Ondan başqa Allah yoxdur, sən onun rəsulusan. Sonra bizə namaz, oruc, həcc və zəkatı dedin, biz də qəbul etdik. Sonra da bunlarla kifayətlənməyib əmin oğlunu bizə rəhbər təyin edirsən və deyirsən: "Kimin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir." Bu Allahdan olan bir xəbərdir, yoxsa özündən deyirsən?" Peyğəmbər buyurdu: "And olsun Allaha, bu xəbər Allahdandır." Cabir üz çevirib getdikdə dedi: "Əgər Allahdandırsa, başımıza daş yağdırsın, yaxud da bizə əzab göndərsin." Bu zaman onun başına göydən daş düşüb arxasından çıxdı və onu yandırıb məhv etdi."[1]

25. **"Bu Allahdan və onun Peyğəmbərindən böyük həcc günü insanlara bildirişidir. Allahın və onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur"**[2] ayəsinin təfsirində Cərir ət-Təbəri (838-923) yazırdı: "Bəraət surəsi nazil olduqda Peyğəmbər onu Əbu Bəkrlə müşriklərə oxumaq üçün göndərdi. Lakin sonra Əlini onun ardınca göndərib surəni ondan alıb özü oxumasını tapşırdı. Əbu Bəkr Peyğəmbərin yanına gəlib: "Mənim haqqımda bir şeymi nazil oldu, ya Rəsulallah?"- dedi. Peyğəmbər buyurdu: "Yox, lakin mənə əmr olundu ki, onu ya mən, yaxud da Əhli-beytimdən birisi çatdırsın."[3] Bu ayənin təfsirində görkəmli hədis alimi Məhəmməd bin İsmail bin İbrahim əl-Buxari belə nəql edir: "Qurban günü Əliyə izin verildi ki, Bəraət surəsini müşriklərə oxusun və onlar bu ildən sonra Kəbəni lüt-üryan təvaf etməsinlər."[4]

Xatırladaq ki, bu rəvayətləri aşağıdakı digər İslam alimləri öz əsərlərində nəql etmişlər:

- Cəlaləddin əs-Süyuti əş-Şafei. "əd-Dürrül-mənsur fit-təfsiril-məsur." Misir, Mətbəətül-Yəməniyyə, 1314 h/q. Tövbə surəsinin əvvəli.

- Şeyx Məhəmməd Tahir bin Aşur. "Təfsirüt-təhrir vət-tənvir." Darüt-Tunisiyyə, 1973. X c. s. 100.

- Hafiz Cəmalüddin Yusif əl-Hənəfi. "Nəzmüd-dürərüs-simteyn." 1377 h/q. VIII c. s. 364-365.

- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. "Mənaqibu-Xarəzmi. Nəcəf, 1367 h/q. s. 24-223.

- Əhməd bin Hənbəl. "Müsnədu-Əhməd." Misir, 1313 h/q. III c. s. 212.

- İbn Həcər əl-Heysəmi əş-Şafei. "əs-Səvaiqül-mühriqə." Misir, 1308 h/q. s. 75-93.

- Əbi İshaq İbrahim əl-Həməvini əş-Şafei. "Fəraidüs-simteyn." Misir, tarixsiz, s. 58.

- Əllamə Əbu Abdullah Məhəmməd bin Yusif əl-Kənci əş-Şafei. "Kifayətüt-talib." Nəcəfül-əşrəf, 1361 h/q. s. 242.

- Hafiz Şəmsudddin əz-Zəhəbi. "Mizanül-etidal fi nəqdir-rical." Hindistan, 1301 h/q. I c. s. 205.

- Əhməd bin Hənbəl. "Fəzailu-Əli bin Əbi Talib." 1402 h/q. I c. s. 43.

- Əhməd bin Hənbəl. "Müsnədu-Əhməd." Misir, Məktəbətül-Yəməniyyə, 1313 h/q. III c. s. 212.

26. **"Sən ancaq qorxudansan. Hər tayfanın bir rəhbəri vardır!"**[5] ayəsinin təfsirində İbn Abbas rəvayət edir ki, Peyğəmbər Əlinin əlindən tutub buyurdu: "Mən qorxudanam, Əli isə hidayət edəndir. Ey Əli! Sən hidayət olunanları doğru yola hidayət edənsən."[6]

27. **"Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz kökü yerdə möhkəm olub budaqları səmaya ucalan gözəl bir ağac kimidir. O ağac Rəbinin izni ilə bəhrəsini hər vaxt verir..."**[7] ayəsinin təfsirində Asim bin Həmzədən rəvayət olunur ki, Peyğəmbər

---

[1] İbn Səbbağ əl-Maliki. Fusulül-mühimmə. s. 36; Əbi İshaq İbrahim əl-Həməvini əş-Şafei. Fəraidüs-simteyn. XIII fəsil; Seyid Mumin Şəbləncı əş-Şafei. Nurul-Əbsar fi mənaqibi-alin-Nəbiyyil-Muxtar. Beyrut, Məktəbətuş-Şəbiyyə. Tarixsiz, s. 78.

[2] Tövbə surəəsi, ayə 3.

[3] ət-Təbəri. Camiül-bəyan fi təfsiril-Quran. I c. Misir, 1321h/q. s. 46.

[4] Səhihi-Buxari. Misir, V c. Mətbəətül-xeyr, 1320 h/q. s. 37.

[5] Rəd surəsi, ayə 7.

[6] Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. "Rəd" surəsinin təfsiri; Əllamə əl-Hindi. Kənzül-ümmal. VI c. Heydərabad, 1346 h/q. s. 154; Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 86; Hakim ən-Nisaburi. əl-Müstədrək ələs-səhiheyn, II c. ər-Riyad, Mətbəətün-nəsril-hədisiyyə. Tarixsiz, s. 241; Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. s. 99; Əllamə əl-Kənci əş-Şafei. Kifayətüt-talib. ən-Nəcəfül-əşrəf, 1361 h/q. s. 109; Cərir ət-Təbəri. Camiül-bəyan fi təfsiril-Quran. XIII c. s. 72; Fəxrəddin Razi. Məfatihül-qeyb. "Rəd" surəsinin təfsiri.

[7] İbrahim surəsi, ayə 24-25.

buyurdu: “Ağacın kökü mən, budağı Əli, Həsən və Hüseyn onun bəhrəsi, tərəfdarlarımız isə onun yarpaqlarıdır. Pak şeydən ancaq pak şey çıxmazmı?”[1]

28. **“Əgər bilmirsinizsə, zikr əhlindən soruşun”**[2] ayəsinin təfsirində Cərir ət-Təbəri İmam Əlidən rəvayət edir: “Zikr əhlində məqsəd bizik.”[3]

29. **“Qohum-əqrəbanın haqqını ver”** [4] ayəsi nazil oduqda, Peyğəmbərdən soruşuldu: “Qohum-əqrəban kimlərdir?” Həzrət buyurdu: “Fatimə, onun əri, Həsən və Hüseyn.”[5]

30. **“Qiyamət günü bütün insanları öz imamları ilə çağıracağıq...”**[6] ayəsinin təfsirində İbn Abbas nəql edir: “Qiyamət günü olduqda Allah hidayət imamlarını çağıracaq. Onlar Əli , Həsən və Hüseyndir . Sonra Allah onlara deyəcək: “Siz və tərəfdarlarınız hesabsız Cənnətə girin!”[7]

31. **“Həqiqətən iman gətirib yaxşı işlər görənlər üçün Allah bir sevgi yaradacaqdır...”**[8] Bu ayənin təfsirində görkəmli təfsir alimləri İbn Abbasdan belə bir hədis rəvayət edirlər ki, Peyğəmbər buyurmuşdur: “Bu ayə Əlinin haqqında nazil olub.”[9]

32. **“Və mənə öz ailəmdən vəzir ver. Qardaşım Harunu! Onunla arxamı möhkəmləndir. Onu işimə ortaq et”**[10] ayəsinin təfsirində İbn Abbas rəvayət edir: “Peyğəmbər Əlinin əlindən tutdu və səmaya qaldıraraq buyurdu: “İlahi, Musa bin İmran səndən istəmişdir, mən də Məhəmməd səndən istəyirəm ki, köksümü açıb genişlədəsən, işimi yüngülləşdirəsən, dilimin düyününü açasan ki, camaatım məni yaxşı anlasınlar, ailəmdən mənə Əlini vəzir ver, onunla arxamı möhkəmlət və onu işlərimə şərik et!” İbn Abbas deyir: “Peyğəmbər bu duanı etmişdi ki, nida edənin səsini eşitdim ki, deyirdi: “Ey Əhməd! Sənin istədiklərin verildi.”[11]

33. **“Hər kəs mənim öyüd nəsihətimdən üz döndərsə, güzəranı daralar və Biz Qiyamət günü onu məhşərə kor gətirərik!”**[12] ayəsinin təfsirində İbn Abbasdan rəvayət olunur ki, demişdir: “Hər kəs İmam Əlinin vilayətini tərk etsə, Allah onu kor və lal edəcəkdir.”[13]

34. **“Yaxın qohumlarını qorxut!”**[14] ayəsinin təfsirində İmam Əli buyurur: “Bu ayə nazil olan zaman Peyğəmbər məni çağırıb boynumdan tutdu və dedi: “Bu mənim qardaşım, vəsim və sizin içərinizdə olan xəlifəmdir. Onu eşidin və ona tabe olun. Bu zaman camaat ayağa qalxıb Əbu Talibə dedilər: “Oğluna tabe oldun, onu sənə əmir təyin etdilər.”[15]

35. **“Biz Nuhu və onunla birlikdə gəmidə olanları qurtardıq və bu hadisəni aləmlərə ibrət etdik”**[16] ayəsinin təfsirində İbn Abbas deyir: “Peyğəmbər Əliyə xitabən buyurdu: “Ey Əli! Sən və məndən sonra sənin övladların Nuhun gəmisi kimisiniz ki, kim ona mindisə, nicat tapdı, kim arxa çevirdisə, qərq oldu. Siz həm də ulduzlar kimisiniz. Qiyamətə qədər bir ulduz batdıqda yerinə

---

[1] əl-Kənci əş-Şafei. Kifayətüt-talib. s. 220; Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 311-312; Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 126; İbn Əsir. Üsdül-qabə. IV c. s. 22; İbn Həcər əl-Əsqəlani. Təhzibüt-təhzib. VI c. Heydərabad, 1325 hq/. s. 320; Əbdurrəuf əl-Mənavi əş-Şafei. Feyzül-Qədir. III c. Misir, 1356, s. 46.

[2] Nəhl surəsi, ayə 43.

[3] Cərir ət-Təbəri. Camiül-bəyan. XVII c. s. 5; Əllamə əl-Hindi. Kənzül-ümmal. III c. Heydərabad, 1346 h/q. s. 95; Sibt ibn Covzi əl-Hənəfi. Təzkirətül-xəvvas. s. 87.

[4] İsra surəsi, ayə 26.

[5] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 131; Hakim əl-Həskani. Şəvahidüt-tənzil. II c. s. 134; Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. IV c. s. 176.

[6] İsra surəsi, ayə 71.

[7] Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. Misir, 1384 hq/. s. 483.

[8] Məryəm surəsi, ayə 96.

[9] Əbu Bəkr Məhəmməd bin Həsən əş-Şafei. Təfsirün-Nisaburi. Təbərinin “Təfsirül-kəbir” əsərinin haşiyəsində. II c. Misir, 1321 h/q. s. 520; İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. Misir, 1308 h/q. s. 170; Hafiz Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-üqba. c. I, Qahirə, 1356 h/q, s. 89; Cəlaləddin əs-Süyuti, əd-Dürrul-mənsur IV c. s. 287; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 197; İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. s. 327.

[10] Taha surəsi, ayə 29-32.

[11] İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. Hədis № 378.

[12] Taha surəsi, ayə 124.

[13] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 379-380.

[14] Şuəra surəsi, ayə 214.

[15] Əllamə Məhəmməd bin Məhəmməd əl-Hüseyni. ət-Tibyan fi ülumil-Quran. II c.; Məhəmməd bin Cərir ət-Təbəri. Tarixul-üməm vəl-müluk. II c. Misir, Mətbəətül-istiqamə, 1357 h/q. s. 321.

[16] Ənkəbut, surəsi, ayə 15.

başqası çıxar.” Qeyd etmək lazımdır ki, bu hədis mütəvatir hədislərdəndir[1] və onu aşağıdakı alimlər rəvayət ediblər:

- İbn Məğazili əş-Şafei. “Mənaqibu-Əli bin Əbi Talib. Tehran, 1394 h/q. s. 132-134.
- Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. “Yənabiül-məvəddə.” Misir, 1384 h/q. s. 28.
- Xətib əl-Bağdadi. “Tarixu-Bəğdad.” Qahirə, Mətbəətüs-səadət, 1340 h/q. XII c. s. 91.
- İsmail bin Kəsir əş-Şafei. “Təfsirül-Quranil-Əzim.” “Fəthül-Bəyan” əsərinin haşiyəsində. IX c. s. 115.
- Hakim ən-Nisaburi. “əl-Müstədrək ələs-səhihey.” ər-Riyazd, Mətbəətün-nəsril-hədisiyyə, tarixsiz. III c. s. 150.
- Hafiz Əbu Nəim Əhməd bin Abdullah əl-İsbəhani. “Hilyətül-övliya və təbəqatil-övsiya.” Beyrut, Darül-kitabil-ərəbi, 1387/1967.
- Hafiz Şəmsəddin əz-Zəhəbi. “Mizanül-etidal fi nəqdir-rical.” Hindistan, 1301 h/q. I c. s. 224.
- Hafiz əl-Heysəmi. “Məcməüz-zəvaid.” IX c. s. 168.

36. “**Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün - iki dəstənin bir-birilə qarşılaşdığı gün bəndəmizə nazil etdiyimiz ayələrə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və yolçularındır. Allah hər şeyə qadirdir”**[2] ayəsi haqqında təfsir alimləri yazırlar: “Əbu Talib oğlu Əli Peyğəmbərə ən yaxın qohumdur. O, Peyğəmbərin əmisi oğlu, kürəkəni və qardaşıdır.” Həmin alimlərdən aşağıdakıları qeyd etmək olar:

- Cərir ət-Təbəri. “Camiül-bəyan fi təfsiril-Quran.” Misir, 1321 h/q. Ənfal surəsinin təfsiri.
- Əhməd bin Hənbəl. “Müsnədu-Əhməd.” Misir, Məhtəbətül-Yəməniyyə, 1313 h/q. I c. s. 320.
- İmam Qəzali əş-Şafei. “İhyau ülumid-din.” əl-Heyətül-ammə lil-kitab. Beyrut-Qahirə, tarixsiz, III c. s. 410.
- Əllamə Şeyx Məhəmməd Tahir bin Aşur. “Təfsirüt-təhrir vət-tənvir.” Tunis, 1373 h/q. I c. s. 9.
- Carullah Məhəmməd bin Ömər əz-Zəməxşəri. “Təfsirül-Kəşşaf.” Misir, 1308 h/. Ənfal surəsinin təfsiri.
- əl-Qasimi. “Təfsirül-Qasimi.” Misir, 1377 h/q. VII c. s. 301.

37. **“Əgər onlar səni aldatmaq istəsələr, sənə təkcə Allah kifayətdir. O Allah ki, səni öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi”** [3] ayəsinin təfsirində Əbu Hüreyrə Peyğəmbərdən belə rəvayət edir: “Ərşin üzərində yazılmışdır: “Mən o Allaham ki, məndən başqa heç bir Allah yoxdur. Mən təkəm və mənim heç bir şərikim yoxdur. Məhəmməd mənim bəndəm və rəsulumdur. Onu Əbu Talib oğlu Əli ilə qüvvətləndirdim!” Bu hədisi aşağıdakı alimlər rəvayət ediblər:

- Hafiz Mühibəddin Təbəri əş-Şafei. “Zəxairül-üqba.” Qahirə, 1356 h/q. s. 69.
- Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi. “Yənabiül-məvəddə.” Misir, 1384 h/q. s. 94.
- İbn Məğazili əş-Şafei. “Mənaqibu-Əli bin Əbi Talib.” Tehran, 1394 h/q. s. 39.
- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. “Mənaqibu-Xarəzmi.” Nəcəf, 1367 h/q. s. 234.
- Əhməd bin Abdullah Mühibəddin ət-Təbəri. ər-Riyazün-nəzrə. Misir, 1327 h/q. II c. s. 272.
- Əllamə Əlaəddin Əli əl-Müttəqi əl-Hindi əl-Hənəfi. “Kənzül-ümmal.” Heydərabad, 1364 h/q. VI c. s. 157.
- Xətib əl-Bağdadi. “Tarixu-Bağdad.” Qahirə, Mətbəətüs-səadət, 1340 h/q. XI c. s. 157.

38. **“...Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir”** [4] ayəsinin İmam Əli , Fatimə , Həsən və Hüseyn haqqında nazil olmasına aid saysız

[1] Seyid Sadiq əş-Şirazi. 110 ayə nəzələt fi həqqi Əliyyin (ə). Beyrut, Müəssisətu fikril-islami, I nəşri, 1423/2002. s. 96.
[2] Ənfal surəsi, ayə 41.
[3] Ənfal surəsi, ayə 61.
[4] Əhzab surəsi, ayə 33.

dərəcədə hədis vardır. Bu hədislərin hamısını burada qeyd etmək mümkün olmadığından, yalnız qaynaqları qeyd etməklə kifayətlənirik:

- Əhməd bin Hənbəl. "Müsnədu-Əhməd." Misir, Məhtəbətül-Yəməniyyə, 1313 h/q. VI c. s. 292.
- Hakim ən-Nisaburi. "əl-Müstədrək ələs-səhiheyn." ər-Riyad, Mətbəətün-nəsril-hədisiyyə, tarixsiz. III c. s. 125.
- Hafiz Mühibəddin Təbəri əş-Şafei. "Zəxairül-üqba." Qahirə, 1356 h/q. s. 23.
- Şeyx Əhməd Mustafa əl-Məraği. "Təfsirül-Məraği." Misir, 1385 h/q. 1966. XXII c. s. 7.
- Əbu Cəfər Əhməd bin Məhəmməd ət-Təhavi. "Müşkilül-Asar." Hindistan, Heydərabad, 1333 h/q. I c. s. 333.
- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. "Məqtəlül-Hüseyn." Misir, 1367 h/q. I c. s. 95.
- Əbülhəsən İzəddin Əli bin Məhəmməd bin Əsir. "əl-Kamil fit-tarix." Qahirə, Darüt-təbaətil-miziyyə, 1356 h/q. III c. s. 204.
- Əhməd bin Şüeyb ən-Nəsai. "Xəsaisu-Əmirilmuminin." s. 4.

39. "**O və mələkləri sizin üçün salavat göndərirlər"**[1] ayəsinin təfsirində Malik bin Ənəs Peyğəmbərdən belə rəvayət edir: "Mələklər mənə və Əliyə yeddi il salavat göndəriblər." Soruşuldu ki, nə üçün ey Rəsulallah? Həzrət buyurdu: "Ona görə ki, Mən və Əlidən başqa heç kəsin "la ilahə illəllah"kəlməsi göyə yüksəlməmişdir."[2]

40. "**Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda gedin və yedikdən sonra söhbətə qapılmayıb dağılın. Bu Peyğəmbərə əziyyət verir, amma o, sizdən utanırdı..."**[3] ayəsinin təfsirində Cabir bin Abdullah əl-Ənsari Peyğəmbərin belə buyurduğunu deyir: "Hər kəs Əliyə əziyyət versə, mənə əziyyət vermişdir."[4]

41**. "Həqiqətən Allah və mələkləri Peyğəmbərə salavar göndərir. Ey iman gətirənlər! Siz də ona salavat göndərib layiqincə salamlayın!"**[5] ayəsinin təfsirində məşhur hədis alimi Buxari Kəb bin Ucrədən rəvayət edir: "Peyğəmbərə deyildi: "Sənə necə salavat göndərək?" Həzrət buyurdu: "Belə deyin: "Allahummə salli alə Muhammədin və əla ali Muhammməd... – İlahi, Məhəmməd və onun ailəsinə salavat göndər."[6] Bundan başqa, bir çox İslam alimləri bu ayədə Əliyə işarə olduğunu, onun Peyğəmbərin ən yaxın ailə üzvü olduğunu qeyd etmələri İmam Əlinin fəzilətlərinə bir nümunədir. Həmin alimlərdən aşağıdakıları qeyd etmək olar:

- Əbdürrəuf əl-Mənavi əş-Şafei. "Feyzül-Qədir fi şərhil-camiis-səğir." Misir, 1356 h/q. V c. s. 19.
- Məhəmməd bin İsmayıl əl-Buxari. "əl-Ədəbül-müfrəd." s. 93.
- İbn Həcər əl-Heysəmi əş-Şafei. "əs-Səvaiqül-mühriqə. Misir, 1308 h/q. s. 88.
- Şeyx Əhməd Mustafa əl-Məraği. "Təfsirül-Məraği." Misir, 1385 h/q. 1966. XXII c. s. 34.
- Əhməd bin Hənbəl. "Müsnədu-Əhməd." Misir, 1313 h/q. V c. s. 353.
- Xətib əl-Bağdadi. "Tarixu-Bağdad." Qahirə, Mətbəətus-səadət, 1340 h/q. XIV c. s. 303.
- İbn Həcər əl-Əsqəlani. "Fəthül-bari fi şərhi səhihil-Buxari." Misir, 1378 h/q. XIII c. s. 411.
- Hakim ən-Nisaburi. "əl-Müstədrək ələs-səhiheyn." ər-Riyad, Mətbəətün-nəsril-hədisiyyə, tarixsiz. I c. s. 69.
- Əbu Əbdullah Məhəmməd bin Yezid bin Macə əl-Qəzvini. "Sünənu-İbn Macə." Dəməşq, Məktəbətu İbn Həcər, 1424/2004. s. 211.

[1] Əhzab surəsi, ayə 43

[2] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 31-32; Hafiz Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-Üqba, s. 64; əl-Həməvini əş-Şafei. Fəraidüs-simteyn. I c. s. 47; İbn Əsir əş-Şafei. Üsdül-qabə. IV c. s. 18.

[3] Əhzab surəsi, ayə 53.

[4] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. II c.

[5] Əhzab surəsi, ayə 56.

[6] Səhihi-Buxari. ər-Riyad, Məktəbətu daris-salam, 1419/1999. Kitabüt-təfsir, s. 844.

42. "**...Biz hər şeyi hesaba alıb zəmanə imamının yanında təsbit etmişik**"[1] ayəsinin təfsirində görkəmli İslam alimi Qunduzi əl-Hənəfi yazırdı: "Bu ayə nazil olduqda, Peyğəmbərdən soruşuldu: "Ey Allahın Rəsulu! O Tövratdır, İncildir, yoxsa Quran?" Həzrət buyurdu: "Xeyr! Onların heç biri deyil! Bu zaman Əbu Talib oğlu Əli onun yanına gəldi. Peyğəmbər ona işarə edərək buyurdu: "Bu o imamdır ki, Allah hər bir elmi onun yanında sayıb qoymuşdur."[2]

43. "**Salam olsun Ali Yasinə!**"[3] ayəsinin təfsirində bir çox alimlər İbn Abbasdan rəvayət edirlər: "Yəni Ali-Məhəmmədə salam olsun. Yasin suryanicə ya insan! Ya Məhəmməd! deməkdir" Həmçinin İmam Əlidən rəvayət olunur: "Yasin Məhəmməddir , biz isə Ali Məhəmmədik" .[4] Digər görkəmli müsəlman alimləri ümmulmöminin Aişədən rəvayət edirlər: "Peyğəmbər Əlini , Fatiməni , Həsəni və Hüseyni bir yerə topladı və "**...Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir"**[5] ayəsini belə açıqladı: "Əhli-beyt bunlardır, Peyğəmbərin xanımları bura daxil deyildir."[6]

44. "**...De ki, mən də bunun müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm"**[7] ayəsi nazil olduqda, camaat Peyğəmbərdən soruşdu: "Ey Allahın Rəsulu! Sənin yaxın qohumların kimlərdir ki, onların sevgisi bizə vacib edildi?" Həzrət buyurdu: "Əli , Fatimə və onların iki oğlu."[8]

45. "**Və bir də öndə olanlar, öndə olanlar! Bunlar** (Allah dərgahına) **yaxın olanlardır. Bunlar Nəim cənnətlərində olacaqlar**"[9] ayəsinin təfsirində bu ayənin İmam Əliyə və onun tərəfdarlarına aid olması haqqında Peyğəmbərdən belə nəql olunur: "Bunlar Əli və onun tərəfdarlarıdır. Onlar Allah dərgahına ən yaxın olanlardır və onlar Nəim cənnətində olacaqlar."

Bu hədisi aşağıdakı təfsir və hədis alimləri rəvayət ediblər:

- Məhəmməd bin Cərir ət-Təbəri. "Tarixül-üməm vəl-müluk." Misir, Mətbəətül-istiqamə, 1357 h/q. III c. s. 312.
- Əbu Hənifə Nöman bin Sabit. "Müsnədül-İmam Əbi Hənifə." Lahur, Mətbəətül-Məhəmmədi, 1306 h/q. I c. s. 110.
- Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. "Mənaqibu-Xarəzmi." Nəcəf, 1367 h/q. s. 32, 195.
- İsmail bin Ömər bin Kəsir əş-Şafei. "əl-Bidayə vən-nihayə." Misir, 1348 h/q. I c. s. 231.
- Hafiz Şəmsəddin əz-Zəhəbi. "Mizanül-etidal fi nəqdir-rical." Hindistan, 1301 h/q. I c. s. 536.
- Əbu Davud ət-Təyalisi. "Müsnədu-Əbi Davud ət-Təyalisi." Hindistan, 1321 h/q. s. 360.
- Əbulhəccac əl-Məzzi əş-Şafei. "Təhzibül-kamal." VII c. s. 336.
- Əllamə Heysəmi əş-Şafei. "Məcməüz-zəvaid." IX c. s. 102.
- Əllamə əz-Zəhəbi. "Tarixül-İslam." II c. s. 193.

Bütün bu deyilənlərdən əlavə, Peyğəmbərin İmam Əlinin və onun tərəfdarları haqqında çoxlu sayda hədisi vardır ki, İslam tarixində heç kəsin haqqında bu qədər hədis nəql olunmamışdır. Həmin hədislərdən bir neçəsini mötəbər qaynaqlardan nəql edirik. Peyğəmbər buyurmuşdur:

---

[1] Yasin surəsi, ayə 12.

[2] əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. Misir, 1384 h/q. s. 77.

[3] Saffat surəsi, ayə 130.

[4] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. II c. s. 110-112; Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. V c. Misir, Mətbəətül-Yəməniyyə, 1314 h/q. s. 286.

[5] Əhzab surəsi, ayə 33.

[6] Səhihi-Müslim. c. II, Bulaq, 1290 h/q. s. 231; Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. ər-Riyad, Mətbəətun-nəsril-hədisiyyə. Tarixsiz, s. 146; Sünəni-Tirmizi. II c. Hindistan, Bulaq, 1290 h/q. s. 393; Əhməd bin Hənbəl. Müsnədi-Əhməd. VI c. Misir, 1313 h/q. s. 313; Carullah əz-Zəməxşəri. Təfsirül-Kəşşaf. II c. Misir, 1308 h/q. s. 339; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 35; İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. Misir, 1308 h/q. s. 87.

[7] Şura surəsi, ayə 87.

[8] İbn Kəsir. Təfsirül-Quranil-əzim. III c. "Şura" surəsi; Seyid Qutb. Fi zilalil-Quran. XXV c. Livan. Tarixsiz. "Şura" surəsi; Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. "Şura" surəsi; İbn Səbbağ əl-Maliki. Fusulül-mühimmə; əl-Həməvini əş-Şafei. Fəraidüs-simteyn. I c. Misir çapı. Tarixsiz, I fəsil; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 39; əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. s. 368; əl-Hənəfi Xarəzmi. Məqtəlül-Hüseyn. I c. Misir, 1367 h/q. s. 27.

[9] Vaqiə surəsi, ayə 10-12.

“Əgər beş nəfər - Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn olmasaydı, Allah Adəmi, Cənnəti, Cəhənnəmi, Ərşi, Kürsünü, Göyləri, Yerləri, Mələkləri, Cinləri və İnsanları yaratmazdı. Məhəmməd və Əli eyni nurdan yaranmış, Mələklər də Əlinin üzünün nurundan yaranmışlar.”[1]

“Ey Əli! Sən razı deyilsənmi ki, Cənnətdə mənimlə birlikdə olasan? Həsən, Hüseyn və övladlarımız arxamızda, zövcələrimiz övladlarımızın arxasında, tərəfdarlarımız isə sağ və solumuzda olalar?.”[2]

“Ey Əli! Cənnətə ilk girən dörd şəxsdir: mən, sən, Həsən və Hüseyn. Övladlarımız arxamızca, zövcələrimiz övladlarımızın arxasınca, tərəfdarlarımız isə sağ və solumuzdan ora daxil olarlar.”[3]

“Ey Əli! Allah səni, nəslini, övladlarını, ailəni, tərəfdarlarını və tərəfdarlarını sevənləri bağışlamışdır.”[4]

“Ey Əli! Sən və tərəfdarların hovuzun kənarına üzünüz ağ və nur saçan halda gələcəksiniz...”[5]

İbn Abbas deyir: “**İman gətirib yaxşı əməl edənlər yaradılmışların ən xeyirliləridirlər**”[6] ayəsi nazil olduğu zaman Peyğəmbər Əliyə buyurdu: “Yaradılmışların ən xeyirlisi sən və tərəfdarlarındır. Siz Qiyamət günü razı olmuş halda gələcəksiniz. Düşmənləriniz isə qəzəbli və başları yuxarı gözləri isə aşağı dikilmiş halda gələcəklər.” Əli dedi: “Ey Allahın Rəsulu, düşmənlərim kimlərdir?” Həzrət buyurdu: “Səndən uzaqlaşıb və səni söyən kimsələr. Xeyir işlərdə bir-birlərini ötənlərə eşq olsun!” Deyildi: “Onlar kimlərdir? Həzrət buyurdu: “Ey Əli! Sənin tərəfdarların və səni sevənlər.”[7]

“Ey Əbəl-Həsən! Sən və tərəfdarların Cənnətdəsiniz.”[8]

Həmçinin Peyğəmbər buyurmuşdur: “And olsun canım əlində olana! Əli və onun tərəfdarları Qiyamət günü nicat tapanlardır.”[9]

“Ey Əli! Sən mənim mən də sənin qardaşınam. Mən peyğəmbərliyə sən isə imamətə seçilmisən. Mən və sən bu ümmətin atasıyıq. Sən mənim vəsim, varisim və iki oğlumun atasısan. Sənə tabe olan mənə tabe olmuşdur. Sənin dostların mənim dostlarımdır. Sənin düşmənlərin mənim düşmənlərimdir. Sən kovsər hovuzunun və bəyənilmiş məqamın sahibisən. Səni dost tutan necə də xoşbəxt, düşmən tutan isə necə də bədbəxtdir! Mələklər Allaha səni sevməklə və vilayətinlə yaxınlaşırlar. Göylərdə səni sevənlərin sayı yerdəkilərdən daha çoxdur. Ey Əli! Sən məndən sonra insanlar üzərində Allahın höccətisən. Sənin sözün mənim sözümdür. Sənin əmrin mənim əmrimdir. Sənin qadağan mənim qadağamdır. Sənə itaət mənə itaətdir və sənə qarşı çıxmaq mənə qarşı çıxmaqdır. Sənin dəstən mənim dəstəmdir, mənim dəstəm isə Allahın dəstəsidir.”[10]

Peyğəmbər buyurur: “Cəbrail mənə dedi: “Həqiqətən Allah Əlini sevir. Mələklər Əlini sevdikləri qədər heç bir kimsəni sevmirlər. Allah Qiyamətədək Əliyə və onun tərəfdarlarına istiğfar diləyən mələklər yaratmışdır.”[11]

“Allah peyğəmbərləri müxtəlif ağaclardan (nəsillərdən), mən və Əlini isə eyni ağacdan yaratmışdır. Mən o ağacın kökü, Əli budağı, Həsən və Hüseyn meyvəsi, tərəfdarlarımız isə onun yarpaqlarıdır. Hər kəs o ağacdan yapışsa, nicat tapar, kim uzaqlaşsa, məhv olar.”[12]

Həmçinin Peyğəmbər buyurmuşdur: “Ey insanlar! Hər kəs Əhli-beytimə nifrət etsə, Allah onu Qiyamət günü yəhudi kimi dirildəcək.” Cabir bin Abdullah dedi: “Ey Allahın Rəsulu! O şəxs namaz

---

[1] Seyid Haşim Bəhrani. Qayətül-məram. I c. s. 18-19; İbrahim bin Məhəmməd əş-Şafei. Fəraidüs-simteyn. I c. s. 36. Hədis № 1.

[2] İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. Misir, 1308 h/q. s. 98.

[3] Həmin mənbə.

[4] Həmin mənbə. s. 98-144; Əbu Bəkr bin Şihabəddin əl-Xədrəmi əş-Şafei. Rüşfətüs-sadi. Misir, 1231h/q. s. 81.

[5] İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. s. 124.

[6] Bəyyinə surəsi, ayə 7.

[7] Cəlaləddin əs-Süyuti. əd-Dürrul-mənsur. “Bəyyinə” surəsi; İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. s. 99.

[8] Bu hədisi Dəraqutni də rəvayət etmişdir. (Bax: İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 99).

[9] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. İran, 1313 h/q. s. 66-67.

[10] əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. Ustanə, 1301 h/q. s. 123.

[11] Həmin mənbə. s. 256.

[12] Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. Heydərabad çapı. s. 160; Şeyx Əbdulqadir Əhməd bin Mustafa əd-Diməşqi. Tarixi-İbn Əsakir. IV c. s. 318; əl-Hənəfi Xarəzmi. Məqtəlül-Hüseyn. I c. Nəcəfül-əşrəf. Tarixsiz. s. 60.

qılıb oruc tutsa da?" Həzrət buyurdu: "Bəli, namaz qılıb oruc tutsa da! Mən Əli və tərəfdarları üçün istiğfar diləyirəm."[1]

Hər bir insanın fəzilətləri onun gördüyü işlərə və qoyduğu izlərə görədir. İmam Əlinin fəzilətləri onun həm İslamda gördüyü işlərinə və həm də İslamda qoyduğu izlərinə görədir. Bu fəzilətlərin hamısını iki qrupda yerləşdirmək olar. Onlardan birincisi nəfsi fəzilətlər, ikincisi isə bədəni fəzilətlərdir. İmam Əli bu iki növ fəzilətləri bütün incəliklərini özündə ehtiva edən şəxsdir.

Nəfsi fəzilətlər dedikdə, əsasən, insanın malik olduğu iman nəzərdə tutulur. Bu elə bir fəzilətdir ki, heç bir şey onunla tərəzinin gözündə çəkilə bilməz. Buna Qurani-Kərim işarə edərək buyurur: "**Allah ona şərik qoşanların günahlarını bağışlamaz, amma bundan başqa günahları istəsə bağışlayar**."[2] Bütün müsəlmanlar bu fikirdə müttəfiqdirlər ki, İmam Əli İslamda ilk imanın zahir edən şəxsdir. O, heç vaxt, bir göz qırpımı qədər olsun belə Allaha şərik qoşmamış və heç bir bütə sitayiş etməmişdir. Əksinə, o, bütləri sındıran bir şəxs kimi tarixdə məşhur olmuşdur. Buna işarə edən bir hədisdə o həzrətin özü buyurur: "Mən Peyğəmbərlə birlikdə Kəbəyə gəldim. O, mənə dedi otur, mən də oturdum. Sonra Peyğəmbər kürəyimə çıxdı. Mənim onu saxlamağa gücüm olmadı. O, mənim buna gücümün yetmədiyini görüb kürəyimdən yerə düşdü. Peyğəmbər yerə oturdu və mənə dedi: "Çıx kürəyimə." Mən də onun kürəyinə çıxdım və o, mənə dedi: "qalx!"

...Mən bütləri qırıb sındırdım."[3]

İmam Əlinin fəzilətləri İslamda o qədər çox və alidir ki, hətta bəzi səhabələrin özləri onun fəzilətinə yetişmək arzusunda olmuşlar. Belə ki, Ömər bin Xəttab deyir: "Əli bin Əbi Talibi xatırlayın! Mən Peyğəmbərdən eşitdim ki, Əlinin haqqında üç şey dedi. Mən çox istəyərdim ki, onlardan biri mənim olaydı. Bu mənim üçün günəşin üstünə işıq saçdığı şeylərdən daha xeyirli olardı.

Mən, Əbu Bəkr, Əbu Übeydə bin Cərrah və Peyğəmbərin bir neçə səhabəsi birlikdə idik. Peyğəmbər əlini Əlinin çiyninə vurub dedi: "Ey Əli! Sən İslamda ilk müsəlman şəxssən. Sən möminlər içərisində ilk iman edən şəxssən. Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Hər kəs səni sevmədən məni sevdiyini desə, yalan danışmışdır."[4]

İmam Əlinin imanının güclü olduğuna möhkəm dəlillərdən biri də aşağıdakı hədisdir. Belə ki, bir gün Həsən və Hüseyn möhkəm xəstələnmişdilər. Peyğəmbər Əbu Bəkr və Ömərlə birlikdə onları yoxlamağa getmişdi. Onlar ərəblərin adəti üzrə dedilər: "Ey Əbülhəsən! Sənin oğlanlarının sağalmasına nəzir deyirik."

Əli dedi: "Mən də bu xəstəlik onlardan getsə, üç gün oruc tutaram."

Bunu eşidən Fatimə dedi: "Mən də üç günlük oruc nəzri edirəm."

Onların xidmətçisi olan Fizzə də eyni nəzri etdiyini dedi.

Bundan sonra Həsən və Hüseyn sağaldı. İmam Əli borc buğda almaq üçün yəhidi Şəmun bin Haban əl-Xeybərinin yanına getdi. O, yəhudidən üç sa[5] buğda aldı. Buğdanı evə gətirib xanım Zəhraya verdi. O da buğdadan beş kündə çörək bişirdi ki, hər kəs bir kökə yesin. İmam Əli məğrib namazını Peyğəmbərlə birlikdə qılıb evinə döndü. Elə iftar etmək üçün süfrəyə oturmuşdular ki, birdən bir müsəlman yoxsul qapının arxasından səsləndi: "Salam olsun sizə, ey Məhəmmədin Əhli-beyti! Məni yedirdin, Allah sizi Cənnət süfrəsindən yedirtsin." Bunu eşidən İmam Əli dedi: "Mənim payımı ona verin." Fatimə dedi: "Qalan payları da verək." Bütün çörəklər yoxsula verildi. Onlar bütün gecəni yalnız su ilə keçirdilər.

Səhəri gün Fatimə yenə də həmin qayda üzrə çörək bişirdi. İmam Əli məğrib namazını Peyğəmbərlə birlikdə qıldıqdan sonra evinə gəldi. Elə istəyirdilər ki, iftar etsinlər, bir yetimin səsi eşidildi. O, deyirdi: "Salam olsun sizə, ey Məhəmmədin Əhli-beyti! Mən mühacir ailəsindən olan bir yetiməm, atam Əqəbə döyüşündə şəhid olub. Mənə yemək verin, Allah sizi Cənnət süfrəsindən yedirtsin." Bunu eşidən İmam Əli və onun ailəsi öz yeməklərini yetimə verdilər və həmin gecəni də əvvəlki gecə kimi keçirtdilər.

---

[1] Hafiz Nuriddin Əli bin Əbi Bəkr əl-Heysəmi. Məcməüz-zəvaid. IX c. Qahirə. Tarixsiz. s. 172.

[2] Ən-Nisa surəsi, ayə 48.

[3] Əhməd bin Hənbəl. Müsnədi-Əhməd. I c. s. 84.

[4] Əllamə Əli əl-Müttəqi əl-Hindi. Kənzül-ümmal. VI c. s. 395.

[5] Bir sa 2,917 kq.-dır.

Üçüncü gün olduqda, Fatimə yenə də yerdə qalan bir salıq buğdanı bişirdi. İmam Əli məğrib namazını Peyğəmbərlə birlikdə qıldıqdan sonra evinə döndü. Elə ki istəyirdilər iftar etsinlər, bu zaman bir əsir gəlib dedi: "Salam olsun sizə, ey Məhəmmədin Əhli-beyti! Məni əsir etmisiniz, amma mənə yemək vermirsiniz. Məni yedirdin. Allah sizi Cənnət süfrəsindən yedirtsin." İmam Əli və ailəsi əvvəlki günlərdə olduğu kimi, bu dəfə də yeməyi əsirə verdilər. Beləcə, onlar üç gün ac oruc tutmuş oldular. Dördüncü gün İmam Əli Həsən və Hüseyni götürüb Peyğəmbərin yanına gəldilər. Aclıqdan onların rəngləri solmuşdu. Bunu görən Peyğəmbər dedi: "Ey Əbəlhəsən! sizə nə olub ki, gözümə zəif və solğun görünürsünüz? Qızım Fatimənin yanına gedək. Onlar birlikdə Fatimənin yanına gəldilər. O, mehrabda namaz qılırdı. Aclıqdan onun qarnı belinə yapışmış, iki qat olmuş və gözləri çuxura düşmüşdü. Bunu görən Peyğəmbərin gözləri yaşardı və dedi: "Allah bunlara yardım et, Məhəmmədin Əhli-beyti acından ölmək üzrədir." Bu zaman Cəbrail nazil olub dedi: "Ya Məhəmməd! Götür bunu, Allah əhli beytini təbrik edir." Peyğəmbər dedi: "Nəyi götürüm, ey Cəbrail?" Cəbrail ona "**Həl Əta**" surəsini verdi."[1]

O həzrətin bədəni fəzilətləri dedikdə, isə ilk ağıla gələn onun şücaətidir. Bütün dünya tarixçiləri şahiddirlər ki, İmam Əlinin Bədr, Ühüd, Xeybər, Xəndək və s. İslam döyüşlərində göstərdiyi cəngavərlik özündən sonrakı döyüş məktəblərinin əsas təlimi olmuşdur. Əbəs deyildir ki, Peyğəmbər məhz İmam Əlinin Xeybər günü Əmr bin Əbdvüddə endirdiyi zərbəni belə qiymətləndirmişdir: "Əlinin Xeybər günü vurduğu zərbə Qiyamətədək olan cinlərin və insanların ibadətlərindən üstündür."[2]

Həmçinin İmam Əli Peyğəmbərin səhabələri içərisində Cənnət yeməklərindən yeyən yeganə şəxslərdəndir. Buna bütün İslam məzhəbinin mötəbər qaynaqlarında rəvayət olunan "Dinar" hədisi dəlildir. Məşhur səhabə Əbu Səid əl-Xudri rəvayət edir: "Əli ağır ehtiyac içində idi və onun evində heç bir şey yox idi. O, ruzi üçün evindən çıxdı və bir dinar pul tapdı. O, tapdığı pulu elan etdisə də, ona sahib çıxan olmadı.

Fatimə ona dedi: "Sənə nə olub? Onu bizim üçün un al. Əgər sahibi çıxarsa, qaytararsan."

İmam Əli un almaq üçün evdən çıxdı və un satan bir kişi ilə rastlaşdı. O, un satana dedi: "Unu neçəyə verirsən?"

Kişi dedi: "Filan qiymətə."

İmam Əli dedi: "Çək! Kişi unu çəkdi, İmam Əli pulu ona verdikdə o, pulu almayacağına and içdi."

İmam Əli evinə döndü və bu hadisəni Fatiməyə xəbər verdi.

Fatimə dedi: "Subhanallah! Kişinin ununu götürmüsən özün də pulla qayıtmısan!"

İmam Əli dedi: "O, pulu almayacağına and içdi, mən nə edim?"

İmam Əli pulu elan etməyə davam edirdi və bu arada onlar unu yeyib qurtardılar. Amma pula sahib çıxan olmadı. İmam Əli yenidən onu götürüb un almağa getdi. Yenə də yolda həmin un satanla rastlaşdı və ona dedi: "unu neçəyə verirsən?"

Kişi dedi: "Filan qiymətə."

İmam Əli dedi: "Çək! Kişi çəkdikdə İmam Əli pulu ona verdi. Lakin kişi yenə də pulu almayacağına and içdi. İmam Əli unu götürüb evə döndü və Fatiməni bu hadisədən xəbərdar etdi."

Fatimə dedi: "Subhanallah! Kişinin ununu götürmüsən özün də pulla qayıtmısan!"

İmam Əli dedi: "O, pulu almayacağına and içdi, mən nə edim?"

Fatimə dedi: "Keşkə sən ona nad içməyə imkan verməyəydin."

İmam Əli pulu elan etməyə davam edirdi və bu arada onlar unu yeyib qurtardılar. Amma pula sahib çıxan olmadı. İmam Əli yenidən onu götürüb un almağa getdi. Yenə də yolda həmin un satanla rastlaşdı və ona dedi: "Unu neçəyə verirsən?"

Kişi dedi: "Filan qiymətə."

İmam Əli dedi: "Çək!" Kişi unu çəkdi.

İmam Əli ona dedi: "And olsun Allaha! Pulu almasan götürməyəcəyəm. O, tez pulu kişinin üstünə atıb getdi."

---

[1] Əllamə Həsən bin Mutəhhər əl-Hilli. Kəşfül-yəqin fi fəzaili-Əmirilmuminin (ə). Tehran, I nəşri, 1411/1991. s. 92-97. Bu hədisi Sələbi "Təfsiri-Sələbi" əsərində də rəvayət etmişdir.

[2] Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 32; Əllamə əl-Məclisi. Biharül-ənvar. XX c. s. 216.

Peyğəmbər Əlini görən zaman buyurdu: “Dinarın haq-hesabı necə oldu, ey Əli!” İmam Əli ona hadisəni danışdıqda, Peyğəmbər buyurdu: “Bilirsənmi o kişi kimdir? O, Cəbraildi. Allah tərəfindən sizə ruzi gətirirdi. And olsun canım əlində olan Allaha! Əgər and içməsəydin, bu iş davam edəcəkdi.”[1]

Bura qədər qeyd olunan ayə və hədislərdən məlum oldu ki, Əbu Talib oğlu Əlinin imaməti, təqvası, fəzilət və üstünlükləri Allah tərəfindən yüksək qiymətləndirilmiş və onları öz rəsulunun dilindən söyləmişdir. Xoşbəxtlikdən o həzrətin haqqında deyilmiş hədislər ən mötəbər qaynaqlarda yer almış və zaman-zaman rəvayət formasında nəsildən-nəsilə ötürülmüşdür. İslamın ilkin çağlarından tutmuş bugünədək yazılmış bütün təfsir, hədis və tarix əsərlərində İmam Əlinin və onun tərəfdarlarının haqqında hədislər rəvayət olunmuşdur. Lakin təəssüflər olsun ki, həzrətin bu ali məqamına qısqanclıq hissi ilə yanaşan bəzi şəxslər bu növdən olan hədisləri gözardı etmiş və yaxud da onları yalana çıxarmaq istəmişlər. Amma bunu bilmək lazımdır ki, Uca Allahın yüksəltdiyi kimsəni heç kəs alçalda, Onun alçaltdığı kimsəni isə heç kəs yüksəldə bilməz. Həmçinin onun nur verdiyi kimsələrin nurunu heç bir bəşər qüvvəsi ilə söndürmək olmaz. Necə ki, üca Rəbbimiz özü buyurmuşdur: **“Onlar öz ağızları ilə Allahın nurunu söndürmək istəyirlər, lakin kafirlər istəməsələr də Allah öz nurunu tamamlayacaqdır.”**

İmam Əlinin haqqında İbn Kəsir aşağıdakı hədislərin varid olduğunu deyir:

5.11. Qədirxum hədisi

Əhməd bin Hənbəl Əbu Tüfeylin belə dediyini rəvayət etmişdir:

“Əli Kifə məscidinin həyətində insanları bir yerə yığdı. Sonra onlara belə dedi: “Hər müsəlmanın Qədirxum günündə Peyğəmbərdən eşitdiyi şeylər üçün Allah xatirinə şahidlik etməsini xahiş edirəm. Orada olan insanlardan bir çoxu ayağa qalxdılar və Peyğəmbərin Qədirxumda Əlinin əlini tutub insanlara belə dediyinə şahidlik etdilər: “Məninim möminlərə canlarından daha yaxın olduğumu bilirsinizmi?”

Qədirxumda olan müsəlmanlar da: “Bəli, ya peyğəmbər!” dedilər. Bunun üzərinə Peyğəmbər belə buyurdu: “Mən kimin rəhbəriyəmsə, bu Əli də onun rəhbəridir. Allahım Əliyə dostluq edənə dost ol, Əliyə düşmənlik edənə də düşmən ol.” Bu söhbətdən sonra mən oradan ayrıldım. İçimdə bir şübhə duymağa başladım. Zeyd bin Ərqəmlə rastlaşdım. Ona belə dedim: “Bilirsənmi İmam Əli belə və belə deyir?”

Zeyd: “Sən bunu inkarmı edirsən? Peyğəmbərin Əli üçün belə dediyini mən də eşitdim” dedi.

Əbu Bəkr əş-Şafei Zeyd bin Ərqəmın belə dediyini rəvayət etmişdir:

“İmam Əli Peyğəmbərin: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, Əliyə dostluq edənə dost, ona düşmənlik edənə də düşmən ol!” dediyinə şahidlik etmələri üçün insanlardan xahiş etdi. Mən də aralarında idim.”

Əbu Yala ilə Abdullah bin Əhməd Əbdürrəhman bin Əbi Leylanın belə dediyini rəvayət etmişlər:

“Kufə məscidinin həyətində Əlinin insanlardan belə xahiş etdiyini gördüm:

Qədirxum günündə Peyğəmbərin: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” dediyini kim eşitmişsə, Allah xatirinə burada şahidlik etsin.”

İmam Əlinin bu xahişi üzərinə Bədr döyüşnə qatılmış on iki adam qalxıb şahidlik etdilər. Hətta onlardan birinə baxdım. Onlar dedilər ki: “Qədirxum günündə Peyğəmbərin belə buyurduğuna şahid olduq.” “Mən möminlərə öz canlarından daha yaxın deyiləmmi? Mənim xanımlarım da onların analarıdır. Elə deyilmi?” “Bəli, elədir, ya Peyğəmbər!” - deyilincə, belə buyurmuşdu: “Deməli, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Allahım, Əliyə dost olana dost ol, ona düşmən olana da düşmən ol!”

Əhməd bin Hənbəl, İbn Əbu Asim, Nəsai, İbn Həcər və başqaları bu hədisi dəyişik sənədlərlə İmam Əlidən belə rəvayət etmişlər:

[1] Əllamə əl-Hilli. Kəşfül-yəqin fi fəzaili-Əmirilmuminin (ə). s. 452-454; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 230; İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. s. 366. Hədis № 414.

“İshaq dedi: “Əbu Əmr mənə Kəsr bin Ziyaddan, o Məhəmməd bin Ömərdən, o atası Ömər bin Əlidən, o da Əli bin Əbu Talibdən xəbər verib, dedi: “Peyğəmbər Qədirxumda mənim əlimdən tutdu və dedi:

- Allah taalanın sizin Rəbbiniz olduğuna şahidlik edirsinizmi?

Dedilər:

- Bəli, ya Rəsulallah!

Peyğəmbər dedi:

- Allah və Rəsulunun sizlərə öz canınızdan daha yaxın olduğuna şahidlik edirsinizmi? Allah və Rəsulunun sizin vəliniz olduğuna da şahidlik edirsinizmi?

Dedilər:

- Bəli, ya Rəsulallah!

Peyğəmbər belə buyurdu:

- Allah və Rəsulu kimin rəhbəridirsə, Əli də onun rəhbəridir. Mən sizə iki qiymətli əmanət qoyub gedirəm ki, onlara sarıldıqca əsla azmayacaqsınız; Allah taalanın Kitabı və itrətim Əhli-beytim.

İbn Həcər hədisi nəql etdikdən sonra yazırdı: “Bu isnad səhihdir.”[1]

Digər görkəmli hədisşünas Büseyri də sözügedən hədisi öz kitabında nəql etdikdən sonra hədis haqqında yazırdı: “İshaq hədisi səhih isnad ilə rəvayət etmişdir.”[2]

Başqa bir rəvayətdə də Əbüdürrəhman bin Əbi Leyla bu şahidlikdə olaraq belə demişdir: “On iki adam ayağa qalxıb belə dedilər:

- Bəli ey Əli, o zaman Peyğəmbər sənin əlini tutaraq belə demişdi: “İlahi, Əliyə dost olana dost ol, ona düşmən olana düşmən ol. Ona kömək edənə kömək et, onu köməksiz buraxanı da köməksiz burax.”

Əhməd bin Hənbəl Rəbah bin Harisin belə dediyini rəvayət etmişdir:

“Bir neçə adam Kufə məscidinin həyətində dayanan Əlinin yanına gələrək belə dedilər:

- Salam olsun sənə, ey mövlamız! Əli onlardan belə soruşdu:

- Siz ərəb qövmsünüz, necə sizin mövlanız ola bilərəm?

- Qədirxum günündə Peyğəmbərin belə buyurduğunu eşitdik:

“Mən kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır. O adamlar oradan ayrılıb getdikləri zaman mən də arxalarına düşdüm. Onların kim oldğunu soruşduğumda, dedilər ki: “Biz Ənsardan bir dəstəyik.” Aralarında Əbu Əyyüb əl-Ənsari də vardı.”

Əbu Bəkr bin Əbi Şeybə Rəbah bin Harisin belə dediyini rivayət etmişdir:

“Kufə məscidinin həyətində otub Əli bin Əbu Taliblə ilə söhbət edirdik. Bu zaman üzərində səfər izləri olan bir adam gəlib Əliyə xitab olaraq: “Salam olsun sənə, ey mövlam!” dedi. O adamın kim olduğunu Əlidən soruşduqda, Əbu Əyyub olduğunu söylədi. Əbu Əyyub belə dedi:

- Mən Peyğəmbərin belə buyurduğunu eşitdim: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.”

Əhməd bin Hənbəl Zeyd bin Ərqəmin belə dediyini rəvayət etmişdir:

“Peyğəmbərlə birlikdə Qədirxum deyilən bir vadidə fasilə verdik. O, namaz qılmağımızı əmr etdi. Namazı günortanın istisində qıldıq. Bizə bir xütbə oxudu. Xütbə oxuyarkən özü üçün günəşin hərarətindən qorunması məqsədi ilə səmur ağacının üzərinə bir örtü örtülərək gölgəlik düzəldildi. Xütbəsində bizə belə dedi:

- Mənim hər möminə öz canından daha yaxın olduğuma şahidlik edirsinizmi?

Biz dedik:

- Bəli, elədir, ya Peyğəmbər!

- Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, Əliyə düşmənlik edənə düşmən ol, ona dostluq göstərənə də dost ol.”

Hüzeyfə bin Üseydin belə dediyi rəvayət edilmişdir:

[1] İbn Həcər. Mətalibül-aliyyə. XVI c. s. 142. Hədis № 3943.

[2] Büseyri. İthafül-xiyartil-məhara. VII c. s. 210.

“Peyğəmbər Vida həccindən dönəndə səhabələrini Bəthadakı bir-birinə yaxın ağacların ətrafında dayanmağı əmr etdi. Sonra onlara xəbər göndərdi. Onlar da o ağacların altında namaz qıldılar. Sonra Peyğəmbər qalxıb səhabələrinə belə dedi:

- Ey insanlar! Hər şeyi öz hökmü altına alan və özü də hər şeydən xəbərdar olan Allah mənə xəbər verdi ki, hər peyğəmbər mütləq özündən əvvəlki Peyğəmbərin yarı ömürü qədər yaşayacaq. Zənn edirəm ki, yaxında mən Rəbbimin hüzuruna dəvət ediləcəyəm. Mən də bu dəvətə razılıq edəcəyəm. Məndən soruşulacaq, sizdən də soruşulacaq. Siz nə diyəcəksiniz?

- Sənin risaləti təbliğ etdiyinə, nəsihət verdiyinə, zəhmət sərf etdiyinə şahidlik edəcəyik. Allah sənə xeyr mükafat versin!

- Allahdan başqa ilah olmadığına, Məhəmmədin də onun qulu və elçisi olduğuna, Allahın cənnətinin, Cəhənnəminin haqq olduğuna, Qiyamət saatının şübhəsiz gələcəyinə və Allahın məzardakıları dirildəcəyinə şahidlik edirsinizmi?

- Bəli, buna da şahidlik edirik.

- İlahi, şahid ol. Ey insanlar, doğrusu Allah mənim mövlamdır. Mən də möminlərin mövlasıyam və onlara canlarından daha yaxınam. Mən kimin mövlasıyamsa, bu (Əli) də onun mövlasıdır. İlahi, Əliyə dostluq göstərənə dost ol. Ona düşmənlik edənə də düşmən ol. Ey insanlar, mən sizin elçinizəm. Sizlər genişliyi Bəsrə ilə Səna arasındakı məsafədən daha uzun olan bir hovuzun başına gələcəksiniz. O hovuzda ulduzlar sayı qədər qablar vardır. İki ədəd gümüş qab vardır. Yanıma gəldiyinizdə aranızda tərk etdiyim iki qiymətli şeyi soruşacağam. Siz məndən sonra onlara necə davrandığınıza diqqət yetirin. O qiymətli şeylərin ən böyüyü Allahın kitabıdır. Bir tərəfi Allahın əlində bir tərəfi də sizin əlinizdədir. Ona sarılın ki, yolunuzdan sapmayasnız. Onun hökmlərini dəyişdirməyin. Sizə tərk edtiyim iki qiymətli şeydən ikincisi də mənim Əhli-beytimdir. Çünki elmi hər şeyə nüfuz edən və hər şeydən xəbərdar olan Allah mənə bildirdi ki, bu iki qiymətli şey sizin hovuzun yanına gəlməyinizə qədər bir-birindən ayrılmayacaqlar.”

Əbdürrəzzaq Bərra bin Azibin belə dediyini rəvayət etmişdir:

“Peyğəmbərlə birlikdə yola çıxdıq. Qədirxum yerinə çatdığımızda dayandıq. O əsnada bir nəfər toplanmamız üçün çağırdı. Toplandığımızda Peyğəmbər bizə belə dedi:

- Mən sizə canınızdan daha yaxın deyiləmmi?

- Bəli, ya Peyğəmbər!

- Mən sizə analarınızdan daha yaxın deyiləmmi?

- Bəli, ya Peyğəmbər!

- Mən sizə atalarınızdan dah yaxın deyiləmmi?

- Bəli, ya Peyğəmbər!

- Elə deyiləmmi, elə deyiləmmi, elə deyiləmmi?

- Bəli, ya Peyğəmbər!

- Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Allahım Əliyə dost olana dost ol, ona düşmənlik edənə düşmən ol!

Xəttab oğlu Ömər də Peyğəmbərin bu danışığından sonra Əliyə belə dedi:

- Təbrik edirəm səni, ey Əbu Talibin oğulu Əli! Bu gün sən bütün möminlərin vəlisi və dostu oldun.”

Xətib əl-Bağdadi Əbu Hüreyrənin belə dediyini rəvayət etmişdir:

“Hər kim zilhiccə ayının on səkkizinci günündə oruc tutsa, ona altmış ay oruc tutmuşun savabı yazılar. O gün Qədirxum günüdür. O gündə Peyğəmbər Əbu Talib oğlu Əlinin əlini tutmuş və səhabələrə belə demişdir:

- Mən möminlərin vəlisi deyiləmmi?”

- Bəli, ya Peyğəmbər!

- Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Peyğəmbərin bu söhbətindən sonra Xəttab oğlu Ömər Əliyə belə dedi:

- Ey Əbu Talibin oğlu sən nə xoşbəxtsən! Bu gün sən həm mənim həm də hər müsəlmanın mövlası oldun!”

Bu hadisə üzərinə Uca Allah bu ayeyi-kəriməni nazil etdi: **“Bu gün sizə dininizi ikmal etdim**.”[1]

Qədirxum hədisinin səhihliyinə gəldikdə, Əhməd bin Şüeyb ən-Nəsai (830-915) və Əhməd bin Hənbəldin (780-855) sənədlərindəki bütün ravilər etibarlı, isnadlar müttəsildir (bitişikdir). Nəsaininin “Xəsais” kitabının mühəqqiqlərindən olan Əbu İshaq əl-Hüveyni hədislərin səhih olduğunu söyləmişdir. Eyni şəkildə Əhməd bin Hənbəlin “Müsnəd” kitabının mühəqqiqlərindən olan Şüeyb əl-Ərnaut da hədis haqqında yazırdı: “İsnadı səhihdir, raviləri isə etibarlıdır. Fətr bin Xələfdən başqa digər raviləri Buxari və Müslimin ravilərindəndir ki, o da “Sünən” sahiblərinin ravilərindəndir.”[2]

Yenə Əhməd bin Hənbəlin digər kitabı “Fəzail əs-Səhabə”nin mühəqqiqlərindən olan Vəsiyullah bin Məhəmməd Abbas yazırdı: “İsnadı həsəndir.”[3]

Hədis və təfsir alimi olan İbn Kəsir (1301-1373) də Qədirxum hədisini “əl-Bidayə vən-nihayə” adlı kitabında Nəsaidən rəvayət etdikdən sonra (hədis) haqqında yazırdı: “Bu sənəd həsəndir.”[4]

Sələfilərin son dövr hədisşünaslarından olan əl-Albani də hədis haqqında yazırdı: “Qədirxum hədisini Əhməd bin Hənbəl, İbn Hibban “Səhih” əsərində, İbn Əbi Asim, Təbərani və Büseyri “Muxtarə”də rəvayət etmişdir. Mən deyirəm: “Hədisin isnadı Buxarinin şərtlərinə görə səhihdir və Heysəmi “Məcməüz-zəvaid”də rəvayət etdikdən sonra belə demişdir: “Əhməd rəvayət etmişdir, Fətr bin Xələfdən başqa raviləri “Səhih”in raviləridir ki, o da etibarlıdır.”[5]

Bu səhih hədisdən gördüyümüz kimi, İmam Əli özü bu rəvayəti nəql etmiş və səhabələrdən də şahidlik etmələrini istəmişdir. Dördüncü rəvayətdə olduğu kimi, səhabədən on səkkiz nəfər və birinci rəvayətdə olduğu kimi, səhabə Zeyd bin Ərqəm bunu Peyğəmbərdən eşitdiklərinə şəhadət etmişdir ki, bunu da səhabə Əbu Tüfeyl rəvayət etməkdədir. Bu isə iyirmi bir səhabənin (İmam Əli, Zeyd bin Ərqəm , Əbu Tüfeyl və on səkkiz nəfər) Qədirxum hədisini nəql etdiklərini göstərir ki, bu da Qədirxum hədisinin təvatürünün isbatı üçün kifayətdir.[6]

5.12. Quş hədisi

Bu hədis haqqında bəzi alimlər əsərlər təsnif etmişlər. Bunun çeşidli rəvayət yolları vardır.[7]

Əbu İsa ət-Tirmizi Ənəsin belə dediyini rəvayət etmişdir:

“Peyğəmbərin yanında bir quş vardı. Peyğəmbər o quşla əlaqədar olaraq belə dedi: “İlahi, məxrluqatın arasında ən çox sevdiyin kimsəni mənə göndər mənimlə birlikdə bu quşun ətindən yesin.” Peyğəmbər belə dedikdən sonra, Əli gəldi və quşu onunla bərabər yedi.”

Əbu Yəla Ənəs bin Malikin belə dediyini rəvayət etmişdir: “Peyğəmbərə çörəyiylə birlikdə qızardılmış bir kəklik hədiyyə edildi. Peyğəmbər də: “İlahi, varlıqlarından ən çox sevdiyin bir kimsəni mənə göndər mənimlə birlikdə bu yeməyi yesin”, - deyə dua etdi. Aişə də: “İlahi, bu yeməyi Peyğəmbərlə birlikdə yeməsini atama nəsib et!” dedi. Mən də: “İlahi, bu yeməyi Peyğəmbərlə birlikdə yeməyi Səd bin Übeydəyə nəsib et!” dedim. Qapının vurulduğunu eşitdim. Qapını vuran adama: “Peyğəmbər məşğuldur, işinin dalınca get!” dedim. Təkrar qapının

---

[1] əl-Maidə surəsi, ayə 3.

[2] Əhməd bin Hənbəl. Müsnəd. IV c. s. 379. Hədis № 19321.

[3] Əhməd bin Hənbəl . Fəzail əs-səhabə. II c. s. 849. Hədis № 1167.

[4] İbn Kəsir. əl-Bidayə vən-nihayə. VII c. s. 671.

[5] əl-Albani. Silsilətu əhadis əs-səhihə. IV c s. 331.

[6] Qədirxum hədisinin mənbələri haqqında bax: İbn Həcər. Mətalibül-aliyyə. XVI c. s. 142. Hədis № 3943; Büseyri. İthafül-xiyartil-məhara. VII c. s. 210; Nəsai. Xəsais . s. 81-82. Hədis № 88; s. 85-86. Hədis № 93-93; s. 119-120. Hədis № 151; Əhməd bin Hənbəl. Müsnəd. IV c. s. 379. Hədis № 19321; Əhməd bin Hənbəl. Fəzail əs-səhabə. II c. s. 849. Hədis № 1167; İbn Kəsir. əl-Bidayə vən-nihayə. VII c. s. 671; əl-Albani. Silsilətu əhadis əs-səhihə. IV c. s. 331; Təhavi. Şərhi-müşkilil-asar. V c. s. 18-19. Hədis № 1765; Təbərani. Möcəm əl-kəbir. V c. s. 166. Hədis № 4969; IV c. s. 173. hədis № 4053; Hakim ən-Nisaburi. Müstədrək. III c. s. 118. Hədis № 4576; İbn Macə. Sünən. I c. s. 43. “Müqəddimə” fəsli. Hədis № 116; İbn Əbu Şeybə. Müsənnəf. X c. s. 481. Hədis № 32671; Heysəmi. Məcməüz-zəvaid. IX c. s. 103. Hədis № 14610; Xətib əl-Bağdadi. Tarixu-Bağdad. IX c. s. 222; Əllamə Əmini. əl-Qədir. 11 cilddə. I-V cildlər. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014/2015.

[7] Quş hədisi haqqında “Sünəni-Tirmizi” (V c. s. 595. “Mənaqibu Əli bin Əbi Talib” fəsli), Əhməd bin Hənbəlin “Fəzailu Əli bin Əbi Talib” əsərlərinə.

vurulduğunu eşitdim, çölə çıxdığımda qapıda dayanan adamın Əli olduğunu gördüm. Ona Peyğəmbərin məşğul olduğunu, gedib sonra gəlməsini söylədim və içəri girdim. Təkrar qapının vurulduğunu eşitdim. Əli salam verdi. Peyğəmbər bir səsin gəldiyini eşitdi və: "Bax görək qapını vuran kimmiş?" dedi. Çölə çıxdım, qapıda dayananın Əli olduğunu gördüm. Peyğəmbərə dönüb qapıda dayananın Əli olduğunu söylədim. Peyğəmbər də: "içəri girməsinə icazə ver" dedi. Mən də icazə verdim. Əli içəri girdi. Peyğəmbər də: "İlahi, ona dost olana dost ol!" dedi.

Əbu Məhəmməd Yəhya bin Məhəmməd bin Səid İbn Abbasın belə dediyini rəvayət etmişdir:

"Peyğəmbərə qızardılmış bir quş gətirildi. Peyğəmbər də: "Allahım, Allah və Rəsulunu sevən bir adamı mənə göndər" deyə dua etdi. İmam Əli gəldi. Peyğəmbər də: "Allahım, mənim də ən çox sevdiyim kimsəni mənə göndər" deyərək duasını tamamladı."[1]

5.13. İmam Əlinin fəzilətinə dair başqa hədislər

Əbu Yala İbn Ümeyrin belə dediyini rəvayət etmişdir: "Atamla birlikdə ümmülmöminin Aişənin yanına getdik. Ondan Əlini soruşdum. Aişə dedi ki, Əli qədər Peyğəmbər tərəfindən çox sevilən başqa bir adam görmədim. Əlinin xanımı (Fatimə) qədər Peyğəmbər tərəfindən çox sevilən başqa bir qadın da görmədim."

Əhməd bin Hənbəl Əbu Abdullah əl-Bəcəlinin belə dediyini rəvayət etmişdir:

"Ümmü-Sələmənin yanına getdim. Mənə dedi: "Peyğəmbəri söyərlərmi?" Allah qorusun (və ya sübhanallah), belə bir şey necə edilə bilər?! Mən Peyğəmbərin belə dediyini eşitdim: "Əlini söyən məni söymüşdür."

Əbu Yala Əbu Abdullah əl-Bəcəlinin belə dediyini rəvayət etmişdir: "Ümmü-Sələmə, mənə belə dedi:

- Mibərin üstündə Peyğəmbər söyülərmi? Bu necə olur?

- İndi Əliyə və onu sevənlərə söyülmürmü? Halbuki mən Peyğəmbərin Əlini sevdiyinə şahidlik edirəm." Ümmü-Sələmə Cabir və Əbu Səiddən rəvayət olunduğuna görə, eyğəmbər Əliyə belə demişdir: "Məni sevdiyini iddia edib sənə hirslənən kimsə, məni sevdiyinə dair irəli sürdüyü iddiada yalançıdır."

Əbdürrəzzaq Zər bin Hübeyşin belə dediyini rəvayət etmişdir: "Əlinin belə dediyini eşitdim: "Dəni yaran və canlını yaradan Allaha and içirəm ki, Peyğəmbər mənə belə demişdir: "Səni ancaq mömin kimsə sevər və sənə ancaq münafiq olan kimsə nifrət edər."

İbn Üqbə Abdullah bin Məsuddan rəvayət etdi: "Peyğəmbər belə buyurmuşdur: "Əliyə nifrət etməklə birlikdə mənə və gətirdiyim şeyə iman etdiyinə dair iddiada olan kimsə yalançıdır, mömin deyildir."

Həsən bin Arfə Əmmar binYasirin belə dediyini rəvayət etmişdir:

"Peyğəmbərin Əliyə belə dediyini eşitdim: "Səni sevən və sənin haqqında doğru söyləyən kimsəyə afərin. Sənə nifrət edən və sənin haqqında yalan danışan kimsənin də vay halına!"

Əbdürrəzzaq İbn Abbasın belə dediyini rəvayət etmişdir: "Peyğəmbər Əliyə baxıb belə dedi: "Sən dünyada Seyidsən, axirətdə də Seyidsən. Səni sevən məni sevmişdir. Sənin sevdiyin, Allahın sevdiyidir. Sənə nifrət edən mənə nifrət etmişdir. Səni sevməyəni Allah da sevməz. Məndən sonra sənə nifrət edən kimsənin vay halına!"

Həris bin Hasirə İmam Əlinin belə dediyini rəvayət etmişdir: "Peyğəmbər məni çağırdı və belə dedi: "Səndə Məryəm oğlu İsadan bir nümunə vardır. Yəhudilər ona nifrət etdilər. Belə ki, onun anasına böhtan atdılar. Onu xristianlara sevdirdilər. Belə ki, xrıstianlar da onu layiq olmadığı bir mərtəbəyə gətirdilər."

Diqqət yetirin, məndən ötəri iki zümrə insan həlak olacaq. Bunlardan biri, mənim haqqımda şişirdilmiş bir sevgi bəsləyib ifrata düçar olar. Digəri də mənə nifrət edər mənə olan hirsi üzündən böhtan atar. Diqqət yetirin, mən peygəmbər deyiləm. Mənə vəhy edilməz. Ancaq mən Allahın kitabı və peygəmbərinin sünnəsi ilə əlimdən gəldiyi qədəriylə əməl edərəm. Sizə Allahın itaətinə dair verdiyim əmrlər haqqdır. Xoşunuza gedən və getməyən işlərdə mənə itaət etməkdə öhdəçiliklisiniz."

[1] İbn Kəsir. əl-Bidayə vən-nihayə. VII c. Çevirən: Məmməd İti. Çağırı yayınları. s. 544-555.

Yaqub bin Süfyan İmam Əlinin belə dediyini rəvayət etmişdir: “Mən, Cəhənnəmi bölənəm. Qiyamət günündə bu sənə, bu da mənə deyəcəyəm.”

Məhəmməd bin Müslüm bin Darih Peyğəmbərin belə buyurduğunu rəvayət etmişdir: “Elmi barəsində Adəmə, anlayışı barəsində Nuha, yumşaq xasiyyətliliyi baxımından İbrahimə, zahidliyi barəsində Zəkəriyya oğlu Yəhyaya, qüvvətli olma baxımından Musaya baxmaq istəyən kimsə ƏbuTalib oğlu Əliyə baxsın!”

Müslüm deyir: “Taif döyüşündə Peyğəmbər Əlini çağırdı. Ona gizlicə bir şeylər pıçıldadı. Bəzi kəslər: “Peyğəmbər əmisinin oğlu ilə uzun uzandı pıçıldaşdı”, deyincə o, belə cavab verdi: “Mən onunla pıçıldaşmadım, əksinə Allah onunla pıçıldaşdı. Ona sirlər verdi.”

Tirmizi Ümmü Ətiyyənin belə dediyini rəvayət etmişdir:

“Peyğəmbər bir tərəfə hərbi dəstə göndərdi. Aralarında İmam Əli də vardı. Peyğəmbər onları göndərdikdən sonra əllərini səmaya qaldıraraq belə dua etdi: “İlahi, Əlini mənə göstərmədən məni öldürmə!”

Əhməd bin Hənbəl Vida həccində olan Həbəşi bin Cünadə əs-Səlilidən rəvayət etdi ki, Peyğəmbər belə buyurmuşdur: “Əli məndəndir, mən də ondanam, vəzifəmi ancaq mən və ya (mənim yerimə) Əli icra edə bilər.”

Əhməd bin Hənbəl Zeyd bin Basiqin belə dediyini rəvayət etmişdir:

“Peyğəmbər Əbu Bəkri Bəraət surəsi ilə birlikdə məkkəlilərə göndərdi. O ildən sonra bir müşrikin həcc edə bilməyəcəyini, Beytin çılpaq olaraq təvaf edilə bilməyəcəyini, mömin kimsədən başqasının Cənnətə girə bilməyəcəyini, Peyğəmbərlə özü arasında müəyyən bir müddətə qədər sülh müqaviləsi olan kəslərin bu müqavilənin təyin olunan müddət sonuna qədər etibarlı olacağına, Allah və Rəsulunun müşriklərdən uzaq olduğunu bildirməsini Əbu Bəkrə əmr etdi. Əbu Bəkr də bu əmri götürüb yola çıxdı. Üç gün yol getdikdən sonra Peyğəmbər Əliyə: “Dərhal yola çıx, Əbu Bəkrə çat, bu əmrləri onun yerinə sən təbliğ et” dedi. Nəhayət Əbu Bəkr Peyğəmbərin yanına döndüyündə ağladı və: “Ya Peyğəmbər, mənim haqqımda bir şeymi meydana gəldi?” - deyə soruşduqda: Peyğəmbər ona belə cavab verdi:

“Sənin haqqında bir şey nazil olmayıb. Ancaq bu əmrlərin mənim tərəfimdən və ya Əhli-beytimdən bir adam tərəfindən təbliğ edilməsinə dair mənə bir əmr gəldi.”

Cabirdən rəvayət olunduğuna görə, Peyğəmbər : “Əlinin üzünə baxmaq ibadətdir”, - deyə buyurmuşdur.

Təbərani İmam Əlinin belə dediyini rəvayət etmişdir: “Bu ayeyi-kərimə Peyğəmbər nazil olmuşdu: **“Sizin dostunuz ancaq Allah, Onun peyğəmbəri və namaz qılan, zəkat verən və rüku edən möminlərdir.”**[1]

Bu ayəti-kərimə ona nazil olduğu zaman, Peyğəmbər evindən çıxıb Məscidi-Nəbəviyyəyə girdi. O, burada insanların bir qismi rüku halında, bir qismi qiyam halında namaz qılmaqda idilər. Bir dilənçi göründü. Ondan belə soruşdu:

- Ey dilənçi, sənə bir şey verən oldumu?

- Xeyr, ancaq (Əlini göstərərək) bu rüku halındakı adam mənə üzüyünü verdi.”

Əbu Səid bin Ərəbi Ənəsin belə dediyini rəvayət etmişdir:

“Peyğəmbər məscsiddə oturmuşdu. Səhabələri onun ətrafında oturmuşdular. O əsnada Əli gəlib salam verdi. Sonra dayanıb oturacağı bir yer tapmaq üçün baxdı. Peyğəmbər də Əliyə kimin yer verəcəyini görmək üçün səhabələrinin üzünə baxdı. Əbu Bəkr Rəsulullahın sağ tərəfində oturmuşdu. Yerindən bir az geri çəkilərək: “Ey Həsənim atası, buraya buyur!” dedi. Əli də Peyğəmbər ilə Əbu Bəkrin arasında oturdu. Bunun üzərinə Peyğəmbərin sevinc duyduğunu üzündən anladıq. Sonra Peyğəmbər Əbu Bəkrə dönüb belə dedi: “Ey Əbu Bəkr, ancaq fəzilət sahibi kəslərə üstünlük verilər.”

Rəvayətə görə Ömər bin Xəttab İmam Əli haqqında belə demişdir: “Əli, qazılığı ən yaxşı bilənimizdir. Hökm vermə barəsində ən məlumatlı olanımızdır.”

Həmçinin Ömər bin Xəttab: “Əbu Həsəni yəni Əlinin olmadığı bir problemlə qarşılaşmaqdan Allaha sığınıram”, deyərmiş.

[1] Maidə surəsi, ayə 55.

Əhməd bin Hənbəl Ümmü-Sələmənin belə dediyini rəvayət etmişdir:

"Allaha and olsun ki, Əbu Talib oğlu Əli Peyğəmbərlə ən son danışan kimsə olmuşdur. Ona ən yaxın olan da o idi. Biz Peyğəmbəri xəstəliyi əsnasında günbəgün ziyarət edərdik. O həmişə belə deyərdi: "Əli gəldimi?" Mən Əlini bir işi üçün göndərdiyini sanırdım. Nəhayət, Əli gəldiyində Peyğəmbərin onunla görüləcək bir işi olduğunu sanaraq otaqdan çölə çıxıb qapı qarşısında oturduq. Oturanlar arasında qapıya ən yaxın olan mən idim. Əli Peyğəmbərin qulağına əyildi. Eyni gündə də Peyğəmbər vəfat etdi. Bu vəziyyətdə Peyğəmbərlə ən son danışan adam Əli oldu."

Əbu Yala Cəmi bin Ümeyrin belə dediyini rəvayət etmişdir:

Anamla xalam Aişənin yanına gedib belə dedilər.

- Ey möminlərin anası, bizə Əlidən danış.

Ümmulmöminin Aişə dedi:

- Siz Əlini Peyğəmbərin bədəninin üzərinə qoymuş olduğu əsnada Peyğəmbərin can verdiyi və onun da əlini üzünə sürtdüyü, sonra Peyğəmbərin dəfn ediləcəyi yer barəsində ixtilafa düşüncə: "Allahın ən çox sevdiyi yer Peyğəmbərin vəfat etdiyi yerdir", deyən bir adam haqqında mənə daha nə sual soruşursunuz?

- Yaxşı, madam ki, belə idi niyə Əliyə qarşı çıxdın, onunla savaşdın?

- Bu olub bitmiş bir şeydir. Onunla döyüşməmək üçün yer kürəsi üzərindəki hər şeyi fidyə olaraq verməyi çox istəyərdim."

İmam Əlinin haqqında nəql olunmuş ayə və hədislərin sayı çoxdur. Əlbəttə ki, onların hamısını bir kitaba toplamaq mümkün deyildir. O həzrətin haqqında deyilən ayə və hədislər hədis qaynaqlarında mövcuddur.

5.14. İmam Əlinin hicrət etməsi

Hicrət lüğətdə bir yerdən başqa bir yerə köçmək deməkdir. İslamda hicrət dedikdə daha çox ağıla gələn müsəlmanların Məkkədən Mədinəyə köçmələri nəzərdə tutulur. Bu hadisə miladi tarixlə təxminən 622-ci ilin ortalarına təsadüf etməkdədir. Doğrudur bu hadisədən bir neçə il əvvəl, yəni ilk hicrət Məkkədən Həbəşistana olmuşdur. Lakin müsəlmanların Məkkədən Mədinəyə hicrət etmələri ilahi göstəriş əsasında olmuş və Həmçinin kütləvi xarakter aldığından bu hicrət İslam tarixində daha mühüm əhəmiyyət kəsb etməkdədir. Çünki məhz bu hicrət zamanı müsəlmanlar bütün var-dövlətlərini, qohum-əqrəbalarını ataraq öz dinlərini qorumaq üçün Məkkədən Mədinəyə köçməli oldular. Onların bu əməlini yüksək qiymətləndirən Allah buyurur: **"...Kim evindən çıxıb Allaha və onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər."** [1] Hicrət dedikdə təkcə insanların bir yerdən digər bir yerə köçmələri başa düşülmür. Bu eyni zamanda insanın öz Rəbbinə tərəf getməsi, onun əmrlərinə qarşı itaətkar olması da başa düşülür. Bunu biz Qurani-Kərimin ayələrinin mənasında da görməkdəyik. Belə ki, Quran Nuhun belə dediyini buyurur: "**Mən Rəbbimə tərəf hicrət edəcəyəm**."[2] Hicrət hər mənasında İmam Əlinin şəxsində özünə yer tapmış əməllərdəndir. O, özünün məşhur xütbələrinin birində Allaha tərəf etdiyi hicrətinə işarə edərək buyurur: "Xəbərdar olun! Məndən sonra kiçik boylu və yekə qarınlı, hər tapdığını yeyən və tapmadığını tələb edən birisi sizə hakimlik edəcəkdir[3]. Onu öldürün! O, sizə məni söyməyinizi və məndən uzaq olmağınızı əmr edəcəkdir. Söyüşə gəldikdə (məcbur olduqda) məni söyməkdən çəkinməyin, çünki sizin söyüşünüz mənim üçün zəkatdır. Ancaq məndən uzaq olmağa gəldikdə, bunu heç vaxt etməyin. Çünki mən fitrət üzrə doğulmuş, iman və hicrətdə hər kəsi ötmüşəm"[4]. İmamın bu sözü bir çox mötəbər qaynaqlarda nəql olunmuş və səhihliyinə heç bir şübhə yaranmamışdır. Lakin bəzi alimlər İmam Əlinin bir qrup müsəlmanlardan sonra Mədinəyə hicrət etdiyini əsas götürərək buna şübhə ilə yanaşmışlar. Ancaq İmamın bu hədisi daha da dərindən araşdırıldıqda onun əsas məğzi və mənası məlum olacaqdır.

---

[1] Ən-Nisa surəsi, ayə 100.

[2] Ənkəbut surəsi, ayə 26.

[3] Müaviyə bin Əbi Süfyana işarədir. Çünki o, İslamda İmam Əlini söyən və bunu adət halına salan ilk xəlifədir. Nəsainin nəqlinə görə, Peyğəmbər onun haqqında buyurmuşdur: "Allah onun qarnını doydurmasın". Bundan sonra o, nə yeyirmişsə doymazmış. Bədəncə kiçik boylu, yekə qarınlı adam olmuşdur.

[4] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi ilələl-ləhd. Beyrut, II nəşri, 1413/1993. s. 45.

Belə ki, yuxarıdakı ayədə göstərildiyi kimi hicrət daha da geniş məna tutumuna malikdir. Burada İmamın məqsədi heç də Məkkədən Mədinəyə köçməkdə ilk şəxs olmaq deyil, bəlkə də Allaha xatir hər bir şeyi tərk etməkdir. Çünki hicrətin mənalarından biri də "tərk etmək", "uzaqlaşmaq" və "dostluq əlaqələrini qırmaq"dır. Allah hicrət edənləri hər mənası ilə öymüdür. Yoxsa bir şəxsin təkcə məkan dəyişməsilə onun Allah yanında bu qədər ali dərəcəyə malik olması mümkünsüdür.

Bundan başqa İmamın hədisində onun Məkkədən Mədinəyə ilk hicrət etməsi həqiqi mənada da başa düşülə bilər. Çünki O, Peyğəmbərlə birlikdə hicrətə hazırlaşmış, lakin Peyğəmbər ona hələlik Məkkədə qalıb onun borclarını verməsini və digər işləri icra etməsini tapşırmışdı. Həmçinin İmam Əlinin Peyğəmbərin yerində yatması da Peyğəmbərin ona olan əmrlərindən biridir. Deməli Peyğəmbərlə İmam Əli arasında hicrət haqqında söhbət olduqda heç bir kəsin bundan xəbəri olmamışdır. Əbu Bəkrin isə gəlib Əlidən Peyğəmbəri soruşması və İmam Əlinin Peyğəmbərin yerini ona deməsi buna dəlildir. Bu mənada İmam Əli İslamda ilk hicrət niyyəti edən şəxs kimi başa düşülməlidir.

Həmçinin İmam Əlinin hicrəti digər səhabələrin hicrətindən də ciddi şəkildə fərqlənməkdədir. Əlbəttə ki, biz burada digər müsəlmanların hicrətdəki əziyyətlərinə göz yummuruq. Amma tarix daha dərindən və obyektiv şəkildə araşdırıldıqda məlum olur ki, İmam Əlinin hicrəti digər şəxslərin hicrətinə nisbətən xüsusiyyət kəsb etməkdədir. Bunun bariz dəlilini biz, Peyğəmbərin əmanətləri və öz ailə üzvlərini ona tapşırmasında görürük. Bu məqama toxunan İbn Şəhraşub (1095-1192) yazırdı: "Peyğəmbər Əlini əmanətləri geri qaytarmaq üçün Mədinədə saxladı. Çünki o, daha əmin bir şəxs idi. İmam Əli Kəbənin üstünə çıxıb camaata belə car çəkdi: "Ey insanlar! Əmanət sahibi olan varmı?...

İmam Əli Peyğəmbərin bütün borclarını sahiblərinə qaytardıqdan sonra anası Fatimə bint Əsədi, Fatimə bint Rəsulillahı və Fatimə bint Zübeyr bin Əbdülmüttəlibi götürüb çıxdı... Yolda Dəcnan deyilən yerdə onlara Ümmi-Əymənlə bir qrup möminlər qoşuldular."[1] Yolda müşriklərlə qarşılaşan İmam Əli onların şərrini özündən uzaqlaşdırıb sağ-alamat Mədinəyə yetişdi. Məhz İmam Əlinin bu işinə görə Allah aşğıdakı ayəni onun haqqında nazil etdi.

"**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər və deyərlər: "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi Cəhənnəm odunun əzabından özün qoru!»**"[2]

Peyğəmbər Qubaya çatdıqdan sonra orada on gün qalıb İmam Əlinin gəlməsini gözləmişdir. Bu arada Əbu Bəkr ona dedi: "ey Allahın Rəsulu! Qalx gedək Mədinəyə. Orada insanlar səni həsrətlə gözləyirlər. Guman edirəm ki, İmam Əli bir aydan tez gələn deyil." Lakin Peyğəmbər bununla razılaşmamış və ona demişdi: "Mən Allaha xatir əmim oğlu və qardaşım İmam Əlinin yolunu gözləyəcəm. O, mənə Əhli-beytimin ən sevimlisidir və o öz canı ilə məni müşriklərdən qoruyan şəxsdir." Beləliklə, Peyğəmbər orada İmam Əlinin gəlişini gözləmiş, İmam Əlinin yol boyu çəkdiklərini eşidib və onun ayaqlarındakı yaraları görüb ağlamışdır.

5.15. İmam Əlinin evlənməsi və övladları

Məlum olduğu kimi evlənmək İslamda çox təkid olunmuş ilahi göstərişlərdəndir və hədislərdəki məlumata görə peyğəmbərlərin ənənələrindən biridir. Bu haqqda Quran belə bəyan edir: "**Aranızda olan subay kişi və qadınları evləndirin!...**"[3] Bu mənada hər bir şəxs vaxtı gəldikdə ailə həyatı qurmalı və ilahi qanunlar çərçivəsində öz gələcək nəslini artırmalıdır. Həmçinin ailə quran şəxs gərək onun təməlini möhkəm dirəklər üzərində bina etsin. Buna görə də evlənən şəxs gərək var-dövlət, cah-cəlal, gözəllik və s. bu kimi zahiri şeylərə bağlanıb ailə qurmasın. İmam Əli də təbiidir ki, evlənən zaman bütün bu incəlikləri qorumuşdur. Onun evlənməsi əbədi olaraq müsəlman ümməti üçün çox gözəl örnək olmalıdır.

İmam Əlinin evlənməsi İslam tarixində çox mühüm hadisələrdən biridir. Çünki bu evlənmə təkcə bəşəri istək olmamış, eyni zamanda Allahın razılığı və bir-başa göstərişi əsasında olmuşdur.

---

[1] Əllamə Məhəmmədhüseyn Təbatəbai. əl-Mizan fi təfsiril-Quran. 20 cilddə. IV c. Tərc.: Salih Uçan. Kovsər yayınları, s. 136.

[2] Ali İmran surəsi, ayə 191.

[3] Nur surəsi, ayə 32.

Peyğəmbərin qızı xanım Zəhra yetkinlik yaşına çatdıqda Qüreyşin böyükləri hər tərəfdən Peyğəmbərin evinə elçiliyə gəlirlər. Peyğəmbərin işin belə olduğunu gördükdə elçilərə deyir: "Fatimənin ailə qurması Rəbbimin üzərindədir."

Mənbələrin yazdıqlarına görə, İmam Əli Mədinənin kənarında xurma ağaclarını suvararkən Əbu Bəkr və Səd bin Məaz onun yanına gəlirlər. Onlar Əlidən soruşurlar: sənə nə mane olur ki, Peyğəmbərin qızı Fatimə ilə evlənmirsən? İmam Əli onlara deyir: mənə həya və malımın azlığı mane olur. Səd ona deyir: get Peyğəmbərin yanına və Fatiməni ondan istə. Çünki o, Fatiməni sənə verəcək. And olsun Allaha, güman etmirəm ki, Peyğəmbərin onu səndən başqasına versin! İmam Əli deyir: mən Peyğəmbərin yanına gedib nə deyim? Səd deyir: Ona deyərsən: "Mən Allahdan və Peyğəmbərdən Fatiməyə nişanlanmağı istəyirəm.

İmam Əli bu niyyətlə Peyğəmbərin evinə gəlir. Peyğəmbər Ümmü-Sələmənin evində idi. Bu zaman Cəbrail Peyğəmbərə nazil olub onu İmam Əlinin niyyətindən və gəlişindən xəbərdar edir. İmam Əli qapını döydükdə Ümmü-Sələmə deyir: kimdir? İmam Əli dilləncə Peyğəmbər buyurur: "aç qapını, ey Ümmü-Sələmə! Onu içəri gətir. Onu Allah və Rəsulu sevir."

Ümmü-Sələmə dedi: "ey Allahın Rəsulu! O şəxs kimdir ki, onu görməmiş belə yad etdin?" Peyğəmbər buyurdu: "O şəxs yüngül və axmaq şəxs deyil, o, mənim qardaşım, əmim oğlu və insanlar içində mənə ən sevimli olandır."

Ümmü-Sələmə qalxıb qapını açdı və Əlini gördükdə dedi: "And olsun Allaha! Hələ indiyədək olmamışdır ki, mən qapını açam sonra da gələn kimsəni Peyğəmbərə xəbər verməmiş onu içəri buraxım. İmam Əli içəri daxil oldu və Peyğəmbərlə salmlaşdıqdan sonra həzrət ondan oturmasını istədi.

İmam Əli oturub gözlərini yerə zillədi. O, öz istəyini açıqlamaq istəyirdi, amma utanırdı. Bunu görən Peyğəmbər dedi: "sənin bir istək üçün gəldiyini görürəm. Nə istəyin var?"

İmam Əli dedi: atam-anam sənə qurban! Sən bilirsən ki, məni uşaqlıqdan götürüb saxlamısan, mənə yediyindən yedirdib ədəbləndirmisən. Sən mənə atam Əbi Talibdən və anam Fatimə bint Əsəddən daha yaxşı və şəfqətli olmusan. Allah məni sənin əlinlə hidayətləndirmişdir. Sən mənim dünya və axirət sığınacağımsan.

Ey Allahın Rəsulu! Mən bir evimin və ailəmin olmasını istəyirəm ki, orada yaşayım. Mən sənin yanına Fatimə üçün elçiliyə gəlmişəm. Ey Allahın Rəsulu! Sən məni evləndirə bilərsənmi?

Bunu eşidən Peyğəmbərin sevincdən üzü güldü və Əliyə təbəssümlə buyurdu: sənin bir şeyin varmı ki, onun vasitəsi ilə səni evləndirim? İmam Əli dedi: Mənim bir qılıncım və bir qalxanım var. Bunlardan başqa bir şeyim yoxdur. Peyğəmbər Əliyə dedi: qılıncını saxla, çünki onunla sən Allah yolunda cihad edirsən və onun düşmənlərini öldürürsən. Amma qalxanını sat, onun puluna səni evləndirim.

Ey Əli! Sənə xoş xəbər verimmi? İmam Əli dedi: bəli ya Rəsulallah!

Peyğəmbər buyurdu: Allh səni sən yerdə evlənməmişdən əvvəl göylərdə evləndirmişdi...[1]

Beləliklə, İmam Əli ilk dəfə Peyğəmbərin əziz qızı Fatimə ilə evlənmiş və ondan cəmi iki oğlu və iki qızı olmuşdur. Onun oğlanları Həsən və Hüseyn , qızları isə Zeynəbi Kubra və Zeynəbi Suğra (Ümmü Gülsüm) olmuşdur. Bir Möhsin adlı oğlan uşağı isə ana bətnindən vaxtından əvvəl düşmüdür.

Fatimənin vaxtsız vəfatından sonra (təxminən 632 m) bir neçə həyat yoldaşı olmuş və onlardan da çoxlu sayda oğlan və qız uşaqları olmuşdur. Amma Fatimə həyatda ikən o, heç bir qadınla evlənməmişdir. Onun Fatimədən sonra evləndiyi qadınlar və onlardan doğulan övladları aşağıdakılardır:

1. Xüveylə bint Cəfər, (Məhəmməd bin Hənəfiyyənin anası).
2. Səhba və ya Ümmi-Həbibə Təğlibiyyə, (Ömər və Rüqəyyənin anası).
3. Əsma bint Umeys əl-Xəsəmiyyə, (Yəhya və Ovnun anası).
4. Fatimə bint Məzahim Ümmül-bənin, (həzrət Əbülfəzlin, Cəfərin, Osmanın və Abdullahın anası. Onların dördü də Kərbəlada şəhid olublar).

[1] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi ilələhd. s. 53-54. Bu hadisəni azacıq fərqlə Əllamə Hilli "Kəşful-yəqin fi fəzaili-Əmirilmuminin (ə)" əsərində (s. 195-196) rəvayət etmişdir.

5. Ümmi-Vələd Cariyə, (Xədicə, Ümmi-Hani, Meymunə və Fatimənin anası).

6. Ümmi-Şüeyb əd-Darimiyyə və ya Ümmi-Səid əl-Məxzumiyyə, (Ümmü Həsən və Rəmlənin anası).

İmamın övladlarından yalnız beşi - Həsən , Hüseyn , Məhəmməd Hənəfiyyə, həzrət Abbas və Ömər onun nəslini davam etdirmişlər.[1]

5.16. İmam Əlinin cihadı

Cihad İslamın ən ümdə əmrlərindəndir. Peyğəmbər Məkkədə yaşadığı dövrdə müşriklər və kafirlər həmişə ona qarşı olmuş və onun İslamı təbliğ etməsinə ciddi maneələr törətmişlər. Onların əlindən amanda qalmaq üçün müsəlmanlar Məkkədən Mədinəyə hicrət etmişlər. Burada da müsəlmanları rahat buraxmayan müşriklər və kafirlər sonda müsəlmanlarla döyüşməli olmuşlar. Allahın əmri və Peyğəmbərin rəhbərliyi altında vuruşan İslam ordusu əksər vaxtlarda qələbə qazanmış və qarşı tərəfi geri oturtmuşlar. Onların bu əməllərini yüksək qiymətləndirən Allah buyurmuşdur: "**Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır. Etdiyiniz sövdəyə görə sevinin. Bu ən böyük qurtuluşdur!**"[2]

Şübhəsiz ki, cihad etmək İslamda bəlkə də ən ağır əməllərdəndir. Çünki hər bir insanın həyatı onun üçün çox qiymətli və əzizdir. Buna görə də insanın öz həyatından əl çəkməsi, özünü qılınclar və oxlar qarşısına atması çox çətindir. Amma biz İmam Əlinin həyatına baxdıqda onun nəinki bu çətinliklərdən qorxduğunu, hətta özünün bütün vücudu ilə bu döyüşlərdə iştirakını görürük. Hətta o, bəzi döyüşlərdən salamat qayıdarkən Peyğəmbərin yanına gəlmiş və: "Ya Rəsulallah! Mən nə vaxt şəhid olacam?" demişdir.

İslamda müşriklərlə müsəlmanlar arasında baş vermiş ilk toqquşma **Bədr** döyüşü hesab olunur. Bu döyüşün müşrik tərəfdən başçıları Əbu Sufyan, Əbu Cəhl və digərləri olmuşdur. Onlar istəyirdilər ki, bu döyüşdə mütləq qalib çıxsınlar və İslamın kökünü birdəfəlik kəssinlər. Lakin Allah onların istəklərinin əksini istədiyindən həmişə onların istəkləri qəlblərində qalmışdır. Allah bütün İslam döyüşlərində İmam Əlinin əli ilə müşrik qoşunlarının ən güclü pəhləvanlarını məhv etmiş və onun əli ilə müsəlmanlara misilsiz qələbələr bəxş etmişdir.[3]

Məşhur İslam alimi İbn Əbilhədid yazırdı: "İmam Əli cihad edənlərin rəhbəridir. Məgər İslamda onsuz bir cihad olubmu? O, Peyğəmbərin bütün qəzvələrində iştirak etmiş və müşrikləri möhkəmcə cəzalandırmışdır. Bədr döyüşündə öldürülən yetmiş müşrikin yarısı tək İmam Əlinin payına düşür. Yerdə qalan yarısı isə mələklərin və digər müsəlmanların əli ilə öldürülmüşdür."

İmam Əlinin Bədrdə iştirak etməsini bütün tarixçilərlə yanaşı Buxari də öz əsərində qeyd etmişdir. O, Əbu İshaqdan rəvayət edir: "Bir kişi Bərradan soruşdu: İmam Əli Bədrdə iştirak edibmi? Bərra dedi: o, vuruşub özünü göstərdi"[4]. Hətta Buxari, "**Rəbbi barəsində mübahisə aparan bu iki zümrə düşməndir**"[5] ayəsinin onun haqqında nazil olduğunu rəvayət etmişdir.[6]

Görkəmli İslam alimi Təbərisiyə görə İmam Əli Bədr döyüşündə Vəlid bin Utbəni, Şeybəni, As bin Səid bin Asi, Hənzələ bin Əbi Sufyanı, Təimə bin Ədini, Nofəl bin Xuveylidi və digərlərini öldürmüşdür."[7]

İslamda baş vermiş döyüşlərdən biri də **Ühüd** döyüşüdür. Bu döyüşdə İmam Əlinin göstərdiyi rəşadətin misli-bərabəri olmamışdır. Məhz onun hesabına Peyğəmbərin canı bu döyüşdə salamat qurtarmışdı.

Bu döyüşdə müşriklərin bayrağı Bəni Əbdiddar qəbiləsindən olan şücaətli şəxs Təlhə bin Əbi əl-Əbdərinin əlində idi. O, meydana çıxıb dedi: "Ey Məhəmmədin səhabələri! İddia edirsiniz ki,

---

[1] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi iləl-ləhd. s. 235.

[2] Tövbə surəsi, ayə 111.

[3] Həzrət Əli yalnız Təbuk döyüşündə iştirak etməmişdir. O, Peyğəmbərin əmri ilə Mədinədə qalmışdı. Çünki Peyğəmbər onun şəhərdə olmadığından sui-istifadə edərək bəzi kimsələrin dövlət çevrilişi etməsindən ehtiyatlanmış və nəticədə Əlini öz yerində qoyaraq Təbuk səfərinə çıxmışdı.

[4] Səhihi-Buxari. ər-Riyad, Məktəbətu-darissalam, 1419/1999. s. 670. Hədis № 3970.

[5] Həcc surəsi, ayə 19.

[6] Səhihi-Buxari. s. 670. Hədis № 3965, 3966, 3967, 3969.

[7] Əbu Əli Fəzl bin Həsən ət-Təbərisi. Əlamül-vəra. s. 191.

sizin qılınclarınız bizi Cəhənnəmə, bizimkilər isə sizi cənnətə aparacaq. Hər kəs cənnəti istəyirsə, mənə tərəf gəlsin." Bunu eşidən İmam Əli onun meydanına gedir və ona bir rəcəz oxuyur. Rəcəzin təsirini duyan Təlhə deyir: "Sən kimsən, ay gənc oğlan!" İmam Əli deyir: "Mən Əbu Talib oğlu Əliyəm." Təlhə deyir: "İndi səni tanıdım. Çünki səndən qeyrisi mənə qarşı bu cəsarəti etməzdi." Təlhə İmam Əlinin üstünə atılır və ona zərbə endirir. Lakin İmam Əli onun zərbəsindən yayınır və bir zərbə ilə onu parçalayır. Həzrət ona elə sürətlə zərbə endirir ki, bunu kənardan müsəlmanlar görmürlər. Buna görə də O, müsəlmanların yanına gəldikdə, ondan soruşurlar: "Niyə Təlhəni öldürmədin?" İmam Əli deyir: "Ona elə bir zərbə vurdum ki, bundan sonra onun yaşaması mümkün deyil."

Təlhənin ölümündən sonra bayrağı Səid bin Əbi Təlhə götürür. İmam Əli onu da öldürür. Sonra yerə düşmüş bayrağı Osman bin Təlhə götürür. İmam Əli onu da Cəhənnəmə vasil edir. Bundan sonra bayrağı Haris bin Əbi Təlhə götürür. İmam Əli onu da öldürür. Sonra bayrağı Əziz bin Osman götürür. İmam Əli onu da Cəhənnəmə vasil edir. Bundan sonra bayrağı Abdullah bin Cəmilə bin Züheyr götürür. İmam Əli onu da öldürür. Bundan sonra bayrağı Bəni Əbdiddar qəbiləsindən doqquzuncu müşrik Ərtah bin Şürəhbil götürür. İmam Əli onu da öldürür. Daha sonra isə bayrağı onların qulu olan Səvəb götürür. İmam Əli onun sol tərəfindən ağır zərbə endirir. O, bu zərbə nəticəsində Cəhənnəmə vasil olur.[1]

Təəssüflər olsun ki, Peyğəmbərin silahdaşları onlar üçün təyin olunmuş strateji döyüş nöqtəsindən uzaqlaşmışlar. Onların bu işi görmələri və qənimətə görə döyüş meydanını tərk etmələri müşrik ordusunun əlinə yaxşı fürsət vermiş və nəticədə müsəlman ordusu ağır məğlubiyyətə uğradılmışdır. Müşriklərin ehtiyat ordusunun komandanı Xalid bin Vəlid müsəlmanların Ühüd dağındakı strateji nöqtəni tərk edib qənimətə başlarının qarışdığını görüb onlara arxadan hücum etmiş və xeyli müsəlman qırmışdır. Lakin bu qarışıq vəziyyətdə də İmam Əli bir an olsun döyüş meydanın tərk etməmiş və Peyğəmbərin ətrafından yayınmamışdır. O, tək-tənha bu döyüşdə Peyğəmbəri müdafiə etmiş və hətta yetmiş yara almışdı. Bütün səhabələrin döyüş meydanından fərarilik etdiyi halda məhz İmam Əli meydanda şirtək döyüşmüşdür.

İkrimə Əlidən rəvayət edir: "İnsanlar Ühüd günü Peyğəmbərin ətrafından qaçanda məni ümidsüzlük bürümüşdü. Mən heç vaxt belə ümidsizliyə qapılmamışdım. Mən özümə hakim ola bilmirdim. Mən onun önünə keçib qılınc vururdum. Geri dönüb onu yerində görmədim. Öz-özümə dedim: Peyğəmbər döyüş meydanından qaçmaz və onu ölənlər arasında da görmürəm. Guman etdim ki, o, göyə çəkilib. Qılıncımın qını sındı və mən özümə söz verdim ki, müşriklərilə ölənədək vuruşacağam. Qoşuna hücum etdim. Onlar məndən qorxub pərən-pərən düşmüşdülər. Mən Peyğəmbərə yetişdikdə onu yerə sərilmiş halda gördüm. O, mənə baxıb dedi: İnsanlara nə olub ya Əli? Dedim: onlar üz döndəriblər ya Rəsulallah! Onlar düşmənə arxa çeviriblər. Bu zaman Peyğəmbər qarşısındakı düşmən alayını gördükdə dedi: ey Əli! Bunları məndən uzaqlaşdır. Mən onların üzərinə atıldım və qılıncımla sağa-sola və arxaya zərbələr endirdim. Məni görən Peyğəmbər buyurdu: ey Əli! Səmalarda sənin necə mədh olunduğunu eşidirsənmi? Rizvan adlı mələk nida edir: "Əli kimi gənc, zülfiqar kimi qılınc yoxdur." Mən sevincimdən ağlayırdım və Allaha şükürlər edirdim."[2]

İmam Əli Ühüd döyüşündən Mədinəyə qayıtdıqda zülfiqarı Fatiməyə verib dedi: "Onu yaxşı təmizlə. O bu gün məni yaxşı doğrultdu." Peyğəmbər isə Fatiməyə dedi: "Götür o qılıncı. O ərinin üstünə düşən vəzifəni gördü. Allah onun qılıncı ilə Qüreyşin öndərlərini öldürdü."

İmam Əlinin İslamdakı mühüm cihadlarından biri də **Xeybər** döyüşüdür. Xeybər yəhudilərin yaşadıqlar və çoxlu qalaları olan bir məntəqənin adıdır. Oradakı qalalara məşhur yəhudi pəhləvanı və öz qəbiləsi içində məğlubedilməz şəxs kimi tanınan Mərhəb başçılıq edirdi. Onun güclü sərkərdəliyi sayəsində bu qalalar heç vaxt düşmənə məğlub olmamışdır. Xeybər döyüşü elə bir mühüm döyüşdür ki, Peyğəmbər məhz Xeybər qalasının fəthində buyurmuşdur: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onu Allah və Rəsulu sevir. O da Allah və Rəsulunu sevir." Səhərədək səhabələr gözləyib bu şəxsin kimliyini maraqla gözlədilər. Səhəri gün Peyğəmbər dedi: "İmam Əli

[1] Bax: Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi iləl-ləhd. s. 69-70.
[2] Həmin mənbə. s. 71-72.

haradadır?.” Dedilər: ey Allahın Rəsulu! O, gözlərindən şikayət edir. Peyğəmbər onun yanına adam göndərib onu yanına gətirdi və ağzının suyundan onun gözlərinə çəkdi. Bundan sonra onun gözlərində heç bir ağrı olmadı. Peyğəmbər bayrağı Əliyə verdi. İmam Əli dedi: “Ey Allahın Rəsulu! Onlar müsəlman olanadək onlarla vuruşacağam.” Peyğəmbər Əlidən əvvəlcə onları İslama dəvət etməsini istədi və dedi: “Allahın sənin əlinlə bir şəxsi hidayət etməsi sənin üçün qırmızı tüklü dəvələrdən daha faydalıdır.”[1]

Peyğəmbərin İmam Əlinin haqqında bu sözü deməsi əbəs deyildir. Çünki İslam ordusunun içindən Mərhəbin müqabilinə gedən şəxs tapılmırdı. Yalnız Amir bin əl-Əklə adlı şəxs getmişdir ki, o da dərhal Mərhəbin əlində şəhid olmuşdur.

Peyğəmbər Xeybər qalasını təxminən iyirmi beş gün mühasirədə saxladı. O, əvvəlcə bayrağı Əbu Bəkrə, sonra da Ömər bin Xəttaba versə də onlar heç bir nəticə əldə etmədən və itgi verərək geri dönmüşdülər. Bundan sonra Peyğəmbər bayrağı Əliyə vermiş və onun haqqında yuxarıdakı hədisi buyurmuşdur. İmam Əli Mərhəbin müqabilində dayanmış və onu İslama dəvət etmişdir. Lakin Mərhəb bu təklifə boyun qoymamış və döyüşə üstünlük vermişdir. Döyüş başlayan kimi İmam Əli ona çox ağır bir zərbə vurmuş və bunun nəticəsində Mərhəb ikiyə bölünmüşdür. Bunu görən digər yəhudi döyüşçüləri qalaya qaçmış və qapını arxadan bağlamışlar. Qalanın möhkəm qapısını İmam Əli öz əli ilə qoparıb atmış və müsəlman ordusunun ora girməsini asanlaşdırmışdı. Hətta qapının qırılmasını görən yəhudi döyüşçüləri ona hücum etmiş, İmam Əli isə qopartdığı qapını özünə qalxan edərək onlarla döyüşmüşdür. İmam Əlinin bu qəhrəmanlığı dillər əzbəri olmuş və hətta məşhur səhabə-şair Həssan bin sabit bunula əlaqədar şeir də yazmışdır.

İmam Əlinin bu igidliyini yüksək qiymətləndirən Peyğəmbər buyurmuşdur: “Əgər xristianların İsa haqqında dediklərini ümmətimin sənin haqqında deyəcəklərindən qorxmasaydım, sənin ayağının torpağını götürmələrini və onunla şəfa tapmalarını onlara əmr edərdim. Lakin bu sənə yetər ki, sən məndənsən, mən də səndənəm. Sən məndən mən də səndən irs aparıram, sən mənə Harunun Musaya olan nisbəti kimisən, bu şərtlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur. Sən axirətdə insanlar içində mənə ən yaxın olan şəxssən. Sən sabah hovuzun kənarında mənim ardıcılımsan. Sən ümmətim içində Cənnətə girəcək ilk şəxssən. Sənin tərəfdarların nurdan olan minbərlər üzərində olacalar. Onlar mənim ətrafımda olacaq və mən onlara şəfaət edəcəyəm. Onlar Cənnətdə mənim qonşularım olacaqlar. Sənə qarşı olan müharibə mənə qarşı müharibədir. Sənin lə olan sülh mənimlə olunan sülhdür...”[2]

İmam Əlinin iştirak etdiyi və İslamın mühüm cihadlarından biri **Hüneyn** müharibəsidir. Bu müharibəyə müşriklər tərəfindən məşhur döyüşçü Əbu Hərvəl başçılıq edirdi. Bayrağı əlinə alıb döyüş meydanına gələn Əbu Hərvəl meydanda İmam Əli ilə döyüşməli olur. İmam Əli onu bir zərbəsi ilə Cəhənnəmə göndərir. Bundan sonra onun tərəfdarları kütləvi şəkildə müsəlmanlara hücum edirlər. Müsəlmanlar qaçmağa üz tuturlar.Yalnız İmam Əli , Abbas və Həmzə Peyğəmbərin ətrafında qalıb onu müdafiə edirlər. İmam Əli onlardan qırx nəfəri öldürür. Yerdə qalanlar isə qorxularından qaçırlar. İmam Əlinin sayəsində müsəlmanlar onlardan xeyli sayda əsir götürürlər. Bu döyüşə xüsusi əhəmiyyət verən Quran belə bəyan edir: “**Allah sizə bir çox yerlərdə, Həmçinin Huneyn günündə kömək etdi. O gün çox olmağınız sizi valeh etsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu, sonra dönüb qaçdınız. Sonra da Allah öz Peyğəmbərinə və möminlərə arxayınçılıq nazil etdi...”**[3] Bu ayənin təfsirində görkəmli İslam alimi Hakim əl-Həskani bir neçə hədis nəql edərək ayənin İmam Əlinin haqqında nazil olmasını deyir. Onun nəql etdiyi hədislərdən biri budur: “Bu ayə Huneyn günü Peyğəmbərlə birlikdə olub qaçmayan İmam Əli, Abbas və Həmzə haqqında nazil olmuşdur.”[4]

Bu döyüş haqqında geniş məlumat verən məşhur İslam alimi yazırdı: “Hüneyn qəzvəsində müsəlmanların hamısı kütləvi şəkildə qaçıb dağlışdılar. Peyğəmbərin yanında yalnız on nəfər şəxs qalmışdı. Onlardan doqquzu Bəni-Haşimdən, biri isə Əymən bin Ummi Əymən idi. Əymən şəhid edildi, doqquz nəfər haşimi qaldı. Onlar hamılıqla Peyğəmbərə sarılmış və tutduqları yerdə möhkəm

[1] Səhihi-Müslim. ər-Riyad, Darüs-salam, 1421/2000. s. 1060. Hədis № 6222, 6223, 6224.
[2] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi iləl-ləhd. s. 84-85.
[3] Tövbə surəsi, ayə 25-26.
[4] Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 252. Hədis № 341-342.

dayanmışdılar. Allah onların haqqında "**Sonra da Allah öz Peyğəmbərinə və möminlərə arxayınçılıq nazil etdi"** ayəsini nazil etdi. Peyğəmbərin ətrafında olan haşimilər: Əli bin Əbi Talib, sağ tərəfində Abbas bin Əbdülmüttəlib, sol tərəfində Fəzl bin Abbas, Əbu Süfyan bin Haris, Nofəl bin Haris, Rəbiə bin Haris, Abdullah bin Zübeyr bin Əbdülmüttəlib, Mutəb və Utbə bin Əbi Ləhəb idi. Peyğəmbər səhabələrin döyüşdən qaçdığını görüb Abbasa dedi: "Camaatı çağır, onlara verdikləri əhdi xatırlat!" . Abbas çox uca səslə qışqırdı: "Ey ağac altında beyət edənlər! Ey Bəqərə surəsinin əhli! Hara qaçırsınız? Peyğəmbəra verdiyiniz vədəni xatırlayın!." Lakin Abbasın səsini bir kimsə eşitmədi..."[1]

İmam Əlinin iştirak etdiyi və hərb tarixində özünün bir daha məğlubedilməzliyini təsdiq etdiyi cihadlarından biri də **Əhzab** döyüşüdür. Bu döyüş ona görə Əhzab adlanır ki, bütün ərəb qövmləri bu döyüşdə iştirak etmişdir. Həmçinin bu döyüşə **Xəndək** döyüşü də deyilir. Çünki bu döyüşə görə Mədinənin ətrafı dərin xəndək atılmışdı. İmam Əlinin bu döyüşdə göstərdiyi igidlik İslam hərb tarixində misli görünməmiş bir igidlikdir. Məhz bu döyüşün müsəlmanların xeyrinə həll olması İslamın yaşamasını təmin etmişdir. Əbəs deyildir ki, bu döyüşə müşriklər hazırlaşan zaman Cəbrail bunu Peyğəmbərə xəbər vermiş və ciddi tədbir görülməsinin zəruriliyini ona çatdırmışdı. Peyğəmbər bu döyüşün çox ağır olacağını ilahi vəhylə bildikdən sonra öz səhabələri ilə məsləhətləşmiş və döyüş meydanının seçilməsi və döyüş əməliyyatı haqqında onların fikirlərini öyrənmişdir. Muhacir və Ənsarı bir yerə toplayan Peyğəmbər tək-tək onların fikirlərini öyrənmiş və sonda Salman Farsinin verdiyi təklifi qəbul etmişdir. Onun təklifinə görə Mədinənin ətrafını dərin və enli xəndək qazmaq, Həmçinin bir neçə metrdən bir döyüş postları yaratmaq olmuşdur.

Mükəmməl silahlanmış və böyük bir ordu ilə Mədinəyə gələn müşrik qoşunların içərisində min pəhləvana müqabil hesab edilən və öz dövründəki bütün döyüşlərdən qalib çıxan Əmr bin Əbdvüddə var idi. Ondan başqa qoşunun tərkibində İkrimə bin Əbi Cəhl, Zirar bin Xəttab, Hubeyrə bin Əbi Vəhəb, Nofəl bin Abdullah kimi şücaətli müşriklər var idi. Onlar gəlib Mədinəyə yetişdikdə onun ətrafının böyük xəndəklə əhatə olunduğunu görüb dedilər: "And olsun ki, bu ərəblərin taktikası deyil. Çünki onlarda indiyədək belə taktika olmayıb. Bu daha çox farsların taktikasına oxşayır." Onlar bir müddət xəndəyin kənarında covlan etdikdən sonra nəhayət Əmr bin Əbdvüddə bir neçə döyüşçü ilə xəndəyi keçdi. Onun xəndəyi keçməsi müsəlman qoşununda böyük həyacana və qorxuya səbəb olmuşdur. Əmr bin Əbdvüddə meydanda dayanıb nərə çəkərək deyirdi: "Cənnət iddiaçıları haradadırlar? Onlardan biri varmı ki, məni Cəhənnəmə, yaxud da mən onu Cənnətə göndərim?." Məşhur alim lə-Vaqidi yazırdı: "Onun bu nərələri qəlblərə elə bir qorxu salmışdı ki, elə bil qulaqlar bağlanmış, dillər isə lal olmuşdur."[2]

Əmrin müqabil istədiyini görən Peyğəmbər öz qoşununa müraciət edib onunla döyüşə çıxmalarını istədi. Lakin Əlidən başqa onun müraciətinə cavab verən olmadı. Çünki hamı Əmrin şücaətinə bələd idi. Əlinin hər dəfəki istəyini görən Peyğəmbər burudu: "Ey Əli! Bu Əmr bin Əbdvüddədur!" İmam Əli isə onun cavabında dedi: "Mən də Əbu Talib oğlu Əliyəm, ya Rəsulallah!." Nəhayət Peyğəmbər öz qılıncı zülfiqarı Əliyə verdi, əmmaməsini onun başına bağladı və sonra da belə dua etdi: "Allahım Əlini pisliklərdən hifz et! İlahi Bədr döyüşündə Ubeydəni, Ühüddə həzrət Həmzəni məndən aldın. İlahi Əlini bu bəladan qoru!." Peyğəmbər bu duadan sonra dedi: "İndi küfrlə iman bütöv şəkildə bir-birlərinin müqabilindədirlər."

İmam Əli Əmrin müqabilində dayandıqda Əmr soruşdu: sən kimsən? İmam Əli kimliyini ona dedikdə Əmr yenidən dedi: atan Əbu Taliblə tanışlığım olub, istəmirəm əlimdə öləsən, çıx bu meydandan əmin oğlunun yanına get.

İmam Əli ona dedi: əmim oğlu yaxşı bilir ki, məni öldürsən Cənnətə gedəcəm, mən səni öldürsəm sən isə Cəhənnəmə gedəcəksən.

Əmr dedi: ey Əli! Onların ikisi də sənin olsun!

İmam Əli Əmrə dedi: ey Əmr! Eşitmişəm ki, sən döyüş meydanında öz müqabilindən üç təklif istəyirsən və onlardan birini qəbul edirsən.

Əmr dedi: Bəli.

---

[1] İlamül-vəra. s. 198.

[2] əl-Məğazi. II c. s. 48.

İmam Əli dedi: Sənə üç təklifim var, onlardan birini qəbul et! Biri budur ki, İslama gəlib şəhadəteyni deyəsən.

Əmr dedi: Bundan vaz keç!

İmam Əli dedi: Qoşununu götürüb buradan gedəsən.

Əmr dedi: Deyirsən Qüreyş qadınları mənim haqqımda danışıb desinlər ki, bir gən Əmri aldadıb?

İmam Əli dedi: Sən atlısan mən isə piyada. Atından düş vuruşaq.

Əmr dedi: Bunu qəbul etdim.

O, atından düşən kimi onun qıçlarını vurdu. Sonra Əliyə tərəf hücüm çəkib onun mübarək başına ağır bir zərbə endirdi. Onun zərbəsi İmam Əlinin qalxanını və dəbilqəsini parçalayıb başını ağır yaraladı. Özünü itirməyən İmam Əli tez onun qıçlarına qılınc zərbəsi vurdu və nəticədə Əmrin qıçları üzüldü. O, arxası üstə yerə sərildi və üzülmüş qıçını Əliyə selbə atdı. İmam Əli onun sinəsinə çöküb başın kəsmək istədikdə məlun İmamın üzünə tüpürdü. İmam Əli qəzəbindən ayağa qalxdı və bir müddət qəzəbini soyutduqdan sonra onun başı üstünə gəldi və onu öldürdü. Onun Əmrə endirdiyi zərbəni Peyğəmbər belə qiymətləndirdi: "Əlinin Xəndək günü Əmrə vurduğu zərbə insanların və cinlərin ibadətindən üstündür."[1]

İmam Əli Əmrin başını Peyğəmbərə gətirdi. Əbu Bəkr və Ömər gəlib İmam Əlinin başından öpdülər. Ömər Əliyə dedi: "Halal olsun sənə ki, onun boynunu vurdun. Ərəbdə onun kimi boynu vurulan şəxs olmamışdı."

Əmr bin Əbdvüddəun öldürülməsindən sonra elə bir müsəlman yox idi ki, bu hadisədən sevinməmiş olsun. Onun öldürülməsi xəbəri bacısına çatdıqda demişdi: Onu öldürən şəxs kimdir? Dedilər Əbu Talib oğlu Əli. Dedi: onu çox kərim və şərəfli bir şəxs öldürdü. Buna görə də qardaşıma yas tutmayacağam.[2]

Rəbiə bin Malik əs-Sədi deyir: "Hüzeyfə bin Yəmanın yanına getdim və ona dedim: "Ey Əba Abdullah! İnsanlar Əlinin fəzilət və üstünlüklərindən danışırlar. Bəsrəlilər deyirlərki, o, çox ifrata varmış biridir. Sən Əlinin haqqında mənə bir hədis deyə bilərsənmi ki, mən o hədisi onlara danışım? Hüzeyfə dedi: ey Rəbiə! Bu nə sualdır Əli haqqında məndən soruşursan? Onun haqqında sənə nə danışım? And olsun canım əlində olan Allaha! Əgər Məhəmməd ümmətinin Qiyamətə qədər olan bütün əməllərini tərəzinin bir gözünə, Əlinin bircə əməlini digər gözünə qoysalar, Əlinin bir əməli onların hamısından ağır gələr! Bunu eşidən Rəbiə dedi: mən guman edirəm ki, bu israfçılığla deyilmiş bir mədhdir ey Hüzeyfə!

Hüzeyfə dedi: "Ey axmaq adam! Niyə isrfçılqla deyilmiş mədhdir? De görüm Xəndək günü Əmr və onun ordusu müsəlmanların üstünə gələndə onlar harda idilər? Onları qorxu və dəhşət bürümüşdür. Əmr onları mübarizəyə çağıranda onlar hamılıqla geri durmuşdular. Məgər onların içindən yalnız İmam Əli irəli çıxıb onu öldürmədi?"[3]

İmam Əlinin mühüm cihadlarından biri də **Vadiyir-Rəml** qəzvəsidir. Buna bəzən **Qəzvətus-Silsilə** də deyilir.[4] Həmçinin bu döyüş daha çox **Zatus-Səlasil** adı ilə tanınır. Bu döyüşün belə adlanması isə bu döyüşdə əsir düşən düşmənlərin bir-birlərinə möhkəm zəncirlə bağlandıqlarına görədir. Belə ki, Kənan qəbiləsi belə nəticəyə gəlirlər ki, Mədinə şəhərinə hücum edib İslamı məhv etsinlər. Onlar on iki minlik ordu ilə Yabəs adlı yerdə toplaşırlar. Bu xəbər Peyğəmbərə çatdıqda o, Əbu Bəkrin rəhbərliyi altında böyük bir ordunu onların üstünə göndərir. Lakin müsəlman ordusu bir nəticə əldə edə bilməyib geri dönürlər. Bundan məyus olan Peyğəmbər bu dəfə Ömər bin Xəttabı orduya rəhbər təyin edib düşmənin üzərinə göndərir. Lakin Ömərin rəhbərlik etdiyi İslam ordusu ağır məğlubiyyətə uğradılır. Bu dəfə Peyğəmbər orduya Əli bin Əbi Talibi rəhbər təyin edir və düşmən üzərinə göndərir. İmam Əli sübh vaxtı düşməni mühasirəyə alır və onları İslama dəvət edir. İmam Əlinin onlara ilk müraciəti belə olur: "Ey bura toplaşanlar! Mən Allah Rəsulunun elçisiyəm. Sizə gəlmişəm ki, ya Allahdan başqa Allah yoxdur deyəsiniz, yaxud da sizinlə vuruşacağam." Lakin onlar İmam Əlinin bu təklifini rədd edirlər və ona deyirlər: "Necə gəlmisənsə, eləcə də geri dön."

[1] Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 32.

[2] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi iləl-ləhd. s. 89.

[3] Əlamul-vəra. s. 193-195; İbn Əbilhədid. Şərhu-Nəhcil-bəlağə. XIX c. s. 20-21.

[4] Seyid Məhəmmədhüseyni Şirazi. əş-Şiətu vət-təşəyyu. I nəşri, 1419/2008. s. 128.

İmam Əli orduya döyüş əmrini verir. Ağır döyüşdən sonra İslam ordusu parlaq bir qələbə ilə geri dönür. Onlar bu döyüşdə xeyli əsir və qənimət əldə edirlər. Bu döyüşdəki müsəlmanların qələbəsini Allah belə qiymətləndirir: "**And olsun töyşüyə-töyşüyə qaçan atlara. And olsun qığılcım qopardan atlara. And olsun sübh çağı hücum edən atlara. Sonra da onunla düşmən dəstəsinə təpinən atlara ki, İnsan öz Rəbbinə qarşı çox nankordur**..."[1]

Rəvayətə görə İmam Əli bu döyüşdən qaydarkən onu Peyğəmbər səhabələri ilə birlikdə qarşılamış və ona demişdir: "Allah və Rəsulu səndən razıdır."

Əhməd bin Hənbəl rəvayət edir: "Həsən bin İmam Əli xütbə edərək dedi: dünən sizdən elə bir şəxs ayrıldı ki, əvvəlki və sonrakı ümmətlər içərisində elmdə ondan üstün olan və ona yetişən yoxdur. Peyğəmbər onu bayraqla cihada göndərəndə onun sağında Cəbrail , solunda Mikail olurdu və o, fəth etmədən heç vaxt geri dönməzdi."[2]

Görkəmli təfsirçi əl-Vahidi "Tövbə" surəsinin 19-20-ci ayəsinin təfsirində yazırdı: "İmam Əli, Abbas və Təlhə bir-birlərinə qarşı öyünürdülər.

Təlhə dedi: Kəbənin sahibi mənəm, çünki onun açarları mənim əlimdədir.

Abbas dedi: mən həccə gələnlərə su verir və onu təmir edirəm.

İmam Əli dedi: mən bilmirəm siz nə danışırsınız, mən insanlardan altı il əvvəl namaz qılmışam. Mən cihad sahibiyəm.

Elə bu zaman Allah: **"Məgər siz hacılara su verməyi və Məscidülharamı təmir etməyi Allaha və Qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz. İman gətirib hicrət edənləri, Allah yolunda malları və canları ilə vuruşanları Allah yanında ən böyük mükafat gözləyir. Onlar xeyirə qovuşanlar, nicat tapanlardır"**ayəsini göndərdi."[3]

İmam Əlinin İslam müharibələrində göstərdiyi fədakarlıq və şücaət misli görünməz dərəcədədir. Onun döyüş meydanlarındakı çəkdiyi nərələr, vurduğu zərbələr və hətta göstərdiyi döyüş mədəniyyəti bütün tarix, təfsir, hədis və ədəbiyyat kitablarında mövcuddur. Şairlərin onun mədhinə aid yazdıqları şeirlər həmişə dillər əzbəri olmuşdur. Təəssüflər olsun ki, burada o həzrətin haqqında yazılmış şeirlərdən nümunə vermək imkanımız xaricindədir.

5.17. İmam Əlinin elmi üstünlükləri

Elmə yüksək qiymət verən Allah buyurur: "**Bilənlərlə bilməyənlər bərabərdirlərmi**?"[4] İmam Əli səhbələrin də etiraf etdikləri kimi müsəlman ümməti içərisində ən bilikli və ən elmli bir şəxs idi. Onun elmi qazanılmış yox, lədünnidir, yəni birbaşa Allah tərəfindən verilmişdir. Çünki o, elmini birbaşa olaraq Peyğəmbərdən almış, Peyğəmbər də öz elmini Allahdan almışdır.Onun elminin dərinliyinə və genişliyinə tarix şahiddir. İmam Əlinin elmi təkcə bir sahəyə aid deyildir. Onun elmi dəqiq və humanitar sahələri özündə ensiklopedik şəkildə əhatə etmiş elmdir. Əbəs deyildir ki, hələ ondan başqa dünya elm tarixində heç bir alim qalxıb: "Məni itirməmişdən əvvəl nə istəyirsinizsə, məndən soruşun. And olsun Allaha! Göylərin yollarını yerlərin yollarından daha yaxşı bilirəm" demiş olsun. Bu söz yalnız və yalnız ona məxsusdur. İmam Əlinin elmdəki üstünlükləri haqda çoxlu sayda hədis vardır. Bu hədislər həm Peyğəmbərin , həm səhabələrin və həm də İmamların dillərindən nəql olunmuşdur. Onlardan bəzilərini burada qeyd etməklə İmam Əlinin elminin ilahi vəhyə bağlandığını və Allah tərəfindən verildiyinin şahidi olacağıq. Buna Qurani-Kərim də şahidlik edir. Belə ki, məşhur sünnü təfsirçisi əs-Sələbi "əl-Haqqə" surəsinin "**Dərk edən qulaq bunu eşidib yadda saxlasın**" ayəsinin təfsirində yazırdı: "Bu ayə nazil olan zaman Peyğəmbər Əliyə dedi: Ey Əli! Allah o qulağı sənin qulağın etmişdir."[5]

Digər görkəmli İslam alimi Əbu Nəim Hafiz əş-Şafei səhih bir sənədlə Peyğəmbərin belə dediyini yazırdı: "Ey Əli! Rəbbim mənə öyrətdi ki, sənin qulaqlarını elmlə doldurum." Bu zaman

[1] Adiyat surəsi.
[2] Müsnədi-Əhməd. I c. s. 199.
[3] Əbulhəsən Əli bin Əhməd əl-Vahidi. Əsbabun-nüzul. Həmin ayənin təfsiri.
[4] Zumər surəsi, ayə 9.
[5] Təfsirüs-Sələbi. Haqqə surəsinin 12-ci ayəsinin təfsiri.

“**Dərk edən qulaq bunu eşidib yadda saxlasın**” ayəsi nazil oldu və Peyğəmbər buyurdu: “Mənim elmimi dərk edib yadda saxlayan qulaq sənsən.”[1]

Həmçinin məşhur hədis alimi əl-Beyhəqi Əlidən belə rəvayət edir: “Peyğəmbər məni Yəmənə göndərəndə ona dedim: mən gəncəm və hakimliyin nə olduğunu bilmərəm. O, mənim sinəmə vurub dedi: Allahım! Onun qəlbini hidayət et və dilini möhkəmlət!

And olsun buğdanı cücərdən Allaha! Bundan sonra iki hökm arasında heç bir şəkk etmədim.”[2]

Peyğəmbər buyurmuşdur: “Mən elmin şəhəri, Əli isə onun qapısıdır.”[3]

“Mən hikmət evi, Əli isə onun qapısıdır.”[4]

“Sizin ən qəzavətliniz Əlidir .”[5]

Salman əl-Farsi rəvayət edir: “Peyğəmbər buyurdu: məndən sonra ümmətimin ən elmlisi Əbu Talib oğlu Əlidir.”[6]

Əbu Səid əl-Xudri rəvayət edir: “Peyğəmbər buyurdu: Allah hikməti on hissəyə bölmüşdür və onun doqquz hissəsini Əbu Talib oğlu Əliyə vermişdir.”[7]

İbn Abbas rəvayət edir: Peyğəmbər buyurdu: “Mən hikmət evi Əli isə onun qapısıdır. Hər kəs hikmət istəyirsə, gərək qapıdan gəlsin.”[8]

Əbul-Həmra rəvayət edir: “Peyğəmbər buyurdu: hər kəs Adəmin elminə, Nuhun fəhminə, Yəhya bin Zəkəriyyanın zöhdünə, Musa bin İmranın qavrayışına baxmaq istəyirsə, Əbu Talib oğlu Əliyə baxsın.”[9]

Əbu Bəkr dedi: Ey Allahın Rəsulu! Sən bir şəxsi üç peyğəmbərə bənzətmisən. Afərin olsun bu şəxsə. Kimdir o?

Peyğəmbər buyurdu: məgər bilmirsən, ey Əbu Bəkr?

Əbu Bəkr dedi: Allah və onun Rəsulu daha yaxşı bilər.

Peyğəmbər buyurdu: O, Əbul-Həsən Əli bin Əbi Talibdir

Əbu Bəkr dedi: afərin sənə ey Əli! Görəsən sənə bənzəyən biri varmı?” [10]

Əbu Əbdürrəhman əs-Səlma deyir: “Qüreyşin içində Allahın kitabını İmam Əli kimi oxuyan birini görmədim.”[11]

Əbül-Buxturi deyir: “Əlini Kufədə minbərə çıxan gördüm. Onun əynində Peyğəmbərin əbası, belində Peyğəmbərin qılıncı, başında Peyğəmbərin əmmaməsi və barmağında Peyğəmbərin üzüyü var idi. O, minbərin üstündə oturub köynəyinin yaxasını açdı və dedi: məni itirməmişdən əvvəl məndən soruşun... And olsun Allaha! Mən Tövrat əhli ilə Tövratla, İncil əhli ilə İncillə və Zəbur əhli ilə Zəburla danışaram.”[12]

İbn Abbas rəvayət edir: “Əbu Talib oğlu Əliyə on doqquz elm verilmişdir. Siz yalnız onun birinə şıriksiniz.”[13]

Ümmülmöminin Aişə rəvayət edir: “Əli insanlar arasında sünnəni ən yaxşı bilən şəxsdir.”[14]

---

[1] Hilyətül-övliya. I c. s. 67.

[2] Sünənül-Beyhəqi. s. 86. Bu hədisi bir az başqa formada Əhməd bin Hənbəl “Müsnəd” (c. I, s. 73) əsərində nəql etmişdir.

[3] Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 137-138; əl-Heysəmi. Məcməüz-zəvaid. IX c. Darur-rəyyan lit-turasil-Qahirə, s. 114; Əbdurrəuf əl-Mənavi əş-Şafei. Feyzül-Qədir fi şərhil-camis-səğir. I c. Misir, Məktəbə ticariyyəl-kubra, s. 36.

[4] Sünəni-Tirmizi. Məktəbə İbn Həcər. s. 1041. Hədis № 3723; Əbdurrəuf əl-Mənavi. Feyzül-Qədir. III c. s. 46.

[5] Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 616; Hafiz Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-üqba. s. 83.

[6] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 40.

[7] Həmin mənbə.

[8] İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. s. 86.

[9] Hafiz Şəmsuddin əz-Zəhəbi. Mizanül-etidal fi nəqdir-Rical. IV c. s. 99.

[10] Əllamə Hilli də rəvayət etmişdir: Bax: Əllamə Həsən bin Mutəhhər əl-Hilli. Kəşful-yəqin fi fəzaili-Əmirilmuminin (ə). s. 55.

[11] İbn Əbdulbirr əl-Qürtubi. əl-İstiab fi mərifətis-səhabə. II c. s. 334.

[12] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 49.

[13] İbn Əbdulbirr əl-Qürtubi. əl-İstiab. III c. s. 1104; Əllamə əl-Kənci əş-Şafei. Kifayətüt-talib. s. 197.

[14] İbn Əbdulbirr əl-Qürtubi. əl-İstiab. III c. s. 1104.

İbn Abbas Ömər bin Xəttabın belə dediyini rəvayət edir: “Əli bizim ən qəzavətli adamımızdır.”[1]

Mənbələrin yazdıqlarına görə, bir qadın öz uşağını altı aylıq dünyaya gətirdiyinə görə onu xəlifə Ömər bin Xəttab daşa qalaq etdirməyə əmr verir. Lakin İmam Əli Öməri bu işdən çəkindirdikdə xəlifə Ömər bunun səbəbini soruşur. İmam Əli ona Qurandan dəlil gətirir.

Həqiqətən də İslam elmlərinin tarixi araşdırıldıqda məlum olur ki, müsəlmanlar bütün elmlərini məhz İmam Əlinin vasitəsilə əldə etmişlər. Buna görə də cəsarətlə demək olar ki, İmam Əli İslam elmlərinin istinad nöqtəsidir. Hətta onun astranomiyaya, riyaziyyata və bir çox dəqiq elmlərə aid mühüm elmi fikirləri vardır.

Bütün müsəlmanlar bu və ya digər mənada həmişə onun elminə müraciət etmiş və ondan olduqca faydalanmışdırlar. Çünki İmam Əli öz dövründə müsəlmanlara aydın olmayan bir çox elmləri kəşf etmiş, bir çox elmi problemlərin həlli yolunu göstərmişdir. Əbəs deyildir ki, ərəb qrammatika elminin banisi məhz İmam Əli özüdür. Məlumdur ki, Qurani-Kərimin nazil olmasından sonra onun hansı ləhcədə oxunması problemi ortaya çıxmışdı. Peyğəmbərin vəfatından sonra isə bu problem daha da qlobal hal almışdır. Məhz buna görə də İmam Əli təcvid və qrammatika elmlərinin qaydalarının hazırlanması haqqında düşünmüşdür. O, bu haqda məşhur tələbəsi Əbüləsvəd əd-Duəliyə (605-688) öz tövsiyələrini vermişdir. Əbüləsvəd ondan aldığı tövsiyələr əsasında ilk dəfə olaraq “Üsulun-nəhvil-ərəbiyyi” əsərini yazmışdır. Ərəb dili elminin tarixi ilə maraqlanan hər kəsə yaxşı məlumdur ki, bu günkü ərəb qrammatika elmində işlədilən “əl-İstifham”, “ət-Təəccub”, “əl-İmalə”, “əl-İzafət”, “İnnə və əxəvatəha”, “Təqsimül-kəlimə” və bir çox terminlərin bir başa banisi İmam Əli digər bir çox terminlərin isə banisi onun tələbəsi Əbüləsvəddir.

Bu barədə onun filologiya elmləri sahəsində ən məşhur tələbəsi olmuş Əbüləsvəd əd-Duvəli məlumat vermişdir.

Mötəbər mənbələrin məlumatına görə, İslamda ilk əsər yazan şəxs İmam Əli və oğlu Həsəndir. Bunu Şəhraşub (1095-1192) “Məaliməl-üləma”, Cəlaləddin əs-Süyuti (1445-1505) “Tədribür-ravi” və Möhsin əl-Əmin (öl. 1953) “Əyanüş-şiə” əsərlərində qeyd etmişlər. Şəhraşub yazırdı: “Həqiqətən İslamda ilk əsər yazan Əlidir . O, Allahın kitabını toplamışdı. Sonra əsər yazan Salman Farsi, sonra Əbuzər əl-Qiffari, sonra Əsbəğ bin Nübatə, sonra Abdullah bin Əbi Rafi, sonra İmam Zeynül-Abidin olmuşdur.”

Doğrudan da İslam elmlərinin tarixinə nəzər salan hər kəsə məlumdur ki, İslamda ilk əsər meydana gətirən İmam Əli və onun tərəfdarlarıdır. İmam Əli başının qarışıq olduğu, fitnələr zühur etdiyi bir dövrdə bir əlində qılınc, digər əlində isə qələm tutaraq İslama xidmət göstərmişdi. Bunu onun yazdığı əsərlər sübuta yetirir. Belə ki, Onun mübarək qələmindən çıxan hələlik bizə bəlli olan əsərlər aşağıdakılardır:

1) “Cəmül-Quranil-Kərim və təviluhu.”
2) “Kitabu-Əmali.”
3) “əl-Camiə.”
4) “əl-Cifr.”
5) “Səhifətül-kitabil-fəraiz.”
6) “Kitab fi zəkatin-niəm.”
7) “Kitab fi əbvabil-fiqh.”
8) “əl-Fiqh.”
9) “Əhdun lil-Əştər.”
10) “Vəsiyyətun li Məhəmməd bin əl-Hənəfiyyə.”
11) “Kitabu əcaibil-əhkam.”

Bütün bunlardan əlavə, İmamın adına bağlı olan “Nəhcül-bəlağə” əsəri müsəlman aləmində məşhurdur ki, orada çox mühüm elmi incəliklər vardır.

Təfsirə aid ilk əsərin müəllifi Əlidir və ilk olaraq “Cəmül-Quran və təviluhu” əsərini yazmışdı. O, burada ayələri nazil olma ardıcıllığı ilə düzmüşdür. İmam Əli burada 60 növ Quran elmlərindən bəhs etmişdir. Süyuti onun təfsir elmindəki bilgisinə işarə edərək yazırdı: “O, səhabələr

[1] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 47.

içərisində təfsir haqqında ən çox rəvayət edəndir." İbn Abbas demişdi: "İmam Əli Quranın batininə və zahirinə bələddir." Əkbəri isə deyir: "Peyğəmbərdən sonra heç kəs İmam Əli qədər Allahın kitabına bələd deyildir."[1]

Deməli, yuxarıda qeyd edilən hədislər müsəlman alimlərirnin də etiraf etdikləri kimi İmam Əlinin digər sahələrdə olduğu kimi elm sahəsində də üstünlüyünün bariz nümunəsidir.

5.18. İmam Əlinin möcüzələri

Möcüzə sözü lüğətdə "aciz buraxmaq" mənasındadır. Möcüzə elə bir fövqəladə hadisədir ki, onu heç vaxr Allahın izni olmadan bəşər qüvvəsi ilə ortaya çıxarmaq mümkün deyildir.

İmam Əlinin həyatı boyu peyğəmbərlərtək möcüzələri olmuşdur. Onun göstərdiyi möcüzələr bütün müsəlman qaynaqlarında yer almışdır. Onlardan birini burada qeyd etməklə İmam Əlinin məqamının nə qədər ali olduğunun şahidi olacağıq.

İmam Əlinin adına bağlı olan ən mühüm və ən böyük möcüzələrdən biri və bəlkə də birincisi Günəşin geri qaytarılması möcüzəsidir. Bu möcüzənin baş verməsi bütün İslami qaynaqlarda öz əksini tapmışdır. Əlbəttə, məlumdur ki, Allahın qüdrəti hər bir şeyə yetəndir və kainatda mövcud olan hər bir şey onun iradəsi ilə idarə olunmaqdadır. Günəşin yaranması da əbəs olmayıb mütləq ilahi qüdrətə bağlıdır və onun iradəsi ilə də idarə olunmaqdadır. Buna görə də onun, Günəşi yaratdığı və çıxarıb batırdığı kimi onu batdıqdan sonra geri qaytarmağa da qüdrəti vardır. Buna heç bir müsəlman şəkk etməməlidir. Əks halda o müsəlmanın imandan xaric olması gerçəkləşəcəkdir. İmam Əlinin də Günəşi batdıqdan sonra geriyə qaytarması möcüzəsi mütləq ilahi qüdrətə bağlı olmuşdur. Bu hadisə ilə əlaqədar olan hədisi məşhur alim Əbu Bəşir Məhəmməd bin Əhməd əd-Dulabi (öl. 959) belə rəvayət edir:

"İshaq bin Yunis, o, Süveyd bin Səiddən, o, Mətləb bin Ziyaddan, o, İbrahim bin Həyyandan, o, Abdullah bin Həsəndə, o, anası Fatimə bint Hüseyndən, o da Hüseyn bin Əlidən mənə belə rəvayət etdi: "Peyğəmbər Əlinin otağında idi. Ona vəhy nazil olurdu. Elə ki, vəhy bitdi, Peyğəmbər Əliyə buyurdu: "Əsr namazını qılmısanmı?" Əli dedi: "Xeyr, ey Allahın Rəsulu!" Peyğəmbər buyurdu: "İlahi, bilirsən ki, o, sənin və Rəsulunun əmrlərinin icra etməkdə idi. Günəşi ona görə geri qaytar."

Hüseyn bin Əli dedi: Allah Günəşi geri qaytardı. Əli əsr namazını qıldıqdan sonra o batdı."[2]

Qeyd etdiyimiz hədisi Əbu Bəşir əd-Dulabidən əl-Asimi "Səmtün-nücum" əsərində (II c. s. 487) nəql etmişdir.

Həmçinin hədisi məşhur hədis alimləri Xətib əl-Bağdadi "Təlxisül-mütəşabih" əsərində, Süyuti də ondan "əl-Ləalil-məsnuə" əsərində (I c. s. 174) aşağıdakı sənədlə nəql etmişlər:

"Yusif bin Yaqub ən-Nisaburi, o, Əmr bin Həmmaddan, o, Süveyd bin Səiddən, o, Müttəlib bin Ziyaddan, o, İbrahim bin Həyyandan, o Abdullah bin Həsəndən , o, Fatimə Suğra bint Hüseyndən , o da Hüseyn bin Əlidən rəvayət edib."

Məşhur hədis tədqiqatçılarından olan Əllamə Mahmudi hədis haqqında yazırdı: "Günəşin geri qaytarılması hədisini səhabələrdən bir çoxları rəvayət etmişlər. Müsəlman alimləri də bu hədis haqqında çoxlu əsərlər yazmışlar. Şairlər də əsrlər boyu öz sələflərindən ardıcıllarına məlumat vermişlər. Onlardan hər biri bu hədisi "xəbəri-vahid" kimi nəql etmiş və nəticədə bunların hamısı bir yerə toplandıqda, hədis mütəvatir dərəcəsinə yetişmişdir."[3]

Hədisi aşağıdakı səhabələr rəvayət ediblər:

1. Əli bin Əbi Talib. (Hakim əl-Həskani. "Tarixi-Diməşq." II c. s. 303).
2. Hüseyn bin İmam Əli . (Əbu Bəşir Dulabi. "Zürriyyətüt-tahirə" əsəri).
3. Cabir bin Abdullah əl-Ənsari. ("Mənaqibu-Xarəzmi" XIX fəsil, s. 236; Təbərani. "Möcəmü-əvsət" əsəri).
4. Əbu Rafi. ("Mənaqibu-İbn Məğazili." s. 98, hədis № 141).
5. Əbu Səid əl-Xudri. (Hakim əl-Həskani).
6. Əbu Hüreyrə. (Hakim əl-Həskani).

[1] Möhsün əl-Əmin. Əyanüş-şiə. I c. s. 164.
[2] Zəriyyətüt-Tahirə. s. 185
[3] Şeyx Məhəmməd Bağır əl-Məhmudi. Rəsail fi hədisi rəddiş-şəms. Müəssisətul-məarifil-islamiyyə, 1419 h/q. s. 15.

7. Ənəs bin Malik. (Məhəmməd bin Süleyman. “Mənaqibu-Əmirilmuminin” II c. s. 516, hədis № 1020).

8. Abdullah bin Abbas. (İbn Şazan. “Miə mənqəbə.” S. 143. Mənqəbə-75; “Mənaqibu-Xarəzmi.” s. 236).

9. Əsma bint Üveys.

Göründüyü kimi, bu hədisi səhabələrdən doqquz nəfər nəql etmişdir. Lakin şiə qaynaqlarında, o cümlədən Şeyx Müfidin Ümmü-Sələmədən, Şəhraşubun isə Ümmi-Hani bint Əbi Talibdən və Əbuzər əl-Qiffaridən olan rəvayətləri də nəzərə alınsa, onların sayı on ikiyə yetişəcək.

Görkəmli İslam alimi Qazi İyaz bu hədis haqqında yazırdı: “Günəşin geriyə qaytarılması hədisi hədisşünaslar yanınında ixtilaflıdır. Onlardan bəziləri bunu, səhih, bəziləri zəif, bəziləri isə uydurma bilmişlər. Amma onun sənədlərinin bir-birini qüvvətləndirməsi hədisin “həsən” dərəcəsinə yetişməsinə səbəb olmuşdur. Buna görə də ona güvənib onu dəlil gətirmək olar.”

Digər görkəmili hədis alimi Təhavi (853-933) hədisin sənədində yer alan ravilərin hamısının etibarlı (güvənilən) olduğunu və onların tən (qınanmadığından) olunmadıqlarını deyir.

Lakin bu hədisi müsəlman alimləri içərisində yalnız İbn Teymiyyə (1263-1328) və onun davamçıları zəif bilmişlər. İbn Teymiyyə “Minhacüs-sünnə” əsərində (IV c. s. 185-195) hədisi zəif, İbn Cövzi “əl-Mövzuat”, İbn Qəyyim (1292-1349) isə “əl-Mənaril-münif” əsərində (s. 57) uydurma bilmişdir.

İbn Cövzi yazırdı: “Onun sənədindəki İbn Üqdə rafizidir (şiədir) və səhabələri söydüyündən onun hədisi uydurmadır.”

Göründüyü kimi, İbn Cövzinin sözü gedən hədisi uydurma bilməsinə yeganə səbəb onun sənədində yer alan ravinin şiə olmasına görədir. Halbuki məşhur İslam alimi Əli əl-Qari yazırdı: “Əgər ravi rafizi olarsa, onun hədisini uydurma bilmək olmaz, xüsusilə də o, öz məzhəbində güvənilən olarsa.”

Təəssüflər olsun ki, bu qədər sənədlə rəvayət olunmuş bu hədisi bəzi insanlar qəbul etmək istəmirlər. Buna görə də məsələni daha da dərindən isbat etmək üçün tarixdə Günəşin geriyə qaytarılması hadisəsinin bir neçə dəfə baş verdiyini mötəbər qaynaqlar əsasında araşdırıb oxucuların ixtiyarına veririk. Belə ki, görkəmli İslam alimi Cəlaləddin Süyuti (1445-1505) Hişamın İbn Sirindən, onun da Əbu Hüreyrədən belə nəql etdiyini yazırdı: “Peyğəmbər buyurdu: “Günəş Yuşə bin Nundasn başqa heç kimsə üçün geri dönməmişdir.”[1] Bu hədisi Zəhəbi (1274-1348) də rəvayət etmişdir. Günəşin geriyə qaytarılması hədisini hədis alimlərindən Qazi İyaz, Hafiz əl-Həskani və Beyhəqi səhih, Təbərani isə həsən hesab edirlər.

Tarixdə Günəşin geriyə qaytarılması hadisəsi Süleynan bin Davudun dövründə də olmuşdur. Bu hadisəni Peyğəmbərdən hədis şəklində İbn Həcər əl-Əsqəlani (1372-1349) “Fəthül-bari”,[2] Sələbi və Bəğəvi (1044-1122) isə “Təfsir”[3] əsərlərində qeyd etmişlər. Həmin əsərlərdə hədisi İbn Abbas İmam Əlidən belə rəvayət edir:

“Əli mənə dedi: Süleyman bin Davudun hekayəsi haqqında nə bilirsən?” Dedim: “Kəb mənə belə rəvayət etdi ki, Süleymana on dörd at göstərildi. O, əsr namazını qılmamış Günəş batdı. Süleyman Günəşin qaytarılmasını əmr etdi. O, sonra atları sürənləri vurdu və atların da boğazlarını üzdü.”

İmam Əli buyurdu: “Kəb yalan deyir. Süleyman öz düşmənləri ilə cihad etmək istəyirdi. O, atların hazırlanması ilə məşğul oldu və Günəş batdı. O, Günəşə müvəkkil olmuş mələklərə əmr etdi ki, onu Allahın izni ilə geri qaytarsınlar. Onlar Günəşi geri qaytardılar və Süleyman da əsr namazını öz vaxtında qıldı. Bil ki, Peyğəmbərlər heç vaxt zülm etməzlər və zülm etməyə göstəriş verməzlər.”

Bu hədis haqqında Cəlaləddin Süyuti “Kəşfül-lübs an hədisi rəddiş-şəms” adlı traktat yazmışdır.

[1] Cəlaləddin əs-Süyuti. əl-Camius-səğir. II c. s. 293.

[2] İbn Həcər əl-Əsqəlani. Fəthül-bari. VI c. Beyrut, Darül-mərifə, s. 222.

[3] Hadisəni hər iki müəllif “Təfsir” əsərlərinin (IV c. s. 61) “Sad” surəsinin şərhində qeyd etmişlər.

Təhavi "Müşkilül-asar",[1] Əbülhəsən Əli bin Həbib Bəsri əş-Şafei (öl. 1058) "Əlamün-nübüvvət",[2] Beyhəqi (994-1066) isə "Dəlailün-nübüvvət" əsərlərində sözü gedən hədisi rəvayət etmişlər.

Bütün bu deyilənlərdən əlavə, Günəşin geri qaytarılması hədisinin hər bir xüsusiyyəti baxımından doğru ola bilməsini daha da isbatlı şəkildə dərk etmək üçün digər bir rəvayətə də diqqət yetirmək yerinə düşərdi. Belə ki, müsəlman dünyasında övliya kimi öz kəramətləri ilə tanınmış əl-Xədrəminin (öl. 1277) Günəşi geri qaytarması hadisəsi bu işin ilahi övliyalar tərəfindən həyata keçə bilməsini mümkün edir. Bu hadisə belə olmuşdur:

"Bir gün İsmail bin Məhəmməd əl-Xədrəmi səfərdə xidmətçisinə dedi: "Günəşə de dayansın, biz öz mənzilimizə yetişək. Günəş batmağa az qalırdı ki, xidmətçi Günəşə dedi: "Sənə fəqih İsmail deyir ki, dayan!" Günəş dayandı, fəqih öz məkanına yetişdikdən sonra xidmətçiyə dedi: "O məhbusu azad etməyəcəksənmi?" Xidmətçi ona batmağı əmr etdi və o da batdı. Bu zaman gecə düşdü."[3]

əl-Yafei "Miratül-cinan" əsərində[4] İsmail Xədrəminin kəramətlərindən danışarkən yazırdı: "Onun kəramətlərindən biri budur ki, Günəş onun üçün dayanmış, o, öz məqsədinə yetişdikdən sonra batmışdır. Onun bu kəraməti Yəmən ölkəsində yayılmışdır. Mən bu şeirimi ona həsr edirəm:

"O, Məhəmmədin dostu oğlu Xədrəmidir,
Hidayət rəhbəri və şanlı rəhbər dostudur.
Onun ən böyük cah-cəlalı budur ki,
Günəşə dayan dedi, o da dayandı ki, mənzilinə yetişsin."

Digər bir şeirində isə deyir:

"O məşhur Xədrəmidir ki, onun üçün dayanmışdır,
Günəşə dayan deməsi ilə ki, mənzilimə yetişim."

İbn əl-Məaz "Şəkərətüz-zəhəb" əsərində[5] İsmail Xədrəmi haqqında yazırdı: "Onun haqqında əl-Mətəri deyir ki, bu rəvayət az qala təvatür həddinə çata. Xədrəmi Zübeyd məntəqəsində olarkən Günəşin batmağından və bunun da nəticəsində şəhər darvazalarının bağlanmağından qorxaraq Günəşə o, şəhərə girənədək dayanmasını əmr etmiş və bu iş həyata keçmişdir."

Həmçinin bu rəvayəti İbn Həcər "əl-Fətava əl-hədisiyyə" əsərində[6] qeyd etmişdir.[7]

Xatırladaq ki, Günəşin geriyə qaytarılması hadisəsi İmam Əlinin həyatında iki dəfə baş vermişdir. Birinci dəfə Peyğəmbərin sağlığında, ikinci dəfə isə onun vəfatından sonra.

Günəşin geriyə qaytarılması hadisəsinin ikinci dəfə baş verməsi İmam Əlinin xilafəti dövrünə təsadüf etmişdir. Belə ki, o, Babil ərazisi yaxınlınındakı Hillə məntəqəsindən keçən zaman baş vermişdir. Bu hadisəni aşağıdakı ravilər rəvayət etmişlər:

"Nəsr bin Məzahim, o, Ömər bin Abdullah bin Yəla bin Mərrə əs-Səqəfidən, o, atasından, o da Əbdüxeyirdən belə rəvayət edir: "Mən Əli ilə birlikdə Babil yaxınlığından keçirdim. Bu zaman əsr namazının vaxtı idi." Əli dedi: "Ən pis bir məkanda namazı qılmayaq, bundan da daha yaxşı bir məkanda onu əda edərik." Bu ərəfədə Günəşin batmağına az qalırdı ki, Əli miniyindən endi. Mən də onunla birlikdə endim. O, Günəşin geriyə qaytarılması üçün Allaha dua etdi. Günəş əsr namazı qılınacaq miqdarda geriyə qayıtdı. Biz namazı qıldıqdan sonra o batdı."[8]

---

[1] Təhavi. Müşkilul-asar. II c. s. 11.
[2] Əbülhəsən Əli bin Həbib Bəsri əş-Şafei. Əlamün-nübüvvət. s. 79.
[3] əs-Sübki. Təbəqatüş-Şafiin. V c. s. 51.
[4] əl-Yafei. Miratül-cinan. IV c. s. 178.
[5] İbn əl-Məaz. Şəkərətüz-zəhəb. V c. s. 362.
[6] İbn Həcər əl-Əsqəlani.əl-Fətava əl-hədisiyyə. s. 232.
[7] Geniş məlumat üçün bax: Əllamə Əmininin "əl-Qədir" (V c.) və Şeyx Məhəmməd Bağır əl-Məhmudinin "Rəsail fi hədisi rəddiş-şəms" əsərlərinə.
[8] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi ilələl-ləhd. s. 163.

Buna oxşar hədisi Şeyx Səduq "İlələüş-şərai" əsərində Cüveyriyyə bin Məshərdən rəvayət etmişdir. Onun rəvayəti belədir:

"İbn Məshərə deyir: "Əli bin Əbi Taliblə birlikdə əsr namazı vaxtı Cisrus-Siratdan keçirdik. O, dedi: "Bura əzaba layiq görülmüş bir ərazidir. Heç bir peyğəmbərə və onun vəsisinə yaraşmaz ki, burada namaz qılsın. Amma sizdən kim burada namaz qılmaq istəsə, qılsın. Mən dedim: "And olsun Allaha! Mən bu işdə sənə tabe olacağam!"

Biz buradan ötüb keçdikdə Günəş batdı. Əli mənə dedi: "Ey Cüveyriyyə, azan ver!" Mən dedim: "Azan verim?! Halbuki Günəş batıb. Əli yenə dedi: "Ey Cüveyriyyə, azan ver!" Mən qalxıb azan verdim. O, mənə dedi: "İqaməni de!" Mən iqamə deyən zaman, onun ibrani dilində nə isə dediyini eşitdim. Bu zaman Günəşin əsr namazı qədər geri döndüyünün şahidi oldum. Biz namaz qıldıqdan sonra o batdı. Mən Həzrətə dedim, ki həqiqətən sən Allah Rəsulunun vəsisisən. O, dedi: "Ey Cüveyriyyə! Allahın "**Uca Rəbbinin adını zikr et**" [1] ayəsini oxumamısanmı?" Dedim oxumuşam. O, dedi: "Mən də onun adını zikr edib and verdim və Günəşi geriyə döndərdi."

Günəşin geriyə qaytarılması haqqında rəvayət olunmuş hədislər haqqında müstəqil əsərlər yazılmışdır. Onlardan aşağıdakılarını qeyd etmək olar:

1. "Mən rəva rəddüş-Şəms." (Əbu Bəkr əl-Vərraq).
2. "Məsələ fi rəddiş-Şəms." (Hakiməl-Həskani ən-Nisaburi).
3. "Cəvazu rəddiş-Şəms." (Əbu Abdullah Hüseyn bin Əli əl-Bəğdadi).
4. "Rəddüş-Şəms li Əmirilmuminin." (Əbu Müəyyəd Müvəffəq əl-Xarəzmi).
5. "Türuqu hədisi rəddiş-Şəms." (Əbu Əli Məhəmməd bin Əsad əl-Həsəni).
6. "Risalətu rəddiş-Şəms." (Əbülhəsən Şazan əl-Fəzili).
7. "Məzilül-ləbs an hədisi rəddiş-Şəms." (Məhəmməd bin Yusif əd-Diməşqi).
8. "Kəşfül-ləbs an hədisi rəddiş-Şəms." (Cəlaləddin Süyuti).

Bu hədisi öz əsərlərində qeyd edən alimlərdən isə aşağıdakıları qeyd etmək olar:

1. Osman bin Əbi Şeybə "Sünən" əsərində.
2. Məhəmməd bin Əhməd əd-Dulabi "əz-Zürriyyətüt-tahirə" əsərində.
3. Əbulqasim Təbərani "Möcəmül-kəbir" əsərində.
4. Ömər bin Əhməd bin Şahin "Müsnədul-Kəbir" əsərində.
5. İbn Mərdəviyə "əl-Mənaqib" əsərində.
6. Əbu İshaq Sələbi "Təfsir" əsərində.
7. Əbu Bəkr əl-Beyhəqi "Dəlailün-Nübuvvət" əsərində.
8. Xətib əl-Bağdadi "Təlxisul-mütəşabih" əsərində.
9. Muvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi "Mənaqibu-Xarəzmi" əsərində.
10. Məhəmməd bin Yusif əl-Kənci əş-Şafei "Kifayətüt-talib" əsərində.

5.19. İmam Əlinin imamət və xilafəti

İmam Əlinin imamət və xilafət məsələsi Qurani-Kərimdə və hədisi-şəriflərdə öz təsdiqini tapmış həqiqətlərdəndir. Bu haqda bütün məzhəblərin mənbələrində məlumat vardır. Lakin buna baxmayaraq, İmam Əlinin imamət və xilafət məsələsi təəssüflər olsun ki, müsəlman aləmində ixtilaf doğuran bir məsələyə çevrilmişdir. Burada yalnız bu məsələni ayələr və hədislər çərçivəsində araşdıracaq və bu haqda nazil olmuş ayə və hədisləri qeyd etməklə kifayətlənəcəyik. Baxmayaraq ki, bu məsələ İslamda, eyni zamanda, mühüm əqidəvi məsələlərdəndir.

İmam Əlinin imamət və xilafətinə aid olan ilkin ayələrdən biri təfsir əhlinin yanında "İnzar" ayəsi kimi tanınan "**Yaxın qohumlarını qorxut**"[2] ayəsidir. Bu ayə nazil oladuqda Peyğəmbər öz qohum-əqrəbasını Əbu Talibin evində bir yerə topladı. Onların sayı qırx nəfər idi. Peyğəmbər onlar üçün quzu əti və süd hazırlatdırmışdı. Onlar yeyib-içdikdən sonra Peyğəmbər onlara buyurdu: "Ey Əbdülmüttəlib övladları! Allah məni yaratdıqları üzərinə, xüsusilə də sizin üzərinizə peyğəmbər göndərmişdir. Mən sizi iki kəlməyə tərəf çağırıram. Bu kəlimələrin dildə deyilməsi asan, əməl tərəzisindəki çəkisi isə çox ağırdır. O kəlmələri deməklə siz ərəbin və əcəmin padşahına

[1] Əla surəsi, ayə 1.
[2] Şuəra surəsi, ayə 214.

çevriləcəksiniz. O kəlmələrlə siz millətləri ram edəcək və axirətdə isə Cənnətə girəcək və Cəhənnəmdən xilas olacaqsınız. Bu kəlmələr: "Allahdan başqa İlah yoxdur və Məhəmməd onun rəsuludur", sözləridir. Kim mənim bu çağrışıma cavab versə, o şəxs mənim qardaşım, vəsim, vəzirim, varisim və məndən sonra xəlifəm olacaqdır."

Heç kəs Peyğəmbərin bu şağrışına cavab vermədikdə, İmam Əli ayağa qalxıb dedi: "Ey Allahın Rəsulu! Mən sənin bu çağrışına cavab verirəm", - deyə buyurmuşdur.

Bu hadisə üç dəfə təkrar oldu və hər dəfə İmam Əli ayağa qalxıb eyni sözləri dedi. Sonda Peyğəmbər öz tarixi cümləsini buyurdu: "Ya Əli! Sən mənim qardaşım, vəsim, vəzirim, varisim və məndən sonra xəlifəmsən." Bu hədisi təfsir və hədis alimlərindən aşağıdakılar öz əsərlərində qeyd etmişlər:

1. Cərir ət-Təbəri. "Tarixüt-Təbəri." II c. s. 62.
2. Əllamə Müttəqi əl-Hindi. "Kənzül-ümmal." VI c. s. 392.
3. Əhməd bin Şüeyb ən-Nisai. "Xəsaisu-Əmirilmuminin." s. 86.
4. Əhməd bin Hənbəl. "Müsnəd." I c. s. 95.
5. Məhəmməd bin Yusif əl-Kənci əş-Şafei. "Kifayətüt-talib." s. 206.

İmam Əlinin imamət və xilafətinə dəlil göstərilən ayələrdən biri də "Təbliğ" ayəsidir. Allah buyurur: "**Ey Rəsulum! Sənə nazil olanı təbliğ et. Əgər etməsən, Allahın risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!**"[1]

Quran təfsirçilərinin rəyinə və onların əsaslandıqları hədislərə görə, bu ayə Qədirxum çölündə nazil olmuşdur. Belə ki, Peyğəmbər sonuncu həcc səfərini təxminən yüz min nəfər səhabəsi ilə birlikdə yerinə yetirib geri qayıdarkən Məkkə ilə Mədinə arasında yerləşən Qədirxum çölündə həcc karvanının daynmasını əmr edir. Bu yer hacıların bir-birlərindən ayrılıb öz ölkələrinə getdikləri bir məkandır. Bu yerdə Cəbrail nazil olub Peyğəmbərə yuxarıdakı ayəni gətirir. Peyğəmbər karvanı saxladıqdan sonra onun üçün bir minbər hazırlanmasını əmr edir. Minbər hazır olduqdan sonra o, azan oxunmasını və geridə qalanların da irəli sıxlaşmasını istəyir. Səhabələrin hamısı bir araya toplanır. Onlar istinin şiddətindən öz əbalarını ayaqları altına atırlar.

Peyğəmbər minbərin üstünə çıxır və sonra Əlini yanına çağırır. O, xütbə oxuduqdan sonra bu səfərin sonuncu olduğunu və yaxın zamanlarda Allahın dərgahına qovuşacağını səhabələrinə xəbər verir. Onun xütbəsinin bir hissəsində deyilir: "...Mən sizin aranızda iki ağır əmanət buraxıram. Əgər onlardan yapışsanız, heç vaxt yolunuzu azmazsınız. Onlar Allahın kitabı və mənim Əhli-beytimdir. Bu iki şey hovuzun kənarında mənə yetişənədək heç vaxt bir-birlərindən ayrılmazlar." O, sonra əlavə etdi: "Mən sizə sizdən daha üstün deyiləmmi?" Dedilər: "Bəli, ey Allahın Rəsulu!"

Dedi: "Mən hər kəsin rəhbəriyəmsə, onun rəhbəri Əbu Talib oğlu Əlidir . İlahi, onu rəhbər bilənə rəhbər, ona düşmən olana düşmən ol. Ona kömək edənə kömək, onu tək buraxanı öz başına burax və harada olsa belə haqqı onunla birlikdə et." Bu hədis aşağıdakı qaynaqlarda rəvayət edilmişdir:

1. Müslüm bin Həccac. "Səhihi-Müslim." VI c. s. 1873.
2. Əhməd bin Hənbəl. "Müsnəd." V c. s. 501.
3. Xətib əl-Bağdadi. "Tarixi-Bağdad." VIII c. s. 290.
4. İbn Əbdülbirr. "əl-İstiab." II c. s. 473.
5. Yaqut əl-Həməvi. "Möcəmül-üdəba." XVIII c. s. 84.
6. İbn Kəsir. "əl-Bidayə vən-nihayə." III c. s. 408.
8. İbn Həcər əl-Əsqəlani. "Təhzibüt-təhzib." VII c. s. 327.
9. Cəlaləddin Süyuti. "Dürrül-mənsur." II c. s. 259.
10. Cəlaləddin Süyuti. "Tarixül-xüləfa." s. 114.
11. Bəlazuri. "Ənsabül-əşraf."
12. İbn Qüteybə. "əl-İmamət vəs-Siyasət."
13. Məhəmməd bin Cərir ət-Təbəri. "əl-Müfrəd."
14. əş-Şəhristani. "əl-Miləl vən-nihəl."

[1] Maidə surəsi, ayə 67.

15. İbn Əsakir. “Tarixi-İbn Əsakir.”
16. İbn Xəldun. “əl-Müqəddimə.”
17. Şəmsuddin əz-Zəhəbi. “Təzkirətül-hüffaz.”
18. ən-Nuri. “Nihayətül-ərəb fi fünuni-ədəb.”
19. İbn Sabbağ Maliki. “Füsulül-mühimmə.”
20. Nuriddin Hələbi. “Sirətül-Hələbiyyə.”
21. İbn Macə. “Sünəni-İbn Macə.”
22. Tirmizi. “Sünənüt-Tirmizi.”
23. Hakim ən-Nisaburi. “Müstədrək əla səhiheyn.”
24. Əbu Yəla. “Müsnədi-Əbi Yəla.”
25. Qərman Diməşqi. “Əxbaru-düvəl.”

Bu hədisi səhabələrdən aşağıdakılar rəvayət etmişlər:

1. Əbu Hüreyrə.
2. Əbu Zeynəb bin Of əl-Ənsari.
3. Əbu Füzalə əl-Ənsari.
4. Əbu Qüdamə əl-Ənsari.
5. Əbu Ümrə bin Amr bin Mühsin əl-Ənsari.
6. Əbu Heysəm bin ət-Tihan.
7. Əbu Bəkr bin Əbu Qühafə.
8. Üsamə bin Zeyd.
9. Übey bin Kəb əl-Ənsari.
10. Əsəd bin Zürarə.
11. Ümmü-Sələmə.
12. Əsma bint Ümeys.
13. Ümmi-Hani bint Əbi Talib.
14. Ənəs bin Malik.
15. Bərra bin Azib.
16. Cabir bin Səmrə.
17. Cabir bin Abdullah.
18. Əbuzər əl-Qiffari.
19. Cərir bin Abdullah.
20. Həssan bin Sabit.

Ümumilikdə hədisi yüz on səhabə nəql etmişdir.[1] Hətta Peyğəmbərin bu elanından sonra Ömər bin Xəttab Əlini təbrik etmiş və ona: “Mübarək olsun sənin bu məqamın! Sən mənim və bütün möminlərin rəhbəri oldun!”[2] demişdir.

İmam Əlinin imamət və xilafətinə aid olan ayələrdən biri də “**Bu gün dininizi tamamlayıb mükəmməl etdim, sizə olan nemətimi başa çatdırdım və bir din kimi İslamı sizin üçün bəyənib seçdim”**[3] ayəsidir. Quran təfsirçilərinə görə, bu ayə Qədirxumda İmam Əliyə beyət edildikdən sonra nazil olmuşdur.[4] Bunu bir çox təfsir alimləri də təsdiq etməkdədirlər. Onlardan aşağıdakıları qeyd etmək olar:

1. Məhəmməd bin Cərir ət-Təbəri. “əl-Vilayət.”
2. Hafiz Əbu Nəim əl-İsfahani. “Ma nüzilə minəl-Quran fi Əli .”
3. Xətib əl-Bağdadi. “Tarixi-Bağdad.” (VII cilddə).
4. Hakim əl-Həskani. “Duatül-hidat ilə ədai həqqil- movlat.”
5. Cəlaləddin Süyuti. “Dürrül-mənsur.”
6. Xarəzmi. “əl-Mənaqib.”
7. İbn Məğazili. “əl-Mənaqib.”

[1] Bax: Əllamə Əmini. əl-Qədir. 11 cilddə. I c. Beyrut, Darül-kitabil-ərəbi, IV nəşri, 1397/1977. s. 14-60.
[2] Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 109; İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. s. 16-26; Sibt ibn Covzi əl-Hənəfi. Təzkirətül-xəvvasil-ümmət fi mərifətil-əimmə. s. 35.
[3] Maidə surəsi, ayə 3.
[4] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi ilələl-ləhd. s. 199.

8. Şeyxulİslam əl-Həməvini. “Fəraidüs-simteyn.”

9. İbn Kəsir. “Təfsiri-İbn Kəsir.

10. Məhəmməd Bədəxşi. “Miftahün-nicat.”

Göstərilən ayələr onu göstərir ki, Peyğəmbərdən sonra ümmətə imamət və xəlifəlik edəcək şəxs Allah və onun rəsulu tərəfindən seçilməlidir. Burada insanların öz şəxsi ictihadlarına əsaslanıb və yaxud da şura yolu ilə xəlifə seçmək imkanı verilməmişdir. Buna işarə edən çoxlu sayda hədis də vardır. Onlardan aşağıdakıları qeyd etmək əlbəttə ki, mövzunun isbatlı olmasına kömək edəcəkdir.

Peyğəmbər mövzu ilə əlaqədar buyurmuşdur:

“Allah yerləri və göyləri yaratdıqdan sonra onları çağırdı və onlar da Allaha cavab verdilər. Allah onlara mənim peyğəmbərliyimi, Əbu Talib oğlu Əlinin isə vilayətini (imamət və xilafətini) göstərdi. Onlar bunun hər ikisini qəbul etdilər...”[1]

Əbu Səid əl-Xudri Salman Farsidən rəvayət edir: “Peyğəmbərə dedim: “Hər bir Peyğəmbərin vəsisi vardır. Bəs sənin vəsin kimdir?” O, susdu. Mənim ətrafımda olanlar uzaqlaşdıqdan sonra dedi: “Ey Salman, bunu eşitməyə tələsirsən?” Dedim: “Bəli.”

Dedi: “Musanın vəsisini tanıyırsan?”

Dedim: “Bəli, Yuşə bin Nundur.”

Dedi: “Nə üçün?”

Dedim: “Çünki o, onların hamısından daha bilikli idi.”

Dedi: “Mənim də vəsim, sirrimi qoruyan, sizin içinizdə tərk edəcəyim və borcumu ödəyəcək şəxs Əbu Talib oğlu Əlidir.”[2]

Ənəs bin Malik rəvayət edir ki, Peyğəmbər buyurmuşdur: “Mən və Əli Allahın bəndələri üzərinə höccətiyik.”[3]

Peyğəmbər buyurmuşdur: “Hər bir Peyğəmbərin vəsisi və varisi vardır, mənim də vəsim və varisim Əlidir.”[4]

Ənəs bin Malik deyir: “Peyğəmbər mənə dedi: “Ey Ənəs! Hər kəs birinci olaraq bu qapıdan içəri daxil olsa, o, möminlərin əmiri, müsəlmanların ağası, Allah yanında üzü ağ olanların rəhbəri və vəsilərin sonuncusudur.”

Mən qəlbimdə dedim ki, Allahım gələn şəxs kaş Ənsardan olaydı!

Peyğəmbər dedi: “Kimdir gələn, ay Ənəs?”

Dedim: “Əlidir.”

Peyğəmbər qalxıb onun üzündən öpdü, sonra əlini üzünün tərinə çəkib Əlinin üzünə çəkdi. Sonra da Əlinin üzünün tərini silib öz üzünə çəkdi.

Bunu görən Əli dedi: “Ey Allahın Rəsulu, sən elə bir hərəkət etdin ki, səndən əvvəl heç kəs bunu mənə qarşı etməmişdir.”

Peyğəmbər buyurdu: “Sən məndənsən, onlardan çox səsimi eşidənsən və məndən sonra onların ixtilafa düşdükləri məsələləri aydınlaşdıransan.” [5]

Əli Peyğəmbərin yanına gələndə həzrət ona dedi: “Xoş gəlmisən ey müsəlmanların ağası və müttəqilərin imamı!”[6]

Salman rəvayət edir: “Peyğəmbər buyurdu: “Mənim qardaşım, vəzirim və sizə ən yaxşı xəlifə etdiyim şəxs Əbu Talib oğlu Əlidir.”[7]

Hafiz Əbu Səid “Şərəfül-Mustafa” adlı əsərində Əhməd bin Hənbəldən, o da Əbu Səid əl-Xudri vasitısi ilə Peyğəmbərdən belə rəvayət edir: “Allah məni peyğəmbərliyə, Əhli-beytimi isə imamətə vəzifələndirdi.”

---

[1] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 80.

[2] Seyid Nurullah Hüseyni əl-Mərəşi. Şərhu-ehqaqil-həqq. 44 cilddə. V c. İran, Məktəbətül-Mərəşi ən-Nəcəfi, I çap, s. 521-539; XVI c. s. 315-331.

[3] Əhməd bin Hənbəl. Müsnədi-Əhməd. I c. s. 159; Cərir ət-Təbəri. Tarixüt-Təbəri. II c. s. 62; Əllamə Muttəqi əl-Hindi. Kənzül-ümmal. VI c. s. 397; Yusif əl-Kənci əş-Şafei. Kifayətüt-talib. s. 206.

[4] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 42.

[5] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 42; Əllamə əl-Hilli. Kəşfül-yəqin fi fəzaili-Əmirilmuminin (ə). s. 266.

[6] Hafiz Əbu Nəim. Hilyətul-övliya. I c. s. 66.

[7] əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 62.

Furat bin İbrahim əl-Kufi İmam Sadiqdən belə rəvayət edir: "Peyğəmbər buyurdu: "Ümmətimin ən böyük bayramı Qədirxum bayramıdır. O bir gündür ki, Allah o gündə mənə əmr etdi ki, qardaşım Əbu Talib oğlu Əlini ümmətim üçün rəhbər təyin edim və o da məndən sonra onları hidayət etsin. Qədirxum günü elə bir gündür ki, Allah bu gündə öz dinini kamilləşdirmiş və o gündə ümmətimə olan nemətini tamamlamışdır. Bununla da İslamı onlara verməklə onlardan razı olmuşdur."[1]

Bura qədər qeyd olunan ayə və hədislərdən belə məlum olur ki, imamət və xilafət məsələsi İslamda dinin sütunlarından biridir. İmam və xəlifə olan şəxs gərək dinin bütün əmr və qadağalarına mükəmməl riayət etməsilə yanaşı, onun bütün incəliklərini də mükəmməl olaraq bilməlidir. Çünki onun daha elmli və dini qanunlara daha mükəmməl əməl etməsi onun günahsızlığından xəbər verir ki, bunun da nəticəsində din kamil bir formada cəmiyyət içərisində özünü göstərmiş olur. Əgər xəlifə və imam olan kimsə məsum olmazsa, din də heç vaxt kamil bir şəkildə inkişaf edə bilməyəcəkdir. Buna "**Bu gün dininizi kamil etdim**" ayəsi də dəlildir. Deməli, din heç vaxt vilayətsiz kamilləşmir və Allah onsuz bəndələrindən razı qalmır. Bunun da nəticəsində Allah öz nemətlərini bəndəsinə tamamlamamış olur. Həmçinin ayələrdən çıxarılan nəticələr də onu göstərir ki, vilayətsiz dindən Allah razı deyildir.

Yuxarıda göstərilən bu və ya digər ayə və hədislər onu göstərir ki, İmam Əli Peyğəmbərdən sonra İslam ümmətinə imam və xəlifə olaraq təyin edilmişdir. O, Peyğəmbərdən sonra İslam ümməti içində ən fəzilətli şəxs olduğundan onun xilafətə olan məqamı digərlərindən daha yaxın hesab edilir. Buna görə də ona itaət göstərmək və əmrlərinə boyun əymək hər bir müsəlmana vacibdir. Bundan əlavə, "İnzar" ayəsinin təfsirində nəql olunan hədis onu göstərir ki, İslamda imamət və xilafət məsələsi peyğəmbərlik missiyası ilə eyni şəkildə başlamış və eyni şəkildə də davam etmişdir.

İmamət dini və dünyəvi işlərdə insanlara rəhbərlik etmək olduğundan Allah və onun Rəsulu tərəfindən heç vaxt diqqətdən kənar qala bilməzdi. Bu mənada imaməti peyğəmbərliyin əvəzi və davamı kimi başa düşmək olar. İmamətin olması isə şəriət nöqteyi-nəzərindən mümkün olduğu kimi, əqli nöqteyi nəzərdən də zəruridir. Çünki insan oğlu heç vaxt rəhbərsiz ictimai formada yaşaya bilməz. Onlara yol göstərən, cəmiyyətdə ədaləti və qayda-qanunu qoruyan rəhbərin olması isə labüddür.

İmamın kimliyi məsələsi də çox mühümdür. Hər kəsin imam ola bilmək və yaxud da insanların imam seçə bilmək səlahiyyətləri yoxdur. İnsanlar özlərinə peyğəmbər seçə bilmədikləri kimi, imam da seçə bilməzlər. Buna görə də onun Allah tərəfindən təyin olunması lazımdır. Təyin olunan imam da mütləq məsum olmalıdır. Elə bu səbəbdəndir ki, İmam Rza imamın əlamətlərini sadalayarkən buyurmuşdur: "İmam insanların ən biliklisi, ilahi hökmlərə ən yaxşı bələd olan, insanların ən təqvalısı, insanların ən helimlisi, insanların ən şücaətlisi, onların ən səxavətlisi olmalıdır. İmam olan şəxs gərək dünyaya sünnət olunmuş halda gəlsin, pak halda doğulmuş olsun, ana bətnindən düşən kimi kəlmeyi-şəhadəti desin, möhtəlim olmasın, gözü yatsa da qəlbi yatmasın..."[2]

5.20. İmam Əli Peyğəmbərin vəfatından sonra

İmam Əli Peyğəmbər vəfat edərkən onun yanında olmuş və Allahın Rəsulu onun qucağında canını tapşırmışdı. Peyğəmbər vəfat etdikdən sonra İmam Əli dərhal onun qüsl, kəfən və dəfn işləri ilə məşğul olmuşdur. İmam Əlinin bu işləri görməsi əlbəttə ki, Peyğəmbərin vəsiyyəti əsasında olmuşdur. Görkəmli hədis alimləri Əllamə əl-Hindi və Deyləmi Ömər bin Xəttabdan rəvayət edirlər ki, Peyğəmbər buyurdu: "Ey Əli! Sən məni yuyan və məni dəfn edənsən."[3]

Mənbələrdə nəql olunmuş hədislərə görə Əbu Bəkr bin Əbu Quhafə Peyğəmbər can üstə olan zaman onun yanına gəlmiş və onunla söhbət etmişdir. Əbu Bəkr Peyğəmbərdən soruşur:

- Ey Allahın Rəsulu, əcəlin nə vaxt tamam olur?

Peyğəmbər buyurdu:

[1] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi iləl-ləhd. s. 214.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. VII c. s. 267.
[3] Əllamə əl-Hindi. Kənzül-ümmal. VI c. s. 393.

- Artıq mələk gəlmişdir.
- Allah kömək edəndir. Sənin ruhun harada olacaq?
- Sidrətül-müntəhada, Məva cənnətində.
- Sənə kim qüsl verəcək?
- Ailəmdən ən yaxın olan şəxs.
- Səni nəyə bükəcək?
- Bu köynəyimə və Yəmən qumaşına.
- Sənə namaz necə qılınacaq?
- Allah sizi bağışlasın! Mən yuyulduqdan və kəfənləndikdən sonra məni bu evimdə öz çarpayımda qoyarsız, sonra da burada qəbrimi qazarsınız. Bundan sonra isə evi tərk edib çıxarsınız. Çünki mənə ilk salamı Allahım verəcək, ondan sonra Cəbrail , sonra İsrafil , sonra da Əzrail bir dəstə mələklə gəlib mənə namaz qılacaqlar. Sonra da siz mənə namaz qılarsınız. Mənə yaxından ilk namazı Əhli-beytimdən ən yaxın olan şəxs qılar. Sonra qadınlar, daha sonra isə gənclər namaz qılarlar.
- Bəs qəbrinə kim girəcək?
- Əhli-beytimdən ən yaxın kəs mələklərlə birlikdə daxil olacaqdır."[1]

Beləliklə, İmam Əli Peyğəmbəri Fəzl və Abbasın köməkliyi ilə qəbrə qoymuşdur.

5.21. İmam Əlinin xəlifə seçilməsi

Peyğəmbər Mədinəyə hicrət etdikdən sonra orada tarixdə ilk dəfə olaraq İslam dövlətinin əsasını qoydu. Burada bir məscid tikdirib onu dövlətin mərkəzinə çevirdi. Bundan sonra isə, təxminən əlli maddəlik qanun məcəlləsi hazırlayıb orada müsəlmanlarla yanaşı, digər dinin nümayəndələrinin də hüquqlarını təsbit etdi. Həmçinin Peyğəmbərin Mədinədə mühüm siyasi addımlarından biri də mühacirlərlə ənsarlar arasında qardaşlıq müqaviləsini bağlaması olmuşdur. Çünki İslamın birliyini möhkəmlətmək və onu inkişaf etdirmək üçün buna çox böyük ehtiyac vardı. Bu arada Peyğəmbər İmam Əli ilə qardaşlıq müqaviləsi bağladı və bundan sonra onu qurduğu İslam dövlətinin bütün işlərində sankı şərikinə çevirdi. O, İmam Əlinin iştirakı olmadan heç bir hərbi addım atmadı və müqavilələrin imzalanmasında onun yazısından istifadə etdi. Bütün bunlarla o, İmam Əlini gələcək İslam dövlətinin rəhbərinə çevirmək məqsədi güdürdü. Hətta o, ömrünün son vaxtlarında aşağıdakı məşhur vəsiyyətini də etmişdi: "Əgər Əlini özünüzə xəlifə götürsəniz, halbuki siz bunu etməyəcəksiniz, o, sizi hidayət edər və sizi doğru və aydın yola götürər."[2]

Səid bin Übadə rəvayət edir ki, Peyğəmbərdən eşitdim: "Mən öldükdən sonra insanlar öz keçmiş adətlərinə qayıdacaqlar. O gün həqiqət Əli ilədir." Səidə dedilər: "Bu hədisi səndən başqa eşidən olubmu?" O, dedi: "Orada çoxlu insanlar vardı, amma onların qəlblərində kin-kudurət vardır."[3]

İmam Əli Peyğəmbərin dəfni ilə məşğul olduğu halda, bir qrup səhabə Bəni-Səqifədə toplaşıb ümmətə xəlifə seçməklə məşğul oldular. Beləliklə, ora toplaşan bir dəstə səhabənin mübahisələrindən sonra nəhayət, Əbu Bəkr bin Əbu Qühafə xəlifə seçildi. O, iki il (632-634) xəlifə olduqdan sonra yerinə Ömər bin Xəttabı xəlifə təyin etdi. O, on illik (634-644) xəlifəliyindən sonra Müğeyrə bin Şöbənin qulu Əbu Lulu tərəfindən öldürüldü. O, yaralı olduğu zaman altı nəfərlik şura təşkil etdi və o şurada Osman bin Əffanın xəlifə seçilməsini tövsiyə etdi. Beləliklə, ondan sonra Osman bin Əffan müsəlmanlara xəlifə oldu. O da on iki illik (644-656) xəlifəliyindən sonra bir dəstə müsəlman tərəfindən öldürüldü. Nəhayət, müsəlmanlar İmam Əlinin ətrafına toplaşıb onu xəlifə seçdilər. O, beş il (656-661) müsəlmanlara xəlifə oldu. Onun xəlifəlik illəri çox qarışıq bir dövrü əhatə edirdi. Çünki bu dövrdə daxili ixtişaşlar çoxalmış, bir qrup üsyankar xəlifəyə qarşı qoşun toplayaraq onunla açıq döyüşə girmişdilər. Bu da təbii ki, xilafətin zəifləməsinə gətirib çıxarırdı. Amma bütün bunlara baxmayaraq, İmam Əli heç vaxt sarsılmadı. O, bütün vaxtlarda İlahi qanunların qorunmasına və onaların əməl edilməsinə çalışırdı. Hətta o, belə çətin vəziyyətlərdə xilafətin Allah tərəfindən olduğunu və İslam xəlifəsinin məhz Allah tərəfindən seçilməsini nümayiş

[1] Seyid Məhəmməd Kazim Qəzvini. əl-İmam Əli minəl-məhdi iləl-ləhd. s. 222-223.
[2] Əbu Nəim əl-İsbəhani. Hilyətül-övliya və təbəqatül-övsiya. I c. Misir, 1932. s. 64.
[3] Seyid Əli Xan əl-Mədəni. əd-Dərəcatür-rəfiə fi təbəqatiş-şiə. Qum, 1397 h/q. s. 36.

etdirdi. O, xəlifə olduğu müddətdə səltənətin sadəcə bir kürsü olduğunu deyil, əksinə şəri bir vəzifə olduğunu isbat etdi.

İmam Əlinin xəlifə olduqdan sonra qarşısında bir neçə vəzifəsinin olduğunu görürük. Onlardan aşağıdakıları sadalamaq olar:

1. Xəracın toplanması.
2. İnsanların islah edilməsi.
3. Üsyankarlarla cihad.
4. Şəhərlərin abadlaşdırılması.

İmam bu vəzifələri yerinə yetirmək üçün hərbi, iqtisadi, mədəni və digər güclərdən maksimum dərəcədə istifadə etmişdir.

İmam Əli xəlifə olduqdan sonra xilafətin mərkəzini Mədinədən Kufəyə köçürdü. Bu iş onun uzaq siyasi görüşə malik olduğundan xəbər verir. Çünki o ərəfədə mərkəzi hakimiyyəti yerləşdirmək üçün Kufədən üstün bir yer yox idi. Bu da onunla əlaqədardır ki, o dövürdə Kufə İslam dövlətlərinin bütün ərazilərini bir nöqtədə birləşdirən bir yer idi. Bundan əlavə Mədinə şəhərində artıq Əliyə qarşı qruplaşmalr daha da fəallaşmışdılar və bunlar da təbii ki, xəlifəyə böyük maneçiliklər törədirdilər. Bu məqama diqqət çəkən İbn Kəsir yazırdı: "Şamlılarla cihad zamanı Mədinədən gələnlər Əlidən üz döndərdilər..."[1]

İmam Əli Kufəni özünə paytaxt seçən zaman oranın camaatına etdiyi xütbələrin birində demişdir: "Mən sizi digər şəhərlərin əhalisindən üstün tutaraq seçmişəm. Siz Allahın dininə kömək edənlərdən olun..."

Həmçinin Kufənin paytaxt seçilməsi oranın sərvətinin bol, ekologiyasının isə yaxşı olmasına görə də ola bilərdi.

Bundan başqa Kufənin mərkəz edilməsi orada İslam torpaqlarından gəlmiş müxtəlif insanlarını məskunlaşmasına görə də ola bilərdi. Çünki həmin ərəfədə Kufədə Yəməndən, Hicazdan, İraqdan və müxtəlif yerlərdən qəbilələr gəlib məskunlaşmışdılar. Onların öz vətənləri və orada yaşayan qohum-əqrəbaları ilə yaxın əlaqələri var idi.

Kufənin paytaxt edilməsinin ən mühüm səbəblərindən biri də onun Bəsrə və Şama yaxın olması idi. Çünki o ərəfədə İmam Əlinin ən qəddar düşmənləri məhz bu şəhərlərdə toplaşmışdılar. Bəsrədə Zübeyrin tərəfdarları, Şamda isə Müaviyə bin Əbi Süfyanın tərəfdarları məskunlaşmışdılar. Əbəs deyildir ki, İmam Əlinin xilafətinə qarşı məhz bu iki şəhərdə böyük ordu toplanmış və ağır döyüşlər olmuşdur. Bu döyüşlərin əsasında isə bir neçə amil gizlənməkdədir. Onlardan ən mühümlərini aşağıdakı kimi göstərmək olar:

1. Hakimiyyətə tamah salanlar.
2. Müaviyənin xilafəti öz nəslinə irs buraxması.
3. Zəif əqidəli və aldanmış insanlar.

Hakimiyyətə tamah salanlar Cəməl müharibəsini törətdilər. Onlar İmam Əlinin xəlifə seçilməsi ilə özlərinin ziyana düşdüklərini təsəvvür etdilər. Halbuki onların bəzisi İmam Əliyə ilk beyət edənlərdən idilər. Amma İmam Əlinin dövlətində yaxşı vəzifə ala bilmədiklərindən ona qarşı müxalif cəbhədə dayandılar. Onlar yaxşı anlayırdılar ki, İmam Əli ilə vuruşmaq asan bir iş deyil. Buna görə də elə bir adam tapmaq lazım idi ki, o insanları Əliyə qarşı döyüşə cəlb edə bilsin. Bunun üçün isə ən yaxşı yol Peyğəmbərin ailə üzvlərindən bir nəfərin olması lazım idi. Ümmülmöminin Aişənin rəhbərliyi altında böyük bir ordu ilə Bəsrədə toplanıb İmama qarşı müharibə etdilər. Bu müharibə nəticəsində minlərlə müsəlmanın qanı axıdıldı və ümmət içərisində mövcud olan parçalanmanı daha da dərinləşdirdi. İmam Əli bu müharibədə qalib çıxdı. Ümmülmöminin Aişəni əsir aldı, amma ona böyük ehtiram edərək bir dəstə tərəfdarı ilə birlikdə Mədinəyə yola saldı.

Cəməl müharibəsindən sonra əzəli düşmənçiliyini daha da aşkar şəkildə üzə çıxaran Müaviyə illər idi ki, İmam Əlinin əleyhinə ciddi təbliğatlar aparırdı. O, İslam aləmində ilk dəfə olaraq İmam Əlinin minbərlərdə söyülüb lənətlənməsinin əsasını qoydu və bu iş ondan sora da davam etdirildi. Müaviyə İmam Əlinin əleyhinə təbliğatlar aparmaqla öz xeyrinə müəyyən nəticələr əldə etmişdi.

[1] İbn Kəsir. əl-Bidayə vən-nihayə. VII c. s. 241.

Belə ki, o, bütün Şam əhlini öz ətrafında birləşdirməyə nail oldu. Bununla da o, sonda böyük bir ordu ilə İmam Əlinin üstünə gəldi. Müaviyənin bu nailiyyətlərinin isə bir neçə səbəbi ola bilər:

1. İmam Əlinin əleyhinə olan şəxsləri öz ətrafında toplaması.
2. Rüşvət yolu ilə İmam Əlinin ətrafında olan şəxsləri özünə tərəf çəkməsi.
3. Əlini Osmanın qanıda ittiham etməsi və bununla da xalqı ona qarşı qaldırması və s.

Nəhayət, Müaviyə böyük bir ordu ilə İmam Əlinin üzərinə gəldi. Bu döyüş İslam tarixində Siffin müharibəsi kimi tanınır. Bu döyüşdə öldürülən müsəlmanların sayı isə on minlərlə ölçülür. Təəssüflər olsun ki, İmam Əlinin Müaviyə və onun ordusuna verdiyi nəsihətlər bir fayda verməmişdir. Bunun faydasız olduğunu görən İmam danışıq yolunu tutdu. Lakin bu da faydasız olduğundan İmam son dərəcə döyüşü az itki ilə başa çatdırmaq istəyirdi. Lakin Müaviyənin tərəfdarlarının amansız döyüş nümayiş etdirməsi Siffin döyüşünün də ağır itki ilə keçməsinə səbəb oldu.

Siffin müharibəsi getdiyi ərəfədə İmam Əliyə qarşı Xaricilər adı altında yeni bir dəstə formalaşdı. Bunlar həm İmam Əliyə həm də Müaviyəyə qarşı dayanıb onlarla mübarizəyə başladılar. Xaricilər hərəkatının ortalığa çıxması İmam Əli üçün yeni bir böyük problemin başlanması idi. İmam Əli onlara çox nəsihət etdisə də, onlardan yalnız az bir hissəsi bunu eşitdi. Onların böyük əksəriyyət, təxminən səkkiz min nəfəri Abdullah bin Vəhəb ər-Rasibinin rəhbərliyi altında Nəhrivanda toplaşdılar. İmam Əli öz ordusunu yenidən təchiz etdikdən sonra onların uzərinə yürüş etdi və onları ağır məğlubiyyət uğradaraq əksəriyyətini qılıncdan keçirdi.

Xariciləri məğlub etdikdən sonra İmam Əli Kufəyə qayıtdı və az bir müddətdən sonra ordunun yenidən təchiz edib Müaviyənin üzərinə getmək istədi. Lakin İmam nə qədər təbliğat apardısa da az bir dəstədən başqa onun səsinə kömək olan olmadı.

5.22. İmam Əlinin şəhid edilməsi

İmam Əli beş illik hakimiyyəti dövründə yüksək ədalət nümayiş etdirmiş dövlət xadimlərindəndir. Amma təəssüflər olsun ki, o dövrün insanları İmamın ədalətli və sırf dini hakimiyyəti altında yaşamağı bacarmamış, yaxud da daxillərində olan kin-küdurət buna imkan verməmişdir. İmam Əlinin şəxsiyyətini, İslamdakı mövqeyini və yürütdüyü siyasəti doğru başa düşməyən insanlar həmişə ona qarşı olmuş və əllərinə fürsət düşdükcə, İmamı aradan götürmək istəmişlər. Bu qrupdan olan insanların başında isə Xaricilər gəlməkdədir. Nəhayət, onlar İmam Əlini aradan götürməyin zərururi olduğunu düşünərək bunun üçün plan hazırladılar. Bu planın həyata keçrilməsi isə Xaricilərdən olan Əbdürrəhman bin Mülcəmin üzərinə qoyuldu. O, uzun vaxtdan bəri itiləyib zəhərlədiyi qılıncı götürüb Kufəyə gəlir. Burada o, təsadüfən atası və qardaşı Nəhrivan döyüşündə İmam Əli tərəfindən öldürülmüş Qütam adlı bir qadınla tanış olur. Bir neçə günlük tanışlıqdan sonra İbn Mülcəm ona evlənmək təklifi edir. Lakin Qütam: “Atam və qardaşımın qanı alınmadan ərə getmərəm” deyərək onun təklifini rədd edir. İbn Mülcəm onların kim tərəfindən öldürüldüyünü soruşduqda İmam Əli tərəfindən öldürüldüyünü eşidir. Bu xəbər onun üçün gözlənilməz olur və Kufəyə məhz bu işi həyata keçirmək üçün gəldiyini bildirir. Nəhayət bir neçə günlük hazırlıqdan sonra o, Kufə məscidinə gəlir. Sübh namazını qılmaq üçün məscidə gələn İmam Əli səcdədə olarakən məlun İbn Mülcəm arxadan xaincəsinə Həzrətin başına ağır bir zərbə endirir. Bu zərbənin nəticəsində o, iki gün öz yatağında yatdıqdan sonra hicri qırxıncı ilin ramazan ayının iyirmi birində dünyasını dəyişir.

5.23. İmam Əli özündən əvvəlki xəlifələrin dilində

İmam Əli Allahın və Peyğəmbərin kəlamlarında tərifləndiyi kimi özündən əvvəlki xəlifələrin də dillərində tərifləmişdir. Bu haqda mənbələrdə onlaradan çoxlu sayda rəvayətlər vardır. Bu rəvayətlərin bir hissəsi həmin xəlifələrin İmam Əli haqqında Peyğəmbərdən eşitdikləri hədisləri rəvayət etmələri, digər bir hissəsi isə özlərinin sözləridir. Burada onların İmam Əli haqqında rəvayət etdikləri və dedikləri sözlərdən bir neçəsinə diqqət yetirməklə onların İmam Əlinin barəsində həmişə yüksək fikirdə olmalarının şahidi olacağıq.

Birinci xəlifə Əbu Bəkr bin Qühafə Peyğəmbərdən rəvayət edir:

“Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir.”[1]

“Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir. İlahi, onu dost tutana dost, düşmən tutana düşmən ol. Onu sevəni sev, ona nifrət edənə nifrət et. Ona kömək edənə kömək ol, onu tək buraxanı öz başına burax və harada olsa belə haqqı onunla et.”[2]

“Allah mələkləri Əlinin üzünün nurundan yaratmışdır. Onlar Allahı zikr edir, onu təqdis edirlər və etdikləri bu əməllərin savabını Əlini və onun övladlarını sevənlərə yazırlar.”[3]

“Xurma ağacından çıxan səsi eşitdik.” Peyğəmbər buyurdu: “Bilirsinizmi xurma nə deyir?”

Dedik:

- Allah və Onun Rəsulu bilər.

- O deyir: “Bu Allahın rəsulu Məhəmməddir , o, isə onun vəsisi Əbu Talib oğlu Əlidir.”[4]

“Sizə Əbu Talib oğlu Əlini tapşırıram. Əli məndən sonra Günəşin üzərinə çıxdığı və batdığı hər bir şeydən xeyirlidir.”[5]

“Əli mənə mənim məqamım kimidir.”[6]

“Əlinin icazə vermədiyi şəxs Sirat körpüsündən keçə bilməz.”[7]

“Əlinin üzünə baxmaq ibadətdir.”[8]

“Əlinin ədaləti Peyğəmbərin ədalətinə bərabərdir.”[9]

“Ey müsəlmanlar! Əhli-beytimlə sülh edənlə sülhüm, müharibə edənlə isə müharibəm vardır. Onları xoşbəxt əcdadlı və halaldan doğulanlar sevər. Onlara yalnız bədbəxt əcdadlı və zinadan doğulan nifrət edər.”[10]

Xəlifə Əbu Bəkr özü İmam Əli haqqında demişdir:

“Mən sizdən üstün və fəzilətli olduğuma görə mənə beyət etmisinizsə, beyətinizi geri götürün. Çünki mən belə bir fəzilətə sahib deyiləm. Əli sizin içinizdə ola-ola mən sizin üstününüz və fəzilətliniz ola bilmərəm.”[11]

Xəlifə Ömər bin Xəttab Peyğəmbərdən rəvayət edir:

“...Əliyə əziyyət verən mənə əziyyət vermişdir.”[12]

“Əgər insanlar Əlini sevməkdə bir olsaydılar, Allah Cəhənnəmi yaratmazdı.”[13]

“Yeddi qat göyü və yeddi qat yeri tərəzinin bir gözünə, Əlinin də imanını tərəzinin digər gözünə qoysalar, Əlinin imanı ağır gələr.”[14]

“Ey Əli! Hər kəs səni sevərək ölsə, Qiyamət günü peyğəmbərlərlə bir dərəcədə olacaqdır. Hər kəs sənə nifrət edərək ölsə, yəhudi və xristian kimi ölər.”[1]

---

[1] İbn Həcər əl-Əsqəlani. əl-İsabə fi təmyizis-səhabə. c. IV, s. 226; İbn Əsir əş-Şafei. Üsdül-qabə. III c. s. 274.

[2] Zeyni Dehlan. əs-Sirətün-Nəbəviyyə. II c. s. 161.

[3] Hənəfi Xarəzmi. Məqtəlül-Hüseyn. Məktəbətül-Müfid. Qum, s. 97; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. Qum, Müəssisətu nəşril-islami, s. 329. Fəsil-19. Hədis № 348.

[4] Əllamə əl-Eyni əl-Hənəfi. Mənaqibu-Seyyidina Əli (ə). Pakistan, Heydarabad, s. 15. Hədis № 4.

[5] İbn Həcər əl-Əsqəlani. Lisanül-mizan. VI c. Beyrut, Müəssisətu-ələmi, s. 78.

[6] Hafiz Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-üqba. Tehran, İntişarati-cahan, s. 64; İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. Qahirə, s. 177; Mühibəddin ət-Təbəri. ər-Riyazün-nəzrə. III c. Beyrut, Darül-kutubil-ilmiyyə, s. 118; Mərəşi Nəcəfi. Şərhu-ehqaqil-həqq. XVII c. s. 194.

[7] Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-üqba. s. 71; Mühibəddin ət-Təbəri. ər-Riyazun-Nəzrə. III c. s. 137; İbn Həcər əl-Heysəmi əş-Şafei. əs-Səvaiqül-mühriqə. Qahirə, s. 161; Əllamə əl-Eyni əl-Hənəfi. Mənaqibu-Seyyidina Əli (ə). s. 45; əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. Qum, s. 419. Fəsil-70.

[8] İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. Tehran, 1394 h/q. s. 210. Hədis № 252; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. Qum, Müəssisətu nəşril-islami, s. 362. Fəsil-23. Hədis № 375.

[9] İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. s. 129. Hədis № 170; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. s. 296. Fəsil-19. Hədis № 290; Xətib əl-Bəğdadi. Tarixi-Bəğdad. V c. Mədinətül-münəvvərə, Məktəbətüs-sələfiyyə, s. 37 və VIII c. s. 76.

[10] Mühibəddin ət-Təbəri. ər-Riyazun-nəzrə. Beyrut, Darül-kutubil-ilmiyyə, III c. s. 154.

[11] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXVIII c. s. 201.

[12] Əbdülkərim Rafii əl-Qəzvini. ət-Tədvin fi əxbari-Qəzvin. III c. Rəngin mətbəəsi, s. 390.

[13] əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. s. 251; Məhəmməd Salih Kəşəfi Tirmizi əl-Hənəfi. Pakistan çapı, əl-Kovkəbüd-dürri, s. 122.

[14] İbn Əsakir. Tarixu-mədinəti-Dimaşq. 42 c. Beyrut, Darul-fikir, “İmam Əlinin həyatı fəsli”. s. 340-341; İbn Məğazili əş-Şafei. Mənaqibu-Əli bin Əbi Talib. s. 289. Hədis № 330; əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi. Qum, Müəssisətu nəşril-islami, s. 130. Hədis № 145-146.

“Əli dünya və axirətdə mənim qardaşımdır. Ailəm içində xəlifəm, ümmətim içində isə vəsimdir. O, elmimin varisi, borclarımı ödəyəndir. O, məndən, mən də ondanam. Ona fayda verən mənə fayda veribdir. Ona zərər verən isə mənə zərər veribdir. Onu sevən məni sevib, ona nifrət edən isə mənə nifrət edibdir.”[2]

“Ey Əli! Sən Kəbə kimisən. Sənə tərəf gəlinər, sən heç kimə tərəf getməzsən. Sən Kəbətək ziyarət edilər, kimsəni ziyarət etməzsən.”[3]

Xəlifə Ömər bin Xəttabın özü Əliyə dedi:

“Ey Əli! İçində olmadığın camaatdan Allaha sığınıram.”[4]

“Atam sənə fəda olsun! Allah sizinlə bizi hidayət etdi və sizinlə bizi zülmətlərdən çıxarıb nura qərq etdi.”[5]

“Ey Əli! Allah səndən sonra məni salamat saxlamasın.”[6]

“Əli olmasaydı, Ömər həlak olardı.”[7]

Xəlifə Osman bin Əffan Peyğmbərdən rəvayət edir:

“Allah Adəmi yaratmamışdan dörd min il əvvəl mən və Əlini eyni nurdan yaratmışdır. Allah Adəm yaratdıqdan sonra həmin nuru onun sülbünə daxil etmiş və bu nur Əbdülmüttəlibə qədər bir formada gəlmişdir. Bu nur məndə nübuvvət, Əlidə isə vəsi formasında özünü göstərmişdir.”[8]

Becə bin Abdullah rəvayət edir: “Bizdən bir kişi Cüheynədən bir qadınla evlənmişdi. O, altı ayın tamamında uşaq dünyaya gətirdi. Bunu görən əri onu xəlifə Osman bin Əffanın yanına gətirdi və onu hadisədən xəbərdar etdi. Bunu eşidən xəlifə qadının daşa qalaq olmasını əmr etdi. Bu xəbər Əliyə çatdı. O, tez özünü xəlifəyə yetişdirib dedi: “sən nə edirsən?”

Osman dedi: “Bu qadın altı ayın tamamında doğub, belə bir şey ola bilərmi?”

Əli dedi: “Allahın bu ayələrini eşitməmisən? “**...Onun ana bətnində daşınma və süddən kəsilmə müddəti otuz aydır...**”, [9] “**Analar uşaqlarını əmizdirmə müddətini tamamalamaq istəyən** (atalar) **üçün tam iki il əmizdirsinlər...”**[10] Burada altı aydan başqa nə qalır?

Osman dedi: “Vallahi, mən bunu belə bilmirdim.”[11]

Osman bin Əffan deyir: “Əgər Əli olmasaydı, Osman həlak olardı.”[12]

Həqiqətən də İmam Əlinin həyatını vərəqləyən hər kəsə yaxşı məlumdur ki, O, hər yönü ilə tarixin nadir və əvəzolunmaz şəxsidir. Onun həyatı insanlara dünya və axirətdə lazım olan bütün azuqələrlə doludur. Onun həyatında yalnız ona xas olan bütün üstünlüklərdən və fəzilətlərdən hər kəs özünə lazım olan səviyyədə yararlanmışdır. Ondan bu və ya digər şəkildə faydalanan şəxslər təkcə cəmiyyətin aşağı təbəqəsinə xas olan adamlar deyillər. Rəvayətlərdən də gördüyümüz kimi bu təbəqəyə padşahlardan tutmuş evdar qadınlara qədər hər kəs daxildir. Amma təəssüflər olsun ki, dünya o şəxsə vəfa qılmamış, onu da ağuşuna almaqla aşiqlərin qəlblərini həsrətdə qoymuşdur. Bəlkə də bu məqamda dünyanın qınanması doğru olmazdı. Çünki insanların qədrini bilmədiyi bir şəxsi bəlkə də torpaq daha da gözəl şəkildə özündə əmanət saxlamağa laiqdir.

---

[1] Məhəmməd Salih Kəşəfi Tirmizi əl-Hənəfi. əl-Kovkəbüd-Durri, s. 125.

[2] Həmin mənbə. s. 134.

[3] Mərəşi Nəcəfi. Şərhu-ehqaqil-həqq. XVII c. s. 79 və IV c. s. 164.

[4] Hakim Nisaburi əl-Müstədrək. I c. s. 457; Məhəmməd bin Abdullah bin Əhməd əl-Əzrəqi. Əxbaru-Məkkə. I c. Məkkətül-Mükərrəmə, Darüs-səqafə, s. 323; Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-üqba. Tehran, İntişarati-cahan, s. 82; Əllamə Əli əl-Müttəqi əl-Hindi. Kənzül-ümmal. VI c. s. 177. Hədis № 12521.

[5] Carullah əz-Zəməxşəri. Rəbiül-əbrar. III c. Bağdad, Mətbəətul-ani, s. 595; Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi. Mənaqibu-Xarəzmi,.s. 97. Fəsil-7. Hədis № 99.

[6] Həmin mənbə. s. 101. Fəsil-7. Hədis № 104; Mühibəddin Təbəri əş-Şafei. Zəxairül-üqba. s. 82.

[7] Əllamə əl-Eyni. Ümdətül-qari fi şərhi səhihil-Buxari. XI c. Beyrut, Darul-fikir, s. 151; Əhməd bin Hənbəl. Fəzailüs-səhabə. II c. Beyrut, Müəssisətur-risalə, s. 707. Hədis № 1209; İbn Həcər əl-Əsqəlani. Fəthül-bari fi şərhi səhihil-Buxari. XII c. Beyrut, Daru ihyait-türasil-ərəbi, s. 101.

[8] əl-Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. Qum çapı, s. 256.

[9] Əhqaf surəsi, ayə 15.

[10] Bəqərə surəsi, ayə 233.

[11] Malik bin Ənəs. əl-Müvəttə. II c. Beyrut, Daru ehyait-turasil-ərəbi, s. 825. Əhməd bin Hüseyn Beyhəqi, Sünənül-kubra VII c. Beyrut, Darul-mərifə, s. 442; İbn Kəsir. Təfsir. IV c. s. 169.

[12] Əllamə əl-Əmini. əl-Qədir. Darül-kitabil-ərəbi, VIII c. 214.

VI FƏSİL

KƏRBƏLA ŞƏHƏRİ

6.1. Kərbəla sözünün mənaları

Kərbəla sözünün hansı kökdən əmələ gəlməsi və lüğəvi mənaları haqqında müxtəlif fikirlər vardır. Bu fikirlərin bir qrupu həqiqətdən uzaq olub heç bir elmi əhəmiyyət kəsb etmir. Lakin bəzi fikirlər isə tarixdə məşhurlaşaraq Kərbəla sözünün mənalarına elmi əhəmiyyət gətirmişdir. Beləliklə, Kərbəla sözü lüğətdə aşağıdakı mənalarda işlədilmişdir.

1. Kərbəla sözü Arami dilində və Orta İbranicə **"karballatu"** formasında olub ərəb dilində **"dairəvi ərazi, yumru yer"** mənasını bildirir.[1]

2. Kərbəla sözü Arami dilində **"Kuver Babil"** sözündən olub **"Babil ətrafı"** mənasındadır.[2]

3. Kərbəla sözü **"kərbələ"** sözündən əmələ gəlib **"ayaqların yumşaq torpağa batması"** mənasındadır.[3]

4. Kərbəla sözü **"kərbəl"** adli bitkinin adından götürülmüşdür.[4]

5. Kərbəla sözü **"kərb və bəla"** sözündən əmələ gəlmiş və **"bəlalı və dərdli yer"** mənasındadır. Bu məna Kərbəla süzünün daha dolğun mənasını bildirir. Çünki hədisi-şərifdə də Kərbəla sözü məhz bu mənada gəlmişdir. Belə ki, İmam Əli Siffin döyüşünə gedərkən Kərbəla ərazisindən keçirdi. Bu yerə çatarkən dayanıb burada baş verəcək hadisələrdən və oğlu Hüseynin başına gətirilən müsibətlərdən danışdı. Nəsr bin Məzahir rəvayət edir: "İmam Əli Kərbələdan keçərkən oranın torpağından götürüb iylədi və buyurdu: Sən nə ətirli torpaqsan! Səndən qalxan insanlar Qiyamət günü sorğu-sualsız Cənnətə daxil olacaqlar."[5]

Buna uyğun digər bir rəvayətdə isə deyilir: "İmam Əli Kərbəla ərazisindən keçərkən buranın hara olduğunu soruşdu. Dedilər bura Kərbələdır. İmam buyurdu: **"Zatu Kərbun və Bəlaun- dərd və bəla torpağıdır."**[6]

Digər bir rəvayət isə İmam Hüseyndən nəql olunur. Belə ki, İmam bu əraziyə çatdıqda buranın adını soruşdu. Dedilər bura Kərbəla adlanır. İmam bunu eşitcək buyurdu: **"Allahummə əuzu bikə minəl-Kərbi vəl-Bəlai-Allahım sənə Dərd və Bəladan sığınıram."**[7]

Digər bir rəvayətdə isə İmam bura yetişən zaman ərazinin adını soruşmuş və buranın Kərbəla olduğunu bildikdən sonra demişdir: "Peyğəmbər doğru buyurmuşdur ki, bura **Kərb** (dərd) və **bəla** yeridir."[8]

6. Kərbəla sözü Akkadca **"Kərb"** və **"Ala"** sözündən əmələ gəlib. Kərb **"yaxın olmaq"**, Ala isə **Allah** mənasındadır və Beləliklə, bu söz Allaha yaxın olmaq mənasını bildirir.

7. Kərbəla sözü fars mənşəli söz olub **"Kaar"** və **"Bolo"** sözündən götürülmüşdür. Kar **"işləmək"**, Bolo isə **"daha yüksək"** mənasındadır.[9]

Kərbəla hazırda İraqın cənub-qərbində, Bağdaddan təxminən 120 km aralıda yerləşən və İmam Hüseynin yaxın tərəfdarları ilə birlikdə şəhid edilərək dəfn olunduqları yerin adıdır.

6.2. Kərbəlanın adları

Kərbəlanın tarixdə bir neçə adı vardır. Lakin onun adları içərisində ən məşhuru Kərbələdır. Bəzi mənbələrə görə onun Kərbəla adlanması yalnız İslamın həmin ərazini fəth etməsindən sonra olmuşdur.[10] Lakin Kərbəlanın etimoloji cəhətdən araşdırılması bu yerin qədimdən etibarən belə

[1] İslam Ansiklopedisi. XXV c. s. 271.
[2] Hibətuddin əş-Şəhristani. Nəhdatül-Hüseyn. Bağdad, 1345/1962. s. 6.
[3] Yaqut əl-Həməvi. Möcəmül-büldan. IV c. s. 455.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 62.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. 41 c. s. 338; Seyid Haşim Məhəllati. Həyatu Əmirilmuminin. s. 185.
[6] Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 315.
[7] Seyid Kazım Pərpənçi. Qədir günündən aşurayadək. s. 638.
[8] İbn Əbi Asim əz-Zahhak. əl-Ahad vəl-məsani. I c. I nəşri, 1411/1991. s. 307. Hədis № 424.
[9] http://tr.wikipedia.org /wiki/Kerbela.
[10] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 63.

adlanması ehtimalını daha da gücləndirir. Buna görə də fikrimizcə Kərbəla elə qədim zamanlardan belə adlanmışdır. Amma təssüflər olsun ki, tarix kitablarında onun qədim tarixindən söhbət açılmır. Buna görə də alimlər onun tarixini yazarkən İslamın bu yerləri fəth etməsindən sonrakı dövrü əsas götürürlər.

Beləliklə, Kərbəlanın tarixdə aşağıdakı adları da vardır:

1. Tif .
2. Neynava.
3. Kərbəla.
4. Mədinətül-Hüseyn .
5. Amurə.
6. Safurə.
7. Mariyə.[1]

Kərbəlanın qədim bir diyar olmasına baxmayaraq, yalnız İmam Hüseynin orada baş verən hadisəsindən sonra tarixdə məşhurlaşmışdı.

6.3. Kərbəlanın tarixi

Kərbəlanın qədim bir yer olduğu haqqında hədisi-şəriflərdə məlumat vardır. Belə ki, Müfəzzəl bin Ömər rəvayət edir: "İmam Sadiq dedi: "Ey Müfəzzəl! Yer üzünün torpaqları bir-birlərinə qarşı fəxr etdilər. Beytül-haram (Kəbə) da Kərbəlaya qarşı fəxrləndi. Allah ona buyurdu: "Sakit ol! Kərbəlaya qarşı fəxrlənmə, o mubarək və bərəkətli bir yerdir. Musanı oradakı ağacdan çağırdıq, ora Məryəm və oğlu Məsih sığınmış, orada qüsl etmişlər. Ora xeyirli torpaqdır, Allahın Rəsulu oradan merac etmişdir."[2]

Əvvəldə qeyd edildiyi kimi, hədisi-şəriflər istisna tutularsa, tarix kitablarında Kərbəlanın İslamdan əvvəlki tarixinə az diqqət yetirilmişdir. Buna görə də İslamdan əvvəl burada insan yaşayışının olub-olmaması bəlli deyildir. Lakin Kərbəlanın coğrafi mövqeyini nəzərə alsaq, demək olar ki, ora qədim insan məskəni olmuş və orada bəşər svilizasiysının izlərini axtarmaq mümkündür. Çünki Kərbəla coğrafi baxımdan Mesapotomiya yaxınlığında yerləşdiyindən burada bəşər mədəniyyətinin olması mümkün hesab edilə bilər. Bundan əlavə, Kərbəlanın Fərat çayı kənarında yerləşməsi də bizim ehtimalımızı daha da qüvvətləndirir. Çünki, tarixən insanlar çay qırağı ərazilərdə özlərinə məskən salar, oranın suyundan istifadə edərək əkinçilik və maldarlıqla məşğul olardılar. Bu baxımdan da Kərbəla ərazisi insanların həyat şəraitlərinə uyğun olan bir ərazi olmuşdur.

Kərbəla İslamın bu ərazilərə gəlişi zamanı məskənsiz bir ərazi olmuşdur. Lakin buna baxmayaraq oranın yaşıl təbiəti və gözəl mənzərəsi olmuşdur. Tarixçı Yaqut əl-Həməviyə görə, sərkərdə Xalid bin Vəlid hicri 12-ci ilin yayında (634 miladi) Hirənin fəthindən sonra buradan keçmiş və burada bir neçə gün qalmışdır.[3] Bundan sonra İmam Əli da Siffin müharibəsinə (hicri 37/miladi 657) gedərkən buradan keçmişdir. Xətib əl-Bağdadiyə görə, İmam Kufədən dönərkən yolunu buradan salmış, öz ordusunu burdakı quyudan suvarmışdı.[4] Bu məlumatı əsas götürən bəzi müəlliflər Kərbəlanın İslamdan öncə qurulmuş bir məntəqə olduğu qənaətindədirlər[5].

Kərbəlanın tarixdə məşhurlaşması, tarixi məkana çevrilməsi və müsəlmanların yanında müqəddəsləşməsi heç şübhəsiz ki, İmam Hüseynin orada şəhid edilməsindən sonra (10 məhərrəm 61/10 0ktyabr 680) olmuşdur. İmamın burada şəhid edilməsindən sonra Kərbəlaya müsəlmanların gəliş-gedişi çoxalmış və nəticədə bura yavaş-yavaş insanların məskəninə çevrilmişdir. Növbəti İmamların Kərbəla torpağının müqəddəsliyi haqqında söylədikləri hədislər xalqı yavaş-yavaş buranın əzizləməsinə səbəb olmuşdur. Hətta Abbasi xəlifəsi Mehdi Billahın anası Ümmi-Musa burada bir vəqf qurdurmuşdur. İnsanlar buranın müqəddəs ərazi olduğunu və İmam Hüseynə göstərdikləri məhəbbətə görə Kərbəlaya köçmüşlər. Bəzi mənbələrin verdikləri məlumat görə,

[1] Həmin mənbə. XV c. s. 74.
[2] Həmin mənbə. XV c. s. 65; Əllamə əl-Məclisi. Biharül-ənvar. XIII c. I nəşri, s. 203.
[3] Yaqut əl-Həməvi. Möcəmül-büldan. IV c. s. 445.
[4] Xətib əl-Bağdadi. Tarixi-Bağdad. XII c. s. 305-306.
[5] Bax: İslam Ansiklopedisi. XXV c. s. 271.

Kərbəlada ilk tikinti işini Musa bin Abbas əl-Haşimi aparmışdır. O, İmamın qəbri üstündə bir tavan tikmişdir. Yəhya bin Həmid rəvayət edir ki, Musa əl-Haşimi Kərbəlada İmam Hüseynin cəsədini kiçik həsir parçasına bükülmüş halda görmüşdür. Bundan sonra ələvilər, səhabilər və qonşular qəbri dövrəyə almış və orada məskunlaşmışlar[1].

Kərbəlada ilk tikinti işlərini aparan məşhur Abbasi xəlifəsi Harun ər-Rəşid (786-809) olmuşdur. O, 792-ci ildə İmam Hüseynin qəbri üstündə zəvvarların kölgələnməsi üçün bir kölgəlik tikmişdir.[2]

Bundan sonra, ikinci tikinti işi Harun ər-Rəşidin oğlu Əminə (809-813) məxsusdur. O, atasının ölümündən sonra Kərbəlada tikinti işləri aparmışdır. Bundan sonrakı tikinti işi Məmunun (813-833) adı ilə bağlıdır. O, zahirən şiəliyə meyl etmiş, özünün siyasi məqsədinə görə, İmam Rzanı özünə vəliəhd təyin etmiş və Kərbəlada İmamın qəbri üstündə yenidən tikinti işləri aparmışdır. Hətta o, qəbrin ətrafında yeni evlər və mənzillər tikdirmiş, insanların ora köçməsi üçün orada lazımı şərait yaratmışdır. Kərbəlanın bu vəziyyəti Abbasi xəlifəsi Mutəvəkkilin (848-861) dövrünədək belə qalmışdır.

Lakin bəzi vaxtlarda Kərbəla İslamın İslamsız xəlifələri tərəfindən dağıdılaraq yerlə yeskan edilmişdir. Bura Abbasi xəlifəsi Mutəvəkkilin dövründə (848-861) 851-ci ildə dağıdılmış, ərazisi isə şumlanaraq əkin sahəsinə çevrilmişdir. Əhli-beytə qarşı öz qəddarlığı ilə seçilən xəlifə Mutəvəkkil üst-üstə 17 dəfə Kərbəlanı dağıtmışdır. Bu haqda qaynaqlar yazırdı: Mutəvəkkil xəlifə olmamışdan əvvəl cazibəli səsə malik bir müğənni qızla tanış olmuşdu. Taxta çıxandan sonra da Mutəvəkkilin onunla əlaqəsi kəsilmədi. Müğənni tez-tez saraya dəvət edilir və oxuduğu mahnılarla xəlifəni əyləndirirdi.

Bir dəfə şəban ayında Mutəvəkkil yenə musiqiçiləri saraya dəvət etmək istədi. Ona dedilər ki, müğənni şəhərdə yoxdur və yola düşərkən həccə getdiyini deyib. Həcc mövsümü olmadığından Mutəvəkkil heyrət içində qaldı. Az sonra müğənni qadın səfərdən qayıtdı və məlum oldu ki, Kərbəlaya- İmam Hüseynin məzarını ziyarət etməyə gedibmiş. Xəlifə bu sözləri eşidəndə əhvalı dəyişdi. Bir yandan , ən sevimli müğənnisinin Əhli-beytə sevgi duyması, bir yandan da Kərbəla ziyarətini həcc səfərinə bərabər tutması Mutəvəkkili dəhşətə gətirdi. Onun əmri ilə müğənni qadını zindana atıb, bütün əmlakını müsadirə etdilər. Bundan dərhal sonra Mutəvəkkil İmam Hüseynin məqbərəsinin uçurulmasını əmr etdi. Hökümət məmurlarından heç kim belə ağır cinayətin yükünü öz öhdəsinə götürmək istəmədiyindən, Diyzəc adlı yəhudini bu işə təhkim etdilər. Mutəvəkkil göstəriş vermişdi ki, İmam Hüseynin məqbərəsini dağıdıb, məzarını yerlə yeskan etsinlər, ətrafındakı binaları uçursunlar, torpağı şumlayıb, Fərat çayının suyunu ora yönəltsinlər ki, müqəddəs yerlər tamamilə suyun altında qalıb itsin. Əksəriyyət yəhudilərdən ibarət olan fəhlə dəstəsi dağıntı işlərinə başladı. Məzarın üzərindəki tikilinin bünövrəsindən sökdülər. Məsum İmamın məzarına qarşı təhqiramiz hərəkətlər edilməsinə isə Allah taala icazə vermədi. Bel və külünglə "silahlanmış" fəhlələr məzara yaxın düşə bilmirdilər. Gözəgörünməz qüvvələrin atdığı oxlar ziyarətgaha təcavüz etmək istəyən fəhlələri yerə yıxırdı. Fəhlələr öküzləri kotana qoşub, torpağı şumlamaq qərarına gəldilər. Lakin heyvanlar müqəddəs məzara yaxınlaşmaq istəmir, fəhlələrə tabe olmurdular. Sanki kimsə onları qovub, məzardan uzaqlaşdırırdı. Əlacsız qalan məmurlar Fəratın suyunu məzarın üstünə yönəltdilər. Bu dəfə də möcüzə baş verdi: su məzarın yaxınlığına kimi irəlilədi, sonra divarla qarşılaşırmış kimi dayandı. Sanki məzarın ətrafına dairəvi sədd çəkilmişdi. Bu dairə boyunca su qalxır və səviyyəsi yüksəlirdi. Lakin gözəgörünməz səddin o biri tərəfinə bircə damcı da su keçmirdi. Bu hadisənin şərəfinə İmam Hüseynin məqbərəsini "Hair" adlandırmağa başladılar. Yəni bu yerdə su heyran olurmuş ki, öz yerində durmuşdu[3]. Əhli-beytə və onların tərəfdarlarına qarşı sərt olan Mutəvəkkil bununla kifayətlənməyib, Kərbəla yolunun üstünə gözətçilər qoymuş və oraya ziyarətə gələn zəvarların qanını o gözətçilərə halal etmişdir. Lakin Mutəvəkkilin bütün bu planları ilahi qüvvə nəticəsində puça çıxarılmış, xalqı o müqəddəs qəbri ziyarət etməkdən yayındıra bilməmişdir. Öz evini Əbrəhənin şərrindən qoruyan Allah hər dəfə də öz əziz bəndəsi olan İmam Hüseynin məqbərəsini onun düşmənlərinin şərrindən qorumuşdur.

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 104.
[2] Həmin mənbə.
[3] Natiq Rəhimov. İslam tarixi. s. 212-213.

Kərbəla İmam Hüseyn aşiqləri tərəfindən tez bir zamanda yenidən təmir olunmuş və ziyarətçilərin gediş-gəliş mərkəzinə çevrilmişdir. Mutəvəkkilin dağıntısından sonra Kərbəlaya gələn Məhəmməd əl-Əftəs və Zeyd bin Əli bin Hüseynin övladları orada məskən salmış və qəbrin üstündə bina tikmişlər. Onların apardığı bu tikinti işi 883-cü ilədək davam etmişdir. Bundan sonra hərəmə Həsən əl-Kəbir adlı şəxs qulluq göstərmiş və onun ətrafını məscid şəklində tikdirmişdir. Lakin o, 884-cüildə vəfat etmiş və əcəl ona bu tikinti işini bitirməyə imkan verməmişdir. Sonra hərəmə qulluq işini Məhəmməd əs-Səğir öhdəsinə almışdır. O, yarımçıq qalmış tikinti işlərini tamamlamaq üçün İrandan material gətirtmişdir. O, Hüseynin hərəminin qübbəsini tikdirmiş, onun ətrafında geniş məscid düzəltdirmişdir. Onun bu tikinti işləri 896-cı ildə tamama yetmişdir. Bundan sonra Kərbəla hərəmi 980-cı ilədək belə qalmışdır. Sonra onu İzduddövlə əd-Deyləmi yenidən tikdirmişdir. O, burada dairəvi qübbə tikdirmiş və hərəmin ətrafını məscid şəklində yenidən təmir etdirmişdir. Məscidin ətrafında isə yaşayış üçün lazimi şəraiti düzəldərək, orada insanların yaşamasını təmin etmişdir. O, hətta hərəmin məsafəsini daha da genişləndirib onu təqribən 240 addım etmişdir. Həmçinin Deyləmi qəbrin üstündə olan taxta sandığa örtük də çəkmişdir. Həmçinin o, qəbrin kənarında işıq qəndilləri də asdırmışdır.

1013-cü ildə İzuddövlənin gördüyü bu təmir işləri yanıb aradan getmişdir. Belə ki, hərəmdən asılmış iki böyük şamın düşməsi nəticəsində yerə döşənmiş döşənəcəklər od tutub yanmış, od-alov qübbəni tamamilə yandırmışdır. Bundan sonra Kərbəla yenə Büveyhilərdən Sultanuddövlənin vəziri olan Həsən bin Fəzl ər-Rəmahürmüzü tərəfindən 1022-ci ildə təmir edildi və türbənin ətrafı divarla hörüldü.[1]

Bundan sonra orada 1223-cü ildə təmir işlərini Məhəmməd bin Əbdülkərim aparmışdır.

Kərbəlada yeddinci tikinti işlərini 1356-cı ildə Sultan Üveys bin Həsən aparmışdır. Onun gördüyü bu təmir-tikinti işləri 1951-ci ilədək beləcə qalmışdır.

Elxani Hökmdarı Qazan Xan (1295-1304) Kərbəlanı 1303-cü ildə ziyarət etmişdi. O ziyarətə gələrkən buraya çoxlu sayda hədiyyə də gətirmişdi.

Rəvayətə görə, Kərbəlanın su problemini həll etmək üçün Fərat çayından kanal çəkilmişdir. Bu günümüzədək Hüseyniyyə adıyla bilinən bu kanal Qazan Xan tərəfindən çəkilmişdir. Bu kanalın Qazan Xanın babası Arxun Xan tərəfindən inşa edildiyini deyən mənbələr də vardır.[2] İbn Bəttutə 1327-ci ildə Kərbəlaya gəlmiş və buranın çox gözəl olduğunu, İmam Hüseynin hərəminin şəhərin mərkəzində yerləşdiyini və onun da yanında bir mədrəsənin olduğunu qeyd etmişdir.[3]

Teymurləng 1393-cü ildə Bağdada yürüş etmişdir. Teymurun qorxusundan Bağdaddan Hilləyə qaçan Əhməd Cəlayir Kərbəla yaxınlığında Teymurun ordusu ilə qarşılaşmışdı. Bu döyüşdə lazımı nəticəni əldə edə bilməyən Teymur Fərat çayının kənarına çəkilmiş və İmam Hüseynin hərəminə ehtiram göstərmişdir. Bu tarixdən 8 il sonra Bağdada yenidən yürüş edib oranı dağıdan Teymurilər Kərbəlaya toxunmamışdılar.

Kərbəlanın bundan sonrakı tarixində Səfəvilərin izləri görünür. Belə ki Şah İsmail 1508-ci ildə Bağdadı tutmuş, sonra Kərbəlaya getmiş və oranın yenidən təmir olunmasını əmr etmişdir. O, Kərbəlaya 12 ədəd qızıl qəndil qoydurmuşdur. Bundan sonra 1526-cı ildə II İsmail Kərbəlaya gəlib burada qəbrin üzərində gümüş bir şəbəkə tikdirmişdi.[4] Osmanlı imperatorları da Kərbəlaya xüsusi sayğı göstərmişlər. Belə ki, Qanuni Sultan Süleyman 1534-ci ildə Bağdadı aldıqdan sonra, Kərbəlanı ziyarət etmişdir. O, Hüseyniyyə su kanalını təmizlətmişdir.

Bundan sonra III Murad 1583-cü ildə xarab olmuş türbəni yenidən tikdirmişdir.

İran Şahı Nadir Bağdadı əlinə keçirdikdən sonra, 1743-ci ildə Kərbəlanı ziyarət etmişdir. Şah Hüseynin qızı Raziyyə Sultan Bəyim türbənin ehtiyaclarını aradan aparmaq üçün burada vəqf qurmuş, Ağa Məhəmməd Xan da qübbə və minarələri qızıla bürütmüşdür.

Kərbəla tarixində qaranlıq izlərdən birini də Vəhhabilər buraxmışlar. Onların buraxdıqları bu qara iz xəlifə Mutəvəkkilin Kərbəlaya olan nifrətindən heç də geri qalmır. Vəhhabilər 1801-ci ildə Kərbəlaya hücum etmiş, İmamın türbəsini dağıtmış və burada təxminən 3000 müsəlmanı

[1] İbn əl-Cövzi. əl-Müntəzəm. VIII c. s. 13; Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 106.
[2] Bax: İslam Ansiklopedisi. XXV c. s. 271.
[3] İbn Bəttutə. ər-Rihlə. Beyrut, nəşr ili yoxdur. s. 221.
[4] Bax: İslam Ansiklopedisi. XXV c. s. 271-272.

öldürmüşlər.[1] Bu haqda mənbələr yazır: "1246-cı hicri ilində (1796 miladi) vəhhabi Səud əmiri iyirmi min nəfərdən ibarət qoşunla Kərbəlaya hücum etdi. O zaman Kərbəla əzəmətli şəhər idi, hər yerdən türk, iran və ərəb zəvvarları Kərbəlanı ziyarət etməyə gəlirdilər. Onlar şəhəri mühasirədə saxladıqdan sonra şəhərə daxil olub çoxlu insan qətlə yetirdilər. Vəhhabilərin Kərbəla şəhərində törətdikləri vəhşilikləri deməklə qurtarmaq olmaz. Beş min nəfərdən çox (iyirmi min nəfərədək qeyd olunub) adam qətlə yetrildi. Döyüş qurtardıqdan sonra Səud əmiri İmam Hüseyn hərəminin xəzinəsinə göz dikərək oranı qarət etdi. Kərbəla bu hadisədən sonra elə bir vəziyyətdə idi ki, şairlər bu şəhər üçün mərsiyyələr deyirdilər. Vəhhabilər on iki ildən çox arabir Kərbəlaya və Nəcd şəhərlərinə hücumlar edib, oranı talayırdılar. Bu hücumlar yuxarıda qeyd olunduğu kimi ilk dəfə 1216-cı ildən (1796 miladi) başlayıb. Bütün yazıçıların dediyinə görə, Kərbələda bu hadisə "Qədirxum" bayramı günü törədilib."[2]

Bu hadisəni görkəmli alim Seyid Məhəmməd Həsən Qəzvini yuxarıdakı kimi nəql edərək yazırdı: "1216-cı hicri ililində Səud ibn Əbdüləzəz atasının əmri ilə Kərbəlaya qoşun çəkdi və camaatı qırmağa başladı. Vəhhabilərin Kərbəlaya hücumu 1225-ci ilədək davam etdi. Vəhhabi tarixçilərindən olan Səlahəddin Muxtar yazırdı: "1216-cı ildə Nəcd, Əşair, Tuhamə və Hicaz camaatından ibarət olan böyük ordu Əmir Səudun başçılığı ilə İraqa tərəf hərəkət etdi. Ordu zilqədə ayında Kərbəlaya yetişib oranı mühasirəyə aldı. Qoşun şəhərin divarlarını söküb zorla içəri daxil oldu. Küçə, bazar və evlərdə çoxlu adam öldürüb günortaya yaxın xeyli qənimətlə şəhərdən çıxdı. Sonra Əbyaz adlı vadidə cəmləşdilər. Malların xümsunu Səud özü götürüb, qalanını hər piyadaya bir pay və hər süvariyə iki pay ödəməklə payladı (çünki onların nəzərinə görə kafirlərlə müharibə etmişdilər).[3] Başqa bir vəhhabi tarixçisi Şeyx Osman ibn Bişr bu hadisəyə şərh verərək yazırdı: "...Qəbrin (İmam Hüseynin qəbrinin) üstündəki günbəzi viran etdilər. Üstündə yaqut, zümrüd və başqa cəvahirat olan zərihi sökdülər. Şəhərdə olan mal, silah, libas, xalça, qızıl-gümüş, nəfis tərtiblənmiş Quran nüsxələrindən nə qədər var idisə, hamısını qarət etdilər. Onlar Kərbəla əhalisindən iki min nəfərə yaxın adamı öldürüb günortaya yaxın şəhərdən çıxdılar."[4]

Bundan sonra 1843-cü miladi ilində Kərbəlaya sığınan bir dəstə üsyançı Bağdad valisi Nəcib Paşa tərəfindən qırıldı. 1857-ci ildə Bağdad valisi Ömər Paşa dövründə teleqraf şəbəkəsi quruldu və Kərbəla da bu xəttə qoşuldu.

Hazırda 5034 km.^{2} ərazisi olan Kərbəla, 455868 nəfər (1987-ci il) əhalisi olan və müxtəlif məhəllələrdən təşkil olunmuş bir şəhərdir. Orada dünyanın müxtəlif yerindən gəlmiş şiə məzhəbli əhali yerli camaatla qaynayıb qarışmışdı.

Oranın məşhur olmasının səbəbi isə İmam Hüseynin türbəsinin orada yerləşməsinə görədir. Ərazisi 108 x 82, 5 m. türbənin ətrafı eyvanlar və məsciddən ibarətdir. Hər iki tərəfində minarə ucalan məqbərənin künbəzi, qapıları və minarələri qızıldan bəzədilmişdir. İmamın və oğlu Əli Əkbərin sandıqı yerləşən yer isə gümüşdən, üst tərəfi isə qızıldan işlənmişdir. İmamın məqbərəsindən təxminən 600 m. şimal-şərq tərəfdə qardaşı Həzrət Abbasın məqbərəsi vardır. Bu məqbərə də memarlıq üslubuna görə heç də İmamın məqbərəsindən geri qalmır.

Getdikcə daha da inkişaf edən Kərbəla hazırda 650 mindən artıq əhalisi ilə İraqın ən inkişaf etmiş şəhərlərindəndir və Məkkə, Mədinə və Nəcəf şəhərləri qədər fəzilət və üstünlüyə malikdir.

6.4. Kərbəla hadisəsi

6.4.1. Kərbəla hadisəsi ilə əlaqələndirilən bəzi ayələr

Kərbəla hadisəsi dedikdə, İmam Hüseynin və onun yaxın tərəfdarlarının orada zülmlə şəhid edilməsi nəzərdə tutulur. İmam Hüseyn Peyğəmbərin qızı Fatimənin Əlidən olan ikinci oğludur. O, hicri dördüncü ildə şəban ayının üçündə Mədinə şəhərində dünyaya gəlmişdir. Məşhur hədis və təfsir alimlərinə görə İmam Hüseynin Kərbəla müsibəti Quran və hədisdə qabaqcadan xəbər verilmiş hadisələrdəndir. Bu hadisəyə aid və ona işarə edən çoxlu sayda Quran ayələri vardır. Bu

[1] İslam Ansiklopedisi. XXV c. s. 272.
[2] Cəfər Sübhani. Vəhhabi məzhəbi. s. 19-20
[3] Seyid Məhəmməd Həsən Qəzvini. Vəhhabi firqəsi. s. 26.
[4] Ünvanün-Nəcd fi tarixin-Nəcd. I c. s. 121; Seyid Qəzvini. Vəhhabi firqəsi. s. 27.

ayələri görkəmli hədis alimi İbn Quləveyh məşhur "Kamilüz-ziyarət" əsərində xüsusi bir fəsildə qeyd etmişdir. Ondan da bunu Əllamə Məclisi "Biharül-ənvar" əsərində nəql etmişdir. Bir sözlə məşhur şiə alimləri bu ayələrdə İmamın Kərbəla müsibətinə işarə olduğunu təsdiq etmiş və bu barədə heç bir ixtilaf etməmişlər. Həmçinin sünnü qaynaqlarında da İmamın Kərbəla müsibətinə aid çoxlu sayda hədis vardır.[1] Məlumdur ki, hər bir hədisin mütləq bir ilahi qaynağı vardır. Çünki Quran Peyğəmbərin heç bir şeyi özbaşına danışmadığını və nə danışırsa ilahi vəhydən danışdığını deyir.[2] Bundan başqa Quranın ayələrinin həm batini, həm də zahiri mənaları vardır. Bu haqda Peyğəmbər buyurur: "Quranın zahiri və batini mənası vardır. Batini mənasının da yeddi batini mənası vardır." Burada işlənən yeddi rəqəmi alimlərə görə rəqəm deyil, sonsuz say mənasındadır. Bu hədisi əsas alıb demək olar ki, Quranda İmam Hüseynin Kərbəla hadisəsinə aid olan ayələr Quranın batini ayələrindən olub, Əhli-beyt İmamları tərəfindən açıqlanmışdır. Deməli, hadisə ilə əlaqədar qeyd edilən ayələr batini mənada başa düşülməli, onların zahiri mənası ilə batini mənası arasında hər hansı bir ziddiyyət axtarılmamalıdır.

Kərbəla hadisəsinə işarə edən ayələrdən biri **"Biz İsrail oğullarına Tövratda siz yer üzündə iki dəfə fitnə-fəsad törədəcək və çox dikbaşlıq edəcəksiniz! - deyə bildirdik."**[3] Bu ayənin təfsirində İmam Sadiq buyurur: "İmam Əlinin qətli və Hüseynin də mizraqla şəhid edilməsidir."[4]

İmam Sadiq **"Diri-diri torpağa basdırılacağı soruşulacağı zaman. O, hansı günaha görə öldürüldü- deyə"** [5] ayəsinin təfsirində buyurmuşdur: "Bu ayə Hüseynin haqqında nazil olumuşdur."[6]

İmam Baqir **"Zülmə məruz qaldıqlarına görə vuruşanlara izn verilmişdir. Allah onlara kömək etməyə əlbəttə qadirdir"**[7] ayəsi haqqında buyurur: "Bu ayə Əli, Həsən və Hüseynin haqqındadır."[8]

İmam Sadiq **"Allahın haram buyurduğu qana haqsız yerə qəsd etməyin. Haqsız yerə öldürülən bir şəxsin sahibinə bir ixtiyar verdik. Lakin o da qətl etməkdə ifrata varmasın. Çünki, ona artıq kömək olunmuşdur"**[9] ayəsinin təfsirində buyurub: "Bu Ali-Məhəmmədin Qaiminə işarədir ki, çıxıb Hüseynin qanını alar.[10]

İmam Sadiq **"Siz ölümlə qarşılaşmadan əvvəl ölüm arzulayırdınız"**[11] ayəsinin təfsirində buyurub: "Ayə Hüseynin övladına işarədir"[12].

Təfsir və hədis əsərlərində Kərbəla hadisəsinə işarə olan ayələrdən biri də **"Kəf. Hə.Yə. Ayn. Sad"**[13] ayəsi göstərilir. Bu ayənin təfsirində görkəmli azərbaycanlı təfsirçi Məhəmməd Həsən Mövlazadə Şəkəvi yazırdı: "Bəzi şiə təfsirlərində **"Kəf"** Kərbəlada İmam Hüseynə yetişən cəfalara, **"Hə"** onların həlak olmalarına və ya Yezidin zülmünə, **"Ayn"** Əhli-beytin susuzluğuna , **"Sad"** onların səbrinə işarədir."[14]

Bu təfsiri XX əsrin ən böyük alimlərindən olmuş Əllamə Hairi də qəbul etməkdədir. Belə ki, O, yazırdı: "İmamdan bu surənin təfsiri haqqında soruşulduqda dedi: "Bu qeybin xəbərlərindəndir.

---

[1] Müsnədi-Əhməd. I c. s. 86. Hədis № 648; Hənbəli əl-Müqəddəsi. əl-Əhadisul-muxtarə. II c. s. 375. Hədis № 758; Beyhəqi. Məcməüz-zəvaid. IX c. s. 187; Müsənnəfu İbn Əbi Şeybə. VII c. s. 477-478. Hədis № 37366; Müsnədu Əbi Yəla. I c. s. 298; Təbərani. Möcəmül-kəbir. III c. s. 105; XXIII c. s. 289; Hakim ən-Nisaburi. Müstədrək ələs-səhiheyn. III c. s. 194.

[2] Nəcm surəsi, ayə 3-4.

[3] əl-İsra surəsi, ayə 4.

[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 133-134. Hədis № 153; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 297.

[5] ət-Təkvir surəsi, ayə 8-9.

[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 134. Hədis № 155; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 22.

[7] əl-Həcc surəsi, ayə 39.

[8] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 135. Hədis № 156; Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 338; XLV c. s. 297.

[9] əl-İsra surəsi. Ayə 33.

[10] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 135. Hədis № 157; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 298; Əl-Küleyni. əl-Kafi. VIII c. s. 255; Seyyid Haşim əl-Bəhrani. Təfsirül-bürhan. II c. s. 418.

[11] Bəqərə surəsi, ayə 143.

[12] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 136. Hədis № 158; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 298; Seyyid Haşim əl-Bəhrani. Təfsirül-bürhan. I c. s. 191.

[13] Məryəm surəsi, ayə 1.

[14] Mövlazadə Şəkəvi. Kitabul-bəyan fi təfsiril-Quran. I c. s. 21. "Məryəm" surəsinin təfsiri.

Allah bəndəsi Zəkəriyyəni bu surədə tanıdır, sonra da onun əhvalını Peyğəmbərə anladır. Zəkəriyyə Allahdan beş kimsənin adlarını ona öyrətməsini istədikdə, Allah Cəbraili ona göndərib bu adları ona öyrətdi. Zəkəriyyə Məhəmmədin , İmam Əlinin , Fatimənin və Həsənin adlarını çəkəndə qəm-kədəri aradan getdi.O, Hüseynin adını zikr eşitdikdə, ürəyi sıxılıdı və heyrətə düşdü. O, dedi: İlahi, o dörd nəfərin adını çəkəndə dərd-qəmim aradan getdi, amma Hüseynin adını çəkəndə gözlərim yaşardı, köksüm yarıldı. Allah ona (Kərbəla) vaqiəsini xəbər verdi və dedi: **"Kəf, Hə, Yə, Ayn, Sad."** "**Kəf**" Kərbəlanın adı, "**Hə**" Əhli-beytin həlak olması, "**Yə**" Yezid, "**Ayn**" Onların susuzluğu, "**Sad**" isə onların səbridir. Zəkəriyyə bu xəbəri eşitdikdə üç gün məsciddən kənara çıxmadı, insanları da yanına buraxmadan Hüseynə əza saxlayıb ağlamağla məşğul oldu. O, deyirdi: Allahım yaratdıqların içində ən xeyirli şəxsin övladını faciəyə düçar edirsən? Allahım sən niyə Əliyə və Fatiməyə bu müsibət libasını geydirirsən? Allahım bu müsibəti onlardan uzaqlaşdır. Zəkəriyyə sonra belə dua etdi ki, Allahım mənə bir oğul ver ki, O, mənə Hüseyn kimi yaxın olsun, mənim varisim və vəsim olsun. O övladı mənə verdikdən sonra onu mənə qarşı çox sevimli et və sonra da onu mənim üçün müsibətə çevir, necə ki, Məhəmmədi belə edəcəksən. Allah Zəkəriyyəyə Yəhyanı verdi və onu da müsibətə düçar etdi. Yəhya da, Hüseyn də altı aylıq doğulmuşlar.[1]

6.4.2. Hədisi-şəriflərdə Kərbəla hadisəsi

İmam Hüseynin doğulması və qətl ediləcəyi ilahi vəhy əsasında Peyğəmbərə bildirilmişdir. Məhəmməd bin Yaqub Küleyni (876-941), Əllamə Məclisi (1628-1700) və digər hədisşünaslar İmam Sadiqdən nəql edirlər: "Fatimə Hüseynə hamilə olduqda, Cəbrail Peyğəmbərə nazil olub dedi: "Fatimə bir oğlan döğacaqdır ki, onu səndən sonra ümmətin öldürəcəkdir..."[2]

Digər bir hədisdə isə deyilir: "Cəbrail Məhəmmədə nazil olub dedi: "Ey Məhəmməd, Allah sənə Fatimənin dünyaya gətirəcəyi bir oğlan övladilə müjdələyir, amma ümmətin səndən sonra onu öldürəcəklər. Peyğəmbər dedi: "Ey Cəbrail, Rəbbimə salam de və Fatimənin belə dünyaya gətirəcəyi və məndən sonra ümmətimin öldürəcəyi uşağa ehtiyacım yoxdur! Cəbrail qalxdı, bir azdan nazil olaraq həmin xəbəri təkrar dedi. Peyğəmbər bayaq dediyi cavabı təkrarladı. Cəbrail bu dəfə də qalxıb bir azdan yenidən gəldi və dedi: "Ya Məhəmməd, Rəbbin sənə salam deyir və salamdan sonra səni belə müjdələyir: "O uşaq sənin zürriyyətin içərisində İmam, Vəli və Vəsi olacaqdır." Peyğəmbər buyurdu: "İndi razı oldum. Sonra O, Fatimənin evinə sifariş yollayıb ona dedi: "Allah məni dünyaya gətirəcəyin bir oğlanla müjdələdi. Amma məndən sonra onu ümmətim öldürəcəkdir." Fatimə Peyğəmbərə sifariş yollayaraq dedi: "Mənim dünyaya gətirəcəyim və səndən sonra öldürüləcək belə uşağa ehtiyacım yoxdur!" Peyğəmbər ona yenidən sifariş yollayıb dedi: "Allah onu İmam, Vəli və Vəsi edəcəkdir." Bundan sonra Fatimə buna razı oldu. Allah bu ayəni nazil etdi: **"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu zəhmətlə gəzdirmiş, əziyyətlə döğmuşdur. Onun daşınma və süddən kəsilmə müddəti otuz aydır. Nəhayət, kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: Pərvərdigara! Mənə mənim özümə və ata-anama əta etdiyin nemətə şükr etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməli saleh et. Mən sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam."**[3]

İmam buyurdu: "Onun "**mənim zürriyyətimi də salehlərdən et**", deməsi zürriyyətinin hamısının imam olmasına səbəb oldu. Hüseyni nə Fatimə nə də digər qadınlardan heç kimsə əmizdirməmişdir. Peyğəmbər gəlib şəhadət barmağını onun boğazına salmış və Hüseyn üç gün ondan qidalanmışdır. Beləliklə, də Hüseynin əti-qanı Peyğəmbərin əti-qanından əmələ gəlmişdir. O, altı aylıq doğulmuşdur."[4]

Şeyx Səduq (917-991) belə nəql edir: "Fatimə Hüseyni dünyaya gətirdikdə, Allah Cəbrailə vəhy etdi ki, Məhəmmədin oğlu olmuşdur. Onun yanına en, onu təbrik et və ona de ki, Əli sənə Harunun Musaya olan nisbəti kimidir. Buna görə də uşağa Harunun uşağının adını qoysun.

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 62-63.
[2] Yəqub əl-əl-Küleyni. əl-Kafi. I c. s. 280. Hədis № 1263; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 236.
[3] əl-Əhqaf surəsi, ayə 15.
[4] əl-Küleyni. Üsulül-kafi. I c. s. 280-281. Hədis № 1264; Əllamə əl-Məclisi. Miratül-üqul. I c. s. 393. Hədis № 4; Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 244-246.

Peyğəmbər dedi: “Onun uşağının adı nə idi?” Cəbrail dedi: “Onun oğlunun adı Şübeyr idi.” Peyğəmbər buyurdu: “Mənim dilim ərəbdir.” Cəbrail dedi: “Onu Hüseyn adlandır.” Bununla da uşağı Hüseyn adlandırdılar.”[1]

Həmçinin Şeyx Səduq İmam Sadiqdən rəvayət edir: “Peyğəmbərin xanımı Ümmi-Əymənin qonşuları Peyğəmbərin yanına gəlib dedilər: “Ey Allahın Rəsulu! Ümmi-Əymən dünən səhərədək yatmayıb ağlamışdır. Səhərədək onun ağlamağı kəsmədi.” Peyğəmbər Ümmi-Əymənin ardınca adam göndərib onu çağırtdırdı. O, gəldikdə ona buyurdu: “Sənin qonşuların mənim yanıma gəlib dünən səhərədək yatmayıb ağladığını deyirlər. Allah sənin gözlərini ağlatmasın! Nə səbəb olmuşdur ki, belə ağlamısan?” Ümmi-Əymən dedi: “Ey Allahın Rəsulu! Yuxumda böyük bir hadisə görmüşəm. Buna görə də səhərədək ağlamışam.” Peyğəmbər buyurdu: “Gördüyün yuxunu peyğəmbərə danış. Allah və onun peyğəmbəri daha yaxşı bilər.” Ümmi-Əymən dedi: “Onu danışmaq mənə çox ağırdır.” Peyğəmbər buyurdu: “Yuxuda gördüklərin (mütləq gerçək) demək deyildir, onu danış.” Ümmi-Əymən dedi: “Mən bu gecə yuxumda gördüm ki, sənin bəzi bədən üzvlərin mənim evimdə görünür.” Peyğəmbər buyurdu: “Gözlərin aydın olsun, ey Ümmi-Əymən! Fatimə Hüseyni dünyaya gətirəcək, o, bədənimin bir hissəsi olacaq və onun tərbiyəsi, təlimi sənin evində olacaqdır.” Bu hadisədən doqquz gün keçmiş Fatimə Hüseyni dünyaya gətirdi. Peyğəmbər onun başının qırxılmasını və saçının çəkisi qədər də gümüş sədəqə verilməsini, həmçinin onun üçün əqiqə qurbanlıq kəsilməsini əmr etdi. Sonra Ümmi-Əymən uşağı hazırladı, bükdü bə Peyğəmbərə apardı. Peyğəmbər onları görcək dedi: “Uşaq da sən də xoş gəlmisiz, ey Ümmi-Əymən! Sənin yuxunun yozumu bax budur!”[2]

Şeyx Səduq digər bir rəvayəti belə edir: “Hüseyn bin Əli anasının bətnindən düşən zaman Əbdülmüttəlib qızı Səfiyyə Fatimənin köməkçisi oldu. Peyğəmbər dedi: “Ey əmi qızı, oğlumu gətir! Səfiyyə dedi: “Onu hələ təmizləməmişəm, ya Rəsulallah!” Peyğəmbər dedi: “Ey Səfiyyə! Onu Allah təmizləmiş və pak etmişdir.”[3]

Digər bir hədisdə deyilir: “Hüseyn bin Əli doğulan zaman onu Peyğəmbərin yanına gətirdilər. Həzrət dilini onun ağzına saldı. Hüseyn onun dilini qəbul edib ondan qidalandı. Səfiyyə deyir: “Mən elə güman etdim ki, Peyğəmbər ona bal və yaxud da süd yedizdirdi. Hüseyn onun üstünü sidiklə batırdı. Peyğəmbər onun alnından öpdü, sonra da mənə qaytardı. Bu zaman o, ağladı və dedi: “Allah sənin qatillərinə lənət etsin, ay oğlum!” O, bunu üç dəfə təkrar etdi. Dedim: “Atam-anam sənə qurban, ey Allahın Rəsulu! Onu kim qətlə yetirəcək?” Həzrət buyurdu: “Onu bəni-Ümməyyədən olan azğınlar qətlə yetirəcəklər. Allah onlara lənət etsin!”[4]

Şeyx Səduq digər bir rəvayəti İbn Abbasdan belə nəql edir: “Hüseyn bin Əli cümə günü doğulduqda, Allah Cəhənnəmin gözətçisinə vəhy etdi ki, Məhəmmədin oğlunun doğulmasına görə Cəhhənəmin odunu orada olanlara qarşı yüngülləşdir. Sonra Cənnətin gözətçisi Rizvana vəhy etdi ki, Məhəmmədin oğlunun doğulması hörmətinə cənnətlər bəzədilsin. Sonra hurilərə vəhy etdi ki, Məhəmmədin oğlunun doğulmasına xatir bəzənsinlər və bir-birlərini ziyarət etsinlər. Sonra mələklərə vəhv etdi ki, Məhəmmədin oğlunun doğulmasına görə səf-səf durub Allaha təsbih və təkbir desinlər. Sonra Cəbrailə vəhy etdi ki, hər dəstədə Ruhanilər adlanan və nur saçan min mələk olmaqla min dəstə ilə Peyğəmbərə müxtəlif rəngli zinət əşyaları və yaqutla ensin və onu təbrik edib göz aydınlığı versinlər. Sonra ona xəbər ver ki, uşağın adını Hüseyn qoydum. Onu ümmətinin ən pis adamları öldürəcəklər. Vay olsun onun qatilinə, bu işə sövq edənə və bu işə rəhbərlik edənə! Mən ondan o da məndən uzaqdır. Qiyamət günü Hüseynin qatilindən daha ağır günahlı bir şəxs məhşərə gəlməyəcək. Hüseynin qatili Allahdan başqa Allah olduğunu iddia edənlərlə birlikdə Qiyamət günü Cəhənnəmə daxil olacaqdır. Cənnət Allaha itaət edənlərin həsrətində olduğu kimi, Cəhənnəm də Hüseynin qatilinin həsrətindədir.”[5]

---

[1] Şeyx əs-Səduq. əl-Məcalis. s. 82.
[2] Həmin mənbə. s. 51.
[3] Həmin mənbə. s. 83.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 247-248.
[5] Şeyx əs-Səduq. Kəmaluddin və təmamün-nimət. Qum. 1405 h/q. s. 165; Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 248.

Digər bir hədisdə isə deyilir: “Cəbrail göydən yerə enərkən Dərdail adlı mələkin yanından keçərkən o mələk Cəbrailə dedi: “Ey Cəbrail, bu gecə nə baş verib? Dünya əhli üçün Qiyamət olub?” Cəbrail dedi: “Xeyr! Məhəmmədin oğlu dünyaya gəlib. Allah məni ona gözaydınlığı vermək üçün göndərir.” Dərdail dedi: “Ey Cəbrail, Səni and verirəm səni və məni yaradana! Elə ki, Məhəmmədin yanına endin, məndən ona salam de! Sonra səni and verirəm bu mövluda, Rəbbinə desin ki, məndən razı olsun və mənim qanadlarımı özümə qaytarıb məni mələklərin cərgəsinə daxil etsin!. Cəbrail enib Allahın əmr etdiyi kimi Peyğəmbəri təbrik etdi. Peyğəmbər ona dedi: “Ümmətim onu öldürəcəkdir?” Cəbrail dedi: “Bəli, ey Məhəmməd!” Peyğəmbər buyurdu: “Onlar mənim ümmətim deyillər, mən onlardan, onlar da məndən uzaqdırlar. Allah da onlardan uzaqdır.” Cəbrail dedi: “Ey Məhəmməd, mən də onlardan uzağam!” Sonra Peyğəmbər Fatimənin yanına girdi, onu təbrik etdi və əza xəbərin ona bildirdi. Fatimə bunu eşitcək ağladı. Sonra o, dedi: “Ey kaş, bu övladı dünyaya gətirməzdim! Hüseynin qatili Cəhənnəmlikdirmi?” Peyğəmbər buyurdu: “Mən buna şahid olacağam. Ey Fatimə! Hüseyn ondan hidayət imamları dünyaya gəlməyincə öldürülməz. Məndən sonra hidayət imamları Əli, Həsən, Hüseyn, Əli bin Hüseyn, Məhəmməd bin Əli, Cəfər bin Məhəmməd, Musa bin Cəfər, Əli bin Musa, Məhəmməd bin Əli, Əli bin Məhəmməd, Həsən bin Əli və arxasında İsa bin İmranın namaz qılacağı şəxs əl-Qaim Mühtədidir.” Bundan sonra Fatimənin ağlamağı kəsdi. Sonra Cəbrail Peyğəmbərə Dərdail mələkin hadisəsini bildirdi. İbn Abbas deyir: “Peyğəmbər Hüseyni qucağına götürdü, bu zaman o, yun parçaya bükülmüşdü və dedi: “İlahi, səni and verirəm bu uşağa! Sənin ona və babası Məhəmmədin, İbrahimin, İsmailin, İshaqın və Yaqubun haqqına! Əgər Əli və Fatimə oğlu Hüseynin sənin yanında qədir-qiyməti varsa, Dərdailin qanadlarını özünə qaytar və onu öz məqamına, mələklərin cərgəsinə çatdır!” Allah onun duasını qəbul etdi, mələyi bağışladı, onun qanadlarını özünə qaytarıb onu mələklərin cərgəsinə daxil etdi. Bu mələk Hüseyn bin Əlinin xidmətçisi kimi tanındı.”[1]

Digər bir hədisdə isə deyilir: “Cəbrail Peyğəmbərə nazil olub dedi: “Sənin nəvən Hüseyn bir qrup insanlar tərəfindən zürriyyətin və Əhli-beytindən olan şəxslərlə birlikdə Fəratın sahilində - Kərbəla adlı yerdə qətlə yetiriləcəkdir. Allah onların ruhlarını öz əli ilə alacaqdır. Göyün yeddinci təbəqəsindən əllərində həyat suyu ilə dolu olan yaqut və zümrüd qablarda mələklər enəcəklər. Cənnət suyu və Cənnət ətiri ilə qarışdırılmış bu sularla onların cəsədlərini yuyacaq, onlara Cənnətdən gətirilmiş parça geydirəcək və o ətirlə onlara hənut sürtəcəklər. Sonra mələklər səf-səf dayanıb onlara namaz qılacaqlar.”[2]

Həmçinin hədislərin birində İmam Sadiqdən nəql edilir: “Peyğəmbər vəfat etdikdə, Cəbrail Qədr gecəsində nazil olan Ruh və digər mələklərlə endi. İmam Əlinin gözlərindən pərdələr götürüldü ki, onları görsün. O, gördü ki, mələklər göydən yerədək sonsuz səmadan enib Peyğəmbərə qüsl verirlər, ona namaz qılırlar və onun üçün qəbir hazırlayırlar. And olsun ki, Peyğəmbərin qəbrini onlardan başqa kimsə hazırlamamışdı və onlar Peyğəmbəri qəbrə qoyanla birlikdə qəbirə enib onu ora qoymşdular. Onlar İmam Əli vəfat edən zaman, Əliyə göründükləri kimi Həsən və Hüseynə də göründülər. Həmçinin o mələklər İmam Əlinin dəfnində Peyğəmbərin dəfnində iştirak etdikləri kimi iştirak etdilər. Sonra Həsən vəfat etdikdə, həmin mələklər Peyğəmbərin və İmam Əlinin dəfnində iştirak etdikləri kimi iştirak etdilər. Hüseyn qətl edilərkən onun da dəfnində həmin mələklər İmam Zeynülabidinə eyni cür göründülər.”[3]

Əhməd bin Hənbəl rəvayət edir: “Həzrət Əli Siffin döyüşünə gedərkən Kərbəla ərazisində dayandı. O, buranın hara olduğunu soruşduqda, ona dedilər: “Bura Neynəvadır. Əli dedi: “Səbir et, ey Əba Ədillah! Səbr et, ey Əba Əbdillah!” Ona dedilər: “Nə baş verir?” Əli dedi: “Bir gün Peyğəmbərin yanına daxil oldum və onu gözü yaşlı gördüm. Dedim: “Səni kim qəzəbləndirib ki, gözlərindən belə yaş gəlir, ya Rəsulallah?” Dedi: “Cəbrail mənim yanımda idi. O, mənə dedi ki, Hüseyni Fəratın sahilində öldürəcəklər. Onun türbəsindən iyləmək istəyirsənmi?” Dedim: “Bəli. O, əlini uzadıb o torpaqdan götürdü mənə verdi. Buna görə gözlərim yaşarıb.”[4]

---

[1] Həmin mənbələr.

[2] əl-Qummi. Nəfsül-məhmum. s. 206; Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 91.

[3] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 91-92.

[4] Müsnədi-Əhməd. I c. s. 86. Hədis № 648; Hənbəli Müqəddəsi. əl-Əhadisil-muxtarə. II c. Məkkə çapı, s. 375. Hədis № 758; Məcməüz-zəvaid. IX c. s. 187.

Bundan başqa digər hədis qaynaqlarında Hüseynin Fərat sahilində - Kərbəla çölündə şəhid ediləcəyi və Peyğəmbərin ona ağlayıb göz yaşı tökməsi haqqında hədislər vardır.[1]

İbn Həcər əl-Heysəmi (1503-1566) ümmülmöminin Aişədən rəvayət edir: "Peyğəmbər buyurdu: "Cəbrail mənə xəbər verdi ki, oğlum Hüseyni məndən sonra Tif adlı çöldə qətlə yetirəcəklər." Bu torpağı mənə gətirdi və xəbər verdi ki, bu onun yatdığı yer olacaqdır."[2]

Bu və ya buna bənzər bir çox hədisi-şəriflərdən bəlli olur ki, Kərbəla hadisəsinin baş verməsi qabaqcadan Allah tərəfindən Peyğəmbərə xəbər verilmişdir. Deməli, bu hadisənin törədilməsi əzəldən İlahi elmdə təsbit olunmuş və Allah əhatəli elmi ilə bunu əvvəlcədən bilmişdir. Necə ki, Quran belə bəyan edir: **"O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onun elmi göyləri və yeri əhatə etmişdir."**[3] Amma bu hədislərin mənası o demək deyildir ki, Kərbəla hadisəsi Allah tərəfindən yazılmış və ondan qaçmaq mümkün deyildir. Təəssüflər olsun ki, bu növdən olan hədislər bəzi insanlarda çaşqınlıq yaratmış və nəticədə onlar əzəli İlahi elmlə cəbəriyyə əqidəsini bir-birinə qarışdırmışlar. Çünki, cəbəriyyə əqidəsinə görə, insan ixtiyar sahibi deyil, o nə edirsə, İlahi yazı əsasında edir. Hətta insanın günah etməsini Allah tərəfindən olduğunu iddia edən cəbərilər Kərbəla hadisəsində Yezidin bu işi özbaşına deyil, İlahi təqdir əsasında etdiyini deyirlər. Bu əqidə isə əlbəttə ki, həqiqi İslam əqidəsi deyil və ola da bilməz. Çünki hər şey bu əqidə sahiblərinin dedikləri kimi olsaydı, onda Allahın bu qədər peyğəmbərlər və kitablar göndərib insanları pis yoldan çəkindirib doğru yola çağırmasının nə mənası olardı?! Əgər onların əqidəsi doğru olsaydı, onda bütün günahların hamısı qanuniləşmiş olardı və bununla da günahkarlar üçün nəzərdə tututlmuş İlahi əzab öz əhəmiyyətini itirərdi. Necə ki, Yezid və onun tərəfdarları bu əqidəni dəstəkləməklə özlərini "təmizə" çixardırdılar. Halbuki Qurani-Kərim buyurur: **"Kim zərrə qədər yaxşı iş görsə, onun xeyrini görəcəkdir. Kim zərrə qədər pis iş görsə, onun zərərini görəcəkdir."**[4] Deməli, Yezid İmam Hüseyni öldürtməklə özünü əbədi İlahi əzaba düçar etmişdir. Peyğəmbər buyurur: "Cənnət mənim Əhli-beytimə zülm edənə və ailəmə əziyyət edənə haram olmuşdur. Hər kəs Əbdülmüttəlib övladlarından birinə yaxşılıq etsə, amma mükafatlanmasa, Qiyamət günü mən Rəbbimlə görüşəndə onu mükafatlandıracağam."[5]

Deməli, Əməvilər dövründə uydurulmuş cəbərilər əqidəsi siyasi bir addım olub insanları yalnız ali hakimiyyətə tabe etdirmək və ali hakimiyyətin etdiyi cinayətləri ört-basdır etmək olmuşdur. İmam Hüseynin oğlu İmam Zeynülabidini Kərbəla hadisəsində zəncirlənmiş halda Kufə valisi Übeydullah bin Ziyadın hüzuruna gətirirlər. İbn Ziyad İmamı görcək "bu kimdir?" - deyə soruşur. Ona bu Hüseynin oğlu Əli Zeynülabidindir deyə cavab verirlər. Bunu eşidən vali: "Allah onun oğlunu öldürmədimi?" - deyə soruşmuşdu. Bunu eşidən Zeynəb: "yox! Onu Allahın və Peyğəmbərin düşmənləri öldürdülər" dedi.

Buradan belə nəticəyə gəlmək mümkündür ki, Allahın əmrinə qarşı çıxan hər kəs cəzaya, ona qarşı itaət edən hər kəs isə mükafata layiqdir.

Kərbəla hadisəsinin meydana gəlməsinin bir çox səbəbləri vardır. Müsəlman tarixçiləri bu hadisənin yaranmasında aşağıdakı səbəbləri göstərirlər.

1. Yezidə qarşı çıxmaq.
2. Kufəlilərin İmamı Kufəyə dəvət etməsi.
3. Yaxşılığa dəvət, pisliklərdən çəkindirmək.

Bu səbəblər içərisində birinci səbəb ən mühüm səbəb olub İmamın qiyamının mahiyyətini təşkil edir. Məlumdur ki, Yezid atası Müaviyə öldükdən sonra zorla hakimiyyətə gəlmişdi. O, hakimiyyətə keçdikdən sonra ona beyət etməyən Hüseyn bin Əli , Abdullah bin Ömər, Abdullah bin Zübeyrdən beyət almaq üçün Mədinə valisi Vəlid bin Ütbəyə məktub yazdı. O, bu maktubda adları çəkilən bu şəxslərin dərhal beyət etməsini, əks təqdirdə isə başlarını kəsib ona göndərilməsini tələb edirdi. Bu şəxslər içərisində Abdullah bin Ömər cəsarətsiz və xilafətə qarşı çıxa bilən adam deyildi.

---

[1] Bax: İbn Əbi Şeybə. Musənnəf. VII c. s. 477-478. Hədis № 37366; Müsnədi-Bəzzar. III c. s. 101; Müsnədi-Əbi Yəla. I c. s. 298; Təbərani. Möcəmül-kəbir. III c. s. 105; Hakim ən-Nisaburi. əl-Müstədrək ələs-səhiheyn. III c. s. 194.

[2] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 292.

[3] Bəqərə surəsi, ayə 255.

[4] əl-Zilzal surəsi, ayə 7-8.

[5] Carullah əz-Zəməxşəri. Təfsirül-Kəşşaf. IV c. s. 213.

Onun Əhli-beytə qarşı münasibəti də yaxşı olmamışdı. Abdullah bin Zübeyr isə ondan fərqli olaraq zirək və ürəkli bir adam idi, amma əsil-nəsəb baxımdan məşhur olmadığından ətrafına çox adam toplaya bilməzdi. İmam Hüseynə gəldikdə isə, o, xalq içərisində məlum və məşhur kimsə idi. Beləliklə, Vəlid öz müşaviri Mərvan bin Həkəmi çağırıb ondan bu iş barədə tədbir görməyi tələb etdi. Mərvan ona Abdullah bin Ömərdən nigaran olmamağa, lakin Hüseyn ilə Abdullah bin Zübeyrdən beyət alamağa təlsməyi tövsiyə etdi. Vəlid onun bu tösiyyəsini eşidərək hər iki şəxsi saraya dəvət etdi. Abdullah bin Zübeyr gecə ikən gizli yolla Məkkəyə qaçdı. Hüseyn isə saraya getdi. İmam Hüseyn Vəlidin sarayına daxil olduqda Vəliddən nə baş verdiyini soruşdu. Vəlid ona Müaviyənin öldüyünü, Yezidin isə xəlifə olduğunu və Hüseynin də ona beyət etməsinin gərəkili olduğunu dedi. Bunu eşidən İmam beyətin gizlində əhəmiyyətsiz və düzgün olmadığını deyərək camaatı məscidə toplamağı ona lazım bildi. Elə bu vaxt Vəlidin yanında olan Mərvan bin Həkəm Vəlidə dedi: "Hüseyni beyətsiz buraxma, onu öldür." Bunu eşidən İmam ona qəzəblənib: "Sizin buna gücünüz və cəsarətiniz çatmaz" dedi. Sonra o, Yezidin iç üzünü açıb onun fasiq, şərabxor, zinabaz, meymun oynadan və bu kimi işlərini sadalayaraq sarayı tərk etdi. İmam bundan sonra Mədinəni tərk edib ailəsi ilə birlikdə Məkkəyə getmək üçün tədarük gördü. Onun bu səfəri İbn Zübeyr kimi gizlində deyil, aşkarda idi.

İmamın Məkkəni seçməkdə məqsədi xalqı Yezidin əleyhinə qiyama çağırmaq idi. Bu baxımdan Məkkə əlverişli idi. Çünki artıq həcc vaxtı yaxınlaşır və müsəlmanlar hər yerdən ora toplanacaqdılar. Bundan əlavə, Məkkə həmin ərəfədə əmin-amanlıq içərisində idi. Beləliklə, İmam hicri 60-cı ilin rəcəb ayının 28-də (680-cı il may ayının 3-də) Məkkədən çıxdı və şəban ayının 3-də (08 may 680) ora yetişdi. İmam ora yetişdikdən sonra dərhal Yezidin əleyhinə təbliğata başlayıb onun iç üzünü camaata çatdırdı. Buradan belə məlum olur ki, kufəlililər İmamı Kufəyə dəvət etməsəydilər belə, İmam Yezidin əleyhinə yenə də qiyam edəcəkdi.

İmamın qiyamının səbəblərindən birinin də Kufəlilərin onu Kufəyə dəvət etmələri olmuşdur. Əlbəttə ki, bu dəvət İmamın qiyamı üçün əsas amil olmasa da, bu dəvətin qiyama təsirini inkar etmək olmaz. Beləliklə, İmamın Məkkəyə gəlişini və onun səbəblərini eşidən Kufə əhli ona məktublar göndərərək İmamı ora dəvət etdilər. Mənbələrə görə, onların göndərdikləri ilk məktub İmama hicri 60-cı ilin ramazan ayının 10-da (13 iyun 680) yetişdi.[1] Məktub göndərən şəxslərin içərisində Kufənin böyüklərindən olan Həbib bin Məzahir, Süleyman bin Sürəd, Müsəyyib bin Nəcəbə, Rüfaə bin Şəddadi və başqaları olmuşdur. Qaynaqlarda İmama göndərilən məktubların sayı barədə ixtilaf vardır. Məktubların sayı bəzi qaynaqlarda 18 min göstərilsə də, daha doğru say 12 mindir. [2] Bu qədər məktubun göndərilməsi İmamda bunların araşdırılması qərarını yaratdı. Beləliklə, o, əmisi oğlu Müslüm bin Əqili Kufəyə nümayəndə göndərdi ki, bu məsələləri yerində öyrənib ona məlumat versin. İmamın onların dəvətinə müsbət cavab verməsi onun həm qiyama hazır olduğunu bildirmək, həm də gələcək qınaqdan yaxa qurtarmaq idi. Əgər təsəvvür edilsə ki, İmam kufəlilərin məktublarına müsbət reaksiya verməsəydi, onda bu gün onu hamı qınayacaqdı ki, İmam onun üçün yaradılmış əlverişli fürsəti buraxmışdı və şəhadətində yalnız özü günahkardı. Buna görə də İmam gələcəyi görərək və heç kəsə bəhanə yeri qoymayaraq kufəlilərin dəvətini qəbul etdi. Həm də əgər kufəlilər əhdlərinə vəfa etsəydilər və İmamın ətrafında birləşsəydilər, o, Yezidi devirib həqiqi İslam dövlətini quracaqdı. Təəssülər olsun ki, kufəlilər öz əhdlərinin əleyhinə hərəkət etdilər və İmamı döyüş meydanında tənha buraxdılar. Bunun da acı nəticələri İslam aləmində Qiyamətədək davam edəcəkdir.

İmamın qiyamına təsir edən amillərdən biri də yaxşılığa dəvət, pislikdən çəkindirmək olmuşdur. O, Yezid kimi fasiq bir şəxsin İslam ümmətinə rəhbərlik etmək səlahiyyətinin olmadığını açıq-aşkar təbliğ edir, onun zülm və istibdadını camaata çatdırırdı. Hələ o, Yezidin xəlifə olduğunu eşidən kimi demişdi: "Əgər İslama Yezid kimi fasiq rəhbərlik etsə, belə İslamla vidalaşmaq lazımdır." Deməli, İmam Allah qarşısında olan müqəddəs borclarından birini ödəmək üçün Yezidin İslam xilafətində törətdiyi cinayətləri və xilafət mərkəzini zülm və fəsad yerinə çevirdiyini

[1] Şeyx Müfid. əl-İrşad. s. 200.

[2] Bax: İbn Tavus. əl-Luhuf. s. 15; Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 261; Dərbəndi. Əsrariş-şəhadət. I çap, s. 361.

cammaata çatdırırdı. Beləliklə, İmamın Yezidə qarşı etdiyi qiyamın başlıca səbəbi Yezidin mənfur şəxsiyyəti idi. Digər səbəblər isə bu qiyama təsir etmiş köməkçi amillər idi.

Beləliklə, İmam Hüseyn Kufəyə tərəf getdi. O, yolda Müslüm bin Əqilin ölüm xəbərini və kufəlilərin öz əhdlərindən döndüklərini eşitdi. O, bu xəbəri onunla birlikdə gəlmiş silahdaşlarına dedi və onların yolu davam etdirməkdə və ya geri dönməkdə sərbəst olduqlarını onlara bildirdi. İmam Kufə ərazisinə yaxınlaşan zaman Kufə valisinin keşikçi qoşunu ilə rastlaşdı. Bu qoşuna görkəmli sərkərdə və şücaətli şəxs Hürr bin Yezid ər-Riyahi başçılıq edirdi. O, İmamın yolunu kəsib onu Kərbəla ərazisində dayandırdı və İbn Ziyada xəbər göndərdi. İbn Ziyad Ömər bin Səd bin Vəqqasın komandanlığı altında Kərbəlaya əlavə ordu göndərdi. O, ordu başçısına qəti mövqe seçməyi və Hüseyn beyət etməzsə, dərhal öldürülüb başının ona göndiərilməsini tapşırdı. Mükəmməl təchiz edilmiş ordu Ömər Sədin komandanlığı altında Kərbəlaya gəldi. O, İmama beyət etməyi, əks halda isə döyüşə hazır olmasını bildirdi. İmam döyüş yolunu seçdi. Hicri 60-cı ilin məhərrəm ayının 10-da (10 oktyabr 680-cı ildə) qanlı döyüş başlandı. İmam və onun ətrafında olanlar tarixdə misli görünməmiş şücaətlər göstərdilər. Nəhayət, sübhdən başlayan iman və küfrün mübarizəsi zahirən imanın məğlubiyyəti, küfrün isə müvəqqəti və zahirən zəfəri ilə nəticələndi. İmam Hüseyn və onun tərəfdarları şəhadətə yetişdilər. Onlar əslində bu müharibədə mütləq qalib çıxmışdılar. Çünki insanı cismən yox etməklə ona qalib gəlmək olmaz. Əsas odur ki, o insanın əqidəsi, amalı və ideologiyası yaşamış olsun. Bu gün İmam Hüseynin ideyaları yaşayır və dünyanın bir çox inqilablarının ilham mənbəsi olmuşdur. Onun mərasiminin hər il qeyd edilməsi də bunu təsdiq etməkdədir. Amma ona qarşı əl qaldırmış hər bir şəxsin əllərini Allah Əbu Ləhəbin əllərinə döndəri, onları dünya və axirətdə rüsvay etdi. Çünki Allah özü buna vədə vermişdir: **"...Möminlərə kömək etmək bizə vacibdir."**[1]

6.5. Kərbəla hadisəsinin peyğəmbərlərə bildirilməsi

Bütün mötəbər mənbələrə görə, Kərbəla hadisəsi həzrət Adəmdən tutmuş bütün peyğəmbərlərə qabaqcadan xəbər verilmiş qeybi xəbərlərdəndir. Bu haqda çoxlu sayda səhih hədislər vardır. Belə ki, görkəmli hədis alimləri İbn Quləveyh (öl. 975), Əllamə Məclisi (1628-1700) və Əllamə Hairi (XX əsr) bu haqda varid olmuş hədisləri yazdıqları məşhur əsərlərində qeyd etmişlər. İbn Quləveyh səhih bir sənədlə İmam Sadiqdən rəvayət edir: "Allahın Qurani-Kərimdə dediyi "**İsmaili də yada sal! O öz vədinə sadiq və göndərilmiş bir peyğəmbər idi"**[2] ayəsindəki İsmail İbrahim Peyğəmbərin oğlu deyil. Bu İsmail peyğəmbərlərdən bir peyğəmbər idi ki, Allah onu öz qövmünə peyğəmbər olaraq göndərmişdi. Onun qövmü onun başının dərisini soyudular. Allah ona bir mələk göndərdi. Mələk ona dedi: "Allah məni sənə göndərib, istədiyin şeyi mənə əmr et." O, Allahın izni ilə dilə gəlib dedi: "Mənə etdikləri qoy Hüseyn üçün təsəlli olsun."[3]

Digər bir hədisdə isə deyilir: "Adəm yer üzünə endirildikdən sonra, Həvvanı görə bilmədi. Buna görə də o, Həvvanı tapmaq üçün yer üzünü dolaşmağa başladı. Kərbəla ərazisindən keçdikdə Hüseynin şəhid edildiyi yerdə ayaqları ilişib üzü üstə yerə yıxıldı. Onun qıçlarından qan axmağa başladı. O, üzünü göyə tutub dedi: "İlahi, məndən başqa bir günah da baş verdi ki, məni buna görə cəzaya məhkum etdin? Mən yer üzünü dolaşdım, amma məni bu yerdəki kimi heç bir yerdə belə müsibətə düçar etmədin." Allah ona belə vəhy etdi: "Ey Adəm! sən heç bir günah etmədin, lakin bu yerdə sənin övladın olacaq Hüseyn zülmlə qətlə yetiriləcəkdir. Sənin qanın da onun qanına müvafiq olaraq axdı." Adəm dedi: "Onu kim qətlə yetirəcək?" Allah buyurdu: "Onu yerlərin və göylərin lənətinə düçar olmuş Yezid qətlə yetirəcəkdir." Adəm dedi: "Ey Cəbrail! İndi mən nə edim?" Cəbrail dedi: "Ona dörd dəfə lənət et!" Bundan sonra Adəm yavaş-yavaş getdi və Ərəfat çölündə Həvvanı tapdı."[4]

Digər bir hədisdə deyilir: "Nuh gəmiyə mindi və yer üzünün hamısını dolaşdı. O, Kərbəla ərazisindən keçdikdə yer onu özünə tərəf dartdı. Nuh bundan bərk qorxuya düşdü və Rəbbinə dua edib dedi: "İlahi, yer üzünün hamısını dolaşdım, amma bu yerdəki kimi məni heç bir yerdə

[1] Rum surəsi, ayə 47.
[2] Məryəm surəsi, ayə 54.
[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 137. Hədis № 161. Hədis № 162; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 227.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 67; Əllamə əl-Məclisi. Biharül-ənvar. X c. I çap, s. 155.

müsibətə düçar etmədin!" Cəbrail nazil olub dedi: "Ey Nuh! Bu yerdə Hüseyn qətlə yetiriləcəkdir." Nuh dedi: "Onu kim qətlə yetiriləcək?" Cəbrail dedi: "Onu yerlərin və göylərin lənətinə düçar olmuş Yezid qətlə yetiriləcəkdir." Nuh ona dörd dəfə lənət oxudu və gəmi yola düşdü. Onun gəmisi gəlib Cudi dağının üstündə dayandı."[1]

Hədisi-şərifdə deyilir: "İbrahim atlı halda Kərbəla ərazisindən keçirdi. Onun atı birdən hürküb onu yerə yıxdı. İbrahimin başı yerə dəyib qanadı. O, Allahdan istiğfar diləyib dedi: "İlahi! Məndən hansı günah baş verdı?" Cəbrail ona nazil olub dedi: "Ey İbrahim! Səndən heç bir günah baş verməyib. Ancaq bu yerdə sonuncu Peyğəmbərin nəvəsi, sonuncu vəsinin isə oğlu qətlə yetiriləcəkdir. Sənin qanın da onun qanına müvafiq olaraq axdı." İbrahim dedi: "Onu kim qətlə yetirəcək?" Cəbrail dedi: "Qələmin Allahdan izn almadan lövhə üzərində ona lənət göndərdiyi Yezid. Allah qələmə demişdi: "Sən bu lənətlə bizdən haqq aldın." İbrahim Yezidə çoxlu lənət etdikdən sonra atına mindi."[2]

Digər bir hədisdə isə deyilir: "İsmailin qoyunları Fərat çayının sahilində otlayırdı. Bir gün çoban ona xəbər verdi ki, qoyunlar bugün ərzində buradan su içmədilər. İsmail bunun səbəbini Rəbbindən soruşduqda, Cəbrail nazil olub dedi: "Ey İsmail, bunun səbəbini qoyunundan soruş ki, sənə cavab versin." İsmail qoyundan bunun səbəbini soruşduqda, qoyun Allahın izni ilə dilə gəlib dedi: "Bizə xəbər verildi ki, bu yerdə sənin övladlarından olacaq və Məhəmməd əl-Mustafanın nəvəsi susuz qətlə yetriləcəkdir. Biz də ona yas tutaraq bugünü susuz keçiririk." İsmail onun qatilinin kim olduğunu soruşduqda, ona xəbər verildi ki, bu yerlərin və göylərin lənətinə düçür olmuş Yeziddir. İsmail dedi: "İlahi, Hüseynin qatilinə özün lənət et!."[3]

Həmçinin hədisdə deyilir: "Musa bir gün Yuşə bin Nun ilə gedirdi. Onlar gəlib Kərbəla ərazisinə çatdıqda, onun ayaqqabısı yırtıldı və ayağına tikan batdı. Bunun nəticəsində onun ayağı qanadı. Musa Rəbbindən soruşdu: "İlahi, məndən nə günah baş verdi ki, belə oldum?" Allah ona belə vəhy etdi: "Bura Hüseynin qətlə yetirildiyi yerdir. Burada onun qanı töküləcəkdir. Sənin qanının tökülməsi isə onun qanına müvafiqlik üçündür." Musa dedi: "Ey Rəbbim, Hüseyn kimdir?" Allah buyurdu: "O, Məhəmməd əl-Mustafanın nəvəsi, Əli əl-Mürtəzanın oğludur." Musa dedi: "Onun qatili kim olacaq?" Allah dedi: "Dənizlərdə balıqların, çöllüklərdə vəhşilərin, havada quşların lənətinə düçar olmuş Yezid." Musa əllərini qaldırıb Yezidə lənət, Hüseynə isə dualar etdi. Yuşə bin Nun da onun dualarına amin deyirdi."[4]

Başqa bir hədisdə deyilir: "Bir gün Süleyman xalçasının üstündə havada ötüb keçirdi. O, Kərbəla ərazisindən keçərkən onun xalçasını külək üç dəfə bu ərazinin başına dolandırdı. Süleyman yıxılmaqdan qorxdu. Külək sakitləşdi və xalça Kərbəla ərazisində aşağı endi. Süleyman küləyə dedi: "Nə üçün sakitləşdin?" Külək ona dedi: "Burada Hüseyn qətlə yetiriləcəkdir." Süleyman dedi: "Onu kim qətlə yetirəcəkdir?" Külək dedi: "Lənətlənmiş Yezid." Süleyman əllərini qaldırıb Yezidə lənət, Hüseynə isə dua etdi. Onun duasına isə ins və cin amin dedilər. Sonra külək hərəkətə gəldi və xalçanı qaldırıb oradan getdilər."[5]

"Bir gün İsa həvariləri ilə birlikdə Kərbəla ərazisindən keçirdilər. Onların yollarını bir şir kəsmişdi. İsa qabağa çıxıb şirə dedi: "Nə üçün bu yolun üstündə oturmusan və biz buradan keçərkən niyə bizə toxunmadın?" Şir dedi: "Mən burada sizə toxunmaq üçün deyil, Hüseynin qatilinə lənət oxumaq üçün oturmuşam." İsa dedi: "Hüseyn kimdir?" Şir dedi: "O, Məhəmmədin nəvəsi, İmam Əlinin isə oğludur." İsa dedi: "Onu kim qətlə yetirəcəkdir?" Şir dedi: "Onu Yezid qətlə yetirəcək." İsa əllərini qaldırıb Yezidə lənət oxudu və Hüseynə dua etdi. Həvarilər də onun dualarına amin dedilər. Sonra şir oradan uzaqlaşdı və onlar da yollarına davam etdilər."[6]

Başqa bir hədisdə isə deyilir: "Peyğəmbər bir gün səfərə çıxdı. O, bəzi yollarda gedərkən atı dayandı və Peyğəmbər bu zaman dedi: "**Biz hamımız Allahdanıq və ona tərəf dönəcəyik**." Sonra onun gözləri yaşardı və o çox şiddətli ağladı. Ondan bunun səbəbi soruşulduqda dedi: "Cəbrail

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 67-68.
[2] Həmin mənbə. s. 68.
[3] Həmin mənbə.
[4] Həmin mənbə. s. 68-69.
[5] Həmin mənbə. s. 69.
[6] Həmin mənbə.

mənə xəbər gətirdi ki, bura Kərbəla ərazisidir, burada oğlum Hüseyni qətlə yetirəcəklər. Mən indi onun müsibətini və dəfnini sanki görürəm. Onun başını lənətə gəlmiş Yezidə hədiyyə edəcəklər. And olsun Allaha, Hüseynin başına yalnız qəlblərində və dillərində Allaha qarşı müxalif olanlardan başqa kimsə baxmaz." Sonra Peyğəmbər səfərdən hüzünlü və çox kədərli halda qayıtdı. O, gəlib minbərə çıxdı. Onunla birlikdə minbərə Həsən və Hüseyn də çıxdılar. Peyğəmbər insanlara moizə etdi. O, moizəsini qurtardıqdan sonra sağ əlini Həsənin , sol əlini isə Hüseynin başına qoyub dedi: "İlahi, Məhəmməd sənin qulun və elçindir. Bu iki nəfər isə itrətimin pakı, zürriyyətimin isə ən üstünüdürlər. Cəbrail mənə xəbər verdi ki, bunun biri zəhərlə, digəri isə silahla şəhid ediləcəklər. İlahi, bu qətli onun üçün mübarək et, onu şəhidlərin ağası elə. Onu qətlə yetirənlərə isə xeyir vermə və onları xəcil edib Cəhənnəmində yandır."[1]

Məşhur bir hədisdə isə Peyğəmbərin xanımı Ümmü-Sələmə deyir: "Peyğəmbər bir gecə evdən çıxdı və uzun müddət gözümüzə görünmədi. Sonra o, gəldi və bizə dedi: "Mən bu vaxt ərzində İraq ərazisində bir yerə aparıldım ki, o yerə Kərbəla deyirlər. Mən orada Hüseynin yıxılıb şəhid edildiyi və qanının töküldüyü yeri gördüm. Əlimdəki bu torpaq oradandır, bunu yaxşı qoru. Bu torpaq nə vaxt qana dönsə bil ki, onun şəhadət günüdür." Mən o torpağı götürdüm. Vaxt gəldi Hüseyn İraqa yola düşdü. Mən həmin torpağı hər gün götürür, ona baxır, onu iyləyir və ağlayırdım. Elə ki, məhərrəmin onuncu günü oldu gönortanın əvvəlində o torpaq olduğu kimi idi. Amma günortanın axırında ona baxdıqda, onun rəngi qırmızıya dönmüşdü. Bundan sonra mənim evimdə ağlamaq və qışqırıq səsi yüksəldi. Bu zaman evin ətrafından səslər eşidilirdi. Həmin səslər belə bir novhə deyirdi:

لوسرلا لآ اوربصا
لوحنلا خرفلا لتقـ
نيملأا حورلا لزنـ
ليوعو ءاكبب

Səbr edin Ali Rəsul,
Susuz yavrunun qətlinə.
Ruhul-Əmin enmişdir,
Ağlayıb fəryad etməklə.[2]

6.6. Mələklərin Kərbəla hadisəsini qabaqcadan bilmələri

Kərbəla hadisəsi qabaqcadan peyğəmbərlərə bildirildiyi kimi, mələklərə də bildirilmişdir. Bu haqda çoxlu sayda hədis vardır. Həmin hədislərin birində İmam Sadiqin dilindən rəvayət edilir: "Hüseyn bin Əli doğulduqda Allah Cəbraili min mələklə birlikdə Peyğəmbərə göndərdi. Peyğəmbər Allahdan və Cəbraildən gələn təbriki aldı. Cəbrail dənizdə olan bir adaya endi. Orada Fətrəs adlı bir mələk vardı. O, bir iş üçün göndərilmiş, lakin ağır tərpəndiyindən qanadları yanıb həmin adaya atılmışdı. O, orada 600 il idi ki, Allaha ibadət edirdi. Fətrəs Cəbraili görüb dedi: "Hara gedirsən?" Cəbrail dedi: "Allah Məhəmmədə bir nemət əta etmişdir. Allah məni göndərir ki, bununla əlaqədar gedib ona gözaydınlığı verim." Fətrəs dedi: "Ey Cəbrail məni də özünlə apar ki, Məhəmməd mənə dua etsin." Cəbrail onu özü ilə apardı. Cəbrail Peyğəmbərin yanına daxil oldu, onu Allah tərəfindən təbrik etdi və Fətrəsin gəlişini ona xəbər verdi. Peyğəmbər buyurdu: "Ey Cəbrail! Onu içəri daxil et." Cəbrail onu içəri daxl etdikdə, Peyğəmbəri onun əhvalından xəbərdar etdi. Peyğəmbər ona dua etdi və dedi: "Bu təzə doğulmuş uşağa toxun və öz məkanına qayıt."

Fətrəs Hüseynə toxundu və müşkülü həll oldu. Peyğəmbərə dedi: "Ey Allahın Rəsulu! Sənin ümmətin onu öldürəcəklər, mənə belə bir mükafat ver ki, onu ziyarətə gələn zəvvarı ona yetişdirim,

[1] Həmin mənbə. s. 69-70; ət-Tərihi. Məqtəlu-Tərihi. s. 135.

[2] Şeyx Səduq. Kəmalüddin. I c. s. 563; Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 70-71. İmam Hüseynə cinlərin novhə deməsi əhli-sünnə qaynaqlarında da qeyd edilmişdir. Bax: İbn Əbi Asimin "əl-Ahad vəl-məsani" əsərinə (I c. ər-Riyad, I çap, 1411/1991. s. 308. Hədis № 425). Həmçinin bu haqda daha da geniş məlumat əldə etmək üçün Həsən bin Məhəmməd əl-Məturinin "əl-Buka aləl-Hüseyn fi məsadiril-fəriqeyn" əsərinə müraciət edin.

ona salam və salavat deyənlərin salamını və salavatını ona çatdırım." O, bunları dedi və qalxıb getdi."[1]

6.7. Quran və hədisdə İmam Hüseynin fəzilət və şəxsiyyəti

İmam Hüseyn hicri dördüncü ildə, şəban ayının üçündə (07 fevral 626) Mədinədə doğulmuşdur. Onun ana bətnində olması və südəmərlik dövrü birlikdə otuz ay olub. O, babası Peyğəmbərlə birlikdə yeddi il yaşamışdır. Hüseyn hicri altmış birinci ildə məhərrəm ayının onunda (10 0ktayabr 680) əlli yeddi yaşında şəhid edilmişdir.[2]

İbn Əsir onun haqqında deyir: "Hüseyn fəzilətli, çox oruc tutub namaz qılan, sədəqə verən və xeyir işlər görən bir şəxs idi. O, Mədinədən iyirimi beş dəfə gedib həcci ziyarət etmişdir."[3]

İmam Hüseynin fəziləti Quran və hədisdə öz əksini tapmış, və inkar edilməsi qəti mümkün olmyan həqiqətlərdəndir. O, Peyğəmbərin nəvəsi olmaqla yanaşı, həm də Allah tərəfindən Peyğəmbərdən , atası Əlidən və qardaşı Həsəndən sonra İslam ümmətinə imam və xəlifə təyin olunmuş şəxsdir. Peyğəmbər özündən sonra ümmətə on iki imamın rəhbərlik edəcəyini, onların isə imamlığına etiqadın vacib olduğunu bildirərək buyurmuşdur: "Hər kəs zamanın imamını tanımadan ölsə, cahiliyyət dövrünün ölüsü kimi ölər."[4] Həmçinin buyurmuşdur: "Məndən sonra on iki xəlifə olacaqdır."[5] Bu mənada Hüseyn ümmətin imamı və dövrünün İlahi xəlifəsi idi. Lakin təəssüflər olsun ki, onun dünyəvi xəlifəliyi zalımların müxalifətçiliyi ucbatından gerçəkləşə bilmədi. Lakin buna baxmayaraq o, on iki imamdan biri və üçüncüsü olmaqla bütün məxluqata imamlıq vəzifəsini icra etdi. Peyğəmbərin hədisində onun imamətinə aid dəlillərə bütün məzhəblərin qaynaqlarında rast gəlmək mümkündür. Belə ki, görkəmli İslam alimilərindən olan Qunduzi əl-Hənəfi (1825-1899) "Yənabiül-məvəddə", [6] Məhəmməd Həməvini əş-Şafei "Fəraidüs-simteyn" [7] əsərlərində on iki imamın adlarını və onların üçüncüsünün isə İmam Hüseyn olduğunu rəvayət edirlər.

Görkəmli İslam alimi Hafiz əl-Həskani (öl. 1097) səhih bir sənədlə Maidə surəsinin 67-ci ayəsinin İmam Əlinin imaməti haqqında nazil olduğunu rəvayət edir. O, deyr: "Əbu Hüreyrə deyir: "Peyğəmbər dedi: "Mən meraca gedəndə Ərşin altında eşitdim ki, deyilirdi: "Əli hidayət bayrağı və mənə sığınanların sevimlisidir, ey Məhammməd! Bunu ümmətinə çatdır." Əbu Hüreyrə deyir: "Peyğəmbər bunu dedikdə, Allah bu ayəni endirdi: "**Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı təbliğ et. Əgər bunu etməsən Allahın risalətini** (sənə həvalə etdiyi peyğmbərliyi) **yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!" [8]** Bu ayə İmam Əlinin imamətini isbat etməklə yanaşı, imamətin xüsusi önəm daşıdığını və İslam ümmətinin imamsız təsəvvür olunmadığını diqqətə çatdırır. Hüseyn də bu imamət nurunun bir ulduzu olmaqla yanaşı, İmam Əlinin övladıdır. Həmçinin o, dünya və axirət xanımlarının rəhbəri Fatimənin oğludur. İmam Sadiq buyurur: "Peyğəmbər Fatiməni çox öpərdi. Bunu görən Aişə ona etiraz etdikdə, Həzrət buyurdu: "Ey Aişə! Mən göylərə merac edəndə Cənnətə daxil oldum. Orada Cəbrail məni yanına çağırıb Tuba ağacının meyvəsindən yedirtdi. Ondan belimdə bir şeylər əmələ gəldi ki, yer üzünə qayıtdıqdan sonra Xədicə ilə olan intim münasibətimdən Fatiməyə hamilə oldu. Mən onu öpdükdə Tuba ağacının ətrini duyuram."[9]

Bundan əlavə, İmam Hüseyn Əhli-beytdən olmaqla xüsusi üstünlük və fəzilətə malikdir. Quran belə bəyan edir: **"Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir**."[10] Bütün təfsir əhlinə görə, bu ayə "təthir" ayəsi kimi tanınır və Peyğəmbərə zövcəsi

---

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 140-141; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 244; Şeyx əs-Səduq. əl-Məcalis. s. 84; Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 248.

[2] Əllamə əl-Hairi. Dairətül-məarif, VIII c. s. 250.

[3] İbn Əsir. Üsdül-qabə. II c. Tehran çapı, s. 18.

[4] Əhməd bin Hənbəl. Müsnəd. IV c. s. 96; Təbərani. Müsnədüş-Şamiyyin. II c. s. 437; Müsnədi-Təyalisi. I c. s. 259; Müsnədi-Əbi Yəla. XIII c. s. 366; Təbərani. Möcəmül-kəbir. XIX c. s. 388.

[5] Səhihi-Müslim. III c. s. 1452. Kitabül-imamət; Səhihi-Buxari. VIII c. s. 127.

[6] Qunduzi əl-Hənəfi. Yənabiül-məvəddə. s. 529.

[7] Məhəmməd Həməvini əş-Şafei. Fəraidüs-simteyn. II c. s. 132.

[8] Şəvahidüt-tənzil. I c. s. 187. Hədis № 243.

[9] Əllamə əl-Hüveyzi. Təfsiru nuris-səqəleyn. III c. s. 131. Hədis № 49.

[10] əl-Əhzab surəsi, ayə 33.

Ümmü-Sələmənin evində nazil olmuşdur. Bu haqda Müslüm bin Həccac ən-Nisaburi rəvayət edir: "Ümmü-Sələmə deyir: "Bu ayə mənim evimdə nazil olmuşdur. Ayə nazil olanda Əli, Fatimə, Həsən və Hüseyn Peyğəmbərin dövrəsinə toplaşmışdılar. Mən də qapının astanasında oturmuşdum. Peyğəmbər onları əbanın altına alıb dedi: "İlahi, bunlar mənim Əhli-beytimdir." Dedim: "Ey Allahın Rəsulu! Mən də ora daxil olum?" Dedi: "Sən yerində qal, sən xeyir üzərindəsən."[1]

Bu ayənin Əhli-beytin haqqında nazil olmasını İbn Həcər əl-Heysəmi belə ifadə edir: "Əksər təfsirçilərə görə, ayə Əli, Fatimə, Həsən və Hüseynin haqqında nazil olmuşdur."[2] Adı çəkilən alim yazırdı: "Əhməd bin Hənbəl bu ayənin beş nəfərin haqqında nazil olamsını Əbu Səid əl-Xudridən belə nəql edir: "Bu ayə Peyğəmbərin Əlinin, Fatimənin, Həsənin və Hüseynin haqqında nazil olmuşdur."[3] Həmçinin bu ayənin adı çəkilən beş nəfərin haqqında nazil omasını Hakim əl-Həskani "Şəvahidüt-tənzil" əsərində[4] də səhih rəvayətlərlə isbat etmişdir. Həmçinin Təntavi məşhur təfsir əsərində bu ayənin təfsirində yazırdı: "Bil ki, Əhli-beyt anlamı məxsusdur Əli, Fatimə, Həsən və Hüseynə ."[5]

Quranda İmam Hüseynin fəzlətlərinə işarə edən ayələrdən biri salavat ayəsidir. Allah buyurur: **"Həqiqətən Allah və mələkləri Peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib, layiqincə salamlayın!"[6]**

İbn Həcər bu ayənin Peyğəmbərin Əhli-beyti haqda nazil olması haqqında xeyli hədis nəql etmişdir. O, deyir: "Kəb bin Ücrə belə rəvayət edir: "Bu ayə nazil olduqda, Peyğəmbərə dedik: "Ey Allahın Rəsulu! Sənə necə salam göndərək?" O, dedi: belə deyin: Allahummə salli alə Muhammədin va ali Muhhəmməd – İlahi, Məhəmməd və onun ailəsinə salavat və salam göndər!"[7]

Bu hədisin oxşarını Buxari də nəql etmişdir. O, deyir: "Kəb bin Ücrə nəql edir: "Deyildi: "ey Allahın Rəsulu! Sənə salam göndərməyi bilirik, bəs sənə salavatı necə verək?" Peyğəmbər buyurdu: belə deyin: "Allahummə salli alə Məhəmmədin va alə ali Məhəmməd, kəma salleytə alə ali İbrahim, innəkə həmidun məcid, Allahummə barik alə Məhəmmədin va alə ali Məhəmməd, kəma barəktə alə ali İbrahim, innəkə həmidun məcid."[8]

İbn Həcər Peyğəmbərdən belə bir hədis də nəql edir: "Dua Məhəmməd və ali Məhəmmədə salavat göndərmədən məqbul deyil."[9] Bu hədisi nəzmə çəkən görkəmli İslam alimi və Şafei məzhəbinin banisi Məhəmməd bin İdris əş-Şafei nəzmlə yazırdı:

Ya əhlə beyti Rəsulillahi
Faraza minəllahi fil-Quran
Kəfakum min azimil-qadri ənnəkum
Mən ləm yusalli aleykum lə salatə ləhu
(Ey Peyğəmbərin Əhli-beyti sizi sevməyi,
Quranda Allah vacib edib, ayə endirmişdir.
Qədir-qiymətinizin böyük olmasına bu kifayətdir ki,
Hər kəs sizə salavat göndərməsə, onun namazı yoxdur).[10]

[1] Səhihi-Müslim. VII c. s. 130; Əhməd bin Hənbəl. Müsnəd. I c. s. 330; Tirmizi. Sünən. V c. s. 351; Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 133; Təbərani. Möcəm. III c. s. 48; Buxari. Tarixül-kəbir. VIII c. s. 187; İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 221.
[2] əs-Səvaiqül-mühriqə. s. 220.
[3] Həmin mənbə. s. 221.
[4] II c. s. 10-92.
[5] XVI c. s. 27. Əhli-beytin kimliyi haqqında geniş məlumat əldə etmək üçün bax: İbrahim Quliyev. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). Bakı, Elm və təhsil, 2016.
[6] əl-Əhzab surəsi, ayə 56.
[7] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 225-226.
[8] Səhihi-Buxari. s. 844. Kitabüt-təfsir. Hədis № 4797.
[9] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 227.
[10] Həmin mənbə. s. 228.

İmam Hüseynin fəzilətinə işarə edən ayələrdən biri də **"Ali-Yasinə salam olsun"!**[1] ayəsidir. İbn Həcər bu ayə haqqında yazırdı: "Təfsirçilərin çoxu İbn Abbasın rəvayətinə əsasən bu ayənin "Ali-Məhəmmədə salam oslun!" kimi təfsir ediblər."[2]

Həmçinin təfsir əhli **"Yığın bir yerə zülm edənləri, onların həmtaylarını və ibadət etdiklərini"**[3] ayəsini də Əhli-beytin , o cümlədən İmam Hüseynin fəzilət və məqamı haqqında olduğu fikrindədirlər. Bu haqda Əllamə Hüveyzi rəvayət edir: "Ayədə zülm dedikdə, Ali-Məhəmmədin haqqını tapdalamaq, həmtayda məqsəd isə onların haqqını tapdalayanlara kömək edənlərdir."[4]

İmamın fəzilət və üstünlüklərinə çatdıran ayələrdən biri də **"Onları yubadıb saxlayın, çünki sorğu-sual olunacaqlar"**[5] ayəsidir. Bu haqda İbn Həcər,[6] Əllamə Hüveyzi[7] və digər hədis və təfsir alimləri Peyğəmbərdən rəvayət edirlər: "Bu ayənin mənası Əli bin Əbi Talibin və Əhli-beytin vilayəti barəsində sorğu-sual olunacaqlar" deməkdir."

İmam Hüseynin üstünlüklərini çatdıran ayələrdən biri də **"Biz ona böyük bir qurbanlıq əvəz verdik"**[8] ayəsidir. Bu ayəni izah edən İmam Rza buyurur: "Allah İbrahimə oğlu İsmailin əvəzində ona nazil etdiyi qoçu kəsməyi əmr etdikdə, İbrahim Allahdan təmənna etdi ki, oğlu İsmail qurban kimi kəsilsin, çünki ona qoç kəsmək yox, oğlunu kəsmək əmr olunmuşdur. Allah ona belə vəhy etdi: "Ey İbrahim! Yaratdıqlarım içində sənə ən çox sevimli olan kimdir?" İbrahim dedi: "Ey Rəbbim! Yaratdıqların içində mənə ən sevimli olan həbibin Məhəmməddir ." Allah vəhy edərək dedi: "Sənə o çox sevimlidir, yoxsa öz canın?" İbrahim dedi: "O, mənə canımdan da sevimlidir." Allah vəhy etdi: "Sənə onun övladı sevimlidir, yoxsa sənin öz övladın?" İbrahim dedi: "Onun övladı." Allah vəhy etdi: "Onun övladını düşmənləri zülmlə başını kəsərlər, onun öldürülməsi sənin qəlbini ağrıdır, yoxsa oğlunun qurban kəsilməsi?" İbrahim dedi: "Ey Rəbbim onun zülmlə kəsilməsi mənim qəlbimi daha ağrıdır." Allah dedi: "Ey İbrahim! Məhəmmədin ümmüətindən bir dəstə ondan sonra onun oğlu Hüseyni zülm və düşmənçiliklə qoç kəsən kimi kəsərlər." İbrahimin qəlbi bu hadisədən qəmgin oldu və o, buna ağladı."[9]

İmam Hüseynə aid olan ayələrdən biri də **"Halbuki sən onların arasında ola-ola Allah onlara əzab verən deyildir. Bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!"**[10] ayəsidir. Bu ayənin Əhli-beytə aid olduğunu deyən İbn Həcər yazırdı: "Peyğəmbər bu ayənin Əhli-beytə işarə olduğunu və onların yer əhli üçün əminlk olduğunu demişdir. Bu haqda hədislər çoxdur, onlardan bəzisini qeyd edirik. Peyğəmbər buyurur: "Əhli-beytim ümmətim üçün əminlikdir." Digər hədisində isə deyir: "Ulduzlar yer əhlli üçün əminlik olduğu kimi, Əhli-beytim də ümmətimin ixtilafa düşməməsi üçün əminlikdir."[11] Müəllif bu hədisləri qeyd etdikdən sonra, ikinci hədisin Buxari və Müslümün şərtlərinə uyğun olduğunu qeyd edir.

İmamın fəzilətinin ali olduğunu isbat edən ayələrdən biri də **"Sənə göndərilən bilikdən sonra buna dair sənlə mübahisə edənlər olsa, onlara de ki: gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı: biz də qadınlarımızı, siz də qadınlarınızı: biz də özümüzü siz də özünüzü çağıraq! Sonra Allahdan yalvarıb yalançılara lənət etməsini diləyək!"**[12] Bu ayə haqqında İbn Həcər əl-Heysəmi (1503-1566) Carullah Zəməxşəridən (1074-1143) nəqlən deyr: "Əhli-beytin fəzilətinə bundan güclü dəlil tapmaq mümkün deyildir. Onlar Əli, Fatimə, Həsən və Hüseyndir . Bu ayə nazil olduqda Peyğəmbər Hüseyni qucağına alıb, Həsənin də əlindən tutdu. Fatimə və Əli də

[1] əs-Saffat surəsi, ayə 130.
[2] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 228.
[3] əs-Saffat surəsi, ayə 22.
[4] Əllamə əl-Hüveyzi. Təfsiru nuris-səqəleyn. IV c. s. 401. Hədis № 11.
[5] əs-Saffat surəsi, ayə 24.
[6] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 229.
[7] Əllamə əl-Hüveyzi. Təfsiru nuris-səqəleyn. IV c. s. 29.
[8] əs-Saffat surəsi, ayə 107.
[9] Əllamə əl-Hüveyzi. Təfsiru nuris-səqəleyn. IV c. s. 429-430.
[10] əl-Ənfal surəsi, ayə 33.
[11] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 234.
[12] Ali-İmran surəsi, ayə 61.

onun ardınca gedirdi. Buradan məlum olur ki, ayədə məqsəd onlardır və Fatimənin övladları və onların zürriyyətləri Peyğəmbərin övladı hesab olunur, ona nisbət verilirlər."[1]

İbn Həcər adı çəkilən əsərində belə bir hədis də nəql edir: "İmam Əli Peyğəmbərin yanına daxil oldu. Peyğəmbər ayağa qalxıb onu qarşıladı, alnından öpdü və sağ tərəfində oturtdu. Abbas Peyğəmbərə dedi: "Onu çox istəyirsənmi?" Həzrət buyurdu: "Ey əmi! And olsun Allaha! Allah onu məndən çox istəyir. Allah bütün peyğəmbərlərin zürriyyətini onların öz bellərindən, mənim zürriyyətimi isə Əlinin belindən qərar vermişdir."[2]

İmam Hüseynin haqqında nazil olmuş ayələrdən biri də **"Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir de ki: mən sizdən bunun** [risaləti təbliğ etməyimin] **müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm"**[3] ayəsidir. Bütün təfsir və hədis əhlinə görə, bu ayədə məqsəd Peyğəmbərin yaxın qohumları olan Əliyə , Fatiməyə , Həsənə və Hüseynə məhəbbət göstərib onları sevməkdir. Ayə təfsirçilərin yanında "Məvəddət" ayəsi kimi tanınır. Ayənin təfsiri haqqında Əllamə Hüveyzi belə rəvayət edir: "İsmail bin Əbdülxaliq İmam Sadiqə dedi: "Bəsrə əhli bu ayə haqqında deyir ki, qohumluq məhəbbəti dedikdə, Peyğəmbərin qohum-əqrəbası nəzərdə tutulur." İmam buyurdu: "Yalan deyirlər. Bu ayə bizim, xüsusilə də Əhli-beytin Əlinin , Fatimənin , Həsənin və Hüseynin haqqında nazil omuşdur."[4]

Bu ayə nazil oduqda, Peyğəmbər buyurdu: "Allah peyğəmbərləri müxtəlif ağaclardan yaratdı. Mənimlə Əlini isə bir ağacdan. Mən o ağacın kökü, Əli budaqları, Fatimə çiçəkləri, Həsən və Hüseyn isə onun meyvələri, tərəfdarlarımız isə onun budaqlarıdır. Hər kəs o ağacın budaqlarından yapışsa, nicat tapacaq, hər kəs ondan üz çevirsə, məhv olacaq. Əgər bir bəndə Səfa ilə Mərvə arasında Allaha iki min il ibadət etsə, lakin bizə məhəbbət göstərməsə, Allah onu Cəhənnəmdə saxlayacaqdır."[5]

İmam Hüseynin fəzilətlərinə işarə edən ayələrdən biri də **"Hamınız bir yerdə Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın"[6]** ayəsidir. Bu ayədə məqsədin Əhli-beyt olduğunu görkəmli İslam alimləri Sələbi "Təfsiru-Sələbi" əsərində, İbn Həcər əl-Heysəmi isə "əs-Səvaiqül-mühriqə" [7] əsərində İmam Sadiqdən rəvayət edirlər: "Biz Allahın ipiyik ki, bizim haqqımızda, **"Hamınız Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın"**demişdir." Bu ayədən belə məlum olur ki, İmam Hüseyn digər imamlarla birlikdə yer üzündə Allahın möhkəm ipidir və ondan yapışmadan nicata yetişmək mümkün deyildir.

İmam fəzilətinə işarə edən ayələrdən biri də **"Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeyə görə insanlara həsəd aparırlar? Halbuki, biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk bəxş etmişdik"**[8] ayəsidir. İmam Baqir bu ayənin təfsirində buyurmuşdur: "Ayədə həsəd aparılan insanlar bizik."[9]

İmamın fəzilət və üstünlüklərini çatdiran ayələrdən biri də **"Şübhəsiz ki, Mən həm də tövbə edib iman gətirəni və yaxşı işlər görüb sonra da doğru yolu tutanı çox bağışlayanam!"[10]** ayəsidir. Bu ayənin təfsirində tanınmış İslam alimləri, o cümlədən Sabit əl-Bənani, İbn Həcər əl-Heysəmi və başqaları İmam Baqirdən hədis nəql edərək ayəni "Əhli-beytin vilayətinə tərəf hidayət edər" kimi təfsir edirlər.[11] Göründüyü kimi ayədə Allah insanların hidayət olunmasını Əhli-beytin , o cümlədən İmam Hüseynin vilayət və imamətini tanımaqda görür. Bunu təsdiq edən digər

[1]İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 238; Carullah əz-Zəməxşəri. Təfsirül-Kəşşaf. I c. s. 361-362; Əhməd bin Əli əl-Cəssas. Əhkamül-Quran. II c. s. 18-19; əl-Qazi Nəsruddin əl-Beyzavi. Təfsirül-Beyzavi. I c. s. 163; Məhəmməd bin Əhməd əl-Qürtubi. əl-Camiül-əhkamil-Quran. II c. s. 67; Hakim əl-Həskani. Şəvahidüt-tənzil. I c. s. 123-124. Hədis № 170-171.

[2] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 239.

[3] əş-Şura surəsi, ayə 23.

[4] Əllamə əl-Hüveyzi. Təfsiru nuris-səqəleyn. IV c. s. 572. Hədis № 65.

[5] Əllamə əl-Hüveyzi. Təfsiru nuris-səqəleyn. IV c. s. 572. Hədis № 69.

[6] Ali İmran surəsi, ayə 103.

[7] Əhməd Əbu İshaq əs-Sələbi. Beyrut, Daru ehyait-türasil-ərəbi. 10 cilddə. 1422/2002. s. 233.

[8] Ən-Nisa surəsi, ayə 54.

[9] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 233; Əllamə əl-Hüveyzi. Təfsiru nuris-səqəleyn. I c. s. 491. Hədis № 304.

[10] Taha surəsi, ayə 82.

[11] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə. s. 235.

görkəmli alim Deyləmi Peyğəmbərdən belə bir hədis nəql edir: “Mənim qızım ona görə Fatimə adlandırılıb ki, həqiqətən, Allah onu və onu sevənləri Cəhənnəmdən qoruyacaqdır.” Əhməd bin Hənbəl də buna işarə olan Peyğəmbərdən aşağıdakı hədisi nəql edir: “Hər kəs məni, Həsən və Hüseyni, həmçinin onların ata-anasını sevərsə, Qiyamət günü mənimlə bir dərəcədə olacaqlar.”[1]

Bu ayələrdən belə məlum olur ki, İmam Hüseynin məqamı Allah yanında ən ali məqamdır. Onun Allah yanında ən sevimli bəndə olduğunu təsdiq edən bu və digər ayələr onu göstərir ki, İmama qarşı çıxmaq, onun vilayət və imamətini tanımamaq, onu düşmənləri ilə bir cərgədə tutmaq yolverilməz haldır və hər kəs buna görə Allah qarşısında cavabdehdir. İmamın fəzilətlərinə və ümumiyyətlə, onun haqqında digər ayələr də vardır. Bu haqda Əllamə Şərafəddin əl-Amili yazır: “Quranda Əhli-beytə aid təxminən 300 ayə vardır.” Bu da Quranın təxminən üçdə birini təşkil edir.

İmamın fəzilətinə aid digər Əhli-beyt nümayəndələri ilə birlikdə çoxlu sayda səhih və mütəvatir hədislər vardır.

Müslüm bin Həccac ən-Nisaburi səhih bir sənədlə rəvayət edir: “Mübahilə ayəsi nazil olduqda Peyğəmbər Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb dedi: “İlahi, bunlar mənim əhli beytimdir.”[2]

İmam Hüseynə aid hədislərdən biri “ulduz” hədisidir. Peyğəmbər buyurur: “Ulduzlar yer əhlini batmaqdan qoruyur, Əhli-beytim isə ümmətimi ixtilafa düşdükləri məsələlərdən qoruyar. Əgər ərəb qəbilələrindən biri onlarla müxalifətçilik etsə, ixtilafa düşərlər və bununla da şeytanın dəstəsindən olarlar.”[3]

Peyğəmbər digər hədisində buyurur: “Əhli-beytim sizin aranızda Nuhun gəmisi kimidir. Hər kəs ona minsə, nicat tapar, hər kəs ondan uzaqlaşsa, qərq olar. Onlardan önə keçməyin, yoxsa həlak olarsınız. Onlardan geri də qalmayın ki, məhv olarsınız. Onlara bir şey öyrətməyə can atmayın, çünki onlar sizdən daha biliklidirlər.”[4]

Peyğəmbər buyurur: “Sizə on iki şəxs xəlifəlik etməyincə, heç vaxt Qiyamət baş verməz. Onların hamısı Qüreyşdəndir.”[5]

Peyğəmbər buyurur: “Həsən və Hüseyn dünyada mənim iylədiyim iki reyhandır.”[6]

Peyğəmbər digər bir hədisində buyurur: “Həsən və Hüseyn Cənnət cavanlarının ağasıdır.”[7]

Peyğəmbər yenə buyurur: “Hüseyn məndəndir, mən də Hüseyndənəm . Hüseyni sevən hər kəsi Allah sevmişdir.”[8]

Həmçinin buyurub: “ey Əli! Həqiqətən Həsən və Hüseyn mənim zehnimi çox məşğul edirlər. Mən onlardan başqa heç kimsəni bu qədər sevmirəm. Çünki Rəbbim mənə əmr etmişdir ki, onları və onları sevəni sevim.”[9]

Həzrət digər bir hədisində buyurur: “Hər kəs Həsən və Hüseyni sevsə, məni sevmişdir. Hər kəs onları qəzəbləndirsə, məni qəzəbləndirmişdir.”[10]

İmran bin Həsin rəvayət edir: “Peyğəmbər mənə dedi: “Ey İmran! Həqiqətən hər bir qəlbin bağlı olduğu bir şey vardır. Mənim də qəlbim bu iki oğlana bağlıdır.” Dedim: “Ey Rəsuləllah! Qəlbinin hamısımı bunlara bağlıdır?” Dedi: “Ey İmran! Onlara olan sevgimin əksəriyyətin səndən gizlədirəm. Allah mənə əmr etmişdir ki, bunları sevim.”[11]

Əbuzər əl-Qiffari nəql edir: “Peyğəmbər mənə Həsən və Hüseyni sevməyi əmr etmişdir. Mən də onların ikisini çox sevirəm və onları sevənləri də çox sevirəm. Çünki Peyğəmbər onların ikisini çox sevərdi.”[12]

---

[1] İbn Həcər əl-Heysəmi. əs-Səvaiqül-mühriqə,.s. 235
[2] Səhihi-Müslim. VII c. s. 130
[3] Hakim ən-Nisaburi. Müstədrək ələs-səhiheyn. III c. s. 149.
[4] Əhməd bin Hənbəl. Müsnədi-Əhməd. III c. s. 17.
[5] Səhihi-Müslim. VI c. s. 4.
[6] “Səhihi-Buxari” əsərində nəql olunub.
[7] Hürr əl-Amilinin “Vəsailüş-şiə” əsərində nəql olunub.
[8] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 116. Hədis № 125; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 261.
[9] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 112. Hədis № 116; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 269.
[10] Əbülqasim ət-Təbərani. Möcəmül-kəbir. III c. II şap, 1404/1984. s. 48. Hədis № 2645.
[11] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 113. Hədis № 117; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 269.
[12] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 113. Hədis № 118; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 269.

Həmçinin Əbuzər rəvayət edir: "Peyğəmbəri Həsən və Hüseyni öpən gördüm. O, dedi: "Hər kəs Həsən və Hüseyni və onların övladlarını sevsə, Cəhənnəm onun üzünü yandırmaz, hətta onun günahı saysız-hesabsız olsa belə. Amma bu şərtlə ki, onun günahları onu imandan xaric etməmiş olsun."[1]

Abdullah bin Məsud rəvayət edir: "Peyğəmbərdən eşitdim ki, deyirdi: "Hər kəs məni sevirsə, bu iki oğlumu sevsin. Çünki Allah mənə bunları sevməyi əmr etmişdir."[2]

İmam Sadiq buyurur: "Peyğəmbər buyurmuşdur: "Hər kəs Allahın Quranda dediyi möhkəm ipdən yapışmaq istəyirsə, Əbu Talib oğlu Əlini özünə rəhbər tutsun, Həsən və Hüseyni isə sevsin. Çünki Allah öz ərşinin üstündə onları sevmişdir."[3]

Peyğəmbər buyurur: "Hər kəs Həsən və Hüseynə nifrət edərsə, Qiyamətə üzünün əti tökülmüş halda gələcək və o, şəfaətimə nail olmayacaqdır."[4]

İmam Əli buyurur: "Həsən və Hüseyn Peyğəmbərin iylədiyi reyhandır."[5]

Peyğəmbər buyurur: "Gözümün işığı qadınlar, iylədiyim reyhan isə Həsən və Hüseyndir ."[6]

Peyğəmbər buyurur: "Əlini özünüzə rəhbər götürün! Çünki o, Siddiqi-Əkbərdir. O, ona tabe olanı hidayət edər. Hər kəs ondan qabağa keçsə, Allahın dinindən çıxmışdır. Hər kəs onu tək buraxsa, Allah onu həlak edər. Hər kəs ondan yapışsa, Allahın ipindən yapışıbdır. Hər kəs onun vilayətini qəbul etsə, Allah onu hidayət edər. Hər kəs onun vilayətini tərk etsə, Allah onu yoldan azdırar. Onun iki övladı Həsən və Hüseyn mənim ümmətimin nəvəsidir. Onlar ikisi mənim oğlanlarımdır. Hüseynin övladları hidayət imamlarıdır və Mehdi Qaim onlardandır. Onları sevin və onları özünüzə rəhbər tutun. Onların düşmənlərini özünüzə dost tutmayın. Yoxsa, Rəbbinizdən sizə qəzəb olar, dünya həyatında zəlil olarsınız. İftira atanlar da məhv olacaqdır."[7]

6.8. Yezidin nəsəbi, şəxsiyyəti və cinayətləri

Yezid Müaviyənin oğludur. Onun anasının adı Meysundur. O, Kəlb qəbiləsindən olmuşdur. Yezidin atası da İslamın barışmaz düşmənlərindəndir. Müaviyə Əbu Süfyanın oğludur. Əbu Süfyan isə ölüncə İslama qarşı cəbhə açmış, Bədr, Ühüd və İslamın bütün müharibələrində Peyğımbərə qarşı qılınc qaldırmış şəxslərdəndir. Belə bir atanın övladı isə təbiidir ki, heç vaxt müsəlman olmamış, olmuşsa da, zahiri mahiyyət təşkil etmişdir. Müaviyyə miladi 661-ci ildə Əməvilər xilafətini qurmuş və ona rəhbərlik etdiyi təxminən 20 illik zaman ərzində İslamda bu gün də davam edən bidətlərin banisi olmuşdur. Bundan başqa o, İmam Əlinin əleyhinə təbliğat aparmaqla, onu xütbələrdə söyüb lənətləməklə ən pis bidətin əsasını qoymuşdur. Məşhur hədis alimi Müslüm bin Həccac Nisaburi nəql edir: "Müaviyə bin Əbi Süfyan Səd bin Əbi Vəqqasa dedi: "Sənə nə mane olur ki, Əbu Turabı söymürsən?" Səd bin Əbi Vəqqas dedi: "Peyğəmbərdən İmam Əlinin haqqında eşitdiyim üç şeyə görə onu heç vaxt söymərəm. Əgər onlardan biri məndə olsa, mənim üçün qırmızı tüklü dəvələrdən də faydalı olar. Həmin üç şey bunlardır: bəzi müharibələrə gedərkən onu yerində xəlifə qoyardı. İmam Əli ona ey Peyğəmbər! Məni qadın və uşaqlarlamı tərk edirsən? dedikdə, Peyğəmbər buyurdu: "Razı deyilsənmi mənə Harunun Musaya olan nisbəti kimi olasan? bu şərtlə ki, məndən sonra heç bir peyğəmbər olmayacaq. Xeybər günü dediyi: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onu Allah və Rəsulu sevir, o da Allah və Rəsulunu sevir." Bir də Ali-İmran surəsinin 61-ci ayəsi nazil olduqda, PeyğəmbərƏlini, Fatiməni , Həsəni və Hüseyni çağırıb dedi: "İlahi, bunlar mənim Əhli-beytimdir."[8]

Həmçinin Müaviyə İslamın kökünü kəsməkdən ötrü əlindən gələni əsirgəməmişdi. Müğeyrə bin Şöbənin oğlu Mütərrif deyr: "Atamla birlikdə Şamda Müaviyənin qonağı idik. Atam tez-tez Müaviyənin sarayına gedər və onunla həmsöhbət olardı. Qaldığımız yerə qayıtdıqda atam onun

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 114. Hədis № 119; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 269.
[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 113. Hədis № 120; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 270.
[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 114. hədis № 121; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 270.
[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 115. Hədis № 122; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 270.
[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 115. Hədis № 124; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 270.
[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 115. Hədis № 123; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIII c. s. 270.
[7] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 115-116. Hədis № 125.
[8] Səhihi-Müslim. s. 1059. Fəzailüs-səhabə. Hədis № 6220.

ağıl-kamalından danışar və onu tərifləyərdi. Ancaq bir gecə Müaviyənin sarayından gəldikdə, onu fikirli və narahat gördüm. Onun narahatlığının səbəbini soruşduqda, dedi: "Mən indi dünyanın ən çirkin adamının yanından gəlirəm." Dedim: "Nə olub?" Atam dedi: "İndi Müaviyənin yanından gəlirəm. İkimiz oturmuşduq. Ona dedim: "öz arzuna çatıb hökuməti ələ keçirmisən, indi camaatla bir az ədalətlə və yaxşılıqla rəftar et. Bəni-Haşimlə də bu qədər bədrəftar olma, axı onlar sənin qohumlarındı. Bundan əlavə, Bəni-Haşim elə bir vəziyyətdədilər ki, sənə zərər yetirə bilməzlər." O, mənə dedi: "Əsla! əsla! Əbu Bəkr xəlifə oldu, ədalətlə davrandı, ölümündən sonra təkcə adı qaldı. Ömər də on il xəlifə odu, zəhmətlər çəkdi, ancaq ölümündən sonra təkcə adı qaldı. Sonra Osman qardaşımız xəlifə oldu, o da ölən kimi adı özü ilə dəfn olundu. Ancaq İslam aləmində hər gün bu haşimi kişinin (Peyğımbərin) adını beş dəfə çəkərək "Əşhədu ənnə Məhəmmədən Rəsulullah" deyirlər. İndi onun adını batırmaqdan başqa hansı yol var?" Abbasi xəlifəsi Məmun bu hadisəni dəqiqləşdirdikdən sonra Müaviyənin lənətlənməsini haqda əmr vermişdir.[1]

Bundan başqa, Müaviyə İmam Həsənlə imzaladığı sülh müqaviləsini pozmuş və nəticədə vədinə xilaf çıxmışdır. Halbuki Peyğəmbər buyurur: "Münafiqin dörd əlaməti var: danışanda yalan danışar, vədə verəndə ona qarşı çıxar, müqavilə bağlayanda aldadar və mübahisə edəndə söyüş söyər"[2]. Müaviyənin bu və digər saysız cinayətlərinə görə alimlərimiz onun İslamın düşməni olduğunu demişlər. O, İmam Əli ilə etdiyi müharibəyə görə imandan xaric olmuşdu. Necə ki, Peyğəmbər buyurur: "Əlini sevmək imandan, ona nifrət etmək isə nifaqdandır."[3] Digər bir hədisində isə buyurur: "İmam Əli mənim qardaşım, vəsiyyətlərimi icra edən və məndən sonra xəlifəmdir. Onu eşidin və ona tabe olun."[4] O, yenə də buyurur: "İmam Əli məndəndir, mən də ondanam."[5]

Yezidin əsl-nəsəbi tarixdə Bəni-Üməyyə kimi tanınır. Bu nəsil Peyğəmbərimizin hədisində lənətlənmişdir. Allah Qurani-Kərimdə də bu nəsli lənətləmişdi. Belə ki, İsra surəsinin 60-cı ayəsindəki **"Şəcərətül-məlunə"** (lənətlənmiş nəsil, ağac) ifadəsində məqsəd bəni-Üməyyədir.[6] Bunu əksər Quran təfsirçiləri, o cümlədən, Fəxr Razi, Təbəri, Qürtubi, Süyuti, Şövkani, Alusi və bu kimi digər hədis və təfsir alimləri təsdiq etmişlər. Adı çəkilən bu və ya digər təfsirçilər İbn Abbasdan bu ayənin təfsiri haqqında belə nəql edirlər: "Quranda lənətlənmiş ağacda məqsəd bəni-Üməyyədir." Yezid də bu lənətlənmiş ağacın meyvələrindəndir. O, hicri 25-ci (miladi 647) ildə Matrunda doğulmuşdur. Uşaqlığı bədəvilər içində keçən Yezid, içki, qadın və əyləncə düşgünü olmuşdur. Müaviyə ölümünün yaxınlaşdığını bildikdə, Yezidi çağırıb yanında oturdu və ona dedi: "Oğlum! Mən sənə qarşı olacaq boyunları zəlil etdim. Ölkələri sənin üçün sakitləşdirib tabe etdim. Sənə lazım olan işləri qaydaya saldım. Sənin haqqında yalnız üç nəfərdən qorxuram. Onlar sənlə müxalif olacaqlar. Onlar Abdullah bin Ömər, Abdullah bin Zübeyr və Hüseyn bin Əlidir . Abdullah bin Ömərə gəldikdə, o, sənlə olacaq, onu əzizlə və onu yanından qovma. Abdullah bin Zübeyrə gəldikdə isə, ona qalib gəlsən məhv et. O, sənin qarşında diz çökəcək, necə ki, şir öz ovunu diz çökdürür. Hüseyn bin Əliyə gəldikdə isə, bilirsən ki, o, Peyğəmbərin əti və qanındandır. Əgər ona qalib gəlsən, bil ki, onun məqamı Peyğəmbərdəndir . Əgər ona pislik etsən, sənə pisliklər yetişəcək."[7]

Təəssüflər olsun ki, Yezid atasının ona etdiyi vəsiyyətə əmələ etmədi və dünya tarixində misli görünməmiş cinayətə - İmam Hüseynin qanına əl batırdı. Əslində atası Müaviyənin ona etdiyi vəsiyyət İmamın qeydinə qalmaq yox, xilafətin bəni-Üməyyənin əlindən çıxmaq qorxusuna görə idi. Bu belə də oldu. İmamın şəhadətindən sonra xilafət bəni-Üməyyədən Mərvanilərin əlinə keçdi.

Yezid İmam Hüseyni şəhadətə yetirdikdən sonra onun başını tərəfdarlarının başları ilə birlikdə Şama göndərməsini əmr etdi. Mübarək başlar Yezidin hüzuruna gətirildikdə, o, İmamın başını teştə qoydurmuş, onun dodaqlarına çubuqla vuraraq aşağıdakı şeiri oxumuşdur:

---

[1] Məsudi. Murucüz-zəhəb. III c. s. 454.
[2] "Səhihi-Buxari" və "Sünəni-Nəsai" əsərlərində nəql olunub.
[3] Səhihi-Müslim. I c. s. 161.
[4] Tarixüt-Təbəri. II c. s. 319.
[5] Səhihi-Buxari. VII c. s. 168.
[6] Əllamə əl-Məclisi. Biharül-ənvar. IX c. s. 119; XVIII c. s. 228.
[7] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 548; Əllamə əl-Məclisi. Biharül-ənvar. X c. s. 170.

Üzüm şərabı hər sübh mənim əlimdə doğur
Hər axşam isə mənim ağzımda batır.
Əgər şərab Məhəmmədin dinində haramdırsa,
O halda, onu İsa Məsihin dininə görə iç

Başqa bir şeirində isə demişdir:

Dünya, sadəcə bu dünyadır ki, var,
Bu aləmdən başqa bir aləm yoxdur.
Əgər, həqiqətən, belədirsə, bəs niyə mən,
Bu aləmin ləzzətlərindən əl çəkməliyəm?!

Digər bir şeirində isə deyir:

Kaş ki, Bədr döyüşündə ölən qəbiləmin başçıları, Xəzrəc qəbiləsinin (Ühüddakı döyüşündə),
Məğlubiyyətini görsəydilər, sevinərək deyərdilər: "əlinə sağlıq ey Yezid."
Bədrdə ölənlərmizə qarşı, biz də bu gön onların böyüklərini öldürərək bərabərləşdik,
Bəni-Haşim səltənətlə oyun oynadı,
Nə göydən bir xəbər gəlmiş və nə də vəhy nazil olmuşdur.
Bəni-Əhməd övladlarından intiqam almasam, mən Xəndəf ailəsindən deyiləm,
Biz qanımızın əvəzini Əlinin igid və qəhrəman oğlunu öldürməklə aldıq.[1]

Yezidin bu kimi şeirlərini, onun İslam tarixində törətdiyi cinayətləri, Məkkəni (Kəbəni) dağıtmasını, Mədinə əhlini qırmasını (Hirrə hadisəsi) və İmam Hüseyni öldürməsini əldə əsas tutan müsəlman alimləri onun lənətlənməsinin caiz olması haqqında fikir birliyindədirlər. Düzdür, Qəzali və İbn Teymiyyə kimi bəzi təəssübkeşlər Yezidə bəraət qazandırır və ona Əmirəlmöminin deyirlər, amma bu heç də müsəlman alimlərinin ümumi fikrini bildirmir. Yezidin lənətlənməsi haqqında İslam alimi Əbülfərəc ibn Covzi "ər-Rəddu anil-mütəəssibil-ənid əl-maniu ən lənil Yezid lənətullah" adlı kitab da yazmışdır. Məsudi isə "Murucüz-zəhəb" adlı məşhur əsərində yazırdı: "Yezidin yolu Fironun yoludur. Hətta Firon idarəçilikdə ondan daha ədalətli idi. Onun səltənəti İslam üçün böyük bir utandırıcı nöqsan qaynağı olmuşdur. Şərab içməsi, Peyğəmbər oğlunu şəhid etməsi, o Həzrətin vəsisinə lənət oxuması, Kəbəni dağıtması və bir çox insanların qanını tökməsi, xüsusilə Mədinədə camaatı qətlə yetirməsi, sayssız-hesabsız iyrənc əməlləri onun bağışlanmayacağını göstərir."[2] Digər görkəmli İslam alimi Dəmiri yazırdı: "İmam Şafeidən Yezidin səhabə olması və lənətlənməsinin caiz olub-olmaması haqqqında soruşulduqda dedi: "o, səhabə deyil, çünki o, xəlifə Osman bin Əffanın dövründə doğulmuşdur. Onun lənətlənməsinə gəldikdə isə Əbu Hənifə, Malik və Əhməd onun haqqında lənət deyiblər. Mənə gəldikdə isə, mən də belə deyirəm. Necə yəni bu caiz olmasın? O, zalım, təkəbbürlü, nərd oynayan, şərab içən olmuşdur. O, bunu şeirlərində də etiraf etmişdir."[3] Dəmiri bunları qeyd etdikdən sonra müşriklərə lənətin vacib olduğu kimi Yezidə də lənətin vacib olduğunu deyir. Bundan başqa Qazi Əbu Yəla Peyğəmbərin "Hər kəs Mədinə əhlini zülmlə qorxutsa, ona Allahın, mələklərin və bütün insanların lənəti olsun", hədisinə istinadən Yezidin lənətlənməsini caiz bilmişdir.

İbn Cövzi yazırdı: "Əhməd bin Hənbələ deyildi: "Yezidin hədislərini yazırsan?"
Dedi: "Yox."
Dedilər: "Bəzi kəslər onu sevdiklərini deyirlər."

[1] Seyid Məhəmməd Musəvi Şirazi. Pişavər gecələri. I c. s. 153-155; Şeyx Abdullah Şəbravi. əl-İthaf bi hubbil-əşraf. s. 18; Xətib əl-Xarəzmi. Məqtəlül-Hüseyn. II c.
[2] Əbülfərəc bin əl-Cövzi. ər-Rədd anil-mütəəssib. II c.; Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 553.
[3] Əbülbəqa əd-Dəmiri. Həyatül-həyəvan. II c. Misir çapı, s. 225.

Dedi: “Allaha və Qiyamət gününə inanan şəxs Yezidi sevərmi?” Bunu eşidən oğlu Saleh atasına dedi: “Nə üçün Yezidi lənətləmirsən?”

Əhməd dedi: “Allahın öz kitabında lənətlədiyi şəxsi mən necə lənətləməyim?” Ona deyildi: “Allah Yezidi öz kitabının harasında lənətləyib?” Bu zaman Əhməd Allahın bu ayəsini oxudu: “**Əgər** (Muhəmməd əleyhissəlamdan) **üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və** (Cahiliyyət dövründə olduğu kimi) **qohumluq tellərini qırmaq gözlənilməzmi?!**

Onlar (münafiqlər, fitnə-fəsad törədənlər) **Allahın lənət etdiyi** (qulaqlarını) **kar və gözlərini kor etdiyi kimsələrdir!”** [1] Əhməd bu ayələri oxuduqdan sonra dedi: “Qətldən böyük fəsad varmı?”[2]

Yezid hicri 63-cü ilin rəbiul-əvvəl ayının 14-də (10 noyabr 683-cü ildə) 35 və ya 38 yaşında Şamda ölmüşdür.[3] Mənbələrə görə o, ova getmək üçün ata minmiş, lakin atın hürkməsi nəticəsində ayağı üzəngiyə ilişərək daşa-divara çırpılaraq köməksiz vəziyyətdə Cəhənnəmə vasil olmuşdur.[4]

Salman Farsi rəvayət edir: “Hüseyn bin Əli doğulan zaman göylərdə elə bir mələk olmadı ki, nazil olub Peyğəmbərə göz aydınlığı verməmiş olsun. Peyğəmbər buyurdu: “İlahi, onu tək buraxanı özbaşına burax, onu öldürəni öldür, onu kəsəni özün kəs və onu öl0dürəni mətləbinə çatmağa qoyma! Ravi deyir: “And olsun Allaha! Məlun Yezid onun qətlindən sonra heç bir məqsədinə çatmadı.”[5]

Yezid İmam Hüseynin qətlindən sonra rahatlıq tapa bilmədi. İmamın şəhadəti artıq Əməvilərin sarayını sirkələmiş, xilafətin müxtəlif yerlərində üsyanlar və qiyamlar toxumu cücərməyə başlamışdı. Beləliklə, İmamın az müddət keçmiş o, məhv olub aradan getdi, xilafət isə Əməvilərdən Mərvanilərə keçdi (685-ci ildə).

Beləliklə, Yezid ata-babasından aldığı təlim-tərbiyə əsasında böyüdü, onlar kimi yaşadı və onlar kimi də dünyadan getdi. Onun babası Əbu Süfyan, nənəsi Hində, atası isə Müaviyə ömürlərinin axırınadək İslama düşmən kəsilib onun kökünə balta vuranlardan omuşdular. Əbu Süfyanın arvadı Hində bint Ütbə Peyğəmbərin əmisi Həmzənin Ühüd döyüşündə ciyərini çıxarıb çeynəyən şəxsdir. Buna görə də Müaviyə tarixdə “Ciyər yeyənin oğlu” adı ilə tanınır.

6.9. Kərbəlanın fəzilətləri və İmam Hüseyni ziyarət etməyin savabı

Kərbəla İslam dünyasının ən müqəddəs yerlərindəndir. Onun müqəddəs bir məkana çevrilməsi heç də əbəs bir şey olmayıb, hədisi-şəriflərdə öz əksini tapmış həqiqətlərdəndir. Kərbəlanın fəzilətinə aid çoxlu sayda səhih hədislər vardır. Bu hədislərə heç kəs şəkk-şübhə etməməlidir. Çünki Məkkənin müqəddəs olması Kəbəyə və orada uyuyan peyğəmbərlərə görədirsə, Mədinənin müqəddəsliyi Peyğəmbərimizin orada olmasına görədirsə, Kərbəlanın da müqəddəsliyi orada uyuyan İmam Hüseynə görədir. Yuxarıdakı ayələrdə və hədislərdə İmamın fəzilət və üstünlüklərinin şahidi olduq. Deməli, müqəddəs şəxslərin olduqları yer onların bərəkətinə görə müqəddəsləşir və belə məkanlara hörmət etmək hər bir müsəlmana vacibdir. Necə ki, Quran Əshabi-Kəhfin əhvalatını nəql edərkən onların yatdıqları yerin müqəddəsliyini önə çəkmiş və möminlərin onların qəbirləri üstündə məscid tikmələrini təqdir etmişdir.[6]

Peyğəmbər Hüseiynə dedi: “Ey oğlum! Cəbrail mənə xəbər gətirdi ki, məndən sonra səni qətl edib bədənini parçalayacaqlar. Hüseyn dedi: “Babacan! Bizim qəbirlərimizi ziyarət edənlər üçün nə savab vardır?” Peyğəmbər buyurdu: “Oğlum! Ümmətimdən hər kəs sizi ziyarət etsə, sizə əl sürtsə, mənə vacibdir ki, Qiyamət günü gəlib onu ziyarət edim, onu Qiyamətin dəhşətli əhvalından xilas edim və onu Cənnətdə sakinləşdirim.”[7]

Hədisdə deyilir: “Bir şəxs İmam Sadiqin yanına gəlib Məkkədə mal-mülk alıb ora köçmək istədiyini dedi. İmam ona buyurdu: “Bunu etmə. Çünki Məkkə əhli açiq-aşkar Allaha qarşı küfr

[1] Məhəmməd surəsi, 22-23.
[2] Bax: İbn əl-Cövzinin “ər-Rədd alal-mütəəssibil-anid” və əş-Şiravinin “əl-İthaf bihübbil-əşraf” əsərinə.
[3] İbn Əsir. əl-Kamil fit-tarix. III c. s. 316.
[4] Əllamə əl-Hairi. Dairətül-məarif. XVIII c. s. 566.
[5] Həmin mənbə. VIII c. s. 252.
[6] əl-Kəhf surəsi, ayə 21; Zəməxşərinin “Təfsirül-kəşşaf” əsəri sözü gedən ayənin təfsiri.
[7] Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 251; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 148.

edirlər.” Ravi dedi: “Əgər belədirsə, Mədinədə alımmı?” İmam dedi: “Onlar məkkəlilərdən də pisdirlər.” Ravi dedi: “Bəs harada məskən salım?” İmam buyurdu: “İraqda Kufə şəhərində al. Onun yanında bir qəbir vardır ki, bəlaya giriftar olan oraya gəlmişlər. Bu Kərbəladakı İmam Hüseynin qəbridir. İmam Əlinin qəbri yanında ona qonşu olmaq 700 illik ibadətdən, Hüseynin qəbrinə qonşu olmaq isə 70 illik ibadətdən üstündür.”[1]

İmam digər bir hədisində isə buyurur: “Kərbəlada Hüseynin yanında qalmağın bir günü min ayın ibadət və əməllərinə bərabərdir.”[2]

İmam Zeynülabidin buyurur: “Mən Kərbəlada atam Hüseynin qəbri kənarında olanda sanki möhtəşəm qəsrlərdəyəm... Ravi İmama dedi: “Orada qalan şəxsə nə mükafat var?” Həzrət buyurdu: “Hər günü min aya bərabərdir.” Ravi yenə dedi: “Bəs oranı ziyarət üçün xərc çəkən və orada gəlib xərcləyən üçün nə mükafat var?” İmam buyurdu: “Bir dirhəm min dirhəm əvəzidir.”[3]

“İmam Sadiq ona qonaq olmuş şəxsə dedi: “Sən Hüseyni ziyarət edirsənmi?” Qonaq dedi: “Onu üç ildə bir dəfə ziyarət etmişəm. İmam üzü qəzəb halını aldı və həmin şəxsə dedi: “and olsun Allaha! Kərbəlanı ziyarət etsəydin, bu sənin üçün daha xeyirli olardı. Qonaq olan şəxs dedi: “Sənə fəda olum! Hər ziyarətin fəziləti varmı?” İmam buyurdu: “Bəli, and olsun Allaha! Əgər mən onun ziyarətinin fəzilətlərindən danışsaydım, birbaşa həcci tərk edər və sizdən heç kəs həccə ziyarətə getməzdiniz. Vay olsun sənə! Bilmirsən ki, Allah Məkkəni hərəm götürməzdən əvvəl Kərbəlanı hərəm, əmin və mübarək yer olaraq götürmüşdür?”

İbn Əbi Yəfur dedi: “Allah Məkkənin ziyarət olunmasını vacib etmiş, amma Kərbəlanın ziyarət olunması barədə bir söz deməmişdir.” İmam buyurdu: “Bu belədir, amma sən Əlinin : “Ayağın altına məsh çəkmək ayağın üstünə məsh etməkdən daha doğrudur, amma Allah onun üstünə məsh etməyi vacib etmişdir”, sözünü eşitməmisən?...”[4]

İmam digər bir hədisində buyurur: “Kəbə torpağı dedi: “Mənim kimi kim vardır? Allahın evini mənim üstümdə tikiblər, insanlar dəstə-dəstə ən uzaq yerlərdən mənim ziyarətimə gəlirlər, mən Allahın hərəmi və onun əmin yeri olmuşam.” Allah ona belə vəhy etdi: “Bəsdir! Sakit ol! And olsun izzəti cəlalıma! Sən Kərbəla torpağından üstün deyilsən... Əgər Kərbəla torpağı olmasaydı, səni fəzilətli etməzdim. Əgər Kərbəla sənə zəmanət verməsəydi, səni və sənin fəxr etdiyin evi yaratmazdım. Sakin ol! Təvazökar göstər, zəlil ol! Kərbəlaya qarşı təkəbbür göstərib fəxrlənmə! Səni hədələyib Cəhənnəmlə cəzalandıraram.”[5]

Burada bir məsələyə xüsusi olaraq diqqət yetirmək lazımdır ki, Kərbəlanın Məkkədən üstünlüyünü bildirən hədislərlə yanaşı, Mədinənin Məkkədən üstün olduğunu deyən hədislər də vardır. Belə ki, görkəmli hədisşünas alim Nəvəvi “Səhihül-Müslim” əsərini şərh edərkən belə yazırdı: “Bizim nəzərimizə görə, Məkkə ən fəzilətli bir yerdir. Bunu Məkkə və Kufə alimləri, İbn Vəhəb əl-Maliki, İbn Həbib əl-Maliki və alimlərin çoxu deyiblər. əl-Əbdəri belə deyir: “Bu söz alimlərin əksər hissəsinin dediyi sözdür. Bu, Əhməd bin Hənbəlin nəql etdiyi iki rəvayətin ən səhihinə əsasən onun seçdiyi bir sözdür. Malik bin Ənəs və bir qrup alim belə deyir: “Mədinə ən fəzilətli bir yerdir. Alimlər Məkkə və Mədinənin yer üzərindəki ən fəzilətli yer olduğu barədə icma ediblər. Lakin bu ikisindən hansının daha üstün olması barədə ixtilaf ediblər.”[6]

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 139.

[2] Həmin mənbə.

[3] Həmin mənbə. XV c. s. 140.

[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 449. Hədis № 674; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 33; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 513; Əllamə ən-Nuri. Mustədrəkül-vəsail. X c. s. 261.

[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 450. Hədis № 675; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 106; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 510. Bunu da qeyd etmək lazımdır ki, Kərbəlanın Kəbədən üstün tutulmasının səbəbi yalnız İmam Hüseynin hörməti xatirinədir. Peyğəmbər hədislərinin birində “Mömin Kəbədən üstündür”, - deyə buyurmaqla iman və təqva əhlinin Allah yanındakı məqamını bildirmək istəmişdir. Bundan başqa, Malikilik məzhəbinin banisi Malik bin Ənəsin Mədinəni, daha doğrusu, Peyğəmbərin hərəmini Kəbədən üstün bilməsi də Peyğəmbərin hörməti xatirinədir. Həmçinin Qazi İyaz əl-Maliki özünün məşhur “əş-Şifa” əsərində (II c. s. 91) yazırdı: “Peyğəmbərin qəbrinin bütün yerlərdən üstün olmasında heç bir ixtilaf yoxdur”. Görkəmli alim Əllamə əs-Sübki əş-Şafei də “Tənzilüs-səkinə” əsərində (s. 51) Peyğəmbərin qəbrinin Məscidülhəramdan daha üstün olduğunu qeyd etmişdir. Deməli, buradan bir daha aydın olur ki, Peyğəmbərin cəsədi hər bir varlıqdan üstündür. Peyğəmbərin “Hüseyn məndəndir, mən də ondanam” hədisini də buraya əlavə etsək, məsələnin mahiyyəti daha da dərindən başa düşüləcəkdir.

[6] ən-Nəvəvi əş-Şafei. əl-Məcmu. VII c. Beyrut, Darül-fikr lit-təbaə vən-nəşr vət-təvzi, 1997. s. 388-389.

Həmçinin İbn Həzm özünün "əl-Mühəlla" adlı əsərində Malik bin Ənəsin və digər bir qrup alimin Mədinəni Məkkədən üstün bilməsini qeyd edərək belə yazırdı:

"Məkkə Allahın ən fəzilətli şəhəridir. Bundan məqsəd yalnız hərəm və ərəfat adlanan çöldü. Ondan sonra (ən fəzilətli yer) Peyğəmbərin şəhəridir. Oradan da məqsəd təkcə hərəmdir. Ondan sonra (ən fəzilətli yer) Beytülmüqəddəsdir. Bu, alimlərin hamısının nəzəridir. Malik bin Ənəs isə belə deyir: "Mədinə Məkkədən daha fəzilətlidir." Ona təqlid edənlər də sabit rəvayətləri dəlil götürüblər."[1]

Görkəmli təfsirşünas alim Abdullah bin Əbdülbirr əl-Qürtubi də Məkkənin, yoxsa Mədinənin ən fəzilətli yer olması barədə olan ixtilafı qeyd edərkən Malik bin Ənəslə yanaşı, bir çox Mədinə aliminin və bir qrup Bəsrə aliminin Mədinəni Məkkədən üstün bilməsi haqqında yazırdı:

"Əbu Yəhya Zəkəriyya bin Yəhya əs-Saci belə deyir: "İnsanlar Məkkənin Mədinədən üstün olması barədə ixtilaf ediblər. Malik və bir çox Mədinə alimi belə deyir: Mədinə Məkkədən daha fəzilətlidir." Şafei deyir: "Məkkə ən xeyirli bir yerdir. Bu, Əta bin Əbi Rəbahın və məkkəlilərin qəbul etdiyi bir sözdür. Kufə əhli də bu söz barədə eyni fikirdədirlər. Bəsrə əhli isə bu barədə ixtilaf ediblər. Bir qrupu Məkkənin üstün olmasını, digər bir qrup isə Mədinənin üstün olmasını deyiblər."[2]

Həmçinin məşhur və böyük alimlərdən biri olan Qazi İyaz özünün "əş-Şəfa" adlı əsərində Ömər bin Xəttabın, Malikin və bir qrup digər alimin Mədinəni Məkkədən üstün bildiyini qeyd edir. Daha sonra o, Mədinə şəhərinin Məkkə şəhərindən üstün olmasını qəbul etməsə də, Peyğəmbərin qəbrinin yer üzərində ən üstün yer olduğunu və bu məsələdə heç bir əks fikrin olmamasını qeyd edərək yazırdı: "Bu söz Mədinənin Məkkədən üstün olması nəzərinə əsasəndir. Mədinənin Məkkədən üstün olması sözü də Ömər bin Xəttabın, Malikin, əksər Mədinə alimlərinin sözüdür. Məkkə və Kufə alimləri isə Məkkənin Mədinədən üstün olmasını qəbul edirlər. Burada heç bir xilaf yoxdur ki, Peyğəmbərin qəbri yer üzünün ən üstün yeridir."[3]

Peyğəmbərin qəbri Kəbədən üstün olması haqqında Cəlaləddin Süyuti yazırdı: "Ayələr və hədislər göstərir ki, "beyt" (Kəbə evi) ən əzəmətli Mina və Ərəfatdan və digər yerlərdən daha şərəflidir. Peyğəmbərin qəbri istisna olmaqla..."[4]

Gördüyümüz kimi, müsəlman alimlərinin böyük əksəriyyəti açıq şəkildə bəyan etmişlər ki, Kəbə yer üzərinin ən üstün yer olmasına baxmayaraq, Peyğəmbərin mübarək qəbrindən üstün deyil. Əksinə, həmin mübarək qəbir Kəbə evindən üstündür.

İmam Sadiq digər hədislərinin birində belə buyurur: "Allah Kərbəla torpağını Kəbəni yaratmamışdan 24 min il əvvəl yaratmışdı, onu müqəddəsləşdirib mübarək etmişdir. Allah müqəddəs və mübarək yer yaratmamışdan əvvəl oranı mübarək etdmişdi, hətta Cənnətin torpağından da oranı üstün etmişdi. Ən üstün mənzil və məskən Allahın dostlarının yaşadıqları Cənnətdəki yerdir."[5]

İmam Zeynülabidin buyurur: "Allah Kərbəlanı Kəbəni yaratmamışdan 24 min il əvvəl hərəm, əmin yer və mübarək məkan etmişdir. Allah yer üzünü silkələyəndə onu yaydı və ucaltdı, onun torpağını nurlu və saf etdi. Onu Cənnət bağlarından da üstün bağ etdi və onu Cənnətdə ən üstün məskən etdi. Orada peyğəmbərlərdən və mürsəllərdən başqa kimsə sakin olmaz. Ulduzlar yer əhli üçün parlaqlı olduğu kimi ora da Cənnət bağçaları içərisində gül saçır. Kərbəlanın nuru cənnət əhlinin hamısını bürüyür və deyər: "mən Allahın müqəddəs, pak və mübarək yeriyəm hansı ki, şəhidlərin böyüyünü və cənnət cavanlarının rəhbərini özümdə saxlamışam."[6]

---

[1] İbn Həzm əl-Əndəlusi. əl-Mühəlla. VII c. Təhqiq: Ləcnə ihyai-türasil-ərəbi. Beyrut, Beyrut, Darül-afaq, s. 279.

[2] Abdullah bin Əbdülbirr əl-Qürtubi əl-Maliki. əl-İstizkar. Təhqiq: Salim Məhəmməd Əta və b. II c. Beyrut, Darül-kütubil-ilmiyyə, 2000. s. 460.

[3] Əllamə Qazi İyaz Əl-Yəhsubi. əş-Şəfa bitərifi hüquqi Mustəfa. c. II, s. 91.

[4] Cəlaləddin əs-Süyuti. əl-Havi lilfətava fil-fiqh və ülumit-təfsir vəl-hədis vəl-üsul vən-nəhv vəl-irab və sairül-fünun. Beyrut, Darül-kütubil-ilmiyyə, 2000. s. 289.

[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 450-451; Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 42. Hədis № 7148; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 107; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 516.

[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 451. Hədis № 678; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 108; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 323; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 515.

Müaviyə bin Vəhəb rəvayət edir: “Bir gün İmam Cəfər Sadiqin xidmətinə getmişdim, gördüm o həzrət namaz qılmaqla məşğuldur. Onun namazı bitirməsini gözləmək üçün oturdum. İmam namazı bitirdikdən sonra münacat etməyə başladı. O, Allaha belə dua edirdi: Allahım! Biz Əhli-beytə kəramət əta etmisən, Qiyamətdə ümmətin şəfaətini bizə vədə vermisən, risalət elmini bizə verib və bizi Peyğəmbərin varisi qərar vermisən və keçmiş ümmətləri bizimlə xətm etmisən. Keçmiş və gələcək elmləri bizə əta etmisən və bizim vilayətimizi insanlara vacib buyurmusan. Səndən istəyirəm babam İmam Hüseynin məzari-şərifini ziyarətə gələnləri əfv et. Onların günahlarını bağışla. O kəslər ki, evlərindən, yurd-yuvalarından çıxıb ziyarət məqsədi ilə səfərin hər bir əzab əziyyətinə qatlaşaraq var-dövlətindən və canlarından keçirlər, onlara bizim tərəfimizdən mükafat əta elə. Bütün müşkül işlərini həll etməklə onları istəklərinə çatdır. Bu yolda nə qədər xərc etsələr, birə min əvəzini ver. Evdə əhli-əyalını valideynlərini və övladlarını yerin və göyün bəlalarından qoru. Özünü də hər növ xəta-bəladan uzaq, öz amanında saxla, öz evlərinə sağ-salamat getmələrinə kömək et. Özünü və ailəsini insanların vəsvəsələrindən və şeytanın şərrindən uzaq elə. Onların qohum-qardaşlarına və vilayətlərində yaşayan saleh bəndələrə əmin-amanlıq əta et.

O kəslərin ki, ürəklərində babam Hüseynin eşqi var və onun qəbrini ziyarət etmək eşqindədirlər, lakin maneçilik üzündən ziyarət edə bilmirlər o maneləri tezliklə aradan apar. Hüseynin ziyarətinə tərəf istiqamətlənən və onun məzarına sürtünən üzləri Qiyamətdə şəfaət müjdəsi ilə ağ və gülərüz elə. İmamın özünün və əhli-əyalının müsibətinə ağlayan gözləri dünya və axirətdə qəmgin eləmə. Həmçinin bizim müsibətlərimizə yanan ürəklərə rəhm elə, onları Cəhənnəm odunda yandırma. Su içərkən, Kərbəlanın susuz qurbanlarını yad edib, onlara salam və salavat göndərən kəsləri Qiyamətdə Cənnətin müqəddiməsi olan Kovsər suyu ilə sirab elə.

İmam Sadiq bu duaları etdikdən sonra səcdədən başını qaldırdı. Mən ona dedim: Ey movlam! Bu duanı sizdən eşitdikdən sonra qəlbimdə həcdən çox Kərbəlanı ziyarət etmək arzusu yarandı. O, buyurdu: Ey Müaviyə! Səni kim saxlayıb və sənə kim mane olur ki, o böyük şəxsi ziyarət etmirsən? Dedim: Allah məni sənə fəda etsin! Onun ziyarətinin bu qədər fəzilətli olduğunu bilmirdim.

İmam buyurdu: Ey Müaviyə! O həzrəti ziyarət edənlərə göydə daha çox dua edərlər, nəinki yerdə. O ziyarətçilərə Peyğəmbər , İmam Əli , Fatimə , Həsən və digər imamlar dua edərlər. Sən istəməzsən ki, o kəslərdən olasan ki, Qiyamətdə mələklər başları üstündə dolanıb onları mühafizə etmiş olsun? İstəməzsən ki, məhşərə günahlardan təmizlənmiş halda gələsən? Məgər istəməzsən ki, o kəslərdən olasan ki, onun şəfaətçisi babam Peyğəmbər özü olsun? Ey Müaviyə! Əgər istəyirsən dünya və axirət səadətinə yetəsən, özünü belə nemətdən məhrum etmə!”[1]

Peyğəmbər buyurur: “Hər kəs oğlum Hüseyni ziyarət etsə, onun əlindən tutub Cənnətə daxil edərəm.”[2]

Həmçinin Peyğəmbər buyurur: “Oğlum bir yerdə dəfn ediləcəkdir ki, ora Kərbəla deyirlər: Kərbəla bir yerdir ki, İslamın qübbəsi oradadır. Allah Nuha iman gətirən möminləri tufandan orada nicat verdi.”[3]

Bu hədisə uyğun hədisi İmam Sadiq də rəvayət edir: “Ğaziriyyə bir bölgədir ki, Allah Musa bin İmranla orada danışmış və Nuha orada nicat vermişdir. Ora Allahın ən hörmətli yeridir. Əgər bu belə olmasaydı, Allah öz dostlarını və Peyğəmbərinin övladlarını orada qoruyub mühafizə etməzdi. Bizim qəbirlərimizi orada ziyarət edin.”[4]

İmam Baqir buyur: “Hər kəs Ərəfə gecəsini Kərbəlada keçirsə və orada qalsa, Allah həmin ilin şər işlərini ondan uzaqlaşdırar.”[5]

İmam Sadiq buyurur: “Kərbəlanı ziyarət edin, oranın zyarətini kəsməyin. Çünki o peyğəmbərlərin ən xeyirli övladlarını özündə saxlamışdı. Bilin ki, mələklər Kərbəlanı babam

[1] Hacı Əbdürrəhman Yusifpur. Məşhəd və Kərbəla ziyarəti. s. 49-50.
[2] Hacı Əbdürrəhman Yusifpur. Məşhəd və Kərbəla ziyarəti. s. 46.
[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 452. Hədis № 682; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 109; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 324.
[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 452. Hədis № 680; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 106; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 324.
[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 452. Hədis № 683; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 90; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 287.

Hüseyn orada sakin olmamışdan min il əvvəl ziyarət etmişlər. Elə bir gecə yoxdur ki, Cəbrail və Mikail oradan keçib oranı ziyarət etməsinlər. Ey Fəzl bin Yəhya, çalış ki, o vətəni itirməyəsən!"[1]

İmam Sadiq buyurur: "Hüseynin qəbri hər tərəfdən iyirmi beş fərsəxdir. O Cənnət bağçalarından bir bağçadır. Onun hərəmi hər tərəfdən bir fərsəxdir."[2]

Digər bir hədisdə deyilir: "Hüseynin qəbri dörd tərəfdən beş fərsəxdir. Ora yer üzünün ən pak yeridir. Oranı şəban ayının yarısında peyğəmbər , o cümlədən dünyanın hər yerinə peyğəmbər göndərilmiş Ulul-Əzim peyğəmbərlər Allahdan Hüseyni ziyarət etmək üçün icazə alarlar."[3]

İmam Sadiq digər bir hədisində buyurur: "Əgər bir şəxs evindən İmam Hüseyni ziyarət etmək üçün çıxarsa, hər tərəfindən onu yeddi yüz mələk müşayət edər və onu əmin olduğu yerə çatdırarlar. Hər kəs Kərbəlada qalsa, onun hər günü min ay hesab olunar, onun orada xərclədiyi bir dirhəm min dirhəmin əvəzi olar. Hüseynin qəbri yanındakı bərəkət on qat zənginlikdir."[4]

İmam Əli Kərbəladan keçərkən şəhidlərin düşəcək yerlərinə baxıb buyurdu: "Burada iki yüz Peyğəmbərin , iki yüz vəsinin və iki yüz peyğəmbər nəvəsinin canı alınıb, onların hamısı şəhiddirlər..."[5]

İmam Sadiq buyurur: "Allah yartdığı yerlərin və suların bəzisini digərinə nisbətən üstün yaratmışdır. Onlardan bəziləri buna görə fəxr etmiş, digərləri isə həddi aşıb üsyan etmişlər. Elə bir yer və elə bir su yoxdur ki, Allaha qarşı təvazökarlığını tərk etdikdə Allah onu cəzalandırmasın. Hətta Allah müşrikləri Kəbəyə hakim etmiş, Zəmzəmin isə tamını dəyişərək onu şor suya çevirmişdir. Kərbəla torpağı və Fərat çayı ilk yer və ilk sudur ki, Allah onları müqəddəs etmiş və onları bərəkətli qılmışdır. Onlara Allah demişdir: mənimlə danışın! Allah yerlərə və sulara üstünlük verdiyindən onlar bir-birləri ilə fəxr edirdilər. Kərbəla dedi: "Mən Allahın müqəddəs və mübarək torpağıyam, mənim torpağım və suyum şəfadır və mən heç bir fəxr etmirəm. Əksinə mən bununla məni yaradana və mənə üstünlük verənə qarşı təvazökar və zəliləm. Məndən başqalarına qarşı da fəxrlənmirəm, Allah onlara üstünlük verdiyindən ona şükürlər edirəm. Onun şükrünə görə Allah onun fəzilətlərini daha da artırdı, ona Hüseyn və əshabını nəsib etdi."[6]

İmam Sadiq digər bir hədisində buyurur: "Hüseyn bin İmam Əli Kərbəlada basdırılandan onun qəbri Cənnət bağlarından birinə çevrilmişdir. Onun qəbrinin yeri Cənnətin yüksək bağlarından biri olmuşdur."[7]

Digər bir hədisdə İmam Sadiq yaxın tərəfdarlarına tövsiyə edərək buyurur: "...bal və zəfəran al, sonra da Hüseynin qəbrinin torpağından götür. Onu yağış suyu ilə qarışdır və şiələr arasında onu payla ki, xəstələrinizə onunla şəfa verəsiniz."[8]

İmam digər bir hədisində buyurur: "Hüseynin qəbrinin torpağı hər bir xəstəliyə şəfadır."[9]

Həmçinin İmam buyurur: "Hüseynin qəbrinin torpağı hər bir xəstəliyə dərmandır, o ən böyük şəfadır."[10]

"Hər kəsə xəstəlik üz versə, Hüseynin qəbrinin torpağından götürsün. Allah ona o torpağla şəfa verər, yalnız bunda ölüm istisnadır."[11]

---

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 452. Hədis № 684; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 109; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 261.

[2] Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 295.

[3] Həmin mənbə.

[4] Həmin mənbə.

[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 453. Hədis № 686; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 116; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 516; Şeyx ət-Tusi. Təhzibül-əhkam. VI c. s. 42. Hədis № 7149.

[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 455. Hədis № 690; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 109; Hur Amili. Vəsailüş-şiə. XIV c. s. 516; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 324.

[7] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 456. Hədis № 691; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 111; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 324; Şeyx əs-Səduq. Səvabül-əmal. s. 120.

[8] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 461. Hədis № 700; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 123; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 330.

[9] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 461. Hədis № 701; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 123; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 330; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 526 .

[10] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 462. Hədis № 702; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 123.

[11] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 463. Hədis № 704; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 124, 131; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 526.

Bir ravi rəvayət edir ki, məni İmam Rza ilə birlikdə Xorasana göndərdilər. Mən İmamın paltarında torpaq gördüm. Ondan bunun nə olduğunu soruşdum. O, dedi: bu Hüseynin qəbrinin torpağıdır... Bu torpaq Allahın izni ilə əmin-amanlıqdır."[1]

İmam Sadiq buyurur: "Hüseynin olduğu torpaq hər bir xəstəliyə şəfa, hər bir qorxuya qarşı isə əminlikdir."[2]

İmam digər bir hədisində buyurur: "Əgər xəstə möminlərdən biri Hüseynin hörmətini və vilayətini tanıyarsa, onun qəbrinin torpağından götürərsə, o torpaq ona dərman və şəfa olar."[3]

Yunis bin Rəfi İmam Sadiqdən rəvayət edir: "Hüseyn bin Əlinin qəbrinin baş tərəfində qırmızı torpaq vardır. Onda ölümdın başqa hər bir dərdə şəfa vardır."

Yunis deyir: "Mən bu hədisi eşitdikdən sonra qəbrin yanına gəldim və onun baş tərəfindən qazdım. Biz bir dirsək qazmışdıq ki, sulu qum kimi bir dirhəm miqdarında qırmızı torpaq çıxdı. Biz bu torpağı Kufəyə gətirdik və onu arışdırıb bizim yanımıza gələn insanlara onunla müalicə etdik."[4]

İmam Sadiq buyurur: "Hüseynin qəbrinin torpağı qəbrin yanından 70 dirsək miqdarında məsafəyə qədər götürülər."[5]

İmam Sadiq buyurur: "Əgər sizlərdən biriniz Hüseynin qəbrinin torpağından dərman kimi istifadə etmək üçün götürsə, bu sözləri desin: Allahım səni and verirəm dərman etdiyin bu torpağın haqqına, ona müvəkkil etdiyin, onu qazan mələyin və orada olan vəsinin haqqına! Allahım Məhəmməd və Ali Məhəmmədə salavat və salam göndər!. Bu torpağı mənim üçün hər bir dərdə dərman et və hər bir qorxuya əminlik ver!"[6]

İmam digər bir hədisində isə buyurur: "Hüseynin torpağı hər bir dərdə şəfadır. Ondan yedikdə gərək deyəsən: Bismillahi və Billahi, Allahım onu geniş ruzi, faydalı elm, hər bir dərdə dərman et. Həqiqətən sən hər şeyə qadirsən."[7]

İmam digər bir hədisində buyurmuşdur: "Hər bir torpaq donuz əti kimi haramdır, hər kəs torpaq yeyib ölərsə, mən ona namaz qılmaram. Yalnız Hüseyn bin İmam Əlinin torpağından başqa. Onda hər bir dərdə şəfa vardır. Hər kəs ondan ehtirasla yeyərsə, ona da şəfa yoxdur."[8]

Həmçinin buyurur: "Hər bir torpaq Adəm övladına haramdır, yalnız İmam Hüseynin torpağından başqa. Hər ağrısı olduğu halda ondan yesə, Allah ona şəfa verər."[9]

İmam buyurur: "Hər kər kəs Hüseynin qəbrinin torpağından satsa, sanki o, Hüseynin ətini alıb-satmışdır."[10]

İmam digər bir hədisində buyurur: "Həqiqətən Allah Adəmi torpaqdan yaratmışdı və buna görə də o torpağı onun övladlarına haram etmişdir. İmamın səhabəsindən biri soruşdu: "Bəs Hüseynin torpağı haqqında nə deyirsiniz? İmam buyurdu: insanlara onların əti haram, bizim ətimiz isə halaldır. Ancaq ondan noxud qədər olar."[11]

Bu hədisdə keçən "bizim ətimiz" ifadəsini görkəmli hədisşünas İbn Quləveyh belə izah edir: "Mənə elə gəlir ki, bu ifadə onu göstərir ki, həqiqətən imamların torpağı müqəddəs Kərbəla

---

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 466. Hədis № 707; Şeyx ət-Tusi. Təhzibül-əhkam. VIII c. s. 40; Şeyx ət-Tusi. əl-İstibsar. III c. s. 279; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 124; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 524.

[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 467; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 125.

[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 467. Hədis № 712; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 122; Hürr əl-Amili. Vəsailüş-şiə, XIV c. s. 530.

[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 468. Hədis № 713; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 125; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 331.

[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 468-469. Hədis № 714; Əllamə əl-Məclisi. CI c. s. 130; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 511; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 333.

[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 469. Hədis № 716; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 127; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 340.

[7] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 476. Hədis № 725; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 129; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 341.

[8] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 478. Hədis № 728; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 129; Şeyx əs-Səduq. İlələüş-şərai. s. 532.

[9] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 479. Hədis № 731; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 130.

[10] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 479. Hədis № 732; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 130.

[11] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 479. Hədis № 730; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 130; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 528.

torpağından yaradılmışdır...” Bu torpağın Kəbə torpağından 24 min il əvvəl yaranması yuxarıdakı hədislərdə qeyd edilib. Onun Cənnət bağlarından da üstün olması, onun bağları içində gül kimi, parlaq ulduz kimi olması, orada peyğəmbərlərin və mürsəllərin olması da bu torpağın üstünlüyünə şahiddir.

Hədisi-şəriflərdə İmam Hüseyni digər bütün peyğəmbərlərin də ziyarət etmələri haqqında məlumat vardır. Bu haqda İmam Sadiq buyurur: “Göylərdə elə bir peyğəmbər yoxdur ki, o Hüseyni ziyarət etmək üçün Allahdan icazə istəməsin. Onlar dəstə-dəstə nazil olar, dəstə-dəstə qalxarlar.”[1]

Əbu Həmzə əs-Sumali rəvayət edir: “Bəni-Mərvanın hakimiyyət illərinin sonlarında Hüseyn bin Əlini ziyarət etmək üçün çıxdım. Kərbəlaya çatanadək Şam əhlindən bərk qorxu keçirirdim. Mən şəhərin yaxınlığında gizləndim. Gecədən xeyli keçmiş qəbirə tərəf üz tutdum. Ona yaxınlaşmışdım ki, bir kişi ilə rastlaşdım. O, mənə dedi: “Sən geri dön, ora getmirsən.” Mən geri qayıtdım və bir azdan səhər açılacaqdı. Mən qəbirə tərəf getdim, ona az qalmışdım ki, bir kişi çıxıb dedi: “Ey şəxs, bu sənin gəldiyin yer deyil.” Mən ona dedim: “Allah səni bağışlasın! Niyə görə ora yetişmirəm? Məgər mən Kufədən gəlmirəm? Onun ziyarətini istəyirəm. Onunla mənim aramda heç bir maneə yoxdur. Qorxuram səhər açıla və məni Şam əhli öldürə. Bura haradır? Mənə başa sal!” O, dedi: “Bir az səbir et, Musa bin İmran Allahdan Hüseyn bin Əlini ziyarət etmək üçün icazə alıb və ona icazə verilib. O, göydən 70 min mələklə enəcək sübhədək orada olub səhər göyə qalxacaqlar.”

Mən o şəxsə dedim: “Allah səni bağışlasın! Sən kimsən? O, dedi: “Mən Hüseynin qəbrini qoruyan və onun zəvvarlarına istiğfar diləyən mələklərdənəm.”[2]

Səffan əl-Cəmmal rəvayət edir: İmam sadiq Hirrəyə gəldikdə dedi: “Hüseyn bin Əlinin ziyarətinə gedirsinizmi?” Dedim: “Siz ziyarətə gedirsiniz?” İmam buyurdu: “Necə ziyarətə getməyəm? And olsun Allaha! Onu hər gecə Mələklər, peyğəmbərlər, vəsilər ziyarət edirlər... Onu ziyarət et. Bu ən böyük üstünlükdür.”[3]

6. 10. Hədisi-şəriflərdə İmam Hüseynə ağlamağın savabı

Bütün İslami qaynaqlarda İmam Hüseynə ağlamağın savabı haqqında hədislər vardır. Buna görə də alimlərimiz İmam Hüseynə ağlayıb matəm saxlamağı caiz bilmiş və bu işin savab olduğu görüşündədirlər. Çünki Peyğəmbər öz əmisi Həmzə Ühüd döyüşündə şəhid olduqda ona ağlamış və ona əza saxlamışdı.[4]

İmama ilk ağlayan şəxs Peyğəmbər və Cəbrail olmuşdur. Məşhur İslam alimi Əhməd bin Hənbəl rəvayət edir: “İmam Əli Siffin döyüşünə gedərkən Kərbəla ərazisində dayandı. O, buranın hara olduğunu soruşduqda dedilər: “Bura Neynəvadır.” İmam Əli dedi: “Səbir et ey Əba Ədillah! Səbir et ey Əba Əbdillah!” Ona dedilər: “Nə baş verir?” O, dedi: “Bir gün Peyğəmbərin yanına daxil oldum və onu gözü yaşlı gördüm. Dedim səni kim qəzəbləndirib ki, gözlərindən belə yaş gəlir, ya Rəsulallah?” Dedi: “Cəbrail mənim yanımda idi. O, mənə dedi ki, Hüseyni Fəratın sahilində öldürəcəklər. Onun türbəsindən iyləmək istəyirsənmi?” Dedim: “Bəli.” O, əlini uzadıb o torpaqdan götürdü mənə verdi. Buna görə gözlərim yaşarıb.”[5]

Digər bir hədis ümmülmöminin Aişədən rəvayət olunur: “Peyğəmbərə vəhy nazil olan zaman Hüseyn bin Əli Peyğəmbərin yanına daxil olub onun kürəyinə çıxdı. Cəbrail dedi: “Ya Məhəmməd! Onu çox istəyirsənmi?” Peyğəmbər buyurdu: “Ey Cəbrail! Ondan sevimli mənim üçün heç nə yoxdur.” Cəbrail dedi: “Onu səndən sonra ümmətin öldürəcəkdir.” Sonra Cəbrail əlini uzadıb ona ağ torpaq verdi və dedi: “Bu torpaq Tif ərazisindəndir, sənin oğlunu bu torpaqda öldürəcəklər.” Cəbrail getdikdən sonra Peyğəmbər evdən çıxdı. O, əlindəki torpağa baxıb ağlayırdı. O, deyirdi:

---

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 220. Hədis № 323; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 59; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 244.

[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 221. Hədis № 324; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 59; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 405.

[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 222-223. Hədis № 326; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 60.

[4] Hakim ən-Nisaburi. əl-Müstədrək aləs-səhiheyn. III c. s. 218; I c. s. 537. Hədis № 1407; Nuriddin Əli bin Əbi Bəkr əl-Heysəmi. Məcməüz-zəvaid. VI c. s. 118-119; Əbu Bəkr əl-Kinani. Misbahüz-zücacə. II c. s. 48; Şərhu məanil-asar. IV c. s. 293; Müsnədüş-Şaşi. II c. s. 413; Təbərani. Möcəmül-kəbir. III c. s. 142.

[5] Müsnədi-Əhməd. I c. s. 86. Hədis № 658; Hənbəli Müqəddəsi. əl-Əhadisül-muxtarə. II c. Məkkə çapı, s. 375. Hədis № 758; Nuriddin Əli bin Əbi Bəkr əl-Heysəmi. Məcməüz-zəvaid. IX c. Beyrut, 1408/1988. s. 187-188.

“Ey Aişə! Cəbrail mənə xəbər gətirdi ki, Tif adlı yerdə oğlumu öldürəcəklər.” Sonra Peyğəmbər ağlaya-ağlaya səhabələrinin yanına getdi. Orada Əli , Əbu Bəkr, Ömər, Hüzeyfə, Əmmar və Əbuzər var idi.

Onlar dedilər: “Sənə nə olub, ey Allahın Rəsulu?” Peyğəmbər buyurdu: “Həqiqətən oğlum Hüseyn məndən sonra Tif adlı yerdə qətlə yetiriləcəkdir, bu da onun torpağındandır. Mənə xəbər verildi ki, o, orada düşüb qalacaqdır.”[1]

Peyğəmbərin digər bir xanımı olan Ümmü-Sələmə deyir: “Bir gün Peyğəmbər mənim evimdə idi. O, mənə dedi: “Heç kəsi yanıma buraxma. Mən oturub gözləyirdim ki, birdən Hüseyn gəldi.” Bu vaxt mən Peyğəmbərin içini çəkərək hönkürtü ilə ağlamağını eşitdim. Bunun səbəbini bilmək üçün tez onun yanına getdim. Bu zaman Hüseyn onun otağında idi və Peyğəmbər əlini onun çiyninə çəkərək ağlayırdı.” Dedim: “Ey Allahın Rəsulu, and olsun Allaha! Xəbərim olunca Hüseyn qaçıb yanına girmişdi.” Peyğəmbər buyurdu: “Cəbrail burada bizimlə birlikdə idi və mənə dedi: “Hüseyni sevirsənmi?” Dedim: “Dünyada o necə də gözəl övladdır!” Cəbrail dedi: “Sənin ümmətin onu Kərbəla adlı yerdə qətlə yetirəcəklər. Sonra o, oranın torpağından mənə verdi.”[2]

Bu qeyd etdiyimiz hədislərə uyğun digər hədislər aşağıdakı qaynaqlarda da rəvayət edilimişdir.[3]

Şübhəsiz ki, Peyğəmbərin İmam Hüseynə ağlaması və onun müsibətinə qəmgin olması bu işin ümmət içərisində caiz olması ilə yanaşı, sünnəyə çevrilməsini də qanuniləşdirir. Çünki Quran: **“Peyğəmbər sizə nəyi verirsə, onu götürün və nədən çəkindirirsə, ondan çəkinin”,**[4] deyir. Deməli, bu ayənin hökmünə əsasən İmam Hüseynə ağlamaq və onun matəmində qəmgin olmaq dolayı yolla Qurani-Kərimin göstərişlərindəndir. Buna görə də hər il məhərrəm ayında Əhli-beytə yas saxlamaq və əzadarlıq etmək təkid olunmuş müstəhəbb əməllərdən hesab olunur. Həmçinin digər mötəbər hədislər bütün məxluqatın İmam Hüseynə əza saxlayıb ağladıqlarından xəbər verir. Bu haqda İmam Baqir buyurur:

“İnasanlar, cinlər, quşlar və vəhşilər hamılıqla gözlərindən yaş tökülənədək İmam Hüseynə ağladılar.”[5]

İmam Sadiqdən Hüseyn bin Əliyə Aşura günü əza saxlamağın səbəbləri haqqında soruşulduqda, Həzrət buyurdu: “Doğrudan da Hüseynin müsibətli günü ən böyük müsibətli gündür. Allahın yaratdıqları içərisində beş nəfər olan Ali-Əba ən üstün və ən fəzilətli yaranmışlardır ki, Hüseyn də onların sonuncusu idi. Hüseyndən başqa insanlar içərisində o beş nəfərdən heç kimsə qalmamışdı. Onun qətlə yetrilməsi digər Ali-Əbanın qətlə yetrilməsinə bərabərdir.”[6]

İmam Əli buyurur: “And olsun ata-anamın canına! Hüseyn Kufənin yaxınlığında qətlə yetiriləcəkdir. Vallahi, sanki mən vəhşiləri boğazlarını ora tərəf uzadıb onun qəbri üstündə oduqlarını görürəm. Onlar Hüseynə ağlayır, ona gecədən sübhədək mərsiyə deyirlər.”[7]

İmam Sadiq buyurur: “Hüseyn bin İmam Əli şəhid edilərkən, ona yeddi qat göy, yeddi qat yer və onların arasında olan hər bir şey ağladı. Ona Cənnət, Cəhənnəm, Rəbbimizin yaratdığı hər bir şey, hətta bizim gördüyümüz və görmədiyimiz varlıqlar ağladılar.”[8]

İmam digər bir hədisində buyurur: “Hüseyn bin Əli şəhid edildikdə, ona Allahın bütün yaratdıqları ağladılar. Ona yalnız üç şey ağlamadı. Onlar Bəsrə, Dəməşq və Ali-Osman idi.”[9]

İmam Sadiq digər bir hədisində buyurur: “Ey Zürarə! Hüseyn bin Əliyə 40 sabah göylər qan ağladılar. Yer ona 40 sabah qara ağladı. Günəş ona 40 sabah batmaqla qırmızı ağladı. Dağlar

---

[1] Nuriddin Əli bin Əbi Bəkr əl-Heysəmi. Məcməüz-zəvaid. IX c. s. 187-188.
[2] Nuriddin Əli bin Əbi Bəkr əl-Heysəmi. Məcməüz-zəvaid. IX c. s. 187.
[3] Müsənnəfu İbn Əbi Şeybə. V c. s. 477-478. Hədis № 37366; Müsnədul-Bəzzar. III c. s. 101; Müsnədi Əbi Yəla. I c. s. 298; İbn Əbi Asim. əl-Ahad vəl-məsani. ər-Riyad. Darüd-dirayə, I çap, 1411/1991. I c. s. 308; Mucəmilt-Təbərani. III c. s. 105. XXIII c. s. 289. Hədis № 637; Hakim ən-Nisaburi. əl-Müstədrək. III c. s. 194. Hədis № 4818.
[4] əl-Həşr surəsi, ayə 7.
[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 165. Hədis № 212; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 201.
[6] Şeyx əs-Səduq. İlələüş-şərai. s. 225.
[7] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 165-166. Hədis № 214; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 205.
[8] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 166. Hədis № 215; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 205.
[9] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 166. Hədis № 217; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 206; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 312.

aralanıb silkələndi. Dənizlər tələtümə gəldi. Mələklər 40 gün Hüseynə ağladılar. Biz Əhli-beytdən heç kimsə Abdullah bin Ziyadın başı bizə gətirilənədək xına qoymadı. Heç bir qadınımız bəzənib sürmə çəkmədi və heç bir yerə getmədi. Ondan sonra bizə belə hadisə baş verməyib. Babam bu müsibətə saqqalı islananadək ağlayardı. Onun ağlamağı digərlərini də ağladardı...

Onun qəbri kənarında olan mələklər ağlayırlar və həm də havada və səmada olan mələkləri ağladırlar. Hüseynin ruhu bədənindən çıxanda Cəhənnəm elə ah çəkdi ki, az qaldı yer onun ahından parça-parça olsun. Übeydullah bin Ziyadla Yezid bin Müaviyənin canı çıxanda isə Cəhənnəm elə dərindən nəfəs aldı ki, əgər Allah onu öz yerində tutub saxlamasaydı, yer üzündə onun havasından yanmamış varlıq qalmazdı. Əgər ona icazə verilsəydi, o hər şeyi udacaqdı. Lakin o buxovlanıb saxlanıldı. Cəhənnəm bir dəfə ona nəzarət edənin əmrindən çıxdı və hətta Cəbrail öz qanadları ilə ona vurduqdan sonra sakit oldu. O Hüseynə çox ağlayır və onun fəzilətlərini sayırdı. O Hüseynin qatilinin eşqindəydi. Əgər yer üzündə Allahın höccəti olmasaydı, yer üzü məhv olardı və onun üstündəkilər alt-üst edilərdi. Hətta Qiyamətədək zəlzələlər dayanmazdı.

Allaha Hüseynə ağlayan gözdən sevimli göz yoxdur. Elə bir ağlayan şəxs yoxdur ki, onun tökdüyü göz yaşı Fatimə Zəhraya və Peyğəmbərə yetişməsin.. O, şəxs dirildilib məhşərə gətirilərkən, onun gözü aydın, xoş xəbərlə gələr. Onun sevinci üzündən bilinər. Onun pis hesabdan heç bir qorxusu omaz. Belə şəxslərə deyilər: "Cənnətə daxil olun!"[1]

Əbu Bəsir rəvayət edir: "Mən İmam Sadiqin yanında idim və onula söhbət edirdim. Bu vaxt onun oğlu içəri daxil oldu. İmam ona dedi: "Xoş gəlmisən!" Sonra onu öpüb qucaqladı və dedi: "Sizi təhqir edəni Allah təhqir etsin, sizi tərk edəndən Allah özü intiqam alsın, sizi xəcil edəni Allah xəcil etsin, sizi öldürənə Allah lənət etsin. Allah sizin rəhbəriniz, sizi qoruyan və sizə kömək olandır. Artıq qadınların, peyğəmbərlərin , siddiqlərin, şəhidlərin və səmanın mələklərinin ağlamaqları ucalmışdır.

İmam sonra ağladı və dedi: "Ey Əbu Bəsir! Mən Hüseynin övladına baxdıqda, mənə onun atasına və özlərinə gələn müsibətlərə görə malik ola bilməyəcəyim hallar gəlir. Ey Əbu Bəsir! Həqiqətən Fatimənin ağlamağına Cəhənnəm tələtümə gəlib elə ağladı ki, əgər o öz mənsub olduğu yerdən çıxsaydı, onun ağlamağını eşidərdilər. Onun alovunun və tüstüsünün qabağını aldılar, yoxsa yer əhlini yandırıb məhv edərdi. Fatimə sakit olmayanadək Cəhənnəm sakit olmadı.

Dənizlər az qaldı ki, yarılıb bir-birlərinə qarışsın. Onların hər bir damcısına bir mələk vəkil edilmişdir. O mələk dənizin səsin eşitcək, öz qanadları ilə onun odunu söndürürdü. Mələklər onların ağlamağına ağlayırdılar. Ərşin bütün mələkləri Allahın təqdis edib ona yalvarırdılar və yer əhlinin əhvalından qorxub onlar üçün bağışlanma diləyirdilər. Əgər onların səsi yer əhlinə yetişsəydi, oranın əhli həlak olardı, dağlar parçalanar, zəlzələlər isə yer əhlinə aman verməzdi."

Dedim: "Sənə fəda olum! Bunlar çox təəccüblü xəbərlərdir." O, dedi: "Bundan da daha təəccüblü xəbərlər vardır ki, onları sən eşitməmisən. Ey Əbu Bəsir! İstəmirsən ki, Fatiməyə kömək edənlərdən olasan?" O, bunları dedikdə, məni ağlamaq tutdu..."[2]

Müfəzzəl bin Yəsar rəvayət edir: "İmam Sadiq bizə dedi: "Sizə nə olub ki, Hüseynin ziyarətinə getmirsiniz? Dörd min mələk Qiyamətədək onun qəbri kənarında ağlayarlar."[3]

İmam Sadiq buyurur: "Dörd min mələk nazil olub İmam Hüseynlə birlikdə cihad etmək istədilər. Lakin onlara icazə verilmədi. Onlar icazə üçün göyə yüksəldilər, lakin qayıdanda İmamın artıq şəhid olduğunu gördülər. Onlar onun qəbri kənarında qalıb Qiyamətədək ağlamaqla məşğul olacaqlar. Onların başçısı əl-Mənsur adlı mələkdir."[4]

İmam digər bir hədisində buyurur: "Allah dörd min mələk Hüseynin qəbrinə təyin etmişdir ki, Qiyamətədək orada başlarına torpaq ələyib ağlasınlar."[5]

---

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 166-167-168. Hədis № 219; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 207; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 313.

[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 169-171. Hədis № 220; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 208; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 314.

[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 171. Hədis № 221; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 222.

[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 172. Hədis № 222; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 220.

[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 173. Hədis № 227; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 222.

“Allah yetmiş min mələk Hüseynin qəbrinə müvəkkil etmişdir ki, Qiyamətədək başlarına torpaq ələyib ağlasınlar və orada namaz qılsınlar. Onların qıldıqları bir namaz Adəm övladının qıldığı min namazdan üstündür. Onların qıldıqları namazların savabı oranı ziyarət edənlər üçündür.”[1]

“Allah dörd min mələk Hüseynin qəbrinə təyin etmişdir ki, ona ağlasınlar və oranı ziyarətə gələnlər üçün bağışlanma diləsinlər. Allah da onların dualarını eşidəndir.”[2]

“İmam Əli “**Onlar ötrü nə göy, nə də yer ağladı. Onlara imkan da verilmədi**»[3] ayəsini oxuyan zaman, Hüseyn məscidin qapısından daxil oldu. İmam Əli onu görcək dedi: “Xəbərdar olun, bu qətlə yetiriləcək və ona göylər və yerlər ağlayacaq.”[4]

İmam Sadiq buyurur: “Göylər Hüseyn bin Əliyə və Yəhya bin Zəkəriyyəyə ağladılar. Göylər bu iki şəxsdən başqa heç kimsəyə ağlamamışlar. İmama dedilər: “Onlar necə ağladılar?” Həzrət buyurdu: “Onlar qırx gün bir yerdə dayanıb durdular, Günəş qırmızı halda çıxır və qırmızı halda batırdı. Bu onların ağlamaqları idi.”[5]

“Yəhya bin Zəkəriyyəni və Hüseyn bin Əlini qətlə yetirən şəxs zinadan əmələ gəlmişdir. Göylər bu iki şəxsdən başqa heç kimsəyə ağlamayıb.”[6]

İmam Zeynülabidin buyurur: “Mömin bir şəxs Hüseyn bin Əliyə ağlayarkən onun göz yaşları üzünə çatmamış Allah o şəxs üçün Cənnətdə bir bina edər...”[7]

İmam Sadiq buyurur: “Hüseyn bin Əlinin əhvalından başqa digər şeylərə ağlamaq və səbir etməyib tələş keçirmək xoşagəlməzdir. Amma Hüseyn üçün bunları etməyin savabı vardır.”[8]

“Hər kəsin yanında Hüseyn bin Əlinin adı çəkilərsə və bunun da nəticəsində milçəyin qanadı qədər onun gözlərindən yaş çıxarsa, onun savabını Allah verəcəkdir və onu Cənnətdən başqa bir şey razı salmaz.”[9]

İmam Zeynülabidin buyurur: “Hər kəsin bizə görə gözlərindən bir damcı yaş axarsa, Allah ona Cənnətdə bir otaq bağışlayar ki, orada yaşasın.”[10]

İmam Rza buyurur: “Aşura günü hər kəsin müsibətli, hüznlü və ağladığı gün olsa, Allah Qiyamət gününü o şəxs üçün sevinc və şadlığ günü edəcəkdir.”[11]

İmam digər bir hədisində buyurur: “Ağlayanlar Hüseyn bin Əliyə ağlasınlar. Ona ağlamaq böyük günahları aradan aparır. Elə ki, məhərrəm ayı girərdi heç kəs mənim atamı gülən görməzdi. On gün keçənədək hüzn və qəm-kədər ona hakim olardı. Aşura günü olduqda isə, onun qəm-kədəri daha da artıq olardı və deyərdi: “Bu bir gündür ki, bu gündə Hüseyn şəhid edilmişdir.”[12]

“Ey İbn Şəbib! Ağlamalı olsan Hüseyn bin Əliyə ağla. Çünki, onu qoçun başını kəsdikləri kimi kəsdilər və onunla birlikdə Əhli-beytindən on səkkiz nəfəri öldürdülər. Yer üzündə onların müsibətinə oxşayan heç bir müsibət olmamışdır.”[13]

İmam Əli buyurur: “Qiyamət günü Allahın ehtiram göstərdiyi, Hüseynə və Ali-Əbaya ağlayan gözlərdən başqa bütün gözlər bərələcək və ağlayacaqdır.”[14]

İmam Sadiq Cəfər bin Əffan ət-Taiyiə buyurdu: “Eşitmişəm Hüseyn bin Əlinin haqqında şeir yazırsan?” İbn Əffan dedi: “Allah məni sənə fəda etsin! Bəli, yazıram.” İmam dedi: “Onun haqqında şeir yaz.” O, bunu deyərkən göz yaşları üzünü və saqqalını islatdı.”[1]

---

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 176. Hədis № 237; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 56.

[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 176. Hədis № 238; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 57; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 244.

[3] əd-Duxan surəsi, ayə 29.

[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 180. Hədis № 241; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 209.

[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 181. Hədis № 246; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 210.

[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 185. Hədis № 258; Əllamə əl-Məclisi. Biharül-ənvar. CI c. s. 74; Şeyx əs-Səduq. Səvabül-əmal. s. 87.

[7] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 201. Hədis № 285; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 281.

[8] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 202. Hədis № 286; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 291.

[9] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 202. Hədis № 287; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 281.

[10] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 202. Hədis № 288; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 281.

[11] Şeyx əs-Səduq. İləlüş-şərai. s. 225.

[12] Hürr əl-Amili. Vəsailüş-şiə. X c. s. 394.

[13] Şeyx əs-Səduq.Üyuni əxbarir-Rza (ə). I c. s. 299.

[14] Şeyx əs-Səduq. əl-Xisal. s. 625.

İmam digər bir hədisində buyurur: “Hər kəs Hüseyn haqqında bir beyt şeir desə, onunla ağlayıb ağlatsa, ona on savab verilər və onun üçün Cənnət vardır.”[2]

Məsmə bin Əbdülməlik əl-Bəsri deyir: “İmam Sadiq mənə dedi: “Ey Məsmə! Sən İraq əhlindənsən, heç olmasa Hüseynin qəbrinin ziyarətinə getmisənmi?” Dedim: “Xeyr! Mən Bəsrə əhli yanında məşhur bir adamam, bizim içimizdə bu xəlifəyə tabe olanlar vardır və həm də bizim düşmənlərimiz çoxdurlar. Mən onlardan əmin deyiləm və mənim vəziyyətimi Süleymanın oğluna çatdırmaqlarından ehtiyatlanıram.” İmam dedi: “Heç olmasa Hüseynin başına gətirilən müsibəti xatırlayıb qeyd edirsənmi?” Dedim: “Bəli!” Dedi: “Buna görə qəmlənib-kədərlənir və hüzn keçirirsənmi?” Dedim: “Bəli, And olsun Allaha! Ailəm mənim bu əhvalımın izini üzümdən görür, mən hətta yemək-içməkdən belə imtina edirəm və bunun da əsəri üzümdən hiss olunur.” İmam dedi: “Allah sənin göz yaşlarına rəhmət etsin! Əgər sən bizə görə qəmli-kədərli olsan, bizim sevincimizə sevincli, hüznmüzə isə hüznlü olsan və bizim qorxumuzla qorxsan, əminliyimizlə də əmin olsan, sən ölən zaman mənim ata-babalarım ölüm mələyi ilə sənlə birlikdə olacaq. Bundan böyük müjdə yoxdur. Ölüm mələyi sənə qarşı anasının övladına qarşı davrandığından da çox nəzakətli davranacaq.”

Məsmə deyr: “İmam sonra göz yaşları tökdü və mənim də gözlərim yaşardı və dedi: “Ey Məsmə! Şükr olsun Allaha ki, yaratdıqları içərisində bizi üstün etdi və xüsusilə də biz Əhli-beytə rəhmət etdi. Ey Məsmə! Həqiqətən yer və göy Əmirəlmöminin qətlə yetiriləndən bəri ağlamaqdadır və bu bizim üçün rəhmətdir. Mələklər bizim üçün ağlayırlar, biz qətlə yetiriləndə onların göz yaşları axır. Hətta biz Allahın görüşünə getdikdə, onların göz yaşları axmağa başlayır. Əgər onların tökdükləri göz yaşlarından bir damcı Cəhənnəmə düşsə, Cəhənnəmin odu sönər, hətta orada od belə qalmaz. Bizim üçün qəlbi ağrıyan kimsə ölən zaman bizimlə görüşər, qəlbi sevinər və bizimlə birlikdə Kovsər hovuzunun kənarında olar...”[3]

Abdullah bin Bükeyr rəvayət edir: “İmam Sadiqlə birlikdə həccə getmişdik. Mən ona dedim: “Ey Allah Rəsulunun oğlu! Hüseynin qəbri açılsa, orada bir şey tapmaq olarmı?” İmam buyurdu: “Ey İbn Bükeyr! Həqiqətən Hüseyn atası, anası və qardaşı ilə birlikdə Peyğəmbərin mənzilindədir və onlarla birlikdə ruzi yeyirlər və geyinirlər. O, Rəbbinin ərşindən yapışıb deyir: “ey Rəbbim mənə vədə verdiyini ver! Hüseyn onun ziyarətinə gələnləri görür, onların, atalarının və bətnlərində olan övladlarının adlarını bilir və deyir: ey ağlayan şəxs! Əgər bilsəydin ki, Allah sənin üçün nələri hazırlayıb hüznlü olduğun şeylər də sənin üçün sevincə çevrilərdi. Hüseyn Allahdan ziyarətə gələnin hər bir günahının və xətasının bağışlanmasını istəyər.”[4]

İmam Sadiq buyurur: “Hər kəsin yanında xatırlansaq və o da bizə görə göz yaşı töksə, onun dənizin köpüyü qədər günahı olsa belə, bağışlanacaqdır.”[5]

Digər bir hədisdə buyurur: “Hər kəsin yanında xatırlansaq və o da bizə görə göz yaşı töksə, Allah onun üzünü Cəhənnəmə haram edər.”[6]

İmam digər bir hədisində buyurur: “...Hər kəs Hüseynin haqqında bir şeir desə, ağlayıb-ağlatsa, onun üçün Cənnət vardır. Hər kəs Hüseynin haqqında bir şeir desə, ağlayıb beş nəfəri ağlatsa, onun üçün Cənnət vardır. Hər kəs Hüseynin haqqında bir şeir desə, ağlayıb bir nəfəri ağlatsa, onların ikisi üçün Cənnət vardır. Hər həsin yanında Hüseynin adı zikr edilsə və buna görə onun gözlərindən yaş axsa, onun savabını Allah yalnız Cənnətlə verər.”[7]

---

[1] Məhəmməd Məhəmmədi Reyşəhri. Mizanül-hikmət. III c. s. 1985.

[2] Şeyx əs-Səduq. Səvabül-əmal. s. 110.

[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 203. Hədis № 291; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 289-291.

[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 206. Hədis № 292; Əllamə əl-Məclisi. Biharül-ənvar. XXVII c. s. 200; XLIV c. s. 292; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 230.

[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 207. Hədis № 293; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 284; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 312.

[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 207. Hədis № 296; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 285.

[7] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 208. Hədis № 297; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 288; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 595; Şeyx əs-Səduq. Səvabül-əmal. s. 109.

Abdullah bin Ğalib deyir: “Mən İmam Sadiqin yanına daxil oldum və ona Hüseyn haqqında mərsiyə dedim. O, şeirin ardınca hönkürüb ağladı.”[1]

İmam Sadiq buyurur: “Hər bir əməlin savabının miqdarı vardır, yalnız bizə tökülən göz yaşlarının savabının miqdarından başqa.”[2]

Davud ər-Rəqi rəvayət edir: “İmam Sadiqin yanında idim. O, su içdikdə gözləri yaşardı və buyurdu: “Ey Davud, Allah Hüseyni qətlə yetirənlərə lənət etsin! Hər kəs su içən zaman Hüseynin qatilinə lənət etsə, Allah ona yüz min savab yazar və onun yüz min günahın pozar. Onun dərəcəsini yüz min dəfə qaldırar, sanki o, yüz min qul azad etmiş kimi olar. Allah Qiyamət günü onu qəlbi sərin halda dirildər.”[3]

İmam Sadiq buyurur: ”İmam Zeynülabidin öz atası Hüseyn bin Əliyə qırx il ağladı. Onun qabağına hər dəfə yemək-içmək qoyulanda ağlayardı. Onun xidmətçiləri dedilər: “Ey Peyğəmbərin övladı! Sənin həlak olmağından qorxuruq.” İmam onlara dedi: “Mənim ağlamağım və hüznüm Allah üçündür. Mən Allah tərəfindən elə şeylər bilirəm ki, siz onları bilmirsiniz. Mən Fatimə övladlarının müsibətlərini xatırlayanda dərd-kədər məni boğur.”[4]

İmam Zeynülabidinin xidmətçilərindən biri İmamın çox ağladığını gördükdə dedi: “Ey movlam! Sizin qəm-kədəriniz mənim belimi bükdü.” İmam ona buyurdu: “Vay olsun sənə! Yaqub peyğəmbər öz oğlunun ayrılığına o qədər ağladı ki, gözləri tutuldu, beli büküldü və hey deyərdi: “**heyif sənə yazıq Yusif**».[5] Halbuki, o, bir oğlunu itirmişdir və o da sağ idi. Amma mən atamın və Əhli-beytimdən olan bir qrupun qətl edilməsini öz gözlərimlə gördüm. Bu halda heç mənim qəm-qüssəm qurtararmı?”[6]

İmam Sadiq buyurur: “Siz bayquşu günorta vaxtı görmüsünüzmü?” Dedilər: “Xeyr! O günorta vaxtı deyil, yalnız gecə vaxtı görünür.” İmam buyurdu: “O Hüseyn bin Əlinin qətlindən sonra özünə söz verib ki, heç vaxt imarətli qəsrlərə sığınmayacaq, yalnız xarabalıqlarda olacaqdır. O günortalar oruc tutur, gecələr isə görünür. O gecələr səhərədək isə Hüseynə yas saxlayır.”[7]

Davud bin Fərqəd rəvayət edir: “İmam Sadiqin evində onunla birlikdə oturmuşdum. Bu vaxt yüksək səslə oxuyan nəğməli göyərçinin uzun-uzadı səsini gördüm. İmam mənə baxıb buyurdu: “Ey Davud, bilirsənmi bu quş nə deyir?” Dedim: “Xeyr! Sənə fəda olum!” Dedi: “O Hüseyn bin Əlinin qatillərinə qarğış edir. Onu evlərinizdə saxlayın.”[8]

Peyğəmbərin xanımı Ümmü-Sələmə rəvayət edir: “Mən Peyğəmbərin vəfatından sonra gecələri çıxmaq şərtilə cinlərin novhəsini eşitməmişdim və nədə onları görməmişdim. Onların novhəsini yalnız Hüseyn bin Əlinin qətlindən sonra eşitdim və onları gördüm. Onlardan bir qrupu gəlib deyirdilər:

Ey gözlərim ciddi-cəhdlə yaş axıdın,
Məndən sonra şəhidlərə kim ağlar?
Düşmənə od olsun, onlar yansın,
Təkəbbürlü insan oğluna ölüm olsun![9]

Digər bir rəvayətdə cinlərin İmam Hüseynə dedikləri aşağıdakı novhə deyilir:

Tifdə qətl edilən Ali Haşimdəndir,
Onlar Qüreyşin boynunu əzib zəlil etdilər.

---

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 210. Hədis № 299; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 286; Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. X c. s. 385.

[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 211. Hədis № 302; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 288; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 595.

[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 212. Hədis № 304; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 303.

[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 213. Hədis № 306; Əllamə əl-Məclisi. XLIV c. s. 109.

[5] Yusif surəsi, ayə 84.

[6] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 213-214. Hədis № 307; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 109.

[7] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 199. Hədis № 281; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 214.

[8] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 198. Hədis № 279; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 213.

[9] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 189. Hədis № 268; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 239.

Peyğəmbərin sevimlisi heç vaxt yolun azmadı,
Sənin müsibətin böyükləri ayırıb zəiflətdi[1].

Zühri rəvayət edir: “Hüseyn qətl edilərkən göylər qan ağladılar.”[2]

Zühri yenə rəvayət edir: “ Hüseyn qətl edilərkən Beytülmüqəddəsdə elə bir daş yox idi ki, onu qaldıranda altında qan olmamış olsun.”[3]

İmam Sadiq buyurur: “Hişam bin Əbdülməlik atamın ardınca adam göndərib onu Şama çağırtdı. Atam onun yanına girdikdə xəlifə dedi: “Ey Əbu Cəfər, səni ona görə çağırtdırmışam ki, səndən bir neçə məsələ soruşum. Ola bilsin ki, bunları məndən başqa heç kəs səndən soruşmayıb. Mənə də elə gəlir ki, bunları yer üzündə səndən başqa kimsə bilməz.” Atam dedi: “Nə istəyirsən soruş. Əgər bilsəm deyəcəm, bilməsəm deyərəm bilmirəm.”

Hişam dedi: “Mənə xəbər ver Əli bin Əbi Talibin qətlə yetirildiyi gecədən ki, o gecədə insanların bilmədiyi və insanlar üçün əlamət olan hansı hadisələr baş vermişdir? Əgər bilirsənsə, bunları mənə cavab ver. Bu əlamətlər Əlidən başqa şəxslər üçün olubmu?” Atam ona dedi: “İmam Əlinin qətlə yetirildiyi gecə səhərədək yer üzündə elə bir daş yox idi ki, onu qaldıranda altından axar qan çıxmasın. Bu əlamət Musanın qardaşı Harun , Yuşə bin Nun qətlə yetiriləndə, İsa bin Məryəm göyə yüksəldiləndə və Hüseyn bin İmam Əli qətlə yetiriləndə də baş vermişdir.”

Hişam bu cavabları dinlədikdə qəzəbdən rəngi dəyişdi və atamın yaxasından tutdu. Atam ona dedi: “Ey xəlifə, bəndələrə vacibdir ki, öz imamlarına tabe olub onlara itaət göstərsinlər. Sən bu məsələlərin cavabını soruşdun mən də sənə cavab verdim.” Bundan sonra Hişam atama dedi: “Çıx ailənin yanına get və o da oradan çıxdı. Onun çıxmasından sonra Hişam dedmişdi: “Allahın əhdi mənə verildi, mən ölənədək kimsə bu hədisi mənə deyə bilməzdi.”[4]

İmam Rza buyurur: “Hər kəs bizim müsibətimizi xatırlayarkən ağlayıb ağlatsa, Qiyamət günü bizimlə birlikdə bizim dərəcəmizdə olacaqdır. Hər kəs bizim müsibətimizi yad edərkən ağlayıb ağlatsa, gözündən yaş axmasa belə Qiyamət günü gözlər ağlayanda onun gözləri ağlamaz. Hər kəs bir məclisdə oturub bizim əmr və göstərişlərimizi təbliğ etsə, qəlblərin öldüyü gün onun qəlbi ölməz. Hər kəsin yanında xatırlansaq, onun gözündən bizə xatir milçəyin qanadı qədər yaş çıxarsa, dəryalar qədər günahı olsa belə, Allah onun günahlarını bağışlayar. Bizə olunan zülm bizim üçün təsbih, bizə olan möhnət bizim üçün ibadət, bizim sirrimizi gizlədən isə Allah yolunda cihad edən kimidir.”[5]

İmam Sadiq buyurur: “Kər kəsin bizə görə göz yaşı axsa, bizə xatir qanı tökülmüş kimidir. Bizə vacibdir ki, o şəxsi xilas edək, Allah da ona Cənnətdə bir otaq bağışlayacaqdır.”[6]

6.11. İmam Hüseynlə birlikdə şəhid olan şəxslər

İmam Hüseyn Kərbəlaya gəlməmişdən əvvəl əmioğlusu Müslüm bin Əqili vəziyyəti öyrənmək üçn Kufəyə yolladı. Müslüm hicri altmışıncı ilin zilhiccə ayında (sentyabr 680) Kufəyə getdi və ərəfə günü orada şəhid edildi. Onun ardınca Hüseyn Məkkədən İraqa tərəf yola çıxdı. Lakin o, Müslümün ölüm xəbərini yolda eşitdi. Hicrətin altmışıncı ilinin sonlarında İraqa gələn Hüseyn Məkkədə şəban, ramazan, şəvval və zilqədə aylarını qalmışdı. Bu ərəfədə onun ətrafına Hicazın və Bəsrənin müxtəlif bölgələrindən xeyli adam toplanmışdı. O, bu fürsətdən istifadə edərək Yezidin və onun xilafətinin iç üzünü camaata çatdırırdı. Məsudinin məlumatına görə, onların sayı min atlı və yüz piyada olmaqla 1100 nəfər idi. Hüseyn onlarla birlikdə həcci natamam ziyarət edib İraqa tərəf istiqamət götürdü. O, müxaliflərin onu Məkkədə öldürmələrindən ehtiyat edirdi. O, yola düşərkən tərəfdarlarını toplayıb onlara geniş bir xütbə oxudu və xütbəsini bununla tamamladı:

[1] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 195. Hədis № 275; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 88.
[2] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 188. Hədis № 265; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 205.
[3] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 188. Hədis № 266.
[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 159-160. Hədis № 197; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLV c. s. 204.
[5] Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 294-295.
[6] Həmin mənbə. VIII c. s. 295.

“Şükürlər olsun Allaha və onun istədiklərinə! Hər kəs canını bizə fəda etmək istəyirsə, bilsin ki, vətənimiz Allahla görüşdür. Mən sabah yola çıxacağam.”[1]

İmam yola düşdü. Ona yolda rast gələn bəzi şəxslər dedilər: “Sənə nə olub ki, babanın hərəmini tərk edirsən?” Həzrət onlara buyurdu: “Bəni-Üməyyə malımı və əmlakımı aldı, mən isə səbir etdim. Onlar mənim şərəfimi söydülər, mən səbir etdim. Onlar mənim qanımı tökmək istədilər. Mən də məcbur olub babamın hərəmindən uzaqlaşdım.”

İmam yolda Müslümün və Haninin şəhadətini eşitdikdə, ətrafındakı insanlara dedi: “Artıq bizim tərəfdarlarımız bizi tək qoydular. Onların ölmündən sonra yaşamağın mənə nə faydası? Hər kəs istəyirsə dönüb getsin!” Bundan sonra onun ətrafında olan insanların çoxu ayrılıb getdilər. İmam yalnız Mədinədən onunla gəlmiş əshabı ilə qaldı. İnsanların onun ətrafından dağılmalarının səbəblərini açıqlayan alimlər yazırlar: “İmamala birlikdə olan o insanlar elə bilirdilər ki, İmam onları başqa bir məmləkətə aparacaq, onlar orada qalacaq və oranın da əhalisi onlara itaət göstərəcəklər. Lakin İmamın niyyəti onlara məlum olduqdan sonra onlar İmamın ətrafından dağılışmağa başladılar. Beləliklə, İmam Hüseynin ətrafında onun Əhli-beyti və bu ailəyə tam sadiq olan şəxslər qaldılar. Bundan başqa bəzi şəxslər, o cümlədən Hürr bin Yezid ər-Riyahi, Züheyr bin Qeyni sonradan İmama qoşulan şəxslərdir.

Artıq Yezidin qoşunu Ömər bin Səd bin Vəqqasın komandanlığı altında 35 minlik ordu ilə İmam Hüseyni və onun azca tərəfdarlarını mühasirəyə aldı. İmam onlara çox təbliğat aparsa da, bunun heç bir faydası olmadı. İmama qarşı ilk oxu Ömər bin Səd atdı və bunula da müharibənin başlanmasını elan etdi. Bundan sonra oxatanlar dəstəsi kütləvi şəkildə İmamın ordusuna ox atmağa başladıladılar. Bunun nəticəsində İmamın dəstəsindən bir neçə adam şəhid oldu. Anası ilə birlikdə İmamın ordusuna qoşulan bir gənc anasının təkidi ilə döyüş meydanına ilk olaraq daxil oldu. Onu şəhid edib başını kəsdilər və anasına tərəf atdılar. Şəhidin anası oğlunun başını götürüb “əhsən sənə ay oğul!” deyib başı düşmən tərəfə atdı. Bundan sonra İmamın dəstəsində olan insanlar növbə ilə gəlib döyüş icazəsini alır və vüqarla döyüşə gedirdilər. Onlar şəhid olduqdan sonra növbə İmamın qardaşlarına çatdı. Onlar da xeyli şücaət göstərdikdən sonra şəhid oldular. Onların içərisində İmam Əlinin Ümmül-Bəni adlı qadından olan oğlu Abbas dünya tarixində misli görünməmiş şəxsi şücaət və fədakarlıq göstərdi. O, sonda gəlib İmamdan döyüş icazəsini alanda İmam Hüseyn hönkürtü ilə ağlayaraq ona buyurdu: “Sən mənim qoşunumun bayraqdarısan! Sənin getməyin qoşunumun yoxluğu deməkdir.” Həzrət Abbas ona dedi: “Artıq qəlbim sıxıldı.” İmam ona ancaq su gətirmək üçün icazə verdi. O, Fərat çayı istiqamətində hərəkət etdi. Yolda Fərata xüsusi dəstə şəklində təyin olunmuş dörd min düşmən əsgəri ilə rastlaşdı. O, özünün irsi şücaəti ilə onları pərən-pərən edib özünü çaya yetirdi. Lakin uşaqların su deyə qışqırığını eşitdikdə içmək istədiyi suyu yerə töküb su tuluğunu doldurdu və düşərgəyə tərəf yol aldı. Yolda düşmən tərəfin kütləvi hücumuna məruz qaldı. Onun sağ qolunu Həkim bin Tüfeyl kəsdi. O, özünü itirməyib qılıncı sol əlinə aldı. Xeyli döyüşdükdən sonra onun sol qolunu Nofəl adlı bir şəxs vurdu. Hər iki qolunu itirən Abbas su tuluğunu ağzına alıb ayaqları ilə düşməni özündən uzaqlaşdırırdı. Onun su tuluğunu oxla vurub deşdikdən sonra sinəsinə də bir ox sancıldı. Bununla da həzrət Abbas atından yıxıldı. Onun haqqında İmam Zeynülabidin buyurur: “Qiyamət günü bütün şəhidlər əmim Əli oğlu Abbasın məqamına qibtə edərlər. Allah Həmzəyə qollarının əvəzində qanad verib onu Cənnətə çatdırdığı kimi, əmimə də qollarının əvəzində qanad verib onu Cənnətə çatdırdı.”[2]

Nəhayət, döyüş meydanına İmam Hüseyn getdi. Təbərisi “əl-İhticac” əsərində yazırdı: “İmam tək qaldıqda onunla yalnız oğlu Zeynülabidin və Abdullah adlı südəmər uşağı vardı. O, uşağı götürüb qoşunun önünə gəldikdə uşağı oxla vurub qətlə yetirdilər. İmam atından enib onu torpağa basdırdı. Sonra qılınca əl atıb onun qanını almaq üçün özünü düşmən ordusuna vurdu. Onlardan xeyli hissəni qırıb Cəhənnəmə vasil etdi. Sonra İmamı Şimr bin Zilcovşən qılıncla vurdu. Onun vurduğu qılıncların sayı on iki ədəd idi.”

Şəhraşubun yazdığına görə, İmamın atı da döyüş ərəfəsində düşmən tərəfə həmlələr edirmiş. Onun Zülcənah adlı atı düşmən tərəfdən qırx əsgəri öldürmüşdür.

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. X c. s. 183.
[2] Şeyx əs-Səduq. əl-Xisal. s. 235.

İbn Tavusun nəqlinə görə, İmam qətl edildikdən sonra, göy üzünü qara buludlar almış, qırmızı küləklər əsmiş və hətta insanlar İlahi əzabın nazil olduğunu güman etmişlər. İmam Baqir Hüseynin qətlə yetirilməsi haqqında deyir: "Hüseyni elə bir şəkildə qətl etdilər ki, hətta Allahın Rəsulu itləri belə elə öldürməyi qadağan etmişdir. Onu qılıncla, nizə ilə, oxla, taxta parçası, əsa və digər şeylərlə vurub şəhid etdilər."[1]

Əllamə Məclisi yazırdı: "Hüseyni qətlə yetirdikdən sonra düşmən ordusu istədi ki, bütün atlı dəstələr şəhidlərin üstündən keçsinlər və bununla da onların cəsədləri atların dırnaqları altında batıb torpağa qarışsın. Lakin bir şirin pəncələrini Hüseynin üstünə qoyub dayanması qoşunu təşvişə salmış və onlar Ömər Sədin əmri ilə bu işdən vaz keçmişlər."[2]

Nəhayət, İmamla birlikdə Kərbəla çölündə şəhid olmuş şəxslərdən aşağıdakıları qeyd etmək olar:

1. Abbas bin Əli bin Əbi Talib .
2. Əbu Bəkr bin Əli bin Əbi Talib .
3. Abdullah bin Əli bin Əbi Talib .
4. Osman bin Əli bin Əbi Talib .
5. İbrahim bin Əli bin Əbi Talib .
6. Cun bin Malik.
7. Müslüm bin Ovsəcə əl-Əsədi əs-Səhabi.
8. Həbib bin Məzahir.
9. Züheyr bin Qeyn əl-Muradi.
10. Səd bin Haris əl-Ənsari.
11. Əli bin Məzahir.
12. Əmmar bin Əbi Salam əl-Həmdani.
13. Abdullah bin Yəqtər əl-Hümeyri (İmamın süd qardaşı olub).
14. Əbdürrəhman bin Əbdürəbbih.
15. Abbas bin Şəbib əş-Şakiri.
16. Amir bin Müslüm.
17. Əbdürrəhman bin Məsud.
18. Övn bin Abdullah bin Cəfər bin Əbi Talib.
19. Qarib.
20. Qürrə bin Əbi Qürrə.
21. Məcmə bin Abdullah.
22. Məsud bin Həccac ət-Təmimi.
23. Malik bin Səri əl-Cabiri.
24. Kərş bin Züheyr ət-Təğlibi.
25. Münhəc bin Səhm (Həsən bin İmam Əlinin xidmətçisi)[3] və b.

İmam Hüseynin əshabının sayı haqqında ixtilaf vardır. Əllamə Məclisiyə görə, onların sayı min nəfər olmuşdur. O, yazırdı: "Hüseynin əshabının sayı min nəfər atlı idi. Onlar Aşura günü onunla birlikdə namaz qıldılar."[4] Lakin bəzi rəvayətə görə, onların sayı 82 nəfər atlı, 8 nəfər isə piyada olmuşdur. Digər rəvayətlərdə isə onların sayı 32 nəfər atlı, 40 nəfər isə piyada göstərilir.

Qarşı tərəfin ordusunun sayında da ixtilaf vardır. Bəzi qaynaqlarda onların sayı otuz beş min, dörd min və daha artıq göstərilir. Ən doğru rəvayət isə onların sayının 35 min nəfər olmasıdır. Çünki dörd min nəfər tək Fərat çayının mühafizəsində dayanmışdır. Onlardan öldürülənlərin ümümi sayı isə min nəfər göstərilir.[5]

Ömər bin Sədin qoşununun sağ cinahında Amr bi Həccac, sol cinahında isə Şimr bin Zilcovşən olmuşdur. Süvari hissəyə Ğəzrə bin əl-Qeys, piyada hissəyə isə Şəbəs bin Rəbi başçılıq etmişdir. Ordunun hissələri isə Əsəd, Kində, Rəbiə, Teym və başqa qəbilələrdən təşkil edilmişdir.

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 284-285.
[2] Əllamə əl-Məclisi. Miratül-üqul. I c. s. 394. Hədis № 8.
[3] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 84.
[4] Əllamə əl-Məclisi. Biharül-ənvar. X c. I çap, s. 209.
[5] Əllamə əl-Hairi. Dairətül-məarif, XV c. s. 85.

Savaş bitdikdən sonra Ömər bin Səd qoşunundan qırılmış əsgərlər üçün cənazə namazı qıldırdı və onları dəfn etdirdi. Lakin Peyğəmbərin ümmətə əmanət buraxdığı Əhli-beytin şəhid düşmüş kişilərinin başlarını kəsdirib cəsədlərini çöllü-biyabanda buraxdı. Sonra da qadınları əsir götürüb zəncirlənmiş halda Kufəyə İbn Ziyadın hüzuruna apardı. Əsirlər içərisində İmam Hüseynin ilahi təqdir nəticəsində sağ qalmış ortancıl oğulu İmam Zeynülabidin də vardı. O, imamət nurunun davamçısı olduğundan Allahın möcüzəsi sayəsində qəflətən əlillik xəstəsinə tutlmuş və bununla da zalımların amansız ölümündən yaxa qurtarmışdı. Lakin Kərbəla hadisəsi tamamilə sona yetdikdən sonra tam olaraq sağlam şəkildə ömür sürmüş və təxminən bu hadisədən 35 il sonra zəhərlə şəhid edilmişdir.

Kərbəla şəhidlərinin dəfninə gəldikdə isə, onları bəni-Əsəd qəbiləsinin bir qrup camaatı ilə birlikdə İmam Zeynülabidin dəfn etmişdir. Belə ki, qaynaqların verdikləri məlumata görə bəni-Əsəd qəbiləsindən olan bir qadın su götürmək üçün Fərat çayının sahilinə gəlir və buradakı dəhşətli mənzərəni görüb tez qəbiləsinə xəbər verir. Qəbilə bu xəbərdən sonra həmin əraziyə yollanırlar və orada başsız bədənləri görüb dəhşətə gəlirlər. Onlar dəfn üçün su və kəfən hazırlayarkən birdən dəvə üstündə gələn bir şəxsi görürlər. Onlar bunun düşmən əsgərlərindən olduğunu zənn edib qaçmaq istəyərkən həmin şəxs onlara belə müraciət edir: "Mən Allahın höccötiyəm. Mən Əli bin Hüseynəm. Gəlmişəm cüssələri parçalanmış atamın, əmilərimin, qardaşımın, əmi uşaqlarımın və onların köməkçilərinin dəfni ilə məşğul olum. İndi mən İbn Ziyadın həbsxanasından gəlirəm. Sizlərə halal olsun!"[1]

İmam Zeynülabidinin İbn Ziyadın həbsxanasından çıxıb gəlməsi də ilahi bir sirr olub ancaq onun dostlarına əyan olan bir haldır. Əqidəmizə görə, imamı yalnız imam dəfn edər. Belə olduğu halda Allahın izni ilə onun Kufə zindanından çıxıb gəlməsi və yenidən öz məqamına qayıtması Allaha və axirət gününə inananlar üçün şübhəsiz bir şeydir.

Bəni Əsəd qəbiləsindən Kərbəla şəhidlərinin dəfnində iştirak edən şəxslərdən rəvayət olunur ki, İmam Zeynülabidin atası Hüseyni qəbrə qoyarkən onlardan heç kəs ona yaxın getməmişdilər. İmam özü atasını qəbrə qoymuş və ağlaya-ağlaya bu sözləri deyirmiş: "Səni özündə saxlayan yer nə qədər xoşbəxtdir! Dünya səndən sonra zülmətə büründü. Axirət isə sənlə işıqlandı. Qəm-kədərə gəldikdə isə o əvvəli və axırı olmayan bir haldır. Gecələrə gəldikdə isə, o yuxusuz bir şeyə çevrildi."[2]

Əllamə Məclisi rəvayət edir: "Peyğəmbər Fatimənin yanına girən zaman onu çox qəmli gördü. Peyğəmbər ona dedi: "Ey Fatimə , Qiyamət günü deyəcəksən: "İlahi! Həsən və Hüseyni mənə göstər." Onları sənə gətirdikləri zaman Hüseyni boynunun şah damarı kısilmiş və qan axan halda görəcəksən. O, Rəbbinə deyəcəkdir: "İlahi! Mənə zülm edənlərdən haqqımı al!" Bu zaman Allah qəzəblənər, onun qəzəbinə görə Cəhənnəm və bütün mələklər də qəzəblənərlər. Sonra Cəhənnəmdən Hüseyni və onun övladlarını qətlə yetirənlər çıxarılarlar. Onlar deyərlər: "Ey Rəbbimiz, bu işi biz törətməmişik. Allah Cəhənnəm zəbbanilərinə əmr edər ki, onları tutub Cəhənnəmin ən aşağı yerinə salın."[3]

İmam Rza buyurur: "Ey İbn Şəbib! Əgər Cənnət otaqlarında Peyğəmbərlə birlikdə sakin olmaq istəyirsənsə, Hüseynin qatillərinə lənət et. Əgər Hüseynlə birlikdə şəhid olanlarla birlikdə olmaq istəyirsənsə, Hüseyni xatırlayanda de: "ey kaş məndə sizinlə birlikdə olaydım və ən böyük üstünlüyə yetişəydim!"Hüseyn bin Əlinin qatili oddan olan tabutun içərisindədir. Ona dünya əhlinin əzabı verilir. Onun əlləri və ayaqları oddan olan zəncirlə bağlanıb. O, Cəhənnəmin ən dərin quyusundadır. Ondan elə pis iy gəlir ki, Cəhənnəm əhli onun iyindən Allaha sığınırlar. O, orada Hüseynin qətlində iştirak edənlərlə birlikdə əbədi qalacaq və ən ağrıdıcı əzabı dadacaqdır. Onların dəriləri pişəcək, Allah isə onu hər dəfə yenisi ilə əvəz edəcəkdir ki, əzabı daha da artıq olsun. Onlara bir an belə fasilə verilməz. Onlara Cəhənnəmin həmimindən içirdilər. Vay olsun onların halına!"[4]

---

[1] Bax: Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 88-89; Şeyx Müfid. Seyid Nemətullah əl-Cəzairi və əl-Kəşşi də bu xəbəri qəbul etmişlər.

[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XV c. s. 89-90; əd-Dumətus-sakibə. I çap, s. 355.

[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. III c. I çap, s. 340.

[4] Əllamə əl-Hairi. Dairətül-məarif. VIII c. s. 294.

6.12. Kərbəla hadisəsindən sonra baş vermiş qiyamlar

6.12.1. Mədinə qiyamı

Kərbəla hadisəsindən sonra İslam aləmində çoxlu sayda qiyamlar baş vermiş və mənfur Əməvilər xilafəti bu qiyamların təsiri nəticəsində tənəzzülə doğru yuvarlanmışdır. Artıq xilafətin iç üzü xalq kütləsinə bəlli olduqdan sonra, əhali arasında xilafətə qarşı qiyam etmək və bu hakimiyyəti devirmək hissi oyanmışdı. Beləliklə, ilk qiyam Mədinə şəhərində baş verdi. Buna tarixdə Hirrə vaqiəsi deyilir. Mədinəlilər Abdullah bin Hənzələyə beyət edib ona tabe oldular. Abdullahın göstərişi ilə ilk görüləcək iş bəni-Üməyyənin şəhərdən çıxarılması oldu. Bunu eşidən Yezid on iki minlik ordunu Müslüm bin Əqəbənin başçılığı altında Mədinəyə yeritmiş və oranın əhalisini qılıncdan keçirmişdir. Hirrə vaqiəsi üç gün davam etmiş və bu ərəfədə on mindən artıq müsəlman öldürülmüşdür. Müslümün ordusu şəhəri üç gün ərzində xaraba qoymuş, qadınların namusuna təcavüz olunmuş və Peyğəmbər məscidində qan su yerinə axmışdır. Hətta qoşun hissələri məscidə atlı, ayaqqabılı və murdar vəziyyətdə daxil olaraq oranın hörmətini sındırmışlar. Bu hadisə hicrətin 63-cü (682 miladi) ilində baş vermişdir.

6.12.2. Məkkə qiyamı

Baş vermiş qiyamlardan biri də Məkkə qiyamı hesab olunur. Müslümün ordusu Mədinəni dağıtdıqdan sonra Məkkədəki qiyamı yatırtmaq üçün ora yola düşmüşdür. Lakin yolda Müslüm bin Əqəbə ölmüş, onun yerinə orduya Hüseyn bin Nümeyr təyin edilmişdir. Məkkədə Abdullah bin Zübeyr əhalini öz ətrafına toplamış və xilafətə qarşı qiyam etdiyini elan etmişdir. Bundan xəbəri olan Yezid onun zəncirlənmiş halda yanına gətirilməsini əmr etmişdir. Beləliklə, Mədinə qiyamının yatırılmısından sonra Hüseyn bin Nümeyrın komandanlığı altında Məkəyə gələn xilafət ordusu Əbu Qübeys dağının üstündə mancanaqlar qurmuş, oradan Kəbəyə sığınan qiyamçıların üzərinə daş və od-alov yağdırmışdı. Bu hadisədə Kəbə yanıb xaraba vəziyyyətə qaldı. Abdullah bin Zübeyr bir aylıq müdafiədən sonra nəhayət qüvvəsi tükənmiş və elə orada da öldürülmüşdür. Xalq kütləsinin bu qiyamı da zülm və amansızlıqla yatrıldı. Bu hadisə hicrətin 64-cü (683 miladi) ilində baş vermişdir. Bu hadisədən sonra Yezid 38 və ya 39 yaşında, üç il altı aylıq hakimiyyətdən sonra, 14 rəbiül-əvvəl 64-cü (10 noyabr 683) ildə dünyadan rüsvayçılıqla getdi.

6.12.3. Təvvabin qiyamı

Bundan sonrakı üsyanlar geniş xalq kütləsini təşkil etdi və daha çox İmam Hüseynin intiqamını almaq ruhunda oldu. Buna görə də tarixçilər bu üsyanlara şiə təmayüllü üsyanlar adını vermişlər. Bu ruhda olan ilk üsyan hicrətin 65-ci (684 miladi) ilində baş verdi. Bu üsyana Təvvabin qiyamı deyilir. Onun başçısı Peyğəmbərin və İmam Əlinin səhabəsi Süleyman bin Surəd əl-Xüzai olmuşdur. O, ətrafına Müsəyyib bin Nəcbə əl-Fəzari, Abdullah bin Səd bin Nüfeyl əl-Əzdi, Rifaə bin Şəddad əl-Bəcli və Abdullah bin Val ət-Teymi kimi şəxsləri toplayaraq qiyama rəhbərlik etmişdir. Adı çəkilən şəxslər digər bölgənin böyükləri ilə Süleymanın evində toplaşaraq qiyamın planını hazırladılar. İlk sözə Süleyman başladı və belə bir xütbə oxudu: "Biz uzun ömür sürürük, fitnələrə düçar olmuşuq və Rəbbimizi istəyən bir camaatıq. Allah buyurur: **"Məgər sizi ibrət almaq istəyən kimsənin ibrət ala biləcəyi qədər yaşatmadıqmı? Hələ sizə qorxudan Peyğəmbər də gəlmişdir. Dadın əzabı. Zalimlərin indadına çataç olmaz!»**[1] Allah Adəm oğluna normal 60 il ömür verir. Biz artıq ona çatmışıq və ömür borcu olanlardan olmuşuq. Biz Hüseyn bin Əlinin qatillərini öldürməyincə güman etmirəm ki, Allah bizi bağışlasın. Mən sizi fasiqlərə qarşı cihada və günahlarınızdan tövbə etməyə çağırıram." Süleymanın bu xütbəsindən sonra Müsəyyib bin Nəcbə dedi: "Mən sizin görüşlərinizlə razıyam. Müharibəyə hazırlaşın!" Bundan sonra Süleyman tərəfdarların böyükləri yaşayan şəhərlərə məktublar yazıb onları xilafətə qarşı qiyama çağırdı. Nəhayət, onlar Kərbəlaya gəlib orada bir gecə matəm müsibəti saxladılar və oradan da Şama yürüş etdilər. Onların bu qiyamından xəbər tutan xəlifə Mərvan bin Həkəm (684-685) onların

[1] Fatir surəsi, ayə 37.

üstünə böyük bir ordu göndərdi. Hicri 65-ci ilin cəmadiəl-əvvəl (miladi 685 yanvar) ayında hər iki ordu "Eynül-Vərdə" adlı yerdə toqquşdular. Nəhayət, döyüş qiyamçıların məğlubiyyəti ilə nəticələndi. Bu döyüşdə Süleyman bin Sürəd öldürüldü. Qiyamçıların qalan hissələri isə Kufə, Bəsrə və digər şəhərlərə dağılışdılar.

6.12.4. Muxtar Səqəfinin qiyamı

Təvvabin qiyamının başladığı ərəfədə xilafətə qarşı yeni bir qiyam da hazırlanırdı. Bu qiyamın rəhbəri Muxtar bin Əbi Übeydə əs-Səqəfi olmuşdur. O, hicrət ilində doğulmuşdur. Hüseyn qətl edilən zaman Muxtar Kufə valisi Übeydullah bin Ziyad tərəfindən həbs edilib Kufənin zindanına salınmışdı. Kərbəla hadisəsindən sonra o, zindandan Abdullah bin Ömər bin Xəttaba məktub göndərdi. O, bu məktubunda Abdullahın onu zindandan xilas etdirməsi xahişini yazmışdı. Muxtarın bacısı Səfiyyə bint Əbi Übeyd Abdullahın həyat yoldaşı idi. Abdullahın xahişi ilə o üç gündən artıq şəhərdə qalmamaq şərti ilə zindandan azad olundu. Muxtar Hicaza getdi. Orada İbn İraqla görüşdü. O, Muxtardan "gözünə nə olub?" - deyə soruşdu. Muxtar: "onu zinakarın oğlu Amr bin Həris vurmuşdur" dedi və onları tutub tikə-tikə doğrayacağına and içdi. Sonra Muxtar miniyinə minib Kufəyə tərəf yol aldı. O, Kufəyə yetişən kimi tərəfdarların böyükləri onun ətrafına toplaşdılar. Muxtar onlara dedi: "Məni Məhəmməd bin Hənəfiyyə sizə əmir olaraq göndərib və Əhli-beytin qanını almağımızı tələb edir. And olsun Allaha! Mən İbn Mərcanəni öldürəcək və Ali Məhəmmədin qanını alacağam!" Onun ətrafına toplaşanlar ona sədaqət andı içdilər və ona beyət etdiklərini elan etdilər. Sonra məğrib namazını qıldıqdan sonra küçələrə çıxıb "Hüseyni öldürənləri öldürmək!" şüarı altında qoşun topladılar. Muxtar ətrafına xeyli adam topladıqdan sonra xilafətə qarşı qiyamı həyata keçirdi. Onun bu məşhur qiyamı hicrətin 66-cı (685-686 miladi) ilində baş verdi. O, İmam Hüseynin bütün qatillərindən qan intiqamını aldı. Ona bu mübarizədə Malik Əştərin oğlu İbrahim Əştər yaxından kömək etmişdir. O, böyük bir ordu ilə Mosula tərəf irəliləyib orada xilafətin sayca üstün olan ordusun darmadağın etdi. Bu döyüşdə İbrahim Əştər Məkkəni mancanaqla dağıtmış sərkərdə Hüseyn bin Nümeyri və İbn Ziyadı öldürdü (67/686 əvvəlləri). Nəhayət, Muxtarın bu qiyamı da amansızlıqla yatırıldı və 0, hicri 67-ci ildə Müsəb bin Zübeyrin vurduğu zərbə nəticəsində şəhid oldu. İmam Sadiq onun haqqında buyurmuşdur: "Muxtarı söyməyin. Çünki o, bizim qatillərimizi öldürmüş, bizim intiqamımızı almış, dul və subay qadınlarımızı evləndirmiş və Həmçinin mal-dövləti çətinlik zamanı bizim aramızda bölüşdürmüşdür."[1] Başqa bir hədisdə isə Əsbəğ bin Nübatə rəvayət edir: "Muxtarı Əlinin dizi üstündə gördüm. O, Muxtarın başına əl çəkərək deyirdi: "Ya Kəyyis! Ya Kəyyis!" [2] (Ay düşmənimizi yerə vuran!).

6.12.5. Kərbəla hadisəsinin nəticələri

İmam Hüseynin öz əhli-əyalı ilə Məkkədən çıxıb Kufəyə gəlməsinin və özünü təhlükəyə atmasının bir çox səbəbləri vardır. Bu səbəblərin bir hissəsi bizə məlum səbəblər, digər hissəsi isə bəzə naməlum olaraq qalmaqdadır. Bildiyimiz kimi, imam olan kimsə Allah tərəfindən bu məqama təyin olunur. Belə bir şəxs isə hər növ günah, pislik, zənnə qapılmaq və bu kimi şeylərdən uzaqdır. İmam olan kimsə haqqa yetişmək üçün və haqqı cəmiyyətdə bərqərar etmək üçün canını, malını və əhli-əyalını təhlükəyə atmalıdır. Bunu biz peyğəmbərlərin də həyatlarında görməkdəyik. Bundan başqa İmamlar Allah tərəfindən Peyğəmbərə göndərilmiş yazı üzərində hərəkət etməlidirlər. Onların bu yazıdan zərrə qədər uzaqlaşmaq və ya ona müxalif hərəkət etmək imkanları yoxdur. Buna görə də heç kəsə yaraşmaz ki, onların əhvalını digər hadisələr çərçivəsində və bir-birinə müqayisəli şəkildə analiz etsin və öz gümanına qapılıb buna bir yozum versin. İmamların günahsızlığı sübüt olunduğundan onların işlərinə etiraz etmək deyil, onlara mütləq təslim olmaq lazımdır.

İmam Hüseynin etdiyi Kərbəla qiyamı bəşəriyyət tarixində baş vermiş digər bütün inqilablardan köklü şəkildə fərqlənməkdədir. Digər inqilablar heç də həmişə müsbət nəticə

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XVII c. s. 24.
[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. X c. s. 283.

verməmiş, bəzən acı nəticələrə səbəb olmuşdur. Baş verən bütün inqilablar hansısa siyasi əhəmiyyət kəsb edərək heç də bütün bəşəriyyətin fayda və xoşbəxtliyini deyil, hansısa bir millətin və ya qrupun amalına xidmət etmişdir. Amma Kərbəla inqilabı mütərəqqi, yüksək amal və digər müsbət xüsusiyyətləri özündə birləşdirən, təkcə bir millətə aid olmayıb bütün xalqların dünya və axirət xoşbəxtliyini düşünən və bəşəriyyət tarixinin əbədiyaşar inqilabına çevrilən bir inqilab olmuşdur.

Məlumdur ki, hansısa bir inqilabı və ya qiyamı həyata keçirmək üçün bir neçə şərt olmalıdır. Bu şərtlərdən biri inqilabın həyata keçməsi üçün şəraitin olması, digəri isə onu həyata keçirən şəxsin kimliyidir. Kərbəla inqilabının tarixini vərəqləyərkən hər iki şərtin orada olduğunu görməkdəyik. Belə ki, Kərbəla inqilabının həyata keçməsi üçün həm tarixi şərait yaranmışdı, həm də bunu həyata keçirən şəxsin kimliyi məlum idi. O, babası Peyğəmbərin yolunun davamçısı və o müqəddəs ailənin üzvü Hüseyn bin Əli idi. Peyğəmbərin düvründə insanlar arası münasibətlər necə idisə, xəlifə Yezidin də dövründə həmin forma yenidən cəmiyyətə gətirilir və təbliğ olunurdu. Buna görə də İmam Hüseyn qiyam edərkən buyurmuşdur: "Ona görə qiyam etdim ki, babam Peyğəmbərin ümmətini islah edim." Buradan belə məlum olur ki, İmamın qiyam etməsində məqsədi heç də hakimiyyəti ələ almaq deyil, əksinə cəmiyyəti Peyğəmbər dövründəki İslama qaytarmaq və islah etmək idi.

Kərbəla qiyamının baş verməsinin digər səbəblərindən biri azadlıq və bunun da içində xoşbəxtlik amalını insanlara çatdırmaq idi. Buna işarə edən İmam buyurur: "Mən ölümü yalnız xoşbəxtlik, zalımlarla yaşamağı isə ar və rüsvayçılıq bilirəm." Deməli, İmamın bu sözü də Kərbəla inqilabının ülvi mahiyyətini tam aşkarlığı ilə göstərdi ki, sosial, milli və mənəvi zülmə müxalifət olmaq dünya və axirətin xoşbəxtliyidir.

Kərbəla qiyamı o dövrdə vacib idi və həyata da keçdi. Onun müsbət nəticələri nəinki aşağı təbəqəli müsəlmanlar içərisində, eyni zamanda xilafət aparatı içərisində də əks səda doğurdu. Belə ki, mənfur Əməvilər xilafətində parçalanma, xilafətin zülm və istibdad üzərində qurulması bütün təbəqədən olan insanlara aşkar oldu. Bunun bariz misalını Yezidin oğlu hakimiyyətə gələn zaman dediyi sözlərdə öz əksini tapmışdı. Belə ki, Müaviyə bin Yezid atasının ölümündən sonra minbərə çıxıb Peyğəmbərə və onun Əhli-beytinə salavat göndərəndən sonra demişdi: "Əli bin Əbu Talib xilafətə babam Müaviyədən daha layiq idi. Atam Yezidin xilafətinə gəldikdə isə o bütövlükdə nəfsxorluq, pisliklər və israfçılıq üzərində idi. O, Məhəmmədin ümmətinə xəlifəlik etməyə layiq deyildir." O, bu sözləri dedikdən sonra xəlifəlik xalatını əynindən çıxarıb atmış və bu vəzifədən imtina etmişdir.

Kərbəla qiyamından sonra Əməvilər xilafətində parçalanma olmuş, hakimiyyət Əməvilərdən Mərvanilərə keçmişdir (685-ci ildə). Bundan sonra xilafət ərazisini qiyamlar bürümüş, hər yerdə xalq kütləsi ali hakimiyyətə qarşı etiraz səslərini qaldırmışlar. Demək olar ki, Kərbəla hadisəsi baş verən bu qiyamların hamısının ilham mənbəsi olmuşdur.

6.13. İmam Hüseynin düşmənlərinin başına gələnlər

əl-Əməş belə nəql edir: "Bəni-Əsəd tayfasından bir kişi İmam Hüseynin qəbrini murdarladı. Buna görə də onun ailəsinə müsibətlər üz verdi. Əlləri və ayaqları şikəst oldu, dəli oldular, cüzam və müxtəlif xəstəliklərə tutuldular və yoxsul bir vəziyyətə düşdülər."

Hafiz əl-Heysəmi bunu nəql etdikdən sonra yazırdı: "Bunu Təbərani rəvayət etmişdir. Hədisin sənədinə gəldikdə, bildirmək istəyirəm ki, onun raviləri "əs-Səhih"in raviləridir."[1]

Həmçinin Təbərani belə nəql etmişdir: "Bizə Abdullah bin Əhməd bin Hənbəl rəvayət etdi (və dedi): bizə Bəkr bin Xələf rəvayət etdi (və dedi): bizə Abu Asim rəvayət etdi (və dedi): bizə Məhəmməd bin Abdullah əl-Həzrəmi rəvayət etdi (və dedi): bizə İbrahim bin Səid əl-Cövhəri rəvayət etdi (və dedi): bizə Əbu Amir əl-Əqədi rəvayət etdi (Asim və Əbu Amir) hər ikisi Qürrə bin Xaliddən rəvayət etdilər və dedilər: Əba Rəca əl-Ütaridinin belə dediyini eşitdik: "Nə Əlini, nə də Əhli-beytdən olan birini söyməyin. Mənim qonşularımdan biri "Allahın bu fasiq Hüseyn bin Əlini

[1] Hafiz əl-Heysəmi. Məcməüz-zəvaid. IX c. Beyrut, Darül-fikr, 1412/1992. s. 131. Hədis № 15168.

öldürdüyünü görmürsünüzmü?” demişdi. Onun bu sözündən sonra Uca Allah onu iki ulduzla gözlərindən vuraraq kor etdi.”[1]

[1] Süleyman bin Əhməd ət-Təbərani. Möcəm əl-kəbir. Təhqiq: Həmdi bin Əbd əl-Məcid əs-Sələfi. III c. Mosul, Məktəbə əl-Ülum vəl-Həkəm, 1404/1983. s. 112. Hədis № 2830.

VII FƏSİL

KAZİMEYN ŞƏHƏRİ

7.1. Kazimeyn şəhərinin qısa tarixi

Kazimeyn İraqın paytaxtı Bağdad şəhərinin şimal hissəsində, Dəclə çayının isə qərb sahilində bir şəhərdir. Bağdadın bir hissəsi olan Kazimeyn tarixilik baxımından çox qədim olsa da, VII imam Musaeyi-Kazim və IX imam Məmməd Təqinin orada dəfn edilməsindən sonra Kazimeyn adı ilə məşhurlaşmışdır. Həmçinin Kazimeyn şəhəri "Məqabirül-Qüreyş", "Məqabiru Bəni-Haşim və "Məşhədül-Kazimi" adları ilə də tanınır.

Bəzi tarixi mənbələrə görə, Bağdadın bir hissəsi olan bu əraziyə vaxtı ilə "əş-Şunizi" deyilirmiş. Şuniz sözü Sasanilərin son dövrlərində bu ərazilərə verilmiş ad olub ərəb dilindəki mənası "çörək otu" deməkdir.[1] Görkəmli alim Xətib əl-Bağdadinin (1002-1071) verdiyi məlumata görə, oranın şuniz adlanmasının səbəbi qədimdən bəri orada Qüreyşin məqbərəsi olması və kiçik Şunizi adı ilə tanınması imiş. Ora böyük Şuniz məqbərəsi adı ilə tanınırmış. Şunizdə dəfn olunan hər bir qardaşa "əş-Şunizi" deyilirmiş. Onlar vəfat etdikcə bir-birlərinin yanında dəfn edilmiş və beləliklə də ərazi həmin qardaşlara nisbətlə Şunizi deyə məşhurlaşmışdır.[2]

Məlum olduğu kimi, 762-ci ildə Abbasi xəlifəsi Mənsur (754-775) Bağdad şəhərinin əsasını qoymuşdur. Bəzi tədqiqatçılara görə, Bağdad adı İslamdan öncəki dövrə aid qədim yaşayış sahələri ilə bağlıdır. Ərəb mənbələri sözün fars mənşəli olduğunu bildirirlər. Məşhur görüşə görə, Bağdad sözü "Allahın ehsanı və ya hədiyyəsi" mənasını verir. Müasir tədqiqatçıların çoxu tərəfindən qəbul edilən bu görüşlə yanaşı, sözün arami mənşəli olduğunu və "ağıl"[3] anlamına gəldiyini iddia edənlər də vardır. Ancaq Hammurabi (m.ö. 1792-1750) qanunlarında Bagdad şəhərindən bəhs edilir ki, bu da sözün fars dilindən gəlmədiyini və çox qədimlərdə də mövcud olduğunu göstərir.

Xəlifə Mənsur qurduğu bu şəhərə Qurani-Kərimdəki[4] "cənnət" mənasında işlənən "darüs-salam" sözündən ilham alaraq "Mədinətüs-salam" adını vermişdi. Bu ad rəsmi sənədlər, sikkələr, çəki və ölçü vahidlərində istifadə edilirdi. Bağdad əvəzinə Buğdan, Mədinətu Əbi Cəfər, Mədinətül-Mənsur, Mədinətül-xüləfa və əz-Zəvra kimi adlar da istifadə edilmişdir. Həmçinin ərəb tədqiqatçıları xəlifə Mənsurun bu şəhəri İslamdan öncəki dövrdə bir çox yaşayış sahəsinin yerləşdiyi yerdə qurduğunu da deyirlər.[5]

Beləliklə, Mənsur tərəfindən salınan Bağdad şəhərinin əş-Şunizi adlanan bu hissəsi xəlifənin göstərişi ilə onun ailəsindən ölən kəslərin dəfn yerinə çevrilmiş və bundan sonra da "Məqbərətül-Qüreyş" adlanmışdır. Mənbələrin verdiyi məlumata görə, burada ilk dəfn olunan şəxs Cəfər bin Əbu Cəfər əl-Mənsurdur. O, hicri 156-cı (miladi 770) ildə vəfat etmişdir.[6]

İmam Museyi-Kazim (745-799) və nəvəsi İmam Məhəmməd Cavadın (811-835) orada dəfn edilməsindən sonra ərazi Kazimeyn adı ilə məşhurlaşmış, elm və mədəniyyət mərkəzinə çevrilmişdir. Bundan sonra bir çox alim və seyidlərin məqbərəsinə çevrilən Kazimeyn şəhəri müsəlman dünyasında müqəddəs şəhərlərdən birinə çevrilmişdir.

Kazimeyndə İmamların hərəmlərinin ibadət yerinin ilk dəfə nə vaxt və kimlər tərəfindən tikildiyi dəqiq bilnməsə də, hicri 336-ci ildə (miladi 947-48) Büveyhi hökmdarlarından Muizzüddövlənin əmri ilə hər iki İmamın məzarlarına iki taxta sənduqə qoyulduğu, üstlərinə bir günbəz və ətraflarına da bir hasar çəkildiyi məlumdur. Amma Bağdadda baş vermiş vətəndaş qırğını zamanı (hicri 443/miladi 1051 və hicri 622/miladi 1225-ci illərdə) türbələr dağıntıya məruz qalmış, Hülaku xanın Bağdadı tutması zamanı isə (656/1258-ci ildə) tamamilə viran edilmişdir. Lakin sonra

---

[1] Şeyx Məhəmmədhüseyn Ali-Yasin. Tarixül-məşhədil-Kazimi. Bağdad, I çap, 1387/1967. s. 12.
[2] Həmin mənbə. Xətib əl-Bağdadi. Tarixu-Bağdad. I c. Qahirə, 1349 h/q. s. 122.
[3] İçərisində mal-qara və qoyun saxlamaq üçün ətrafı tikan və ya ağac ilə hasarlanmış üstüaçıq yer.
[4] əl-Ənam surəsi, ayə 127; Yunus surəsi, ayə 25.
[5] Abdüleziz ed-Duri. DİA. 44 cilddə. VI c. s. 426.
[6] Şeyx Məhəmmədhüseyn Ali-Yasin. Tarixül-məşhədil-Kazimi. s. 12; ət-Təbəri. Tarixüt-Təbəri. VI c. Qahirə, Darül-məarif, s. 288; Xətib əl-Bağdadi. Tarixu-Bağdad. I c. s. 130; Yaqut əl-Həməvi. Möcəmül-buldan. VIII c. Qahirə, 1906. s. 107.

türbələr Hülaku xanın əmri ilə bərpa edilmişdir. Kazimeynin bugünkü mənzərəsi 1519-cu ildə Şah İsmayıl zamanında salınmışdır. Lakin türbənin bəzi naqisliklərı isə 1534-ci ildə Bağdadı ələ keçirən Qanuni Sultan Süleyman tərəfindən tamamlanmışdır. Qacarlardan Məhəmməd Xan 1796-cı ildə bütün xərcləri öz üzərinə götürərək günbəzləri və minarələri xalis qızılla örtdürmüş, daha sonra eyni sülalədən gələn Nəsrəddin Şah da bunları 1870-ci ildə yenilətmişdir.[1]

7.2. İmam Museyi-Kazim və İmam Məhəmməd Təqinin həyat və fəaliyyətləri

İmam Musa əl-Kazim İmam Cəfər Sadiqin oğludur. O, hicri 128-ci (miladi 745-ci) ildə Mədinə şəhərində doğulmuşdur.[2] Onun künyəsi Əbülhəsəndir. Anası Həmidə bint Səid əl-Bərbəriyyədir. Ömrünün yeniyetmə və gənclik illərini Mədinə şəhərində keçirən İmam Kazim atası İmam Cəfər Sadiqin (702-765) vəfatından sonra imamət məqamına yüksəlmişdir. Amma Abbasi xilafətinin siyasətinə tabe olmadığından bütün ömrü çətinlik və məşəqqətlər içində keçmiş, ömrünün on yeddi ilini həbsxanalarda keçirmiş və nəhayət, hicri 183-cü (miladi 799-cu) ildə Abbasi xəlifəsi Harun ər-Rəşidin (786-809) göstərişi ilə Bağdad zindanında şəhadətə yetirilmişdir.[3]

Hicri 179-cu ilin rəcəb və yaxud ramazan ayında (oktyabr və ya dekabr 795-ci il) ümrə üçün və ya həmin ilin zilhiccə ayında (fevral-mart 796-cı il) həcc məqsədilə yola çıxan Harun ər-Rəşid Mədinədə Məscidi-Nəbiyə getmiş və Peyğəmbərin qəbrini ziyarət edərək nəvəsi Museyi-Kazimi həbs edəcəyini, buna görə də ondan üzr istədiyini demişdir. Bundan sonra Museyi-Kazimi həbs etdirmiş və birbaşa Bağdada göndərmiş, digər bir rəvayətə görə isə, xalqın reaksiyasını yüngülləşdirmək məqsədilə Museyi-Kazimi iki qatır üzərinə qoyulan məhmillərdən birinə mindirmiş, Bəsrə və Kufə yolunun ayrıcına gəldikdə, karvan ikiyə ayrılaraq biri Kufə, digəri də Bəsrəyə göndərilmişdir. Bəsrəyə çatan Museyi-Kazim şəhər valisi İsa bin Cəfərə təslim edilmiş və burada bir il həbsdə qalmışdı. Museyi-Kazimin ibadət və təqvasından təsirlənən vali xəlifənin İmamı öldürmək istəyini yerinə yetirməmiş və yazdığı məktubda Museyi-Kazimin əleyhinə bir dəlil tapmadığını, onu başqasına təslim etməsini, əks təqdirdə, onu zindandan azad edəcəyini bildirmişdi. Bundan sonra, xəlifənin Museyi-Kazim Bağdada gətirilərək Fəzl bin Rəbinin nəzarəti altında ev dustağı edilmişdi. İmam xəlifə Harun ər-Rəşidin gördüyü bir yuxuya görə sərbəst buraxılsa da, qısa müddətdən sonra yenidən həbs edilmişdi. Bu dəfə xəlifəyə Fəzl bin Yəhya əl-Bərməkinin nəzarətində ev dustaqlığında saxlanılan Museyi-Kazimə qarşı Fəzlin yaxşı davrandığı bildirilmişdi. Bu xəbərdən sonra xəlifə onun öldürülməsi üçün yazılı əmr göndərmişdi. Lakin bu əmr də icra edilməmiş və əmrin yerinə İmama yüz qamçı zərbəsi vurulduğu nəql edilir. Daha sonra Museyi-Kazim Bağdad şəhərinin polis işçisi Sindi bin Şahəkə təhvil verilmişdi. Fəzl ilə xəlifə arasında baş verən hadisələri öyrənən Fəzlin atası Yəhya bin Xalid xəlifənin yanına gedərək oğlunun etdiyi "səhvə görə" bağışlanmasını və ona verilən vəzifənin özünə verilməsini istəmişdi. Xəlifədən İmamın öldürülməsi əmrini alan Yəhya Bağdada qayıdaraq Sindi bin Şahəklə əlaqə yaratmış və hicri 183-cü ilin rəcəb ayında (miladi 799-cu ilin avqustunda) İmamı şəhadətə yetirmişdi.[4]

İmam Məhəmməd Cavad hicri 195-ci (miladi 811) ildə Mədinə şəhərində doğulmuşdur.[5] Onun anası Səbikənin Peyğəmbərin xanımı Mariya əl-Qibtiyyənin nəslindən olduğu deyilir.[6] İmam Rza onun barəsində buyurmuşdur: "O, pak-pakizə və fəzilətli bir qadındır."

İmam Cavad iyirmi beş il yaşamış və hicri 220-ci (miladi 835) ildə Abbasi xəlifəsi Mötəsim Billahın (833-847) əmri ilə şəhadətə yetişmişdir. Məhəmməd bin Yaqub Küleyninin (876-941) rəvayətinə görə, İmam Cavada həyat yoldaşı Ümmi-Fəzlin vasitəsilə zəhər yedizdirilmiş və Kazimeyn şəhərində babası İmam Museyi-Kazimin məzarının kənarında dəfn olunmuşdur.[7]

7.3. Kazimeyni ziyarət etməyin savabı

[1] Mustafa Öz. DİA. 44 cilddə. XV c. s. 153.
[2] Şeyx əl-Müfid. əl-İrşad. 2 cilddə. II c. II çap, 1414/1993. s. 215; Əllamə əl-Məclisi. Biharül-ənvar. XLVIII c. s. 1.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XLVIII c. s. 1.
[4] Mustafa Öz. DİA. 44 cilddə. XXXI c. s. 220.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. L c. s. 1.
[6] Küleyni. Üsulül-kafi. I c. s. 492; Əllamə əl-Məclisi. Biharül-ənvar. L c. s. 1.
[7] əl-Küleyni. Üsuli-kafi. 1 c. s. 492.

Kazimeyn şəhərindəki İmam Museyi-Kazim və nəvəsi İmam Cavadı ziyarət etməyin savabı haqqında bir çox hədis nəql olunmuşdur. Həmin hədislərdən bəziləri aşağıdakılardır:

İmam Rza buyurmuşdur: "Uca Allah Bağdada atamın qəbrinə xatir nicat vermişdir."[1]

Bərqi əl-Vəşşadan belə nəql edir ki, o, İmam Rzadan atası İmam Museyi-Kazimi ziyarət etməyin savabı haqqında soruşmuş, İmam onun sualının cavabında isə belə buyurmuşdur: "O şəxsin savabı İmam Hüseyni ziyarət etməyin savabı qədərdir."[2]

Hüseyn bin Yasər əl-Vasiti belə nəql edir: "İmam Rzadan soruşdum: "Atan Museyi-Kazimi ziyarət etməyin savabı nədir? İmam buyurdu: onu ziyarət et. Dedim: Axı ziyarət üçün nə savab var? Buyurdu: Onu ziyarət etməyin savabı babası Peyğəmbərin ziyarətinin savabı qədərdir."[3]

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. 99-cu c. s. 2. Hədis № 4.
[2] Həmin mənbə. Hədis № 12.
[3] Həmin mənbə. s. 4. Hədis № 17.

VIII FƏSİL

XORASAN (MƏŞHƏD) ŞƏHƏRİ

8.1. Xorasan sözünün mənaları

Xorasan sözü etimoloji cəhətdən fars mənşəli sözlərdəndir. Bu soz fars dilində olan **"Xor"** və **"İsan"** (və ya "**Asan**") sözlərindən ibarətdir. "**Xor**" sözü farsca "**günəş**", "**İsan**" sözü isə "**doğan**", "**gələn**" mənasındadır. Buna görə də Xorasan sözü lüğətdə "**Günəşin çıxdığı yer**", "**Günəş ölkəsi**", və "**Şərq bölgəsi**" mənasını bildirir.[1]

Xorasan əyalətinin mərkəzi olan **Məşhəd** şəhəri isə lüğətdə "**şəhadət**" kəlməsindən törəmiş "**bir hadisəyə şahid olmaq**", "**bir yerdə hazır olmaq**" və bu kimi mənalardadır.[2] Məşhəd sözü Qurani-Kərimin "Məryəm" surəsində "**böyük günün görülməsi**" [3] mənasında işlənmişdir. Məsumların hədislərində isə məşhəd sözü hər hansı bir şəhərə aid edilməmiş, leksik mənada "**kimsənin şəhid olduğu yer və ya zaman**" mənalarında işlədilmişdir. Həmçinin məşhəd sözü "**insanların toplaşdığı yer**" mənasında da işlənir. Buna görə də dini bir özəlliyə sahib olmuş kimsələrin şəhid olduğu və yaxud dəfn edildiyi yerlərdəki məzar və türbələrdə insanların toplanması nəticəsində bu yerlər məşhəd olaraq anılmışdır.[4] Buna görə də demək olar ki, İmam Rzanın burada şəhid edilməsindən sonra bura "Məşhədi-Rza" adını almışdır. Mənbələrə görə, buranın adını Məşhəd olaraq ilk çəkən şəxs məşhur ərəb coğrafiyaşünası Məhəmməd bin Əhməd əl-Məqdisidir.[5]

Məşhəd şəhəri qədim Tus ərazisni bütünlüklə əhatə etmişdir. Məşhədin də daxil olduğu Xorasan vilayəti hədisi-şəriflərdə Xorasan kimi çəkilmişdir. Lakin çox nadir hallarda bu ərazi hədisi-şəriflərdə Tus adı ilə də yad edilmişdir. Bunu Şeyx Səduqun "Üyuni-əxbarir-Rza" əsərində İmam Cavaddan rəvayət etdiyi hədisdə görmək olar.

8.2. Xorasan şəhərinin tarixi

Xorasan şəhərinin salınma tarixi dəqiq məlum deyildir. Lakin onun qədim yaşayış məskəni olması danılmazdır. Mənbələrə görə, Xorasan Sasanilər imperiyası dövründə salınmışdır.[6] Lakin bəzi qaynaqlar onun Makadoniyalı İsgəndərin bu yerləri işğal etdiyi ərəfədə (m.ö. 330-cu ildə) saldığı da qeyd edilir.[7] Bu haqda Əhməd bin Hənbəlin "əl-Müsnəd" əsərində bir hədis nəql olunmuşdur.[8]

İranın şimal-şərqində yerləşən şəhər böyük coğrafi ərazisi olan bir bölgədir. Xorasan üç hissədən ibarətdir. Onun bir hissəsi Mərv, Nəsa, və Sərəxs Türkmənistan sərhədləri, Bəlx və Herat tərəfi Əfqanıstan sərhədləri, yerdə qalan hissəsi isə İranın sərhədlərinə daxildir.

Xorasan III-XVIII əsrlərdə Orta Şərqdə tarixi vilayət olmuşdur. O iqtisadi cəhətdən Orta Şərqin inkişaf etmiş bölgələrindən idi. Orada hələ orta əsrlər dövründə kağız emalı, toxuculuq işləri inkişaf etmişdir. Məşhur coğrafiyaşünas alim əl-Məqdisinin verdiyi məlumata görə burada qızıl, gümüş, dəmir, firuzə və neft çıxarılırmış.[9]

Xorasanın tarixinin zəngin dövrü İslamın bu yerlərdə zühur etməsindən sonraya təsadüf edir. Xəlifə Ömərin (634-644) Qadisiyyə döyüşündə (636-cı il) Bəsrədən göndərdiyi qüvvələr Abdullah bin Büdeyl bin Varqa əl-Xüzainin komandanlığı altında Xorasanın qapısı adlanan Təbəseynə qədər gəlmişdir. Lakin Təbəseyn camaatı toplaşıb 60 və ya 70 min dirhəm xərac verərək xəlifə ilə müqavilə bağlamışlar.[10] Xorasanın fəth olunması 652-ci ilə xəlifə Osman bin Əffanın (644-656)

---

[1] Əllamə Ələmi. Dairətül-məarif. IX c. s. 71; İslam Ansiklopedisi. XVIII c. İstanbul, 1998. s. 234.
[2] İbn Mənzur. Lisanül-ərəb. Beyrut, 1990. "şhd" maddəsi.
[3] Məryəm surəsi, ayə, 37.
[4] İslam Ansiklopedisi. XXXII c. İstanbul, 2006. s. 363.
[5] Həmin mənbə.
[6] İslam Ansiklopedisi. XVIII c. İstanbul, 1998. s. 234.
[7] Həmin mənbə. s. 235.
[8] Əhməd bin Hənbəl. Müsnədi-Əhməd. V c. s. 357.
[9] Əhsənuü-Təqasim, s. 303.
[10] Əhməd bin Yəhya bin Cabir əl-Bəlazuri. Futuhül-büldan. s. 584-585.

dövrünə təsadüf edir.[1] Xəlifə Osmanın və xəlifə Əlinin (656-661) dövründə bura köçürülən ərəb ordusunun ailələri xəlifə Müaviyənin dövründə (661-680) daha da geniş tərkibdə burada yerləşdirilirdi. Xəlifə Osmanın dövründə Bəsrə valiliyindən Abdullah bin Amir çıxarılıb yerinə Ziyad bin Əbihi gətirildi. Ziyad işğalçılıq siyasətini işə salaraq xilafət ərazisini şərqə doğru genişlətdi və bununla da 652-ci ildə Xorasan və onun ərazilərini tutdu. Bu işdə ona Xorasana Təbəseyn yolu ilə girən sərkərdə Əhnəf bin Qeys köməklik göstərdi. Ziyad bin Əbih burada ilk məscid tikdirdi. Məqdisinin verdiyi məlumata görə, Xorasan Əhnəf bin Qeysin və Abdullah bin Amirin komandanlığı altında fəth edilmiş və əhalisi islamlaşdırılmışdır.[2]

İmam Əlinin xilafəti dövründə baş vermiş daxili iğtişaşlardan istifadə edən Xorasan əhalisi türklər, soğdlular və çinlərin köməkliyi ilə üsyan qaldırdılar. İmam Əli Cədə bin Hübeyrə əl-Məxzuminin onların üstünə göndərdi. Lakin Cədə onlara məğlub oldu. Xorasanlıların xilafətə qarşı bu üsyanları İmamın şəhadətinədək davam etdi.[3]

Müaviyə hakimiyyəti ələ keçirdikdən sonra (661-ci ildə) Abdullah bin Amiri yenidən Bəsrə və Xorasan valisi təyin edir və 663-cü ildə Əbdürrəhman bin Səmurə ilə Qeys bin Heysəm əs-Sülləmi Xorasan vilayətində sakitçilik yaratmaq üçün ora göndərdi. Onlar Bəlx və Kabili işğal etdirlər. Müaviyə 665-ci ildə Ziyad bin Əbihini yenidən Bəsrə valisi təyin edir və bundan sonra müsəlmanlar həmin ərazilərdə öz hakimiyyətlərini daha da qüvvətləndirmiş olurlar.

Xorasanlılar 692-ci ildə Abdullah bin Hazimin rəhbərliyi altında xilafətə qarşı üsyana qalxdılar. Xəlifə Əbdülməlik bin Mərvan (685-705) onların üstünə Bükeyr bin Vəssacı göndədi. Bu üsyan Bükeyr bin Vəssacın komandanlığı altında amansızcasına yatırıldı. Onlar Tus qalasını tutdular. Əməvilərin zülm və sitəminə dözə bilməyən xorasanlılar dəfələrlə xilafətə qarşı üsyanlar qaldırmışlar. Əbəs deyildir ki, Xorasan həmişə Əməvi əleyhdarlarının mərkəzi olmuşdur. Mərvdə məskunlaşan Abbasi ailəsi və onların ətrafında olanlar bu üsyanların baş verməsində mühüm rol oynamışlar. 729-cu ildə Xorasana gələn Süleyman bin Kəsir əl-Xüzai və tərəfdarları məhz burada camaatı bəni-Haşimə beyət etməyə çağırmışdı. Bundan qorxuya düşən Xorasan valisi Nəsr bin Səyyar mərkəzi Bəlxdən Mərvə köçürmüşdür. Xorasanda baş verən ixtilaflardan məharətlə baş çıxaran Əbu Müslüm Xorasani buradakı üsyanlara rəhbərliyi öz öhdəsinə almış və 746-cı ildə Mərvdə yerləşmişdi. O, nəhayət, 748-ci ildə tamamilə Xorasana hakim olmuşdur.[4]

Abbasilərin Xorasanda nəşət tapması və burada uğur qazanmaları bu bölgə haqqında çoxlu sayda hədisin uydurulmasına səbəb oldu. Öz hakimiyyətlərinə dini don geyindirmək üçün onlar hədis dəllallarını ortalığa atıb öz adlarına hədislər uydurdular. Həmin hədislərdən aşağıdakıları qeyd etmək olar.

"Xorasan igid yatağıdır. Allah bir qövmə qəzəb etsə, onların üzərinə xorasanlıları göndərər."

"Cahiliyyə və İslam dönəmində Xorasandan heç bir ordu çıxmamışdır ki, qələbə çalmadan geri qayıtmış olsun."

"Xorasan tərəfdən qarabayraqlılar göründüyü zaman onları qarşılamağa gedin, çünki Mehdi onların içindədir."[5]

Əllamə Məclisi adı çəkilən əsərində İmamdan Rzadan belə bir hədis rəvayət edir: "Qara bayraqlılar Xorasandan çıxacaq və Bəni-Ümməyyəni məğlub edəcəklər."[6]

Bir çox tarixi mənbələrə görə, Xorasanda baş vermiş bütün üsyanların əsas səbəbi xorasanlıların müsəlman olduqları halda onlardan ildə iki dəfə cizyə vergisinin alınması olmuşdur.[7]

Xorasanlılar Abbasilərin hakimiyyətə gəlməsində mühüm rol oynadıqlarına görə ilk Abbasi xəlifələr tərəfindən ali hakimiyyətdə yer almış, mühüm ordu xidmətlərində yüksək vəzifələr tutmuşlar. Bərməkilər bu diyardan köçərək Abbasilərin yanında vəzifə tutmuşlar. Məmun qardaşı

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXIII c. s. 229.
[2] Əhsənüt-Təqasim. s. 393.
[3] Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixüt-Təbəri. V c. s. 64.
[4] Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixüt-Təbəri. VII c. s. 377, 379.
[5] Yaqut əl-Həməvi. Möcəmül-büldan. II c. s. 351, 353; Yaşar Kandemir. Movzu hadisler. İstanbul, 1997. s. 37-38.
[6] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXXIII c. s. 264.
[7] Əhməd bin Yəhya bin Cabir əl-Bəlazuri. Futuhül-büldan. s. 622, 625; Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixüt-Təbəri. VII c. s. 559; Məqdisi. Əhsənüt-təqasim. s. 295.

Əminə bu diyarın əhalisinin köməkliyi ilə qalib gəlməsi (813-cü ildə) də xorasanlıların sayəsində gerçəkləşmişdir.

Məmunun xilafəti ələ keçirməsində ona yaxından yardımçı olmuş Tahir bin Hüseyn 822-ci ildə Xorasan valisi olduğu halda mərkəzi xilafətə tabe olmaqdan boyun qaçırdı. Tahirilər sülaləsi adlanan Tahir bin Hüseynin ardıcılları yarım əsr burada hakimiyyətdə oldular (821-873). Bundan sonra Tahiriləri məğlub edib onların yerinə gələn Səffarilər (867-908) 873-cü ildən 900-cü ilədək, yəni Samanilərin (875-999) onları süquta uğratmalarınadək burada hakimiyyət sürdülər.

Xorasan X əsrin sonlarında Qəznəlilərin (977-1186) hakimiyyəti altına keçdi və 1036-cı ildə Səlcuqilərin buranı tutmasına qədər onların əlində qaldı[1]. 1040-cı ildə bütünlüklə Səlcuqilərin hakimiyyəti altına keçən Xorasan təxminən 100 il onların hakimiyyəti altında qaldı. Bundan sonra Xorasan Xarazmşahların əlinə düşdü. 1220-ci ildə müsəlman dünyasına hücum edən monqollar Çingiz xanın rəhbərliyi altında Xorasanı məhv etdilər.[2]

XVI əsrin əvvəllərində Özbək xanı Şeybani xanın əlində olan Xorasan 1510-cu ildə Şah İsmail Səfəvi tərəfindən tutuldu və bundan sonra 1736-cı ilədək səfəvilərin əlində oldu. Səfəvilərin süqutundan sonra Xorasanın bir hissəsi (Herat və Bəlx) Əfqanıstanın, bir hissəsi isə İranın tərkibinə keçdi.[3]

1739-cu ildə Nadir Şah Xorasanı tutdu. Onun ölümündən sonra (1747) Xorasan Əfqanlı Əhməd Şah Əbdəlinin əlinə keçdi (1750-ci ildə). Ancaq Qacarlar 1779-cu ildə hakimiyyəti ələ keçirən kimi Xorasana sahib oldular. Bundan sonra İran-Əfqan müharibələri İranın Əfqanıstana tərəf genişlənməsini sürətləndirdi. Bu isə İngiltərə dövlətinin siyasətinə uyğun olmadığından İngiltərə bu münaqişəyə qoşuldu. İngiltərə dövlətinin təşkil etdiyi İngiltərə-İran-Əfqanıstan komissiyası sayəsində 1872-ci ildə İranla Əfqanıstan arasında sərhədlər müəyyən olundu. Bundan sonra İrana soxulan rus ordusu 1885-ci ildə Mərvi işğal edib oranı taladı.

8.3. Xorasanın İslam elmlərinin inkişafında rolu

Xorasan şəhəri İslam elmlərinin inkişafında mühüm mərkəzlərdən biri olmuşdur. Burada müxtəlif məzhəblərin təbliğ edilməsi, hər məzhəbdən olan alimlərin buraya toplanması müxtəlif İslam elmlərinin inkişaf etməsinə zəmin yaratmışdır. Əbəs deyildir ki, Quran elmləri, hədis elmləri, fiqh və qrammatika elmləri sahəsində öndər olan alimlərin böyük bir hissəsi məhz Xorasanda yetişmiş, oranın alim və fəqihləri ümumi İslam mədəniyyətinin inkişafına böyük töhfələr vermişlər. İmam Rzanın Xorasana vali təyin edilməsi bu və digər elmlərin sürətlə inkişaf etməsinə daha da güclü təkan vermişdir. İmamın müxtəlif dərs həlqələri təşkil etməsi hədis və fiqh elmlərinin bu bölgədə daha da dərinləşməsinə səbəb olmuşdur.

Xorasanda Quran elmlərinin inkişafında tabiilərdən Mərv qazisi Yəhya bin Yəmər əl-Ədvaninin rolu danılmazdır. O, burada Quran dərsini qoyan ilk şəxsdir[4]. Bundan başqa Haricə bin Müsəb əd-Dubai əs-Sərəxsi, Dəhhak bin Muzahim, Cubeyr bin Səid əl-Əzdi əl-Bəlxi, Ubeyd bin Süleyman əl-Mərvəzi, Nəhşəl bin Səid ən-Nisaburi, Həsən bin Yəhya əl-Mərvəzi və digərləri qiraət və təfsir elmlərinin Xorasanda yayılıb genişləndirilməsində müstəsna xidmətlər göstərmişlər.

Hədis elmlərinin bu bölgədəki inkişafına gəldikdə isə demək olar ki, Xorasan bu elmin beşiyi olan bölgələrdəndir. Çünki Xorasan fəth olunduqdan sonra bir çox səhabələr, o cümlədən Büreydə bin Hüseyb, Əbu Bərzə əl-Əsləmi, Həkəm bin Əmr əl-Qiffari, Əbdürrəhman bin Səmurə, Küsəm bin Abbas əl-Haşimi və digərləri ora yerləşmiş və Peyğəmbərdən hədis nəql etmişlər. Bununla da xorasanlılar hədisi ilk qaynağından almaq fürsətini əldə etmiş oldular. Artıq VIII əsrin ikinci yarısından etibarən Xorasan məşhur hədisşünasların elm ocağına çevrildi. Burada görkəmli hədisçilər, o cümlədən İbrahim bin Tahman, İshaq bin Rahuyə, Məhəmməd bin Yəhya əz-Zühli, Müslüm bin Həccac əl-Qüşeyri, Hakim ən-Nisaburi, İbn əs-Sindi, Abdullah bin Büreydə, Abdullah bin Mübarək, Əli bin Hücr, Məhəmməd bin İsa ət-Tirmizi və başqaları fəaliyyət göstərmiş və hədis elminə aid dəyərli əsərlər yazmışlar.

---

[1] İslam Ansiklopedisi. XVIII c. İstanbul, 1998. s. 237.
[2] İbn Əsir əl-Cəzəri. əl-Kamil fit-tarix. XII c. s. 390, 393.
[3] Azərbaycan Sovet Ensiklopediyası. X c. Bakı, 1987. s. 99.
[4] Bax: İslam Ansiklopedisi. XVIII c. İstanbul, 1998. s. 238.

Ərəb dili və ədəbiyyatı elmləri də Xorasan şəhərində çox yüksək səviyyədə inkişaf etmişdir. Əbəs deyildir ki, bu elmlər sahəsinə aid yazılmış bir çox mühüm əsərlər burada yazılmışdı. Ərəb dili və ədəbiyyatı sahəsində öz dövrlərində qabaqcıl alimlərdən olmuş bəzi şəxslər məhz Xorasanda yetişmişlər. Onlardan "Qəribül-müsənnəf", "Qəribül-Quran" və "Qəribül-hədis" əsərlərinin müəllifi Əbu Übeyd Qasim bin Sallam əl-Hərəvi (öl. 838), "Təhzibül-lüğə" əsərinin müəllifi Əbu Mənsur Məhəmməd bin Əhməd əl-Əzhəri, "əl-Mühit" adlı lüğətin müəllifi Sahib bin Abbad ət-Təleqani, "əl-Vəsata beynəl-Mütənəbbi və xüsumihi" adlı əsərin müəllifi Əbülhəsən əl-Cürcani, "Qəribeyn" əsərinin müəllifi Əbu Übeyd Əhməd bin Məhəmməd əl-Hərəvi, "Şərhu həmasəti Əbi Təmmam", "Şərhu divanil-Mütənəbbi" əsərlərinin müəllifi Əbülmüzəffər Məhəmməd əl-Hərəvi və başqalarını qeyd etmək olar.[1]

Xorasan şəhəri Peyğəmbərin dövründə fəth edilməməsinə baxmayaraq, o Həzrətin dilində zikr olunan məşhur şəhərlərdəndir. Doğrudur, Xorasanla əlaqədar Peyğəmbərin adına çoxlu sayda hədis uydurulmuşdur. Bu hədislər demək olar ki, Abbasi xəlifələri dövründə uydurulmuşdur. Lakin bununla yanaşı, Xorasanın adı keçən çoxlu sayda doğru-düzgün hədis də vardır. Bu hədislərin bir hissəsində Xorasanın adı birbaşa qeyd edilmiş, bəzilərində isə onun adı Şəq və ya Məşriq kimi çəkilmişdir. Həmçinin nəql olunmuş hədislərin bir hissəsində Xorasan küfr diyarı və Dəccalın zühur edəcəyi yer kimi qeyd edilmişdir. Bunun da səbəbi ola bilsin ki, bu diyarın Peyğəmbərin dövründə həmin yerin islamlaşmamış olmasına görədir. Bu növdən olan hədislər mötəbər hədis ədəbiyyatlarında özünə yer almışdır. Həmin hədislərdən aşağıdakıları qeyd etmək olar:

Cabir bin Abdullah əl-Ənsari Peyğəmbərdən rəvayət edir: "Sərtqəlblilik və cəfakeşlik Şərqdə, iman isə Hicazdadır."[2]

Əbu Bəkr bin Əbi Qühafə rəvayət edir: "Dəccal Şərqdən, Xorasan adlanan yerdən çıxacaqdır. Ona üzləri çəkiclə döyülmüş qalxan kimi olan bir qövm tabe olacaqdır."[3]

Büreydənin nəqlinə görə, Peyğəmbər onlara Xorasan şəhərinə gedən orduya qoşulmağı, Mərv şəhərində məskunlaşmağı buyurmuşdur. Çünki buranı Zülqərneyn salmış, buranın bərəkətli və əhalisi ziyan görməyən bir bölgə olduğunu demişdir.[4]

Ənəs bin Malik Peyğəmbərdən rəvayət edir: "Ceyhun çayının arxasında Xorasan şəhəri vardır. Ona Səmərə eqənd də deyirlər. Oranın qorunan çoxlu qapıları vardır. Bu qapıların hər birində beş min mələk vardır ki, onlar Allahı təsbih edib ona həmd edərlər. O mələklər deyərlər: "Ey Daim, ey Səməd olan Allah bu şəhəri hifz et." O şəhərin arxasında cənnət bağçalarından bir bağça vardır."[5] Bu hədisi öz əsərində qeyd edən görkəmli alim Əllamə Hairi yazırdı: "Əgər bu hədisin doğru olduğunu fərz etsək, bu İmam Rzanın məşhədinə aid olacaqdır."

Xorasan haqqında Peyğəmbərdən nəql olunmuş hədislərin böyük hissəsi onun Əhli-beytindən olan VIII İmamın orada dəfn olunacağına və onu ziyarət etməyin savabına aiddir. Bu haqqda İmamlardan da şoxlu sayda hədislər nəql olunmuşdur. Alimlərimiz bu hədislərin əksəriyyətinin səhih olduğunu sübut etmiş və onlara şəksiz inanmağı tövsiyə etmişlər. Həmin hədisləri xüsusi başlıq altında toplamaq daha məqsədəuyğun hesab olunduğundan onları aşağıdakı başlıq altında yerləşdirdik.

8.4. Xorasanı (İmam Rzanı) ziyarət etməyin savabı

Peyğəmbər buyurur: "Bədənimin bir hissəsi Xorasanda dəfn ediləcəkdir. Onu ziyarət edən elə bir mömin yoxdur ki, Allah ona Cənnəti vacib etməsin. Allah onu ziyarət edən şəxsin bədəninə Cəhənnəmi haram edər."[6]

İmam Rza buyurur: "Xorasanda bir ərazi vardır. Bir vaxt gələcək ki, mələklər oraya dəstə-dəstə gedib-gələrlər. Onlardan Sur üfrülənədək bir dəstə enər, digər dəstə isə qalxarlar." İmama deyildi: "ey Allah Rəsulunun oğlu, o ərazi hansı yerdir?" İmam buyurdu: "O Tusdur. And olsun

[1] Bax: həmin mənbə. s. 240.
[2] Səhihi-Müslim. ər-Riyad, II çap, 1421/2000. s. 44. Hədis № 193.
[3] Sünəni-Tirmizi. Dəməşq, I çap, 1424/2004. s. 627. Hədis № 2237. Tirmizi bu hədisin səhih olduğunu qeyd etmişdir.
[4] Əhməd bin Hənbəl. Müsnədi-Əhməd. V c. s. 357.
[5] Yaqut əl-Həməvi. Möcəmül-büldan. III c. s. 407. V c. s. 125; Əllamə əl-Hairi. Dairətül-məarif. IX c. s. 72.
[6] Məhəmməd bin Babaveyh əl-Qummi. əl-Məcalis. s. 38.

Allaha! Ora Cənnət bağlarından bir bağdır. Hər kəs həmin yerdə məni ziyarət etsə, Peyğəmbəri ziyarət etmiş kimidir. Allah həmin şəxsə min qəbul olunmuş həccin və min qəbul olunmuş ümrənin savabını yazar. Mən və ata-babam Qiyamət günü ona şəfaətçi olarıq."[1]

İmam həmçinin buyurmuşdur: "Bizdən elə bir şəxs yoxdur ki, öldürülüb şəhid edilməsin." İmama deyildi: "Səni kim öldürəcək?" Həzrət buyurdu: "Məni dövrümün ən şər adamı öldürəcək. O, məni zəhərlə öldürəcək, sonra məni evdə, qərib bir yerdə basdıracaqlar. Xəbərdar olun! Hər kim məni bu qərib yerdə ziyarət etsə, Allah ona yüz min şəhidin, yüz min siddiqin, yüz min həccin, yüz min ümrənin və yüz min mücahidin savabını yazar. O, bizim zümrədə dirildilər və bizim dostlarımzla birlikdə Cənnətin ən uca yerində olar."[2]

"Tərəfdarlarıma xəbər verin ki, məni ziyarət etsinlər. Hər kim məni tanıyaraq və mənim haqqımı bilərək ziyarət etsə, Allah ona min-min həccin savabını yazar."[3]

Bir kişi gəlib İmam Rzaya dedi: "Ey Allah Rəsulunun oğlu! Yuxumda gördüm ki, Peyğəmbər mənə deyirdi: "mənim bədənimin bir hissəsi sizin torpaqda dəfn edildikdə necə olacaqsınız?" Mənim qəbrimi qoruyun. İmam buyurdu: "Sizin torpağınızda dəfn olunan mənəm. Peyğəmbərnizin bədəninin bir hissəsi mənəm. Bilin! Hər kim məni Allahın vacib etdiyi haqqımı və itaətimi bilərək ziyarət etsə, Qiyamət günü mən və ata-babam ona şəfaətçi olarıq və onun üzərində ins və cinin günahları olsa belə, o şəxs nicat tapar."[4]

Məxul Sicistani rəvayət edir: "İmam Rzaya Xorasandan məktub gələndə mən Mədinə şəhərində idim. O, Peyğəmbərin məscidinə girib orada dua edib ucadan ağladı. Mən ona yaxınlaşıb salam verdim. O, dedi: "Məni ziyarət edin, mən babamın yanından gedirəm, qərib bir yerdə vəfat edəcəm və Harunun yanında dəfn ediləcəyəm. Mən onun ardınca Tusa getdim. O, vəfat etmiş və Harunun yanında dəfn edilmişdi."[5]

İmam Cavad buyurur: "Atamın haqqını tanıyaraq Tus vilayətini ziyarət edən şəxs üçün Allah yanında cənnətə getməsinə zaminəm."[6]

İmam Kazım buyurur: "Hər kəs oğlum Rzanı ziyarət edərsə, Allah ona 70 min həccin savabını verər."[7]

İmam Rza buyurur: "Hər kəs məni qürbətdə ikən uzaqdan ziyarət edərsə, Qiyamət günü üç yerdə gəlib onun nigarançılığını qaldıraram: əməl dəftəri sağ və ya soldan veriləndə, siratdan keçəndə və əməl tərəzisində əməllər çəkiləndə."[8]

İmam Əli buyurur: "Tezliklə mənim övladlarımdan biri zəhərlə şəhid ediləcəkdir. Onun adı mənim adım, atasının adı isə İmran oğlu Musanın adındandır. Agah olun, hər kəs onu qürbətdə ziyarət etsə, keçmiş və gələcək günahları ulduzlar, yağışın dənələri və ağacların yarpaqları qədər olsa belə, Allah bağışlayacaqdır."[9]

İmam Cavad buyurur: "Hər kəs atamı ziyarət etsə, onun üçün cənnət vardır."[10]

Hədisi-şəriflərdə Xorasan şəhərinin adı daha çox zühurla əlaqəli keçir. Bu qrupdan olan hədislərdə qarabayraqlıların məhz Xorasandan çıxması haqqında məlumat vardır. Həmin hədislərdən aşağıdakıları qeyd etmək olar:

Əbu İsa ət-Tirmizi (824-893) Peyğəmbərdən rəvayət edir: "Xorasandan qara bayraqlılar çıxacaqdır, heç bir şey onları qaytarmağa qadir olmayacaqdır. Nəhayət, onlar bayrağı İlyada yellədəcəklər."[1]

---

[1] Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. Beyrut, Müəssisətu Ali-Beyt, 1408/1987. X c. s. 361. Hədis № 12184; Əllamə əl-Hairi. Dairətül-məarif. X c. s. 76.

[2] Məhəmməd bin Babaveyh əl-Qummi. əl-Məcalis. s. 39.

[3] Əllamə əl-Hairi. Dairətül-məarif. X c. s. 77.

[4] Həmin mənbə.

[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. Beyrut, Müəssisətul-vəfa, II çap, 1403/1983. XLIX c. s. 117.

[6] Şeyx əs-Səduq "Üyuni-əxbarir-Rza (ə)" əsərində nəql etmişdir.

[7] Əbdürrəhman Yusifpur. Məşhəd və Kərbəla ziyarəti. Bakı, 1997. s. 16.

[8] Mir Cəfər Eyyubzadə. Ziyarətnamələr. Bakı, Qələm nəşriyyatı, 2005. s. 61. Xatırladaq ki, bu hədisi Şeyx əs-Səduq "Uyuni-Əxbarir-Rza" əsərində nəql etmişdir.

[9] Mir Cəfər Eyyubzadə. Ziyarətnamələr. s. 60. Xatırladaq ki, bu hədisi Şeyx əs-Səduq "Uyuni-Əxbarir-Rza" əsərində rəvayət etmişdir.

[10] İbn Quləveyh. Kamilüz-ziyarat. Qum, Nəşrül-fəqahə, 1424 h,/q. s. 505. Hədis № 1.

İmam Əli buyurur: “Qara bayraqlılar Xorasandan Kufəyə gələcəklər. Mehdi zühur etdikdə isə beyət orada olacaqdır.”[2]

“Süfyaninin [3] süvariləi Xorasan əhlini axtarmağa gələr və Kufədə Ali-Məhəmməd tərəfdarlarını öldürərlər. Sonra Xorasan əhli həzrət Mehdini axtarmaq üçün çölə çıxar.”

İmam digər bir hədisində buyurur: “Süfyaninin süvariləri Xorasan əhlini axtarmağa gələr və Kufədə Ali-Məhəmməd tərəfdarlarını öldürərlər. Sonra Xorasan əhli həzrət Mehdini axtarmaq üçün çölə çıxar.”[4]

İmam Baqir buyurur: “Süfyani sayı yetmiş min nəfərə çatan bir qoşunu Kufəyə göndərəcək, oranın əhalisini qətlə yetirmək, dara asmaq və əsir tutmaqla müsibətə düçar edəcəkdir. Bu halda Xorasan tərəfdən qara bayraqlılar gələcək, evləri biri digərindən sonra sürətlə geridə qoyacaqlar.”[5]

8.5. İmam Rzanın məqbərəsi (Asitane-Qüds)

İmam Rzanın məqbərəsi yerləşən yer Xorasanın Məşhəd şəhəridir. Bu yer ilk öncə Tus vilayətinin Nukan (və ya Noğan) qəzasına aid olan Sənabad kəndi olmuşdur. Tus şəhərinin qədim qaynaqlardakı adı Təbəran olmuşdur. O Kəşfurud çayının sahilində yerləşir. Nukan hicri IX əsrin sonlarınadək Tusun ən mühüm məntəqələrindən olmuşdur. Bura səfər edən məşhur Abbasi xəlifəsi Harun ər-Rəşid 809-cu ildə burada ölmüş və burada da dəfn edilmişdir. Onun dəfnindən sonra oğlu Xorasan valisi Məmun atasının qəbrinin üstündə bir türbə tikdirdi. Məmun Mərv şəhərini özünə iqamətgah etdikdən sonra Bağdada qardaşı Əminin üstünə yürüş edib onu öldürdü (813) və bütün xilafəti öz əlində cəmləşdirdi. O, bir çox siyasi məqsədlərini həyata keçirmək üçün İmam Rzanı özünə vəliəhd təyin edib onu Xorasana vali təyin etdi. İmamı Mərvə gətirən Məmun öz qızı Ümmi-Həbibi ona ərə verdi (816-cı ildə). Bundan iki il sonra Bağdaddan Mərvə, oradan da İmam Rza ilə birlikdə atasının ziyarətinə gələn Məmun Sənabadda İmamı zəhərlətdi. İmam həmin yerdə Harun ər-Rəşidin qəbrinin baş tərəfində qərb istiqamətində torpağa tapşırıldı. Bundan sonra həmin yer “Məşhəd” adlandı. İmamın burada dəfn edilməsi müsəlmanların, xüsusilə də tərəfdarlarının ora köçmələrinə və orada məskunlaşmalarına səbəb oldu. Buna görə də şəhər yavaş-yavaş genişlənməyə başladı. Onun daha da genişləndirilib böyük şəhərə çevrilməsi məşhur səfəvi hökmdarı I Şah Təhmasibin (1524-1576) dövrünə təsadüf edir. O, Tus şəhərinin də əhalisini Məşhəd şəhərində məskunlaşdırdı və bununla da şəhərin mərkəzi şəhərlərdən birinə çevrilməsinə bais oldu.

Harun ər-Rəşidin yanında dəfn edilən İmamın türbəsində Deyləmilərə qədər hər hansı bir təmir və ya genişləndirmə işinin aparılması haqqında heç bir məlumat yoxdur. Burada ilk təmir və genişləndirmə işləri Deyləmilər dövrünə təsadüf edir. [6] Bu işi Deyləmi hökmdarı Əzüddövlə Deyləmi həyata keçirmişdir. Lakin onların tikdirdiyi yeni türbə kompleksi Qəznəli hökmdarı Səbuktəkin (977-997) tərəfindən dağıdıldı (994-cü ildə). O, türbəni dağıtmaqla yanaşı, onun bir daha tikilib təmir edilməməsi üçün xüsusi göstəriş də verdi. Amma onun oğlu Mahmud Qəznəli (998-1030) hakimiyyətə gələn kimi atasının siyasətinə zidd olaraq türbənin yenidən qurulması haqqında göstəriş verdi. Əslində o, bu ərazidə yaşayan tərəfdarları ələ almaq və onlara əziyyət olmasın deyə bu addımı atmışdı.[7] O dövrün Nişapur valisi Əbülfəzl Suri türbəyə yeni bina ilə

---

[1] Səhihi-Tirmizi. III c. s. 362. Bu hədisin sənədi haqqında Tirmizi “qərib həsən” demişdir. Hədis İbn Kəsirin “ən-Nihayə”, Əhməd bin Hənbəlin “Müsnəd” və Beyhəqinin “Dəlailün-nübüvvət” kitablarında da rəvayət olunmuşdur. Bir az fərqli formada şiə alimi İbn Tavusun “əl-Məlahim vəl-fitən” əsərində də qeyd olunmuşdur (s. 43-58).

[2] Şeyx ət-Tusi. əl-Ğeybə. s. 274; Seyid Məhəmməd əs-Sədr. Məta yəzhərül-Mehdi (ə). s. 32. Bu rəvayəti “Qara bayraqlılar Xorasandan çıxarlar, onların qarşısın kimsə ala bilməz və onlar bayraqlarını İlyaya (Qüdsə) sancarlar”, şəklində Tirmizi də rəvayət etmiş və sənədi “qərib həsən”dir demişdir (bax: “Sünəni-Tirmizi” III c. s. 362).

[3] Süfyani İmam Mehdinin hərakatı zamanı peyda olan və İmamla əks cəbhədə dayanıb onunla düşmənçilik edən şəxsdir. Onun Süfyani adlanmasının səbəbi isə Əbu Süfyanın övladlarından olmasıdır. Süfyani haqqında bax: Əli Kurani, Zuhur Əsri, s. 82-dən sonra. Həmçinin, Hakim ən-Nisaburi. əl-Müstədrək ələs-səhiheyn. IV c. s. 482.

[4] Əli Kurani. Zühur əsri. s. 87.

[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. LII c. s. 238.

[6] Bax: İslam Ansiklopedisi. IV c. s. 484.

[7] İbn Əsir. əl-Kamil fit-tarix. IX c. s. 401.

yanaşı bir minarə də tikdirdi (1037-1038) və ayrıca satın aldığı bir kəndi türbəyə bağışladı.[1] Onun tikdirdiyi bu minarə Qəznəli hökmdarı Sultan Məsudun (1030-1040) vəziri Əbülhəsən İraqinin "Məscidi-Bəlasər" adlı tikdirdiyi məscidlə birlikdə günümüzədək qalmaqdadır.

Məşhəd ziyarətgahı 1116-cı ilin mayında baş vermiş məzhəbi toqquşma nəticəsində dağıldı və orada bir daha xütbə oxumaq qadağan edildi.

Səlcuqlar döründə də hərəmin təmir işi olmuşdur. Belə ki, Əmir İmaduddövlə oranı təmir etdirmişdir. Soltan Səncərin vəziri Şərafəddin Əbu Tahir Qumi məzarın üstündə künbəz tikdirmiş və oranı nəfis şəkildə bəzətmişdir. Onun gördüyü bu iş 1118-ci ildə həyata keçmişdir.[2]

İmamın türbəsi 1153-cü ildə baş vermiş döyüşlər zamanı da dağılmış, lakin tez bir zamanda Sultan Səncər tərəfindən təmir edilmişdir (1162-ci ildə).

Xarəzmşahların da dövründə türbə təmir edilmişdir. Onlar hərəmin əsasən kaşılarına diqqət yetirmiş və onları səncəri kaşıları ilə əvəz etmişlər. Onların gördüyü bu işlər 1215-ci ilə təsadüf edir. Bundan başqa Xarəzmşahlar qəbrin ətrafını çini kaşılar və kitabə ilə də bəzəmişdilər. Bu kitabədə İmamın şəcərəsi süls xətti ilə gözəl şəkildə yazılmışdır.

Monqolların müsəlman ölkələrinə hücumu zamanı türbə Toluy Xan tərəfindən xarabaya çevrildi. Türbənin bu cür xaraba vəziyyətdə qalması Elxani hökmdarı Qazan Xanın (1295-1304) hakimiyyətə gəlməsinədək davam etdi. Qazan Xan hakimiyyətə gəldikdən sonra türbəni təmir etdirdi və ona qübbə də tikdirdi. Onun yarımçıq qalmış bu böyük işinin qardaşı Xudabəndə (1304-1317) davam etdirib sona çatdırdı (1316).

Asitani-Qüds Teymurləngin oğlu Şahruxun hakimiyyətinədə (1405-1447) beləcə qaldı. Şahrux məşhur iranlı memar Qivamiddin Şiraziyə gözəl bir məscid tikdirdi (1418-ci ildə). Bundan əlavə o, hərəmə 3000 misqallıq qızıl qəndil hədiyyə etdi. Şahruxun arvadı Cövhər Şad Ağa ərinin xatirəsinə türbənin qiblə istiqamətinə "Məscidi-cami" adlı bir məscid tikdirdi. Cövhər Şadın xidmətçilərindən olan Pərizad da Məşhəddə bir mədrəsə tikdirdi. Həmin mədrəsə "Məscidi-Pərizad" adı ilə məşhur oldu. Onların tikdirdiyi bu məscidlər teymurilər dövrünün ən yaxşı abidələrindən hesab olunur.

İmamın hərəmi Səfəvilər dövründə bir az da genişləndirilib təmir edildi. Bu dövr artıq hərəmin qızıl ilə işləmə dövrü hesab edilir. Bu dövrdə künbəz və iki minarə qızıl ilə işlənmiş və qəbir üzərində ilk zireh hazırlanmışdır. Şah Təhmasib (1524-1576) hərəmin qübbəsini və qübbənin yanındakı minarəni təmir etdirdi (1525-ci ildə) və ilk dəfə olaraq künbəzi qızıl ilə bəzətdirdi. Həmçinin ilk dəfə onun tapşırığı ilə 1550 -ci ildə qəbirin üstünə ilk zireh düzəldildi. Özbək xanı Əbdulmömin 1588-ci ildə ziyarətgaha hücum edib oranı talan etdi. Birinci şah Abbas ora səfər etdiyi ərəfədə hərəmi yenidən qızılla bəzətdi. Onun başladığı bu iş 1607-ci ildə sona yetdi. Şah Abbasın Məşhədə gəlişini və künbəzi qızılla təmir etdirməsini memar Əlirza Abbasi süls xətti ilə abidənin aşağı hissəsinə yazmışdır.

Şah Süleyman Səfəvi də 1673-cü ildə zəlzələ nəticəsində künbəzin qopmuş qızıllarını bərpa etdirmişdir. Onun bu işini isə Məhəmməd Rza İmami künbəzin alt hissəsində yazıb qeyd etmişdir.

Bundan sonra hərəm Əfşarlar dövründə 1729, 1733-1734-cü illərdə təmir edilmişdir. Əfşarilər dövründə künbəz yenidən qızıl ilə bəzədilmişdir.

Türbənin sonrakı təmiri Qacarlar dövrünə təsadüf edir. Bu dövrdə hərəm güzgü ilə bəzədilmişdir. Nadir Şahın dövründə (1736-1747) Məşhəd qızıl dövrünü yaşayırdı. Şəhəri dövlətin paytaxtı edən Nadir Şah Şah Təhmasibin tikdirdiyi minarəni təzələdi və ora çox qiymətli hədiyyələrlə yanaşı, 400 əlyazma əsər bağışladı.[3] Bu dönəmdə Fətəli Şah (1797-1834) hərəmin yanında "Səhni-nov" adlı saray tikdirmişdir (1803-cü ildə). Məqbərəni 1858-ci ildə Qaimməqam Nuri güzgü ilə bəzəmişdir.

[1] İslam Ansiklopedisi. IV c. s. 484.
[2] İşığa doğru jurnalı № 9. s. 117.
[3] İslam Ansiklopedisi. İstanbul, 2006. XXXII c. s. 364.

Pəhləvilər dövründə (1925-1979) Asitani-Qüdsün tikintisinə xüsusi diqqət yetrilmiş və orada dəyişiklilər edilmişdir. Belə ki, Rza Şah Pəhləvi 1928-ci ildə Məşhədi ziyarət edərkən hərəmin ətrafındakı yolların düzəldilməsini əmr etdi.[1]

Məqbərənin genişləndirilməsi və köklü şəkildə təmir edilməsi İranda baş vermiş İslam inqilabından (1979) sonrakı dövrə düşür. Çünki İranda baş vermiş inqilabdan sonra Məşhədə ziyarətə gələnlərin sayı əvvəlki illərə nisbətən daha da artmış və nəticədə məqbərənin genişləndirilməsi məsələsi gündəmə gəlmişdir. Buna görə də rəsmi dövlət məmurları məqbərənin genişləndirilməsi, zəvvarlara xidmət mədəniyyətinin yüksəldilməsi və ziyarətə gələnlərin daha da rahat şəraitdə ibadət etməsi üçün müəyyən planlar hazırladılar. Hazırlanmış plan əsasında mühüm işlər görüldü. Əbəs deyildir ki, inqilaba qədərki dövrdə məqbərənin ümumi sahəsi 12 ha idisə, inqilabdan sonrakı hazırkı dövrdə onun sahəsi 90 ha.-dır.[2]

Bu illər ərzində məqbərənin təkcə öz sahəsi deyil, eyni zamanda, orada mədəniyyət, xidmət ibadət və ziyarət sahəlirinin genişləndirilməsi üçün də işlər görülmüşdür. Mədəniyyət sahəsində görülmüş ən ümdə işlərdən biri də orada elm ocaqlarının tikilməsidir. Belə ki, Məşhəddə İslam elmləri Universiteti, İslami araşdırmalar Fondu, Xorasan Hövzələr Müdürlüyü, Mərkəzi kitabxana və s. binaları orada görülmüş işlərə əyani misaldır.

Həmçinin əvvəlki illərdə ümumi sahəsi kiçik rəqəmlərlə ölçülən hərəmin indiki sahəsi 182000^2 metrdir.

8.6. İmam Rzanın həyatı

İmam Rza cümə günü, zilhiccə ayının on birində, 147-ci və yaxud da 153-cü hicri ilində (miladi 768-ci il) Mədinə şəhərində doğulmuşdur.[3] Lakin məşhur alim Şeyx Səduq onun hicri 153-cü ilin rəbiül-əvvəl ayının on birində doğulduğu qənaətinədir.[4] Şeyx Müfid isə onun hicri 148-ci ildə Mədinədə doğulduğunu qeyd etmişdir.[5]

İmam Rza yeddinci imam Museyi-Kazimin oğludur. Onun anasının adı isə Xeyzəran və ya Nəcmə olmuşdur.

İmam Rzanın ən məşhur künyəsi Əbülhəsəndir. Lakin bununla yanaşı, onun Əbu Bəkr künyəsinin də olduğunu deyənlər vardır.

İmamın əsil adı Əli olsa da o, daha çox Rza ləqəbi ilə tanınr. Onun Rza adlanması haqqında alimlərin fikri budur ki, Allah onun adlanmasından razı olduğu üçün belə ləqəbləndirilib.[6]

Bir nəfər İmam Məhəmməd Cavaddan soruşur: "Nəyə görə sənin atan Rza addlandırılıb? Məgər sənin keçmiş babalarından Allah razı deyilmi?" İmam buyurdu: "Çünki onun düşmənlərindən olan müxaliflər də, dostlarından olan münafiqlər də ondan razı idilər. Amma onun ata-babalarından heç kəs belə deyildi."[7] Lakin bəzi rəvayətlərdə İmamın Rza adlanmasının səbəbi münafiqlərin bəzisinin onun dostlarına çevrilməsinə görə olduğu göstərilir.[8]

Bundan başqa, onun Sabir, Rəzi, Vəfi ləqəbləri də olmuşdur.[9]

Mənbələrin verdikləri məlumata görə, onun altı övladı olmuşdur. Onların biri qız, digərləri isə oğlan uşaqlarıdır. Onların adları aşağıdakılardır:

1. Məhəmməd əl-Qani.
2. Həsən.
3. Cəfər.
4. İbrahim.

---

[1] Geniş məlumat üçün bax: A. Mutəmən. Tarixi-Asitane Qüdsi Rəzəvi. Tehran, 1348 h/ş. Həmin müəllifin "Əbniyayi-Asitane Qüdsi Rəzəvi" (Tehran, 1339 h/ş.) və Əbdülhəmid Movləvinin "Asitane Qüdsi Rəzəvi" (Tehran, 1354 h/ş.) əsərlərinə.

[2] İşığa doğru jurnalı № 9. s. 121.

[3] Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 12.

[4] Şeyx əs-Səduq. Üyuni əxbarir-Rza (ə). I c. s. 78.

[5] Şeyx Müfid. əl-İrşad. II c. Beyrut, Müəssisətu Ali-Beyt (ə). Tarixsiz, s. 247.

[6] Əllamə əl-Hairi. Dairətül-məarif. X c. s. 77; Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 12.

[7] Şeyx əs-Səduq. Üyuni əxbarir-Rza (ə). I c. II çap, s. 10.

[8] Əllamə əl-Məclisi. Biharül-ənvar. XII c. I çap, s. 1.

[9] Cəfər Murtəza Hüseyni. Həyatül-İmam Rza (ə). Darut-təbliğil-islami, 1398/19978. s. 139.

5. Həsən.

6. Aişə.[1]

Lakin bəzi alimlər, o cümlədən Şeyx Müfidin "əl-İrşad", Şəhraşubun isə "əl-Mənaqib" əsərlərində verdikləri məlumata görə, İmamın yalnız Məhəmməd adlı bircə oğlu olmuşdur. Bu fikri digər görkəmli alim Təbərisi "Əlamül-Vəra" əsərində təsdiq etmişdir.

İmam Rzanın vəfat tarixi ixtilaflıdır. Onun hansı ildə və hansı ayda vəfat etməsi haqqında qaynaqlarda dəqiq məlumat verilmir. Lakin məşhur alimlərin görüşü budur ki, o, hicri 203-cü ilin ramazan ayının iyirmi birində (miladi 818-ci ildə) Xorasan vilayətinin Tus məntəqəsində vəfat etmişdir.[2] Lakin Əllamə Məclisi onun səfər ayında şəhid edildiyi qənaətindədir.[3] Onun vəfat səbəi isə xəlifə Məmunun zəhərlətməsi olmuşdur. Bu bütün təbəqələrdə rəvayət olunmuş xəbərlərdən olduğu üçün onun inkar olunması mümkünsüzdür. Şeyx Müfid "əl-İrşad" əsərində yazırdı: "İmam Məmunun sarayına gələndə ona Allahdan qorxmasını tövsiyə edərdi. İmamın ona çox nəsihət etməsi Məmunun sonda ona qarşı daxili kin-kudurətli olamsına səbəb oldu. Bir gün İmam onun yanına gələndə xəlifənin dəstəmaz aldığını, lakin xəlifənin dəstəmaz alarkən xidmətçinin köməyindən istifadə etdiyini görür. İmam ona buyurur: "Ey möminlərin əmiri! Allahına ibadətdə heç kəsi özünə şərik etmə. Bundan qəzəblənən Məmun sonda onu zəhərlədir."[4]

İmamın zəhərləndirilərək şəhid edilməsini görkəmli hədis və tarix alimlərindən Təbəri "Tarix",[5] İbn Kəsir "əl-Bidayə vən-nihayə",[6] İbn Əsir isə "əl-Kamil fit-tarix"[7] əsərlərində qeyd etmişlər.

Lakin bütün bunlara baxmayaraq, bəzi alimlər, o cümlədən Seyid Rəzyuddin Əli bin Tavus Məmunun ona olan meylini, onsuz darıxmağını və ona xüsusi diqqət yetirdiyini deyərək onu zəhərlətmədiyi qənaətindədir.

Həmçinin Küleyni də İmamın vəfatına toxunarkən onun zəhərdən vəfat etməsi məsələsinə toxunmamışdır.[8]

Sibt bin Covzi də "Təzkirətül-Xəvvas" əsərində Məmunun İmamı zəhərlətmədiyi qənaətindədir. Bu haqda o, yazırdı: "Camaat deyir ki, Məmun onu zəhərlədib. Amma bu doğru xəbər deyildir. Çünki İmam vəfat edərkən Məmun hədsiz üzülmüş və bir neçə gün yeyib-içməyərək özünə qapanmışdır."

8.7. İmam Rzanın fəzilətləri

İmam Rzanın fəzilət və üstünlüklərinə aid hədis, tarix, təfsir və digər kitablarda çoxlu sayda rəvayət vardır. Onun müasirlərindən olan İbn Abbas əs-Suli deyir: "Mən heç vaxt görmədim ki, İmam Rzadan hər hansı bir məsələ soruşula, lakin o, bunun qarşısında aciz qala. Onun zamanında ondan üstün və elmli bir şəxsin olduğunu görmədim. Xəlifə Məmun ondan hər bir şey barəsində soruşub onu imtahan etdi. Lakin İmam onun bütün suallarına cavab verdi. Onun cavablarının hamısı Qurandan idi. O, Quranı üç gün içərisində xətm edər və "bunu daha da az müddətə xətm etmək istəyirəm, amma elə bir ayə yoxdur ki, mən onun haqqında düşünmədəm onu ötüb keçim», deyərdi. Mən heç vaxt görmədim, nə də heç kimsədən eşitmədim ki, Əbülhəsən Rzadan üstün olsun. Mən heç vaxt onda müşahidə etdiklərimi bir kimsədə müşahidə etmədim."

Görkəmli İslam alimi əl-Yafei onun haqqında "Miratül-cinan" əsərində yazırdı: "Hicrətin 203-cü ilində kəramətli və xoşbəxt bir sülalədən, on iki imam tərəfdarlarının imamlarından biri olan İmam Əbülhəsən Əli bin Musa ər-Rza vəfat etmişdir. O, çoxlu fəzilətlər sahibidir ki, imamiyyə mənsubları məzhəblərini onun üzərində qurmuş və ona nisbət etmişlər."

---

[1] Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 13.

[2] Həmin mənbə. s. 12.

[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIX c. s. 2.

[4] Şeyx Müfid. əl-İrşad. c. II, Müəssisətu Ali-Beyt (ə). Tarixsiz, s. 270.

[5] Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixül-üməm vəl-müluk. V c. Beyrut, 1404/1987. s. 145-147.

[6] Hafiz bin Kəsir əd-Dimәşqi. əl-Bidayə vən-nihayə. X c. Beyrut, Məktəbətül-məarif, 1966 və 1981. s. 250.

[7] Əli bin Məhəmməd bin Əsir. əl-Kamil fit-tarix. VI,c. Beyrut, 1386/1965. s. 351.

[8] Məhəmməd bin Yəqub əl-Küleyni. Üsulül-kafi. I c. Beyrut, I çap, 1329/2008. s. 181, 186.

İmam Rzanın elmi üstünlükləri haqqında mənbələr yazır: "Ondan səkkiz min məsələ soruşulmuş və o, bunların hamısına dolğun cavablar vermişdir."

Məmun onun haqqında demişdir: "Yer üzündə Rzadan elmli və ibadətkar birini görmədim."[1]

Həmçinin o, Abbasilər ailəsinə mənsub olanları bir yerə toplayaraq onlara demişdir: "İmam Əli övladlarından başqa daha elmli, daha təqvalı, daha dindar və xilafətə daha layiqli olan heç kimsə yoxdur."[2]

İmam Kazim buyurur: "Oğlum İmam Əli oğlanlarımın ən böyüyü, mənə ən yaxın və ən sevimli olanıdır. O, mənimlə birlikdə Cifrə[3] baxır, halbuki ona peyğəmbər və vəsi olanlardan başqa kimsə baxa bilməz."[4]

Davud ər-Rəqqi deyir: "İmam Kazimə dedim: "Mənim əlimdən tutub məni Cəhənnəmdən xilas et." O, əli ilə Rzaya işarə edib buyurdu: "Bu məndən sonra sizin sahibinizdir."[5]

Ziyad bin Mərvan əl-Qəndi rəvayət edir: "İmam Kazimin yanına daxil oldum. Oğlu Əbülhəsən də onun yanında idi. O, mənə dedi: "ey Ziyad! Bu mənim oğlum filankəsdir, onun yazısı mənim yazım, onun sözü mənim sözüm, onun elçisi mənim elçimdir."[6]

Həqiqətən də İmamın hədislərini araşdırarkən məlum olur ki, o, heç də öz elmini digər insanlar vasitəsi ilə deyil, məhz İlahi ilham və Peyğəmbərin elminini varisi kimi elmi biliklərə malik olmuşdur. Onun hədisləri İslam elmlərinin müxtəlif sahələrinə aid olmaqla yanşı, eyni zamanda, orada bir çox dünyəvi elmlərin izlərini də ortalığa qoyur. Hətta o, Peyğəmbərdən nəql olunmuş bəzi hədislərin rəvayət formalarına düzəlişlər verərək özünün bu elmdə həqiqi varis olduğunu sübuta yetirmişdir. Məşhur hədis alimi Şeyx Səduq "Üyuni əxbarir-Rza" əsərində Hüseyn bin Xalid yolu ilə rəvayət edir: "İmamdan soruşdum: "insanlar Peyğəmbərdən : "Allah Adəmi öz surətində yaratmışdır" deyirlər. İmam buyurdu: "Allah onları öldürsün! Onlar bu hədisin əvvəlini atıblar. Peyğəmbər yolla gedərkən iki kişinin bir-birlərini söydüklərini görür. Onlardan biri digərinə deyirdi: "Allah sənin və sənə oxşayanların üzünü qaraltsın!" Peyğəmbər ona dedi: "ey Allahın bəndəsi! Qardaşına bu sözü demə, çünki Allah Adəmi onun surətində yaratmışdır."[7]

Göründüyü kimi insanlar arasında məşhur olan "Allah Adəmi öz surətində yaratmışdır" hədisini İmam daha doğru və ilkin mənasında rəvayət etmiş və bunula da Peyğəmbərin təhrif edilmiş və ya mənası tam başa düşülməmiş hədisini doğrulamışdır.

8.8. İmam Rzanın kəramətləri

İmam Rzanın çoxlu sayda kəramətləri olmuşdur. Onun kəramətləri İslam elmlərinin əksər ədəbiyyatlarında qeyd edilmişdir. Həmin kəramətlərdən bir neçəsi aşağıdakılardan ibarətdir.

Məşhur İslam alimi Molla Nuriddin Cami (öl.1492 m) özünün "Şəvahidun-Nubuvvət" əsərində yazırdı: "İmam Əli Rza (r.ə) bir divarın kənarında oturmuşdur. Onun qabağına bir quş gəlib civildəməyə başladı. İmam yanındakına dedi: bu quşun nə dediyini bilirsənmi? O, dedi: Allah və Rəsulunun oğlu bilər. İmam dedi: quş deyir ki, yuvama ilan yaxınlaşır, balalarımı yeyəcək. Bizi bu düşməndən qurtar. Sən tez bu quşla get və ilanı oradan qov. O şəxs getdi və ilanı tapıb qovdu."[8]

Təəssüflər olsun ki, İmamın bu kimi kəramətlərinə hələ də inanmayan və hətta bunların inkarına qalxan şəxslər də vardır. Amma bu qrupdan olan insanlar başa düşmürlər ki, kəramər Allahın öz dostlarına etdiyi böyük bir ehsandır. Buna işarə edən çoxlu sayda hədis vardır. Belə ki, Əllamə Məclisi "Biharül-ənvar" əsərində Peyğəmbərdən səhih bir sənədlə belə rəvayət edir: "Əgər

[1] Cəfər Murtəza Hüseyni. Həyatül-İmam Rza (ə). s. 141.

[2] İbn Əsir. əl-Kamilu fit-tarix. V c. s. 183; Məsudi. Murucüz-zəhəb. II c. Beyrut, s. 441; Tarixüt-Təbəri. XI c. Leyden çapı, s. 1013.

[3] Peyğəmbərin diktəsi, İmam Əlinin isə imalası ilə yazılmış və qiyamətə qədər xəbərlər toplusu olan əsər. Bu əsər digər Camiə adlı əsərlə birlikdə bir imamdan digər bir imama irsən ötürülmüşdür.

[4] Məhəmməd bin Yəqub əl-Küleyni. Üsulül-kafi. I c. s. 181.

[5] Həmin mənbə.

[6] Həmin mənbə.

[7] Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 14. Şeyx əs-Səduqun "Üyuni-əxbarir-Rza (ə)" əsərindən nəqlən.

[8] İmam Qazali. Kiyamet ve Ahiret. Mütərcim: Ömer Beğ. İstanbul, XXVIII basqı, 2000. s. 159.

şeytanlar qəlblərnizə yol tapmasaydı, mələkut aləmini görər və dənizlər üzərində piyada gəzərdiniz."[1]

Görkəmli İslam alimi Əxizadə Əbdülhəlim (1604 m) yazırdı: "Kəramət Allahu təalanın müttəqi olan möminlərə ehsan etdiyibir şeydir. Dua və ibadət edincə o da ehsan edər"[2]

8.9. Abbasilər dövlətinin qurulması

Abbasilər dövləti (750-1258) Əməvilər dövlətinin (661-749) süqutundan sonra Xorasanda meydana gəlmiş[3] bir imperatorluq olmuşdur. Abbasilər sülaləsinin idarə etdiyi bu dövlət şəriət qanunlarının ziddinə olaraq feodal qanunlar əsasında idarə olunurdu. Dövlətin paytaxtı Bağdad şəhəri olduğundan Bağdad xəlifəliyi də adlanırdı. Abbasilər dövlətinin tərkibinə indiki ərəb ölkələri, İran (IX əsrin əvvəlinədək), Zaqafqaziya, Orta Asiyanın cənub hissəsi, Misir, Şimali Afrika (IX əsrədək) daxil olmuşdur.

Abbasilər dövrünü tədqiq edən tarixçilərin məlumatına görə xilafət ərazisində yaşayan kəndlilərin vəziyyəti daha ağır olmuşdur. Çünki bu dövrdə onlar yığdıqları məhsulun 50%-dən çoxunu dövlət və ya feodala verirdilər. Bu dövlətin xəlifələri də özlərini həqiqi Peyğəmbər xəlifəsi adlandırmaqlarına baxmayaraq heç də bunu sübut etməmiş, əksinə buna zidd addımlar atmışlar. Onların da əvvəlki xəlifələr kimi işləri və siyasətləri xalqı islah etmək deyil, onlara hakim olmaq, dünyada ağalıq etmək və bacardıqca öz hakimiyyətlərini möhkəmlətmək olmuşdur. Bunu biz onların hakimiyyətə gələn zaman Əhli-beytin adından siyasi məqsədləri üçün istifadə etmələrində və hakimiyyəti ələ keçirən kimi onlara qarşı qətl və işgəncələrə başlamalarından görməkdəyik. Necə ki, Əməvilər Əhli-beytə qarşı yol tutmuşdursa, necə ki, onlar Əhli-beyt imamlarını öldürürdülərsə, onların eynisini də Abbasilər həyata keçirirdilər. Əbəs deyildir ki, əhli beyt imamlarından beşi Əməvilərin əli ilə şəhid edilmişdirsə, onlardan altısı da Abbasilərin əli ilə şəhid edilmişdir. Əməvilər dövründə xalq üsyanları, xüsusilə də Əhli-beyt tərəfdarlarının qiyamları olduğu kimi, Abbasilərin də dövründə bundan da artıq və güclü üsyanlar baş vermişdir. Əgər Əməvilər dövründə Kərbəla, Təvvabin, Muxtar Səqəfi, və s. qiyamlar baş verimişdirsə, Abbasilər dövründə də Fəxx qiyamı, Əbu Saraya qiyamı, Məhəmməd Dibacın qiyamı, Nəsr bin Şibsin qiyamı, Babəkin qiyamı (816-838) və başqaları baş vermişdir. Bunlardan başqa Sumbatın rəhbərliyi ilə Xorasanda baş verən qiyamını (755), Orta Asiyadakı Muhənna üsyanını (776-783), Məzyarın rəhbərliyi ilə Təbəristan (Mazandaran) üsyanını (839) göstərmək olar. Bu qiyamların hamsının məğzi ali hakimiyyətin istefa verməsi, onlaraın ədalətə riayət etməsi, xalqın üzərinə qoyduqları vergiləri azaltmaları, torpaqları camaata bərabər səviyyədə bölmələri və s. olmuşdur. Xatırlatmaq lazımdır ki, Abbasilərin hakimiyyəti dövründə Azərbaycan torpaqlarının əksəriyyəti ərəb əmirlərinin əlində idi və əhalidən onlarla adda vergi yığılırdı. Bu da təbbidir ki, əhalinin var-yoxdan çıxmasına səbəb olurdu.

Əhalini zülm və istibdadla idarə edən Abbasilər dövləti artıq VIII əsrin sonlarından sonra yavaş-yavaş zəifləməyə başladı. Belə ki, bu dövrdən etibarən Abbasilər ərazisində müstəqil dövlətlər və vilayətlər meydana gəlməyə başladı. Mərakeşdə yerli İdrisilər (788-985), İfriqiyada Əğləbilər (800-909) sülalələri meydana gəldi. Artıq 821-ci ildən İran ayrılmağa başladı. IX əsrin əvvəllərində İranda Tahirilər (821-873), Səffarilər (867-908), Səmanilər (875-999), Mahmud və Məsudun vaxtında isə Qəznəvlər (977-1186) hökmranlıq edirdilər. 945-ci ildə Bağdadı tutan Büveyhilər xəlifəni öz siyasətləri üçün alətə çevirdilər. 1055-ci ildə Bağdadı işğal edən Səlcuqilər xəlifələri yalnız dini başçı kimi tanıyırdılar.

Abbasilər Əhli-beytin adından istifadə etmələrinə baxmayaraq heç özləri Əhli-beytin kim olduğunu bilməmişlər. Bunu biz bu dövlətin qurucusu olan Əbu Müslüm əl-Xorasaninin İmam Sadiqı ünvanladığı məktubunda da görməkdəyik. Belə ki, Əbu Müslüm İmama bir məktub yazaraq həmin məktubda demişdir: "Mən insanları Əhli-beytə taba olmağa çağırıram, əgər sən də istəsən

[1] Əllamə əl-Məclisi.Biharül-ənvar. LXX c.
[2] Riyazus-səadət. s. 100.
[3] Şeyx Məhəmməd Xəzəri Bək. əd-Duvlətül-Abbasiyyə. Beyrut, 1406/1986.

sənə beyət edərik." İmam onun məktubuna aşağıdakı sözləri cavab olaraq yazmışdır: "Sən nə bizim adamlarımızdansan, nə də ki, bizim zamanımızın adamlarındansan."[1]

Abbasilərin xalqa qarşı yürütdükləri siyasət başdan ayağa ədalətsizlik rəmzi idi. Bu dövlətin banisi olmuş Əbulabbas əs-Saffahın ləqəbinin "Qan tökən" olması onun nə qədər zalım və zülmkar olmasından xəbər verir.

Abbasilər xilafətinə 508 ildə 37 xəlifə başçılıq etmişdir. Onlardan üçü-Harun ər-Rəşid (786-809), Məhəmməd əl-Əmin (809-813) və Abdullah əl-Məmun (813-833)- İmam Rzanin müasiri olmuşlar. O, iyirmi illik imamətinin on ilini Harunla, beş ilini Əminlə, son beş ilini isə Məmunla keçirmişdir. İmamın siyasi səhnədə görünməsi Məmunun dövrünə düşdüyündən onun şəxsiyyəti haqqında məlumatlı olmağın əlbəttə ki, faydası vardır.

8.10. Xəlifə Məmunun şəxsiyyəti

Məmun beşinci Abbasi xəlifəsidir. Onun adı Abdullahdır və Harun ər-Rəşidin oğludur. Onun anası isə Harunun mətbəx qulluqçularından olan Məracildir. Tarixçilər onun doğulmasını aşağıdakı hadisə ilə əlaqələndirirlər. Belə ki, Harun ər-Rəşid arvadı Zübeydə ilə şahmat oynayarkən ona uduzur. Zübeydə Haruna uduzduğuna görə aşbazxananın ən eybəcər və ən çirkin qadını ilə yaxınlıq etməsini istəyir. Harun buna razı olmayıb şərtin əvəzinə ona Misir və İraq gəlirini verəcəyini deyir. Lakin Zübeydə buna razı olmur. Harun məcburiyyət qarşısında qalaraq şərtə razı olur. Bu yaxınlıq nəticəsində Məmun dünyaya gəlir.[2] Məmun hicri 170-ci ildə (786 m) doğulmuş və hicri 218-ci ildə (833 m) vəfat etmişdir.

Məmunun həyatı qardaşı Əminin həyatına nisbətən elmi fəaliyyətdə keçmişdir. O, uşaqlıqdan müxtəlif elmləri öyrənməyə həvəs göstərmiş, döyüş sənətinin incəliklərinə yiyələnməyə çalışmışdır. Həmçinin Məmun tarix və siyasət elmlərini də öyrənmiş öz həyatında əməli surətdə müxtəlif hadisələrdən baş çıxarmağı bacara bilmişdir. O, qardaşı Əminin zəif nöqtələrini bilərək özünü həmin sahələrdə daha da mükəmməl hazırlayaraq Abbasilər içində hörmət qazana bilmişdir. Buna görə də tarixçilər: "Abbasilər içində Məmundan biliklisi olmamışdır" deyirlər.[3] İbn Nədim onun haqqında yazırdı: "Məmun xəlifələr içində fiqh və kəlam elmlərini bilən ən bilikli şəxsdir."[4]

Lakin bütün bu deyilənlərə baxmayaraq o, təkəbbürlü, səhvi bağışlamayan, xalqa qarşı ədalətsiz bir xəlifə kimi tarixə düşmüşdür. Onun haqqında tarixdə yazılır: "O, fəziləti öldürüb sonra ona ağlayan, İmam Rzanı şəhid edib ona yas tutan, təmiz insanları qırıb onların yerini pislərlə dolduran, xilafətin İmam Əli övladlarına mənsub olduğunu deyən, lakin özününküləri ona təyin edən bir şəxs olmuşdur."

Məmunu digər xəlifələrdən fərqləndirən xüsusiyyətlərdən biri də budur ki, o, şiəliyə zahirən meyl etmiş, Quranın yaranmış olduğunu demiş və bunu xalqa məcburi şəkildə qəbul etdirmiş, bir də fəlsəfi elmləri müsəlmanlar içərisində yaymışdır.

8.11. Xəlifə Məmunla İmam Rzanın münasibətləri və xilafətin İmam Rzaya verilməsi

Xəlifə Məmun (813-833) Abbasi xəlifələri içində zahirən şiələrə qarşı mülayim davranan, lakin mümkün olduğu təqdirdə onları məhv edib aradan götürən xəlifə kimi tanınır. Onun belə siyasət yeridməsinin isə şübhəsiz ki, bəzi səbəbləri vardır.

Mənbələrdə Məmunun İmam Rza ilə yaxşı münasibətlər qurmasının və ona zahirən hörmət göstərməsinin müxtəlif səbəbləri olduğu bildirilir. Məlumdur ki, Məmunun atası Harun ər-Rəşid (786-809) vəfat edərkən xilafəti ərəb əsilli Zübeydə Xatundan olan oğlu Məhəmməd Əminə vəsiyyət edir. Hətta o, bir vəsiyyətnamə yazdıraraq Kəbədən asdırır. O, öz vəsiyyətnaməsində özündən sonra xəlifəlik taxtında Əminin, ondan sanra Məmunun, ondan sonra isə Qasim Mutəminin oturacağını vəsiyyət edir. Həmçinin xilafəti iki hissəyə bölərək onun şərq hissəsini Məmuna, qərb hissəsini isə Əminə verir. Bundan sonra o, Məmunun Mərvdə, Əminin isə Bağdadda sakin

[1] Cəfər Murtəza Hüseyni. Həyatül-İmam Rza (ə). Darut-təbliğil-islami, 1398/1978.
[2] Dəmiri. Həyatül-heyvan. I c. s. 72; İtlidi. Əlamün-nas fi əxbaril-Bəramikə və Bəni-Abbas. s. 106-107; əl-İshaqi. Üyunüt-təvarix. s. 74; əl-Fəxri. Adabüs-Sultaniyyə. s. 12.
[3] Dəmiri. Həyatül-heyvan. I c. s. 72.
[4] İbn Nədim. əl-Fihrist. Qahirə, Mətbəətül-istiqamə. Tarixsiz. s. 174.

olamalarını tapşırır. Məmun atasının sağlığı müddətində Mərvdən kənara çıxmır. Lakin atası öldükdən sonra Əmin onun əlindən xilafətin şərq torpaqlarını alaraq kiçik qardaşına verir. Bunun nəticəsində iki qardaş arasında hərbi toqquşma baş verir. Məmun güclü ordu toplayaraq Bağdada yürüş edir və qardaşına qalib gələcəyi təqdirdə xilafəti İmam Əli övladlarına verəcəyini nəzir edir. O, döyüşdə qardaşı Əminə qalib gəlir və onun başını kəsib Dəclə çayına atır. Bununla da o, xilafətin bütün ərazilərinə yiyələnir. Bundan sonra isə İmam Rzaya bir məktub yazaraq onu Xorasana dəvət edir ki, öz nəzrini həyata keçirmiş olsun.

Məmun İmam Rzanı Xorasan vilayətinə gətirdikdən sonra xilafəti ona verəcəyi İmama bildirir. Lakin İmam ona rədd cavabı verir və buyurur: "Əgər xilafəti Allah sənə veribsə, onu digər şəxsə verməyə haqqın yoxdur. Yox əgər xilafəti sən qəsb etmisənsə, özünün olmayan malı başqasına verə bilməzssən." Məmun deyir: əgər xilafəti qəbul etmirsənsə, onda valiliyi qəbul et ki, məndən sonra xəlifə olasan. İmam ona dedi: "Ata-babalarım mənə xəbər veriblər ki, Peyğəmbər mənim səndən qabaq dünyadan gedəcəyimi, zəhərlə öldürüləcəyimi, yerin göyün mələklərinin mənə ağlayacağını, Tusda Harun ər-Rəşidin yanında dəfn ediləcəyimi deyib." Məmun ağlayaraq dedi: ey Peyğəmbər övladı! Səni mən həyatda ikən kim öldürəcək?..."[1] Bunu görən Məmun İmamı təhdid etməyə başalyır. İmam vəziyyətin ağır olduğunu görüb öz şərtləri çərçivəsində Xorasan vilayətinin valiliyini qəbul edir. İmamın irəli sürdüyü ən ümdə şərt xəlifənin heç bir rəsmi iclaslarında iştirak etməmək, heç bir əmr və qadağaların yazılmasında rol oynamamaq idi. Şeyx Səduqun rəvayətinə görə bu beyət işi hicrətin 201-ci ilində ramazan ayında baş vermişdir.

Məmunun xilafəti İmama verməsinin bir çox səbəbləri ola bilərdi. Həmin səbəblərdən aşağıdakıları qeyd etmək olar:

1. İmam Əlinin digər şəxslərə nisbətən daha fəzilətli olduğunu alimlərə dedizdirmək üçün. Çünki Məmun şəcərə baxımdan Peyğəmbərin əmisi Abbasın nəslindəndir. O, bununla eyni zamanda özünün guya Əhli-beytdən olmasını da vurğulamaq istəyirmiş.
2. Öz qızını İmamın oğluna verməklə onun evindəki sirləri daha da dərindən bilmək üçün.
3. Atası Harun ər-Rəşidin tərəfdarların yeddinci imamı Musa Kazımı şəhid etməsinin üstünü ört-basdır etməsi üçün.
4. Quranın yaranması haqqında olan əqidəsini İmamın vasitəsiylə şiələrə qəbul etdirməsi və bu əqidəni cəmiyyətdə yayması üçün.
5. Xilafət ərazisində baş vermiş şiə üsyanlarını yatırtmaq üçün.
6. Ərəblərin etimadını qazanmaq üçün.
7. Qardaşını öldürdüyünə görə, üstündən qınağı götürmək üçün. Çünki o, bununla bildirmək istəyirdi ki, o, yaxşılara hörmət edir, pislərin isə kimliyindən asılı olmayaraq kökünü kəsir.

Bəzi tədqiqatçıların fikrinə görə isə, Məmunun xilafəti İmam Rzaya verməsini əsas səbəbi İmam Əli övladlarının hamıdan üstün olduğunu və onların xilafətə daha layiqli olduğunu bilməsi üçündür. Bu fikri Təbəri "Tarix", əl-Yafei isə "Miratül-Cinan" əsərlərində qeyd etmişlər.

Şeyx Müfid İmama olan beyətdən sonra Məmunun sikkə kəsdirdiyini və onun üstünə İmam Rzanın adını vurdurduğunu qeyd edir. Əbülfərəc isə bu sikkənin üstündə Məmunun "Allahım müsəlmanların valisi Əli bin Musa bin Cəfər bin Məhəmməd bin Əli bin Hüseyn bin Əli bin Əbi Talibi hifz et" sözünü yazdırdığını deyir.

8.12. İmam Rza Məmunun məclisində

Xəlifə Məmun dəfələrlə İmamı saraya çağırtdırıb onunla zəmanə alimləri arasında elmi mübahisələr yaratmışdı. Bu mübahisələrdən biri İmamın peyğəmbərlərin məsumluğu ilə əlaqədar Əbu Səlt əl-Hərəvi adlı məşhur alimlə etdiyi mübahisədir. Həmin əhvalatı Əllamə Məclisi "Biharül-ənvar"[2] əsərində belə rəvayət edir:

"Əbu Səlt əl-Hərəvi deyir: "Xəlifə Məmun Əli bin Musa ər-Rza ilə İslam alimlərini, Həmçinin yəhudi, xristian, məcusi, sabii və digər fikir əhlini bir yerə topladı. Onun (imamın) höccətini vacib bilənlərdən başqa heç kəs ayağa qalxmadı. Elə bil ki, o həbs altına alınmışdır. Ona

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIX c. s. 129.

[2] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 550.

tərəf Əli bin Məhəmməd bin əl-Cəhm gəldi və dedi: "Ey Allah Rəsulunun oğlu! Peyğəmbərlərin günahsızlığı haqqında danışırsınız?" Həzrət buyurdu: "Bəli." əl-Cəhm dedi: "Allahın Adəm haqqında: **"Adəm rəbbinə qarşı ağ oldu və doğru yoldan azdı",** Yunis haqqında: **"Balıq sahibi** (Yunis) **qəzəblənib getdikdə elə zənn etdi ki, ona gücümüz yetməyəcək",** Yusif haqqında: **"O, Yusifə, Yusif də ona** (Züleyxaya) **meyl etdi",** Davud haqqında: **"Davud elə zənn etdi ki, onu imatahana çəkdik"** və öz peyğəmbəri Məhəmməd haqqında **"Allahın bildiyi şeyləri özündə gizlədirsən və insanlardan qorxursan. Halbuki qorxulası varlıq məhz Allahdır"** dediyi sözlərə necə əməl edirsiniz?"

Həzrət buyurdu: "Vay olsun, sənə ey Əli! Allahdan qorx və Allahın Peyğəmbərinə pisliklər şamil etmə! Həmçnin Allahın kitabını öz rəyinlə təfsir etmə! Həqiqətən Allah taala buyurub: "Allahdan və elmdə çox qüvvətli olanlardan başqa heç kəs onun yozumunu bilməz." Adəm haqqında onun dediklərinə gəldikdə ki, **"Adəm onun üzünə ağ oldu və yolundan azdı"** həqiqətən o Adəmi yer üzündə öz höccəti və xəlifəsi olaraq yaratmışdır. Allah onu Cənnət üçün yaratmamışdı. Adəmin günah isə Cənnətdə idi, yer üzündə yox. Onun orada günah etməsi Allahın əmrinin təqdirini tamamlamaq üçün olmuşdur. O yer üzünə endirildiyi zaman orada höccət və xəlifə edildi və Allahın bu sözü isə məsum (günahsız) edildi: "**Doğrudan da Allah Adəmi, Nuhu, İbrahim ailəsini, İmran ailəsini məxluqat üzərində üstün etdi**."

Allahın "**balıq sahibi qəzəblənib detdi və elə zənn etdi ki. Ona gücümz yetməyəcək**" sözünə gəldikdə isə o, (Yunis) güman edirdi ki, Allah onun ruzisini azaldacaq, bəs bilmirsənmi ki, Allah buyurub: "**Allah onu bəlaya düçar etdikdə onun ruzisini azaldar**", yəni onu sıxıntıya salar. Əgər Yunis zənn etsəydi ki, Allahın ona gücü yetməz bu halda küfr etmiş olardı.

Davuda gəldikdə, sizdən əvvəlkilər onun haqqında nə deyirlər? Əli bin əl-Cəhm dedi: "deyirlər Davud öz mehrabında namaz qılırdı. İblis ona gözəl bir quş surətində göründü. O, namazı kəsib quşu tutmaq üçün ayağa qalxdı. Onun izi ilə gəldi, quş uçub divarın üstünə qondu. O, quşu tutmaq üçün divara çıxdı, quş isə Uriya bin Hənnanın evinə düşdü. Bu zaman Hənnanın arvadı yuyunurdu. Davud onu gördükdə ona meylini saldı. Uriya isə onun (Davudun) bəzi fəthlərini (qəzavətlərini) həyata keçirmək üçün evdən çıxmışdı. Davud öz dostuna yazdı ki, Uriya hərbi rəhbərliyi öz üzərinə alsın, Uriya da rəhbərliyi öz üzərinə aldı və müşriklərə qələbə çaldı. Bu Davuda ağır gəldi və ikinci dəfə yazdı ki, onu tabutun əvvəlinə keçirsin. Nəticədə Uriya öldürüldü və Davud onun arvadı ilə evləndi." (Bu əhvalatı eşidən) İmam Rza alnına vurdu və dedi: Biz Allahdanıq və ona tərəf qaydacağıq. Siz Allahın peyğəmbərlərindən olan birinə namazını qiymətsiz etməsini, hətta quşun izi ilə onun ardınca çıxmasını, sonra pozğunluğu, sonra da qətlimi aid edirsiniz? Uriya dedi: "Ey Allah Rəsulunun oğlu! Onun (Davudun) günahı nə idi?" İmam buyurdu: Vay olsun sənə! Doğrudan da Davud bilirdi ki, Allah yaratdığı şeyləri daha yaxşı tanıyır. Allah ona iki mələk göndərdi və onlar mehraba qondular və biri dedi: **"Biz bir-birimizlə haqsız davranıb düşmən olmuşuq. Bizim aramızda ədalətlə hökm et, haqqlı tapdalama. Bizi pis yoldan doğr yola yönəlt. Həqiqıtın bu mənim qardaşımdır. Onun doxsan doqquz dişi qoyunu vardır, mənim isə bircə dişi qoyunum var. (belə bir Kəriyyətlə) dedi: onu mənə ver mübahisədə məni məğlub etdi."** O, muddəidən (iddiaçıdan) səbəbi soruşmamışdı. Haqqında dava açılan da (o biri iddiaçı) onun hökmünü qəbul etmədi. Əli bin Məhəmməd əl-Cəhm dedi: Nə deyirsən? Bu onun (Davudun) səhv hökmü idi, daha sizin dediyiniz kimi yox. Allahın bu sözünün eşitməmisənmi deyir? **"Ey Davud! Biz səni yer üzündə xəlifə etdik. İnsanlar arasında haqqla kökm et!"** Mən dedim: "Ey Allah Rəsulunun oğlu! Uriya ilə Davudun əhvalatı nədir?" İman Rza buyurdu: "Doğrudan da qadın Davudun dövründə əri öldükdə və ya öldürüldükdə ondan sonra heç kəslə evlənməmişdi. Allah əri ölmüş qadınla evlənməyə icazə verdiyi ilk kişi Davud idi..."

Öz peyğəmbəri Məhəmmədə gəldikdə, Allah onun üçün buyurub: "**Allahın bildiyi şeyi özündə gizlədirsən və insanlardan qorxursan. Halbuki qorxulmağa daha layiq Allahdır**." Həqiqətən Allah Peyğəmbərinə dünya və axirətdə olan zövcələrinin adlarını bildirmişdi. Onlardan birinin adı Zeynəb bint Cəhş idi və o, bir vaxtlar Zeyd bin Harisənin (kəbini) altında idi. Peyğəmbər onun ismini özündə gizlətmişdi və ona (Zeynəbə onun arvadı olacağını) açıqlamamışdı. Çünki münafiqlərdən kimsə deməsin: "O, kişinin evindəki qadın haqqında danışır." O, (qadın) onun (Peyğəmbərin) arvadlarından biridir və möminlərin anasıdır. Münafiqlərin dedi-qodularından

qorxduğundan Allah dedi: "**Halbuki qorxulmağa daha layiq Allahdır**." Allah yaratdığı insanlardan Adəmlə Həvvanın, Zeynəblə Peyğəmbərin və İmam Əli ilə Fatimənin evləndirilməsindən başqa heç kəsin evləndirilməsini öz öhdəsinə almamışdır. Əli bin əl-Cəhm ağladı və dedi: "Ey Allahın Rəsulunun oğlu! Mən Allaha onun peyğəmbərləri barədində dediklərimdən dolayı tövbə edirəm və bundan sonra sənin dediklərindən başqa bir söz demərəm."[1]

8.13. İmam Rzanın ideoloji və iqtisadi islahatları

8.13.1. İmam Rzanın dövrü və üzləşdiyi ideoloji problemləri

Qeyd etdiyimiz kimi İmam Rza imamiyyə tərəfdarlarının səkkizinci imamıdır və atası İmam Kazimdən sonara imamət məqamına yüksəlmişdir. Onun dövrü qarışıq ictimai-siyasi və mürəkkəb dini-ideoloji dövr kimi xarakterizə edilir. Çünki bu dövrdə müxtəlif fikir cərəyanlarının və anti-İslam ideyalarının ortalığa çıxdığı dövrdür. Meydana gələn bu sapıq fikir və ideyalar təəssüflər olsun ki, özünə çoxlu sayda tərəfdar toplamış və insanları düşüncə baxımından məşğul etmişdir.

Həmçinin təhrif olunmuş yəhudilik, xristianlıq, məcusilik və sabiilik dinləri də bəzi müsəlmanların əqidə və fikirlərini öz təsir qüvvəsi altına almışdı. Hələ bunlar azmış kimi brahmanizm və dəhriyyəçilik müsəlmanların əqidələrində öz təsirini qoymağa başlamışdı.

İmam Rzanın dövründə diqqəti çəkən məqamlardan biri də qədim Yunan, Hind və İran fəlsəfi ədəbiyyatının ərəb dilinə tərcümə olunması və bu fəlsəfi düşüncələrin müsəlmanlar arasında problemlərin, o cümlədən cəbr və təvfiz, təşbih və cismləşmə kimi fikirlərin yaranmasına yol açmışdı. İmam Rzanın siyasi həyatını araşdıran müsəlman müəllifləri yazırlar: "İslamın Peyğəmbər (səlləllahu əleyhi və alih) dövründə Hicazdan kənara çıxa bilməməsinə baxmayaraq, bünövrəsi möhkəm olduğundan, o Həzrətin vəfatından sonra sürətlə yayılmağa başlayır. Belə ki, qısa bir müddət ərzində o dövrün bütün mədəni ölkələrini Hicazın şimal, şərq, qərb və cənubunda olan Roma, İran, Misir, Yəmən və Aşur mədəniyyəti kimi digər beş böyük mədəniyyəti öz nüfuzu altına alaraq onların mövhumat fəsad və azğınlıqlarını kənara atıb müsbət və faydalı nümunələrini İslam mədəniyyəti altına alaraq onları İlahi rəngə salıb daha da inkişaf etdirirdi. İslamın elmsevər təbiəti səbəb olur ki, dünyanın müxtəlif ölkələrinin əqidəvi-siyasi məsələlərinin inkişafı sayəsində həmin elmlər İslam cəmiyyətinə yol taparaq Yunanıstan, Misir, Hindistan, İran və Roma alimlərinin elmi kitabları Quran dili olan ərəb dilinə tərcümə olunurdu.

Öz elmlərini Qurandan mənimsəmiş İslam alimləri digər alimlərin kitablarını oxuyub onlara bəzi iradlar tutmaqla bir sıra ixtiralar əlavə edərək köhnəlmiş mədəniyyətə yeni – İslami rəng gətirirdilər. Başqa alimlərin yazdığı əsərlərin tərcüməsinə Əməvilərin hakimiyyəti dövründən (əlbəttə, Əməvilər özləri İslam və elmə qarşı biganə idilər) başlanılmış Abbasilərin xüsusən də, Harun və Məmunun hakimiyyətləri dövründə kulminasiya nöqtəsinə çatmışdır. (Bu hadisə İslam dövlətinin ən geniş əraziyə qədər irəlilədiyi bir dövrə təsadüf edir.) Əlbəttə, bu elmi inkişafın bünövrəsini heç də Əməvilər, yaxud Abbsilər qoymamış sadəcə olaraq İslam təlimlərinin elm sahəsindəki təbliğinin bilavasitə nəticəsi və elm üçün heç bir həddi-hüdud təyin etməməsi olmuşdur. İslamın "Elm Çində belə olsa, onun ardınca gedin!" "Elmi nəyin bahasına olursa-olsun hətta ürəyinizin qanı bahasına da olsa, öyrənin!" kimi təlimləri müsəlmanları elm ardınca getməyə vadar edirdi. Tarixdə qeyd edilmişdir ki, bir gün Məmun görkəmli yunan filosofu Aristoteli yuxuda görüb ondan bəzi məsələlər barədə soruşur. Yuxudan ayıldıqdan sonra onun kitablarını tərcümə etmək fikrinə düşür. Roma imperatoruna bir məktub yazaraq bu imperiya ərazisindəki qədim elmləri ehtiva edən kitablar məcmuəsini onun üçün göndərməsini istəyir. Roma imperatoru çox götür-qoy etdikdən sonra bu təklifi qəbul edir. Məmun bu mühüm vəzifəni yerinə yetirməyi Həccac bin Mətər bin Bətriq və (Bağdadın möhtəşəm kitabxanası) "Beytül-hikmət"in rəisi Səlmaya tapşırır. Onlar Roma imperiyasına gedib orada bəyəndikləri kitabları Məmunun hüzuruna göndərir və Məmun da onları tərcümə etdirməyə başlayır."[2]

Məlum məsələdir ki, Məmun kimi köhnə siyasətbazların yuxusu adi yuxu olmayıb adətən siyasi mövqe kəsb edir. Onlar yuxularında elə şeylər görürlər ki, yuxuda gördükləri onların

[1] Hədisi Möhsün əl-Əmin "Əyanüş-şiə" əsərində də nəql etmişdir (II c. s. 22).
[2] Şeyx ət-Tusi. əl-Fihrist. s. 353.

hökumət dayaqlarını möhkəmlədir. Ümumiyyətlə, Məmunun bu hərəkəti siyasi təhlil baxımından aşağıdakı ehtimalları doğurur:

1) Məmun özünü elm bilik tərəfdarı olan bir müsəlman kimi qələmə vermək üçün hansısa üstünlük qazansın deyə, bu hərəkətə əl atır.

2) Məmun istəyirdi ki, bu işlə ictimai problemlər və siyasi vəziyyət qarşısında bir növ məşğuliyyət yaratsın.

3) O, bu hərəkəti ilə bildirmək istəyirdi ki, Abbasilərin xilafəti İran, Roma və Misir kimi imperiyalara da hakim olmağa layiqdir.

Bu üç ehtimalın biri heç də digərini inkar etmir və ola bilsin ki, bunların hamısı Məmunun fikrində olmuşdur. Bu ehtimalların hansı doğru olursa-olsun, bir məsələdə şəkk yoxdur ki, Məmun yunan alimlərinin kitablarını tərcümə etdirmək üçün çox çalışmış bu yolda həddən artıq pul xərcləmişdir. Hətta deyirlər ki, bəzi vaxtlar bir kitab üçün həmin kitabın ağırlığı qədər qızıl verərmiş. Kitabların tərcüməsinə o qədər diqqət yetirərmiş ki, onun adına tərcümə olunmuş kitabın üstünə bir əlamət qoyub camaatı həmin kitabı oxumağa, o elmi öyrənməyə həvəsləndirərdi. Hikmət sahibləri ilə oturub-durduğundan razı qalırdı. Beləliklə, başqa xalqların meydana çıxardığı elmlər də, İslami elmlərlə yanaşı günün əsas tələblərindən birinə çevrilir. Bu sahədə həddən artıq diqqətli olan ölkə əyan-əşrafı da Məmunun yolunu davam etdirir elm fəlsəfə və məntiq əhlinə ehtiramla yanaşırdılar. Bunun nəticəsi olaraq İraq, Şam və İrandan Bağdada çoxlu sayda tərcüməçilər axışır[1]. Görkəmli məsihi tarixçisi Corci Zeydan bu barədə yazırdı: "Harun ər-Rəşidin hakimiyyətə gəldiyi dövrdə artıq camaatın fikir səviyyəsi Hindistan İran Suriya alim və filosoflarının Bağdada get-gəl etməsi nəticəsində inkişaf etmiş qədim alimlərin elm və kitablarına maraq artmışdı. Ərəb dilini öyrənib müsəlmanlarla əlaqədə olan qeyri-müsəlman alimlər müsəlmanları bu elmləri öyrənməyə həvəsləndirirdilər. Müsəlmanlar isə yenə də əvvəldə olduğu kimi biganə elmlər sahəsində təbabətdən başqasına yaxın düşməkdən çəkinirdilər. Çünki onlar elə başa düşürdülər ki, təbabətdən başqa digər biganə (əlbəttə biganə demək mümkünsə) elmlər İslama ziddir. Buna baxmayaraq, filosofların xəlifələrin yanına çox get-gəl etmələri nəticəsində və onların əksəriyyətinin məntiq və fəlsəfəni xoşladıqlarına görə istər-istəməz xəlifələr də, məntiqi və fəlsəfi məsələləri dinləməyə maraq göstərirdilər. Yavaş-yavaş xəlifələrlə ünsiyyət yaranır. İş o yerə çatır ki, xəlifələr hər hansı bir ölkə və ya şəhəri fəth etdikdə daha (əvvəl olduğu kimi) oradakı kitabları od vurub yandırmır əksinə kitabların Bağdada gətirilib ərəb dilinə tərcümə edilməsini əmr edirdilər. Necə ki Harun ər-Rəşid Roma imperiyasının Ankara, Ənvəriyyə və digər şəhərlərini tutduqda oradan çoxlu sayda kitab ələ keçirərək onları Bağdada gətizdirmiş və öz şəxsi həkimi olan Yuhənna bin Masviyəyə onları ərəb dilinə tərcümə etməyi əmr etmişdir. Lakin bu kitablar yunan təbabətinə aid olduğundan onlarda fəlsəfəyə aid bir şey yox idi. Harunun hakimiyyəti dövründə (786-809) ilk dəfə olaraq "Uqlidis" kitabı Həccac ibn Mətərin vasitəsilə ərəb dilinə tərcümə olunaraq "Haruniyyə", ikinci dəfə isə Məmunun hakimiyyəti dövründə (813-833) yenə də ərəb dilinə tərcümə olunaraq "Məmuniyyə" adlandırılmışdır. Harunun hakimiyyəti dövründə Yəhya ibn Xalid Bərməki "Micəsti" kitabını ərəb dilinə tərcümə etmiş bəziləri isə onun tərcüməsinə təfsirlər yazmışlar.

Həmin təfsirçilərin yazdığı təfsirlər yaxşı olmadığı üçün Harun o kitabın tərcüməsini yenidən təfsir etməyi Əbu Həssan və Beytül-hikmət kitabxanasının rəisi Səlmaya tapşırır. Onlar da öz növbələrində bu kitabı çox diqqətlə təfsir etmişlər[2].

Bundan əlavə, müxtəlif məzhəblərin meydana gəlməsi, həmin məzhəb rəhbərlərinin az qala peyğəmbərcəsinə ümmətə təqdim edilməsi də mövcud problemləri bir az da genişləndirməkdə və dərinləşdirməkdəydi.

Beləliklə, bu kimi problemlərin meydana gəlməsi az qala peyğəmbər Əhli-beytinin fəzilətlərinin kölgədə qalmasına və ilahi nurlarının söndürülməsinə səbəb olacaqdı. Bu məqamda meydana gələn cəfəng fikir və ideyalara qarşı İmam Rzanın elmi-dini mübarizə aparması və hər vəchlə müxtəlif din və məzhəb böyüklərini susdurması, Həmçinin batil inancların müsəlmanlar

[1] Cəfər Mürtəza. İmam Rzanın həyatı. s. 16.

[2] Corci Zeydan. islam mədəniyyətinin tarixi. III c. s. 216.

içərisində yayılmasının qarşısını alması təqdirə layiq hal kimi dəyərləndirilməli və İmamın ən böyük ideoloji islahatı kimi qiymətləndirilməlidir.

Beləliklə, İmam Rzanın dövründə aşağıdakı fikir və əqidələrin meydana gəldiyinin və onun hansı problemlərlə üzləşdiyinin şahidi oluruq:

A) Qurani-Kərimin hadis yoxsa qədim olması

İmam Rzanın dövründə xəlifə Harun ər-Rəşidin (786-809) və xəlifə Məmunun (813-823) öz siyasi məqsədləri üçün ortalığa atdığı cəfəng fikirlərdən biri Qurani-Kərimin hadis (sonradan yaranan) yoxsa qədim olması fikridir. Çünki Quranın qədim olması fikrini Əməvilər dövlət səviyyəsində müdafiə edirdilər. Hətta onlar bu fikrə qarşı çıxan hər hansı şəxsi belə məhv etməkdən əlçəkmirdilər. Məsələn, Cəd bin Dirhəm Hişam bin Əbdülməlik in hakimiyyəti dövründə Quranın hadis olduğunu aşkar şəkildə söylədiyi üçün edam olunmuşdur[1]. Deməli buradan belə başa düşmək olar ki, Abbasilər Əməvilərin əksinə olaraq yeni bir siyasi ideologiya yaratmaq istəyirdilər. Bundan əlavə Abbasi xəlifələri xilafət ərazisində baş verən iğtişaşları yatırmaq, insanların başını daha çox fikir və əqidə məsələləri ilə məşğul etmək üçün belə bir cəfəng fikiri ortalığa atmışdılar. Bunun nəticəsində onlar ümmətin böyük fikir və məslək sahiblərini yalnız bu məsələnin üzərinə kökləmiş, onların aralarında böyük mübahisələrin yayılması və nəticədə onların siyasi məsələlərlə deyil yalnız belə məsələlərlə məşğul olmasını ortaya qoymuşdular. Beləliklə, də siyasət sahəsində olan bir çox tanınmış adamlar siyasət aləmindən dönüb yersiz əqidəvi məsələlərə üz tutmuşlar. Xəlifə Harun ər-Rəşid Quranın qədim olması fikrini qəbul edərək bunun əleyhinə çıxan hər bir fikir sahibini qətlə yetirir, onların var-dövlətlərini beytul-mala qatırdı. Bunu müsəlman müəllifləri də öz əərlərində təsdiqləməkdədirlər[2]. Bu iş onun oğlu Məmunun dövründə daha da geniş vüsət almış və alimlərin hamısı bu məsələ ətrafında sorğu-sual olunmuşdular.

İmam ortalığa atılmış bu bidətçi fikirə qarşı var gücü ilə mübarizə aparmışdı. O, bu haqda buyurmuşdur: "Allah nazil etdiyi bütün kitabları nazil etmişdir. Musəlmanlar Allahdan başqa hər bir şeyin fani olduğu və ondan savayı hər şeyin Allahın feli olduğu haqqında müttəfiq fikirdədirlər. Zəbur, Tövrat, İncil və Quran da Allahın felidir."[3]

B) Yalan hədislərin uydurulması

İmam Rzanın dövründə ən böyük problemlərdən biri də xilafət məmurları tərəfindən məqsədli şəkildə yalan hədislərin uydurulması və onların Peyğəmbərin adına nisbət verilməsi olmuşdur. Bu növdən olan hədislərin uydurulmasına isə birbaşa xəlifə Harun ər-Rəşid rəhbərlik edirdi. Bu mövzuda uydurulmuş hədislər bir çox müsəlman müəlliflərinin əsərlərində özünə yer tapmışdır.[4]

C) Hakimiyyətin müqəddəsləşdirilməsi və qanuniləşdirilməsi

İmamın üzləşdiyi mühüm siyasi problemlərdən biri də xəlifələrin öz hakimiyyətlərini müqəddəsləşdirib qanuniləşdirmələri idi. Harun çox səy edirdi ki, özünün və özündən sonrakı övladlarının hakimiyyətlərini əbədiləşdirmək üçün müxtəlif üsullardan istifadə edərək avam kütləni buna inandırsın. Hətta o, bir dəfə onun üçün dörd beytlik şeir yazmış və bu şeirində Harunu "Əminullah" (yer üzündə Allahın əmanətdarı) adlandıran şairin hər beytinə min dinar vermiş və demişdir: "Əgər beytlərin sayını artırsaydın mən də pulun miqdarını artırardım."[5] Onun xəlifəliyi haqqında olan şeirlər dövrümüzə qədər gəlib çıxmış və müsəlman müəlliflərin əsərlərində qeyd edilmişdir.[6] Hətta mənbələrdə Harunun oğlu Məhəmməd Əmini mədh edən şəxsə iyirmi min dirhəmin verildiyi qeyd edilir.[7]

[1] Natiq Rəhimov. İslam tarixi. Bakı, III hissə, 2005. s. 147.
[2] İbn Kəsir əd-Dimaşqi. əl-Bidayə vən-nihayə. X c. s. 215.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. X c. s. 344.
[4] Xətib Bağdadi. Tarixu-Bağdad. XIV c. s. 8.
[5] Əbülhəsən Əli bin Hüseyn əl-Məsudi. Murucüz-zəhəb və məadinül-cəvahir. III c. s. 365.
[6] Cəlaluddin Süyuti. Tarixül-xüləfa. s. 233.
[7] Həmin mənbə.

Ç) Əcnəbi ədəbiyyatın ərəb dilinə tərcümə edilməsi

Yuxarıda qeyd etdiyimiz kimi İmamın üzləşdiyi ən mühüm problemlərdən biri onun dövründə əcnəbi kitabların ərəb dilinə tərcümə edilməsi olmuşdur. Ola bilsin ki, oxucular tərcümə ədəbiyyatının İmam üçün hər hansı bir problem çıxarmadığı fikrindədirlər. Amma məsələ daha da dərindən və obyektiv şəkildə təhlil edildikdə məlum olur ki, tərcümə olunmuş fəlsəfi əsərlər müsəlmanların əqidələrində bir çox məsələlərdə şək-şübhə, ciddi fikir ayrılığı və yersiz mübahisələr yaratmışdır. Müsəlmanlar daha vacib məsələlər üzərində fikirləşməkdən çox tərcümə ədəbiyyatının yaratdığı bu kimi problemlərlə məşğul olmuşlar.

D) Rəy ilə fətva vermək və təhriflərin "təmizə" çıxarılması

İmamın dövründə geniş yayılmış problemlərdən biri də alimlərin rəy əsasında fətva vermələri və Qurani-Kərimi öz rəyləri əsasında təfsir etmələri olmuşdur. Xüsusilə də şəriətdə icazə verilməyən qiyasın (müqayisə yolu ilə hökm çıxarmaq) rəvac tapması verilən fətvaları ali hakimiyyətin istəyinə uyğunlaşdırmış və onların rəğbətini qazandırmışdı. Hətta Harun ər-Rəşidin dövründə məşhur fəqihlərdən biri Harunun atasının cinsi münasibətdə olduğu bir cariyə ilə onun evlənməsini halal etməsi[1] dediyimiz məsələyə bir dəlil ola bilər.

8.13.2. İmam Rzanın fikri və dini islahatı

İmam Rza elm və dinin qayıdış nöqtəsidir. O, istər öz dövründə, istərsə də özündən sonrakı dövrlərdə müsəlman fəqihlərinə təsir göstərmiş dövrünün ən böyük alimi idi. Çünki o, öz elmini təmiz bir yolla silsilə şəklində ulu babası Peyğəmbərdən və onun elm şəhərinin qapısı olan Əli bin Əbi Talibdən almışdı. Buna görə də bir çox müsəlman fəqihləri öz elmlərini Əhli-beyt məktəbindn aldıqları üçün daim iftixar hissi keçirmişlər. Buna ən bariz misal Malik bin Ənəsi və Əbu Hənifəni göstərə bilərik.

İmamın özü özünün İslamdakı fikri və dini islahatlarına işarə edərək buyurmuşdur: "Mən Mədinə məscidində otururdum. Mədinə fəqihləri mənim ətrafıma yığılardılar. Kimsə onların birindən sual soruşsaydı, o da sual verənə məni göstərərdi. Mən də soruşulan hər bir suala cavab verərdim."[2]

İmam həmişə yaxınlarına insanların ağıllarının gücü yetdiyi şəkildə onlarla söhbət etməyi, onlara bu şəkildə təbliğat aparmağı tövsiyə edərdi. Hətta bir gün o, Məhəmməd bin Ubeydə demişdi: "Abbasiyə de insanlara tovhid haqqında dedikləri bəsdir. İndi onlara bilmədikləri haqqında danışmaq lazımdır…"[3]

İmamın bu sahədəki ən böyük islahatlarından biri müsəlmanların fikirlərini məşğul edən Əhli-beyt və onların kimlərdən ibarət olması məsələsi olmuşdur. İmam hər vəchlə Əhli-beytin kimlərdən ibarət olmasını isbat etməyə çalışır və müsəlmanları doğru-düzgün əqidəyə tərəf çəkirdi. Həmçinin o, Əhli-beytlə düşmənçilik edənlərin aqibətlərinin necə olacağını, bunun Quran və səhih sünnəyə qarşı addım olduğunu həmişə diqqətə çatdırmışdı. Hətta o, Əhli-beyt haqqında uydurulmuş rəvayətlərə də diqqət yetirərək insaqnların belə rəvayətlərə uymamasını, belə rəvayətlərin əksinə Əhli-beytin fəzilətlərinə bir kölgə saldığını vurğulamışdı. İmam bu haqda buyurur: "Bizim müxaliflərimiz bizim fəzilətlərimiz haqqında hədislər uydurdular və bunu üç pillədə qərar verdilər:

a) Ğuluvv (ifrat tərif).

b) İşlərmizdə nöqsan.

c) Düşmənlərimizin qınamasına rüxsət vermələri…"[4]

İmam bu sözlərilə təhrif edilmiş fikirlərin hamısının Əhli-beytin müxalifləri tərəfindən ortalığa atıldığını izah etmişdir.

İmamın ən böyük islahatlarından biri də təhrif edilmiş fikir və məfhumların çürüklüyünü ortalığa çıxarmaq olmuşdur. O, bu vəzifəni özünə bir borc olaraq dəyərləndirmiş və əməli şəkildə təhrif rənginə bürünmüş fikir və məfhumları rədd etmişdir. O, İslamda mövcud olmuş Müşəbbihə,

[1] Həmin mənbə.

[2] Əbu Əli Fəzl bin Həsən Təbərisi. Elamül-vəra bi əalamil-hüda. s. 315.

[3] Tarixçilər heyəti. Tarixül-İslam. III c. Qum, 1423 h/q. s. 120-121.

[4] Şeyx əs-Səduq. Üyunu-əxbarir-Rza (ə). I c. s. 304.

Mücəssimə, Mücəbbirə, Müvəffizə, Zənadiqə, Yəhudi və Xristian məzhəb və dinlərinin İslama vurduğu ziyanları açıqlamışdı. O, təhrifçilərin etimad etdikləri və əsaslandıqları uydurulmuş hədislərə aydınlıq gətirir, onların daha doğru olanlarını ortalığa qoyurdu. İmamın bu məsələdə üstünlük verdiyi ən mühüm amil hədislərin sənədləşdirilməsi olmuşdur.

İmam Rzanın ən mühüm islahatlarından biri Əhli-beytin hədislərinin nəşr edilib yayılması olmuşdur. O, bu hədislər vasitəsi ilə Qurani-Kərimin doğru-düzgün təfsirini vermişdi.

Bütün bu deyilənlərlə yanaşı İmamın ən böyük xidməti bəlkə də şiə məzhəbinin daha da köklü şəkildə əsaslandırması, şiə məktəblərinin genişləndirməsi və ali dərəcəli fəqihlərin yetişdirməsi olmuşdur.

8.13.3. İmam Rzanın siyasi problemlər qarşısındakı mövqeyi

İmam ömrünün on ilini (799-809) Harun ər-Rəşidin hakimiyyəti dövründə yaşamışdı. Harunun Əhli-beytə siyasəti isə heç də əvvəlki xəlifələrin siyasətlərindən fərqlənmirdi. Onların ali hakimiyyətə qeyri-qanuni yolla gəldiklərindən onun əldə saxlanmasını da qeyri qanuni-yollarla təmin edirdilər. Bu işlərdə Harun xüsusi şəkildə fərqlənirdi. Onun hakimiyyəti qoruyub saxlaması üçün istifadə etdiyi qanunsuz yollardan aşağıdakıları qeyd etmək olar:

a) Terror və qorxutmaq

Əvvəldə qeyd etdik ki, Harun hakimiyyəti Peyğəmbərin təsbiti, yaxud da seçki əsasında deyil, özündən əvvəlki xəlifənin təyini əsasında əldə etmişdir. Belə olduqda isə hakimiyyət həqiqi İslamdan uzaqlaşmış və şəxsi prinsiplər əsasında idarə olunmağa başlamışdı. Çünki, İslam təqva və elmə üstünlük verdiyi halda belə yolla hakimiyyətə gəlməyi qanunsuz bilmişdi. Bu qanunsuzluğu "qanuniləşdirmək" üçün ali hakimiyyətin başında olan xəlifələr, o cümlədən xəlifə Harun ər-Rəşid terror və qorxutma yolu ilə özünə bəraət qazandırmaq istəyində olmuşdur. O, bu işdə heç kəsi dinləmir və heç bir nəsihətə belə qulaq asmırdı. Beləliklə, onun hakimiyyəti boyunca istifadə etdiyi açıq-aşkar üsullardan biri xalqı qorxu altında saxlaması olmuşdur. Bunun bariz misalını onun hakimiyyəti dövründə baş vermiş belə hadisələrdən görməkdəyik. Belə ki, mənbələrin verdikləri məlumata görə bir dəfə o, xütbə söylədiyi halda bir kişi ayağa qalxıb ona Qurani-Kərimin **"Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar"**[1] ayəsini oxumuş və bunun da nəticəsində Harun ona yüz şallaq vurdurmuşdur.[2] Bundan başqa o, hicri 188-ci (m 804) ildə Əhməd bin İsa əl-Ələviyə ağır bir zərbə vurmuş və bu zərbənin nəticəsində ölmüşdür. Əhməd bu zaman doğsan yaşlı bir şəxs olmuş və Ələvilərin yerini xəlifəyə demədiyindən onun qəzəbinə tuş gəlmişdir.[3]

Həmçinin Harun Yəhya bin Abdullah bin Həsəni təqib etmiş, sonar da ona aman verdiyini elan etmişdir. Yəhya onun amannaməsinə etimad göstərdikdə isə onu həbsə atdırmış və ölənədək orada saxlatmışdı. Mənbələrə görə ona yemək-içmək verməyi qadağan etmiş və bunun nəticəsində Yəhya həbsxanada acından ölmüşdü.[4]

Bütün bu deyilənlərdən başqa onun əmri ilə altmış seyid Hümeyd bin Qəhtəbə ət-Tainin əli ilə öldürülmüşdür.[5]

b) Zülm və istibdad

Harunun dövründə hakimiyyət şəxsi mülkə çevrilmiş və bunun da nəticəsində xilafət ata malı kimi atadan oğula iris olaraq keçirdi. Bu işdə isə xalqın heç bir istəyi nəzərə alınmırdı. Onun dövründə zülm və istibdad son həddə çatmışdı. O, hakimiyyəti ərəb qadını olan Zübeydədən olmuş oğlu Əminə irs buraxmışdı. Lakin Harundan sonra hakimiyyətə gələn oğlu Əmin (809-813) ilə onun fars kənizi Məracildən olan digər oğlu Məmun arasındakı qardaş qırğınında on minlərlə müsəlmanın nahaq qanı axıdılmışdı. Bu müharibədə qalib çıxan Məmun qardaşını öldürərək

[1] Saff surəsi, ayə 3.
[2] Şəhabuddin Əbu Ömər Əhməd bin Məhəmməd Əndəlusi əl-Maliki, əl-İqdul-fərid. I c. s. 51.
[3] Yəqubi. Tarixi-Yəqubi. II c. s. 423.
[4] Yəqubi. Tarixi-Yəqubi. II c. s. 408.
[5] Şeyx əs-Səduq. Üyunu-əxbarir-Rza (ə). I c. s. 109.

hakimiyyəti ələ almış və onu iyirmi il (813-833) atası kimi zülmlə idarə etmişdi. Əminin xəlifəliyi dövründə müsəlmanlar içində əxlaqi tənəzzül başlamış, iqtisadiyyat xarab olmuş və ictimai pozğunluqlar baş alıb getmişdi.

Harunun istibdadına ən bariz misal onun yaxın qohumlarını yüksək vəzifələrə təyin etməsi, onları bu vəzifələrdə azad buraxması olmuşdur.

c) Xarici təhlükələr

İmam Rzanın dövründə Abbasi dövləti və müsəlman ümməti xarici qüvvələrin təhlükəsinə məruz qalırdı. Bu dövrdə bir tərəfdən Xəzərlərin hücumu və bu hücumun nəticəsində müsəlmanların şiddətli sıxıntıya məruz qalması, yüz min kişi və qadının əsir düşməsi problemin nə qədər ağır olmasından xəbər verməkdədir. Bu hadisəyə diqqət yetirən tarixçi Zəhəbi yazırdı: "İslama elə bir təhlükə üz vermişdi ki, bundan əvvəl belə bir hadisənən olması eşidilməmişdir."[1] Digər tərəfdən də Roma imperiyası müsəlmanlara hücum etmək üçün fürsət vaxtının yetişməsini gözləyirdilər. Lakin bu arada sülh müqaviləsinin imzalanması labüd olacaq müharibə təhlükəsinin qarşısını aldı.

ç) Daxili çaxnaşmalar

Harun ər-Rəşidin zəif siyasəti nəticəsində ortaya çıxan mühüm problemlərdən biri də daxili çaxnaşmaların və üsyanların baş qaldırmasına səbəb olmuşdu. 792-ci ildə Şamda qəbilə təəssübkeşliyi zəmnində baş vermiş qarşıdurmalar sonda hakimiyyətə qarşı üsyanlara gətirib çıxarırdı. Bu problemin dərinliyini və mühüm təhlükə olduğunu başa düşən xəlifə Harun Şam valisini dəyişərək yerinə Musa bin Yəhya bin Xalid Bərməkini təyin etdi. Ağır döyüşlərdən sonar yeni vali bölgədə nisbi sakitlik yarada bildi. Lakin bu sakitlik on minlərlə müsəlmanın qanının axıdılması ilə başa gəldi. Az bir müddətdən sonar həmin üsyanlar yenidən canlandı və bunun nəticəsində Harun Yəhya bin Cəfər Bərməkini Şam vilayətinə vali təyin etdi və üsyanı yatırmağı onun üstünə qoydu.

Miladi 794-cü ildə Misirdə xəlifə əleyhinə üsyanın qalxması, bunun ardınca Cəzirədə Vəlid bin Tərifin, növbəti il isə Kirmanda Həmzə bin Abdullahın üsyan qaldırmaları daxili üsyanların iri miqyaslı hal aldığını bildirir. Hicri 184-cü (800-ci) ildə Əbu Amr Həmzə əş-Şarinin 185-ci (801) ilədək baş qaldırması, onun ardınca Əbul-Xəsibin üsyan etməsi və bunların xilafətin bəzi məntəqələrində ağalıq etmələri və bunlara qarşı döyüşdə hər iki tərəfdən on minlərlə adamın ölməsi, bütün bu deyilənlərdən başqa həmin ildə İbrahim bin Osman bin Nəhikin öldürülməsi, Əbdülməlik bin Saleh bin Əli Abbasinin həbsə atılması xilafət mərkəzində daxili çaxnaşmanın dərinliyi göstərməkdədir.

Bu daxili çaxnaşmalr təbi ki, Harunla müsəlman ümməti arasında böyük bir uçrumun olduğunu və ümmətin ona qarşı nifrət hissinin olması göstərir. Buna işarə edən Xətib Bağdadi yazırdı: "İnsanlar buna nifrət edirdilər"[2]. Artıq xilafət ərazisində gedən bu proseslər Ələvilərin qiyam qaldırmasına səbəb olmuşdur. Əbəs deyil ki, Şimali Afrikada meydana gəlmiş şiə təmayüllü İdrisilər dövləti (789-926) məhz bu dövrdə meydana çıxmışdı.

Harunun İmam Rzanın atası İmam Musa Kazımı öldürtməsi, İmam Hüseynin qəbrinin dağıdılması üçün fərman verməsi onun dəhşətli bir canı olmasını göstərir.

8.13.4. İmam Rzanın Məhəmməd Əminin dövründə (809-813) siyasi vəziyyəti

Harun ər-Rəşid miladın 809-cu ilinin mart ayında öldü. Onun vəsiyyətinə uyğun olaraq ərəb mənşəli qadınından olan oğlu Əmin xəlifə oldu (809-cu ildə). Beləliklə, hicrətin 193-cü ilindən 198-ci (809-813) ilinədək İmam Rza onun müasiri oldu. Bu dövrdə İmam və onun tərəfdarları nisbətən sakit bir dövr yaşadılar. Çünki xəlifə Əmin İmama qarşı heç bir təzyiq, onun tərəfdarlarına qarşı isə heç bir terror planı həyata keçirmədi. Ola bilsin ki, xəlifənin İmama qarşı təzyiq etməməsinin səbəbi belə bir şəraitin ortalığa çıxmaması olmuşdur. Çünki Əminin xəlifəliyinin ilk dövrələrindən

[1] Şəmsuddin əz-Zəhəbi. Tarixül-İslam. 191-ci ilin hadisələri. s. 12.
[2] Xətib Bağdadi. Tarixi-Bağdad. XIV c. s. 12.

başlayaraq qardaşı Abdullah Məmunla aralarında ciddi qarşıdurma yaranmışdı. Bunun da nəticəsində xilafət iki hissəyə bölünmüşdü. Xəlifə Əmin Bağdadda, Məmun isə Xorasanda idarəçilik edirdilər və hər iki tərəfin qoşunu, tərəfdarları, var-dövlətləri və silahları vardı.

Əmin əqidəcə imansız bir adam idi. Onun haqqında müsəlman müəlliflər belə yazırlar: "Əmin Qəsrul-xuld sarayında mühasirədə ikən, əmisi İbrahim bin Mehdi onun yanına gələrək, müdafiə planı barədə fikrini öyrənmək istəyir. Lakin görür ki, xəlifə xidmətçiləri ilə əl-ələ verib saray hovuzunu Dəclə çayı ilə birləşdirən kanalı balıqçı tilovu ilə yoxlamaqla məşğuldur. İbrahimn sarayın mühasirəsindən söhbət açmaq istərkən Əmin onun sözünü ağzında qoyub qışqırır: "Əmi mənə mane olma! Sevimli balığım itib onu axtarıram" (Həmin hovuzda saxladığı balıqlardan birini dürr və yaqutla işlənmiş iki qızıl halqa ilə bəzəmişdi).[1]

Hicrətin 194-cü (810) ilində Hums əhli itaətsizlik göstərdilər. Əminin qoşunu Hums əhlinin öndə gələnlərini məhv edib qalanlarını isə zindanlara saldı. Bundan başqa xəlifənin göstərişi ilə həmin ərazilər yandırıldı və iqtisadiyyat məhv edildi.[2]

Elə həmin ildə xəlifə Əmin öz öğlu Musa üçün minbərlərdə adına xütbə oxutdu və bununla da o, özündən sonar xilafət kürsünə öğlu Musanı oturtmaq istəmişdi.[3]

Hicrətin 195-ci ilində (m 811) Əmin Əli bin İsanı Məmunun nəzarəti altında olan xilafət torpaqlarına vali təyin etdi. Əslində bununla o, Əlini Məmuna qarşı vuruşacaq qoşuna başçı təyin etmiş oldu. Bunu yaxşı başa düşən Əli bin İsa böyük bir ordu toplayaraq Məmunun üstünə yürüş etdi. Bu dövrün tarixi hadisələrini şərh edən Təbəriyə görə onun qoşununda əlli min əsgər olmuşdu[4]. Qarşı tərəfin ordusuna isə Tahir bin Hüseyn adlı məşhur sərkərdə başçılıq edirdi. Zül-yəmineyn ləqəbli Tahir elə döyüşün ilk anlarından üstünlüyü ələ aldı və Əli bin İsanın başını kəsərək Mərvə-Məmunun xidmətinə gödərdi. Hadisələr bu minvalla inkişaf etdi və iki qardaş arasında bir neçə dəfə toqquşma oldu. Nəhayət hicri 198-ci ilin məhərrəm ayında (sentyabr 813) Əminin başı kəsilib qardaşı Məmunun hüzuruna gətirildi. Bununla da Məmun özünü bütün Abbasi torpaqlarının xəlifəsi elan etdi. Beləcə on minlərlə müsəlmanın qanı üzərində qurulmuş bir xilafət kürsüsündə əyləşən Məmun təbiidir ki, qan içmədən bu xilafəti idarə edə bilməzdi. Belə bir şəraitdə öz tərəfdarları ilə səssizliyə çəkilən İmam Rza İslamın həqiqi simasını təbliğ etməklə məşğul idi.

8.13.5. İmam Rzanın siyasi üslubu

İmam Rzanın xilafətin belə bir qarşıq halında qarşısında iki yol qalırdı. Onlardan biri elm yolu ilə təbliğat aparmaq və həqiqətləri bəyan etmək, ikincisi isə başına ordu toplayaraq əsgəri güc vasitəsiylə hərbi çevriliş etmək. Lakin İmam doğru olaraq birinci yolu seçdi və bu yolun tam doğruluğunu isbat etmiş oldu. Çünki əgər o, ikinci yolu, yəni hərbi yolu seçmiş olsaydı həm özünü, həm də ətrafındakı tərəfdarlarını məhv etmiş olacaqdı. İmam elmi təbliğat yolunu seçməklə insanların şüurunda imamət fəlsəfəsini və İslami xilafətin mahiyyətini qurmuş oldu. Tez bir zamanda imam və xəlifənin mahiyyətini dərk etmiş insanlar xilafətin müxtəlif yerlərində ali hakimiyyətə qarşı üsyanlar qaldırdılar. Belə bir üsyana rəhbərlik edən görkəmli sərkərdələrdən biri də Azərbaycanın qəhraman oğlu Babək Xürrəmdin idi. İslama qarşı deyil, yalnız xilafətə qarşı vuruşan Babək və onun tərəfdarları bəlkə də İslam adı altında müsəlmanlara hökmdarlıq edən xəlifələrin iç üzünü hamıdan yaxşı dərk edirdilər.

Deməli İmam müsəlman ümmətinə təmiz və saf siyasətin nə demək olduğunu özünəməxsus üslubda bəyan etmiş və Qiyamətə qədər bütün hökmdarlara zülm və istibdad yolu ilə deyil yalnız İslamın təqdir etdiyi siyasətlə ümmətin idarə edilə biləcəyini göstərmişdi. Həmçinin o, bu üslubu ilə zülm, qətl və ya həbs yolu ilə heç kəsin haqlı səsinin boğulmasını rəva görməmiş və heç bir hökmdara belə bir səlahiyyətin verilmədiyini bildirmişdi. O, ata-babaları vasitəsiylə Peyğəmbərdən : "Hər bir insan zamanının imamı, Allahının kitabı və Peyğəmbərinin sünnəsi ilə çağrılacağını"[5] hədisini rəvayət etməklə kimin ardınca getməyin mühüm əhəmiyyət kəsb etdiyini təbliğ etmişdi.

[1] Əbülhəsən Əli bin Hüseyn əl-Məsudi. Murucüz-zəhəb və məadinül-cəvahir. III c s. 394.
[2] Tarixçilər heyəti. Tarixul-İslam. Qum, 1423 h/q. III c. s. 129.
[3] Həmin mənbə.
[4] Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixül-üməm vəl-müluk. hicri 195-ci ilin hadisələri.
[5] Muşiruddin ibn Şəhraşub. Mənaqibu-Ali Əbi Talib. III c. s. 80.

Buna görə də o, silsilə şəklində ulu babası Peyğəmbərdən Əhli-beytin fəzilətləri haqqında dayanmadan və yorulmadan rəvayətlər edir, onların üstün məziyyətlərini xalqa çatdırırdı. Onun bu mövzuda rəvayət etdiyi hədislərdən aşağıdakıları qeyd etmək olar:

"Mənim Əhli-beytim Nuhun gəmisinə bənzəyir. Hər kəs ona minsə nicat tapar, hər kəs ondan uzaqlaşsa qərq olar."[1]

"Ulduzlar göy əhlini məhv olmaqdan qoruduğu kimi Əhli-beytim də yer əhlini məhv olmaqdan qoruyur."[2]

"Dörd qrupa Qiyamət günü şəfaətçiyəm: məndən sonra zürriyyətimə hörmət edənə, onların ehtiyaclarını ödəyənə, çətin vaxtlarında onlara köməklik edənə və qəlbi və dili ilə onları sevənə."[3]

İmamın üslubundan biri də şiəliyin mahiyyət və əlamətlərini, doğruluq və əsaslarını ümmətə bəyan etmək olmuşdur. Onun bu mövzuda gördüyü işi bəlkə də heç bir imam görməmişdi. Belə ki, o, şiəliyin mahiyyətini açıb göstərmiş və bununla da camatın nəzərində tarixən ali hakimiyyət tərəfindən qara guruh kimi göstərilmiş şiəlik öz həqiqi sifətini xalqa tanıtmışdı. Bu haqda İmam hədislərinin birində buyurmuşdur:

"Bizim tərəfdarlarımız namaz qılan, zəkat ödəyən, Kəbəni sevən, ramazan ayının orucunu tutan, Əhli-beytin dostları ilə dost olan və onların düşmənləri ilə düşmən olanlardır. Məhz belə kimsələr həqiqi iman və təqva əhlidirlər."[4]

İmam bəzən şiəliyin mahiyyətini daha da dərindən açıb göstərmək üçün tatixi şəxslərdən misallar gətitirdi. Belə hədislərinin birində o, buyurur: "Şiə Həsən , Hüseyn , Əbuzər, Salman, Miqdad, Məhəmməd bin Əbi Bəkrdir. Bunlar heç vaxt (Əliyə qarşı) müxalifət qrupda olmamışlar…"[5]

İmamın təbliğatında mühüm yerlərin birini də Kərbəla faciəsi tuturdu. O, öz xütbələrində bu hadisənin hərtərəfli təhlilini verir və insanları onun həqiqi mahiyyəti ilə tanış edirdi. Həmçinin o, bununla Peyğəmbərdən sonrakı xilafətin doğru məcrada inkişaf etmədiyini və nəticədə belə bir böyük hadisələrin ortalığa çıxdığını vurğulayırdı. Bütün bunlardan əlavə İmam Kərbəla hadisəsinin daim yaddaşlarda qalmasını və insanlar üçün azadlığa çıxma, zülmə boyun əyməmə yolunun məhz Kərbələdan keçdiyini açıqlamışdı. O, bu mövzuda dediyi hədislərin birində bu hadisəni yaddaşımıza belə yazırdı: "Həqiqətən Hüseynin günü bizə qarşı edilmiş ən böyük cəfa günüdür. O gün qanımızın axıdıldığı, əzizlərmizin zəlil edildiyi gündür… Ağlayanlar Hüseynə ağlasınlar, çünki ona ağlamaq böyük günahları aradan aparar."[6] İmam bu kimi hədisləri ilə İmam Hüseynə əza saxlamağı ümmət içərisində lazımı bir həddə çatırmışdı.

8.13.6. İmam Rza və iqtisadi islahatları

İmam Rzanın apardığı istilahlarının mühüm bir hissəsi iqtisadi islahatlardır. Abbasi xilafəti zamanında dövlət büdcəsinin (beytül-malın) gəlirlərinin çox olmasına baxmayaraq əhali ağır social problemlər qarşısında idi. Çünki vergiləri toplayan dövlət məmurları əhalinin var-yoxunu qanunsuz yerə əllərindən alır, vergi vere bilməyənləri olmazın cəzalara məruz qoyurdular. Bundan əlavə dövlət büdcəsinə toplanan mallar lazımı yerlərə deyil bəzən xəlifə başda olmaqla yüksək rütbəli dövlət məmurlarının kef və əyləncələrinə sərf olunurdu. Bütün bu deyilənləri nəzərə alaraq İmamın həyatı boyu üzləşdiyi mühüm iqtisadi problemləri aşağıdakı kimi qruplaşdıra bilərik.

A) Hakim dairənin müsəlmanların gəlirlərini əyləncəyə çevirmələri

Abbasi xəlifələri İslam iqtisadiyyatının nizamını öz istədikləri qaydalar əsasında tənzimlədilər. Bununla da onlar şəri əsası olmayan bir çox vergilərin cəmiyyət üzərinə tətbiq olunmasına, xalqın xüsusi mülkiyyətini onların əllərindən müsadirə edib beytul-mal adıyla xəlifənin şəxsi mülkiyyətinə çevrilməsinə və bununla da yığılan var-dövləti öz şəxsi istəklərinə xərcləməyə

[1] Şeyx əs-Səduq. Üyunu-əxbarir-Rza. II c. s. 101.
[2] Həmin mənbə. II c. s. 28.
[3] Həmin mənbə. I c. s. 253.
[4] Əllamə əl-Məclisi. Biharül-ənvar. 65-ci c. s. 168.
[5] Həmin mənbə. 65-ci c. s. 158.
[6] Muşiruddin ibn Şəhraşub. Mənaqibu-Ali Əbi Talib. IV c. s. 93.

bais oldular. Müsəlmanların beytül-malı hesabına xəlifə və onun məmurları uca qəsrlər tikdirdi, saray müğənniləri və cariyələr saxladılar. Bu hərəkətləri ilə onlar müsəlmanları yoxsul və dilənçi vəziyyətə salır, İslamın iqtisadi qanunlarına böyük sarsıntılar gətirirdilər. Tarix özü buna şahiddir ki, xəlifə Harun ər-Rəşid Mosul bölgəsindən gələn gəlirləri bəzi cariyələrinə paylamış, ona mədhiyyə yazan yaltaq saray şairlərinə həddən artıq bahalı hədiyyələr bağışlamışdı. Hətta bir gün Əbul-Ətahiyə xəlifə Harunun yanına girərək ona üç misralıq beyt demiş xəlifə də bunun müqabilində ona iyirmi min dirhəm vermiş, Fəzl bin Rəbi də ona dörd min dirhəm əlavə etmişdi.[1] Harunun qardaşı İbrahim bin Mehdi müğənni üçün bir milyon dirhəm vermişdi.[2] O, yetmiş min dirhəmə bir cariyə almış, sonar da ona on iki min dirhəmə bir cəvahir alıb bağışlamışdı.[3]

Bu ənənə Harundan sonar onun xəlifə olan oğlanları arasında da davam etmişdir. Belə ki, onun oğlu Məhəmməd Əmin (809-813) öz cariyəsi üçün ipəkdən və qızıl saplardan hazırlanmış yataq dəsti hazırlatmışdı.[4] Onun üçün kıçık bir balıq ovlanmış ona qızıldan iki halqa asılmışdı.[5] Beytül-malın böyük bir hissəsi onun kef və əyləncəsi, qurdurduğu musiqi məclisləri üçün sərf edilirdi.[6]

Xəlifə Məmun da (813-833) beytül-malı yersiz xərcləməkdə ittiham olunur. Belə ki, o, Fars və Əhvazdan gələn xəracı arvadının valideyninə bağışlamışdı.[7]

Təbii ki, belə bir şəraitdə İmam Rza yeri gəldikcə xilafət sarayında dövlət məmurlarının bu hoqqabazlıqlarını görür və onların xalqın var-dövlətini necə talan etdiklərinin şahidi olurdu. İmam onlarının qulaqlarının eşidəcəyi səviyyədə beytül-malın Allahın mülkü olduğunu, onu yalnız şəxsi işlərə və əyləncələrə deyil, haqqı olanlara verilə biləcəyi mövzusunda hədislər rəvayət edirdi. Əlbəttə ki, onun bu sahədə apardığı təbliğatlar əbəs olmayıb müləq böyük bir əhəmiyyət daşıyırdı.

b) Vətəndaşların mal-dövlətlərinin himayə olunmaması

Hər bir dövlətin əsas borclarından biri vətəndaşların mal-mülklərini qorumaq və onların təhlükəsizliyini təmin etmək olmalıdır. Əks halda ölkədə hərc-mərclik baş alıb gedər, iqtisadiyyat məhv olar və sonda o xalqın və dövlətin varlığı məhvə məhkum olmuş olar. Buna görə də dövlət gərək xalqın əmlakını oğrulardan, talançılardan, yadellilərdən qorusun. Lakin İslam tarixini vərəqlədiyimiz zaman təəssüflər olsun ki, Abbasi xəlifələrinin bu məsələdə nə qədər də səhlənkar davrandıqlarının şahidi oluruq. Xüsusilə də dövlət məmurlarının özlərinin xalqın malına təcavüz etmələri insanı dəhşətə salır. Hətta onlar xalqın mal-dövlətini zorla əllərindən alır və onları öz şəxsi mülkiyyətlərinə çevirirdilər.[8]

d) Hakimlərin xalqın malına zorla sahib olmaları

İslam iqtisadiyyatının sabit və dəyişməz qanunlarından biri budur ki, hakimin beytul-maldan alacaq müəyyən haqqı vardır. Onların əllərində olan beytul-mal heç də onların şəxsi əmlakı olmayıb ümumxalq malıdır və müsəlmanlar arasında bərabər səviyyədə xərclənməlidir. Lakin Abbasi xəlifələri müsəlmanların əmlakını öz şəxsi malları kimi ümumi işlərinə sərf edirdilər. Müsəlman müəlliflərinin verdikləri doğru məlumata görə Harun ər-Rəşidin ümumi mülkiyyəti yüz milyon dinara, ev avadanlığı, cəvahiratları və mal-davarının qiyməti də yüz milyon dinara yetişmişdi.[9]

Harunun Xorasan valisinin ümümi əmlakı səksən milyon dinar idi.[10]

İmam Rza isə xəlifələrin bu iqtisadi özbaşnalıqlarının müqabilində köhnə və yamaqlı əba-qəba ilə gəzər və bunula da sankı onlara həqiqi müsəlmanın necə yaşamalı olduğunu öz geyim-

[1] Əbülfərəc əl-İsfahani. Kitab əl-Əğani. IV c. Beyrut, 1995. s. 67.
[2] Həmin mənbə. X c. s. 99.
[3] Həmin mənbə. XVI c. s. 342-343.
[4] Əbülhəsən Əli bin Hüseyn əl-Məsudi. Murucüz-zəhəb və məadinül-cəvahir. III c. s. 392.
[5] Həmin mənbə. III c. s. 394.
[6] İbn Əsir əl-Cəzəri. əl-Kamil fit-tarix. VI c. s. 294.
[7] Əbülhəsən Əli bin Hüseyn əl-Məsudi. Murucüz-zəhəb və məadinül-cəvahir. III c. s. 443.
[8] Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixül-üməm vəl-müluk. VIII c. s. 551.
[9] Cəlaləddin əs-Süyuti. Tarixül-xüləfa. s. 238.
[10] Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixül-üməm vəl-müluk. VIII c. s. 324.

kecimində göstərirdi. İmamın bu hərəkətləri sanki xilafət məmurlarının yaşayışına etiraz kimi dəyərləndirilir.

ç) Xilafətin iqtisadi zülmü və böyük günahları

İmam Rzanın dövründə mövcud olmuş iqtisadi zülmlər və böyük günahlar dövlət məmurları tərəfindən törədilən adiləşmiş adət halını almışdı. İmam bacardığı qədər iqqtisadi zülmün aradan götürülməsinə və böyük günahların eilməməsinə vaxt və zəhmət sərf etmişdir. O, beytül-malın lazımı yerlərə xərclənməsi üçün xəlifənin yerli məmurlarına əhalinin şikayətlərini çatdırır və yeri gəldikcə də onları ilahi əzabdan qorxudaraq xalqın malını şəxsi işlərinə xərcləməməyə çağırırdı. Əbəs deyil ki, İmamın xütbələrinin böyük bir hissəsinin məzmunu yetim malının zülmlə yeyilməsinə, sələmçiliyin böyük günah olub İslam iqtisadiyyatını məhv etməsinə, ölçü və çəkidə aldatmanın doğru olmadığına, israfçılığın haram olmasına və s. bu kimi iqtisadi mövzuları əhatə etmişdir.[1]

İmamın iqtisadi islahatlarına aşağıdakılar daxildir:

1) Xümsun yığılıb imama verilməsi

Xüms İslam iqtisadiyyatının mühüm tərkib hissəsi olub onun dövrü imama verilməsi şəriətin zəruri hökmlərindədir. Buna gərə də İmam xüms məsələsinə xüsusi önəm vermiş və onun yığılıb təhvil verilməsinə ciddi şəkildə təbliğat aparmışdı. İmam bu işdə böyük çətinliklər və hətta təzyiqlərlə də üzləşmişdi. Çünki xüms Quran və Peyğəmbər sünnəsinin vacib bir əmri olmasına baxmayaraq nə Abbasilər nə də ondan əvvəlki Əməvilər dövründə həqiqi sahiblərinə deyil hakim təbəqənin əlində cəmlənmişdi. Buna görə də o, var gücü ilə çalışaraq xümsun hakim təbəqəyə deyil bir imam kimi ona verilməsini tövsiyə edirdi. Hətta mənbələrdə belə bir məlumat da vardır ki, İmam ona ünvanlanmış bir fars tacirinin məktubunun cavabında ona belə yazmışdı: "…Allahın halal etdiyi yerdən başqa mal-dövlətin verilməsi halal deyil. Xüms bizim dinimizə köməklikdir… Onun verilməsi sizin ruzinizin artması səbəbidir…"[2]

2) Zəkatın yığılmasına təşviq

İslam iqtisadiyyatının dirçəldilməsinin və qüvvətlənməsinin ilkin şərtlərindən biri zəkatın verilməsidir. Bunun vasitəsi ilə yoxsul və kasıb təbəqənin nümayəndələri öz həyatlarını davam etdirir, borclular öz borclarını onunla ödəyir, yolda qalmışlar isə öz mənzillərinə onunla yetişirlər. Hətta zəkatın vasitəsi ilə qeyri-müsəlmanlar İslama gətrilir və ya ən azından onların qəlblərində İslama qarşı rəğbət hissi aşılanır. Bütün bunlara görə İmam zəkatın toplanmasına və imkanı olanların zəkat vergisini mütləq vermələrinə xüsusi diqqət yetirirdi. Zəkatın beytul-mala toplanıb onun hakim dairənin istədiyi kimi xərcləmələrinin haram olduğu haqqda hədislər buyurmuşdur[3]. Onun bu haqda buyrduğu hədislərdən aşağıdakıları qeyd etmək olar:

"Hər kəs namaz qılıb zəkat verməsə, onun namazı qəbul deyi."[4]

"Hakimlər yalan danışanda quraqlıq başlar, rəhbərlər zülm edəndə dövlət məhv olar, zəkat verilmədikdə isə canlılar məhv olar."[5]

3) İqtisadi dayağa dəvət

İmamın iqtisadi sahədə apardığı təbliğatlardan biri də dövlətin və imkanlı şəxslərin yoxsullara, kasıblara, evlənməyə imkanı olmayanlara və bu kimi iqtisadi dayağa ehtiyaclı olanlara köməkliyin edilməsi olmuşdur. O, bu sahədə təbliğatını aşağıdakı üç istiqamətdə aparmışdı:

A) Dövlətin yoxsulları və kasıbları yedirtməsi.

B) Şəri vergilərin öz ünvanına düzgün çatdırılması.

C) Ehtiyacı olanlara infaq etmək.

---

[1] Məhəmməd Həsən Şöbə əl-Hərani. Tühəfül-üqul. s. 316.

[2] Hürr əl-Amili. Vəsailüş-şiə. IX c. s. 538 "kitabül-xüms" fəsli.

[3] Həmin mənbə. IX c. s. 221.

[4] Şeyx əs-Səduq, Üyunu-əxbarir-Rza (ə). I c. s. 258.

[5] Hürr əl-Amili. Vəsailüş-şiə. IX c. s. 31; Şeyx ət-Tusi. Amal. I c. s. 77.

İmam bu üç istiqamətdə hər yerdə, hətta xəlifənin təşkil etdiyi məclislərdə belə hədis deməkdən çəkinməmiş və social bərabərliyin qorunması üçün bunlara əməl olunmasının zəruriliyini önə çəkmişdir. O, bu haqda hədislərinin birində buyurur:

"Ən səxavətli adam odur ki, insanların yeməyindən həm yeyə, həm də yedirdə."[1]

8.13.7. İmam Rzanın təhrif olunmuş dini terminlərə qarşı mübarizəsi

İmamın həyatı boyu üzləşdiyi problemlərdən biri də zahidlikdə təhrif edilmiş üslublar idi. Abbasi xəlifələri xalqın mal-dövlətini yeyib taladıqları halda xalqı zahidliyə döğru çağırır, onları İslamda olmayan yeni bir sufiyanə hislərə qapadırdılar. Beləliklə, miladın VIII əsrinin sonlarında meydana çıxan və hələ ki, mənşəyi bəlli olmayan sufilik müsəlmanlar arasında yavaş-yavaş yayılmağa və avam kütlə sufi təlimləri əsasında yaşamağa təşviq edilirdi. Bunun ən mühüm siyasi səbəbi isə müsəlmanların öz iqtisadi hüquqlarını tələb etməməyə doğru bir çağrış idi. Lakin İmam Rza belə təhrif edilmiş zahidliyin əksinə çıxır və İslamda mövcud olmayan sufiliyin xalq içərisində yayılmasına qarşı ciddi təbliğatlar aparırdı. O, hətta geyimində belə anti-sufizm yolunu tutmuşdur. Belə ki, qış aylarında belə, yundan istifadə etməz, həsirinin üstündə oturar və pambıq paltarlara üstünlük verərdi. Çünki sufilər əyinlərinə yun qaba paltar geyinməklə guya dünyada zahid həyat yaşadıqlarını bildirirdilər. Həmçinin İmam bəzən bahalı zər-zibalı paltarlar geyinər, ona irad tutan və "İmam gərək yoxsul və narahat paltar geyinsin" deyənlərə qarşı etirazını bildirərək, onlara Həzrət Yusifi misal çəkərdi. Ona irad tutmuş məşhur sufilərin birinə İmam belə cavab vermişdi: "Yusif bir peyğəmbər idi, amma qızıl düyməli astarlı ipək qumaş paltar geyinərdi. O, ali-Fironun mütəkkələrində oturar və hökm edərdi. İmamdan istənilən şey onun ədalətidir. O, danışanda doğru danışmalı, hökm etdikdə ədalətli hökm etməli və vədə verdikdə əməl etməlidir."[2]

Bu hədisdən də göründüyü kimi İmam təsəvvüf və zahidlikdə səhv anlaşılan əmməllərə qarşı öz səsini qaldırmışdı. O, bəzən bunlarla kifayətlənməyib sufilərin əleyhinə sərt sözlər də demişdir. Həmin sözlərdən aşağıdakıları qeyd etmək olar:

"Hər kimin yanında sufilikdən söhbət düşsə və o, qəlbi və dili ilə sufiliyi inkar etməsə, bizdən deyil. Hər kəs inkar etsə, Peyğəmbərin hüzurunda cihad etmiş kimidir."

"Heç kim riyakarlıq, azğınlıq ya da axmaqlıqdan savayı bir səbəb üzündən təsəvvüfə üz tutmayıb."[3]

8.13.8. İmam Rzanın ehtiyacı olanlara əl tutmansı

İmam və ya xəlifə olan hər kəsə ehtiyac içində olub ehtiyacını ödəyə bilməyənlərə əl tuması vacibdir. Lakin təəssüflər olsun ki, Abbasi xəlifələri yalnız öz qohum-əqrəbalarının və onlara qarşı yaltaqlıq edənlərin ehtiyaclarını ödəyir, digərlərinə əhəmiyyət vermirdilər. İmam Rza isə hər vaxt qarşısına çıxan hər bir ehtiyaclı kimsəyə öz qüdrəti çərçivəsində maddi və mənəvi dəstəyini göstərirdi. Rəvayət olunur ki, bir gün bir şəxs İmama (ə yaxınlaşıb deyir "Öz mürüvvətin miqdarı qədər mənə maddi köməklik et" İmam buyurur: "Bunu bacarmaram" Həmin şəxs yenə deyir: "Mənim mürüvvətim miqdarında köməklik et" İmam xidmətçisini çağırıb o kişiyə iki yüz dinar verməsini tapşırır.[4]

Mənbələrin məlumatından da bəlli olur ki, İmam (ə o qədər təvazökar olmuşdur ki, hətta süfrə başında xidmətçiləri ilə birlikdə oturarmış.[5]

8.13.9. İmam Rzanın əxlaqi islahatları

Abbasilər hakimiyyəti dövründə İslam əxlaqi demək olar ki, tənəzzül dövrünü yaşayırdı. Xəlifələr də digər dövlət məmurları aşkarcasına içki, qumar, musiqi və s. bu kimi əxlaqa zidd

[1] İbrahim bin Məhəmməd əş-Şafei. Fəraidüs-simteyn. II c. s. 323.
[2] Əllamə Əbülhəsən Əlin bin İsa əl-Ərəbli. Kəşfül-ğimmə. II c. s. 310; İbn Səbbağ əl-Maliki. əl-Füsulul-mühimmə. s. 254.
[3] Şeyx Abbas əl-Qummi. Səfinətül-bihar. II c. s. 57-58; Müqəddəs Ərdəbili. Hədiqətüş-şiə. s. 567.
[4] Muşiruddin ibn Şəhr Aşub. Mənaqibu-Ali Əbi Talib. IV c. s. 39.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXXIX c. s. 101.

əməllərlə məşğul olurdular. Onların İslam əxlaqına zidd olan hərəkətlərindən aşağıdakıları qeyd etmək olar:

a) Əyləncə, qumar və keflə məşğul olmaq

İslama görə xəlifə və ya dövlət məmuru olan hər bir kəs başını kef və əyləncəyə deyil, yalnız xalqın xidmətinə qatmalıdır. Onlara İslam hec cürə icazə vermir ki, xalqın malını öz şəxsi əyləncələrinə, bahalı geyimlərinə və səfərlərinə sərf etsinlər. Ancaq təəssüflər olsun ki, İslam tarixini oxuduğumuz zaman Abbasi xəlifələrini xalqın islahından çox qumar və əyləncə ilə məşğul olduğunu görürük. Bu xəlifələr içində Harun ər-Rəşid ilk olaraq şahmat, ox atma və xokkey yarışları təşkil edib oynayan xəlifə olmuşdur.[1] Hətta bir gün o, at yarışında olarakən onun atı öndə olduğundan şairə onun haqqında şeir yazmasını əşr etmişdir.[2]

O, gülüb əylənmək üçün öz sarayı yaxınlığında İbn əbi Məryəm əl-Mədəni üçün mənzil düzəltdirmişdir.[3]

b) Ğina və cariyələrə düşkün olmaq

Abbasilər xəlifələrinin məşğul olduqları haram əməllərdən gina və cariyə düşkünlüyü daha çox özünü göstərməkdədir. Xilafət ərazilərində əhalinin ağır vəziyyəti ilə maraqlanmayan xəlifələr əksinə əhalidən yığılan vergilər hesabına öz saraylarında bəzən yüzlərlə cariyələr saxlayır, musiqiçilərə küllü miqdarda hədiyyələr edirdilər. Mənbələrə görə, xəlifələr içində musiqiyə ən bağlı olan Harun ər-Rəşid olmuşdur. O, musiqiyə çox düşkün olmuş, hətta müğənniləri təbəqələrə belə bölmüşdür.[4] Onun üç sevimli müğənnisi barədə şeiri də vardır.[5]

İshaq bin İbrahim bin Meymun deyir: "Məmun qadınlara çox düşkün olan biri idi və cariyələr onun üçün səhərədək musiqi oxuyardılar.[6]

c) Şərab içmək

İslam şəriətinin qadağan etdiyi ən haram və nurdar əməllərdən biri şərab, yəni sərxoşedici içki içməkdir. Hətta onlar öz işlərinə bəraət qazandırmaq üçün bəzi fəqihləri bu haqda onların xeyrinə fətva verməyə belə təhrik etmiş, lakin bunu bacarmamışlar. Abbasi xəlifələri içərisində şəraba düşkün və daim şərab içən kimi Harun ər-Rəşid tanınır[7]. Bundan başqa mənbələrdə xəlifə Əminin və xəlifə Məmunun şərab içməsi haqqında doğru məlumat da vardır.[8]

Belə olduğu şəraitdə İmam Rzanın üzərinə çox böyük və ağır məsuliyyət düşürdü. Çünki o, bir imam olaraq əxlaqsızlıq girdabında boğulan xəlifə və onların yaxınlarını və Həmçinin cəmiyyətin bəzi təbəqəsinə sirayət etmiş bu fəsadı islah etmək üçün var gücü ilə çalışırdı. O, xilafət sarayında ölmüş peyğəmbər sünnəsini dirçəltmək üçün xəlifələrə müxtəlif yollarla təsir etməyə və onları həqiqi sünnəyə doğru çağırırdı. Buna görə də o, gecə-gündüz küçə və bazarları, xalqın toplaşdığı kütləvi yerləri gəzərər, hər yerdə Allah Rəsulunun əxlaqa aid hədislərini rəvayət edərdi. Onun bu mövzuda silsilə şəklində Peyğəmbərdən nəql etdiyi hədislərindən aşağıdakı qeyd etmək olar.

"Allah məni zülm üçün deyil rəhmət üçün göndərib."[9]

"Yaxşılığı niyyət etmək insanı yetmiş savaba çatdırar…"[10]

---

[1] Cəlaluddin Süyuti. Tarixül-xüləfa. s. 237.
[2] Əbülfərəc əl-İsfahani. Kitab əl-Əğani. Beyrut, 1995. IV c. s. 43.
[3] Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri. Tarixül-üməm vəl-müluk. VIII c. s. 349; İbn Əsir əl-Cəzəri. əl-Kamil fit-tarix. VI c. s. 293-294.
[4] Cəlaluddin əs-Süyuti. Tarixül-xüləfa. s. 237.
[5] Bax:Vəfayatül-vəfayat. IV c. s. 226; Əbülfrəc əl-İsfahani.Kitab əl-Əğani. XVI c. s. 345.
[6] Şihabuddin əl-Malik.əl-İqdü-frid. VIII c. s. 156.
[7] Bağır Şərif əl-Qürəşi.Həyatu İmam Rza (ə). s. 224.
[8] İbn Əsir əl-Cəzəri.əl-Kamil fit-trix. VI c. s. 295, 437; Cəlaluddin əs-Süyuti. Tarixül-xüləfa. s 260.
[9] Məhəmməd bin Yəqub əl-Küleyni.Üsulül-kafi. II c. s. 428.
[10] Həmin mənbə. II c. s. 159.

8.14. İmam Rzadan rəvayət edənlər

İmam Rzadan təfsir, hədis, rical və digər elmlər sahəsində olan alimlər rəvayət ediblər. Şəhraşub "əl-Mənaqib" əsərində yazırdı: "Ondan əsər yazan bütün müəlliflər rəvayət etmişlər. Onlardan Xətib əl-Bağdadi "Tarix», Sələbi "Təfsir», Səmani "ər-Risalə», İbn Mutəzz öz əsərlərində rəvayət etmişlər."

Hafiz Əbdüləziz bin əl-Əxzər əl-Cənabəzi "Məalimil-İtrətit-Tahirə" əsərində yazırdı: "İmam Rzadan Əbdussalam bin Salih əl-Hərəvi, Davud bin Süleyman, Abdullah bin Abbas əl-Qəzvini rəvayət etmişdir.

Möhsün əl-Əmin "Təhzibüt-təhzib" əsərindən nəqlən deyir: "Ondan oğlu Məhəmməd, Əbu Osman əl-Mazini ən-Nəhvi, Əli bin Əli əd-Dəbəli, Mənsur Nisaburi, Məmun bin Rəşid, Əli bin Mehdi bin Sədəqə və başqaları rəvayət etmişlər."[1]

8.15. İmam Rzanın əsərləri

İmam Rza mənbələrin də təsdiq etdikləri kimi öz dövründə ən elmli və ən fəzilətli bir şəxs idi. Belə olduğu halda rəvayət edənlərin ondan rəvayət etməsi, əsər yazanların ondan iktibas etməsi və bir sözlə elm əhlinin ona müraciət etməsi təbii görünməlidir. İmam yazdığı məktublarda və xütbə oxuduğu zaman hədis yazanların ondan eşitdiklərini yazması İmamın adına xeyli sayda əsərin ortalığa çıxmasına səbəb olmuşdur. Onlardan aşağıdakıları qeyd etmək olar.

1. "Məhəmməd bin Sinana yazdığı məktub."

İmamın bu məktubu Məhəmmədin ondan şəri hökmlərin səbəbləri haqqında soruşduğu suallar əsasında olmuşdur.

2. "əl-İləl"

Bu əsəri Fəzl bin Şazan İmamdan eşitdiklərini yazaraq ərsəyə gətirmişdir.

3. "Məmuna yazdığı məktub."

İmam bu məktubunda bir çox şəri məsələlərə toxunmuş, İslamın əsaslarından, şəriətin səbəblərindən və hakimin əxlaqından bəhs etmişdir.

4. "ər-Risalətüz-zəhəbiyyə fit-tibb."

O, bu məktubunu da xəlifə Məmuna yazmışdır. Bu məktubunda İmam təbabətin sirlərinə toxunmaqla yanaşı xəlifəyə hansı növ yeməklərdən istifadə etmək, dərmanların istifadə qaydaları və s. haqqında məlumat vermişdir. Şeyx Tusi "əl-Fihrist" əsərində bu məktubu qeyd etmişdir. Hətta bəzi mənbələrə görə bu məktubu oxuyan Məmun onun qızıl su ilə yazılmasını əmr etmişdir.[2]

5. "Fiqhür-Rza ."

Bu əsər İmamın adına şamil olunan ən məşhur əsərlərdəndir. Bu əsər elm aləminə Məhəmməd Təqi Məclisinin dövrünədək məlum olmamış, onu ilk dəfə Məhəmməd Təqi Məclisi İsfahanda görmüş, onun sənədlərinin təshih etdikdən sonra oğlu Məhəmməd Baqir Məclisiyə vermişdir. Mənbələrin yazdıqlarına görə bu əsəri ilk dəfə Qazi Əmir Hüseyn İsfahana gələn zaman Məclisiyə göstərmiş və onun İmam Rzanın dövrünə aid əlyazma olduğunu demişdir.

Lakin bütün bu deyilənlərə baxmayaraq bu əsərin kimə aid olamsı haqqında alimlər arasında müxtəlif fikirlər vardır. Onalrdan aşağıdakıları qeyd etmək olar:

-"Fiqhür-Rza" İmam Rzaya məxsusdur.

-"Fiqhür-Rza" Əbülhəsən Əli bin Musa Babaveyh əl-Qumiyə məxsusdur.

-Onun yalnız bir hissəsi İmama məxsusdur.

-İmamın əmri ilə Əhli-beytdən bəzi kimsələr yazıblar.

-İmamın səhabələrindən birinə məxsusdur.[3]

---

[1]Möhsün əl-Əmin.Əyanüş-şiə. II c. s. 26.

[2]Həmin mənbə. II c. s. 26.

[3] Fiqhu İmami-Rza (ə).Müəssisətu Alil-Byt li ihyait-turas.Məşhədü-müəddəs.1406 h/q.s. 10.

6. “Səhifətür-Rza .”

8.16. İmam Rzanın bəzi hədisləri

İmam Rza buyurur: “Peyğəmbər buyururb: Allah deyir: “...And olsun izzəti cəlalıma bəndələrimdən hər kəs Əlidən üz döndərsə, ona nifrət etsə, onu Cəhənnəmə daxil edəcəyəm. Ora necə də pis bir yerdir!”[1]

İmam buyurur: “Reyğəmbər buyurmuşdur: ey Əli! Merac gecəsində ümmətimin qadınlarını şiddətli əzab içində gördüm. Onların bəzisi dillərindən, bəzisi sinələrindən, bəzisi isə saçlarından asılmışdılar. Onların bəzisi öz ətini yeyirdi. Bəzilərinin üstünə əqrəblər və ilanlar daraşmışdılar. Bəzi qadınlar gördüm ki, onlar oddan olan tabutun içində kar və kor halda idilər. Onların beyinləri başlarından çıxırdı. Fatimə dedi: Atacan! Onların əməlləri barədə bizə xəbər ver. Peyğəmbər buyurdu: dillərindən asılan qadınlar öz ərlərinə əziyyət verən qadınlardır. Sinəsindən asılan qadınlar ərlərini qoyub başqasından faydalanan qadınlardır. Saçlarından asılan qadınlar saçlarını naməhrəmdən qorumayan qadınlardır. Ətini yeyən qadınlar bədənlərini başqası üçün bəzəyən qadınlardır. Üstünə əqrəb və ilan daraşan qadınlar dəstəmaz alıb qüsl etməyən, heyz və nifasdan paklanmayan qadınlardır. Yanar tabutda olan qadınlar isə zinadan uşaq dünyaya gətirib onu ərinə nisbət verən qadınlardır.”

[1] Şeyx əs-Səduq. əl-Amali. Qismüd-dirasatil-islamiyyə. I çap, Qum, 1417 h/q. s. 92.

IX FƏSİL

QUM ŞƏHƏRİ

9.1. Qum sözünün mənaları

Qum sözünün etimoloji cəhətdən hansı kökdən əmələ gəlməsi mübahisəlidir. Müsəlman müəlliflərinin bəziləri onun qədim fars mənşəli söz olduğunu desələr də, digər alimlər isə onun ərəb mənşəli söz olduğu qənaətindədirlər. Belə bir ixtilafın yaranmasının əsas səbəbi isə bu kəlmənin hədisi-şərifdə ərəbcə "**Qalx!**" mənasını bildirən "**Qum!**" sözündən əmələ gəlməsidir. Bu haqda görkəmli İslam alimi Əllamə Məclisi yazırdı: "Peyğəmbər meraca gedərkən İblisin bu diyarda oturduğunu gördükdə ona dedi: "**Qum,** ya məlun"(**Qalx,** ey lənətlənmiş!). Buna görə də bura Qum adlandı."[1] Bu fikri Əllamə Hairi də öz əsərində qeyd etmişdir.[2] Buna görə də alimlər bu şəhərin adının Peyğəmbər tərəfindən qoyulduğu qənaətindədirlər. Lakin Qum sözünün etimoloji cəhətdən ərəb mənşəli deyil, fars mənşəli söz olduğunu qəbul edən müəlliflər də vardır. Bu fikrin başında dayanan müəlliflərdən biri Yaqut əl-Həməvidir (1168-1229). O, özünün məşhur "Möcəmül-büldan" əsərində yazırdı: "Qum fars mənşəli kəlmədir və islamiyyət dövründə meydana gələn bir şəhərdir."[3] Lakin müəllif onun fars dilində hansı mənanı bildirməsi haqqında heç bir məlumat verməmişdir. Onun fikrincə, Qum "**Kəməndan**" sözündən əmələ gəlmişdir. Oranı ərəblər istila etdikdən sonra öz dillərinin qaydasına uyğun olaraq kəlmənin bəzi hərflərini atmış və nəticədə Qum kimi tələffüz edilmişdir.

Bəzi qaynaqların verdikləri məlumata görə, Qum şəhərini 712-713-cü illərdə Kufəli ərəblər salmışlar. Onlar bir-birinə yaxın yeddi yaşayış mərkəzi qurmuşlar. Qum sözü də bu yeddi mərkəzdən birinin adı olan "**Kumidan**"dandır. Bu sözün də mənası "**təpəciklərlə əhatə olunmuş yer**" deməkdir.[4]

9.2. Qum şəhərinin tarixi

Qum şəhərinin salınma tarixi dəqiq olaraq elmə məlum deyildir. Yaqut əl-Həməvi onun İslamın zühurundan sonra salındığını yazır. Lakin bu fikri məqbul hesab etmək olmaz. Çünki daha dəqiq tarixi mənbələr onu göstərir ki, Qum İsgəndər Zülqərneynin hücumu zamanı xarabalığa çevrilmiş, sonra isə sasani hökmdarı I Qubad (488-531) tərəfindən təkrar qurulmuşdur.[5] Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, Qum şəhəri İslamiyyətdən əvvəl mövcud olmuş, lakin İslamın bu ərazilərdə yayılması ilə daha da şöhrətli və müqəddəs bir şəhər olmuşdur.

Qum şəhərinin İslam ordusu tərəfindən istila edilməsi ikinci xəlifə Ömər bin Xəttabın (634-644) hakimiyyət illərinə düşür. O, Əbu Musa əl-Əşərini böyük bir orduya komandan təyin edərək bu ərazilərə göndərmiş və İslam ordusu da buraları tutaraq xilafət torpaqlarına qatmışlar (644-cü ildə). Bununla yanaşı, bəzi qaynaqlarda Qumun Əhnəf bin Qeys tərəfindən istila edilməsi qeyd edilir.[6] Lakin əksər müəlliflər onun Əbu Musa əl-Əşərinin tərəfindən istila edildiyi qənaətindədirlər.

Qumun şiə mərkəzlərdən birinə çevrilməsinin əsas səbəblərindən biri Həccac bin Yusifin zülmündən qaçan insanların bu diyara pənah gətirmələri olmuşdur. Bu minvalla Qum şəhəri müxtəlif insanların bura toplaşması nəticəsində yavaş-yavaş inkişaf etməyə başlamışdır. Görkəmli İslam alimi Qazi Nurullah Şüştəri yazırdı: "Həməvi və başqaları Qumun İslami şəhərlərdən olduğunu, əhalisinin həmişə imamiyyə əqidəsində olduğunu və bu şəhərin 83-cü hicri ilində Əbdülməlik ibn Mərvan tərəfindən salındığını qeyd etmişlər. Bu şəhər əzəmətli və kəramətli bir şəhərdir. Bu şəhər həmişə möminlər məskəni olmuş və bir çox imamiyyə alim, müctəhid və fəzilətli

[1] Əllamə əl-Məclisi. Biharül-ənvar. LVII . s. 207. hədis № 6.
[2] Əllamə əl-Hairi. Dairətül-məarif. XIV c. s. 386.
[3] Yaqut əl-Həməvi. Möcəmül-büldan. VII c. s. 159.
[4] İslam Ansiklopedisi. XXII c. Ankara, 2002. s. 361.
[5] Əli Əsgər Fəqihi. Tarixül-cami Qum. I c. Qum, 1350 h/ş. s. 54-55.
[6] Əllamə əl-Hairi. Dairətül-məarif. XIV c. s. 385.

şəxslər burada yetişmişlər. Hətta hər hansı bir adamın bu şəhərdən olması onun əqidəsinin doğru olmasına bir dəlildir."[1]

Qum şəhərinin müqəddəs bir diyara çevrilməsi tarixi IX əsrdən hesab olunur. İmam Rzanın bacısı Fatimə əl-Məsumə təxminən 816-817-ci illərdə qardaşının yanına gedərkən burada vəfat etmiş və burada da dəfn edilmişdir. Bundan sonra şəhər tərəfdarların ziyarətgahına çevrilmişdir.

Qumun elmi və mədəni mərkəzlərdən birinə çevrilməsi əsasən Səlcuqilər imperatorluğunun dövrünə təsadüf edir. Bu dövrdə şəhər böyük bir ilahiyyat elmlərinin tədris mərkəzinə çevrilmişdir. Məkkə və Mədinə istisna tutularsa, şiə coğrafiyasında Nəcəf, Kərbəla və Məşhəddən sonra dördüncü sırada yer alan Qum dini elmlər mərkəzi olmasına görə Məşhəddən daha önəmli sayılır. XII yüzillikdə döqquz mədrəsəsi olan Qum ortaya çıxan hadisələrə görə öz şöhrətini itirmiş və təkrar səfəvilər dövründə öz əvvəlki şöhrətini bərpa etmişdir[2]. Səfəvilər sülaləsindən olan I Şah Təhmasib (1524-1576) Qumun mədəni və elmi cəhətdən inkişaf etməsində müstəsna xidmətlər göstərmiş şəxslərdəndir. Belə ki, o, Qumda Feyziyyə adlı mədrəsə tikdirmiş və burada ilahiyyat elmlərinin bütün sahələrinin tədris edilməsinə şərait yaratmışdır.

Qumda yavaş-yavaş mədrəsələrin sayı artmış və nəticə XIX əsrdən etibarən bura İslam dünyasında Nəcəfül-əşrəflə birlikdə elm və mədəniyyətin mərkəzinə çevrilmişdir. Əbəs deyildir ki, Qumun elm və mədəniyyət tarixində Əbdülkərim Hairi, Məhəmməd Huccət Kuhkəri, Məhəmməd Təqi əl-Xonsari, Sədrəddin əl-İsfahani və Bürucerdi kimi nəhəng alim və müctəhidlər ad qoymuşlar.

Qum şəhərinin inkişaf etdirilməsində əsas məqsədlərdən biri buranın səfəvilərin qış iqamətgahı olması göstərilir. Lakin bu inkişafı təkcə bu amilə bağlamaq doğru olmazdı. Çünki tarixin dindar sülalələrindən olan səfəvilər sülaləsi bütün İslam dünyasında mövcud olan müqəddəs şəhərləri inkişaf etdirməklə yanaşı, Qumun da inkişafına orada olan İmam Rzanın bacısı həzrət Fatimə əl-Məsumənin qəbri-şərifinin olmasına görə diqqət yetirirdilər. Bu işdə onlar içərisində I Şah Abbasın xüsusi xidmətləri vardır.

Bundan sonra Qumun inkişafında Qacarlar sülaləsinin də mühüm xidmətləri olmuşdur. Fəth Əli Şah həzrət Məsumənin qəbrini qızılla bəzətmiş və orada bir mədrəsə də inşa etmişdir.

9.3. Qum şəhərinin fəzilətləri

Hədisi-şəriflərdə Qum şəhərinə aid çoxlu sayda hədis vardır. Bu hədislərin bir hissəsi Qumun bir müqəddəs şəhər olmasından, digərləri isə oranın insanlarının fəzilətlərindən bəhs etməkdədir. Həmin hədislər bir çox müsəlman alimlərinin mötəbər əsərlərində yer almışdır. Həmin hədislərin mötəbərliyi heç kimdə şübhə doğurmamış və onlara inanmaq heç bir alim tərəfindən yasaqlanmamışdır. Bu hədislərin böyük əksəriyyətini İbn Quləveyh "Kamilüz-ziyarət", Əllamə Məclisi "Biharül-ənvar", Əllamə Hairi isə "Dairətül-məarif" əsərlərində toplamışlar. Bundan başqa digər alimlər yazdıqları əsərlərində bu qaynaqlardan həmin hədisləri sitat gətirmişlər.

Ənəs bin Malik rəvayət edir: "Bir gün Peyğəmbərin yanında oturmuşdum. Bu zaman Əli bin Əbi Talib gəldi. Peyğəmbər ona dedi: "Yanıma gəl, ey Əbəl Həsən!" O, Peyğəmbərin yanına gəldikdə, həzrət onun boynunu qucaqlayıb üzündən öpdü və dedi: "Ey Əli! Allah sənin vilayətini göylərə göstərən zaman yeddinci göy onu hamıdan əvvəl qəbul etdi. Buna görə də Allah onu ərş ilə zinətləndirdi. Sonra dördüncü göy onu qəbul etməkdə digərlərini ötdü. Buna görə də Allah onu Beytülməmur ilə zinətləndirdi. Bundan sonra onu dünya səması hamıdan tez qəbul etdi. Allah da onu ulduzlarla bəzədi. Sonra Allah onu yerlərə göstərdi. Hamıdan qabaq Məkkə qəbul etdiyindən onu Kəbə ilə zinətləndirdi. Ondan sonra Mədinə onu qəbul etməkdə önə keçdi və mənimlə zinətləndirildi. Ondan sonra Kufə önə keçdiyindən sənlə zinətləndirildi. Bundan sonra isə onu Qum qəbul etməkdə önə keçdi və oranı ərəblərlə zinətləndirdi. Allah ora Cənnət qapısından bir qapı açdı."[3]

İmam Sadiq buyurur: "Allah Kufəni digər şəhərlərə nisbətən üstün etmiş, oranın möminlərini də digər yerlərin möminlərindən fəzilətli etmişdir. Qum şəhərini də digərlərin üstün etmiş, oranın

[1] Qazi Nurullah Şüştəri. Məcalisül-muminin. I c. s. 82.
[2] İslam Ansiklopedisi. XXII c. s. 361.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. 57-ci c. s. 212. Hədis № 21.

möminlərini isə bütün Şərqin və Qərbin insan və cin möminlərindən üstün qılmışdır. Allah bəlaları Qum və oranın camaatından qaldırmışdır. Bir zaman gələcəkdir ki, Qum və onun sakinləri yaranmışlar üzərində Allahın hüccəti olacaqdır. Bu hadisə Qaimin zühuru zamanı baş verəcək..."[1]

Həmçinin İmam buyurur" Qum ona görə Qum adlanır ki, ora Nuhun tufanı zamanı gəmisi ora yetişmiş və orada da dayanmışdır. Ora Beytülmüqəddəsdən bir hissədir."[2]

"Allah şəhərlər içərisində Kufəni, Qumu və Tiflisi seçmişdir."[3]

"Sizi fitnələr bürüdüyü zaman Quma gedin. Çünki ora və oranın əhalisi bəlalardan amandadır."[4]

"Xorasan camaatı bizim bayraqdarımız, Qum əhli köməkçilərimiz, Kufə əhli isə bizim dayaqlarımızdır. Onların camaatı bizdən biz də onlardanıq."[5]

"Qum Ali-Məhəmmədin yuvası və onların tərəfdarlarının sığınacağıdır."[6]

İmam Rza buyurub: "Cənnətin səkkiz qapısı vardır. Qum əhli də onlardan biridir. Onlar nə xoşbəxtdirlər, onlar nə xoşbəxtdirlər, onlar nə xoşbəxtdirlər!"[7]

Süleyman bin Saleh deyir: "Bir gün İmam Sadiqin yanındaydım. Ona Bəni-Abbasın zülmündən danışıldıqda dedik: biz hara qaçaq? İmam buyurdu: Kufəyə, Quma və onların ətraf nahiyələrinə. Qumda bizim tərəfdarlarımız və dostlarımız var. Orada imarətləri çoxaldın."[8]

Əffan əl-Bəsri deyir: "İmam Sadiq mənə dedi: "bilirsən Qum niyə görə Qum adlanır?" Dedim: "xeyr, Allah, onun Peyğəmbəri və sən bilərsən." Dedi: "Qum ona görə Qum adlanır ki, oranın əhli Ali-Məhəmmədin Qaiminin ətrafına toplanacaq, onunla birgə qiyam edəcək və ona kömək edəcəklər."[9]

İmam Sadiq buyurur: "...Bizim Qumda bir hərəmimiz vardır. Orada mənim övladlarımdan Fatimə adlı biri dəfn ediləcəkdir. Hər kəs onu ziyarət etsə, ona Cənnət vacib olar."[10]

İmamlardan rəvayət olunur ki, "Əgər Qum olmasaydı, din aradan gedərdi."[11]

Peyğəmbər buyurur: "Mən merac gecəsi göylərə gedəndə Cəbrail məni sağ çiynində aparırdı. Mən bir yeə baxdım ki, oranın dağları qırmızı idi və zəfərandan da daha yaxşı idi. Oranın ətri müşk-ənbər iyindən də yaxşı idi. Orada bir qoca var idi. Cəbraildən soruşdum: "bu zəfərandan da yaxşı rəngli və müşk-ənbərdən də daha ətirli yer haradır?" O, dedi: "bura sənin və vəsin Əlinin tərəfdarlarının ərazisidir." Dedim: "bəs o qoca kimdir?" Dedi: "o, İblisdir." Dedim: "o, onlardan nə istəyir?" Dedi: "onları Əlinin vilayətindən uzaqlaşdırıb fitnə-fəsad yaratmağa çalışır." Dedim: "ey Cəbrail! Ora gedək." Biz onun yanına getdik və mən İblisə dedim: "Qalx, ey məlun! Sən mənim və Əlinin dostları üzərində hakim ola bilmnəzsən, onların düşmənləri də sənin lə şərikdirlər."[12]

Səd ibn Səd deyir: "İmam Rzadan Fatimə bint Musanın ziyarət edilməsi haqqında soruşdum. O, dedi: "hər kəs onu ziyarət etsə, onun üçün cənnət vardır."[13]

İmam Cavad buyurur: "Hər kəs bibimi ziyarət etsə, onun üçün cənnət vardır."[14]

9.4. Fatimə bint Musa əl-Kazimin həyatı

Fatimə əl-Məsumə VII imam Musa əl-Kazimin qızıdır. O, hicri 173-cü il zilqədə ayının birində (miladi 22.03.790-cı il) Mədinə şəhərində doğulmuşdur. Pak və məsum bir ailədə dünyaya göz açan Fatimə atası İmam Kazimin əxlaqından və elmindən bəhrələnmiş və camaat arasında

[1] Həmin mənbə. 57-ci c. s. 213. Hədis № 22.
[2] Həmin mənbə. 57-ci c.s. 213. Hədis № 24.
[3] Həmin mənbə. 57-ci c. s. 213. 214. Hədis № 25.
[4] Həmin mənbə. 57-ci c.s. 214. Hədis № 26.
[5] Həmin mənbə. 57-ci c. s. 214. Hədis № 30.
[6] Həmin mənbə. 57-ci c.s. 214. Hədis № 31.
[7] Həmin mənbə. 57-ci c.s. 214. Hədis № 33.
[8] Həmin mənbə. 57-ci c. s. 215. Hədis № 35.
[9] Həmin mənbə. 57-ci c. s. 216. Hədis № 38.
[10] Həmin mənbə. 57-ci c. s. 216-217. Hədis № 41.
[11] Həmin mənbə. 57-ci c. s. 217. Hədis № 43.
[12] Əllamə əl-Hairi. Dairətül-məarif. XIV c. s. 386.
[13] İbn Quləveyh. Kamilüz-ziyarat. Qum, Nəşrül-fəqahə. 1424 h/q. s. 536. Hədis № 1; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. Qum, Müəssisətu Ali-Beyt, 1414 h/q. s. 576. Hədis № 19850.
[14] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 536. Hədis № 2; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 576. Hədis № 19851.

yüksək mənəviyyatı və savadı ilə tanınmışdır. Ömrünü elm və irfan içərisində keçirən Fatimə əhli-beyt imamları tərəfindən Məsumə (günühsız) ləqəbi ilə adlandırılmlışdır. O, ömrünün böyük bir hissəsini Mədinə şəhərində keçirmiş lakin sonralar qardaşı İmam Rzanın Xorasana vali təyin olunmasından bir il sonra onu görmək üçün Xorasana getmişdir. Xanımın yolda olmasından xəbər tutan xəlifə cəsusları onu yolda ikən Qum şəhərində zəhərləmiş və beləliklə, o, hicri 201-ci ilin rəbiüs-sani ayında (miladi 05.11.816-cı ildə) şəhid olmuşdur. Hətta mənbələrin verdikləri doğru məlumata görə, onun karvanında olan 23 nəfər də eyni aqibətə düçar olmuşlar.

Fatimə əl-Məsumənin Quma gəlişini Əllamə Hairi belə yazırdı: "Fatimə bint Musanın qardaşı Rza Məmun tərəfindən hicri 200-cü ildə Mədinədən gətirilib Mərvə vali təyin olunduqdan bir il sonra Fatimə onu görmək üçün yola düşdü. O, Səva məntəqəsinə yetişəndə xəstələndi. Bu zaman Qum şəhərinə nə qədər məsafə qaldığını soruşdu. Ona dedilər: burdan Quma cəmi on fərsəx qalıb. O, xidmətçisinə göstəriş verdi ki, onu Quma aparıb Musa bin Xəzrəc bin Sədin evinə yerləşdirsin. Bu hadisəni eşidən bəni-Səd qəbiləsi özləri gəlib onu Quma apardılar. O, Musa bin Xəzrəcin evində altı yaxud da yeddi gün qaldı. Sonra isə Allahın rəhmətinə qovuşdu. Bundan sonra Musa(nınailəsindən biri) ona qüsl verib kəfənə bükdü və sonra özünə məxsus olan ərazidə torpağa tapşırdı."[1]

Xanımın dəfn edilməsi haqqında digər rəvayətlər də vardır. Daha məşhur görüşə görə o, vəfat etdikdən sonra ona qüsl verib kəfənə tutdular. Lakin onun dəfn edilməsi məsələsi ortaya çıxdıqda bu işin kim tərəfindən icra edilməsi problemi ortaya çıxdı. Belə ki, Ali Səd onun qəbrə endirilməsində bir-birləri ixtilaf etdilər. Buna görə də təqvalı bir şəxs kimi tanınan Qadir adlı bir qocanı bu işə təyin etdilər. Onlar dəfn işinə başlayarkən birdən iki nəfər minikli şəxsin onlara yaxınlaşdığını gördülər. O iki nəfər gəlib cənazəyə namaz qıldı və onu qəbrə endirdilər. Sonra isə miniklərinə minib oradan uzaqlaşdılar. Lakin onların kim olduğunu bir kimsə bilə bilmədi.[2]

Fatimə əl-Məsumənin dəfn edildiyi torpaq sahəsi Musa bin Xəzrəcə məxsusdur. Burada Həmçinin onun bacısı Ümmü Məhəmməd də dəfn edilmişdir. O, vəfat etdikdən sonra onu Fatimənin yanında dəfn etmişlər. Bundan sonra onun digər bacısı Meymunə vəfat etmiş və onu da burada dəfn etmişlər. Bundan sonra onların qəbirləri üstünə qübbə tikilmişdir. Bu qübbəni həsirdən Musa bin Xəzrəc tikmişdir.

Fatimənin qəbrinin ziyarət olunması haqqında çoxlu sayda səhih hədislər vardır. Həmin hədislərdən aşağıdakıları qeyd etmək olar.

İmam Sadiq buyurur: "...Bizim Qumda bir hərəmimiz vardır. Orada mənim övladlarımdan Fatimə adlı biri dəfn ediləcəkdir. Hər kəs onu ziyarət etsə, ona Cənnət vacib olar."[3]

Səd ibn Səd deyir: "İmam Rzadan Fatimə bint Musanın ziyarət edilməsi haqqında soruşdum. O, dedi: hər kəs onu ziyarət etsə, onun üçün cənnət vardır."[4]

İmam Cavad buyurur: "Hər kəs bibimi ziyarət etsə, onun üçün cənnət vardır."[5]

9.5. Fatimə əl-Məsumənin rəvayətləri

İmam Rzanın bacısı Fatimənin rəvayət etdiyi hədislər hədis ədəbiyyatının müxtəlif qaynaqlarında öz əksini tapmışdır. Onun sənədli şəkildə rəvayət etdiyi hədislərdən aşağıdakıları qeyd etmək olar.

İmam Rzanın qızı Fatimə İmam Musa Kazımın qızı Fatimə, Zeynəb və Umm Gülsümdən , onlar İmam Sadiqin qızı Fatimədən , o, İmam Baqirin qızı Fatimədən , o, İmam Səccadın qızı Fatimədən , o, İmam Hüseynin qızları Fatimə və Səkinədən , onlar Fatimeyi Zəhranın qızı Ümmü Gülsümdən o, anası Fatimeyi Zəhradan belə rəvayət edir: "Peyğəmbərin hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir hədisini unutdunuzmu? Onun ey İmam Əli Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir dediyini unutdunuzmu?"[6]

---

[1] Əllamə əl-Hairi. Dairətül-məarif. XIV c. s. 389.
[2] Həmin mənbə.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. 57-ci c. s. 216-217. Hədis № 41.
[4] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 536. Hədis № 1; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 576. Hədis № 19850.
[5] İbn Quləveyh. Kamilüz-ziyarat. s. 536. Hədis № 2; Hürr əl-Amili. Vəsailüş-şiə. XIV c. s. 576. Hədis № 19851.
[6] Əbdülhüseyn Əhməd əl-Əmini. əl-Qədir. I c. Beyrut, Darül-kutubil-ərəbi, IV nəşri, 1397/1977. s. 197.

Fatimə Məsumə Fatimə bint Sadiqdən , o, Fatimə bint Baqirdən , o, Fatimə bint Səccaddan , o, Fatimə bint Hüseyndən , o, Zeynəb bint Əlidən , o, da Fatimə bint Məhəmməddən rəvayət edir: “Bilin ki, hər kəs Ali-Məhəmmədin məhəbbəti ilə ölsə şəhid olmuşdur.”

X FƏSİL

SAMERRA ŞƏHƏRİ

10.1. Samerra şəhərinin qısa tarixi

Samirə İraqın dini-tarixi şəhərlərindən biri olmaqla yanaşı, həm də müsəlmanların müqəddəs ziyarətgahları yerləşən şəhərdir. Samirə sözü "sarra mən rəa", yəni "görənləri sevindirər" mənasını bildirir.

Samirə şəhəri Dəclə çayının şərq hissəsində, Bağdad şəhərinin 125 km. Şimalında yerləşir. Şəhər 835-ci ildə Abbasi xəlifəsi Mötəsim Billah (833-842) tərəfindən tikilmiş və xilafətin paytaxtı elan edilmişdir.

Tarixi məlumata görə, əlifə Mötəsim Billah şəhər salmaq üçün yer aramış, xristianların yaşadığı bir əraziyə yetişmişdir. Dəclənin sahilində yerləşən bu əraizdə xristianlar yaşayırmış. Xəlifə ərazini onlardan 500 dirhəmə almış və yerində indiki Samerra şəhərini tikdirmişdir. 835-ci ildən 892-ci ilədək, təqribən 58 il Abbasilər xilafətinin paytaxtı olan Samerra şəhəri müsəlman dünyasında elm və mədəniyyətin inkişafına öz töhfəsini vermişdir. Abbasilərdən ta Osmanlılar xilafətinədək müxtəlif inkişaf mərhələlərinə şahidlik etmiş Samerrada ilk mədrəsə məhz 1881-ci ildə Osmanlılar dövründə tikilmişdir.

Mənbələrdə tikilmə səbəbi kimi Mötəsimin türklərdən təşkil etdiyi, şəhər həyatına uyğunlaşmayan hərbi hissələrin kobud davranışları azğınlıq etmələri və Bağdad küçələrində at çaparaq insanların yaralanmasına və hətta ölümünə yol açmaları üzündən camaatla aralarında başlayan gərginliyin təhlükəli həddə çatması göstərilir. Mötəsim problemin həllini yeni bir şəhər salmaqda tapmışdır. Bu iş üçün Bağdad, Bəsrə, Antakiya, Şam və Misir bölgələrindən mühəndislər, ustalar, fəhlələr və müxtəlif material gətirilmişdir. Şəhərin mərkəzində böyük məscid və ətrafında da müxtəlif peşələrə aid bazarlar tikilmişdir. Məhəllələrin təşkil edilməsində isə əvvəlki müsəlman şəhərlərində tətbiq olunan qəbiləyə görə deyil, onların birlikləri əsas alınaraq təsis edilmişdir.[1]

Samerranın dini-mənəvi mədəniyyətinin əsası əziz Peyğəmbərin nəvələrindən olan İmam Hadi və İmam Həsən Əskəri qoymuşdur.

10.2. İmam Əli Hadi ən-Nəqi və İmam Həsən əl-Əskərinin həyat və fəaliyyətləri

Əli bin Məhəmməd əl-Hadi X imamdır. O, hicri qəməri təqvimlə 212-ci ilin zilhiccə ayının on beşində (10 mart 828-ci ildə) Mədinə şəhərində İmam Məhəmməd Cavadın evində doğulmuşdur. Onun anasının adı Səmanə və ya Cəmanə idi.

İmam Hadi zöhd və təqva baxımından misilsiz bir şəxsiyyət idi. Məsələn, Mütəvəkkilin məmurları onun evinə basqın etdikdə onu sadə bir otaqda ibadət halında görmüşdülər. O, Quranı çox sevər, xalqın işini sahmana saldıqdan sonra həmişə Quran oxuyardı. Camaatla xoş və gülərüzlə rəftar edər, ahəstə addımlarla yeriyərdi. Yoxsulların vəziyyəti ilə maraqlanar və bəzən otuz min dinara qədər pulu dar gündə olan yoxsullara bağışlayardı. Belə ki, bir gün Mütəvəkkil tərəfindən Həzrətə göndərilən 30 min dinarın hamısını yoxsul bir ərəbə bağışlamışdı.

Mütəvəkkilin anası imam Hadinin zöhd və imanına heyran olmuşdu. Bir gün ayağı yaralanmış Mütəvəkkili həkimlər sağalda bilmədikdə Mütəvəkkilin anası Fəth ibn Xaqanı o Həzrətin evinə göndərdi ki, imamdan dərman alıb gətirsin. Həzrətin göndərdiyi dərman Mütəvəkkili sağaltdı. Bütün həkimlər bu işə mat qalmışdılar. Anasının təşəkkür üçün göndərdiyi min dinarın hamısını Həzrət yoxsullar arasında payladı.[2]

İmam Hadidən qeyb aləmi ilə əlaqədar bəzi möcüzələr görünmüşdür. Belə ki, İmamın əshabından biri İraqdan Mədinəyə gəlib onun hüzuruna yetişmək şərəfinə nail oldu. İmam ondan Abbasi xəlifəsi Vasiqin halını soruşdu. O, belə cavab verdi: "Mən İraqdan çıxdığım zaman xəlifə sağ idi, Mütəvəkkil zindanda idi və İbn Zəyyat xalq arasında məşhur olmşudur."

[1] Mustafa Demirci. DİA. XXXVI c. s. 70.
[2] http://www.sibtayn.com/az

İmam isə belə buyurdu: “Allahın istədiyi olacaq. Dostum, bunu bil ki, Vasiq ölüb, Mütəvəkkil onun yerinə keçib, İbn Zəyyat isə Mütəvəkkilin əmri ilə öldürülmüşdür.”

İmamın səhabəsi soruşdu: “Nə vaxt?”

İmam buyurdu: “Sən Bağdaddan çıxdığın vaxtdan altı gün sonra.”

İmam da özündən qabaqkı İmamlar kimi təbii ölümlə deyil, Abbasi xəlifəsi Mötəzzin hakimiyyəti dövründə zəhərlənərək hicrətin 254-cü ili, rəcəb ayında (01 iyul 868-ci ildə) şəhid olur və Samerrada öz evində dəfn edilmişdir.[1]

İmam Həsən Əskəri XI imamdır. O, hicri 232-ci ildə rəbiül-əvvəl ayının onunda (4 dekabr 846-cı ildə) Mədinə şəhərində doğulmuşdur. Onun “Əskəri” ləqəbini daşımasına səbəb Abbasilərin ciddi əskəri nəzarətində olmasına görə idi.

İmam Həsən Əsgəri Abbasi xəlifəsinin əmrilə məcburi şəkildə Samirrada Əskər adlı bir yerdə saxlanıldığı üçün Əskəri adlandırılmışdı.O Həzrətin digər məşhur ləqəblərindən biri Nəqi, başqa birisi Zəki,künyəsi isə Əbu Məhəmməd olmuşdur. O Həzrət iyirmi iki yaşında ikən atası şəhadətə yetişmişdi. İmamlıq dövrü altı olmuş, ümumilikdə isə iyirmi səkkiz il yaşamışdır. Hicrətin iki yüz altımışıncı ilində şəhid olmuş və Samirra şəhərində öz evindəcə, atasının qəbrinin yanında dəfn olunmuşdur.

İmam Həsən Əsgəri (01 yanvar 874-cü ildə) Samerrada şəhid edilmişdir.[2]

[1] İmam Hadinin həyatı və fəaliyyəti haqqında geniş məlumat üçün bax: Əllamə əl-Məclisi. Biharül-ənvar. 50-ci c. 321-326.

[2] İmam Həsən Əskərinin həyatı və fəaliyyəti haqqında geniş məlumat üçün bax: İbn Şöbə əl-Bəhrani. Tühəfül-üqul. Təshih: Əli Əkbər əl-Qiffari. Qum, Müəssisə nəşril-islami, 1404 h/q.

Ədəbiyyat

Azərbaycan dilində:

1. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. IX cild. Bakı, 1986.
2. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. III cild. Bakı, 1979.
3. Bərki Əli Hümmət və Kəsikoğlu Osman. Xatəmul-ənbiya Həzrəti Məhəmməd və həyatı. Ankara, 1997.
4. Ədulmüttəlib oğlu Hacı Abu Talıb. Ziyarət. Bakı, 1990.
5. Əliyev Rafiq. İslam. Bakı, II nəşri, 2004.
6. əl-Küleyni Məhəmməd bin Yaqub. Üsulül-kafi. 6 cilddə. Tərc: Rüfət Hümbətov. Bakı, Kövsər mətbəəsi, 2011.
7. əl-Mesiri Əbdülvəhab. Sionizm. Tərcümə edən: Nüşabə Əlizadə. Bakı, 2003.
8. Həsənli Sabir. İslam mədəniyyətində elm. Bakı, Elm və həyat nəşriyyatı, 1998.
9. Kaşani Seyid Məhəmməd Həsən Musəvi. Aşura faciəsindən sonra baş verən qiyamlar. Tərc: Seyid Zahir Dadaşov və Qahir Dadaşlı. Bakı, I nəşri, 2005.
10. Kurani Əli. Zühur əsri. Mütərcim: M. Əlizadə. Bakı. Tarixsiz.
11. Qəzvini Seyid Məhəmməd Həsən. Vəhhabi firqəsi. Bakı, 2004.
12. Quliyev İbrahim. Əllamə Məclisi və onun Biharül-ənvar əsəri, Bakı, Nurlar nəşriyyatı, 2018.
13. Quliyev İbrahim. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013.
14. Quliyev İbrahim. Müqəddəs şəhərlərin tarixi (Hədisi-şəriflər əsasında). Bakı, Nurlar nəşriyyatı, 2012.
15. Quliyev İbrahim. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). Bakı, Elm və Təhsil nəşriyyatı, 2016.
16. Qurani-Kərim. Tərc: Ziya Bünyadov və Vasim Məmmədəliyev. Bakı, Azərnəşr, 1991.
17. Masse Anri. İslam. Bakı, 1964.
18. Medvedko L. İ., Germanoviç A. B. Allahın adı ilə. Bakı, 1991.
19. Nurullah Fuad. İmam Əli insanlıq məktəbinin ustadı. Bakı, Nurlar nəşriyyatı, 2016.
20. Nurullah Fuad. İmam Hüseyn şəhidlik məktəbinin ustadı. Bakı, Nurlar nəşriyyatı, 2014.
21. Pərpənci Seyid Kazım. Qədir günündən aşurayadək. Tərc: Mirkazım Eyyubzadə. Bakı, 2007.
22. Pişvayi Mehdi. Məsum İmamların həyatı. Bakı, I çap, 2005.
23. Reyşəhri Məhəmməd. Əhli-beyt Quranda və hədisdə. 2 cilddə. Tərc: Seyyid Həsən Musəvi, Bakı, İİR-nın mədəniyyət mərkəzi, 2009.
24. Reyşəhri Məhəmməd. Həzrət Əli bin Əbu Talibin ensiklopediyası. Bakı, Nurlar nəşriyyatı, 2013.
25. Reyşəhri Məhəmməd. Şəhadətnamə. Tərc: Zaur Məmmədov, Bakı, Zərdabi LTD Qələm nəşriyyatı, 2016.
26. Rəhimov Natiq. İslam tarixi. III hissə, Bakı, 2005.
27. Şirazi Məkarim. Təfsiri-nümunə. Tərc: Qiraət kitab mağazası. Bakı, I nəşri, 2000.
28. Şirazi Seyid Məhəmməd Musəvi. Pişavər gecələri. Bakı, I nəşri, 2006.
29. Təbrizi Cəfər Sübhani. Furuği-əbədiyyət. Həzrət Mühəmməd. Tərc: Mais Ağaverdiyev. Bakı, 2010.
30. Təbrizi Cəfər Sübhani. İslam tarixi. Bakı, 2005.
31. Təbrizi Cəfər Sübhani. Vəhhabi məzhəbi. Tərc: Yusif Bağırov. Bakı, 1999.
32. Təbrizi Cəfər Sübhani. Vəhhabi məzhəbi. Tərc: Yusif Bağırov. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014.
33. Təbrizi Cəfər Sübhani. Vilayət günəşi. Mütərcim: Cabir Əkbərzadə. Bakı, 1999.
34. Təbrizi Əli Hicrani. Əltafür-Rəhman: Qurani-Kərimin Azərbaycan dilində tərcümə və təfsiri. I, II, III və IV cildlər. Bakı, Zərdabi LTD MMC mətbəəsi, 2016/2017.
35. Təbrizi Əllamə Əbdülhüseyn Əmini. əl-Qədir. 11 cilddə. I-V cildlər. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014/2015.

36. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. əl-Mizan təfsiri. 20 cilddə. I-IX cildlər. Bakı, Qələm nəşriyyatı, 2011/2017.
37. Yusifpur Əbdürrəhman. Məşhəd və Kərbəla ziyarəti. Tərc: Cavanşir Əhmədov. Bakı, 1997.
38. Yusifpur Əbdürrəhman. Qurani-Kərimin otuzuncu cüzünün təfsiri. Tərc: İ. Həmidov. Bakı, 1999.
39. Zəncani Hüseyn Kərimi. İslamda günahlar və şəri cəzalar. Tərc: Əli Nur. Bakı, 2007.

Türk dilində:

40. Ahmed bin Hanbel. Müsned. İstanbul, Çağrı yayınları, 1992.
41. Algül Hüseyin. İslam Ansiklopedisi. 44 cilddə. XXIX c. İstanbul, 2004.
42. Avcı Casim. İslam Ansiklopedisi. 44 cilddə. XXVI c. İstanbul, 2002.
43. Bozkurt Nebi, Küçükaşçı Mustafa Sabri. İslam Ansiklopedisi. 44 cilddə. XXVIII c. İstanbul, 2004.
44. Bozkurt Nebi. İslam Ansiklopedisi. 44 cilddə. XXVI c. İstanbul, 2002.
45. Demirci Mustafa. İslam Ansiklopedisi. 44 cilddə. XXXVI c. İstanbul, 2009.
46. er-Razi Fehruddin. Tefsir-i Kebir Mefatihul-Ğayb. Ankara, Akçağ Yayınları, 1989.
47. Harman Ömer Faruk. İslam Ansiklopedisi. 44 cilddə. XXVI c. İstanbul, 2002.
48. İbn Kesir. Tefsirul-Kuranil-azim. İstanbul, Çağrı yayınları, 1994.
49. Karaman Lütfullah. İslam Ansiklopedisi. 44 cilddə. XIII c. İstanbul, 1996.
50. Köksal Asim. İslam Tarihi. İstanbul, 1999.
51. Nebi Bozkurt, Mustafa Sabri Küçükaşcı. İslam Ansiklopedisi. 44 cilddə. XVIII c. İstanbul, 2003.
52. Öz Mustafa. İslam Ansiklopedisi. 44 cilddə. XXV c. İstanbul, 2002.
53. Süleyman Mihr Ali. Kutlu şehir Medine. İzmir, 1999.
54. Taberi Muhammed bin Cerir. Tefsirüt-Taberi. İstanbul. Terc: Mehmet Keskin. Ümit yayıcılık, 1995.
55. Tebrizi Allame Muhammedhüseyn Tebatebai. Tefsirül-mizan. Terc: Vahdettin İnce. Kövser yayınları.
56. Ünlü Nuri. İslam tarihi. İstanbul, II nəşri, 1997.

Ərəb dilində:

57. Əbdüllətif Abdullah bin Dəhiş. əl-Kəttatib fil-hərəmeyniş-şərifeyn və ma həvləha. Məkkə, Mətbəətu-Məkkə, 1406/1986.
58. Əbu Hənifə Numan bin Sabit. Müsnədul-İmam Əbi Hənifə. Lahur, Mətbəətül-Məhəmmədi, 1306 h/q.
59. Əbülfərəc İbn əl-Covzi. Fədailül-Qüds. Beyrut, 1979.
60. Əbülhəsən İzəddin Əli bin Məhəmməd bin Əsir. əl-Kamil fit-tarix. Qahirə, Darüt-təbaətil-miziyyə, 1356 h/q.
61. Əhməd Cad. Vasfül-Kəbətil-müşərrəfəti və tarixüha. Misir, I nəşri, 1426/2005.
62. əd-Deyləmi Əbu Məhəmməd Həsən bin Məhəmməd. İrşadül-qülub. Beyrut, 1398/1978.
63. əd-Dinuri Abdullah bin Müslüm bin Qüteybə. əl-İmamətu vəl-Xilafət. (Tarixül-xüləfa). Qum, 1413 h/q.
64. əd-Dinuri İbn Qüteybə. əl-İmamət vəs-Siyasət. Misir, Mətbuətül-futuhul-ədəbiyyə, 1331 h/q.
65. əl-Amili Əllamə Seyid Məhəmməd Cavad. Miftahül-kəramə. Qum, Müəssisətu nəşril-İslami, 1424 h/q.
66. əl-Amili Hürr. Vəsailüş-şiə. Qum, Müəssisətu Ali-Beyt, 1414 h/q.
67. əl-Amili Şeyx Bəhaəddin. Kəşkül. Nəcəf, I nəşri, tarixsiz.
68. əl-Bədr Əbdülmöhsün bin Həmdülibad. Fəzlül-Mədinə və adabu sukkanuha və ziyaratuha. Tarixsiz.

69. əl-Bağdadi Əbu Bəkr Əhməd bin Əli Xətib. Tarixi-Bağdad. Beyrut, 1417/1997 və Qahirə, 1349 h/q.
70. əl-Bərqi Hüseyn bin Əhməd ən-Nəcəfi. Tarixül-Kufə. Beyrut, 1987.
71. əl-Bəsri Həsən bin Yəsar. Fəzlül-Məkkə vəs-sükkən fiha. Misir çapı. Tarixsiz.
72. əl-Birr Əbdürrəhman Əbdülhəmid. ət-Töhfətuz-Zəkiyyə fi fəzailil-Mədinətin-Nəbəviiyə. Darül-yəqin, 1421/2000.
73. əl-Buxari Məhəmməd bin İsmail. Səhihül-Buxari. ər-Riyad, II nəşri, 1419/1999.
74. əl-Eyni Əllamə. Ümdətül-qari fi şərhi Səhihil-Buxari. Beyrut, Darül-fikir. Tarixsiz.
75. əl-Əkbəri Əbu Abdullah Məhəmməd bin əş-Şeyx Müfid. əl-İrşad fi mərifəti hücəcillahi ələl-ibad. Müəssisətu Ali-Beyt. Tarixsiz.
76. əl-Ələmi Əllamə Məhəmmədhüseyn Hairi. Dairətül-məarifiş-şiiyyətil-ammə. Beyrut, 1413/1993.
77. əl-Ələvi Mehdi. Tarixi Tus vəl-Məşhədi Rəzavi. Bağdad, 1927.
78. əl-Əmin Əllamə Möhsün. Əyanüş-şiə. Beyrut, 1403/1983.
79. əl-Əmini Əllamə Əbdulhüseyn Əhməd. əl-Ğədir fil-Kitab vəs-sünnə vəl-ədəb. Beyrut, Darul-küttabil-ərəbi, IV nəşri, 1397/1977.
80. əl-Əskəri Şeyx Nəcmuddin Cəfər bin Məhəmməd. İmam Əli vəş-Şiə. I nəşri, Beyrut, 1413/1993.
81. əl-Əsqəlani İbn Həcər. əl-İsabə fi təmyizis-səhabə. Qahirə, 1327 h/q.
82. əl-Əsqəlani İbn Həcər. Fəthül-bari fi şərhi Səhihil-Buxari. Misir, 1378 h/q, Beyrut, Daru ihyaüt-turasil-ərəbi tarixsiz.
83. əl-Əsqəlani İbn Həcər. Təhzibüt-təhzib. Darül-fikir, I nəşri, 1404/1984.
84. əl-Əzrəqi Məhəmməd bin Abdullah bin Əhməd. Əxbaru-Məkkəvə ma caə fiha minəl-asar. Mühəqqiq: Əbdülməlik bin Abdullah bin Dəhiş. I nəşri, 1424/2004.
85. əl-Hairi Məhəmməd bin Cəfər əl-Məşhədi. Fəzlül-Kufə və Məsaciduha. Beyrut, Darül-Mürtəza, tarixsiz.
86. əl-Heysəmi İbn Həcər. əs-Səvaiqül-mühriqə. Beyrut, III nəşri, 1414/1993.
87. əl-Heysəmi İbn Həcər. əs-Səvaiqül-mühriqə. Misir, 1308 h/q.
88. əl-Heysəmi Nuriddin Əli bin Əbi Bəkr. Məcməüz-zəvaid. Qahirə və Beyrut, Darür-Rəyyan, 1408/1988.
89. əl-Həməvi Yaqut. Möcəmül-büldan. Beyrut, Daru ihyait-turas, 1399/1979.
90. əl-Hənəfi Hafiz Süleyman əl-Qunduzi. Yənabiül-məvəddə. Misir, 1384 h/q və Ustanə, 1301 h/q.
91. əl-Hərrani Məhəmməd Həsən bin Əli bin Hüseyn bin Şubə. Tuhəful-üqul. İran, 1404 h/q.
92. əl-Həskani Übeydullah bin Abdullah bin Əhməd Hakim. Şəvahidüt-tənzil. Təhqiq və əlavə: Şeyx Məhəmməd Baqir Məhmudi. Beyrut, I nəşri, 1393/1974.
93. əl-Hindi Əllamə Əli əl-Müttəqi. əl-Mənaqib. Misir, 1389 h/q.
94. əl-Hindi Əllamə Əli əl-Müttəqi. Kənzül-ümmal. Heydərabad, 1364 h/q.
95. əl-Huveyzi Əllamə. Təfsiru-nuris-Səqəleyn. Qum, IV nəşr, 1415 h/q.
96. əl-Hüseyni Cəfər Mürtəza. Həyatu-İmam Rza . Darut-təbliğil-İslami, 1398/1978.
97. əl-Xarəzmi Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi. Mənaqibu-Xarəzmi. Nəcəf, 1367 h/q. və İran, 1313 h/q.
98. əl-İrbili Əllamə Əbul-Həsən Əlin bin İsa. Kəşful-ğimmə fə mərifətil-Əimmə. Beyrut, 1405/1985.
99. əl-İsbəhani Əbülfərəc. Kitabül-əğani. Beyrut, 1995.
100. əl-İsbəhani Əbülfərəc. Məqatilüt-Talibin. Qahirə, 1949.
101. əl-İsbəhani Hafiz Əbu Nəim Əhməd bin Abdullah. Hilyətül-övliya və təbəqatil-övsiya. Beyrut, Darul-kitabil-ərəbi, 1387/1967 və Misir, 1932.
102. əl-Kaşani Feyz. əl-Məhəccətül-beyza. Təshih: Əliəkbər əl-Qiffari. Mənşurati mövsuatil-Ələmi, II çap, 1983.
103. əl-Küleyni Məhəmməd bin Yaqub. Üsulül-kafi. Beyrut, I nəşri 1429/2008.
104. əl-Qəzvini Məhəmməd bin Yezid İbn Macə. Sünəni-İbn Macə. I nəşri, 1424/2004.

105. əl-Qəzvini Seyid Məhəmməd Kazim. əl-İmam Əli minəl-Məhdi iləl-ləhd. Beyrut, II nəşri, 1413/1993.
106. əl-Qummi Şeyx Səduq Məhəmməd bin Əli bin Hüseyn bin Babaveyh. əl-Amali. Qum, Qismüd-dirasatil-İslamiyyə, I nəşri, 1417 h.
107. əl-Qummi Şeyx Səduq. Məanil-əxbar. Qum, İntişaratil-İslami, 1361 h/ş.
108. əl-Qummi Şeyx Səduq. Üyuni əxbarir-Rza . Beyrut, Müəssisətu Ələmi lil-mətbuat, I nəşri, 1404/1984.
109. əl-Qummi Şeyx Səduq. Mən la yəhzuruhül-fəqih. Beyrut, I nəşri, 1420/2000.
110. əl-Qürəşi Baqir Şərif. Həyatu-Məhəmməd. Mövsuətu təhqiqat və nəşri məarifi Əhlil-beyt nəşriyyatı, I nəşri, 1423/2004.
111. əl-Qürəşi Məhəmməd Baqir Şərif. Həyatu İmam Əli bin Musa ər-Rza . Tarixsiz.
112. əl-Qürtubi Məhəmməd bin Əhməd. əl-Camiul-əhkamil-Quran. Beyrut, 1417/1996.
113. Əllamə İbn Mənzur. Lisanül-ərəb. Qum, 1405 h/q.
114. Əllamə İzəddin İbn Əsir. Üsdül-qabə fi mərifətis-səhabə. Tehran, İsmailian nəşriyyatı. Tarixsiz.
115. Əllamə Şeyx Məhəmməd Tahir bin Aşur. Təfsirüt-təhrir vət-tənvir. Darut-Tunisiyyə, 1973 və Tunis, 1373 h/q.
116. əl-Maliki Şeyx Nuriddin Əli bin Məhəmməd ibn Səbbağ. Füsulil-mühimmə. Çap yeri və ili yoxdur.
117. əl-Məclisi Əllamə Məhəmməd Baqir. Biharül-ənvar. Beyrut, I nəşri, 1412/1992.
118. əl-Məhzumi Mehdi. Mədrəsətül-Kufə. Beyrut, 1406/1986.
119. əl-Məkki Məhəmməd bin İshaq bin Abbas əl-Fəqihi. Mühəqqiq: Əbdülməlik bin Abdullah bin Dəhiş. Beyrut, Darül-Xızır, II nəşri, 1414/1994.
120. əl-Mərağı Şeyx Əhməd Mustafa. Təfsirül-Mərağı. Misir, 1385 h/1966 .
121. əl-Məsudi Əbülhəsən Əli bin Hüseyn. Murucüz-zəhəb və məadinil-cəvahir. Misir, 1384/1964 və Məadinül-Cəvahir. Qahirə, 1958 və Qum, 1409 h/q.
122. əl-Mövsuli Əbu Yəla. Müsnədu-Əbi Yəla. Dəməşq, Darül-Məmun. Tarixsiz.
123. əl-Müqəddəsi Arif əl-Arif. əl-Müfəssəl fi tarixil-Qüds. Müəssisətül-ərəbiyyə. Tarixsiz.
124. əl-Yaqubi Əhməd bin Əbi Yaqub bin Cəfər. Tarixi-Yaqubi. Tehran, 1371 h/ş.
125. ən-Nəmiri əl-Bəsri Ömər bin Şəbeh. Əxbarül-Mədinətil-Münəvvərə. Mühəqqiq: Abdullah bin Məhəmməd bin Əhməd əd-Dəviş. Darul-ülyan, I çap, 1411/1990.
126. ən-Nisaburi Əbu Abdullah Hakim. Müstədrək ələs-səhiheyn. Beyrut, Darül-mərifə. Tarixsiz.
127. ən-Nisaburi Müslim bin Həccac. Səhihül-Müslim. ər-Riyad, II nəşri, 1421/2000.
128. ən-Nisai Əhməd bin Şüeyb. Sünənün-Nəsai. I nəşri, 1424/2004.
129. ər-Rəbii Şeyx Əbduləzim. Siyasətül-Hüseyn. Rüşdiyyə mətbəəsi, 1378 h/q.
130. ər-Rihabüt-Tahirə. Mətbuətül-ərəbiyyi lit-tibaə, 1423 h/q.
131. əs-Sədr Seyid Məhəmməd. Məta yəzhərül-Məhdi . Beyrut, II nəşri, 1428/2007.
132. əs-Sicistani Əbu Davud Süleyman bin əl-Əşəs. Sünəni-Əbi Davud. I nəşri, 1424/2002.
133. əs-Süyuti Cəlaləddin. əd-Dürrul-mənsur. Beyrut, Darül-fikir, 1993.
134. əs-Süyuti Cəlaləddin. əd-Dürrül-mənsur. Misir, Mətbəətül-Yəməniyyə, 1314 h/q.
135. əs-Süyuti Cəlaləddin. Tarixul-xüləfa. Qahirə, 1969.
136. əş-Şafei Əbdurrəuf əl-Münavi. Feyzül-qədir fi şərhil-camiis-səğir. Misir, 1356 h/q.
137. əş-Şafei Əbi İshaq İbrahim əl-Həməvini. Fəraidüs-simteyn. Misir. Tarixsiz.
138. əş-Şafei Əbu Bəkr bin Şihabəddin əl-Xədrəmi. Rüşfətüs-Sadi. Misir, 1231 h/q.
139. əş-Şafei Əbu Bəkr Məhəmməd bin Həsən. Təfsirün-Nisaburi. Təbərinin Təfsirül-kəbir əsərinin haşiyəsində. Misir, 1321 h/q.
140. əş-Şafei Əllamə Əbu Abdullah Məhəmməd bin Yusif əl-Kənci. Kifayətüt-talib. ən-Nəcəfül-əşrəf, 1361 h/q.
141. əş-Şafei İbn Əsir. Üsdül-qabə fi mərifətis-səhabə. Qahirə, 1280 h/q.
142. əş-Şafei İbn Məğazili. Mənaqibu-Əli bin Əbi Talib. Misir, 1367 h/q və Tehran, 1394 h/ş.
143. əş-Şeybani Əhməd bin Hənbəl. Müsnəd. Daru-ehyai-türasil-ərəbi, 1414/1993.
144. əş-Şəhristani Hibətuddin. Nəhdatül-Hüseyn . Bağdad, 1345/1962.

145. əş-Şirazi Seyid Məhəmməd əl-Hüseyni. əş-Şiətu vət-təşəyyu. Küveyt, I nəşri. 1429/2008.
146. əş-Şirazi Seyid Sadiq. 110 ayə nəzələt fi həqqi Əliyyin . Beyrut, Müəssisətu fikril-İslami, I nəşri, 1423/2002.
147. ət-Təbərani Əbülqasim Süleyman bin Əhməd. əl-Möcəmül-kəbir. Beyrut, Mosul-Qahirə, 1404/1983.
148. ət-Təbəri Əbu Cəfər Məhəmməd bin Cərir. Camiül-bəyan fi təfsiril-Quran. Misir, 1321 h/q.
149. ət-Təbəri Əbu Cəfər Məhəmməd bin Cərir. Tarixül-üməm vəl-müluk. Beyrut, 1404/1987 və Beyrut, 1417/1997, Misir, 1357 h/q. və Leyden, 1879, Qahirə, Daru hicr, I çap, 1422/2001.
150. ət-Təbəri Əhməd bin Abdullah Mühibəddin. ər-Riyazün-Nüzrə. Misir, 1327 h/q.
151. ət-Təbərisi Əbu Əli Fəzl bin Həsən. Elamül-vəra bi əalamil-hüda. Qum, 1417/h/q.
152. ət-Təbərisi Əbu Mənsur Əhməd bin Əli bin Əbi Talib. əl-İhticac. Nəcəfül-əşrəf, 1386/1966.
153. ət-Təbərisi Fəzl bin Həsən. Məcməül-bəyan. Beyrut, 1418/1997.
154. ət-Təbərisi Mirzə Hüseyn Nuri. Mustədrəkül-vəsail. Beyrut, Müəssisətu Ali-Beyt, 1408/1987.
155. ət-Təhavi Əbu Cəfər Əhməd bin Məhəmməd. Muşkilül-asar. Heydərabad, 1333 h/q.
156. ət-Təmimi Məhəmməd Əli Cəfər. Məşhədül-İmam əv mədinətün-Nəcəf. Nəcəf, 1372/1953.
157. ət-Təyalisi Əbu Davud. Müsnədu-Əbi Davud ət-Təyalisi. Hindistan, 1321 h/q.
158. ət-Tirmizi əl-Kəşəfi Əllamə Mir Məhəmməd Salih. Mənaqibu-Mürtəzəvi. Hindistan, Bombey, 1269 h/q.
159. ət-Tirmizi Məhəmməd bin İsa. Sünənüt-Tirmizi. Dəməşq, I nəşri, 1424/2004.
160. ət-Tusi Əbu Cəfər Məhəmməd bin Həsən. Amalit-Tusi. Qum, 1414 h/q.
161. ət-Tusi Əbu Cəfər Məhəmməd bin Həsən. əl-Fihrist. Müəssisətu nəşril-İslami, 1417 h/q.
162. ət-Tusi Əbu Cəfər Məhəmməd bin Həsən. əl-İstibsar fi ma uxtulifə minəl-əxbar. Beyrut, I nəşri, 1429/2008.
163. ət-Tusi Əbu Cəfər Məhəmməd bin Həsən. Təhzibül-əhkam. Beyrut, I nəşri, 1429/2009.
164. əz-Zəhəbi Əbu Abdullah Şəmsəddin. Siyəru alamin-Nübəla. Beyrut, 1413/1993.
165. əz-Zəhəbi Əbu Abdullah Şəmsəddin. Təzkirətül-hüffaz. Daru ihyait-türasil-ərəbi. Tarixsiz.
166. əz-Zəməxşəri Carullah. Təfsirül-Kəşşaf. Beyrut, Darül-mərifə, III çap, 1430/2009.
167. Fəqihi Əli Əsgər. Tarixül-cami Qum. Qum, 1350 h/ş.
168. İbn Əbi Asim. əl-Ahad vəl-məsani. ər-Riyad, I nəşri, 1411/1991.
169. İbn Faris. əs-Sahibi fi fiqhil-lüğə. Qahirə, 1910.
170. İbn Hövqəl. Sirətül-ərz. Leiden, 1967.
171. İbn Hişam. əs-Sirətün-Nəbəviyyə. Qahirə, 1987.
172. İbn Xəldun. Tarixi-İbn Xəldun. Beyrut, 1971.
173. İbn Kəsir. Təfsirül-Quranil-Əzim. Beyrut, 1409/1989.
174. Malik bin Ənəs. əl-Müvətta. Mühəqqiq: Məhəmməd Fuad Əbdülbaqi. Daru-ehyayit-turasil-ərəbi, 1406/1985.
175. Məhbubə Cəfər Baqir Əli. Mazin-Nəcəf və haziruha. Beyrut, 1406/1986.
176. Muğniyə Məhəmməd Cavad. Fiqhu İmam Cəfəris-Sadiq . Qum, 1424 h/q.
177. Said Bəktaş. Fəzlül-Həcərül-əsvəd və Məqami-İbrahim və zikri tarixuhüma və əhkamihüməl-fiqhiyyə və ma yətəəlləq bihima. Tarixsiz.
178. Seyid Əbdürrəzzaq Ali Əbdülvəhhab. Tarixül-Kərbəla. Bağdad, 1353/h.
179. Səmhudi. Vəfaül-vəfa bi əxbari daril-Mustafa . Beyrut, 1374/1955 və Qahirə, 1326 h/q.
180. Şeyx Əbülqasim Məhəmməd bin Quləveyh. Kamilüz-ziyarat. Qum, III nəşri, 1424 h/q.
181. Şeyx Məhəmməd Xəzəri Bək. əd-Dövlətül-Abbasiyyə. Beyrut, 1406/1986.

Fars dilində:

182. Dehxuda Əli Əkbər. Lüğətnamə. Tehran, 1339 h/ş.
183. Movləvi Əbdülhəmid. Asitane Qüdsi Rəzəvi. Tehran, 1354 h/ş.
184. A.Mutəmən. Əbniyayi-Asitane Qüdsi Rəzəvi. Tehran, 1339 h/ş.
185. A.Mutəmən. Tarixi-Asitane Qüdsi Rəzəvi. Tehran, 1348 h/ş.

Internet resursları:

186. http://www.al-shia.org
187. https://az.wikipedia.org
188. www.mektebetu-nercis.com
189. www.quran.az
190. www.vakfeyya.com